# TARİX VƏ ONUN PROBLEMLƏRİ

4

BAKI - 2022

TARİX VƏ ONUN PROBLEMLƏRİ
4
BAKI
2022

*“Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır”.*

**Heydər ƏLİYEV**

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-099

HİSTORY AND İTS PROBLEMS ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ

NƏZƏRİ, ELMİ, METODİK JURNAL

ISSN 2708-0641 (print)
2708-065X (online)

4

ADİLOĞLU
BAKI – 2022

*Baş Redaktor -* **Əsməd İmammməmməd qızı Muxtarova -** *Bakı Dövlət Universiteti*
*Baş redaktorun müavini -* **İsmayıl Məhəmməd oğlu Məmmədov -** *Bakı Dövlət Universiteti*
*Məsul katib -* **Qabil Əli oğlu Əliyev -** *Bakı Dövlət Universiteti*

Redaksiya heyəti (əlifba sırası ilə)

**Axundova Nərgiz Çingiz qızı -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Andrzej L.Bonusiak -** *Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
**Barış Özdal -** *Bursa Uludağ Universiteti (Türkiyə)*
**Danish Miroslav -** *Bratislava Komenski Universiteti (Slovakiya)*
**Əliyeva Sevinc İsrafil qızı -** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**Əlizadə Hikmət Əbdül oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev İsmayıl Muxtar oğlu -** *AMEA Naxçıvan bölməsi*
**Hacıyev Sani Tofiq oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev Zeynəddin Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**Hatice Palaz Erdemir -** *Manisa Calal Bayar Universiteti (Türkiyə)*
**Hüseynova İradə Mehtiqulu qızı -** *Bakı Dövlət Universiteti*
**Hüseynova Lalə Cavid qızı -** *AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
**İsgəndərov Anar Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**İsmayılov Qüdrət Seyfulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Qasımlı Musa Cəfər oğlu -** *AMEA Qafqazşünaslıq İnstitutu*
**Quliyeva Nərgiz Məlik qızı -** *AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Kvitsiani John Jokiyevich -** *İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
**Mahmudov Yaqub Mikayıl oğlu -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Mamoulia Georges Quramovich -** *Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
**Mehdiyeva Nisbət Canməmməd qızı -** *Bakı Dövlət Universiteti*
**Mirabdullayev Adil Mirabdulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Mohammad Salmansızadeh -** *Təbriz Universiteti (İran)*
**Turichın İqor Victoroviç -** *Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
**Vəlixanlı Nailə Məmmədəli qızı -** *Azərbaycan tarx müzeyi*
**Yusifzadə Sevinc Ziya qızı -** *Bakı Dövlət Universiteti*
**Zeynalov İbrahim Xudaverdi oğlu -** *Bakı Dövlət Universiteti*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
*Redaksiya ilə əlaqə:* TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR** | |
| HƏSƏNOV Ə.H. | *Baş vəzir Hatəm bəy Ordubadinin həyat və fəaliyyətinin bəzi məsələləri* | 5-10 |
| | **YENİ DÖVR** | |
| MƏMMƏDOVA S. | *XIX əsr Azərbaycanda ictimai-fəlsəfi fikrin inkişafı* | 11-15 |
| ƏLİYEVA G.M. | *Azərbaycanın "Paqonlu maarifçilər"i. İsmayıl bəy Qutqaşınlı* | 16-22 |
| İSMAYILOVA S.A., MƏMMƏDLİ Ü. | *Gertruda Bell, Ərəbistanlı Lourens və Osmanlı tarixinin son dönəmi* | 23-28 |
| | **MÜASİR DÖVR** | |
| ŞAHVERDİYEV Ə., NƏBİYEV V. | *Saxta "Dağlıq Qarabağ mifi" və tarixi reallıq* | 29-37 |
| VEYİSOV A.H., ŞAHMAROVA D.İ., MEHDİYEVA H.Ş. | *Stalin rejiminin deportasiya siyasəti* | 38-42 |
| BALAYEV X. | *1950-ci illərdə Sovet Azərbaycanında milli dil məsələsi* | 43-47 |
| OSMANOV M.P. | *Azərbaycan diasporasının fəaliyyəti: mövcud vəziyyət və perspektivlər* | 48-52 |
| MƏMMƏDZADƏ G. | *İranın Yaxın Şərq siyasətində Hizbullahın rolu* | 53-58 |
| CƏFƏROV T. | *ABŞ-dakı erməni lobbi təşkilatları və maraq qruplarının formalaşması* | 59-63 |
| BABANLI Y. | *Azərbaycan diasporuna sistemli yanaşmanın nəzəri və praktiki əsasları* | 64-75 |
| QƏNİ-ZADƏ Ə. | *Müasir Azərbaycanın ordu quruculuğunda Ulu öndər Heydər Əliyevin rolu* | 76-86 |
| SADIQOVA P. | *Yaxın Şərqdə təhlükəsizlik kontekstində Türkiyənin Ərəb baharından sonra Liviyada baş verənlərə təsir imkanları* | 87-91 |
| ALLAHVERDİYEVA F. | *Modernləşməyə reaksiya olaraq siyasi İslamın təşəkkülü* | 92-96 |
| KƏRİMOVA S.Ə. | *Kipr probleminin SSRİ-Türkiyə münasibətlərinə təsiri (1953-1960)* | 97-102 |
| BƏŞİROVA G.H. | *XX əsrin sonunda Sumqayıt şəhərinin tarixindən* | 103-106 |
| QASIMOVA A. | *Türkdilli xalqların mədəni əlaqələrində TÜRKSOY-un rolunun praktiki təhlili* | 107-112 |
| ГАСАНОВА Г.Т. | *Информационная политика современных государств* | 113-118 |
| ABDULLAYEVA T. | *Seçkilərin keçirilməsində kütləvi informasiya vasitələrinin rolu: müasir tendensiyalar* | 119-125 |
| ABULOVA V. | *Azərbaycan Respublikasının milli və regional təhlükəsizlik siyasəti: son uğurlar və yeni çağırışlar* | 126-131 |
| АБАСОВА С. | *Туризм и культурная политика современного государства* | 132-136 |
| ƏHMƏDLİ Ü. | *Şərq Tərəfdaşlığı proqramının inteqrasiya sərhədləri* | 137-142 |
| HÜSEYNOVA K. | *Avropa İttifaqı -Türkiyə miqrasiya razılaşması* | 143-149 |
| BABAŞOVA S. | *Müasir dövrdə Çinin yumşaq güc siyasəti: problemlər və perspektivlər* | 150-153 |
| KHOLİDAH TAMAMİ | *Azərbaycanın Qlobal iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində alternativ enerji mənbələrindən istifadəyə keçidi* | 154-159 |

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA


| | | |
|---|---|---|
| DADAŞOV Ə.N. | *Azərbaycan ərazisində aşkar edilən qədim şum alətlərindən toxanın təsnifatı* | 160-164 |
| ИБРАГИМОВА Р.М. | *Из истории этнографического изучения Карабаха* | 165-170 |
| ƏHMƏDOVA V.Ş. | *Arxeoloji irsin mahiyyətinə dair* | 171-177 |
| YUSİFOVA D. | *Göygöl rayonunun antik və ilk orta əsrlər dövrü arxeoloji abidələrinin topoqrafiyası* | 178-182 |
| QASIMOVA N., MƏMMƏDOV İ. | *Kür-Araz bölgəsi üzrə etnotoponomik lüğətin hazırlanmasına dair* | 183-187 |
| BƏBİROVA V. | *Şabran rayonunda arxeoloji tədqiqatlar haqqında* | 188-193 |
| SADIQOVA İ., PİRQULİYEVA G. | *Azərbaycan arxeologiya elminin təşəkkülü tarixi materiallarda (XIX əsrin sonu – XX əsrin əvvəlləri)* | 194-198 |
| QOCAYEV N.İ. | *Qərbi Azərbaycanda toy adətləri* | 199-202 |
| NURUŞOVA G.Q. | *Ailə məişətində adət hüququ* | 203-210 |


## MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, DEMOQRAFİYA, METODİKA


| | | |
|---|---|---|
| ƏHMƏDOV H.O. | *XIX əsrdə Yelisavetpol (Gəncə) əhalisinin təhsil səvyyəsi və məşğuliyyəti* | 211-215 |
| AŞUROVA G. | *XIX əsrin sonlarında Yelizavetpol quberniyasının əhalisinin kameral təsviri və etnik tərkibi* | 216-219 |
| MƏMMƏDOVA Ş. | *İşğala qədərki dövrdə Qarabağ bölgəsinin demoqrafik vəziyyəti* | 220-224 |
| SƏDRƏDDİNOVA G. | *XIX əsrdə Şamaxıda əhalinin məşğuliyyəti* | 225-230 |


## YUBİLEYLƏR, XATİRƏLƏR


| | | |
|---|---|---|
| BƏHRAMOV C.Ə. | *Azərbaycanın yeni dövr tarixinin tanınmış tədqiqatçısı, görkəmli alim: Hacı Həsənov – 70* | 231-233 |

**UOT 94(479.24)**

**ƏRŞAD HƏSƏNOV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin baş müəllimi*
**arshadhasanov@bsu.edu.az**

# BAŞ VƏZİR HATƏM BƏY ORDUBADİNİN HƏYAT VƏ FƏALİYYƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİ

*Məqalə XVI əsrin sonu XVII əsrin əvvəlində Azərbaycan Səfəvi dövlətində baş vəzir (etimadüddövlə) vəzifəsini icra edən Azərbaycanın böyük dövlət və ictimai xadimi Hatəm bəy Ordubadinin həyat və fəaliyyətinin tədqiqinə həsr olunmuşdur. Hatəm bəy Ordubadinin gənclik illəri Ordubadda keçmiş, bir müddət Ordubadın kələntəri vəzifəsində çalışmış, sonra isə orduda xidmət etmişdir. Dövrünün mükəmməl təhsilini alan Hatəm bəy bir müddət sonra Şah I Abbas tərəfindən Səfəvi dövlətinin maliyyə sisteminin tənzimlənməsi tapşırığını almış, bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəldiyindən 1591-ci ildə şah tərəfindən baş vəzir (etimadüddövlə) vəzifəsinə təyin olunmuşdur. Hatəm bəy Ordubadi iyirmi il bu vəzifədə fəaliyyəti zamanı ona verilən bütün dövlət tapşırıqlarını qüsursuz yerinə yetirmişdir və 1610-cu ildə vəzifə başında vəfat etmişdir.*

*Açar sözlər:* Baş vəzir Hatəm bəy Ordubadi, Azərbaycan Səfəvi imperatorluğu, Şah I Abbas, etimadüddövlə, İsgəndər bəy Münşi Türkman.

***Giriş***. Orta əsr Azərbaycan dövlətlərinin, o cümlədən Azərbaycan Səfəvi imperatorlu-ğunun mərkəzi idarəetmə aparatı və əyalət idarəçiliyində vəzarət inistitutu əhəmiyyətli mövqeyə malik olmuşdur. Teokratik monarxiya idarə üsuluna malik olan Səfəvi imperatorluğunun mərkəzi idarə sistemi haqqında dövrun qaynaqlarında, xüsusilə səyyah gündəliklərində maraqlı məlumatlara təsadüf olunur. Fransız səyyahı J.B.Tavernye dövlət quruluşuna görə Səfəvi imperatorluğunu tipik monarxiya kimi xarakterizə edərək şah hakimiyyətinin qeyri-məhdud və irsi olduğunu vurğulamışdır (1, 569). XVII əsrin alman səfiri və səyyahı A.Oleari də Səfəvi dövlətinin idarə sisteminin Rusiya ilə oxşar olduğunu gösdərmişdir (2, 834).

Bütün orta əsrlər boyu Azərbaycan dövlətlərinin mərkəzi idarə sistemində mühüm mövqeyə malik vəzifələrdən biri vəzir mənsəbi olmuşdur. Əksər hallarda vəzir vəzifəsini icra edənlər qeyri-türklərdən (qaynaqlarda onlar bir qayda olaraq tacik kimi göstərilir-*Ə.H.*) ibarət olsalarda, bəzi vaxtlarda bu vəzifəni türk mənşəli məmurlarda icra edirdilər. Araşdırmalar göstərir ki, vəzirlər - müxtəlif xoca, bozorq, dəstur, etimadüddövlə və s. kimi titullar daşımışlar (3, 197).

Dövlətin inzibati-idarə aparatında ayrı-ayrı sahələrə nəzarət edən çoxsaylı divan təsisatı olduğu üçün, hər bir divanın fəaliyyətinə cavabdehlik daşıyan çoxlu vəzirlər ştatı da var idi. Azərbaycan Səfəvi imperatorluğunda da həm mərkəz, həm də əyalətdə fəaliyyət göstərən vəzirlər inistitutuna etimadüddövlə titulu daşıyan baş vəzir rəhbərlik edirdi. XVI əsrin sonlarına qədər Səfəvi dövlətinin idarə sistemində vəkil, sədr və s. kimi mənsəb sahibləri vəzirlərə nisbətən daha mötəbər mövqe tutsalar da Şah I Abbasın hakimiyyəti dövründən etibarən baş vəzir mərkəzi idarə sistemində hüquqi baxımdan şahdan sonra əsas söz sahibinə çevrilmişdi. Baş vəzir dövlət şurasının, yəni Ali məclisin 12 üzvindən biri olub onun iclaslarında əmir-i əzəm statusu ilə iştirak edirdi. Ali məclisdə son söz bilavasitə şaha məxsus olsada əslində iclası baş vəzir aparırdı. Dövlətin birinci şəxsinin “etimadüddövlə” adlandığını yazan J.B.Tavernye bu vəzifənin Osmanlı dövlətində ən böyük vəzir (vəzir-i əzəm) mənsəbinə uyğun olduğunu qeyd etmişdir. Səyyahın yazdığına əsasən etimadüddövlə ilə Osmanlı baş vəziri arasında fərq yalnız ondan ibarət idi ki, etimadüddövlə Səfəvi dövlətində qələm əhli olub bütün mülki və maliyyə məsələlərinə baxdığı halda, osmanlılarda vəzir-i əzəm şəmşir əhlinə məxsus olmuşdur (1, 572). A.Oleari baş vəziri dövlət kansleri və şahın məxfi işlər üzrə müşaviri adlandırmışdır (2, 892). XVII əsrin son rübündə Səfəvi ərazisində səfərdə olmuş alman səyyahı E.Kempferin məlumatına əsasən ali divanın başçısı olan baş vəzir şahın müavini, naibi sayılırdı. Səyyahın fikrincə, müqavilələrin təsdiqi və imzalanması, ölkə miqyasında qayda-qanunların icrasına nəzarət baş vəzirin səlahiyyətlərinə daxil idi və inzibati-ərazi vahidlərinin başçıları onun razılığı olmadan hər hansı bir

məsələni həll etmək hüququna malik deyildilər (4, 75-77). Səfəvi dövlətinin inzibati-idarə sistemi üzrə ən mötəbər mənbə hesab edilən Mirzə Səmianın "Təzkirət əl-müluk"un məlumatına görə, vergi və mükəlləfiyyətlərin qeydiyyatı, büdcənin mədaxil və məxaricinə nəzarət, məmurların məvaciblərinin verilməsi, maliyyə idarəsi ilə bağlı olan bütün digər məsələlər bilavasitə baş vəzirin səlahiyyətləri çərçivəsinə daxil idi. Hətta dövlət idarə orqanlarına məmurların təyinatı ilə bağlı verilmiş şah fərmanları belə baş vəzirin möhürü vurulmadan hüquqi qüvvəyə minə bilməzdi (5, 5-6). Onu da qeyd etmək lazımdır ki, orta əsrlərdə ali mənsəb sahiblərinin hüquq və vəzifələr çərçivəsi konkret müəyyən edilmədiyindən baş vəzir və digər vəzifə sahibləri bəzi hallarda öz səlahiyyətlərinə daxil olmayan məsələlərə də müdaxilə edə bilirdilər. Qeyd etmək lazımdır ki, baş vəzirin hüquq və səlahiyyətləri haqqında mənbələrdə olan məlumatları tədqiqatçı Z.Bayramlı ətraflı araşdırdığından bu haqda qısa məlumatla kifaətlənməyi məqsədə müvafiq hesab edirik (6, 137-142).

Şah I Abbasın hakimiyyəti dövründə (1587-1629) baş vəzir vəzifəsinə türk mənşəli məmurların təyinatı daha da genişlənməyə başlamışdı. Bu mənada 1591-1610-cu illərdə Səfəvi dövlətində etimadüddövlə vəzifəsini icra etmiş **Hatəm bəy Ordubadinin** həyat və fəaliyyəti böyük maraq doğurur. Dövrün qaynaqları içərisində Hatəm bəy Ordubadi haqqında İsgəndər bəy Münşi Türkmanın "Tarixe-alamarayi-Abbasi" əsərində daha geniş məlumatlara rast gəlmək mümkündür. Hatəm bəy Ordubadi XIII əsrin ensiklopedik bilim adamı və dövlət xadimi olan Nəsrəddin Tusinin nəslindən olub Ordubad şəhərində anadan olmuşdur. Doğum tarixi dəqiq bəlli olmasada onun uşaqlıq və gənclik illərini Ordubadda keçirməsi heç bir şübhə doğurmur (7, 1304). Atası Məlik Bəhram bir müddət Ordubadın kələntəri vəzifəsində çalışmış və Hatəm bəy o dövrün mükəmməl təhsilini almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdi. Atasının vəfatından sonra yaşının azlığına və təcrübəsizliyinə baxmayaraq Hatəm bəy Ordubadın kələntəri vəzifəsinə təyin olunaraq bir müddət bu vəzifəni icra etmişdi. İsgəndər bəy Türkmanın məlumatına əsasən, Hatəm bəy paxıl adamların iftira və basqılarına məruz qaldığından Ordubadın kələntəri vəzifəsindən istefa verərək orduda hərbi qulluğa başlamışdı (7, 1304-5). Hatəm bəy Ordubadinin hərbi xidmət dövrü haqqında qaynaqlarda hər hansı məlumata rast gəlinmir. Lakin onun bir müddət Xoy hakimi Dəli Budaq Rumlunun, sonra isə Vəli xan Əfşarın vəziri olması bəllidir (7, 1304-1305). İsgəndər bəy Türkman Hatəm bəyin Kirmanda fəaliyyətindən bəhs edərək yazırdı ki, Kirman darül-amanının işlərini yoluna qoymaq və Yusif xan Əfşarın fitnə-fəsadını dəf etməkdən ötrü Hatəm bəyi Fərhad xanla birlikdə ora göndərdilər. Hatəm bəy ona tapşırılan vəzifəni yüksək səviyyədə yerinə yetirib, Şirazda şahın hüzuruna çağırıldı və şahın əmri ilə altı ay ərzində məhrusə məmləkətinin (Allah tərəfindən qorunan dövlət - bu ifadə altında dövlətə məxsus torpaqlar nəzərdə tutulur-*Ə.H.*) vergilərinin tənzimlənməsi işləri ilə məşğul oldu. Bununla yanaşı Hatəm bəy ali divanın vəzarətinin işlərinə də cavabdehlik daşıyırdı (7, 1310). Öz bilik və bacarığı, qabiliyyəti, ədaləti və xoş rəfdarına görə diqqət mərkəzinə düşən Hatəm bəy vəzifə pilləsində sürətlə yüksəlməyə başladı. Şah I Abbas onun bilik və bacarığını, xidmətlərini nəzərə alaraq İsfahana dəvət edərək əvvəlcə dövlətin vergi siyasətinə nəzarət səlahiyyətlərini ona həvalə etmiş, 1591-ci ildə isə baş vəzir vəzifəsinə təyin etmişdi. İsgəndər bəyin yazdığına əsasən, Şah I Abbas baş vəziri Mirzə Lütfullahdan oğlunun nalayiq hərəkətlərinə görə incidiyi üçün onu vəzirlikdən kənar edib, ağıllı, tədbirli, əxlaqlı və müstovfiilməmalik olan Hatəm bəy Ordubadini həmin yüksək mənsəbə təyin etdi və o etimadüddövlə ləqəbinə layiq görüldü (8, 824).

Bir çox səfərlərində Hatəm bəyi müşayət etmiş və onun iltifatını qazanmış İsgəndər bəy Münşi baş vəzir haqqında ağız dolusu danışaraq yazır: "Hatəm bəy yüksək rütbəli dövlət xadimi olub təmiz əxlaqlı, nəfsi tox, xalqın yaxşılığını istəyən adam idi və qabiliyyəti, işgüzarlığı ilə məhşur olduğundan ali divanın vəziri rütbəsi ilə şərəflənərək, iyirmi ilədək divanın vəziri kimi cahan işlərinin tənzimlənməsi ilə məşğul olmuş, onları nizama salmışdı... Onun dürlər səpən ilhamı heç kəsin istəyini ürəyində qoymurdu, səadətli divanı, padişahın razılığı ilə bütün məmləkət işlərini nizamlayırdı. Camaatın hər işi onun ağlı və bacarığı sayəsində yüksək səviyyədə yerinə yetirilirdi. İşlədiyi müddətdə kobudluğa yol vermirdi, Süleyman mənzilli o Asəf hətta bir qarışqanı belə incitməmişdir" (7, 1304).

Hatəm bəy öz doğma yurdu, ata-baba mülkünün yerləşdiyi Ordubaddan da qayğısını əsirgəməmiş, onun inkişafına bacardığı qədər səy göstərmişdi. Baş vəzir təyin olunduqdan sonra Hatəm bəy şahın icazəsi və İsgəndər bəyin də müşayəti ilə Ordubada gəlmiş, ata-baba yurdunun abadlığı naminə

xeyli işlər görmüş, burada ehtiyacı olan insanlara yardımını əsirgəməmişdi. İsgəndər bəy Hatəm bəyin Ordubaddakı fəaliyyətinə geniş yer verərək yazır ki, Hatəm bəy əcdadının cənnət kimi gözəl evinə gəldi. Əhali onu böyük sevinc və ehtiramla qarşıladı. Hatəm bəy Ordubadın butun təbəqədən olan adamlarına - əyanlara, ağsaqqalara, həmçinin zəka və sənət sahiblərinə də gözəl töhfələt verdi, yoxsullara, dərvişlərə, ehtiyaclı qadınlara hədiyyələr əta elədi (7, 1362). Ordubadda olduğu müddətdə Hatəm bəy ata-baba mülkünü abadlaşdırmış, hündür dağlardan su çəkmiş və Nəzərə dağında fəvvarə yaratmış, dağın sahilində hər tərəfində eyvanı olan səkkiz bucaqlı bir imarət inşa etmiş və imarətin yuxarı hissəsində hovuz düzəldilmişdi (7, 1362).

Baş vəzirin əsas vəzifəsi dövlətin mülki-maliyyə siyasətinə nəzarət olsa da Hatəm bəy dövlət əhəmiyyətli hərbi-siyasi proseslərdən də kənarda qalmamış, şahın göstərişi ilə bir sıra mühüm siyasi və hərbi missiyaların öhdəsindənd də məharətlə gəlməyi bacarmışdı. Belə ki, Şah I Abbasın Xorasan yürüşündə və 1603-1612-ci illərdə baş vermiş Səfəvi-Osmanlı müharibəsi dövründə Hatəm bəy Ordubadi hərbi əməliyyat bölgələrində siyasi və hərbi fəallığı ilə seçilmişdi. İsgəndər bəy Münşi 1602 ci ilin iyun hadisələrindən bəhs edərək yazır ki: “Etimadüddövlə Hatəm bəy Vəzirin ağrəq ordusu və ləşkərin qalan hissəsi Baxərz kəhrizinə çatanda Şahverdi bəy Bayburdlu şah tərəfindən gələrək fəth və zəfər müjdəsi gətirdi (özbək qoşunu üzərindəki qələbə- *Ə.H.*) Onlar hamılıqla yollanıb Heratın Sərxiyabanına çataraq, bir-birinə birləşdilər (8, 1051). Hatəm bəy Ordubadi Şah I Abbasın göstərişi ilə Luristan və Ərəbistanda da baş vermiş qarışıqlığı Səfəvi dövlətinin maraqları əsasında həll etmişdi. İsgəndər bəy Münşinin yazdığına əsasən, Fərhad xan və etimadüddövlə Hatəm bəy şah tərəfindən Ərəbistana göndərilmişdilər. Onlar burada hakim olan Şahverdi xanın dövlətə qarşı olan əməllərini qaydasına qoymalı idilər. Nəticədə Şahverdi xan öldürülmüş, İsgəndər bəyin təbirincə desək Ərəbistan məsələsi tam həll edilmişdi. “Məcazi Abbasilərin Luristan hakimiyyəti bitdi, həqiqi Abbasilərin, yəni əlahəzrət zillələllah şaha tabe olanların müstəqil hakimiyyəti yarandı” (8, 994).

Şah I Abbasın Azərbaycan torpaqlarını Osmanlı işğalından qurtarmaq üçün planlarından bəhs edən İsgəndər bəy Münşi yazır ki, Şah I Abbas irsi mülkləri olan Azərbaycanı fəth etmək və düşmənləri (Osmanlıları-*Ə.H.*) cəzalandırmaq üçün 1603-cü ilin sentyabrında İsfahandan çıxaraq səfərə başlayır. Bu məlumat çox məxfi saxlanılırdı və Şah Abbasdan başqa yalnız dörd dövlət xadiminin bu məsələdən xəbəri var idi ki, bunlardan biri də Hatəm bəy Ordubadi olmuşdur (7, 1160-1161).

Məlum olduğu kimi, XVII əsrin əvvəllərində Cəlalilər hərəkatının yeni bir dalğası baş qaldırmış və bu hərəkat Osmanlı hüdudlarını aşaraq Səfəvi ərazisinə, o cümlədən tarixi Azərbaycan torpaqlarına da yayılmışdı. Cəlalilər hərəkatının yayılma arealına toxunan XVII əsr erməni salnaməçisi Təbrizli Arakel yazır ki, bu hərəkat Konistantinopoldan İrəvana, Bağdadan Dəmirqapıya, Ağ dənizdən Qara dənizə qədər ərazilərə sirayət etmişdi (9, 95-96). Şah I Abbas Cəlalilər hərəkatına münasibətdə ehtiyatlı siyasət yürütməyə qərar vermiş, onlara tam etimad göstərməsə də bu hərəkatdan Osmanlı dövlətinə qarşı istifadə etməyi də məqsədə müvafiq saymışdı (10, 191). Azərbaycan torpaqlarına daxil olmuş Cəlalilər hərəkatının bir qismi ilə əlaqə yaratmaq, onlarla danışıqlar aparmaq missiyasını Şah I Abbas məhz Hatəm bəy Ordubadiyə həvalə etmişdi. İsgəndər bəy Münşi Cəlali hərəkatının rəhbərlərindən olan Dəli Həsənin davamçısı Canfuladın Hələb, Qaraqaşın Ərzurum, Canfuladın oğlunun Van bölgəsində Osmanlı məmurlarına qarşı mübarizəsini təsvir etdikdən sonra yazır ki, cəlalilərlə Osmanlı Murad paşa arasında 1608-ci ildə baş vermiş həlledici döyüşdə məğlub olan cəlalilər Ərzurumu tərk edərək Səfəvi ərazisinə keçmişdilər (11, 113). Azərbaycan sərhədlərini keçən cəlalilər Məhəmməd paşa Kələndər oğlu başda olmaqla Çuxur-Səəd bəylərbəyi Əmirgünə xan Qacara müraciət edərək Səfəvi şahına xidmət istəyini bildirmiş, cəlali başçılarından Hüseyin Əzmədet adlı birisi isə danışıqlar aparmaq üçün İsfahana şah sarayına göndərilmişdi. Çuxur-Səəd ərazisinə daxil olan cəlali dəstələrini Əmirgünə xan ehtiramla qəbul etmiş, Üçkilsə yaxənləğənda onlar üçün yer ayırmış, 2-3 min dəstəlik cəlalilərə ziyafət vermiş, onların 300 nəfərini qonaq kimi öz evinə aparmışdı (7, 1390; 10,193).

Şah I Abbasın göstərişi ilə Azərbaycana pənah gətirmiş cəlalilərin qəbulu, yerləşdirilməsi, təminatına ümumi rəhbərlik baş vəzir Hatəm bəyə tapşırıldığından, Hatəm bəy qorçular, qülamlar və Zəncan hakimi Ağa Sultan Müqəddəmlə birlikdə Həmədanda şahın düşərgəsindən ayrılaraq Təbrizə gəldi. Azərbaycan vəziri Xacə Məhəmməd Rza, Təbriz hakimi Budaq xan Hatəm bəyin hüzuruna

gəldikdən sonra Cəlali hərəkatının rəhbərləri Məhəmməd paşa, Təvilin qardaşı, Qara Səid və başqa sərdarlarla görüş baş tutdu. Katiblər cəlalilərin ehtiyaclarını təmin etmək üçün onları siyahıya almağa başladılar. Əvvəl gəlib çatanlardan başqa 13605 nəfər cəlali siyahıya alındı ki, onların on min nəfəri savaşa yararlı, qalanları isə xidmətçilərdən ibarət idilər (7, 1392). Hatəm bəy Ordubadinin göstərişi ilə dövlət xəzinəsindən cəlalilərin təminatı üçün 12000 tümən nağd pul, 12000 baş qoyun, 20000 xalvar taxıl ayrılmış və onlar üçün qışlaq yerləri müəyyənləşdirilmişdi (7, 1390; 11, 113-114). Qeyd etmək lazımdır ki, Hatəm bəyin bu səfərində İsgəndər bəy Münşi də şəxsən iştirak etdiyi üçün onun cəlalilərlə görüşü və danışıqlarını bütün təfərrüratları ilə təsvir etmişdir. İsgəndər bəy yazır ki, ziyafətdən sonra cəlali süvariləri ilə paşanın mülazimləri sərxoş halda dalaşaraq bir-birilərini yaraladılar. Daha böyük qəzanın baş verməsinin qarşısını almaq üçün bundan xəbər tutan Hatəm bəy dərhal qorxmadan yeddi-səkkiz mülazimi ilə birlikdə ata süvar olub o iki sərxoş dəstənin arasına girdi, bəzilərini məzəmmət, bəzilərini isə kötəkləməklə bu qarşıdurmanı sakitləşdirdi (7,1396). Bundan sonra Hatəm bəy cəlalilərin rəhbəri Məhəmməd paşa Kələndəroğlu və onu müşayət edən 500 nəfərlik dəstə ilə birlikdə İsfahana qayıtdı. İsfahana gələn cəlali hərəkatının Şah I Abbas Dövlətabadda Nəqşe-cahan sarayında qəbul edərək onlara xüsusi nəvaziş göstərmişdi (7, 1397). Ə.Rəhmaninin fikrinə görə Şah I Abbas cəlali dəstələri ilə birlikdə Həsən xan Ustaclı başda olmaqla Səfəvi ordusunu Anadolununun şərqindəki qiyamçı kürdlərə qarşı savaşa göndərmək istəyirdi. Plana əsasən onlar Marağa istiqamətindən hərəkətə keçərək Osmanlı ərazilərinin içərilərinə Diyarbəkrə qədər irəliləyərək, burada Çuxur-Səəd hakimi Əmirgünə xanın iki minlik xüsusi ordusu ilə birləşdikdən sonra Ərzurum vilayətində hərbi əməliyyatlara başlamalı idilər. Müəllif belə hesab edir ki, bu planın həyata keçməsinə Əmir xan başda olmaqla Bəradust kürd tayfalarının qiyam qaldırması imkan verməmişdi (11, 115) Bu böyük plan baş tutmasa da 1609-1610-cu illərdə Əmirgünə xan Qacar Şah I Abbasın yardım üçün göndərdiyi Qara Səid və Ağacan Birinin rəhbərliyi altında olan 2000 nəfərlik cəlalilərlə, həmçinin Təbriz bəylərbəyi Pirbudaq xan, Qarabağ bəylərbəyi Məhəmməd xan Qacar və Marağadan gələn cəlalilərlə birləşərək gürcü vilayətlərini qarət etmişdilər (7, 1415; 10, 194). Araşdırmalar göstərir ki, cəlali quplaşmaları bir müddət Səfəvilərə xidmət göstətsələr də Şah I Abbasın siyasətindən narazı qaldıqları üçün 1610-cu ildə Səfəvi ərazisini tərk etmişdilər. Doğrudur, cəlalilərin 500 nəfərlik bir dəstəsi Şah I Abbasa sadiq qalqraq ona xidməti davam etdirmişdilər (12, 58) göründüyü kimi, Hatəm bəy Ordubadi Cəlalilər hərəkatının rəhbərləri ilə danışıqların aparılmasında və onların bir müddət Səfəvi sarayına xidmət göstərməsində böyük səy göstərmişdi.

İsgəndər bəy Münşinin məlumatları göstərir ki, Hatəm bəy Ordubadinin Səfəvi dövləti qarşısındakı son mühüm xidmətlərindən biri də Əmir xan başda olmaqla Bərədust kürd tayfalarının üsyanının yatırılması olmuşdu. Salnaməçinin məlumatına görə, Əmir xan Bəradust Şah Abbas Naxcıvan və İrəvana yürüş edərkən (1603-1604) onun hüzuruna gələrək şahsevənlik və sədaqət izhar etdiyi üçün şah ona xan titulu verməklə yanaşı Tərkür, Mərkür ölkələri ilə bərabər Azərbaycan bəylərbəyliyinə aid olan Urmu və Uşnu ölkələrini də onun idarəsinə vermişdi. Lakin Cilaloğlu Sinan paşa Təbrizə hücum edən zaman Əmir xan qızılbaş ordusuna köməyə gəlməmişdi (7, 1422). Cilaloğlunun məğlubiyyətindən sonra Əmir xan yenidən şaha sədaqət bildirmiş, sonra isə Urmiyada qədim Dəmdəm qalasının yerində yeni bir qala tikməyə razılıq almışdı. Təbriz bəylərbəyi Pirbudaq xan, Əmir xanın bu əməlini üsyan kimi qiymətləndirərək şah sarayından müvafiq tədbir görülməsini xahiş etmişdi. Həmçinin Əmir xan Pirbudaq xanın göndərdiyi elçini qətlə yetirərək açıq çəkildə itaətsizlik göstərərək, qiyam yolunu tutmuşdu (7, 1424-1425). Ərdəbil yaxınlığında olarkən bu məlumatı alan Şah I Abbas bu məsələnin həllini Hatəm bəyə həvalə etmişdi. İsgəndər bəy Münşi yazır ki, Şah I Abbas bu məsələnin həllini Hatəm bəy Ordubadiyə tapşırıq vermişdi ki, Əmir xanın hərəkətləri araşdırılsın, əgər onun qiyam etməsi sübut olunmazsa, ona etimad göstərilsin, yox əgər qiyam təsdiqlənərsə cəzalandırılsın (7, 1428). Hatəm bəy Təbriz hakimi Pirbudaq xan, topçubaşı Bərxudar bəy Ənis, habelə Xorasan, Təbriz və Bafqi tüfəngçiləri ilə Urmiyaya gələrək Əmir xanla danışıqlar apardı. Əmir xanın müxtəlif bəhanələr gətirərək etimadəddövlənin hüzuruna gəlməməsini dövlətin nüfuzuna və etimadına zərbə kimi qiymətləndirən Hatəm bəy Ordubadi və qızılbaş əmirləri Dəmdəm qalasına hücuma başlamağa məcbur oldular. Hadisələrin iştirakçısı olan İsgəndər bəy Münşi Dəmdəm qalasına hücumu bütün təfərrüratları ilə təsvir edərək yazır ki, qalanın təslim edilməsi ərəfəsində

Hatəm bəy Ordubadinin qəflətən vəfat etməsi vəziyyəti dəyişdi (7, 1484). Əmir xanın başçılıq etdiyi kürdlərin qiyamı Hatəm bəy Ordubadnin vəfatından sonra yatırıldı. Əmir xan və onun yaxınları qətlə yetirildi, şah tərəfindən təyin olunan yeni Urmiya hakimi Dəmdəm qalasını bərpa etdirməyə başladı (11, 116). Hatəm bəy Ordubadinin cənazəsi böyük ehtiramla Urmiyadan Təbrizə, oradan da müqəddəs Məşhəd şəhərinə aparılaraq elə onun özü tərəfindən təmir edilən Həzrəti imam Rzanın türbəsi yaxınlığında dəfn edildi (7, 1484).

***Nəticə***. Beləliklə, 1591-ci ildən etibarən 1610-cu il mayın 28-nə qədər Şərqin nəhəng imperatorluğunda baş vəzir vəzifəsini yerinə yetirən Azərbaycan xalqının böyük dövlət, ictimai və siyasi xadimi özünün ədaləti, bacarığı, işgüzarlığı ilə məhşur olan Hatəm bəy Ordubadinin həyat yolu başa çatmış oldu. Hatəm bəyin vəfatından sonra Şah I Abbasın onun oğlu Əbu Talib Mirzəni vəzir təyin etməsi heç də təsadüfi olmamışdı. Bu təbbi ki, Əbu Talib Mirzənin öz bacarığı və qabiliyyəti ilə yanaşı, həm də atası Hatəm bəyə olan böyük hörmət və ehtiramın bariz təzahüründən irəli gəlirdi.

## ƏDƏBİYYAT

1. Jan Batist Tavernye. Səfərname-yi Tavernye. Tərcümeyi-ye Əbuturab Nuri. İsfahan, "Çapxane-ye Pərvin", h.1336, 719 s.
2. Адам Олеарий. Подробное описание путешествия в Голштинского посольства в Московию и Персию в 1633, 1634 и 1639 годах. Составленной секретарем посольство Адама Олеарием, пер. с немец. П.Барсова, М.: «Университетская типография», 1870, 1033 с.
3. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007, 312 s.
4. Engelbert Kempfer. Dər dərbaqe Şahənşahe İran. Tərcome-ye Keykavus Cahandari. Enteşarate Daneşgah, Tehran, h. 1350, 719 s.
5. Mirzə Səmia. Təzkirəti əl-müluk. Be kuşeşe Səid Məhəmməd Dəbirsiyaqi. Enteşarete Əmir Kəbir, Tehran, h. 1368, 140 s.
6. Bayramlı Z. Azərbaycan Səfəvi imperatorluğu: dövlət quruluşu. Bakı, "Füyuzat" nəşriyyatı, 2020, 596 s.
7. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi(Tarixe-aləmaraye-Abbasi). I kitab. Fars dilindən çevirən: Şahin Fərzəliyev (Şahin Fazil) Bakı, "Şərq-Qərb", 2010, 1144 s.
8. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi(Tarixe-aləmaraye-Abbasi). II kitab. Fars dilindən çevirən: Şahin Fərzəliyev (Şahin Fazil) Bakı, "Şərq-Qərb", 2014, 1400 s.
9. Даврижеци Аракел. Книга историй. Пер. с армянского, предсловие комментарий Л.А.Ханларяна. М.: Из-во «Наука», 1973, 623 с.
10. Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti. "Mingəçevir Poliqrafiya müəssisəsi" MMC. 2019, 542 s.
11. Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку, Из-во АН Азерб. ССР, 1960, 191 с.
12. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв. (1590–1700 гг.). Баку, Элм, 1981, 237с.

**АРШАД ГАСАНОВ**
*Доктор философии по истории,*
*старший преподаватель Бакинского Государственного Университета*

## К НЕКОТОРЫМ ВОПРОСАМ ЖИЗНИ И ДЕЯТЕЛЬНОСТИ ГЛАВНОГО ВИЗИРЯ ХАТЕМ БЕКА ОРДУБАДИ

Статья посвящена исследованию жизни и деятельности выдающегося государственного и общественного деятеля, главного визиря (етимад-уд-довле) Азербайджанского государства Сефевидов в конце XVI - начале XVII вв. Хатем бека Ордубади. Годы молодости Хатем бека Ордубади прошли в Ордубаде, некоторое время он являлся калантаром Ордубада, а затем отслужил в армии. Спустя некоторое время Хатем бек, получивший прекрасное для своего

времени образование, получил от шаха Аббаса I поручение отрегулировать финансовую систему Сефевидского государства, а после того, как великолепно справился с этой задачей, в 1591 году был назначен шахом на должность главного визиря. Будучи на этой важнейшей и ответственной должности, Хатем бек Ордубади вплоть до своей смерти в 1610 году на протяжении 20 лет безупречно выполнял возложенные на него государственные задания.

*Ключевые слова:* Хатем бек Ордубади, Азербайджанское государство Сефевидов, шах Аббас I, етимад-уд-довле, Искандер бек Мюнши Туркман.

**ERSHAD HASANOV**
*PhD in History, Senior Lecturer, Baku State University*

## GRAND VİZİER HATAM BEY ORDUBADİ: THE MAİN ISSUES OF THE LİFE AND ACTİVİTY

This research is devote to the life and activity of the great statesman and public figure of Azerbaijan Hatam Bey Ordubadi, the Grand Vizier (Etimad-ud-douleh) of the Azerbaijan Safavids at the end of the XVI and beginning of the XVII centuries. Hatam Bey spent his younger years in Ordubad, even was its Kalantar and later served in the army. Further, as a well-educated person of his time, Hatam Bey was appointed to regulate financial system of the state by Shah Abbas I and after fulfilling this task with the great success, shah promoted him up to the rank of Grand Vizier (Etimad-ud-douleh) in 1591. Hatam Bey Ordubadi served in this position twenty years and died in that position.

*Keywords:* Grand Vizier Hatam Bey Ordubadi, Safavid Empire of Azerbaijan, Shah Abbas I, Iskandar Bey Munshi Tukiman.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 okttyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**SEVİNC MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universitetinin nəzdində*
*Sumqayıt Dövlət Texniki Kollecinin ictimai elmlər və*
*tarix fənn birləşməsinin müəllimi*
**TarixVeOnunProblemleri@gmail.com**

# XIX ƏSR AZƏRBAYCANDA İCTİMAİ-FƏLSƏFİ FİKRİN İNKİŞAFI

*XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda sosial-tarixi inkişaf müxtəlif ziddiyyətli meyllərdən ibarət olan bir dövr idi. Bütün bu proseslər Azərbaycanın elmi-fəlsəfi fikrinin inkişafına da öz təsirini göstərmişdi. Bu dövrdə gec də olsa Azərbaycanda maarifçilik zəminli ictimai-siyasi təlimlər yaranmış M.Nəvvab, İ.Qutqaşınlı, A.A.Bakıxanov, M.F.Axundov kimi maarifçı mütəffəkirlər özlərinin maarifçilik ideyalarını, fəlsəfi-etik və materialist təlimlərini irəli sürmüşdülər.*

*Açar sözlər:* Maarifçilik, ictimai fikir, fəlsəfi ideya, inqilabi demokratik, xalq, mütəfəkkir, mədəniyyət, inkişaf.

***Giriş.*** XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Azərbaycanda da maarifçilik ideyaları təşəkkül tapmağa başlamışdır. Bu, yeni təhsil sisteminin, dünyəvi teatrxn, milli mətbuam təşəkkülü dövrü idi. Bütün bu dəyişikliklər Azərbaycanm ictimai fikrinə çox güclü təsir göstərmişdir. Həmin dövrdə ictimai fikrin əsas problemləri milli və sosial tərəqqi yolları idi. Bəzi mütəfəkkirlər bu tərəqqi yolunu cəmiyyətin islamlaşdırılmasmda görürdü. Onlar 1879-cu ildən nəşr edilən "Ziya" ("Nur") qəzetinin ətrafmda qruplaşmışdılar. Sonralar həmin qəzetin adı dəyişdirilərək "Ziyayi-Qafqaziyyə" ("Qafqaz nuru") adlandırılmışdır. Maarifçi-realist ədəbiyyat yaranırdı. Onun başlıca istiqaməti geriliyə, despotizmə və dini fanatizmə qarşı mübarizə idi. Bununla yanaşı həmin dövrün ədəbiyyatı maarifçi və demokratik ideyaların tribunası rolunu oynayırdı. Azərbaycanda maarifçilik qərb ölkələrinə nisbətən bir qədər gec baş vermişdir (XIX əsrin ortalarında). Bu onunla izah edilir ki, Azərbaycan tarixən o qədər də güclü inkişaf etməmişdi. Buna görə də maarifçiliyin yaranmasım hazırlayan şərait burada xeyli gec yetişmişdi. Məhz həmin dövrdə Azərbaycanda feodalizm quruluşuna, sxolastikaya və cəhalətə qarşı, tərəqqi, elm və maarif uğrunda mübarizə geniş yer tuturdu. Rus çarizminin yeritdiyi müstəmləkə siyasətinə baxmayaraq şimali Azərbaycanda rus ictimai fikrinin müsbət təsiri baş verməkdə idi. Rusiya ilə tanışlıq Azərbaycanın qabaqcıl ziyalılarının Avropa mədəniyyəti nümunələrinə qovuşması üçün mühüm vasitə rolunu oynayırdı. Beləliklə Azərbaycanda maarifçiliyin formalaşmasında Rusiyanın və Avropanın mütərəqqi fikri böyük rol oynamışdır. Lakin burada maarifçilik sırf milli zəmində, ölkənin ictimai inkişafının zəruri tələbatı kimi yaranmışdı. Bunu ondan görmək olar ki, hətta rus və Avropa mədəniyyətindən gələn ideyaların özü də burada milli gerçəklik prizmasından keçərək, özünəməxsus tərzdə təzahür edirdi. Başqa ölkələrdə olduğu kimi Azərbaycanda da maarifçilik fəlsəfəsi ümumdemokratik ideologiya fonunda təşəkkül tapmışdır. Bu ideologiya uzun müddət (XIX əsrin II yarısından başlayaraq XX əsrin əvvəlləri də daxil olmaqla) xalqın ictimıai şüuruna, onun bütün tərəflərinə dəyişdirici təsir göstərmişdi. Bu fəlsəfə əsasən aşağıdakı problemləri müzakirə edirdi: feodal-təhkimçilik qaydalarının və onların mənəvi dayağı olan islamın tənqidi; köhnə təlim və təhsil sisteminin ifşası; dünyavi təhsilin, elmi biliklərin və qabaqcıl mədəniyyətin təbliği; şəxsi azadlığın, hüquq bərabərliyinin və insan ləyaqətinin qorunması. Azərbaycanda maarifçiliyin XIX əsrin 60-70-ci illərində yaranması heç də 0 demək deyildir ki", bu vaxta qədər xalqımızın ictimai fikrində maarifçilik və humanizm təbliğ edən fikirlər olmamışdır. Əsimdə belə fikirlər çox əvvəllərdə Müsəlman renessansı dövründən (XII əsrdən) başlayaraq özünü göstərmişdir. Məhz dərin tarixi köklərə malik olması üzündən burada maarifçilik spesifik milli hadisə kimi formalaşıb inkişaf etmişdir. Azərbaycan maarifçiliyi bir sıra özünəməxsus cəhətlərə malikdir. Hər şeydən əvvəl, onun yarandığı dövrdə kapitalist münasibətləri zəif inkişaf etmişdi. Buna görə də Azərbaycan maarifçiləri ümumi şəkildə təhkimçiliyə qarşı çıxış edir, hamıya bərabərlik gətirəcək cəmiyyət təbliğ edirdilər. Başqa sözlə deyilsə, onların dəqiq nəzəriyyələri və aydın ideoloji mübarizə proqramları demək olar ki, yox idi. Ölkənin tarixi geriliyi, çarizmin müstəmləkə siyasəti üzündən Azərbaycan maarifçiləri (xüsusən də XIX əsr-

də) konkret siyasi və iqtisadi vəzifələr irəli sürən yetkin ideoloji sistem səviyyəsinə yüksəlməmişdi. İkinci, Azərbaycanda maarifçilik fikirləri daha çox bədii vasitələr ilə ifadə olunurdu (ədəbiyyat, sosial satira, ədəbi-tənqidi resenziya, publisistik yazılar və sair). Maarifçilərin sosial-tənqidi fikirləri yeni ədəbi metod olan realizmin fonnalaşmasına güclü təsir göstərirdi. Bədii ədəbiyyat ilə yanaşı şifahi xalq ədəbiyyatı da maarifçiliyin əsas inkişaf forması kimi çıxış edirdi. Üçüncü, Azərbaycan maarifçiliyinin inqilabi-demokratik ideologiyaya münasibəti də özünəməxsus olmuşdur. Belə ki. 89 maarifçilik inqilabi demokratik ideologiyadan əvvəl yaransa da, bir çox hallarda onunla yanaşı fəaliyyət göstərmişdir. Bu o deməkdir ki, maarifçiliyi təmsil edən bəzi publisist, şair və yazıçılar sonradan inqilabi-demokratik pilləyə qalxmışdır. Digər tərəfdən öz fəaliyyətinin lap əvvəlindən inqilabçı demokrat kimi çıxış edən ictimai xadimlər də maarifçilik ideyalarından tam əl çəkməmişdilər. Deməli, burada maarifçilik ilə inqilabi demokratizm arasında keçilməz sədd mövcud olmamışdır. Bu iki tərəf arasında əsas fərq onların baxışlarının məzmunundan daha çox öz ideyalarını həyata keçirmə vasitələri baxımından özünü göstərmişdir.

Ölkənin milli və sosial dirçəlişi məsələlərini dərk və ifadə etməyə ilk dəfə cəhd göstərən Abbasqulu ağa Bakıxanov (1794-1847-ci illər) olmuşdur. O, tərəqqinin yeganə yolunu elmdə və maarifdə görür, Avropada inkişaf etmiş təbiət elmlərinin öyrənilməsini zəruri hesab edir, ictimai elmlərə, xüsusən tarix və fəlsəfəyə də böyiik əhəmiyyət verirdi. A.Bakıxanovun şah əsəri olan "Gülüstani-Irəm" Azərbaycan tarixinə, "Kainahn sirləri", "Zövqlərin yaxşılaşdırılması" adlı əsərləri isə fəlsəfə və etika məsələlərinə həsr edilmişdir. Bu əsərlərin sonuncusunda müəllif bütün hadisələrin səbəbiyyətlə şərtləndiyini bildirir, təbiətdə müəyyən qanunauyğunluq görür: "Baş verənlərin hamısı təbiətin ümumi qanunlanrun nəticəsidir". A.Bakıxanov islam ənənələrinə sadiqlik məsələsinə böyük əhəmiyyət verir, lakin o, artıq yeni tərzdə düşünür, tərəqqi yolu axtanşlarında Avropaya istiqamətlənir, mənəvi kamilliyə çatmaq üçün maarifi, dünyəvi təhsili və elmi zəruri hesab edirdi. Bu mənada o, Azərbaycanda maarifçiliyin banisi hesab edilə bilər. Qnun siyasi-hüquqi baxışları da maarifçilik ideyalarma əsaslanır (1, s.198). Maarifçilik fikirləri əsasən aşağıdakı əsərlərində ifadə olunmuşdur; "Kəşf əl- Qəraib" (Qəribə kəşf), "Əsrar əl-Məlaküt", (Səma çarlığının sirləri), "Təhzibül- əxlaq" (Əxlaq tərbiyəsi) və "Eyn əl-Mizan" (Tərəzinin mahiyyəti). Bakıxanov Azərbaycanda orta əsrlərin son mütəfəkkiri və yeni dövrün ilk mütəfəkkiri idi. Onun yaradıcılığında klassik şərq elmi və ədəbiyyatı ilə müasir yeni dövrün elmi cücərtiləri əlaqəli şəkildə çıxış etmişdilər. Buna görə də onun dünyagörüşü xeyli dərəcədə ziddiyyətlidir. O, bir tərəfdən maarifçi kimi tanınıb, tarixə maarifçi baxışı təbliğ edirdi, digər tərəfdən isə şərq sxolastikasından tam azad ola bilməmişdi, maarifçi monarxa ümid bəsləyirdi.. Onun mənəvi etik görüşləri də diqqəti cəlb edir. Bakıxanov öyrədirdi ki, mənəviyyat, əxlaq, tərbiyə və təhsil sayəsində formalaşır. Onun etikasında və məntiqi gömşlərində rasionalist və maarifçi ideyalar özünü göstərir. Bakıxanovun digər bir xidməti elmin predmeti ilə ilahiyyatın predmetini bir-birindən ayırmasıdır O göstərirdi ki, birinci təbiəti öyrənir, ikinci isə ilahi problemlərlə məşğul olur. O, özünün bir sıra əsərlərində (xüsusən də «Təhzibül-Əxlaqda») kainatın maddi varlıq olduğunu irəli sürmüşdür. Bakixanov həm də göstərirdi ki, varlıq yox olmur, bir haldan başqa hala keçir. O, təbiətdəki bütün əşya və cismlərin dörd ünsürdən (od, su, hava, torpaq) meydana gəldiyini qəbul edirdi. O, varlığın Allah tərəfindən yaradıldığını təsdiq etmişdir (2, s.88-89).

XIX əsrin 60-70-ci illərində Azərbaycanda maarifçiliyin ikinci (klassik) mərhələsi özünü göstərmişdir. Bu dövrdə kapitalizm xeyli dərəcədə inkişaf etmişdi. Maarifçi-realist ədəbiyyat yaranırdı. Onun başlıca istiqaməti geriliyə, despotizmə və dini fanatizmə qarşı mübarizə idi. Bununla yanaşı həmin dövrün ədəbiyyatı maarifçi və demokratik ideyaların tribunası rolunu oynayırdı. Məhz bu mühitdə Azərbaycan maarifçilərinin bütöv bir nəsli formalaşdı. Onların sırasında görkəmli yazıçı, materialist filosof, mütəfəkkir kimi M.F.Axundov (1812-1878) xüsusi yer tutur. Azərbaycanda maarifçilik fəlsəfəsinin vahid bitkin bir sistem səviyyəsinə yüksəlməsi məhz onun adı ilə bağlıdır. Axundov Azərbaycanın və bütövlükdə Şərqin sosial tərəqqidə geri qaldığını anlayır, öz xalqının mədəni, elmi inkişafı üçün yollar axtarırdı. O, 1834-cü ildən demək olar ki, ömrünün sonuna qədər Qafqaz canişinliyinin Tiflisdə yerləşən dəftərxanasında Şərq dilləri üzrə tərcüməçi işləmişdir. Rus dilini yaxşı bildiyindən onun vasitəsilə təkcə rus mütərəqqi mədəniyyəti ilə deyil, həm də Qərbi Avropa elmi və fəlsəfi fikri ilə yaxından tanış olmuşdu. Bütün bunlar onun dünyagörüşünün formalaşmasına güclü təsir göstərmişdi O, dünyaya elmi-materialist baxışı əsaslandırmışdır. Axundova görə fəlsəfə nəzəri elm-

dir. Onun məqsədi bütün şeylərin hikməti və səbəblərini təbiətin qanunauyğunluqları əsasında müəyyən etməkdir. Filosof xürafata, fala, caduya və boş sözlərə inanmamalıdır.' Axundov öz əsərlərində tez-tez dünya bədii və fəlsəfi fikrinin böyük nümayondolərinin (Homerin, Sokratın, Platonun, Aristotelin və başqalarının) adlarını çəkirdi. Spinozanın, Şekspirin, Volterin, Montcskyönün, Russonun və Hol-baxın oxuduğu əsərlərindən xüsusi qeydlər edirdi. Onun şəxsi kitabxanasında tapılmış Darvinin, Hekslin, Şleydenin və Şvanın kitablarının kənarındakı yazılar sübut edir ki, Axundov onlarla da dərindən tanış olmuşdur. O, Yumun ilk səbəb təliminə münasibətini xüsusi məqalə şəklində ifadə etmişdir (2, s.91). Axundov Qərbi Avropadakı elmi və fəlsəfəni dərindən bilməsi sayəsində hüquqi və əmlak bərabərliyi haqqında qiymətli fikirlər söyləmişdir. Mütəfəkkir ilk dəfə olaraq milli ədəbiyyatda islahatlar yolu ilə xalq hakimiyyətini, onun demokratik idarə üsulunu və parlamentin təsis edilməsinin tərəfdarı kimi çıxış etmişdir. O, ilk dəfə konstitusiyalı monarxiya idarə üsulunun yaradılması ideyasını Azərbaycan tarixinə gətirmişdir. Adını çəkdiyimiz müəlliflər Axundovşünaslıq üçün yeni faktlar üzə çıxarmış, məhz onu ilk maarifçi demokrat adlandırmışlar. Böyük mütəfəkkir M.F.Axundzadə XIX yüzilin ictimai fikir tarixində silinməz iz qoymaqla yanaşı, fəlsəfi və ədəbi-tənqidi və tarixi məqalələr də yazmışdır. Onlardan "Həkim-ingilis Yuma cavab", "Molla Ələkbərlə mübahisə", "Yek kəlmə haqqında", "Fehristi-kitab", "Nəzm və nəsr haqqında", "Mollayi-Ruminin və onun təsnifinin babından", "Kritika", "Mirzə Ağanın pyesləri haqqında kritika", "Tənqid risaləsi", "Babilik əqidələri", "Hekayət", "Con Stüart Mill azadlıq haqqında", "1618-ci ildə "Bağdad yaxınlığında Türkiyə ordusunun vəziyyəti", "Xristafor Kolumbun yeni dünyanın kəşfi" kimi əsərləri Azərbaycan tarixşünaslığında mühüm yer tutur. Bundan başqa M.F.Axundzadənin Hind şahzadəsi Kəmalüddövlənin fars dilində yazdığı 3 məktubu və İran şahzadəsi Cəlalüddövlənin türk dilində ona yazdığı bir cavab məktubunu ehtiva edən "Kəmalüddövlə məktubları" fəlsəfi traktatı da mühüm əhəmiyyət kəsb edir (3, s.306). Axundovun fəlsəfi irsində dinin tənqidi mərkəzi yer tuturdu. O, elm və dini bir-birinə qarşı qoyur, onların bir araya sığışmadığını sübut etməyə çalışırdı. Axundov dini tərəqqi yolunda ən böyük maneə hesab edirdi. O, yazırdı: «...İslam dini meydana çıxan gündən hazırkı əsrə qədər, Şərqdə elmlərin durğunluğunun, dəhşətli despolizmin əmələ gəlməsinin səbəblərini və ümumiyyətlə, asiyalıların mədəniyyət və tərəqqi işlərinə qarşı laqeydlik və etinasızlığının səbəblərini heç kəs başa düşməmişdir. Bu cəhətdən təkcə Firdovsi müstəsnalıq təşkil edir və o, öz dühası ilə, həqiqətən kəşf edə bilmişdi ki, Şərq xalqlarının bu qədər böyük bədbəxtliyinin səbəbi ərəblər və onların insan həyatına uyğunlaşmayan mənfur dinidi. Axundov öz sosial-siyasi idealının həyata keçirilməsində insan ağlına böyük ümid bəsləyir və göstərirdi ki, elm, maarif tərəqqinin əsas amilidir. Axundova görə dünyanın əsası maddidir, təbiətin müxtəlif predmet və prosesləri vahid və hər şeyi əhatə edən əbədi və sonsuz maddi substansiyanın təzahürü, öz-özünün səbəbidir, mövcud olması üçün heç bir təbiətüstü varlığa ehtiyacı yoxdur. İdrak məsələsində Axundov materialist sensualizm mövqeyində dayanır və hissi idrakın rolunu həlledici hesab edirdi (1, s.147).

H.B.Zərdabinin (1842-1907) yaradıcılığı səciyyəvidir. O, mükəmməl dünyavi təhsilə malik olmuşdur. Əvvəlcə Tiflisdə qəza gimnaziyasını, sonra isə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiət şöbəsini bitirmişdir. Onun dünyagörüşü XIX əsrin II yarısındakı rus və Avropa təbiətşünaslığının yaxşı ənənələri əsasında formalaşmışdır. Zərdabinin maarifçilik və təbiətşünaslıq fikirləri aşağıdakı əsərlərində əks olunmuşdur; "Torpaq, su və hava", "Barama qurdunun saxlanması", "Gigiyena haqqında". Bundan əlavə onun "Əkinçi" qəzetində nəşr etdirdiyi məqalələri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Zərdabi Azərbaycan ictimai fikri tarixində elmi-materialist təbiətşünaslığın carçısı, Darvinin bioloji ideyalarının güclü təbliğatçısı kimi böyük yer tutur. H.Zərdabinin ən böyük xidməti onun tərəfindən Azərbaycan mətbuatının əsasının qoyulmasıdır. 1875-ci ildən nəşr etdirməyə başladığı "Əkinçi" qəzetində təbii elmi bilikləri xalq kütlələri arasında yorulmadan təbliğ etmişdir. Bu qəzetdə tez-tez elmi publisistik məqalələrlə çıxış edən Zərdabi özünün təbiət, dünya və cəmiyyət haqqında baxışlarını izah etmişdir. Zərdabinin tərbiyəvi, etik fikirləri də diqqəti cəlb edir. O, xalqının tərəqqi və xoşbəxtliyini elmdə, maariflənmədə, təhsilin inkişafında görürdü. Onun tərbiyəvi baxışlarında humanizm, vətənpərvərlik, doğruçuluq kimi keyfiyyətlər əsas yeri tuturdu. Bu ideyalar bu gün də öz əhəmiyyətini saxlayır (2, s.93). 1875-ci ilin 22 iyulundan 1877- ci ilin 29 sentyabrına qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür. "Əkinçi" qəzetində Nəcəf bəy Vəzirovun, Əsgər ağa

Goraninin Moskvadan, Məhəmmədtağı Əlizadə Şirvaninin Şamaxıdan, Heydərinin Dərbənddən göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunmuşdur. Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin dəsti-xətti əsasən bir ideya üzərində qurulmuşdur. Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsi ilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi. İlk mətbu orqan kimi "Əkinçi" öz əsas ideyasına uyğun olaraq incəsənət və ədəbiyyata da aid yeni demokratik tələblər irəli sürürdü (5, s.5).

İctimai-siyasi problemlərlə yanaşı, əxlaq məsələləri də Zərdabinin fikrindən yayınmamışdır. Əxlaq və etika məsələləri Zərdabinin dünyagörüşündə mühüm yerlərdən birini tutmuşdur. Onun əsərlərində cəmiyyətdə mövcud olan iki bir-biri ilə 9 təzad təşkil edən sifətlər müqayisəli şəkildə qarşı-qarşıya qoyulmuşdu: bir tərəfdə zəhmətkeş təbəqə üçün xarakterik olan ən üstün əxlaqi cəhətlər, digər tərəfdə isə istismarçı siniflərə xas olan rüşvətxorluq, riyakarlıq, sərxoşluq, lazım gəldikdə pul-mal xatirinə öz millətini satmaq kimi qeyri-insani keyfiyyətlər dururdu (6, s.9).

«Əkinçi» başda M.F.Axundov olmaqla XIX əsr Azərbaycan maarifçilərinin, alim və yazıçılarının xalqa müraciət tribunası idi. «Əkinçi»nin səpmiş olduğu «toxumlar» sonrakı dövrlərdə öz bəhrəsini vermiş, «Ziya», «Kəşkül», Krımda «Tərcüman» «Əkinçi» qəzetinin davamçıları kimi meydana çıxdılar. H.Zərdabinin kürəkəni Əlimərdan bəy Topçubaşov «Əkinçi» qəzetinin 50 illik yubileyinə həsr etdiyi «Azərbaycanın mayakı» adlı xatiratında göstərirdi ki, «Əkinçi»nin nəşr olunduğu dövr çar Rusiyasının ən müdhiş dövrlərindən idi və Şərqi Zaqafqaziyanın müsəlman əhalisi ağır zülümə və təqiblərə məruz qalırdı. Onlar öz ölkələrinin adı ilə – «Azərbaycan» adı ilə, özlərini isə azəri türkləri adlandırmağa cəsarət etmirdilər; deməyə qorxurdular ki, onlar türk mənşəli xalqdırlar, onların da nəinki dini, eyni zamanda əqli, elmi-təhsil, iqtisadi ehtiyacları vardır. Qəzetin tənqidi ruhunun sferasını müəyyənləşdirmək üçün Ə.B.Topçubaşovun bu fikirləri olduqca əhəmiyyətlidir. Qeyd etdiyimz kimi, milliyyətdən millətə keçidin baş verməsinin ən böyük təsir vasitəsi mətbuat və onun başında dayanan ziyalılar idi. Deməli, Azərbaycan türkləri «Əkinçi» qəzetinin nəşri ilə artıq millət olmağa başlamış «Ziya» və «Kəşkül»dən sonra artıq millət kimi formalaşmışdır. Məlumdur ki, «Əkinçi» qəzetində hələ ümmətçilik şüuru hakim idi (7, s.28). («Müsəlman», «Qafqaz müsəlmanları», «müsəlman milləti» və s.). Amma Mirzə Fətəli Axundovun və Həsən bəy Zərdabinin maarifçilik fəaliyyətləri nəticəsində ötən əsrin 80-90-cı illərindən «din» və «millət» anlayışları artıq bir-birindən fərqləndirilməyə başlanmışdı. «Müsəlman», «türk», «azərbaycanlı» anlayışlarının fərqli məzmun daşıdıqları etiraf edilirdi. Mətbuatda, mədəni mühitdə din və millət məfhumlarını bir-birindən ayırmağı bacaran adamlar cərgəsində H.Zərdabi də var idi. XIX əsr Azərbaycan ictimia və fəlsəfi fikrinin inkişafı mütərəqqi, demokratik cərəyanın mürtəce cərəyanla amansız mübarizəsində, qabaqcıl Azərbaycan mədəniyyətinin geri qalmış mürtəce mədəniyyəti ilə mübarizəsində keçmişdir. Bu dövrün qabaqcıll ziyalıları xalq kütlələrinin mənafeyini müdafiə etmişlər.

***Nəticə.*** XIX əsr Azərbaycanda ictimiai və fəlsəfi fikrin bütün inkişaf tarixi doğulmaqda olan yeni dünyagörüşünün kohnə, dövrünü sürüb qurtarmaqda olan baxışlarla, amansız mübarizəsi nümunəsidir. Bu dövr Azərbaycanda ictimiai və fəlsəfi fikrin özünəməxsusluğu orijinallığı onun səciyyəvi cizgiləridir. XIX əsr Azərbaycanda ictimiai və fəlsəfi fikir nümayəndələrinin dünyagörüşünün tarixi məhdudluğuna baxmayaraq, Azərbaycan xalqının bu mütərəqqi nümayəndələri Azərbaycan mədəniyyətin milli ənənələrini inkişaf etdirmişlər. Azərbaycan xalqının ictimai və fəlsəfi fikrinin mutərəqqi və demokratik ənənələri dərin köklərə malik olmuşdur.

## ƏDƏBİYYAT

1.Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq-Qərb", 2010, 360 s.

2. Hacıyev Zeynəddin. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, "Turan evi" nəşriyyatı, 2012, 488s.

3. Sevinc Qasımova. Maarifçilikdən inqilabi-demokratizmə doğru: M.F.Axundzadə // Tarix və onun problemləri, 2013 №2, s.302-308.

4. Yusif Rüstəmov. Fəlsəfənin əsasları (mühazirə kursu) Bakı, «NURLAR» Nəşriyyatı, 2007, 504 s.
5. "Azərbaycan mətbuatının məşəli. Zərdabi" metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017. 50 s.
6. Azərbaycan maarifinin yorulmaz çarçısı: Həsən bəy Zərdabi – 170. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2012, 46 s.
7. Həsənova (Saraclı) M.O. "Əkinçi" qəzetində ədəbiyyat məsələləri və onun xalqın milli şüurunun təşəkkülünə təsiri // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2009 №4, s.24-29.
8. Heydər Hüseynov. Azərbaycanda XIX əsr ictimiai və fəlsəfi fikir tarixindən. Bakı, "Şərq-Qərb", 2007, 400 s.

**СЕВИНДЖ МАМЕДОВА**
*Сумгаитский Государственный Технический Колледж*
*при Сумгаитском Государственном Университете*

## РАЗВИТИЕ ОБЩЕСТВЕННО-ФИЛОСОФСКОЙ МЫСЛИ В АЗЕРБАЙДЖАНЕ XIX ВЕКА

Начиная с начала XIX века, общественно-историческое развитие в Азербайджане представляло собой период, состоящий из различных противоречивых тенденций. Все эти процессы оказали влияние на развитие научной и философской мысли Азербайджана. В этот период в Азербайджане возникли просветительские общественно-политические учения, а просветительские, философско-этические и материалистические учения выдвинули такие просвещенные мыслители, как М.Навваб, И.Гутгашинли, А.А.Бакыханов, М.Ф.Ахундов.

*Ключевые слова*: Просветление, общественное мнение, философская идея, революционно-демократический, нация, мыслитель, культура, разработка.

**SEVINJ MAMMADOVA**
*Sumgayit State Technical College under Sumgayit State University*

## DEVELOPMENT OF SOCIO-PHILOSOPHICAL THOUGHT IN 19TH CENTURY AZERBAIJAN

Starting from the beginning of the 19th century, the socio-historical development in Azerbaijan was a period consisting of various contradictory tendencies. All these processes had their influence on the development of the scientific and philosophical thought of Azerbaijan. Enlightenment-based socio-political teachings emerged in Azerbaijan during this period, and enlightened thinkers such as M.Navvab, I.Gutgashinli, A.A.Bakıkhanov and M.F.Akhundov put forward their ideas of enlightenment, philosophical-ethical and materialist teachings.

*Keywords*: Enlightenment, public opinion, philosophical idea, revolutionary democratic, nation, thinker, culture, development.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 sentyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24)

**GÜLNARƏ ƏLİYEVA**
*Milli Müdafiə Universiteti, Hərbi-Elmi Tədqiqat İnstitutu*
**gulnara_aliyeva94@mail.ru**

# AZƏRBAYCANIN "PAQONLU MAARİFÇİLƏR"İ İSMAYIL BƏY QUTQAŞINLI

*Məqalədə məqsəd Azərbaycan tarixində paruçikdən artilleriya generalı rütbəsinə qədər şərəfli hərbi yol keçmiş, milli hərbi məktəbin təməlini qoyanlardan biri sayılan, Azərbaycanın ictimai və siyasi həyatında diplomat kimi töhfələrini vermiş, xeyriyyəçilik fəaliyyəti ilə silinməz əbədi iz qoymuş, ədib-mütəfəkkir İsmayıl bəy Qutqaşınlı irsinin gənc nəslin vətənpərvər ruhda, savadlı, fiziki və hərbi cəhətdən hazırlıqlı yetişmələri üçün maarifləndirici rolunu diqqətə çatdırmaqdan ibarətdir.*

*Açar sözlər*: görkəmli hərbçi, çar rusiyası, "Miskin" təxəllüslü şair, yazıçı, fransız dilində ilk Azərbaycan hekayəsi.

***Giriş***. XIX əsr Azərbaycanın tanınmış zadəgan ailəsinin nümayəndəsi böyük yazıçı, istedadlı şair, ictimai xadim və görkəmli hərbçi İsmayıl bəy Qutqaşınlı (1801-1861) Şəki xanlığına tabe olan Qutqaşın mahalını idarə edən Sultan Nəsrullanın varisi idi. Vaxt ikən dağ üsyançılarına qarşı döyüşlərdə iştirak etməsi onun çar hökumətinə sədaqətini sübut etmişdi. 1805-1806-cı illərdə bacısının öldürülməsi ilə əlaqədar rus qoşunlarını Şəki xanlığından çıxarmaqla Rusiyaya qarşı çıxması nəticəsində hakimiyyətdən devrilən və İrana qaçan Səlim xandan fərqli olaraq, məhz qazandığı etibar sayəsində çar Rusiyasında xüsusi hörmət sahibi olan bu adam Qutqaşın mahalına başçı təyin edilərək ömrünün sonuna qədər idarə etdi.

Çar Rusiyası hakimiyyət dairələrində nüfuz sahibi olan Sultan Nəsrulla ağlı və uzaqgörənliyi ilə oğlu İsmayılın da gələcək müqəddəratını, hələ çox uzun illər Azərbaycanda hakim mövqedə duracaq Rusiya ilə bağladı. Belə ki, çar Rusiyası hakimiyyətdə olan bəy və xanları itaətdə saxlamaq məqsədilə onların hakimiyyətə varislərinin mütləq qaydada Rusiya ordusunda zabit kimi məcburi hərbi xidmət keçmələrini diqqətdə saxlayırdı. Etibarsızlıqdan irəli gələn bu mövqe qarşılıqlı idi. Salman Mümtaz, "Rəşid bəy və Səadət xanım hekayəsinin mühərriri Qutqaşınlı İsmayıl bəyin həyatı" adlı məqaləsində tarixin bu bölümünü belə təsvir edirdi*: "1813-dəki "Gülüstan" sülh bağlaşmasına görə, Azərbaycanı Arazdan yuxarı (Naxçıvan və İrəvansız) Rusiya işğal etdi, özünə birləşdirdi. Xanlar, bəylər qabaqkı yerlərində qaldılar. Ancaq çar gələcəkdə baş verə biləcək çıxışların qarşısını almaqçün, onların kiçik yaşlı uşaqlarını Peterburqa girov aparırdılar. 1813-də Rus təbəəliyinə keçəndən sonra yenidən sultan qoyulan Hacı Nəsrulla 5 oğlunun birindən əl üzməliydi. O, özünün böyük və görkəmli oğullarını dürlü-dürlü bəhanələrlə evdə saxlayıb aciz və panpaq zənn etdiyi, kiçik yaşlı İsmayıldan çar-naçar əl çəkməyə məcbur oldu..."* (19, s.44).

Məhz bu nöqteyi-nəzərdən Sultan Nəsrulla sədaqətli olduğunu sübut etmək məqsədilə 13 yaşlı oğlunu general Yermolovun yanına, "Kadet məktəbi"nə gətirərək hərbi xidmətə yazdırdı. Qutqaşınşünaslığın təməlini qoyan görkəmli tədqiqatçı Salman Mümtaz məqaləsində qeyd edirdi:*"Hacı Nəsrulla sultan İsmayıl bəyi verməklə Peterburqdan gələn məmurları başından savdı və bununla da hər iki tərəf razı və məmnun qaldı. Amma nədənsə iş tərsinə çıxdı. Fərsiz nəzərə gələn İsmayıl təhsilini ikmal etdikdən sonra elə bir kamallı, qabiliyyətli iyit oldu ki, hünərli sayılan qohum və qardaşları onun yanında hər bir cəhətdən heç mənziləsində qaldılar və az zaman içrə fövqəladə tərəqqi edərək böyük hörmətə və izzətə malik oldu. İsmayıl bəy öz ad və sanıyla tək Qutqaşında deyil, bütün Qafqazda belə məşhur oldu"* (17, s.45).

Ailənin son beşiyi bu balaca, arıq yeniyetmə oğlanın günlərin birində qüvvətli sərkərdə və bacarıqlı bir general olacağını heç kim, hətta atası Nəsrulla da xəyalına belə gətirmirdi. 1818-ci ildə Sankt-Peterburqda yerləşən kazarma sistemli təhsil ocağına daxil olan İsmayıl bəy Qutqaşınlı həmin məktəbi Əlahiddə Qafqaz korpusunun tərkibində 1822-ci ildə fərqlənmə ilə bitirir. Salman Mümtazın məqaləsinə istinadən: *"Peterburqda kadet məktəbini bitirib Əlahiddə Qafqaz Korpusu tərkibində*

*Gürcüstan qrenadyoralayında hərbi qulluğa başlayanda (1822) onun vur-tut 13 yaşı vardı. Həmin il ilk döyüşçü çini alaraq praporşik oldu”* (17, s.46).

Hər zaman olduğu kimi Rusiya çar imperiyası hiyləgər siyasətini yeritməkdə davam edirdi. Belə ki, müsəlman dövlətləri ilə aparılan (1826-1828) Rusiya və İran, (1827-1829) Rusiya Osmanlı müharibələrində cəbhənin ön cərgələrinə məhz müsəlman zabit və əsgərlərini çıxarırdılar. Bu siyasətin arxasında qardaş qanı tökərək müsəlmanlar arasında soyuq münasibəti saxlamaq dururdu. Çar imperiya ordusunun zabiti olaraq, hərbçi borcunun yerinə yetirərək müharibədə iştirak edən İsmayıl bəy Qutqaşınlı sentyabr ayının 3-də Şəmkir altında Zəyəm dağı ətəyində gedən şiddətli döyüşlərdə vuruşur. İran qoşunları bu döyüşün nəticəsi olaraq 1500 əsgərini itirir və Gəncə şəhərinə geri çəkilirlər. Paşkeviçin komandanlığı altında rus ordusu sentyabrın 10-da şəhərə daxil olur, sentyabrın 13-də isə Nizami Gəncəvi məqbərəsi yaxınlığında iki ordu arasında həlledici döyüş baş tutur. 8700 nəfərlik rus ordusunun 35000 nəfərlik İran döyüşçüsünə qarşı apardığı bu qanlı vuruşda farslar böyük sayda əsgərini itirdi. Rus hərbçiləri hərbi qənimətlər götürərək İran qoşunlarını geri çəkilməyə məcbur etdilər. 1827-ci ildə İran mövqelərini rus qoşunlarının hücumundan qorumaq üçün strateji əhəmiyyətli istehkam hesab edilən “Abbasabad” qalasının alınması uğrunda gedən döyüşlərdə, daha sonra sentyabrın 26-dan başlayan, 10000 müsəlman (Azəri türkü) və 3000-ə yaxın erməni əhalisi olan, İrəvan vilayətində yerləşən “İrəvan” qalasının fəth edilməsi uğrunda gedən vuruşlarda iştirak etmişdir. İsmayıl bəy Qutqaşınlı Gəncə və Şəmkir uğrunda gedən döyüşlərə görə leytenant hərbi rütbəsinə və 1828-ci il 25 yanvar döyüşlərinə görə dördüncü dərəcəli “Müqəddəs Anna” və üçüncü dərəcəli “Aslan və Günəş” ordenlərinə təqdim olundu. (Qeyd: Qeyri-rus milliyətli və qeyri-xristian dininə mənsub hərbçilərin təltif edildiyi “Müqəddəs Anna” ordeni çar rusiyasının inamsızlığının göstəricisi idi).

1828-ci ildə Türk Osmanlı imperiyasına müharibə elan edən çar Rusiya qoşunları Anadoluya daxil oldular. Məqsəd Ərzurum və Trapezundu tutmaqla keçidi açıb İstanbulu fəth etmək idi. İyunun 19-da Rus qoşunlarının ilk hücumu Qars şəhərinə oldu. İsmayil bəy Qutqaşınlı öz döyüşçüləri ilə Qars yaxınlığında Hatunoğlu Kürt İsmayıl Hakki Paşanın ordusuna qarşı apardığı qanlı döyüş qarşı tərəfin məğlubiyyəti ilə nəticələndi. Çar ordusu tərəfindən Qars tutulduqdan sonra avqustda Ahalkələk və Ahalsıx şəhərlərini də ələ keçirdi. Daha sonra 1829-cu il imperiya qoşunlarının keçirdiyi geniş miqyaslı hərbi əməliyyatlarda iştirak edən İsmayıl bəy Qutqaşınlı öz döyüşçüləri ilə bərabər Trapezundun alınmasında və Ərzurum Serekeysinin aparıcı qüvvələrinin dəf edilməsində, strateji əhəmiyyət daşıyan Həsən qülləsinin alınmasında iştirak etmişdir. Rus imperiya qoşunlarının keçirdiyi hərbi əməliyyatlar nəticəsində Osmanlı imperiyası məğlubiyyətini qəbul etdi və şimalda Anapadan, Qara dənizin şərq sahillərinə qədər olan hissəni 1829-cu ilin sentyabrında Ədirnədə bağlanan sülh müqaviləsinin şərtlərinə əsasən çar Rusiyasına təslim etdi. Çar Rusiya imperiyasının hiyləgər siyasətinin nəticəsi olan, çoxlu qardaş qanının töküldüyü bu müharibənin çirkin tərəflərini ört basdır etmək üçün öncədən hazırlanmış strateji addım kimi bu müharibədə çar Rusiya ordusunun zabiti olan, hərbi borcunu yerinə yetirərək iştirak edən müsəlman əsilli əsgər və zabitləri orden, medal və yüksək rütbələrə layiq görüldülər. İsmayıl bəy Qutqaşınlı da bu müharibədəki döyüşlərdə iştirakına görə, üçüncü dərəcəli “Müqəddəs Anna” ordeninə layiq görülərək növbəti baş leytenant hərbi rütbəsinə təqdim olundu.

1831-ci ildə hərbi mövqeyini dəyişərək Pavlovskinin “Həyat” qvardiyasına gedən İsmayıl bəy Qutqaşınlı həmin il “Qızıl qılınc” medalına layiq görülür. Növbəti ştabs-kapitan rütbəsini 1835-ci ildə Qafqaz Müsəlmanları Süvari alayında xidmət zamanı alır. 1836-cı ildə Xüsusi Qafqaz korpusunda xidmətə davam edərək mayor rütbəsinə yüksəlir və sonrakı 1837-ci ildə həmin korpusa və Qara-Qaytaq bölgəsinə başçılıq edir. O zaman general-leytenant Pankratov da korpusda qərargah rəisi vəzifəsində idi və xidməti işlə əlaqədar göndərildikdə onun xahişinə əsasən İsamayıl bəy Qutqaşınlı da onunla bərabər Polşaya ezam olundu. Xidməti vəzifəsini məsuliyyətlə yerinə yetirən və buna görə də böyük nüfuza sahib olan İsmayil bəyin hakim dairələrdə də böyük hörmət və etimada sahib olduğunu 1837-ci ildə knyaz Çernışevə bütün Qafqazın başçısı baron Rozenin ünvanlandığı məktubdan görmək olar:- *“Mən Quba əyalətindən süvarilər toplamaq işinə idarəmdəki xüsusi tapşırıqları yerinə yetirən Pavlovsk polkunun ştabskapitanı Qutqaşınlını ezam etmişəm. Hörmətli Zaqafqaziya bəylər ailəsindən çıxan bu adam mənə özünün dərin düşüncəsi və sədaqəti ilə məlumdur”.*

Xidməti vəzifəsini yerinə yetirərkən qazandığı nailiyyətlərə görə 1838-ci ildə podpolkovnik və 1843-cü ildə polkovnik hərbi rütbəsinə təqdim edilir. Xidmət müddətində Qafqaz Süvari Alayına verdiyi ərməğanlara görə, Qutqaşınlı 6 dekabr 1850-ci ildə General-mayor hərbi rütbəsi ilə təltif edilir (3,s.286) və Əlahiddə Qafqaz Korpusunda davamlı olaraq xidməti vəzifəsini yerinə yetirir. Sonuncu olaraq 1854-cü ildə başlayan Krım müharibəsində də iştirak edərək (9, s.31). 30 ilə yaxın müddətdə davam edən hərbi karyerasını başa çatdırır və 2000 manat mislində gümüş pulla təqaüdə çıxır. Bu müddət ərzində qüsursuz hərbi xidmətlərinə görə dördüncü dərəcəli "Müqəddəs Anna" ordeni (1828), ikinci dərəcəli "Aslan və Günəş" ordeni (1828), üçüncü dərəcəli "Müqəddəs Anna" ordeni bantlı (1830), dördüncü dərəcəli "Müqəddəs Vladimir" bantlı (1831), "Qızıl qılınc" "cəsarətinə görə" yazısı ilə (1832), üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni (1832), ikinci dərəcəli imperator taclı "Müqəddəs Anna" ordeni (1839), dördüncü dərəcəli "Müqəddəs Georgiy" ordeni (1843), üçüncü dərəcəli "Müqəddəs Vladimir"ordeni" (1844) ilə təltif edilmişdir (24, s.17, 40, 66, 72).

İsmayıl bəy Qutqaşınlının hərbçi olması onun ictimai proseslərdə də fəal iştirak etməsinə və öndə olmasına səbəb olmuşdu. Belə ki, orduda 30 ilə yaxın xidmət etməsi ilə bərabər 1847-ci ildən Şamaxıda fəaliyyət göstərən "Bəy komissiyası"nda işləyirdi, eləcə də, 1849-cu ildə öz hesabına maliyyələşdirərək Şamaxı müsəlman məktəbi üçün bina icarə edir, oradakı işçilərin və pedaqoji heyətin maaşlarını özü verir və həmin məktəbdə Rus dili üzrə müəllim kimi çalışırdı. Uzun illər Rusiyada yaşayıb və təhsil alaraq Avropa mədəniyyətindən bəhrələnən, bir çox Avropa ölkələrinə səyahətləri zamanı ziyalı təbəqənin nümayəndələri ilə əlaqələr quraraq öz xalqına mütərəqqi fikir və ideyaları təbliğ və tətbiq etməyə, sivil cəmiyyətlərin proqressiv inkişafını çatdırmağa çalışırdı. 1850-ci ildən Rusiya Kənd Təsərrüfatı cəmiyyətinin və Rusiya Coğrafiya cəmiyyətinin Qafqaz şöbəsinin həqiqi üzvü olan Qutqaşınlı bir çox Avropa ölkələrinə səyahətləri zamanı ziyalı təbəqənin nümayəndələri ilə əlaqələr qururdu. Onun həmkarları o cümlədən ən yaxın dostu Mirzə Fətəli Axundzadə də bu cəmiyyətlərin üzvü idi.

Avropa yönümlü olmasına baxmayaraq İsmayıl bəy dinimizə hörmət edir və müsəlman adətənənəsinə uyğun olaraq Məkkəyə gedərək Həcc ziyarəti edir. Buna təsdiq olaraq Qutqaşınşünas Salman Mümtaz qeyd etdiyi: *"İsmayıl bəy Sufi yolçusu deyil, mükəmməl bir müsəlmandır"* – sözlərində öz təsdiqini tapır (18, s.131). Lakin Qutqaşınlının ikinci səfərinin siyasətlə əlaqədar olduğunu təsdiqləyən bəzi amillər də vardır ki, ikinci Məkkə ziyarətindən Osmanlı İmperatorluğuna gedərək Türk hərbçiləri ilə görüşməsi və 1854-cü ildə Anadolu ordu marşalı Zərif Mustafa paşa tərəfindən göndərilən Rusiya hakimiyyətinə qarşı Azərbaycan və Dağıstanda kütləvi iğtişaşlar və silahlı müqavimət təşkil edilməsi məzmunlu məktubu buna misaldır. Məktubun İmperiya hökumətinin agenti erməni əsilli polkovnik Loris Məlikovun ələ keçirməsi İsmayıl bəy Qutqaşınlının son müqəddəratını həll edir. Məhz bu məktuba əsasən casusluqda şübhəli bilinən və Çar rusiyasının nəzarətində olan Qutqaşınlının və onun ailəsinin siyasi baxımdan zəhərləndirilərək öldürüldüyü təxmin edilir.

Yaşadığı müddətdə hərbdə qazandığı şöhrəti, ictimai xadim kimi xeyriyyəçiliyi və istedadlı yazıçı kimi bədii irsi, nəzm və nəsr əsərləri ilə dillər əzbəri olan İsmayıl bəyin müəmmalı ölümü onun uzun müddətə yaddaşlardan silinməsinə səbəb oldu. Təvazökarlığı ilə tanınan, hələ sağlığında bir dənə də olsun əsərinin çap olunmasına cəhd etməyən Qutqaşınlının ədəbi əsərləri zamanın girdabına düşdü və bir müddətlik gözdən itirilərək unuduldu. Nə yaxşı ki, öz dövründə Azərbaycanın Salman Mümtaz kimi vətənpərvər və maarifçi insanı olmuşdur. Bədii yaradıcılığa "Molla Nəsrəddin" jurnalında "Xortdan bəy" təxəllüsü altında felyeton və məqalələrlə başlayan, bir sıra əsərlərin müəllifi, görkəmli qələm sahibi olan bu adam öz həyatının böyük hissəsini daha çox tədqiqata yönəltmişdi. O, bütün güc-qüvvəsini Azərbaycan çağdaş ədəbiyyatının heç tanınmayan və ya zamanın yaddaşında itib-batan ədibləri, onların bədii yazı nümunələrini toplayaraq nəşr edilməsinə və yayılaraq tanınmasına yönəltmişdi. Belə ədiblərdən biri İsmayıl bəy Qutqaşınlı idi ki, haqqında ilk məlumatı verərək Salman Mümtaz qeyd edirdi:-*"... Öz vaxtında fövqəladə ehtiram və nüfuza malik olan bu zatın türkcə qeyri-mətbu bəzi əsərləri və fransızca da həyatımıza dair mətbu bir hekayəsi vardır"* (16, s.103).

İsmayıl bəy Qutqaşınlı Azərbaycan ədəbiyyatına Fransız dilində yazdığı "Rəşid bəy və Səadət xanım" adlı realist nəsr əsəri ilə, müasir hekayə janrını gətirdi. Avropa mədəniyyətini təmsil və təbliğ edən, zadəgan ailəsində yetişən, iki gəncin sevgi hekayəsindən söhbət açan bu əsər, Qutqaşınlı bədii irsinin şah əsəri hesab edilə bilər. Bu nəsr nümunəsinin Azərbaycan Milli Elmlər Akademiyasının

Əlyazmalar institutunda saxlanılan nüsxəsində Mirzə Fətəli Axundzadənin öz yaxın dostuna, həmkarına həsr etdiyi ürək sözləriilə onun yaradıcılığının mühüm əhəmiyyətini göstərir:-*"Mənim qəlbim elə alovlu qəlblərdəndir ki, o nə öz sevincini, nə də öz kədərini gizlədə bilər. Buna görə də mən bugünkü sevincimi sizə xəbər verməyə bilmərəm. Mənim şadlığımın səbəbi odur ki, başladığımız işin axıra çatması haqqında məndə zərrə qədər şübhə qalmamışdır. Bu gün sizi tamamilə inandıra bilərəm ki, arzularımızın həyata keçirilməsi günü yaxınlaşmışdır. İzahatını gələcək münasib bir günə saxlayıram" / 15 mart 1846. Mirzə Fətəli/* (6, s.29). Adı XIX əsrdə yaşamış Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə kimi ilk maarifçilərlə bir cərgədə duran İsmayıl bəyin bu hekayəsi Fransız romantizm cərəyanının nümunəsi hesab edilsə də, burada keçid dövründə yaşayan ziyalı təbəqəsinin yaşayış tərzi və həyat məsələləri, Avropa ənənəli kübar mühitinin təbəqə anlayışını dəf edərək sadə xalqla yaxınlığının əks olunmasının şahidi oluruq. Təməli şərq ədəbi-bədii üslubu üzərində qurulan bu hekayəni ərsəyə gətirməklə İsmayıl bəy həmçinin qarşısına milli psixologiyamız, milli adət-ənənə, həyat və məişətimizdəki müsbət keyfiyyətlərlə Avropa oxucusunu tanış etmək məqsədini qoymuşdu.

Böyük xeyriyyəçi və əsil müsəlman olan İsmayıl bəy Qutqaşınlı Həccə gedərkən imkanı olmayan 40 nəfər adamı öz hesabına ziyarətə aparmış və bu səyahəti bütünlüklə qələmə alaraq "Səfərnamə" əsərini yazmışdır. Məlumatverici xarakter daşıyan bu yazı nümunəsində bütün qeydlərin elmi əsas üzrə aparıldığını görmək olar. O, səfər boyu yolunun üstündə olan şəhər və kəndlərin əhalisinin sayını, milli tərkibi və iqtisadi vəziyyəti haqda geniş məlumatı, tarixi abidələrinin, adət-ənənələrinin, təbii şəraitinin təsvirini, getdiyi bir yerdən digər yerə olan məsafənin dəqiq ölçülərini verməklə böyük coğrafi əhəmiyyət daşıyan əsər yaratmışdır. Günümüzə qədər bu əsərin 126 səhifəsi gəlib çatmışdır ki, bu tapılan nüsxələrə görə keçən əsrdə Qəbələdə yaşasa da, əslən Dağıstanlı olan Mürcüm Tağızadəyə minnətdar olmalıyıq. Tapılan bu nüsxələr 1268,28 cəmadiyül ayının axırında başlayıb (1852-il 19 aprel), 14 şaban ayında (3 iyunda) qurtaran hissəsində başlanğıc təyinat yeri Qutqaşından Qulab qəsəbəsinə qədər olan səyahət dövrünü,1269, 11 məhərrəm ayındabaşlayıb (1852-il 25 oktyabr), 16 səfər ayında (24noyabrda) bitən hissəsində isə Mədinə şəhərinə yaxın yerdən Qədəmğah (Şam şəhəri yaxınlığı) kəndinə qədər olan səyahət dövrünü əhatə edir (6, s.30). Daha bir müddət sonra əsərin bir neçə nüsxəsi də, Həmzəli kəndində yerləşən "Şıxbaba" pirindən üzə çıxarılaraq "Səfərnamə"nin məlum hissələrinə əlavə edildi. Tapılan yeni hissələrdə artıq Qulab qəsəbəsindən Trabzona qədər (10-23 şaban), Misir yaxınlığına səfər (7-18 şəvval), Misirdən Süveyşə qədər (20-23 şəvval), Süveyşdən Ciddəyədək (20 şəvval, 5 zilqədə), Əxizərdən Müdəvvərəyə qədər (30 məhərrəm), Şamdan İzmirə qədər (*qeyd: vərəqlərin bir neçəsi olmadığından İzmirə girilməsi tarixi əlyazmalarda yoxdur. Sonuncu qeyd Rodos adasında 14 cəmadiyül-əvvəli tarixində qeydə alınıb. Çox güman ki, Rodosdan İzmirə məsafə gözəyarı 4 günə, yəni 18cəmadiyül-əvvəl tarixinədək qət edilib. Ona görə də təxmini bu tarix qeydə alınıb*) olan səfərlər haqqinda geniş məlumatlar verilib (6, s.31). Axtarışların davam etdiyi dövrdə bəzi mənbələrdən alınmış məlumata əsasən Qəbələnin Həzrə kəndində olan "Şeyx Bədrəddin" türbəsində indiyədək məlum olmayan əlavə nüsxələrin saxlandığı deyilsə də, tədqiqatçılar nümunələri əldə etmək üçün getdikdə restavrasiya məqsədilə təmir olunan türbənin həyətində, açıq havada yağışın altında qalaraq səhlənkarlıq üzündən yararsız vəziyyətə düşmüş əlyazmalarla rastlaşırlar. Təəssüf ki onları xilas etmək mümkün olmayıb (6, s.30).

İsmayıl bəy Qutqaşınlı öz dövründə şair kimi də tanınmışdı. "Miskin" təxəllüsü altında ilk dəfə onun adı, Hüseyn Əfəndi Qaibzadənin Azərbaycanda məşhur qaynaq olan "Şüəranın əşarına məcmuə"si olub ki, bu jurnalda işıq üzü görən "Mədəd" adlı mürəbbedə Qutqaşınlı dostu Qasım bəy Zakirin oğlu və qardaşı oğlu ilə bağlı bir məsələyə görə ona etdiyi müraciətə cavab vermişdi (2, s.553).

General Əliağa Şıxlınski xatirəsində yazır ki:- *"83-cü ildə mən Buma (Qəbələ rayonunda kənddir) və Qutqaşına gəldikdə eşitdim ki, İsmayıl bəy Qutqaşini şair, həm də məşhur, şanlı bir adammış, özü də Qutqaşınlı imiş. Bu məlumatı mənə o zamanlar Şəkidə uyezd naçalnikinin müaviniolan, doğma həm də məndən iyirmi beş yaş böyük olan qardaşım Məhəmməd ağa Şıxlinski söylədi"* (21, s.250). Böyük təəssüf hissi iləqeyd etmək lazımdır ki, "Miskin" təxəllüsü altında nəzm əsərləri ilə məşhur olan Qutqaşınlının bir sıra şeirləri və əlyazmaları Salman Mümtaz tərəfindən toplanıb saxlandığından repressiya qurbanı olduğu dövrdə məhv edilərək dövrümüzə gəlib çatmayıb. Lakin 1973 cü ildə təsadüfən "İki quşun söhbəti" adlı şeir tapılaraq "Qəbələ" qəzetində nəşr olundu. Həmçinin İs-

mayıl bəy Qutqaşınlının 400 səhifəlik "Tuti" adlı əsər də yazdığı haqda mənbələrdə məlumatlara rast gəlinsə də, böyük ehtimalla onun da repressiya dövründə məhv edildiyini təxmin etmək olar.

İsmayıl bəy Qutqaşınlını görkəmli hərbçi kimi, istedadlı nasir kimi, ictimai xadim kimi tanıdıq, bir də onu adi, gündəlik həyat tərzi keçirən insan kimi tanıyaq. Qohumlarının və həmkəndlilərinin bölüşdüyü xatirələrdə o, qürurlu, özünə güvənli, və həddindən artıq azadlıq sevən biri idi. Onunla bərabər Həcc ziyarətində olan qohumunun söylədiyinə görə öz cibindən pul ödəyərək aldığı iki qulu, Qəbələyə gətirdikdən sonra onlara azadlıq verir, hər birinə ayrılıqda toy edib evlə təmin edir. Başqa bir hadisəyə görə, səyahət etməyi çox sevən İsmayıl bəy günlərin birində İstanbulda bazarda olarkən bir alverçidən şabalıd almaq istəyir. Varlı olmasına baxmayaraq həmişə sadə geyinən İsmayıl bəyin üst-başına baxan alverçi onu kasıb zənn edərək: - "Bu sənin xörəyin deyil" sözləri ilə rədd edir. İsmayıl bəy mənliyinə və qüruruna toxunan bu hərəkətə cavab olaraq Qutqaşından 40 dəvə yükü ilə şabalıdı İstanbula gətizdirir və pulsuz camaata paylatdırır. Bu xəbəri eşidən Türk Sultanı hörmətsiz davrandığına görə alverçiyə cəza kəsir. Belə bir rəvayət də var ki, kimə görəsə ayağa qalxmağı sevmədiyindən, evinə gələnləri öncədən ayaq üstə duraraq qarşılayardı İsmayıl bəy. İmkansızlara əl tutmaq məqsədilə, nökəri Çərkəzə kasıblara mütəmadı olaraq taxıl paylaması barədə əmr vermişdi.

O, vətənini, millətini sevən, Azərbaycanlı olması ilə qürur duyan, öz xalqının maariflənməsi və inkişafı üçün böyük işlər görən, azadlıq və ərazi bütövlüyünü hər şeydən üstün sayan, uzun müddət Avropa mədəniyyətində yaşasa da, dininə və etiqadına sona qədər əməl edən əsl müsəlman olaraq qalırdı. Poruçikdən Artilleriya Generalı rütbəsinə qədər yüksələn rəşadətli döyüşçü, Rusiya imperiyasında Azərbaycan əsilli hərbçilər salnaməsinin təməlini qoyan, Azərbaycan diplomatiyasına öz töhfələrini verən siyasi xadim, həm böyük nasir, həm müəllim, həm səyyah və xeyriyyəçi İsmayıl bəy Qutqaşınlı Azərbaycan mədəniyyətinin özünəməxsus və maraqlı siması kimi xalqımızın nəzərində hörmət və böyük ehtiram qazanmışdır. Bu dahi şəxsiyyətin keçdiyi həyat yolu və ədəbi irsiuzun illər sonra da gələcək nəsillərə örnək olacaq.

***Nəticə***. Azərbaycan torpağı hər dövrdə yetişdirdiyi mərd oğulları iləiftixar duyub. Mayası vətənpərvərliklə yoğrulan Babəki, Koroğlusu, Qaçaq Nəbisi, Şıxlınskisi, Mehmandarovu, Qutqaşınlısı, Bakıxanovu var bu torpağın. Bu günkü gündə, maddi və mənəvi sərvətlərimizi qoruyub saxlayan, ölkənin iqtisadiyyatını inkişaf etdirərək cəmiyyətin maddi rifahını qaldıran, fiziki kamil və hərbi hazırlıqlı gənc nəsli yetişdirmək prioritet təşkil edən məsələlərdən biridir.

Bu baxımdan gənc nəslə örnək olacaq şəxsiyyətlərdən biri, Sant-Peterburq hərbi məktəbinin yetirməsi, şərəfli xidməti ilə general rütbəsinə qədər yüksələn hərbçi, dövrünün təhsil sisteminə və pedaqoji baxışlarına mühüm töhfələr vermiş ictimai xadim, öz ədəbi qəhrəmanlarının dili ilə haqq və ədalət uğrunda yüksək mübarizə ruhunu, sinfi bərabərsizliyi aradan qaldıraraq zəif və kasıblara kömək etmək arzusunu təbliğ edən görkəmli ədibİsmayıl bəyin keçdiyi şərəfli həyat yolu müasir gənclər üçün layiqli nümunədir.

ƏDƏBİYYAT

1. Abid Tahirli; " İdrak İşığında", Bakı: Ozan, 2010, 381s.
2. Azərbaycan Milli Ensiklopediyası /25cilddə/. 1-cild. Bakı: "Azərbaycan Milli Ensiklopediyası", Elmi mərkəzi, 2009, 884 s.
3. Azərbaycan Sovet Ensiklopediyası; 10 cilddə, 3cild. Bakı: *Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası*, 1978, 600 s.
4. Dilqəm Əhməd. İsmayıl bəy Qutqaşınlı. - http://eqoist.bloqspot.com> [01 noyabr 2022].
5. Əziz Mirəhmədov "Qəribə tale" /İ.Qutqaşınlı haqqında etüd/ // Azərbaycan jurnalı, 1967 №1, s.184-191.
6. Hacı İsmayıl bəy Qutqaşınlı;" Əsərləri". Bakı: Lider, 2005, 113s. - https://kulis.az/news/6865 [01 noyabr 2022].
7. Xalid Əlimirzəyev; İsmayıl bəy Qutqaşınlı " Bədii həqiqət uğrunda". Bakı: Yazıçı, 1984, 113 s.
8. İ.Qutqaşınlının 210 illik yubileyi münasibətilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait. Mədəniyyət Tariximizin parlaq siması- İsmayıl bəy Qutqaşınlı. Bakı, 2016, F. Köçərli adına Respublika Uşaq kitabxanasında çap olunmuşdur. - https://clb.az/files/mv/qutqasinli.pdf [01 noyabr 2022].

9. İsmayıl bəy Qutqaşınlı. Əsərləri. Bakı: "Usaqgəncnəşr", 1956, 108 s.
10. İsmayıl bəy Qutqaşınlı. Əsərləri. Bakı: Azərbaycan EA nəşriyyatı,1967, 112 s.
11. İsmayıl bəy Qutqaşınlı. Bakı: "Gənclik", 1988, 96 s.
12. Mehman Süleymanov. Azərbaycan ordusunun tarixi. 1hissə. Bakı: Maarif nəşriyyatı, 2016, 736 s.
13. Məmmədov N. "Orijinal və maraqlı sima" İ.Qutqaşınlı haqqında / Ədəbiyyat və İncəsənət qəzeti, 1981.
14. Salman Mümtaz //Azərbaycan Ədəbiyyatının qaynaqları . Bakı: Avrasiya Press. 2006, 436 s.
15. Salman Mümtaz; "Rəşid bəy və Səadət xanım" hekayəsi mühərriri Qutqaşınlı İsmayıl bəyin həyatı" / "Ədəbiyyat qəzeti", 8 iyun 1936.
16. Salman Mümtaz. " Avropa təsirindən yazılmış ilk hekayəmiz", Əlyazmalar İnstitutu, arx 38, Q-26, 505 s.
17. Salman Mümtaz. "İsmayıl bəy Qutqaşınlı haqqında qeydlər və məqalə". Əlyazmalar İnstitutu, arx 38, Q-27, 526 s.
18. Salman Mümtaz. "İsmayıl bəy Qutqaşınlıya dair sorğu, sual-cavab № 23" Hacı İsmayıl bəy Qutqaşınlı;"Əsərləri". Bakı: Lider, 2005, 224 s.
19. Salman Mümtaz. "Rəşid bəy və Səadət xanım hekayəsinin mühərriri Qutqaşınlı İsmayıl bəyin həyatı"- məqalə / " Ədəbiyyat qəzeti", 8 iyun, 1936. Hacı İsmayıl bəy Qutqaşınlı; "Əsərləri". Bakı: Lider, 2005, 224s.
20. Səbuhi Əhmədov; " Azərbaycan tarixində 100 şəxsiyyət", Bakı: Ayna mətbu evi, 2006, 268 s.
21. Şıxlinski Əli Ağa (Qutqaşınlı haqqında) Əlyazmalar İnstitutu arx.38, Q.11, 496 s.
22. Исмаил бек Куткашенлы произведения: Введения и примечания. А.Мирахмедов Баку: изд «Елм», 1967, 26 с.
23. Исмаилов Э.Э. «Георгиевские ковалеры - Азербайджанцы», Москва: Герои Отечества, 2005, с.66-76.
24. Исмаилов Э.Э. «Золотое оружие с надписью за храбрость. Списки ковалеров 1788-1913». Москва: Герои Отечества, 2007. (Люберцы, Моск. Обл. ПИК ВИНИТИ), 248 с.
25. Караманов Н.К «Путешественники и географы Азербайджана» Баку: изд. «Азернешр» 1985, 80 с.
26. Касумзаде Ф.Ф «История Азербайджанской литературы XIX века». Баку: изд. «Маариф», 1974, 110 с.
27. Чепуров Н.И. Наградные медали Государства Российского. Москва: Терра книжный клуб, Русский мир, 2002. - https:medalirus.ru/anenskaya-medal/orden-anny-1829-1911-in.php, 361 с.
28. Эфендиев И. «Первая Азербайджанская повесть на французском языке» // журнал Литературный Азербайджан, №2 1969, с.129-130.

**ГЮЛЬНАРА АЛИЕВА**
*Университет Национальной Обороны,*
*Военный Научно-Исследовательский Институт*

## ВЕЛИКИЕ АЗЕРБАЙДЖАНСКИЕ « ПЕДАГОГИ В ПОГОНАХ» ИСМАИЛ БЕК КУТКАШЫНЛЫ

Статья посвящена патриотическому духу писателя Исмаил бека Куткашынлы, который прошел достойный военный путь от звания поручика до генерала артиллерии, считавшийся одним из основоположников Национальной Военной школы, запечетлевщий неизгладимый вечный след благотворительной деятельностью, внесший вклад как дипломат в общественно-политическую жизнь Азербайджана, подчеркнуть его просветительскую роль в формировании образованного, физически и военно-подготовленного, выросшего в патриотическом духе, молодого поколения.

*Ключевые слова*: Выдающийся военный, царская Россия, писатель и поэт по прозвищу «Бедный», первый Азербайджанский рассказ на французском.

**GULNARA ALIYEVA**
*National Defense University. Military Research Institute*

## "EDUCATORS FROM PAGON" OF AZERBAİJAN ISMAYİL BEY GUTKASHİNLİ

The article is dedicated to the writer Ismail Kutkashynly, who went through a worthy military career to the rank of general, one of the founders of the National Military School, who was engaged in charitable activities, to emphasize his educational role in the formation of an educated, physically and militarily prepared young generation.

*Keywords*: Outstading millitary, royal Russia, written and poet nicknamed "the poor", the first Azerbaijani story in French.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Mehman Süleymanov, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**SƏNUBƏR İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin dosenti*
**sanubarismayilova@bsu.edu.az**

**ÜLFƏR MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*Türk dünyası tarixi ixtisası üzrə II kurs magistrantı*
**ulfarmammadli@bsu.edu.az**

# GERTRUDA BELL, ƏRƏBİSTANLI LOURENS VƏ OSMANLI TARİXİNİN SON DÖNƏMİ

*Müasir Türkiyə Cümhuriyyətinin sələfi olan Osmanlı İmperatorluğunun altı əsrdən çox davam edən tarixinin son dövründə Yaxın Şərq torpaqlarının itirilməsi prosesi bir çox səbəblərlə sıx bağlıdır. Bunlara misal olaraq bölgə xalqlarının "sədaqətsizliyi", Böyük dövlətlərinin gücü və milli kimlikdən istifadəsi, geosiyasi tarazlıqları göstərə bilərik. Xüsusən də ərəblərin üsyanı və Ərəbistan yarımadasının itirilməsində məşhur Britaniyalı kəşfiyyatçılar Ərəbistanlı Lourensin və Getruda Bellin casusluq fəaliyyətlərinin rolu böyükdür.*

*Açar sözlər*: Gertruda Bell, Ərəbistanlı Lourens, Ərəb burosu, Ərəb üsyanı.

***Giriş.*** Tarixin qədim sivilizasiyalarına ev sahibliyi edən Yaxın Şərq üç qitəni birləşdirən körpü rolunu oynayır. Qitələrarası ticarətin mərkəz nöqtəsi olan Yaxın Şərq, hər üç monoteist dinin yarandığı torpaqları özündə birləşdirir. Bütün bu əlaqələrlə yanaşı, Sənaye İnqilabından sonra xüsusi diqqət çəkən yeraltı sərvətlər Yaxın Şərqin geosiyasi əhəmiyyətini daha da artırmışdır. Bu xüsusiyyətlərinə görə bölgə öz hökmranlıq ərazilərini genişləndirmək, iqtisadiyyatlarını inkişaf etdirmək və dünya hökmranlığına çevrilmək istəyən böyük güclərin maraqlarının toqquşduğu əraziyə çevrilmişdir. XIX əsrdə Osmanlı İmperatorluğunun ərazisinə daxil olan Yaxın Şərqə böyük dövlətlərin marağının artdığı müşahidə edilir. Milli kimlikdən istifadə etmək böyük dövlətlərin dəyişməz siyasəti olduğundan, bu dövrdə onlar Şərq məsələsinin davamı olan erməni məsələsindən çox məharətlə istifadə edirdilər. İngiltərə erməni məsələsi kimi Osmanlı imperiyasının parçalanmasına yol açan məsələlərə diqqət yetirməklə yanaşı, Osmanlı torpaqlarında olan ərəb ölkələrini də ona qarşı qaldırır və onların Osmanlıdan ayrılmasına şərait yaradırdı. İngilis ordularının Ərəbistan yarımadasındakı döyüşlərinin hədəfi neft yataqlarına malik İraqın Mosul torpaqları olmuşdur. İngilislər bu torpaqları yəni, neft yataqlarını ələ keçirmək istəyirdilər. Buna görə də, Osmanlı parçalamaq üçün ən bacarıqlı casuslarını səfərbər etdilər. Bunun nəticəsi idi ki, məhz bu bölgə Birinci Dünya Müharibəsindən sonra İngiltərə və Fransanın əməyi ilə problemlər topuna çevrilir və İkinci Dünya Müharibəsindən sonra isə Yaxın Şərqdə bu günə qədər genişmiqyaslı ərəb-İsrail müharibələri baş verir və mübahisələr hələ də davam edir.

Məqalədə Yaxın Şərqdə olan siyasi böhranların təməlinin atılması, bu coğrafiyanı Osmanlıdan ayırmaq və bu bölgədə söz sahibi olmaq üçün İngiltərənin istifadə etdiyi "missioner-agentlik siyasəti nədir?", "ərəb burosunun fəaliyyətində və ərəb üsyanın baş verməsində rolları nədən ibarət olmuşdur?" kimi suallara cavab verilməyə çalışılacaq.

***Misioner-agentlik nədir?*** Əksər dövlətlərin daxili və xarici siyasətində agentlik (casusluq) fəaliyyəti həlledici və həyati əhəmiyyətə malikdir. Çünki bu yolla dövlətlər, siyasi, hərbi, sosial, iqtisadi, mədəni, dini və s. vəziyyətindən xəbərdar olurlar. Azərbaycan izahlı lüğətində "agent" sözünün iki mənası var: 1. Hər hansı xidməti və ya xüsusi tapşırığı yerinə yetirən, başqasının göstərişi ilə (gizli, yaxud açıq) iş görən şəxs, casus, 2. Başqa yerdə bir qurumun, təşkilatın, ortaqlığın işini həyata keçirən şəxs, əməkdaş kimi [1, s.52]. (Məqaləmizdə agent sözünü birinci mənada istifadə edirik). Missioner sözü isə latın "missio" sözündən gəlir, lüğəvi mənası baxımından "məsul şəxs" deməkdir. Azərbaycan izahlı lüğətində bir dini, xüsusən də xristianlığı yaymaqda ittiham olunan şəxs kimi verilsə də [2, s.378], fikrimizcə, özünü hər hansı ideyanın, idealın yayılmasına həsr edən insan kimi başa düşməyimiz məqalədə verilmək istənilən məlumatları anlamağımız üçün daha faydalı olar. Çünki,

missionerlik fəaliyyəti 3 əsas növə ayrılır. Bunlardan biri maskalı təşkilatlardır ki, ərəblərin Osmanlı İmperiyasına qarşı üsyanında maskalı missionerlər mühüm rol oynamışlar [7, s.271-273]. Bir çox dövlətlər maskalı missionerlər vasitəsilə digər dövlətlərə sızıb və bu missionerlər sonrakı tarixi gedişdə siyasi ambisiyalarını həyata keçiriblər. İngilislər bu məsələdə digər dövlətlərdən bir neçə addım öndədirlər. Bu xüsusilə, Osmanlı İmperiyasındakı fəaliyyətlərində açıq-aydın görünür. Ona görə də, zənnimizcə, İngilis casusları Bell və Lourensin fəaliyyətini missioner-agentlik adlandırmaq daha doğru olardı. Bir sözlə deyə bilərik ki, ingilislər missionerlərdən tamamilə imperialist məqsədlər üçün istifadə ediblər və bunun dinlə heç bir əlaqəsi yoxdur.

***İngiltərənin misioner-agentləri Osmanlı imperiyasında.*** Osmanlı İmperiyasına məxsus torpaqlar təkcə strateji və geosiyasi əhəmiyyət daşımır, həm də böyük arxeoloji əhəmiyyətə malikdir. Xüsusilə, Osmanlı İmperatorluğunun parçalanma dövründə xarici ölkələrin mütəxəssisləri bu əhəmiyyəti dərk edərək Osmanlı coğrafiyasında arxeoloji fəaliyyət həyata keçirmiş və bu araşdırmalarda ortaya çıxan arxeoloji tapıntıların bir hissəsini öz ölkələrinə aparmışlar. Ancaq bir müddət sonra arxeoloji fəaliyyət adı altında aparılan işlər kəşfiyyat sisteminin bir hissəsinə çevrildi. Yəni, arxeoloq şəxsiyyəti onların siyasi kimliyini ört-basdır etmək üçün bir vasitə oldu. Bu, əslində Osmanlı imperiyasını parçalamaq və Yaxın Şərqdə hökmranlıq qurmaq istəyən ingilislərin həyata keçirdiyi dövlət siyasəti idi. Səyahətlərini İngiltərənin himayəsi və dəstəyi ilə həyata keçirən Gertrude Bell və Lourensin əsas məqsədi bölgədəki ərəb tayfalarının vəziyyətini öyrənmək və onları Osmanlıya qarşı üsyana sövq etmək idi. Bunu da arxeoloji qazıntılar adı altında Osmanlı imperiyasının ərazisinə gələrək edirdilər.




Gertruda Bell (Gertrude Margaret Lowthian Bell) arxeoloq, tarixçi, yazıçı, şair, səyyah, alpinist, incəsənət tarixçisi və ən əsası ingilis casusu idi. Ona "İraqın tacsız kraliçası", "Səhra kraliçası" və ya "əl-Xatun" kimi titullar verilmişdir. Ərəb dərsliklərində onu "qəhrəman qadın" kimi qeyd etmişdirlər. Gertruda Bell 14 iyun 1868-ci ildə İngiltərədə sənayeçi ailəsində anadan olmuş, Oksford Universitetində Müasir Tarix, Coğrafiya və Arxeologiya fakültələrində təhsil almışdır. Arxivində verilən şəkillərdən görürük ki, o 1899-cu ildən 1911-ci ilə qədər dəfələrlə Anadoluya gəlmiş, İstanbul başda olmaqla Egey, Aralıq dənizi, Cənub-Şərqi Anadolu və Şərqi Anadoluya səyahət etmişdir. Geridə kitablar, gündəliklər, fotoşəkillər və məktublar qoyan Gertruda Bell 1916-cı il 11 avqust tarixli məktubunda "düşünürəm ki, türklər Mesopotamiyada çox vaxt keçirmirlər. Osmanlı hökuməti Bağdad və bir neçə başqa şəhərdən başqa hər yerdən yoxa çıxmış kimi görünür. Qəbilələr tam olaraq istədiklərini edirlər" [3] yazaraq Osmanlı imperiyasının o zamanki, tarixi haqqında məlumatlar vermişdir. İngilis agenti və arxeoloqu Gertruda Bellin həyatı 2015-ci ildə çəkilmiş Səhra Kraliçası filminin mövzusu olmuşdur. Rejissorları Verner Horzoq və Ridley Skott olan film maraqlı və macəraçı Bellin həyatının bilinməyən tərəflərinə yönəlib [4].

T.E.Lourens (Thomas Edward Lawrence, 1888-1935) isə 16 avqust 1888-ci ildə İngiltərənin Uelsin Tremadok şəhərində anadan olmuş, 1909-cu ildə Oksford Universitetini bitirdikdən sonra 1910-cu ildən 1914-cü ilə qədər arxeoloji qazıntılarla məşğul olmuşdur. Bu yolla Birinci Dünya mü-

haribəsindən əvvəl Osmanlı coğrafiyasının xəritəsini çıxarmış və etnik quruluşunu müəyyən etmişdir [9]. Lourensin arxeoloji qalıqlar yeri olaraq çəkdiyi xəritələr Sayks-Piko üçün hazırlıq idi. Rejissoru David Lean, prodüseri isə Sem Şpigel olan Ərəbistanlı Lourens (Lawrence of Arabia) filmi T.E.Lourensin "Müdrikliyin yeddi sütunu" kitabı əsasında ərsəyə gəlmişdir [5]. 122 fəsildən ibarət olan kitabda türklərə qarşı duyduğu hədsiz nifrət və ingilis şovinizmi diqqəti cəlb edir [6].

Ümumiyyətlə, hər iki casusa verilən tapşırıq Osmanlı İmperiyasının vəziyyətini yaxından araşdırmaq, məlumat toplamaq, Osmanlı xalqının etnik mənşəyi və məzhəbləri haqqında hesabatlar hazırlamaq idi. Onlar, hansı tayfaların dövlətin tərəfində olması, hansıların üsyana meyilli olması barədə sənədlər toplusu tərtib edirdilər.

***Ərəb burosundan ərəb üsyanına.*** İngiltərənin Qahirədə kəşfiyyat idarələri olmasına baxmayaraq, həmin idarələrin əhatə dairəsi daha geniş olduğu üçün yalnız ərəblərlə məşğul olacaq bir ofisə ehtiyac var idi. Beləliklə, 1916-cı il 4 fevralda Ərəb burosunun əsası qoyulur. Buroda fəaliyyət göstərənlər arasında ingilis siyasətçisi, jurnalist, akademik və arxeoloq kimi müxtəlif peşələrdən olan insanlar var idi [11]. Büro üzvləri əməliyyat zonasından daxil olan məlumatları toplayıb təhlil edərək məxfi hesabata çevirirdilər. Bu hesabatlar "Ərəb Bulletin"də dərc olunurdu. Ərəb Bürosunun birinci vəzifəsi Almaniyanın və Osmanlının siyasətlərinin ümumi tendensiyası barədə Britaniya Xarici İşlər, Hərbi İdarə, Hindistan Ofisi, Hindistan Hökuməti və Dəniz Komandanlığını eyni vaxtda məlumatlandırmaq idi. Büronun ikinci vəzifəsi, Hindistan müsəlmanlarından başqa müsəlmanlara qarşı aparılacaq təbliğat işlərini İngiltərənin xeyrinə qarşıdurma yaratmadan həyata keçirmək idi [8, s.1135].

Ərəb Bürosunun üzvləri bölgədə Şərif Hüseyn üsyanının başlanmasında və böyüməsində fəal rol oynayır və üsyançılara fikrən kömək edirdilər. Bölgədəki bədəvi ərəbləri arasında təbliğat fəaliyyəti ilə yanaşı, rüşvət paylayaraq onları da üsyana qoşulmağa təşviq edir, Ərəbistan yarımadası ilə Osmanlı İmperiyası arasındakı mübahisələri sürətləndirirdi. Belə ki, Ərəb Bürosunun bölgədəki fəaliyyəti nəticəsində bölgədə qeyri-sabitlik və parçalanma baş verdi. Ərəb burosunun fəaliyyətində və Ərəb üsyanının baş tutmasında İngiltərə adına həmin bölgədə casusluq fəaliyyəti həyata keçirən yuxarıda bəhs etdiyimiz məşhur Tomas Edvard Lourens və Gertura Bellin rolu böyükdür.

Gertruda Bell və T.E.Lourens Birinci Dünya Müharibəsindən xeyli əvvəl Yaxın Şərqdə arxeoloqlar adı altında 1910-cu ildə Cerablusda Xet xarabalıqları üzərində işləmək üçün tanış olublar [10, s.8]. 1914-cü ilin may ayında İstanbul üzərindən İngiltərəyə qayıdan Bell, qısa müddət sonra başlayan Birinci Dünya Müharibəsi zamanı ilk olaraq Bulonda döyüş yaralılarını və itkilərini axtaran komitədə iştirak etdi. Lakin o, 1915-ci ilin Lourenslə birlikdə Osmanlı idarəçiliyinə qarşı ərəb üsyanını hazırlayanlar sırasında olmaq üçün Qahirəyə göndərildi [12]. Daha sonra Ərəb Bürosu adlanan bu təşkilatda leytenant rütbəsi ilə fəaliyyətə başlayan Lourens, hərbi xəritələrin hazırlanmasında və xüsusilə də hərbi əməliyyatlardan sonra ingilislər tərəfindən əsir alınan Osmanlı əsirlərinin sorğu-sual və məlumat toplama işlərində iştirak etmişdir. O, 1915-ci ildə Qarqamışda rastlaşdığı ermənilər vasitəsilə Şərq cəbhəsində çalışan erməni əsilli Osmanlı zabitlərinin adlarını müəyyənləşdirib və bu adları ingilis kəşfiyyatına ötürərək rus kəşfiyyatına çatdırılmasında rol oynamışdır. Rusiya ordusu da bu zabitləri zaman keçdikcə öz sıralarına cəlb edirmişlər [10, s.6]. Bununla da ermənilər tərəfindən Osmanlıya qarşı törədilmiş təxribatlar artmış olur. Bu məlumat ilə Lourensin ərəb üsyanı kimi erməni üsyanlarının da törədilməsində müəyyən rol oynadığını demək mümkündür.

Gertruda Bellə isə ərəblərin Osmanlılara qarşı üsyanını genişləndirmək tapşırığı verildi. O, Qahirədə, İraqda, Suriyada və Ərəbistan yarımadasında ağır şəraitdə dəvə belində səhraları keçərək, müxtəlif qəbilə üzvləri və dini liderlərlə görüşərək xalqın etibarını qazandı. Qarqamışda qazıntı aparan ingilis arxeoloqu L.Vuli ilə Osmanlı İmperiyasının müxtəlif yerlərində (Krit, Tesaliya və Anadolu) illər boyu səyahət edən arxeoloq D.Hoqart da ərəb burosunda fəaliyyət göstərirdilər. Bundan əlavə, müharibədən əvvəl Anadolu boyunca səyahət edən Anadolu arxeologiyası mütəxəssisi Sayks da burada idi [12]. Onlar, ərəblərə müdaxilə edərək onları ingilis siyasəti çərçivəsində istiqamətləndirir, tayfaların Osmanlı imperiyasına qarşı üsyan etmələri üçün lazım olan kəşfiyyat məlumatlarını İngiltərəyə göndərirdilər. Bölgənin sosioloji quruluşu, su ehtiyatları və dəmir yolu marşrutları haqqında geniş biliyə malik olduqlarından, müharibə boyu Britaniya hökumətinə daimi məlumat axınını təmin edirdilər. Burada maraqlı bir faktı da diqqətə çatdırmaq istərdik. Sevdiyi insanı Çanaqqala döyüşündə itirdikdən sonra Gertruda Bell türklərdən bunun qisasını alacağına dair söz verir və bu mənada

müəyyən araşdırmalarda "sevgisi uğruna Osmanlını parçalayan qadın" olaraq da xatırlanmaqdadır. Müharibədən sonra həyatlarını Ərəbistanda davam etdirən Gertruda Bell və Lourens İraqın idarəçiliyində də əsas fiqurlardan olmuşdular.

Yaxın Şərqdə müsəlman xalqına qarşı kəşfiyyat fəaliyyəti üçün yaradılan büronun Ərəb Bürosu adını alması, Birinci Dünya Müharibəsi illərində müsəlmanlar arasında təbliğat aparmaq üçün nəşr olunan qəzetin ərəbcə "El Truth" adlanması, Şərif Hüseyn üsyanını dünya ictimai rəyinə ərəb üsyanı kimi təqdim edilməsi təsadüfi deyildi. İngiltərə bu cür fəaliyyətlərdə tez-tez yerli adlardan istifadə edirdi. İngiltərə bununla siyasi ambisiyalarını gizlətmək və ərəblərin maraqları üçün bölgədə olduğu mesajını vermək istəyirdi.

Maraq üçün bunu da qeyd edək ki, Şərif Hüseyn qiyamını ərəb millətçiliyinə əsaslanan üsyan kimi qiymətləndirmək olmaz. Çünki bir neçə il davam edən üsyan zamanı Şərif Hüseyni bölgədəki digər yerli rəhbərlər və onlara bağlı olan insanlar dəstəkləməmişdi. Bundan əlavə, Osmanlı ordusunda minlərlə ərəb əsgəri xidmət edirdi və bölgə əhalisinin əhəmiyyətli bir hissəsini əhatə edirdi. Yerli liderlərin bir hissəsi açıq şəkildə Osmanlı İmperatorluğunun tərəfində idi. Şərif Hüseynin ətrafında ərəb dünyasından cəmi bir neçə min insan var idi ki, o zaman onların ümumi əhalisi yeddi milyona yaxın idi. Onların sadiqliyi Şerif Hüseyndən çox Britaniya qızılına idi. Bundan başqa, İslam dünyasının müxtəlif yerlərində Şərif Hüseynin qiyamına etiraz edilib və Şərif Hüseyn pislənilib.

***Nəticə***. Avropadan gələn əcnəbilərin təmiz niyyətlə ölkəni gəzmədikləri, onların əsas məqsədinin ölkə daxilində birliyi pozmaq, üsyanlara şərait yaratmaq olduğu və dövlət haqqında məlumatlar əldə etmək istəyi hər birimizə açıq-aydın məlumdur. İngiltərə tərəfindən Osmanlı ərazisinə göndərilən casuslarda bu məqsədlərə xidmət edirdi. Elə bunun nəticəsidir ki, Şərif Hüseyn və oğullarının böyük imperiya yaratmaq arzularından istifadə etmişlər. Ərəb üsyanının baş verməsində Qahirə və Dehlidə qurulan Ərəb bürosunun xüsusilə də İngilis casusları olan Gertruda Bell və Lourensin mühüm nailiyyətləri olmuşdur. Bəzi mənbələrdə Lourensin rolunun həddindən artıq şişirdilməsinə hətta üsyandakı roluna görə Ərəbistanlı Lourens adını almasına və Gertruda Bell haqqında isə, ingilislər üçün çox mühüm işlər görməsinə baxmayarq, verdiyi hesabatların məxfi olduğu üçün haqqında danışılmadığına da şahid oluruq. Lakin, fikrimizcə, ərəb üsyanlarının həyata keçirilməsində və Osmanlı imperiyasının təsir dairəsində olan Ərəbistan yarımadasının itirilməsində hər iki şəxsin istər arxeoloji qazıntılar zamanı topladığı materiallari, istərsə də ərəb burosundakı fəaliyyətləri danılmazdır. Yalnız ərəblərin üsyan zəfəri uzun sürmür. Müharibə zamanı müstəqillik üçün hərbi və maddi yardım müqabilində ingilislərlə birləşən və Şərif Hüseynin başçılığı ilə üsyana qalxan ərəblər tezliklə Balfur bəyannaməsi və gizli Sayks-Piko müqaviləsi ilə aldandıqlarını başa düşdülər. Ərəb dövləti xülyasında olan Faysalın öz krallığını elan etməsi cəmi bir həftə davam edir. Osmanlı Mudros sazişini imzalayaraq müharibədən çəkilməsi ilə ərəblərə ehtiyacı qalmayan İngiltərə və Fransa 7 Noyabr 1918-ci ildə verdikləri ultimatumla qurulduğu elan etdikləri dövlətlərin əslində işğal altında olan torpaqlar olduğunu və bu ərazilərin taleyi gələcəkdə təşkil ediləcək bir sülh sazişi bəlli olacağı bildirilir. Lakin bu dönməz mərhələdən sonra ərəblər bir müddət müharibədə qalib gələn fransız və ingilislərin mandat sistemində yaşamalı oldular. 1940-cı illərdən müstəmləkəçi dövlətlərin öz müstəmləkələrini ləğv etmə prosesinə başlaması ilə ərəblər yalnız bu dövrdə mandat ölkələrinin işğal olunmuş ərazilərdə maraqlarını möhkəmləndirdikdən sonra müstəqillik əldə etdilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan izahlı lüğəti 4 cilddə, I cild, Bakı, Şərq-Qərb, 2006, 672 s. – https://www.ebooks.az/view/VvUzr7gE.pdf [Müraciət tarixi: 20.11.22].
2. Azərbaycan izahlı lüğəti 4 cilddə, III cild, Bakı, Şərq-Qərb, 2006, 670 s. – https://ebooks.az/view/W4z1CR3y.pdf [Müraciət tarixi: 20.11.22].
3. Gertrude Bell Archive, Newcastle University, 2014. – http://gertrudebell.ncl.ac.uk/ [Müraciət tarixi: 20.11.22].
4. Gertrude bell biography. – https://www.biography.com/writer/gertrude-bell [Müraciət tarixi: 20.11.22].

5. Lawrence of Arabia. – https://www.britannica.com/topic/Lawrence-of-Arabia-film-by-Lean [Müraciət tarixi: 20.11.22].
6. Lawrence.T.E, The Seven Pillars of Wisdom, 2010, 690 s. – https://www.pdfdrive.com/the-seven-pillars-of-wisdom-e193640238.html [Müraciət tarixi: 20.11.22].
7. Mehmet Aydın, Dinler tarihine giriş, Konya, Damla ofset, 2008, 306 s. – http://bizdosyalar.nevsehir.edu.tr/6c67cd15b104cd5c5dce55420f72a956/din-kulturu-ve-ahlak-bilgisi-egt-2.pdf [Müraciət tarixi: 20.11.22].
8. Mustafa Çabuk, İngiliz belgelerine göre İngilterenin Ortadoğudakı istihbarat merkezi: Arap buro (1916-1920) // Belgi Dergisi, C.2, S.17, Pamukkale Üniversitesi Atatürk İlkeleri ve İnkılap Tarihi Araştırma ve Uygulama Merkezi Yayınları, Kış 2019, s.1130-1147. – https://dergipark.org.tr/tr/download/article-file/637297 [Müraciət tarixi: 20.11.22].
9. Orhon Koloğlu, Lawrence, Thomas Edward / İslam Ansiklopedisi, 27 Cilt. Ankara, TDV, 2003, s.114-116. – https://islamansiklopedisi.org.tr/lawrence-thomas-edward [Müraciət tarixi: 20.11.22].
10. Sait Yılmaz, Ortadoğuda İngiliz İstihbaratı;1914-1918, 2017, 20 s. – https://www.academia.edu/33240897/Ortado%C4%9Fuda_%C4%B0ngiliz_istihbarat%C4%B1_1914_1918 [Müraciət tarixi: 20.11.22].
11. Samir Seikaly, Arab bureau, International encyclopedia of the first war. – https://encyclopedia.1914-1918-online.net/article/arab_bureau [Müraciət tarixi: 20.11.22].
12. Semavi Eyice, Bell, Gertrude Lowthian/ İslam Ansiklopedisi, 5 Cilt. İstanbul, TDV, 1992, s.422-423. – https://islamansiklopedisi.org.tr/bell-gertrude-lowthian [Müraciət tarixi: 20.11.22].

**САНУБАР ИСМАЙЫЛОВА**
*Доцент Бакинского Государственного Университета*

**УЛФАР МАММЕДЛИ**
*Магистрантка 2 курса Бакинского Государственного Университета*
*по специальности «История тюркского мира»*

## ГЕРТРУДА БЕЛЛ, ЛОУРЕНС АРАВИЙСКИЙ И ПОСЛЕДНИЙ ПЕРИОД ОСМАНСКОЙ ИМПЕРИИ

Процесс утраты земель на Ближнем Востоке в последний период более чем шестивековой истории Османской империи, предшественницы современной Турецкой Республики, тесно связан со многими причинами. Примерами этого являются «нелояльность» народов региона, использование силы и национального самосознания великих держав, а также геополитические балансы. В частности, большую роль в арабском восстании и потере Аравийского полуострова сыграла шпионская деятельность известных английских мореплавателей Лоуренса Аравийского и Гетруды Белл.

*Ключевые слова*: Гертруда Белл, Лоуренс Аравийский, арабское бюро, Арабское восстание.

**SANUBAR ISMAYILOVA**
*Accosiate professor of Baku State University*

**ULFAR MAMMADLİ**
*Master's student of the 2nd course of the Baku State University,*
*majoring in "History of the Turkic world"*

## GERTRUDE BELL, LAWRENCE OF ARABIA AND THE LAST PERIOD OF OTTOMAN HISTORY

The process of loss of lands in the Middle East during the last period of more than six centuries of history of the Ottoman Empire, the predecessor of the modern Republic of Turkey, is closely related to many reasons. Examples of these are the "disloyalty" of the peoples of the region, the use

of the power and national identity of the greIat powers, and geopolitical balances. In particular, the espionage activity of the famous English explorers Lawrence of Arabia and Getrude Bell played a major role in the Arab uprising and the loss of the Arabian Peninsula.

*Keywords*: Gertrude Bell, Lawrence of Arabia, Arab Bureau, The Arab Revolt.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**ƏLƏMDAR ŞAHVERDİYEV**
*Bakı Dövlət Universitetinin dosenti*
**alamdarshahverdiyev@bsu.edu.az**

**VAQİF NƏBİYEV**
*Bakı Dövlət Universitetinin baş müəllimi*
**vaqifnabiyev@bsu.edu.az**

# SAXTA "DAĞLIQ QARABAĞ MİFİ" VƏ TARİXİ REALLIQ

*Dağlıq Qarabağ mifinin tarixi uzaq keçmişə gedir. VII əsrdən etibarən erməni qriqoryan kilsəsi ərəb xilafətinin himayəsi altında Albaniya ərazisində, xüsusən sağsahildə "erməniləşdirmə " siyasəti həyata keçirməklə bu məkrli planı tarixi şəraitə uyğun olaraq davam etdirir.XIX əsrin II yarısında erməni siyasi təşkilatları öz fəaliyyətini Cənubi Qafqaza keçirdi. Məqsəd müsəlman-türk torpaqları hesabına "Ermənistan" dövləti yaratmaq idi.Süni "Dağlıq Qarabağ" siyasi ərazi vahidliyinin təşkili məkrli erməni planının bir hissəsi idi.*

*Açar sözlər*: Xəmsə, Bayat, Şaxbulaq, Cavanşir, Şuşa.

***Giriş***. Azərbaycan Respublikasının təbii-coğrafi ərazisi olaraq Qarabağ regionuna bu inzibati rayonlar: Yevlax, Bərdə, Goranboy, Tərtər, Ağdam, Beylaqan, Füzuli, Ağcəbədi, Cəbrayıl, Ağdərə, Xocavənd, Ağoğlan, Əsgəran rayonu, Xankəndi və Şuşa şəhəri daxildir. 1921-ci ilə qədər Azərbaycan ərazisində müstəqil təbii-coğrafi "Dağlıq Qarabağ" adında ərazi vahidi yox idi və 1920 - ci il aprel ayının 28-də Azərbaycanin sovet Rusiyası tərəfindən işğalı nəticəsində süni surətdə yaradıldı (*Qeyd:Rusiya bundan sonra, çar Rusiyası, menşevik Rusiyası və sovet Rusiyası kimi veriləcək* - Ə.Ş.).

Bunun əsas səbəbi, Azərbaycanda yaradılan işğalçı sovet orqanının milli tərkibinin Nəriman Nərimanov istisna olmaqla, qeyri-azərbaycanlılardan ibarət olması idi [5, s.135-136; 13, s.5-20]. Sovet Rusiyasının Azərbaycana qarşı bu cür qərəzli yanaşması 1934-cü il M.C.Bağırov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbər təyin olunana qədər (AKP MK) davam etmişdir. Aşağıda verilən kommunist şəcərəsi bunu təsdiq edir: N.Nərimanov (1920-1921), S.M.Kirov (1921-1926), N.A.Ağaverdiyan, L.Mirzoyan cütlüyü (1926-1929), N.K.Gikalo (1929-1930), V.İ,Polonski (1930-1933), Ruben (1933-1934) [6, s.281]. Sovet Rusiyasının ali hakimiyyət orqanı olan Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi və onun yerli təşkilatı olan Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi Qafqaz bürosu (*Qeyd: bu orqanlar PK(b)P MK, RK(b)P MK Qafqaz bürosu kimi veriləcək* - Ə.Ş.), müsəlman-türk regionu olaraq Azərbaycanı parçalamaq məqsədi ilə tarixi torpağımız olan Zəngəzur qəzasına tətbiq etdiyi mənfur siyasəti Qarabağda da həyata keçirdi. Sovet hakimiyyəti bu ərazini "aran" və "Dağlıq Qarabağ olmaqla iki hissəyə böldü. İşğalçı sovet hakimiyyəti Azərbaycan xalqının iradəsini nəzərə almadan "etnik-dini" mənsubiyyət prinsipi ilə "Dağlıq Qarabağ"da öz siyasi marağına uyğun olaraq inzibati ərazi muxtariyyəti yaratdı [7, s.152-153].

Bütöv Azərbaycan tarixinin yaranmasında Qarabağ müstəsna əhəmiyyət kəsb edir. Qarabağın tarixi qədim dövrə gedib çıxır. Kür və Araz çayları arasındakı ərazilər qədim sivilizasiya ocaqlarından biridir. Bu ərazi Aralıq dənizi hövzəsi və Şimali Afrika ilə birlikdə insanlığın vətəni hesab olunur. Bunun bariz nümunəsi olan Azıx mağarası Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz dağlarının cənub-şərq yamacında, Qarabağın Quruçay dərəsində, Tuğ çökəkliyində, Quruçay çayının sol sahilində, çaydan 3 km aralıda yerləşir. Qarabağın Xocavənd rayonunun Azıx və Salakətin kəndləri arasında, Füzuli şəhərindən 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 900 m hüdürlükdə yerləşən mağara kompleksidir. 1968-ci il iyun ayının 23-də Azərbaycanın görkəmli arxeoloqu prof. M.Hüseynov tərəfindən Azıx mağarasında aşkar edilmiş insanın alt çənə sümüyü Azərbaycanı insanlığın vətəni edərək dünyanın dördüncüsü etdi. Son 30 ilə yaxın torpaqlarımız, o cümlədən Azıx mağarası işğal altında olduğu müddətdə üzdəniraq erməni "alimləri" Azərbaycan mədəniyyətinin unikal abidəsi olan Azıx mağarasını da "erməniləşdirərək" həyasızcasına dünyaya

bəyan edirdilər ki, guya bu mağaradan tapılan çənə sümüyü "ermənиyə" məxsusdur. Dünya tarixində ilk insanların meydana gəldiyi dövrdə etnik mənsubiyyət bəlli olmadığı üçün, bu cür yanaşma erməni "sərsəmliyin"dən başqa bir şey deyil. Qarabağ ərazisndə Azərbaycanın ən zəngin daş dövrü abidələrindən biri də Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisində, Quruçay çayının sol sahilində yerləşən Tağlar mağarasıdır. 1971-ci ildə görkəmli Azərbaycan arxeoloqu M.Hüseynov bu mağarada da arxeoloji qazıntı apararaq Azərbaycanın maddi mədəniyyətini zənginləşdirən kifayət qədər maddi mədəniyyət nümunələri aşkar etmişdir [15, s.20-23]. Qarabağ ərazisində ən zəngin arxeoloji abidələrdən biri də Xocalı rayonunun ərazisində həddən artıq çoxluq təşkil edən və öz qeyri-adiliyi ilə seçilən kurqanlardır. Xocalıda kurqandan tapılan və üzərində mixi yazısı ilə Assur hökmdarı Ədədnerarinin adı yazılmış əqiq muncuq onu göstərir ki, e.ə. IX əsrdə Qarbağ regionunda yüksək inkişaf olduğu üçün Yaxın Şərqin Assuriya kimi böyük dövləti ilə ticarət əlaqələri olmuşdur. Ümumiyyətlə Qarabağ ərazisinin zəngin təbii-coğrafi şəraiti, flora və faunası burada ən qədim zamanlardan ulu əcdadlarımızın yaşamasını təmin etmişdir. Bunu Qarabağ ərazisində olan arxeoloji abidələr və qədim zamanlardan müasir dövrə qədər mövcud olan tarixi mənbələr və arxiv sənədləri təsdiq edir. Assuriya mixi yazılı mənbələrdə Şimali Azərbaycan ərazisi –İllipi (Kür ilə Qanıx çayları və xəzər dənizi arasındakı torpaqlar), Xarxar (Kür ilə Araz çayları arasındakı torpaq - Qarabağ), Kaspi (Kür və Araz çayının sağ sahili ilə Xəzər dənizinin cənub sahilindəki torpaqlar) adlanırdı [12, s.24].

Qarabağ Assuriya mixi yazılı mənbələrdə - Xarxar (türk mənşəli sözdür və xalq arasında çox işlənir - Ə.Ş.) adlanır. E.ə.VII əsrdən etibarən Şimali Qara dəniz sahillərindən hərəkət edərək Dərbənd keçidi vasitəsilə Azərbaycan ərazisinə bir-birinin ardınca türk mənşəli kimmer, skif və sak tayfaları daxil olmuşdur. Hər üç tayfa tarixi şəraitə uyğun olaraq, Hun tayfasının ilk adının daşıyıcısıdır. Onlar Azərbaycan-türk xalqının yaranmasında yaxından iştirak etmişdir. Bunu Ağdam, Füzuli, Xocalı, Bərdə, Tərtər və Goranboy rayonlarının ərazisində arxeoloji qazıntılar nəticəsində əldə edilən skif kurqanları və digər maddi mədəniyyət nümunələri sübut edir. E.ə. IV əsrdə Şimali Azərbaycan ərazisində Albaniya dövləti yarandı. Albaniya ərazisi inzibati-ərazi bölgüsünə görə əyalət və vilayətlərə bölünürdü. Albaniyanın əyalətlərindən biri olan Qarabağ oranın aborigen əhalisi olan türk dilli Sak tayfasının şərəfinə Arsak adlanırdı. Arsak sözünün mənası - ər, igid saklar deməkdir. Arzuolunmaz qonşumuz olan ermənilər Albaniya adını erməniləşdirərək "Aqvank" adlandırdıqları kimi, Arsak adını da mənimsəyərək üzdəniraq "Artsax" adı veriblər. Eramızdan əvvəl III əsrdən başlayaraq Aralıq dənizi hövzəsində möhkəmlənən Roma dövləti sələfi Makedoniya imperiyasını bərpa etmək üçün şərqə yürüş edir. Bizim eradan əvvəl II əsrdə Dəclə çayının yuxarı axarında yaranan kiçik erməni çarlığı Roma-Parfiya müharibələri nəticəsində hər iki dövlətin zəifləməsindən istifadə edərək ərazilərini genişləndirməyə çalışır. Bu zaman Erməni çarlığı bir sıra əraziləri,o cümlədən Albaniyanın bir hissəsini işğal edir. Lakin onların Albaniyanı "erməniləşdirmək" cəhdi uğursuzluğa düçar olur. 387-ci il Roma ilə Sasani dövləti arasında imzalanan müqavilənin şərtlərinə uyğun olaraq, ermənilər tərəfindən işğal olunan torpaqlar öz sahiblərinə qaytarılır və "Böyük Ermənistan" adlanan qondarma dövlətin varlığına son qoyulur. Bu dövrdən XX əsrin 20-ci illərinə qədər tarix səhnəsində erməni dövləti anlayışı olmayıb. IV əsrdə ermənilər xristian dinini qəbul etdikdən sonra erməni Qriqoryan kilsəsi erməni xalqı üzərində dominantlığını təmin edərək başqalarının ərazilərində, o cümlədən Qarabağda "erməniləşdirmək" siyasətini həyata keçirməyə cəhd göstərib. Erməni müəllifi Vartapetov Qarabağın xristian abidələri məqaləsində yazır ki, erməni Qriqoryan kilsəsi siyasi şəraitdən asılı olaraq öncə bizanslıların sonra isə ərəblərin, səfəvilərin, qacarların ən nəhayət sonda rusların xidmətində dayanaraq erməni xalqının maraqlarını təmin etməyə çalışıb. 704-cü il erməni katalikosu İlya ərəb xəlifəsi əl-Mömin Əbd əl-Malikə Alban kilsəsi ilə bağlı məktub yazaraq satqınlıq etmişdir. Guya Alban çarı və Alban kilsəsi Bizansla ittifaqa girərək ərəblərə qarşı qiyam hazırlayır. Katalikos İlya məktubunda yazır: " ...Partavda (Bərdədə - Ə.Ş.) oturan indiki Aqvan katalikosu yunanların imperatoru ilə sözü bir yerə qoyub oxuduğu dualarda onun adını çəkir və ölkələrimizi onunla bir dində birləşməyə məcbur edir. Qoy bu hadisələrdən Sizin xəbəriniz olsun və bu hadisəyə Siz biganə qalmayın. Əmr edin, Sizin böyük hökümünüz ilə onlara cəza verilsin" [2, s.63]. Bu satqınlıq nəticəsində ərəblər tərəfindən 705-ci il Albaniya dövlətinin varlığına son qoyuldu. Bu "xidmətinin" müqabilində katalikos İlya

Xəlifədən Alban kilsələrinin ona tabe edilməsini istədi. O, bu "məkrli" plana qismən nail olsa da, Alban Pravaslav kilsəsinin müstəqillik uğrunda mübarizəsi onların bu istəyini iflasa uğuratdı. Alban adının ermənilərlə heç bir əlaqəsi yoxdur. Albanlar müasir azərbaycanlıların əcdadı olaraq Cənubi Qafqazın aborigen etnosudur.Albanların mənşəyi ilə bağlı yunan-roma müəllifləri Strabon (e.ə.63 - b.e.23), Plini (29-79), Tatsit (56-117), o cümlədən Alban müəllifi Moisey Kağanqatlının "Alban tarixi" əsərində albanların mənşəyi haqqında ətraflı məlumat verilir [7; 12; 15].

Moisey Kağanqatlı ümumi alban adı altında türk mənşəli qarqar və kaspilərin adını çəkir. Tarixi əcdadımız olan albanların kimmer, skif və sak tayfaları ilə ortaq kök bağlılığı var. Baxmayaraq ki, bəzi müəlliflər kimmer tayfasını hind-avropa dil ailəsinə aid etmək istəyir. Əslində kimmerlər qədim türk tayfasının bir qolu olaraq onların tarixi izləri Qərbi Avropaya qədər gedib çıxır. Rus tarixcisi K.V.Trever yazır ki, Alban adının Avropadaki Alp adı ilə ortaq bağlılığı var. Kelt dilində Alp "Dağlıq, yüksəklik" mənasını verir. Yunan müəllifi Strabon da yazır ki, Albanlar dağ adamı olaraq uca boylu idilər. Avropada digər bir paralellik aparmaqla qeyd olunur ki, "Qədim Kelt adı olan Şotlandiya" nə zamansa "Albaniya" adlanırmış. Hal-hazırda Şotlandiyanın dağlarla əhatə olunmuş adalarından biri "Arran" adlanır. Azərbaycan toponomikasında Kimmerlərin bir qolu olan Keltlərlə bağlı yer adları mövcuddur. Məsələn: Ağdam rayonunun Şotlanlı kəndi, o cümlədən Qarabağın məşhur at cinsləri ilə Şotlandiyanın at cinsləri arasında genetik bağlılıq bunu sübut edir [15, s.64; 17, s.5]. Quba rayonunun Alpan kəndinin adı qədim Albaniya ilə bağlıdır. Bu onu göstərir ki, qədim Azərbaycan dövləti olan Albaniya ilə Avropa arasında tarixi bağlılıq mövcuddur. Müasir Ermənistan ərazisi erməni etnosunun vətəni deyil.

Erməni etnosunun yaranması prossesi Dəclə çayının yuxarı hövzəsində baş verib. Onların bu əraziyə gəlməsi ilə bağlı qədim yunan müəlliflərinin əsərlərində məlumat öz əksini tapıb. Ermənilərin tarixi kökü ilə bağlı rus müəllifi V.L.Veliçko qeyd edir ki, onlar Xaldeylərlə (Sehirbaz-Falçı), Siqanların qarışığından yaranıbdır [18, s.63]. Onların ilk əcdadları Hindistan ərazisində yaşamış, sonradan Böyük dövlətlərin saraylarına çıxış əldə edərək müxtəlif ərazilərdə məskunlaşmışlar. Ermənilər Qafqazın aborigen əhalisi deyil. Ermənilərin Albaniya ərazisinə iddialarına cavab olaraq bildirmək olar ki, erməni Qriqoriyan kilsəsi Bizans imperiyasının, sonra isə ərəblərin himayəsi altında bu ərazidə "Qriqoriyanlaşdırma" siyasətini həyata keçirməyə cəhd göstərib, ancaq bu plan iflasa uğrayıb [19, s.47]. Ermənilərin ilk dəfə Cənubi Qafqazda görünməsi çox-çox sonralara - XIX əsrin 20-ci illərinə təsadüf edir.

IX-XV əsrlərdə Qarabağ ərazisi davamlı olaraq türk mənşəli sülalə dövlətləri olan Səlcuq, Eldəniz, Qaraqoyunlu və Ağqoyunların hakimiyyəti altında olub və bu dövlətlərin strateji məntəqələrindən biri olaraq Azərbaycan tarixində xüsusi əhəmiyyət kəsb edib. Ağqoyunlu dövründə Qarabağda Qaramanlı və Qacar türk tayfaları dövlət idarə etməsində yaxından iştirak etmişdirlər. XVI əsrdə Səfəvilər dövləti yarandıqdan sonra mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi Səfəvilər dövlətinin əsas inzibati-ərazi vahidi olaraq, bu statusla XVIII əsrin birinci yarısına qədər mövcud olub. XVIII əsrin birinci rübündə Səfəvi dövlətinin zəifləməsindən istifadə edərək Rusiya çarı I Pyotr (1689-1725) Azərbaycanın Xəzər sahilində yerləşən torpaqlarını, yəni Dərbənddən Gilana qədər olan ərazilərini ələ keçirərək buraya ermənilərin köçürülməsinin əsasını qoyur. Lakin 1725-ci ildə I Pyotrun ölümü onun bu arzusunu yarımçıq qoydu. Həmin dövrdə Rusiya - erməni yaxınlaşmasının əsas müəllifi xristian həmrəyliyi altında Azərbaycanın pulu ilə var-dövlət toplamış erməni taciri İsrail Ori (1658-1711) olmuşdur. İlk dəfə olaraq Rusiya özünün Şərq siyasətində strateji maraqları naminə ermənilərdən bir vastitə kimi istifadə etmişdir. 1747-ci ildə Nadir şahın ölümündən sonra Qarabağ ərazisində müstəqil Qarabağ xanlığı yaranmışdı (1747-1822). Qarabağ xanlığının əsasını Sarıcalılı Pənahəli bəy Cavanşir qoymuşdur. Əhməd bəy Cavanşir "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" kitabında yazır ki, Şərqin qədim adətinə görə hər bir nüfuzlu ailə şahın yanında xidmət üçün silah daşımağa qadir olan bir adam verməli idi [Bu qaydaya uyğun olaraq Qarabağın Sarıcalı elindən Pənahəli bəy Cavanşir adlı birisi Nadirin yanında xidmət edirdi [11, s.157]. Rəvayətə görə, günlərin birində Nadirin nədənsə ona acığı tutur. Nadir Pənahəlinin qardaşı Behbudəli bəydən narazı olduğundan onu edam etmişdi. Odur ki, Pənahəli qardaşının başına gələn əhvalatın öz başına gəlməsindən qorxaraq özünün altı nəfər şaha xidmət edən qohumu ilə birgə şahın düşərgəsindən qaçır və Nadir şahın təqiblərindən gizlənmək məcburiyyətində qalır. 1747-ci

ildə Nadir şahın öz qohumları tərəfindən öldürülməsi xəbəri hər tərəfə yayıldıqda Pənahəli özünün 200-ə qədər qoçaq atlısı ilə Qarabağa gəldi və özünü müstəqil xan elan etdi. Bununla da Azərbaycan tarixində çox böyük siyasi əhəmiyyət kəsb edən tarixi hadisə baş verdi. Qarabağ xanlığı Şah İranı və Osmanlı Türkiyəsi ilə sərhəddə yerləşdiyi üçün mühüm strateji bir ərazi idi. Ərazisi Araz və Kür arasındakı torpaqlar, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə hüdudlanırdı. Xanlığın ilk mərkəzi Bayat qalası, 1757-ci ildən etibarən isə Şuşa şəhəri olmuşdur.

Şuşa qalasının salınmasınım maraqlı tarixi var. Nadir şahın ölümündən sonra ölkədə hakimiyyətsizlik hökm sürürdü. Hakimiyyətə gələn Nadir şahın qardaşı oğlu Əliqulu xan (Adil şah adını daşıyırdı - Ə.Ş.) və onun sərdarı olan Əmir Aslan xan Pənahəli xan ilə dost idilər. Mirzə Adıgözəl bəy yazır ki, "...xanın hüzurunda duran əmirlər xana belə məsləhət gördülər ki, Adil şah ilə dost idiniz, xanlıq üçün heç bir təhlükə yox idi. Amma indi vəziyyət dəyişib, ola bilsin ki, mövqeyini gücləndirən Məhəmmədhəsən xan Qacar bizimlə pis rəftar etsin və bizi istəmiyənlərlə birləşib üstümüzə gəlsin. Onda Qarabağ elatı və rəiyyəti onların atlarının ayaqları altında qalar. Şahbulağı (o zaman xanlığın mərkəzi idi - Ə.Ş.) müdafiəyə tab gətirə bilməyəcək. Möhkəm bir yer və meydan tapıb qala divarlı şəhər salmaq lazımdır" [11, s.33-38]. Ona görə qərara alındı ki, xanlığın mərkəzi dəyişdirilsin. Pənah xan Vərəndə məliyi Məlik Şahnəzərə mərkəz üçün yerin tapılmasını tapşırdı. Məlik Şahnəzər Pənah xana sıldırım qayalar üzərindəki ərazini göstərdi, hansı ki, orada Şuşa qala-şəhəri salındı. Xalq arasında bu şəhərə "Qala şəhəri" də deyirlər. Burada Məlik Şahnəzərlilər haqqında məlumat verimək istəyirəm. Qarabağ xanlığına daxil olan "xəmsə" içərisidə ən əsl-nəcabətli və varlısı alban kökənli Məlik Şahnəzərlilər idi. Təəssüf ki, Albaniya ərazisində erməni Qriqoryan kilsəsinin təsiri ilə "qriqoryanlaşıblar" [11, s.36-41]. Hal-hazırda alban əsilli olan Şahnəzərlilərin bir çox nümayəndəsi Rusiya federasiyasında elm, siyasət, biznes sahəsində tanınan Rusiya vətəndaşlarıdır.

Qarabağ Azərbaycanın strateji əhəmiyyət kəsb edən ərazisi olduğu üçün ingilis dilli müəlliflərin də diqqət mərkəzində olmuşdur. A.Myurel "Qarabağlı İbrahimxəlil xanın qəribə ölümü " məqaləsində yazır ki, "XVIII əsrin II yarısından başlayaraq Rusiya və İranın bu regionda möhkəmlənmək uğrunda apardığı mübarizə Qarabağın hansı strateji əhəmiyyət kəsb etməsinin göstəricisidir" [3, s.79-107]. İngilis müəllifi İbrahimxəlil xanı Cənubi Qafqazın ən qüdrətli hakimlərindən biri kimi qiymətləndirir. Onun çevik diplomatik manevrləri ilə bağlı müsbət fikir söyləyir. A.Myurel digər bir əsərində "Rusiya və İran, 1780-1828-ci il" Cənubi Qafqaz uğrunda İran və Rusiya arasında gedən mübarizədə Qarabağı Rusiya üçün "İrana açılan qapı", İran üçün isə "Qafqazın açarı adlandırır". Erməni əsilli Amerika tarixcisi Bornotian müəllifi olduğu "İrəvan xanlığı Qacarlar dövründə (1795-1825)" kitabında "öz məkrli xislətinə sadiq qalaraq" Amerika ictimayyətinə Cənubi Qafqazda qədim dövrdən erməni dövləti olması haqqında tezisi qəbul etdirməyə çalışır. C.Bornotian Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsərini ingilis dilinə tərcümə edib. Bu tərcümə ilə güya o, kitabda Qarabağdakı erməni kəndlərinin adlarının təhrif olunmasına öz etirazını bildirir [4, s.157-162]. Bütün bunlara baxmayaraq bu tərcümədə əsərdə olan bir sıra obyektiv hadisələr ingilis dilli oxucuya çatdırılır. XVIII əsrin sonu -XIX əsrin əvvəlləri çar Rusiyası ilə Qacarlar İranı arasında müharibə vəziyyəti yarandı. 1804-cü il yanvar ayının 3 də Gəncə xanlığı Rus qoşunları tərəfindən işğal olunduqdan dərhal sonra İran dövləti Rusiyaya müharibə elan etdi. Hər iki dövlətin strateji hədəfi Qarabağ xanlığı idi. İranın Rusiyaya qarşı müharibəyə sövq edilməsində İngiltərənin böyük rolu oldu. İngilislər beynəlxalq münasibətlər sisteminə yeni diplomatik etiketlər gətirdilər. 1799-cu ildə İngiltərənin Hindistandakı qubernatoru mayor Malkolm Tehrana səfər edərək şah sarayının girişindən Fətəli şahın qəbul otağına qədər onu qarşılayanlara qızıl hədiyyələr verirdi. Burada məqsəd şahın yaxın ətrafında olan əyanları İngiltərənin xeyrinə ələ almaq idi. Malkolmun bu hərəkəti tarixə "Qızıl diplomatiyası" kimi daxil olub. İngilislərin məqsədi Rusiyanın Şərqə doğru irəliləməsinin qarşısını almaq idi.

Çar Rusiyasını Qafqaz siyasətində Azərbaycan, xüsusən, Qarabağ əsas yer tuturdu. Rusiya çariçası II Yekaterina (1762-1796) dövründə Rusiya ilə Qarabağ xanlığı arasında dostluq əlaqəsi yarandı. İki dövlət arasında münasibətlərin yaranmasında Qarabağ xanlığının Vəziri Azərbaycanın görkəmli şairi və dövlət xadim Molla Pənah Vaqifin mühüm xidmətləri olub. Məhz onun xidməti sayəsində 1797-ci il general Zubov Qafqaza yürüş edəndə Qarabağ xanlığnın ərazisi heç bir zərər

görmədi. 1805-ci ildə Qarabağ xanlığının daxilində Rusiyapərəst qüvvələrə rəhbərlik edən Məhəmmədhəsənağa Gəncənin yaxınlığından keçən Kürəkçay çayının sahilində yerləşən Rus düşərgəsinə elçi göndərdi. Məqsəd Qafqazdakı Rus ordu komandanı general Sisyanov ilə Qarabağ xanlığının Rus asılılığını qəbul edilməsi detallarını müzakirə etmək idi. 1805-ci il may ayının 14-də Kürəkçay çayının sahilində İbrahimxəlil xan ilə Rus ordu komandanı general Sisyanov arasında müqavilə imzalandı. Bu müqavilənin şərtinə görə:

- Qarabağ xanlığı Rusiyanın icazəsi olmadan üçüncü bir dövlət ilə heç bir əlaqə saxlaya bilməz;
- Şuşa şəhərində yerləşdirilən Rus qarnizonunun ərzaq tədarükü Qarabağ xanlığı tərəfindən təmin edilməli;
- Qoşunlar üçün bina ayrılmalı və odunla təmin olunmalı;
- Yelizavetpoldan (Gəncə) Şuşaya gedən yol qaydaya salınmalı;
- Sədaqət əlaməti olaraq xan böyük oğlundan olan böyük nəvəsini həmişəlik Tiflisdə yaşamaq üçün girov verməli;
- Xan hər il səkkiz min çervon bac verməli və bunu iki müddətə: fevralın 1-də, sentyabrın 1-də ödəməli idi.

Bunun müqabilində xana aşağıdakı güzəştlər vəd edilirdi:

Onun mülkü saxlanılır, xanlığın idarəsi irsi böyüklüyə görə nəsildən nəsilə keçir və bunu rus imperatoru təsdiq edir;

Məhkəmə işləri, cəza vermək və vergi toplamaq xanın ixtiyarında saxlanılır.

Bu müqavilənin Azərbaycan tarixi üçün yalnız bir əhəmiyyəti var. Müqaviləni Rusiya tərəfindən çarın səlahiyyətli nümayəndəsi general Sisyanov, Qarabağ xanlığı tərəfindən isə Şuşalı İbrahimxəlil xan imzalayıb [11, s.183]. İbrahimxəlil xanın imzası onu göstərir ki, Qarabağ ermənilərə deyil, azərbaycan türklərinə məxsusdur. Bu müqavilədən sonra İran və Osmanlı Türkiyəsindən leqal olaraq Rus təbəəliyini qəbul edən ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsinin əsası qoyuldu. Qarabağ ərazisinə ermənilərin yerləşdirilməsi kampaniyasına erməni əsilli Rus generalı Madatov rəhbərlik edirdi. Bilavasitə onun təşkilatçılığı ilə sonuncu Qarabağ xanı Mehdiqulu xan (1806-1822) 1822-ci il ailə üzvləri ilə birlikdə sui-qəsd nəticəsində öldürüldü. Bu hadisə nəticəsində Qarabağ xanlığının varlığına son qoyuldu. 1813-ci il oktyabır ayının 12-də Gülüstanda və 1828-ci il fevral ayının 10-da Türkmənçayda Çar Rusiyası ilə Şah İranı arasında bağlanan müqavilə nəticəsində Azərbaycan iki dövlət arasında bölüşdürüldü. Şimali Azərbaycan Çar Rusiyasının, Cənubi Azərbaycan isə İran dövlətinin tərkibinə verildi. Türkmənçay müqaviləsinin 14-cü maddəsinə əsasən əhaliyə İran ərazisindən könüllü olaraq Şimali Azərbaycana köçməsi hüququ verildi. Burada əsas məqsəd ermənilərin İran ərazisindən Azərbaycanın strateji ərazilərinə köçürülməsi idi. Bu maddənin müəllifi Çar Rusiyasının İrandakı səfiri, rus yazıçısı A.S.Qriboyedov olmuşdur. Qriboyedovun ermənilərə bu isti münasibətinin əsas səbəbi, Fətəli şahın sarayında yüksək dövlət qulluğu tutan erməni evnuxların - Fətəli şahın hərəmxanasının başçısı evnux Manuçarxan, hərəmxananın maliyyəsinə və briliyant-qızıl fonduna cavabdeh olan şəxs evnux mirzə Yaqub Markaryan olmuşdur [16, s.217]. Hər ikisi Fətəli xanın sarayının bütün mühüm məlumatlarını Rusiya səfirinə xəbər verməklə Qriboyedovun xüsusi hörmətini qazanmışdı. Ərəblərin dövründə katalikos İlyanın etdiyi satqınlığı 1125 il sonra erməni evnuxlar həyata keçirdilər. Məqsəd Qarabağ, Gəncə, Şirvan, Naxçıvan və İrəvan ərazilərinə ermənilərin köçürülməsini həyata keçirmək idi. Azərbaycanda yaşayan ermənilər Türkmənçayın övladlarıdır. Köçürmə ilə bağlı yazan rus müəllifləri qeyd edirlər ki, ermənilər çox böyük canfəşanlıq ilə Şimali Azərbaycana köç edirdilər. Hətta, o dövr erməniləri ilə bağlı xalq misalı yaranmışdı: "Rus otunu yemək İran çörəyini yeməkdən daha yaxşıdır". Türkmənçay müqaviləsinə əsasən İran ərazisindən 40 min erməni Şimali Azərbaycan ərazisinə köçürüldü. Bununla da I Pyotrun ermənilərin Azərbaycana köçürülməsi arzusu həyata keçdi. 1829-cu ildə Rusiya ilə Türkiyə arasında imzalanmış Ədirnə sülhünün şərtinə uyğun olaraq 84 min erməni əhalisi Cənubi Qafqaza, Gürcüstanda Samtsxe-Cavaxetiya bölgəsinə, Azərbaycan da isə Qarabağ daxil olmaqla digər bölgələrə köçürüldü. Çar Rusiyasının tərkibində olduğu müddətdə erməni Qriqoryan kilsəsinin qarşısında duran əsas iki məqsəd var idi:

- Birinci, Azərbaycan ərazisindəki Alban Pravoslav kilsələrini özünə tabe etmək;

-İkincisi, daha çox erməni əhalisini Gürcüstan və Azərbaycanın cənub-qərb torpaqlarında yerləşdirməklə, gələcəkdə Osmanlı Türkiyəsinin Şərqi Anadolu və Kilikyadakı on beş vilayəti daxil olmaqla bu ərazidə" Böyük Ermənistan" dövlətini yaratmaq idi. Bu planın kökündə Osmanlı Türkiyəsinə qarşı çar Rusiyası, İngiltərə və Fransa kimi dövlətlərin süni şəkildə yaratdığı "erməni məsələsi" dayanır. "Erməni məsələsi"ndə bu dövlətlərin əsas hədəfi:

- Osmanlı ərazisində yaşayan ermənilərdən Türkiyə əleyhinə istifadə etmək;
- Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsi adı altında Osmanlı Türkiyəsini parçalamaq idi.

Osmanlı Türkiyəsinin ərazisində yaşayan ermənilərin də əsas hədəfi böyük dövlətlərin onlara olan bu "qayğısından" məharətlə istifadə edərək Türkiyə ərazisində "Asiya Ermənistanı" deyilən dövlət yaratmaq idi. Türkiyədə yaşayan ermənilərin bu planının həyata keçirilməsinə rəhbərliyi İstanbuldakı Erməni patriarxının rəhbərliyi altında Erməni mailiyyə aristokratlarından təşkil olunan Notabllar Şurası (Erməni xalqının rəhbəri mənasını verir - Ə.Ş) rəhbərlik edirdi. Osmanlı Türkiyəsinə qarşı yönələn bu iyrənc layihə ilk dəfə 1878-ci il Rusiya ilə Türkiyə arasında imzalanan San-Stefano müqaviləsində tətbiq edildi. Müqaviləyə əlavə edilən 16-cı paraqrafda deyilirdi ki,Türkiyə ərazisində yaşayan ermənilər üçün dərhal lazımi islahatlar keçirilsin [10, s.7-25]. Daha sonra qeyd olunurdu ki, bu şərt icra olunana qədər Rus qoşunları Asiya Türkiyəsində işğal etdikləri torpaqları öz əllərində saxlamağa davam edəcək. Rusiyanın Yaxın Şərqdəki əsas rəqibi İngiltərə idi. Bu dövlət də "erməni məsələsi"ndən öz maraqlarına uyğun istifadə etmək istəyirdi. Buna görə də Berlin konqresində (1878-ci il iyul-sentyabr) İngiltərənin təklifi ilə 6 dövlətin iştirakı ilə imzalanan traktata 61-ci maddə daxil edildi. Bu maddədə Türkiyə ərazisində yaşayan ermənilərə geniş güzəştlər verilməsi məsələsi qoyuldu. Bununla da böyük dövlətlərin əlində "oyuncağa" çevrilən ermənilər qərara aldı ki, böyük dövlətlərin köməyi ilə Türkiyə ərazisində öz dövlətlərini qursunlar. Türkiyə ərazisində bu istəklərini reallşadırmağın qeyri mümkün olduğunu görən ermənilər dini-siyasi fəaliyyətlərini Cənubi Qafqaz ərazisinə keçirdi. Onlar bu regionun müsəlman-türk torpaqları hesabına öz dövlətlərini yaratmaq qərarını verdi. Birinci dünya müharibəsi illərində (1914-1918) dünya erməniləri müharibədə Antanta hərbi-siyasi blokuna daxil olan dövlətləri (çar Rusiyası, İngiltərə, Fransa və s.) dəstəkləməyi qərara aldı. Bu haqda Daşnaksütun partiyasının liderlərindən olan Ov.Kaçaznuni 1923-cü ilin aprelində Rumıniyanın paytaxtı Buxarest şəhərində Daşnaksütun partiyasının 23-cü konfransında "Daşnaksütuna bir iş qalmadı" adlı məruzəsində deyirdi: "1914-cü ilin qışı və 1915-ci ilin əvvəli bütün Rusiya erməniləri, o cümlədən Daşnaksütun üçün ümid və ruh verici bir dövr idi. Şübhə yox idi ki, müharibə müttəfiqlərimizin qələbəsi ilə başa çatacaq, Türkiyə məğlubiyyətə uğrayacaq, parçalanmaya məruz qalacaq və oradakı ermənilər, nəhayət azadlıq əldə edəcək. Biz birmənalı olaraq Rusiyanın yanında olmağı qərara aldıq. Türkiyə üzərində qələbənin əldə olunmaması üçün heç bir əsas yox idi. Bizim Rusiyaya olan itaətimiz, xidmətimiz və köməyimiz nəticəsində, Rusiya bizə Türkiyə ərazisindəki erməni vilayətlərində və Cənubi Qafqazdaki "Ermənistanda" öz dövlətimizi yaratmaqda dəstək olacaq. Ermənilər bu istəyinə 1918-ci ildə Daşnak erməni dövlətini elan edərkən İrəvan şəhərinin onlara paytaxt kimi verilməsi ilə nail oldular.

1917-ci ildə Rusiyada Bolşeviklərin hakimiyyətə gəlməsi Cənubi Qafqazda yaşayan Ermənilərin əl-qolunu açdı. 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti Bolşevik Rusiyası tərəfindən işğal olundu. Azərbaycanda əksəriyyəti ermənilərdən ibraət olan kommunist idarə orqanları yaradıldı. Onların fəaliyyəti nəticəsində Qarabağ ərazisi iki hissəyə bölündü və "Dağlıq Qarabağ" adlanan hissədə erməni muxtar vilayəti yaradıldı. Əslində bu addım gələcəkdə "Dağlıq Qarabağın" Ermənistana birləşməsini təmin etməli idi. 1920-1987-ci illər arası dünya erməniləri və o cümlədən, keçmiş sovet imperiyasının tərkibində olan Sovet Ermənistanı bu müddətdə bir neçə dəfə "Dağlıq Qarabağı " Ermənistana birləşdirməyə cəhd göstərsə də onların bu niyyəti baş tutmadı. 1946-cı ildə kommunist Ermənistanının rəhbəri Artunyans Sovet rəhbəri Stalinə erməni xalqının adından müraciət edərək: "Dağlıq Qarabağın" Ermənistana birləşdirilməsini istəmişdi. O, zaman komunist Azərbaycanının rəhbəri olan M.C.Bağırov bu məsələnin həllinin Zəngəzur və Göyçə ərazilərinin Azərbaycana qaytarılması müqabilində mümkün olmasını SSRİ rəhbərliyinin nəzərinə çatdırdı. Növbəti dəfə 1964-cü ildə ermənilər üzdəniraq "erməni soyqırımının" 50 illiyi ilə bağlı o zamanki SSRİ rəhbəri N.S.Xruşova müraciət edərək: "Dağlıq Qarabağın"

Ermənistana birləşdirilməsini istəmişdir. N.S.Xruşov bu məsələyə belə münasibət bildirmişdi: "Əgər "Dağlıq Qarabağ" ərazisi ermənilərin orada yaşamasına narahatlıq yaradırsa, biz onları Ermənistan ərazisinə köçürə bilərik".

Ermənilərin bu arzusu 1984-cü il M.Qorbaçov SSRİ rəhbəri seçildikdən sonra mümkün oldu. 1987-ci il noyabrın əvvəllərində Ümummilli lider Heydər Əliyev SSRİ rəhbərliyindən istefa verdi. Bundan bir qədər sonra, yəni 1987-ci ilin noyabrında M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi erməni əsilli akademik Aqanbekyan Parisdə səfərdə olarkən orada Fransa kommunist partiyasının orqanı olan "Humanite" qəzetinə verdiyi müsahibədə "Dağlıq Qarabağın" iqtisadi-siyasi cəhətdən Azərbaycandan daha çox Ermənistanla bağlı olduğunu bildirdi. Bu, əslində "Dağlıq Qarabağda" yaşayan ermənilərin Azərbaycana qarşı mübarizəyə qalxması üçün bir çağırış idi. 1988-ci il fevral ayının 19-da Dağlıq Qarabağ erməniləri Xankəndi şəhərində nümayiş keçirərək Azərbaycan əleyhinə kəskin şüarlar səsləndirdilər. Eyni zamanda, "Dağlıq Qarabağın" Azərbaycana məxsus olması ilə bağlı hökumət binalarının üzərindən bütün lövhələr götürüldü, yerinə Ermənistan SSR-in adı yazılmış lövhələr asıldı. Ermənistan bayrağı binaların üzərində qaldırıldı. Ermənistanın paytaxtı Erevan şəhərində Dağlıq Qarabağa dəstək nümayişləri başladı. Çox təəssüf ki, 1988-ci ildən 1993-cü ilə qədər Azərbaycana siyasi rəhbərlik edən şəxslər (K.Bağırov, Ə.Vəzirov, A.Mütəllimov, Ə.Elçibəy) Dağlıq Qarabağda baş verən seperatizmin qarşısını ala bilmədi, nəticədə Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu.

1993-cü il iyun ayında Azərbaycan xalqının müraciəti ilə o zaman Naxçıvan Muxtar respublikasına rəhbərlik edən Ümummilli lider Heydər Əliyev ölkəni düşdüyü vəziyyətdən çıxartmaq üçün Bakı şəhərinə dəvət olundu. 1993-cü ilin oktyabrından 2003-cü ilin dekabrına qədərki dövr Müstəqil Azərbaycan dövlətinin tarixində yeni bir mərhələ təşkil edir. Bu mərhələnin əsas hədəfi beynəlxalq, iqtisadi, siyasi sahədə qüdrətli, Müstəqil Azərbaycan dövlətinin qurulması idi. Bu mərhələdə, Azərbaycan beynəlxalq neft layihələri ilə ölkə iqtisadiyyatının inkişafı üçün yeni yol açdı. Beynəlxaq təşkilatlarla əməkdaşlıq çərçivəsində Azərbaycanın həm regionda, həm də dünya siyasətində mövqeyinin güclənməsinə nail olundu. 1994-cü il may ayının 12-də Azərbaycan ilə Ermənistan arasında atəşkəs imzalanması ilə ölkədə iqtisadi-siyasi sabitlik təmin olundu və ordu quruculuğu sayəsində böyük islahatlar həyata keçirildi. 1994-cü ildə Azərbaycan- Ermənistan münaqişəsinin nizamlanması ilə bağlı yaradılan ATƏT-in Minsk qrupu (bu qrupda Türkiyə də daxil olmaqla 9 dövlət var idi) Azərbaycanın heç bir təklifini nəzərə almadan Rusiya, Fransa və ABŞ-dan ibarət həmsədrlik inistutu yaratdı. 1994-cü ildən başlanan sülh danışıqlarında ATƏT-in Minsk qrupunun əsas hədəfi Dağlıq Qarabağda ermənilərin mövqeyinin möhkəmlənməsi, Azərbaycan ərazisində "İkinci erməni" dövlətinin yaranması istəyi və Azərbaycanı ağır şərtlər altında biabırçı sülhə məcbur etmək planı dayanırdı.

***Nəticə***. 2003-cü ildə Ulu öndər Heydər Əliyevin davamçısı olaraq İlham Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlməsi ilə yeni təməl prinsipləri üzərində Heydər Əliyevin qurduğu Müstəqil Azərbaycan dövlətinin tarixində yeni mərhələ başladı. 2003-2020-ci illər arasında Azərbaycan iqtisadi-siyasi və beynəxlaq sahədə böyük uğurlara tarixi imza atdı. Bu mərhələdə Azərbaycan həm regionda, həm də dünyada istər enerji, istərsə də nəqliyyat sahəsində beynəlxalq layihələrin müəllifi olmaqla iqtisadi sahədə güclü dövlətə çevrildi. Qüdrətli, məğlubedilməz ordu yaradıldı. Beynəlxaq sahədə Azərbaycanın yeritdiyi xarici siyasət nəticəsində Azərbaycan nəinki Cənubi Qafqaz regionunun, bütövlükdə Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrildi. Ölkədə əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı sosial lahiyələrin həyata keçirilməsi, regionların inkişafı proqramının icrası təmin edildi. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin parlaq nümunəsi Azərbaycan tarixinə Qızıl hərflərlə yazılan 2020-ci il sentyabır ayının 27-dən "Dağlıq Qarabağ" ərazisində həyata keçirilən antiterror və sülhyaratma əməliyyatlarıdır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu işğal altımda olan torpaqlarımızı düşmən qüvvələrindən azad etdi. 44 gün davam edən Böyük Vətən Müharibəsi 10 noyabr 2020-ci il Azərbaycanın zəfər qələbəsi ilə başa çatdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Çıraq, 2007, 400 s.
2. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, Elm, 1990, 380 s.
3. Atkin Muriel The strange death of İbrahim Khalil Khan of Qarabagh // İranian Studies, Vol.XII, №1-2, 1979, p.79-107.
4. A History of Qarabagh. An annotated translated of Mirza Jamal Javanshir Qarabaghi's Tarikh-e Qarabagh by George A. Bournoutian. Mazda Publishers, 1994, p.157+62.
5. Həsən Həsənov. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, Elm, 2005, 248 s.
6. K. Şükürov. Türkmənçay – 1828. Tarixi xronika. Bakı, 2006, 188 s.; K. Şükürov Azərbaycan tarixi. Üç hissədə. II hissə. BDU nəşriyyatı, 2004, 380 s.
7. К истории Образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Dokументи и Материалы. 1918-1925. Баку, Азернешр, 1989, 334 s.
8. Конфликты в Нагорном Карабахе. Баку, Азернешр, 1990, 272 с.
9. Качазнуни Ов. Дашнаксютюн больше нечего делать. Баку, Элм, 1990, 92 s.
10. Qurko-Kryajin. Erməni məsələsi. Bakı, 1990, 32 s.
11. Qarabağnamələr. Bakı, Yazıçı, 1989, 192 s.
12. M.Vəlili (Baharlı). Azərbaycan (Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı, Azərnəşr, 1993, 208 s.
13. Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, Azərnəşr, 1992, 80 s.
14. Страбон. География: XVII kn. Москва, Наука, 1964, 944 с.+карты.
15. Сумбатзаде А.С. Азербайджанцы: этногенез и формирование народа. Баку,Элм,1990,304 с.
16. Шостокович С.В. Dипломатическая деятельность А.С.Грибоедова. Москва, Изд-во соц.-эконом. лит., 1960, 293 с.
17. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л., Изд-во АН СССР, 1959, 392 с.
18. Величко В.Л. Кавказ русское дело и междуплеменное вопросы. Баку, Элм, 1990, 224 с.
19. Zaur Əliyev. Erməni kilsəsi və terror. Erməni tarixindən Ermənistan dövlətinə qədər. Bakı, "Elm və təhsil", 2019, 232 s.

**АЛАМДАР ШАХВЕРДИЕВ**
*Доцент Бакинского Государственного Университета*

**ВАГИФ НАБИЕВ**
*Старший преподаватель Бакинского Государственного Университета*

## ЛОЖНЫЙ «МИФ О НАГОРНОМ КАРАБАХЕ» И ИСТОРИЧЕСКАЯ РЕАЛЬНОСТЬ

История мифа о Нагорном Карабахе уходит в далекое прошлое. С VII века Армяно-григорианская церковь под эгидой Арабского халифата проводит политику «арменизации» на территории Албании, особенно на правобережье, и продолжает этот коварный план в соответствии с историческими условиями. Во второй половине 19 века армянские политические организации перенесли свою деятельность на Южный Кавказ. Целью было создание государства «Армения» за счет мусульманско-турецких земель. Организация искусственного «нагорно-карабахского» политического территориального единства была частью этого коварного армянского плана.

*Ключевые слова*: Хамса, Баят, Шахбулаг, Джаваншир, Шуша.

**ALAMDAR SHAHVERDİYEV**
*Associate professor of Baku State University*

**VAGİF NABİYEV**
*Senior lecturer of Baku State University*

## FALSE "NAGORNO-KARABAKH MYTH" AND HISTORICAL REALITY

Despite the settlement of the Karabakh conflict the hostile forses want to create a new source of conflict in Karabakh.Sinse the seventh century,Karabakh has been the territory of Azerbaijan targeted by Armenians.In the nineteenth century, Armenians transferred their political activities to the South Caucasus.The goal of the Armenians was to create an “Armenia”state at the expense of the Muslim-Turkish lands.The artificially created “Nagorno-Karabakh”political territorial unit is an integral part of the insidious Armenian plan.

*Keywords*: Khamsa, Bayat, Shakhbulag, Javanshir, Shusha.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94**

**ARİF VEYİSOV**
*Bakı Dövlət Universiteti, Qazax fililalının əməkdaşı,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**veyisov.arif@bk.ru**

**DİLŞAD ŞAHMAROVA**
*Bakı Dövlət Universiteti, Qazax fililalının əməkdaşı*
**dilshad.shahmarova@bk.ru**

**HƏQİQƏT MEHDİYEVA**
*Bakı Dövlət Universiteti, Qazax fililalının əməkdaşı*
**heqiqet.mehdiyeva.91@mail.ru**

# STALİN REJİMİNİN DEPORTASİYA SİYASƏTİ

*Sovet Rusiyası imperialist bir dövlət kimi başqa xalqların hesabına güclənir, dünyaya meydan oxuyur. Ikinci dünya müharibəsi tək ön cəbhədə aparılmadı. Arxa cəbhədəki yüz minlərlə başqa xalqların nümayəndələrinin ayrı seçkiliyi, deportasiyası ilə də tarixə düşdü. Bunların içirisində ən aclnacaqlı vəziyyətə yenə türklər düşdü. Krım türkləri, Məhsəti türkləri tarixi torpaqlarından deportasiya olundular. Hansı ki, sonra 50-ci illərin sonunda verilmiş reabilitasiya qanunlarında belə geri qayıda bilmədilər.*

*Açar sözlər*: II Dünya müharibəsi, Xalqların deportasiyası, Krım türkləri, Məhsəti türkləri.

***Giriş***. Müharibə illərinin ağrılı-acılı hadisələrindən biri də xalqların deportasiyasıdır. İstər müharibə dövründən, istərsə də müharibələrdən sonra deportasiya ilə əlaqələr sənədlərin "tamamilə məxfi" qrifi yarlığı ilə saxlanılması problemin araşdırılmasına imkan verməmişdir. Yalnız XX əsrin 90-cı illərində bu problemlə əlaqədar materiallar dərc olunmuşdu.

Müharibə ərəfəsində SSRİ-də həyata keçrilən repressiyaya baxmayaraq açıq və gizli formada mövcud rejimə qarşı çıxışlar olmuşdu. Bu cür proses müharibənin gedişi prosesində də davam etmişdir. Odur ki, "qulaq asmayanlara, etibarsız hesab edilənlərə", hətta ayrı-ayrı xalqlara "cəza" tətbiq edilməyə başladı. Bu "cəzalandırma" Dövlət Müdafiə Komitəsinin, SSRİ Ali Soveti Rəyasət Heyətinin, ÜİK[b]R MK-nın qərarı, XKS, yaxud digər dövlət orqanının göstərişi ilə həyata keçirilirdi. Təəccüblü odur ki, bu qərar, göstəriş, yaxud sərəncam əhali öz yerlərindən çıxarıldıqdan sonra elan edilirdi.

1941-1945-ci illər müharibəsi ərəfəsində artıq RSFSR-in Şərq rayonlarına, Qazaxıstana və Orta Asiya respublikalarına 35 min polyak, 10 mindən çox alman, 172 min koreya, 6 min İran vətəndaşı və digər millətlər köçürülmüşdü. Ümumiyyətlə, köçürülənlərin sayı 200 min nəfərdən çox idi [4, s.301].

Almaniyanın SSRİ-yə basqınından sonra ölkədə sosial-iqtisadi vəziyyətin kəskinləşməsi, arxa cəbhədə krimogen şəraitin yaranması, ayrı-ayrı qrupların rejim əleyhinə çıxışlarının artması, Stalinin xalqların, xüsusilə türk xalqlarının depotasiyası üçün şərait yaratdı. XDİK-nın "məlumatına'' görə Şimali Qafqazda məhv edilmişdi. Şimali Qafqazda 963 qrup fəaliyyət göstərirdi ki, onlarda 17563 nəfər birləşirdi [4, s.307]. 1944-cü ildə 1727 bandit qrupu məhv edilmişdi. Şimali Qafqazda, Orta Asiyada, SSRİ-nin mərkəzi vilayətlərində, Sibir və Uzaq Şərqdə belə qruplar qeydə alınmışdır.

1939-cu ilin əvvəlinə olan məlumata görə SSRİ-də 1.427.222 alman yaşayırdı [4, s.309]. Almaniyanın SSRİ-yə hücumunu ölkənin digər xalqları kimi, burada yaşayan almanlar da hiddətlə qarşılayırdılar və ölkənin müdafiəsinə qalxdılar. 8 mindən çok alman xalq müqaviməti hərəkatı sıralarına yazıldı. Lakin, 1941-ci ilin yayında Volqaboyunda və digər yerlərdə kompakt yaşayan alman gənclərinin döyüşən orduya çağırışdan imtina etməsindən sonra vəziyyət ağırlaşdı. 1941-ci ilin iyununda L.Beriya və V.Molotovun Volqaboyuna səfərindən sonra alman mənşəli əhalinin köçürülməsi haqqında XKS və ÜİK[b]P MK 1941-ci ilin avqust ayının 12-də birgə müvafiq qərar qəbul edildi. 1941-ci il avqust ayının 28-də SSRİ Ali Soveti Rəyasət Heyətinin "Volqaboyu rayonunda yaşayan almanların köçürülməsi" haqqında fərmanı dərc olundu. Sentyabr ayının 3-də XDİK komissarı

L.P.Beriyanın müavinlərindən olan İ.A.Şerovun rəhbərliyi ilə Volqaboyu, Tambov, Yaraslav və Voronej vilayətlərindən minlərlə alman uzaq yaşayış yerlərinə deportasiya edildilər [5, s.40].

1942-1945-ci illərdə xüsusi əmrlə alman millətindən olan 33.516 nəfər hərbi qulluqçu ordudan tərxis olundu. Tərxis olunanların böyük əksəriyyəti işçi kolonlarına və batalyonlarına göndərildi. Şimali Qafqaz ərazisindən alman millətindən olan 198.092 nəfərdən 6.180 nəfər Alma-Ata vilayətinə gətirildi.

Azərbaycanda yaşayan almanlar da deportasiyaya məruz qaldılar. 1939-cu il siyahıya alınmasına görə Azərbaycan SSR-də 23.133 nəfər alman yaşayırdı. SSRİ DMK 8 oktyabr 1941-ci il tarixində "Gürcüstan, Azərbaycan və Ermənistan SSR-dən almanların köçürülməsi haqqında" 744 №li qərar qəbul etdi. Qərarda göstərilirdi ki, Gürcüstan SSR-dən 23.580 nəfər, Azərbaycan SSR-dən 22.741 nəfər, Ermənistan SSR-dən 212 nəfər alman əhalisi köçürülsün. Almanların Qazaxıstan SSR-ə köçürülmə tədbirlərinə rəhbərlik SSRİ XDİK-na həvalə edilmişdi. Qərara görə köçürülmə qısa müddətdə, 1941-ci il oktyabrın 15 ilə 30-u arasında başa çatdırılmalı idi. Azərbaycandan deportasiya olunan alman əhalisi qruplarla Qazaxıstan SSR-in Akmolin, Karaqanda, Kustanay, Pavlador və Şimali Qazaxıstan vilayətinə köçürüldülər.

Köçürülənlərin əmək şəraiti ağır idi. Ərzaq, paltar, minimum yaşayış vasitələri çatışmırdı, yaşayış yerləri yararsız idi. Minlərlə alman acından, soyuqdan, xəstəlikdən, ağır yaşayış şəraitinə dözməməkdən, iztirab və işgəncədən dünyasını dəyişdi.

Eyni taleyi finlər də yaşamışdır. Dövlət Müdafiə Komitəsinin 3 aprel 1942-ci il tarixli qərarı ilə finlər döyüşən ordudan çıxarılmış, XDİK əmək koloniyalarına, fin millətindən olan 65 min nəfər Rusiya vətəndaşı isə Finlandiyaya göndərilmişdi. 1944-1945-ci illərdə onların çoxu, təxminən 54 min nəfəri könüllü olaraq SSRİ-yə öz köhnə yaşayış yerlərinə qayıtmışlar. Lakin, onlar əvvəlki yaşayış yerlərinə deyil, Voloqada, Yaraslav, Novqorod və digər rayonlarda, Leninqrad sərhəd rayonları vilayətlərində yerləşdirildilər [4, s.312].

1943-cü ildə Stavropol diyarında və Karaçay Muxtar Vilayətində vəziyyət ağırlaşdı. Terrorçu qruplar axtarılmağa başlandı. 3.338 nəfər Qızıl Ordudan xidmətdən yayınanı leqallaşdırmaq, "mümkün oldu". Nəticədə, XDİK və SSRİ Prokurorluğunun 15 aprel 1942-ci il tarixli direktivinə əsasən 110 ailə (472 nəfər) Qaraçay Muxtar Vilayətindən kənarlaşdırıldı. SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 oktyabr 1942-ci il və SSRİ XKS-nin 14 oktyabr 1942-ci il tarixli qərarına əsasən qaraçaylar Qazaxıstan və Qırğızıstan SSR-ə köçürüldü [1, s.43].

SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 dekabr 1943-cü il tarixli fərmanı ilə SSRİ XKS-nin 28 dekabr 1943-cü il tarixli qərarı ilə Kalmikya Muxtar Vilayəti ləğv edildi. Kalmıkyalılar Altay və Krasnoyarski diyarlarına, Omsk və Novosibirski vilayətlərinə sürgün edildilər. Yurdundan-yuvasından qovuran 300 minə yaxın kalmık çətinliklərə dözərək yaşadı.

Müharibə illərinin ən ağrılı-acılı səhifələrini çeçenlər və inquşlar yaşamışlar. 1940-cı ilin birinci yarısında Çeçen-İnquş Respublikasında 731.7 nəfər yaşayırdı. Onların 387.8 mini çeçen, 72 mini inquş, yerdə qalanı rus və qeyri millətlər idi. Müharibəyə qədərki dövrdə zorakı kollektivləşmənin nəticəsi idi ki, Respublika ağır iqtisadi böhran keçirmiş, milli ədavətdən əziyyət çəkmiş, 1939-cu ildən başlayaraq xalq müxtəlif bəhanələrlə incidilməyə başlanmış, həbslərə məruz qalmışdı [4, s.258].

1941-ci ildə vəziyyət dəyişdi. Kalmıklarda olduğu kimi burada da "terrorçu qruplar, bandalar tapıldı". 1943-cü ilin yanvar-fevral ayı ərzində Şimali Qafqaz alman işğalçılarından təmizləndikdən sonra çeçen və inquş xalqlarının deportasiyası planı işlənib hazırlanmağa başlandı. 1944-cü ilin yanvarında onların sürgünü üçün 14.200 vaqon ayrıldı [4, s.317].

1944-cü il yanvarın 31-də DMK çeçenlərin və inquşların Qazaxıstan və Qırğızıstan SSR-ə deportasiyası haqqında qərar çıxardı. Bu sənəd 21 fevralda XDİK-nin 00193 №li qərarı ilə tamamlandı. SSRİ Ali Soveti Rəyasət Heyətinin 7 mart 1944-cü il tarixli fərmanı ilə Çeçen-İnquş MSSR ləğv edildi. Fevral ayını 23-də başlanan köçürülmə əməliyyatına L.Beriya və onun müavinləri B.Z.Kobulor, İ.A.Çerox rəhbərlik edirdilər. Fevralın 25-də 352.647 çeçen və inquş doğma yerlərindən çıxarıldı. Fevralın sonunda Beriya Stalinə məruzə etdi ki, Çeçen-İnquşetiyadan 478.479 çeçen və inquş Qazaxıstan və Qırğızıstana göndərilmişdi. Köçürülənlərin 91.500 nəfəri inquş olmuşdu. Deportasiya 1945-ci ilin sonuna qədər davam etmişdi.

Şimali Qafqazın köçürülən xalqları içərisində Kabarda-Balkar MSSR-dən olan balkarlar da olmuşdu. DMK-nin 5 mart 1944-cü il tarixli qərarına görə 25 min balkar Qazaxıstana, 15 min isə Qırğızıstana köçürülməli idi. Beriyanın 11 mart 1944-cü il tarixli məruzəsində bildirilirdi ki, 37.103 nəfər balkar köçürülmüşdü.

Hökumətin köçürmə siysətində əsas yerlərdən birini Krım türkləri tuturdu. Krım MSSR müstəqil vilatət kimi 1921-ci il dekabrın 18-də RSFSR-in tərkibinə daxil olmuşdu. 1930-cu illərin sonunda burada 1.126.429 nəfər yaşayırdı. Krım respublikasından cəphəyə 40 minədək adam çağırılmışdı [4, s.321]. Yarımadanın sakinləri partizan hərəkatında fəal iştirak etmişdi. Krım partizanları düşmənin 30 minə yaxın əsgərini məhv etmiş, 4 min nəfəri əsir almış, yüzlərlə texnikasını sıradan çıxarmışlar.

1944-cü il aprel ayının 13-də SSRİ XDİK və DTK "Krım Muxtar SSR ərazisinin antisovet elementlərindən təmizlənməsi tədbirləri haqqında" birgə qərar qəbul etdi [3]. Bu məqsədlə müxləlif tədbir həyata keçirildi. Aprel ayının 10-27-si arasında müsəlman komitəsinin 49 üzvü həps olundu, aprel-may aylarında 5 mindən artıq antisovet elementi müəyyənləşdirildi.

C.Həsənli "SSRİ-Türkiyə soyuq müharibənin sınaq meydanı'' monoqrafiyasında [2] qeyd edir ki, 1944-cü ilin mayında heç bir zərurət olmadan Krım türklərinin öz torpaqlarından sürgün edilməsi Türkiyə ilə münasibətlərin pisləşməsi fonunda baş verir və Sovetlərin Qara dəniz boyunca sərhədlərini türk əhalisindən təmizlənməsi xarakteri daşıyırdı. Krım tüklərinin deportasiya edilməsi haqqında əməliyyatın keçirilməsinə razılıq 1944-cü ilin aprel ayının 2-də verildi. Bu məsələ ilə bağlı 10 may 1944-cü ildə Xalq Daxili İşlər Komissarı L.Beriya Dövlət Müdafiə Komitəsinin Sədri İ.Stalinin adına məruzə göndərmişdi. L.Beriyanın məruzəsindən 1 gün sonra Krım türklərinin deportasiya edilməsi haqqında İ.Stalinin imzası ilə Dövlət Müdafiə Komitəsinin qərarı qəbul edildi. Krım türklərinin sürgün edilməsi əməliyyatı müəyyən edilmiş vaxtdan əvvəl başa çatdırıldı. Artıq may ayının 20-də Daxili İşlər Komisarlığının müavini İ.Serov və Dövlət Təhlükəsizlik Komitəsinin birinci müavini B.Kobulo Krım türklərinin sürgün edilməsi üzrə tədbirlərin başa çatdırıldığı haqqında L.Beriyaya məruzə etdilər. İyul ayının 4-də L.Beriya Krım əməliyyatının başa çatması haqqında İ.Stalinə hesabat göndərdi. Dövlət Müdafiə Komitəsinin 21 may 1944-cü il qərarına uyğun olaraq tatarların 151.604 nəfərinin Qazaxıstan SSR-in vilayətlərinə, 315.51 nəfərinin isə Rusiya Federasiyasının vilayətlərinə sürgün olunduğu bildirildi [2, s.121-122].

Türklərin Krımdan sürgün edilməsi başa çatdıqdan sonra ÜİK[b]P MK-nın Siyasi Bürosu 30 iyun 1944-cü ildə Krım Muxtar Sovet Sosialist Respublikasının Rusiya Federasiyasının tərkibində Krım vilayətinə çevrilməsi haqqında qərar qəbul etdi və mətbuatda dərc edilmədi.

Krım tatarlarının deportasiyasının yekununa ÜİK[b]P Krım Vilayət Komitəsinin bürosunda baxıldı. Büronun 14 oktyabr 1944-cü il tarixli iclas protokolunda qeyd edilir ki, 1944-cü ilin mayına kimi 191.111 nəfər tatar köçürülmüş, məhsul yığımına 33.349 nəfər bolğar, yunan və erməni gətirilmişdi [3, s.19].

Azərbaycanlılar da köçürülmə əməliyyatına məruz qalmışdılar. Doğrudur, bu respublika ərazisində baş verməmişdi. Beriyanın 24 iyun 1944-cü il tarixli məktubunda onların deportasiyasının səbəbi kimi təsərrüfat işini öz başına qoyub Tbilisiyə yaşamağa gəlmələri göstərilirdi. Hazırlanmış qərar layihəsinə Dövlət Müdafiə Komitəsində baxılmış, sonra Stalin tərəfindən imzalanmışdır.

1944-cü il noyabrın 15-də 3 eşalonda 26.591 nəfər Şərqə göndərildi. 10 gün müddətində Gürcüstanın cənub rayonlarından 91.095 nəfər çıxarıldı. Dövlət Müdafiə Komitəsinin 30 iyul 1944-cü il qərarına uyğun olaraq həmin ilin sentyabr ayının 20-də Gürcüstan SSR-in Türkiyə ilə sərhəd rayonları olan Adıgey, Axalsıx, Axalkələk, Aspinoz, Vodolokovski və Acariya MR-dan 69.869 nəfər Orta Asiya Respublikasına sürgün edildi. Bunlardan 59.780 nəfəri türk idi. 1945-ci il yanvarın 31-də Tbilisidən yola salınan sonuncu eşalonda 695 ailə Özbəkistana köçürüldü. Onların arasında 8.694 nəfər kürd də var idi. [4, s.317].

Müharibə illərində digər xalqların nümayəndələri - qaraçılar, tərəkəmələr, lazlar və başqaları da köçürülmə siyasətinin qurbanına çevrilmişdilər. 1946-cı ildə SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığının 3-cü idarəsinin hazırladığı təlimata görə müharibə dövründə 400.478 nəfər çeçen və inquş, 60.139 nəfər qaraçaylı, 32.817 nəfər bolqar, 81.673 nəfər kalmık, 193.959 nəfər Krım tatarları, bolqar, yunan, 774.178 alman, 84.402 türk, kürd və bütövlükdə 2 milyon adam öz torpağından deportasiya olunmuşdu [2, s.122]. Ümumiyyətlə, müharibə illərində 61 millət deporatsiyaya məruz qalmışdı.

SSRİ Xalq Daxili İşlər Komissarlığının Xüsusi Köçürülənlər Şöbəsinin 1946-cı ilin oktyabrında hazırlanmış ümumi arayışda göstərilirdi ki, "Xüsusi köçürülənlər düşərgəsində" ümumilikdə 2.463.940 nəfər vardı. Onlardan 655.674 nəfəri kişi, 829.940 nəfəri qadın, 999.182 nəfəri 16 yaşına qədər olanlardır.

***Nəticə.*** Köçürülmə səbəbi kimi qeyd edilənləri təhlil edərkən belə qənaətə gəlmək olur ki, bu "səbəblər" xalqları və millətləri öz dədə-baba yurdlarından köçürmək üçün əsas vermirdi. Bütün bunlar xalqlara tədbiq edilən ədalətsiz güc tədbirləri idi. Bu tədbirlər "millətlər atası"nın ölümündən sonra ümümxalq müzakirəsinə çevrildi. Deportasiya tarixin uzun müddət xalqdan gizlədilmiş qaranlıq səhifələri idi. Nəticədə isə xalqların SSRİ adlı dövlətə inamı azaldı.

Xalqların deportasiyası insan hüquqlarına, SSRİ Konstitusiyasına zidd idi. Xüsusi ilə muxtar respublikalarının və vilayətlərin ləğvi bu işin "zirvəsi" olmuşdu. İstər köçürülən, istərsə də deportasiyadan canını qurtaran xalqlar bu hadisələri yaddan çıxarmadılar. Nəhayət, RSFSR hökümətinin 1991-ci il tarixli "Repressiya olunmuş xalqların reabilitasiyası haqqında" və "siyasi repressiya qurbanları" haqqında qanununda baş vermiş repressiyalara siyasi qiymət verildi.

## ƏDƏBİYYAT

1. Əmrahov M.İ., Əsədov N.N. İkinci dünya müharibəsinin yekunları və dərsləri. Bakı, Mütərcim, 2006, 76 s.
2. Həsənli C.P. SSRİ-Türkiyə:Soyuq muharibənin sınaq meydanı. Bakı, Adiloğlu, 2005, 544 s.
3. Бугай Н.Ф. Депортация народов Крыма: Документы, Факты, Комментарии. Москва, Инсен, 2002, 240 с.
4. Война и общество. 1941-1945 в двух книгах. (Отв. ред. Г.Н.Севостьянов). Москва, КУЧКОВО ПОЛЕ, 2014, 863 с.
5. Иосиф Сталин-Лаврентию Берии: «Их надо депортировать…». Москва, «Дружба народов», 1992, 288 с.

**АРИФ ВЕЙИСОВ**
*Доктор философии по педагогике,*
*доцент Газахского филиала Бакинского Государственного Универстета*

**ДИЛЬШАД ШАМИЛОВА**
*сотрудник Газахского филиала Бакинского Государственного Универстета*

**ХАГИКАТ МЕХТИЕВА**
*сотрудник Газахского филиала Бакинского Государственного Универстета*

## ДЕПОРТАЦИОННАЯ ПОЛИТИКА СТАЛИНСКОГО РЕЖИМА

Советская Россия как империалистическое государство крепнет за счет других наций и бросает вызов миру. Вторая мировая война велась не на одном фронте. Оно также вошло в историю раздельным избранием и депортацией сотен тысяч представителей других народов в тыл. Крымские турки и турки-махсати были депортированы со своих исторических земель. Однако вернуться они не могли даже в реабилитационных законах, изданных в конце 50-х гг.

*Ключевые слова*: Вторая мировая война, депортацией других народов, Крымские турки, турки махсати.

**ARIF VEYISOV**
*Doctor of Philosophy in Pedagogy, docent*
*employee of Gazakh branch of Baku State University*

**DILSHAD SHAKHMAROVA**
*employee of Gazakh branch of Baku State University*

**HAGIGAT MEHTIEVA**
*employee of Gazakh branch of Baku State University*

## DEPORTATION POLICY OF THE STALIN REGIME

Soviet Russia as An imperialist state is gaining strength at the expense of other nations and challenging the world. World War II was not fought on one front. It also went down in history with the separate election and deportation of hundreds of thousands of representatives of other nations on the rear front. Crimean Turks and Mahsati Turks were deported from their historical lands. However, they could not return even in the rehabilitation laws issued at the end of the 50 s.

*Keywords*: World War II, deportation of other nations, Crimean Turks and Mahsati Turks.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.ü.e.d. İmaş Hacıyev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**XAQAN BALAYEV**
*Bakı Mühəndislik Universitetinin "Ümumi fənlər" kafedrasının dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
**xabalayev@beu.edu.az**

# 1950-Cİ İLLƏRDƏ SOVET AZƏRBAYCANINDA MİLLİ DİL MƏSƏLƏSİ

*1956-cı ildə görkəmli yazıçı və dövlət xadimi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.İbrahimovun təşəbbüsü ilə Azərbaycan rəhbərliyi respublika konstitusiyasına dövlət dili haqqında maddə daxil etmək qərarına gəldi, bununla da ana dilinin hüquqları qismən də olsa bərpa edilməli idi. 1956-cı ildə Azərbaycan rəhbərliyi konstitusiyaya dövlət dili haqqında maddə daxil etmək təşəbbüsündə olarkən, Gürcüstan və Ermənistan istisna olmaqla (dövlət dili haqqında maddə həmin respublikaların ilk konstitusiyalarına daxil edilmiş və 1937-ci il konstitusiyalarında da saxlanılmışdı) SSRİ konstitusiyasında, müttəfiq respublikaların konstitusiyalarında, həmçinin Avropa və Asiyanın sosialist ölkələrinin konstitusiyalarında dövlət dili haqqında maddə yox idi.*

*Açar sözlər*: Sovet Azərbaycanı, Sovet İttifaqı, konstitusiya, Azərbaycan dili, dövlət dili.

***Giriş.*** 1956-cı ildə Azərbaycan SSR konstitusiyasına ilk dəfə dövlət dili haqqında maddə daxil edildi. Bundan əvvəl yalnız 1927-ci il martın 26-da Ümumazərbaycan V Şuralar qurultayı tərəfindən təsdiq edilmiş konstitusiyada (ilkin rəy kimi belə mülahizə irəli sürmək olar ki, bu konstitusiya Azərbaycan SSR-in ikinci konstitusiyası hesab edilə bilər) dil məsələsini tənzim edən bənd (15-ci maddənin ikinci hissəsi) daxil edilmişdi: "Azərbaycan Sosialist Şura Cümhuriyyəti daxilindəki bütün vətəndaşlara qurultay, məhkəmə, idarə və ictimai həyatda öz ana dillərindən azad bir surətdə istifadə etmək hüququ verilir. Əqliyyətdə (azlıqda) qalan millətlərə məktəblərində öz ana dillərində oxumaq həqqi təmin edilir" (2, 6).

1937-ci il konstitusiyası hazırlanarkən, layihənin 20-ci maddəsində Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin türk dili olduğu qeyd edilmişdi və layihə 1936-cı ildə Fövqəladə IX Ümumazərbaycan Sovetlər qurultayına bu cür təqdim olunmuşdu. Lakin Azərbaycan rəhbərliyi yeni Sovet konstitusiyasını qəbul edən 8-ci Fövqəladə Sovetlər qurultayında (5 dekabr 1936-cı il) iştirak edib Moskvadan qayıdandan sonra həmin maddə layihədən çıxarılmış, 1937-ci il martın 14-də Fövqəladə 9-cu Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan SSR konstitusiyası dövlət dili haqqında maddə olmadan təsdiq edilmişdi (1).

1956-cı ildə Azərbaycan rəhbərliyi konstitusiyaya dövlət dili haqqında maddə daxil etmək təşəbbüsündə olarkən, Gürcüstan və Ermənistan istisna olmaqla (dövlət dili haqqında maddə həmin respublikaların ilk konstitusiyalarına daxil edilmiş və 1937-ci il konstitusiyalarında da saxlanılmışdı) müttəfiq respublikaların konstitusiyalarında dövlət dili haqqında maddə yox idi. Sosialist ölkələri birliyini təşkil edən Albaniya Xalq Respublikası, Bolqarıstan Xalq Respublikası, Macarıstan Xalq Respublikası, Vyetnam Demokratik Respublikası, Almaniya Demokratik Respublikası, Çin Xalq Respublikası, Koreya Xalq Demokratik Respublikası, Monqolustan Xalq Respublikası, Polşa Xalq Respublikası, Rumıniya Xalq Respublikası, Çexoslovakiya Sosialist Respublikası konstitusiyalarına dövlət dili haqqında maddə daxil edilməmişdi (10; 11).

***1950-ci illərdə Sovet Azərbaycanında milli dilin hüquqları uğrunda mübarizə***. Azərbaycanda konstitusiyaya dövlət dili haqqında maddə daxil edilməsi sovet dövlətçiliyində nümunəsi görünməmiş bir hadisə idi. Bu mövzuya bir çox yazılarda toxunulmuşdur. Lakin arxiv sənədləri öyrənilmədiyindən, bir iki məqalədə buna cəhd göstərilsə də səthi öyrənildiyindən həmin yazılarda bu tarixi dövlətçilik aktının obyektiv şərhini vermək mümkün olmamışdır.

Konstitusiyaya dövlət dili barəsində maddə daxil edilməsi haqqında qanunun qəbul edildiyi dövrdə Azərbaycan dili nəinki dövlət idarələrindən tamamilə sıxışdırılıb çıxarılmışdı, hətta bəzi poçt şöbələrində Azərbaycan dilində teleqramlar qəbul edilmirdi, bəzi müəssisələrdə işçilərin Azərbaycan dilində yazdıqları ərizələr onlara qaytarılırdı.

Qanunun təşəbbüskarı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Mirzə İbrahimov idi. Tarixin mürəkkəb məqamlarında həmişə olduğu kimi, yenə də şəxsiyyətin rolu hərəkətverici qüvvə olmuşdu.

Qanunun yaranması prosesi iyulun əvvəllərində Mirzə İbrahimovun Rəyasət Heyətindəki kabinetində İmam Mustafayevlə söhbətindən başlamışdı. İ.Mustafayev onunla razılaşmış, MK-ya yazılı məlumat göndərmək təklifinə “şifahi müzakirə edərik” – deyə cavab vermişdi. Məsələ büroda şifahi tərzdə müzakirə olunduqdan sonra M.İbrahimova SSRİ Ali Sovetinin Rəyasət Heyəti ilə danışıq aparmaq tapşırılmışdı (13, 172). İyul ayının 17-də M.İbrahimov Moskvada SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri K.Y.Voroşilovla məsələni şifahi, heç bir yazılı sənəd olmadan razılaşdırmışdı. Bakıya qayıdandan sonra, iyulun 20-də Azərbaycan KP MK-ya məktub göndərərək (məktub Azərbaycan dilində yazılmışdı), məsələnin şərhindən sonra yazırdı: “Respublikanın dövlət dili haqqında AKP MK bürosunun qərar layihəsini müzakirənizə təqdim edirəm. Konstitusiyaya ediləcək əlavəni Azərbaycan SSR Ali Sovetinin bu il avqustun 15-də çağırılan sessiyasının müzakirəsinə verməyi məsləhət görürəm” (3, 116). İyulun 24-də Azərbaycan KP MK bürosu “Azərbaycan SSR konstitusiyasına dövlət dili barəsində maddə əlavə edilməsi haqqında” qərar qəbul edir və avqustun 3-də qərardan çıxarış Ali Sovetin Rəyasət Heyətinə göndərilir (12, 113). Sessiya nəzərdə tutulduğu kimi avqustun 15-də yox, 21-də çağırılır və “Azərbaycan SSR Konstitusiyasına (Əsas qanununa) Azərbaycan SSR-in Dövlət dili barəsində maddə əlavə edilməsi haqqında qanun” qəbul edilir (4, 147).

Həmin qanunla Azərbaycan SSR konstitusiyasının XIII fəsli “Dövlət dili, gerb, bayraq, paytaxt” adlandırılaraq, ona 151-ci maddə əlavə olundu:

“Azərbaycan SSR-in Dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR ərazisində yaşayıb azlıq təşkil edən millətlərə həm öz mədəniyyət idarələrində, həm də dövlət idarələrində ana dilini sərbəst inkişaf etdirmək və işlətmək hüququ təmin edilir.” (4, 147).

M.İbrahimovun başçılıq etdiyi Ali Sovetin Rəyasət Heyəti konstitusiya müddəasının həyata keçirilməsində xüsusilə təkid göstərirdi. Üç nazirliyin bu sahədəki işinin Rəyasət Heyətində müzakirəyə çıxarılması dövlət strukturlarında böyük əks-səda doğurmuşdu. Rəyasət Heyəti Mədəniyyət Nazirliyində, Kənd Təsərrüfatı Nazirliyində və Maliyyə Nazirliyində yoxlama keçirərək, kargüzarlığın Azərbaycan dilinə keçirilməsi vəziyyətini araşdırmışdı.

Prosesdə əyintilər də özünü göstərirdi. Bəzi yığıncaqlarda auditoriya azərbaycanlıların rus dilində çıxış etməsinə etirazını bildirir, bəzən belə çıxışlara imkan vermirdi. M.İbrahimov belə halların ola biləcəyini qabaqcadan görmüşdü və 1956-cı il oktyabrın 28-də “Kommunist” qəzetində dərc etdirdiyi “Azərbaycan dili dövlət idarələrində” adlı məqaləsində bundan çəkinməyə çağırırdı: “Dövlət idarələrinin Azərbaycan dilində aparılması o demək deyildir ki, azərbaycanca bilməyən bir vətəndaşı cavabsız buraxasan, yaxud onun şikayətinə anlamadığı dildə cavab verəsən. Təbiidir ki, bu da yanlış bir hərəkət olar. Belə vətəndaşlara rus dilində cavab vermək, yəni onu başa salıb təmin etmək lazımdır” (6, 73).

Azərbaycan dilinin dövlət idarələrində tətbiqi ilə əlaqədar səylər 1958-ci il yanvarın 23-də M.İbrahimovun öz xahişi ilə vəzifəsindən azad edildiyi vaxtadək fəal surətdə davam eləmişdi.

1956-cı ilin avqustunda qəbul edilmiş dövlət dili haqqında qanun üç il sonra – Azərbaycan KP MK-nın 1959-cu ilin iyun və iyul aylarında keçirilmiş VIII və IX plenumlarında müzakirə mövzusu olmuşdu.

İyunun 16-17-də keçirilmiş VIII plenumda dil haqqında qanun müzakirə olunmuşdu.

Müzakirələrdən məqsəd bu idi ki, M.İbrahimov səhvə yol verdiyini etiraf etsin. Bu, sağlam məntiqə zidd mövqe idi – qanun layihəsi sessiyadan əvvəl MK bürosunda yekdilliklə təsdiq olunmuşdu.

M.İbrahimov çıxışında demişdi: “Mən respublika Ali Sovetinə gələndə hər həftə adamları qəbul eləyirdim, hər qəbulda qırx, otuz, iyirmi adamla görüşürdüm. Külli miqdarda da məktub alırdım. Qəbullarda və məktublarda Mustafayevin fəaliyyəti sayəsində deyil, ondan əvvəl işləmiş adamların fəaliyyəti nəticəsində yaranmış bir sıra qeyri-təbii hallar haqqında məlumat verilirdi.

Misal üçün, azərbaycanlı nazirliyə məktub göndərir və kolxoz əmlakının dağıdılmasından, çatışmazlıqlardan yazır. Azərbaycan dilini bilməyən şöbə müdiri dərkənar qoyur: “Yoxlanılsın, məlumat verilsin”. Bir aydan sonra ona yoxlamanın nəticələri barədə məlumat təqdim olunur. Yenə dərkənar qoyur: “Yoxlanılsın, məlumat verilsin”.

Yerli dili bilməmək, yerli dilə ayrı-ayrı yoldaşlar tərəfindən göstərilən etinasızlıq dövlət və partiya işinə ziyan vurmuşdur, buna qarşı çıxmaq lazım idi. Mən də qulaqlarımı bağlayıb, gözlərimi yuma bilərdim. Vəziyyətim o zaman çox yaxşı idi, mən də bir kəlmə danışmaya bilərdim. Lakin kommunist vicdanım məni bu barədə danışmağa təhrik etdi. Bütün bu eybəcərlikləri ləğv etmək lazım idi. Belə bir vəziyyətin əleyhinə çıxmaq lazım idi ki, mühasib qadın azərbaycanlı fəhlənin məzuniyyət

haqqında ərizəsini üstünə atıb demişdi: "mən sizin fransız dilini bilmirəm!" Biz belə işlərə qarışmalı, ona qarşı çıxış etməli idik, yoxsa beynəlmiləl tərbiyə haqqında dediklərimiz boş ibarə və ritorika olardı. Beynəlmiləlçiliyi yalnız Lenin milli siyasəti əsasında tərbiyə eləmək olar" (9, 108-109).

Çıxış edənlər ya büro üzvü, ya da MK üzvü, yaxud Ali Sovetin deputatı kimi qanunun qəbul olunmasında iştirak etmişdilər. İndi M.İbrahimovdan tələb edirdilər ki, məhz o, səhvə yol verdiyini etiraf etsin. M.İbrahimov ikinci dəfə söz alıb çıxış etmişdi. Lakin bu çıxışı ilə də rəhbərliyi razı salmadığına görə plenumun qərarına onun barəsində xüsusi bənd daxil edilmişdi: "Azərbaycan KP MK plenumu qeyd edir ki, MK üzvü M.İbrahimov yoldaş öz çıxışında Azərbaycan KP MK katibi A.Bayramovun məruzəsində haqlı tənqid edilmiş səhvlərinə düzgün, prinsipial qiymət vermədi. Plenum belə hesab edir ki, İbrahimov yoldaş keçmiş işində yol verdiyi səhvləri etiraf etmək əvəzinə Azərbaycan KP MK-nın birinci katibi Mustafayev yoldaşa qarşı əsassız ittihamlar irəli sürmək yolunu tutdu" (9, 217-218).

Plenumdan dərhal sonra rus dilinin üstün vəziyyətini təmin etmək üçün tədbirlər görülməyə başlandı. İyunun 20-də Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti "Azərbaycan SSR məktəblərində rus və Azərbaycan dillərinin öyrənilməsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdilər.

On maddədən ibarət olan bu qərarın yalnız bir maddəsində "Azərbaycan dilinin tədrisini yaxşılaşdırmaq üçün tədbirlər hazırlayıb həyata keçirməkdən" bəhs edilirdi.(5). Qərarın 1-ci maddəsində Azərbaycan, erməni və gürcü dillərində dərs keçilən məktəblərdə rus dilinin; rus dilində, habelə başqa dillərdə dərs keçilən məktəblərdə Azərbaycan dilinin şagirdlərin və onların valideynlərinin arzusu ilə öyrənilməsi prinsipi qeyd olunsa da, sonrakı maddədə "Başqa dildə dərs keçilən məktəblərdə rus dilinin öyrənilməsinin son dərəcə böyük əhəmiyyəti olduğunu və onun millətlərin bir-biri ilə ünsiyyət etməsinin, SSRİ xalqları arasında dostluğun möhkəmləndirilməsinin və onların rus və dünya mədəniyyətinə yaxınlaşdırılmasının qüdrətli vasitəsi olduğunu nəzərə alaraq, habelə respublika zəhmətkeşlərinin arzusu nəzərə alınaraq" respublikanın partiya, sovet və maarif orqanlarına tapşırılırdı ki, "respublikanın bütün ümumtəhsil məktəblərində rus dilinin öyrənilməsini xeyli yaxşılaşdırmaq üçün lazımi tədbirlər görsünlər" (5).

Azərbaycan KP MK-nın iyulun 7-9-da keçirilmiş IX plenumunda dövlət dili haqqında qanun daha geniş və əsaslı müzakirə mövzusu oldu. Plenumun gündəliyində "Respublika partiya təşkilatında işin vəziyyəti haqqında, Azərbaycan KP MK bürosunun və Mərkəzi Komitənin birinci katibi İ.D.Mustafayev yoldaşın işindəki ciddi nöqsanlar və səhvlər haqqında" məsələ dururdu.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri Vəli Axundovun məruzəsində qeyd olunurdu ki, "1956-cı ilin avqustunda respublika Ali Soveti Rəyasət Heyətinin sabiq sədri İbrahimov yoldaşın təşəbbüsü və Azərbaycan KP MK bürosunun razılığı və təqdiri ilə" qəbul edilmiş dövlət dili haqqında qanun "millətçilik əhval-ruhiyyəsinin canlanmasına, partiyanın milli siyasətinin təhrifinə gətirib çıxardı"..."müxtəlif demaqoq və millətçi ünsürlər milli ehtirasları qızışdırmaq və alovlandırmaq üçün, xüsusilə ziyalıların bir hissəsi və tələbə gənclər arasında bunu etmək üçün bu məsələdən istifadə etdilər" (13, 15-16).

Sov.İKP MK katibi, MK Rəyasət Heyətinin üzvü Nuriddin Mühiddinovun plenumdakı çıxışında, nəhayət Sov.İKP MK-nın məsələyə ilk dəfə rəsmi münasibəti bildirilməliydi. O, dövlət dili haqqında qanunun qəbul edilməsini səhv addım kimi qiymətləndirsə də, bütünlükdə amirlik iddialarından uzaq olan çıxışı yüksək etikası ilə fərqlənirdi. O, arada çıxışını kəsərək, M.İbrahimovdan beynəlmiləlçilik və rus dilinin əhəmiyyəti haqqında yeni əsər yazmasını xahiş etmiş, M.İbrahimov razılığını bildirmişdi. 1959-cu il dekabrın 11-də "Kommunist" qəzetində M.İbrahimovun "Qardaşlıq dili" məqaləsi dərc olundu.

Plenumdan sonrakı növbəti sessiyada – 1959-cu il noyabrın 26-da beşinci çağırış Azərbaycan SSR Ali Sovetinin üçüncü sessiyasında "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və Azərbaycan SSR-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında Azərbaycan SSR qanununun 11-ci maddəsinə dəyişiklik və əlavələr edilməsinə dair qanun" qəbul edildi və 11-ci maddə belə yazıldı:

"Müəyyən edilsin ki, Azərbaycan SSR məktəblərində dərslər şagirdlərin ana dilində keçirilsin. Uşaqlarını hansı dildə dərs keçilən məktəbdə oxutmaq məsələsini həll etmək hüququ ata-analara verilir.

Azərbaycan dilində və ya başqa dillərdə dərs keçilən məktəblərdə rus dilinin öyrənilməsi, habelə rus dilində və ya başqa dillərdə dərs keçilən məktəblərdə Azərbaycan dilinin öyrənilməsi uşaqların və onların ata-analarının arzusuna görə aparılır. Xarici dillərin öyrənilməsi müvafiq şəraiti olan məktəblərdə aparılır.

Zəhmətkeşlərin arzusunu nəzərə alaraq, millətlərin bir-biri ilə ünsiyyət etməsinin, SSRİ xalqları arasında dostluğun möhkəmləndirilməsinin və onların zəngin rus və dünya mədəniyyətinə yaxınlaşdırılmasının qüdrətli vasitəsi olan rus dilinin Azərbaycan SSR məktəblərində öyrənilməsini hər vasitə ilə yaxşılaşdırmaq lazımdır.

Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Azərbaycan Sovet Sosialist Respublikasının məktəblərində rus, Azərbaycan, habelə xarici dillərin öyrənilməsi üçün lazımi şərait yaratmaqdan ötrü tədbirlər hazırlayıb həyata keçirsin" (8, 181).

***Nəticə***. Azərbaycan dilinin dövlət dili kimi tətbiq edilməsi uğrunda 1956-cı ilin avqustunda M.İbrahimovun təşəbbüsü və əməli fəaliyyəti ilə başlanan gərgin mübarizəyə 1959-cu ilin noyabrında son qoyuldu. Ancaq Azərbaycan SSR konstitusiyasında dövlət dili haqqında maddə saxlanıldı və formal da olsa, konstitusiya müddəası kimi əhəmiyyətli idi. 1956-cı il qanunu əllinci illərdə nəinki Azərbaycan dilinin dövlət idarələrindən sıxışdırılmasının qarşısını aldı, eyni zamanda milli şüurun dirçəlməsində böyük rol oynadı və sonrakı illərdə də Azərbaycan dilinin hüquqlarının qorunması üçün təməl rolunu oynadı. 1991-ci ildə, həyatının ahıl çağında ömrünün ötən illərinə, dövlət dili haqqında qanunu qəbul elətdirdiyi dövrə nəzər salan M.İbrahimov demişdi: "Hər halda, Çingiz Aytmatovun yana-yana göstərdiyi hadisə - Qırğızıstanda (özü də yalnız orda yox) qırğız dilinin başına gələnlər Azərbaycan dilindən yan ötdü. İndi qırğız dili kimi Azərbaycan dilini də əcəl girləmir"(7, 125). (2002-ci ilin yanvar ayında Qırğızıstan respublikasının prezidenti A.Akayev Qırğızıstanda rus və qırğız dillərini dövlət dili elan edən fərman imzaladı və bu, ölkə konstitusiyasının 5-ci maddəsində təsbit olundu).

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın Azərbaycan dövlət dili haqqında məsələnin müzakirəsinə həsr olunmuş 2 noyabr 1995-ci il tarixli iclasının materialları / "Azərbaycan" qəzeti, 4,7, 9-11 noyabr 1995.
2. Azərbaycan Sosialist Şura Cümhuriyyətinin Qanun əsasisi. B., Azərbaycan mərkəzi icraiyə komitəsi, 1927, 23 s.
3. Azərbaycan SSR Konstitusiyasına (Əsas qanununa) Azərbaycan SSR Dövlət dili barəsində maddə əlavə edilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.İbrahimovun Azərbaycan KP MK-ya 20 iyul 1956-cı il tarixli məktubu. ARSPİHDA, f.1, s.43, i.87, v.
4. Azərbaycan SSR Konstitusiyasına (Əsas qanununa) Azərbaycan SSR Dövlət dili barəsində maddə əlavə edilməsi haqqında 21 avqust 1956-cı il tarixli qanun. – Dördüncü çağırış Azərbaycan SSR Ali Sovetinin iclasları. Üçüncü sessiya (20-21 avqust 1956-cı il). Stenoqrafik hesabat / Kommunist qəzeti, 25 avqust 1956-cı il.
5. Azərbaycan SSR məktəblərində rus və Azərbaycan dillərinin öyrənilməsini yaxşılaşdırmaq tədbirləri haqqında. Azərbaycan KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Sovetinin 20 iyun 1959-cu il tarixli qərarı / "Kommunist" qəzeti, 21 iyun 1959.
6. İbrahimov M.Ə. Azərbaycan dili. B., Azərb.SSR EA, 1957, 72, [4] s.
7. İbrahimov M.Ə. Azərbaycan dili – hikmət xəzinəsi. B., Azərnəşr, 1991, 136 s.
8. Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və Azərbaycan SSR-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında Azərbaycan Sovet Sosialist Respublikası qanununun 11-ci maddəsinə dəyişiklik və əlavələr edilməsinə dair 26 noyabr 1956-cı il tarixli qanun. – Beşinci çağırış Azərbaycan SSR Ali Sovetinin iclasları. Üçüncü sessiya (25-26 noyabr 1959-cu il). Stenoqrafik hesabat. B., 1960.
9. Задачи партийной организации Азербайджана в связи с постановлением ЦК КПСС «О состоянии и мерах улучшения массово-политической работы среди трудящихся Сталинской области.» Стенограмма заседаний VIII пленума ЦК КП Азербайджана (16-17 июня 1959 г.). ГАППОДАР (Государственный Архив Политических Партий и Общественных Движений Азербайджанской Республики),. ф.(фонд),1, о.(опись) 46, д.(дело) 16.
10. Конституции социалистических государств. Т.1. М., Юридическая литература, 1987, 334, [1] с.
11. Конституции социалистических государств. Т.2. М., Юридическая литература, 1987, 382, [2] с.

12. О дополнении Конституции Азербайджанской ССР статьей о государственном языке Азербайджанской ССР. Постановление бюро ЦК КП Азербайджана от 24 июля 1956 г. ГАППОДАР. Ф.1, о.43, Д.87.
13. О состоянии дел в партийной организации республики, о серьезных недостатках в работе бюро ЦК КП Азербайджана и первого цекретаря т. Мустафаева. Стенограмма заседаний IX пленума ЦК КП Азербайджана (7-9 июля 1959 г.). ГАППОДАР, ф.1, о.46, д.26.

**ХАГАН БАЛАЕВ**
*Доцент Бакинского Инженерного Университета,*
*доктор философских наук по политическим наукам*

## ВОПРОС НАЦИОНАЛЬНОГО ЯЗЫКА В СОВЕТСКОМ АЗЕРБАЙДЖАНЕ В 1950-Е ГГ.

В 1956 году по инициативе видного писателя и государственного деятеля, председателя Президиума Верховного Совета Азербайджанской ССР М.Ибрагимова руководство Азербайджана приняло решение о включении статьи о государственном языке в конституцию республики, тем самым частично восстановить права родного языка. В 1956 году, когда руководство Азербайджана выступило с инициативой включения в конституции статьи о государственном языке, за исключением Грузии и Армении (статья о государственном языке была включена в первые конституции этих республик и сохранена в конституции 1937 г.) в конституции СССР, в конституциях союзных республик, а также социалистических стран Европы и Азии не имелась статья о государственном языке.

*Ключевые слова*: Советский Азербайджан, Советский Союз, конституция, азербайджанский язык, государственный язык.

**KHAQAN BALAYEV**
*Associate Professor of Baku Engineering University,*
*Doctor of Philosophy in Political Science*

## THE ISSUE OF THE NATIONAL LANGUAGE IN SOVIET AZERBAIJAN IN THE 1950s.

In 1956, at the initiative of M. Ibrahımov, a prominent writer and statesman, Chairman of the Presidium of the Supreme Soviet of the Azerbaijan SSR, the leadership of Azerbaijan decided to include an article on the state language in the constitution of the republic, thus the rights of the mother tongue should be partially restored. In 1956, when the leadership of Azerbaijan took the initiative to include an article on the state language in the constitution, with the exception of Georgia and Armenia (the article on the state language was included in the first constitutions of those republics and was retained in the constitutions of 1937), there were not articles on the official languages in the constitutions of the union republics and the socialist countries of Europe and Asia.

*Keywords*: Soviet Azerbaijan, the Soviet Union, constitution, the Azerbaijan language, state language.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Bilal Dədəyev, t.e.d. Ibrahim Zeynalov.*

UOT 94(479.24)

**MƏHARƏT OSMANOV**
*Bakı Dövlət Universitetinin dosenti*
**meharetosmanli77@gmail.com**

# AZƏRBAYCAN DİASPORASININ FƏALİYYƏTİ: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR

*Məqalədə dövlət müstəqilliyinin bərpa edilməsindən sonra dünya azərbaycanlılarının təşkilatlanması və dünyada fəaliyyətindən bəhs olunmuşdur. Tədqiq olunan illərdə bu istiqamətdə təşkilati işlər həyata keçirilmiş, dünya azərbaycanlılarının qurultayları azərbaycanlıların birliyində mühüm rol oynamışdır. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin, tariximizin, mədəniyyətimizin dünyada təbliği istiqamətində Azərbaycan diasporası mühüm rol oynamışdır.*

*Açar sözlər*: diaspora, Azərbaycan, xarici ölkələr, azərbaycanlılar, dünya.

***Giriş***. Azərbaycan diasporasının formalaşması və təşkilatlanması tarixi XX əsrin əvvəllərinə təsadüf edir. Təqribi sayı 50 milyon olan dünya azərbaycanlıları müxtəlif regionlarda, qitələrdə yaşayır və elm, təhsil, tibb, mədəniyyət və biznes, sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Azərbaycan diasporasının dünya azərbaycanlılarının milli mənəvi birliyində, dövlətlərarası münasibətlərin inkişafında və Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, əsrin faciəsi Xocalı soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır. Azərbaycan diaspora təşkilatlarının milli siyasi maraqları müdafiə edən və xarici ölkə hakimiyyət orqanlarına təsir göstərən lobbiyə çevrilməsinə ehtiyac vardır. Bu baxımdan təqdim olunan mövzu mühüm əhəmiyyətə malikdir.

***

Azərbaycan diasporunun xarici ölkələrdə məskunlaşması prosesi bir neçə yüz il əvvəl başlamışdır. XX əsrin əvvəllərində azərbaycanlıların xaricə axını daha geniş vüsət almağa başlamışdı. Qafqazda çar Rusiyasının antimüsəlman və antitürk siyasəti məqsədli şəkildə regionda azərbaycanlı əhalinin üstün mövqeyinin zəiflədilməsinə yönəlmişdi. 1905-1906, 1918-ci illərdə azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırım, etnik təmizləmə siyasəti də bu məqsədə xidmət edirdi.

Türkiyənin Ankara şəhərində 1949-cu il fevralın 1-də "Azərbaycan Kültür Dərnəyi"nin təsis edilməsi dünyada Azərbaycan diasporunun təşkilatlanması sahəsində ilk addım oldu. 1956-cı ildə isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhlükəsizlik naziri işləmiş Nağı bəy Şeyxzamanlının oğlu Saleh bəy Şeyxzamanlı ABŞ-da "Amerikanın Azərbaycan cəmiyyəti"ni təsis etdi [1]. Bütün bunlar Azərbaycan diasporunun artıq XX əsrin ortalarından təşkilatlandığını göstərirdi.

1989-cu il dekabrın 31-də sovet rəhbərliyinə ilin son etirazı olaraq, Arazboyu sərhədlərimiz sökülmüş, Vətəndən dünyaya qardaşlıq qapısı açılmış, dünyadakı soydaşlarımıza və dostlarımıza ilk həmrəylik mesajı göndərilmişdı. Bu hadisədən sonra Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi Azərbaycana qarşı qanlı 20 Yanvar qırğınını törətmişdi. Bu müdhiş dövlət qətliamı Azərtbaycanı ittifaq dövlətinə bağlayan son telləri də qırmaqla xalqımızı dövlət müstəqilliyi uğrunda mübarizənin astanasına gətirmişdi [11].

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirildi. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bundan sonra Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 31 dekabr – Dünya Azərbaycanlıların Həmrəylik Günü kimi təsdiqləndi [3].

Ümummilli lider Heydər Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xarici ölkələrdə yaşayan azərbaycanlılara müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə ma-

lik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir" [12].

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı azərbaycançılıq ideologiyasının beynəlxalq əhəmiyyət qazanması baxımından önəmli bir hadisə idi. Dünyanın 36 ölkəsindən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndənin və 63 qonağın iştirak etdiyi bu tədbir Azərbaycan diaspora quruculuğu tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda mühüm addım idi [2]. Qurultayda xaricdə yaşayan azərbaycanlılarla sistemli işin aparılması, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü.

2002-ci il iyulun 5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan vermişdir [12].

Dünyanın müxtəlif ölkələrində Azərbaycanın diaspora təşkilatları fəaliyyət göstərir. Azərbaycan diasporunun ən geniş təmsil olunduğu Avropa ölkələrindən biri Almaniyadır. 1988-ci ildən bu ölkədə fasilələrlə onlarla cəmiyyət fəaliyyət göstərir. 1988-ci ildə Berlin şəhərində "Azərbaycan – Almaniya Cəmiyyəti" yaradılmışdır.

XX əsrin ortalarından azərbaycanlıların ilk nümayəndələri Böyük Britaniyada məskunlaşmağa başladılar. Müasir mərhələdə Londonda xeyli sayda azərbaycanlı yaşayır və güclü diaspora təşkilatları fəaliyyət göstərir. Böyük Britaniyada Azərbaycan – İngiltərə Cəmiyyəti, Avropa – Azərbaycan Cəmiyyəti və Azərbaycan Gənclər Klubunun fəalları Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, azərbaycanlıların təşkilatlanması istiqamətində işlər görürlər.

Fransada Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli və digər Azərbaycan mühacirətinin ilk nümayəndələri XX əsrin birinci rübündə fəaliyyətə başlasa da, mütəşəkkil diaspora təşkilatlarının formalaşması son 15-20 ilə təsadüf edir.

Azərbaycan mühacirətinin ən geniş təmsil olunduğu ölkələrdən biri ABŞ-dır. Burada yaşayan azərbaycanlıların sayı haqqında dəqiq məlumatlar olmasa da, müxtəlif mənbələrdə onların sayı 400 mindən 1 milyona qədər göstərilir. ABŞ-ın Los-Anceles şəhərində 1997-ci ildə yaradılmış Dünya Azərbaycanlıları Konqresi yalnız Amerika ərazisində deyil, dünyanın müxtəlif ölkələrindəki Azərbaycan cəmiyyətlərinin fəaliyyətini əlaqələndirməyə çalışır.

Rusiya Federasiyasında da Azərbaycanın geni diasporası mövcuddur. Rusiyada yaşayan azərbaycanlıların ümumi sayı 3 milyona yaxındır. Ölkədə fəaliyyət göstərən ən güclü Azərbaycan diaspora təşkilatı "Ümumrusiya Azərbaycanlıları Konqresi"dir. 2001-ci il martın 5-də konqresin təsis qurultayında Rusiya və Azərbaycanın yüksək dövlət rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak etmiş, Rusiya Federasiyası ərazisində millətlərarası əlaqənin, sülhün möhkəmləndirilməsi, Rusiya dövləti ilə Azərbaycan Respublikası arasında sosial-iqtisadi və mədəni əməkdaşlığın inkişaf etməsi və dərinləşməsi prosesinə yardım göstərməyi qarşısına məqsəd qoymuşdur. Rusiyada regional milli diaspor təşkilatları arasında özünün fəaliyyəti ilə seçilən cəmiyyətlərdən biri Sankt-Peterburq şəhərində 1999-cu ildə yaradılmış "Azərbaycanlıların Milli-Mədəni Muxtariyyəti"dir.

Avropada ən fəal diaspora təşkilatlarından biri də 1999-cu ilin martında yaradılmış "Ukrayna Azərbaycanlıları Konqresi"dir. Cəmiyyət Ukrayna ərazisində yaşayan azərbaycanlıların milli-mədəni ənənələrinin qorunmasında, sosial-iqtisadi və ictimai-siyasi problemlərin həllində mühüm rol oynayır.

2004-cü ilin mayında İskəndərun şəhərində Türkiyədəki Azərbaycan təşkilatlarını özündə birləşdirən "Türkiyə - Azərbaycan Dərnəkləri Federasiyası" (TADF) təsis olunmuşdur. Federasiya ölkənin 20-yə yaxın şəhərində fəaliyyət göstərən "Azərbaycan Evi" cəmiyyətlərini əhatə edir. Qurum Türkiyədə Azərbaycanın maraqlarmı təbliğ edərək, Azərbaycan təşkilatlarının işini əlaqələndirir [5].

Azərbaycan diasporasının xarici dövlətlərdəki fəaliyyəti Qarabağ uğrunda İkinci Vətən müharibəsinin bağlanmasına təsir göstərən amillərdən biri idi. Belə ki, 2020-ci ilin fevral ayında Almaniyanın paytaxtı Berlində 30 ölkədən 1300 nəfərdən çox soydaşımızın iştirakı ilə keçirilən Ümumavropa Qarabağ mitinqi ilin ilk uğuru idi. Bu mitinqdə 17 dildə çıxışlar oldu, şüarlar səsləndirildi, yerli və beynəlxalq ictimaiyyət Azərbaycan həqiqətləri barədə bir daha məlumatlandırıldı.

Ümumiyyətlə, müasir Azərbaycan diasporasının formalaşması və fəaliyyətində Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqəti xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondunun dəstəyi ilə xarici ölkələrdə fəaliyyət göstərən "Qarabağ" adlı Azərbaycan məktəbləri, Xocalı soyqırımının tanıdılması istiqamətində həyata keçirilən layihə və tədbirlər xaricdə yaşayan azsərbaycanlıların təşkilatlanması, ümummilli məsələlərdə birliyinin təmin olunması baxımından olduqca böyük əhəmiyyət kəsb edir [10].

Vətən müharibəsi ərzində 46 ölkədə fəaliyyət göstərən və 26 ölkəni əhatə edən 12 Koordinasiya Şurasında təmsil olunan 126 təşkilat da daxil olmaqla, 265 diaspor təşkilatı, beynəlxalq təşkilatlar və Azərbaycandakı icmalar tərəfindən 23 dildə 383 müraciət qəbul edilmişdir. Avropa Parlamentinin üzvlərinə 775 bəyanat, müxtəlif ölkələrin 641 nəfər parlament üzvünə isə bəyanat və müraciətlər birbaşa göndərilmişdir. Eyni zamanda, Ermənistanın təxribatları, işğalçılıq siyasəti, terrorçuluq fəaliyyəti haqqında müxtəlif dillərdə 4700 məktub elektron poçt vasitəsi ilə göndərilmişdir [8].

44 günlük müharibə Azərbaycanın qələbəsi ilə başa çatdıqdan sonra da bu mübarizə diplomatiya və informasiya sahəsində davam etməkdədir. Azərbaycana məğlub olan Ermənistan dünyadakı diaspora və lobbi təşkilatlarının dəstəyi ilə olmayan saxta, separatçı bir qurumun tanıdılması istiqamətində fəaliyyət həyata keçirirdi. Fransa Milli Assambleyasının 188 üzvü cəmi 3 nəfərin əleyhinə olması ilə qondarma "Arsaxı" tanımağa çağıran daha bir bədnam sənəd qəbul etdi. Bir həftə əvvəl isə Fransa Senatı 305 səslə belə bir sənəd qəbul etmişdi [7]. Bu qətnamənin hüquqi qüvvəsi olmasa da, Senatın halında olduğu kimi, Milli Assambleyanın sənədinin siyasi mənasını nəzərə alaraq, bu qətnamələr beynəlxalq hüququnun norma və prinsipləri, BMT Nizamnaməsi və Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələri, eləcə də Azərbaycan ilə Fransa arasında mövcud olan ikitərəfli sənədlər ilə ziddiyyət təşkil edir. Fransanın ardınca Belçika parlamentində də belə bir cəhd edildi. Belçika Federal Parlamentinin Xarici Əlaqələr Komitəsinin 2020-ci il dekabrın 2-də keçirilən iclasında erməni diasporu və ermənipərəst qüvvələrin anti-Azərbaycan səyləri puç oldu [7].

Tədqiqat göstərir ki, erməni diasporunun güclü olduğu ölkələrdə antiAzərbaycan xarakterli addımları onlar daha asanlıqla ata bilirlər. Çünki uzun illərdi ki, ermənilərin parlamentlərə təsir etmək gücündə olan lobbi qrupları formalaşmışdır.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın milli diaspora təşkilatları da hərəkətə keçərək beynəlxalq qurumların qarşısında mütəmadi şəkildə aksiyalar keçirir və yaşadıqları dövlətlərin rəhbərlərinə, siyasi partiyalarına, vətəndaş cəmiyyəti və sadə insanlarına Qarabağ həqiqətlərini, Ermənistanın hərbi təcavüzkar siyasətini ifşa edən sənədləri, eləcə də dinc əhalinin qanunla yasaq edilmiş kaset bombalarla öldürməsi faktlarını bütün dünya ictimaiyyətinə tanıtdırırdılar. İsveçrədə yaşayan Azərbaycan icmasının nümayəndələri erməni təxribatına və işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən şəhər və rayonlarını ağır artilleriya atəşinə tutmasına etiraz olaraq Cenevrə şəhərində, Millətlər sarayının qarşısında dinc aksiya keçirmişdir. "İsveçrə Azərbaycan Mədəniyyət Mərkəzi"nin, "İsveçrə Azərbaycanlıları Koordinasiya Şurası"nın və "Azərbaycanın Dostları" cəmiyyətinin təşkilatçılığı ilə təşkil olunan aksiyada soydaşlarımızla yanaşı, "Azərbaycan İtaliya Gənclər Assosiasiyası"nın üzvləri və Fransada yaşayan azərbaycanlı gənclər də iştirak etmişdir.

"Amerika Azərbaycanlıları Şəbəkəsi" 2020-ci il oktyabrın 28-də işğalçı Ermənistan ordusu tərəfindən Azərbaycanın Respublikasının Bərdə şəhərinə edilən raket hücumu ilə bağlı Tramp admi-

nistrasiyasını, media şəbəkələrini, tanınmış rəsmi şəxsləri və ictimai xadimləri məlumatlandırmaq üçün məktub kampaniyasına başlamışdılar.

ABŞ-ın Hyuston şəhərində yaşayan soydaşlarımız işğalçı Ermənistan ordusunun Azərbaycanın Bərdə və Gəncə şəhərlərində, eləcə də digər yaşayış məntəqələrində törətdikləri terror aktlarını dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə "ABŞ-Azərbaycan Qarabağ Atları Xilası Birliyi, "Bakı – Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyası" və "Amerika –Azərbaycan Mədəniyyət Assosiasiyası"nın birgə təşkilatçılığı ilə aksiya keçirmiş, dünya ictimaiyyətini Ermənistanın hərbi təxribatlarına biganə qalmamağa səsləmişlər [6].

Beləliklə, dünyanın müxtəlif ölkələrində, ümumilikdə, Azərbaycanın 500-ə yaxın diaspora təşkilatı var və onların da xeyli hissəsi aktiv fəaliyyət həyata keçririr. Bu da onu deməyə əsas verir ki, bu qurumlarda təmsil olunan diaspora fəalları Azərbaycanın, azərbaycançılığın təbliğində xüsusi rol oynamağı əsas hədəf olaraq qəbul etməlidirlər. Diasporla İş üzrə Dövlət Komitəsinin "Yol xəritəsi"nə uyğun şəkildə dünyanın 10 ölkəsində "Azərbaycan evləri" fəaliyyət göstərir. Macarıstan, Polşa, ABŞ, Gürcüstan, Almaniya, İtaliya, Belçika, İspaniya, Ukrayna, Estoniya kimi ölkələrdə açılan bu "ev"lər Azərbaycan hökuməti hesabına fəaliyyət göstərir. Bu məkanlarda Azərbaycanın tarixi, mədəniyyəti, Ermənistan – Azərbaycan Qarabağ münaqişəsinin əsl mahiyyəti, milli adət-ənənələr, tarixi şəxsiyyətləri bağlı kitab və jurnallara, ensiklopedik məlumatlara, əşya və aksesuarlara rast gəlmək mümkündür [11].

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə tarixi qələbə qazandı. Bu qələbə eyni zamanda Azərbaycan xalqında və bütövlükdə dünya azərbaycanlılarında böyük inam və ruh yüksəkliyi yaratdı. Azərbaycan xalqı, habelə dünya azərbaycanlıları bütünlüklə dövlət başçısı İlham Əliyevin ətrafında sıx birləşdi.

Azərbaycanın bu möhtəşəm qələbəsi dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız tərəfindən yüksək qiymətləndirilirdi. Birləşmiş Ərəb Əmirliklərində yaşayan azərbaycanlılar Azərbaycanın mədəniyyət paytaxtı, qədim Şuşa şəhərinin işğaldan azad olunması və 30 ilə yaxın davam edən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın tarixi qələbəsi münasibətilə silsilə tədbirlər keçirirdilər.

Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının təşəbbüsü ilə Helsinki şəhərində Azərbaycanın şanlı qələbəsinə həsr olunmuş "Qarabağ Azərbaycandır!" adlı tədbir də böyük maraqla qarşılanırdı.

Bu tədbirlərdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin və erməni terrorunun qurbanı olan mülki şəxslərin əziz xatirəsi yad edilirdi [4].

***Nəticə.*** Ümumiyyətlə, dövlət müstəqilliyinin bərpasından sonra dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində məqsədyönlü işlər həyata keçirilmiş, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında diaspora təşkilatlarının fəaliyyəti önəmli olmuşdur. İkinci Qarabağ müharibəsi ərəfəsi və ərzində dünyanın müxtəlif bölgələrində Azərbaycan diaspora təşkilatlarının dəstəyi ilə soydaşlarımız münaqişə həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmış və Azərbaycanın haqq işini müdafiə etmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan diasporu haqqında ümumi məlumat. - https://azerbaijan.az/related-information/205 [20.10.2021].

2. Azərbaycanda diaspora və lobbiçilik quruculuğu. - http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/mart/357097.htm [20.10.2021].

3. Azərbaycan diasporasının tarixi. - https://www.azerbaijans.com/content_494_az.html [20.10.2021].

4. Bədəlov Ə. Soydaşlarımızın ürəyi Vətənlə – Azərbaycanla döyünür / "Xalq qəzeti", Bakı, 2020, 29 dekabr.

5. Xaricdəki diaspor təşkilatları. - https://www.azerbaijans.com/content _495_az.html [20.10.2021].
6. Qarabağdakı qələbələr milli diasporumuzun qürur mənbəyinə çevrilir / "Hürriyyət" qəz., 2020, 5-6 noyabr.
7. Qəribli M. Diasporumuzun qarşısında postmüharibə dövrünün yeni vəzifələri - güclü lobbiçi qüvvəyə çevrilmək zərurəti... / "Bakı Xəbər" qəz., 2020, 5-7 dekabr.
8. 44 gündə diaspor nələr edib? - Xalq rəssamı danışdı. - https://axar.az/news/musahibe/570652.html [20.10.2021].
9. Məlikli G. 31 dekabr tarixi dünya azərbaycanlılarının birliyinin carçısıdır! / "İki sahil" qəz., 2020, 30 dekabr.
10. Muradov F. Azərbaycan diaspor hərəkatında yeni dövr başlayır. - https://files.preslib.az/projects/diaspora/articles/eart2020.pdf [20.10.2021].
11. Musayev O. Azərbaycandan dünyaya açılan qardaşlıq və həmrəylik qapısı / "Xalq qəzeti", 2020, 30 dekabr.
12. Yaradılma tarixi və məqsədi. - http://diaspor.gov.az/tarix [20.10.2021].

**МАХАРАТ ОСМАНОВ**
*Доцент Бакинского Государственного Университета*

## ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ: ТЕКУЩЕЕ ПОЛОЖЕНИЕ И ПЕРСПЕКТИВЫ

В статье рассматривается организация и деятельность азербайджанцев в мире после восстановления государственной независимости. В исследуемые годы организационная работа проводилась в этом направлении, съезды азербайджанцев мира сыграли важную роль в единстве азербайджанцев. Азербайджанская диаспора сыграла важную роль в распространении правды об армяно-азербайджанском нагорно-карабахском конфликте, в пропаганде о нашей истории и культуре в мире.

*Ключевые слова*: диаспора, Азербайджан, зарубежные страны, азербайджанцы, мир.

**MAHARAT OSMANOV**
*Associate professor of Baku State University*

## ACTIVITIES OF THE AZERBAIJANI DIASPORA: CURRENT SITUATION AND PERSPECTIVES

In the article are discussed the organization and activities of Azerbaijanis around the world after the restoration of state independence. During the years under study, organizational work was carried out in this direction, and the congresses of world Azerbaijanis played an important role in the unity of Azerbaijanis. The Azerbaijani Diaspora has played an important role in promoting the truth about the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, our history and culture in the world.

*Keywords*: diaspora, Azerbaijan, foreign countries, Azerbaijanis, the world.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il*
*Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**GÜLNARƏ MƏMMƏDZADƏ**
*t.ü.f.d., Bakı Dövlət Universitetinin baş müəllimi*
ORCİD ID: 0000-0003-0387-1349
**gulka1@live.ru**

# İRANIN YAXIN ŞƏRQ SİYASƏTİNDƏ HİZBULLAHIN ROLU

*İran İslam Respublikası yarandığı gündən Yaxın və Orta Şərq regionunda meydana çıxmış hərbi-siyasi böhranlarda bu və ya digər dərəcədə iştirak etmişdir. Bu amilin nəzərə alınması vacibdir. Çünki, rəsmi Tehran həmsərhəd və region ölkələrində hadisələrə ciddi təsir vasitələrinə malikdir. İranın dini rəhbərliyi regional üstünlüyə nail olmaq ideyasını praktikada daha ciddi səylə həyata keçirməyə çalışırdı. Belə ki, 1979-2004-cü illərdə Yaxın Şərq böhranının nizama salınması İran diplomatiyasının prioritet istiqamətlərindən biridir. Bu dövrdə onun bu istiqamətdə siyasəti daha da fəallaşmışdır.*

*Fələstin-İsrail barışığı, Livanda böhran, İraqdakı vəziyyət ilə əlaqədar Tehranın xüsusi fəallığı maraq doğurur. İran rəhbərliyi davamlı olaraq İsrailə qarşı barışmaz düşmən münasibəti bəsləyir. O bu siyasəti sionist layihəsinin legitinimliyini inkar edən islam ideologiyası ilə əsaslandırır.*

*Iranı bir dövlət olaraq Yaxın Şərq probleminə bağlayan bir sıra amillər mövcuddur. Belə ki, bu ölkə coğrafi cəhətdən Yaxın və Orta Şərqə daxil olan nəhəng arealın tərkib hissəsi kimi əhəmiyyət kəsb edir. Tehran, dini cəhətdən planetin dörddə bir hissəsini təşkil edən müsəlman aləmində baş verən hadisələri diqqətlə izləyir. O cümlədən də Fələstin-İsrail münasibətlərinin tənzimlənməsi çərçivəsində baş verən hadisələri diqqətlə izləyir. O, çox az ölkələrdən biridir ki, İsrail dövlətinin mövcudluğunu tanımır. Halbuki, Fələstində sülhə və sabitliyə aparan yeganə yol bütün fələstinlilərin, o cümlədən xristian və yəhudilərin iştirakı ilə azad demokratik dövlətin yaradılmasından ibarətdir.*

*İranın Yaxın Şərqdə məxfi əməliyyatlarının həyata keçirilməsində əsas təsir vasitələrdən biri Hizbullah təşkilatıdır. Bu təşkilat İranda islam inqilabından sonra meydana çıxmışdı. Bu da təsadüfi deyildi. İİR-in İsrail və ABŞ-a qarşı barışmaz mübarizəsində təsirli vasitəyə böyük ehtiyacı vardı. Tehranın əlində belə bir təsirli vasitə Hizbullah hərbi-siyasi şiə təşkilatı ola bilərdi.*

*Açar sözlər*: İran, şiələr, xarici siyasət, Hizbullah, Yaxın Şərq, Fələstinli qaçqınlar.

***Giriş.*** 1979-cu ildə İİR-in yaranmasından sonra qurulmuş yeni dini hakimiyyət özünün yeni xarici siyasət prinsiplərini bəyan etdi. Bu prinsiplər şəriət qaydalarına əsaslanmalı idi. İlk çağlardan başlayaraq rəsmi Tehran özünün xarici siyasət istiqamətlərini müəyyən edərkən dünyanın ən qaynar regionlarından biri olan Yaxın Şərqə ciddi əhəmiyyət verməyə başladı.

Tehranın dini rəhbərliyi ilk növbədə İsrailə, sionizm məfkurəsinə qarşı sərt, barışmaz siyasət yeritməyə başladı. Hətta şahlıq quruluşu dövründə Tehranda fəaliyyət göstərən İsrail səfirliyi bağlandı. Onun binası isə Fələstin Azadlıq Təşkilatının İrandakı nümayəndəliyinə verildi. Lakin İran-İraq müharibəsi başlayandan sonra fələstinlilər Bağdadı dəstəkləməyə başladılar. Belə bir vəziyyətdə FAT ilə Tehran arasında fikir ayrılığı yarandı. Bu amil FAT-ın təmsil etdiyi Fələstin xalqının liderləri ilə Hizbullah arasında qarşılıqlı münasibətlərin mürəkkəbləşməsinə səbəb oldu.

Digər tərəfdən İran tərəfi İraqın şiə əhalisi üzərində öz nüfuzunu yaymağa nail olmadı. Lakin o, 1982-ci ildə Livanın cənub ərazilərinin İsrail tərəfindən işğal edilməsi amilindən istifadə edərək Livanlı şiələr arasında öz nüfuzunu möhkəmləndirməyə çalışdı. Belə bir şəraitdə 1985-ci ildən etibarən İran tərəfindən maliyyələşdirilən Hizbullahın üstün mövqeyə malik olduğu Livanda İsrailə qarşı islami şiə müqavimət hərəkatı gücləndi. Lakin bu da fələstinlilərə kifayət qədər ciddi təsir göstərə bilmədi. Hətta 1987-ci ildə HAMAS-ı yaradan fələstin Müsəlman Qardşlarının nüfuzlu islami hərəkatına İran və Hizbullahın ciddi təsiri olmadı. Yalnız nisbətən kiçik bir "Fələstin islami cihad" qruplaşması İran rejimi ilə birmənalı şəkildə bağlı olaraq qaldı.

İranın bütün ərəb dünyası ilə münasibətlərinə təsir edən bu uğursuzluq yalnız 1993-cü ildən sonra İsrail və Fələstin arasında siyasi həll prosesinin başlaması ilə daha da dərinləşdi. İranın və onun

Hizbullah hərəkatından olan müttəfiqlərinin Yaxın Şərqin hərbi-siyasi səhnəsində təsirinin artması İsrail ilə yanaşı ABŞ başda olmaqla qərb dövlətlərinin narahatlığına səbəb oldu.

Eyni zamanda İran rəhbərliyinin Ermənistan ilə münasibətlərinin yaxın və hərtərəfli olması da Hizbullahın Livan və Suriya erməniləri ilə əməkdaşlığının inkişafına müsbət təsir göstərdi. Livanın erməni icması da öz maraqlarına uyğun olaraq bəzən gizli, bəzən də açıq surətdə Hizbullahın siyasətini dəstəkləyirdi.

Suriya ilk günlərdən İranda İslam inqilabını alqışladı və artıq 1979-cu ilin aprelində Tehrandakı yeni rejimi rəsmən tanıdı. Dini icma, anti-İsrail mövqeyi və Fələstin probleminə bənzər baxışlar İran-Suriya əməkdaşlığının əsasını təşkil etdi.

Qeyd edək ki, Suriyada qurulan rejim dünyəvi idi, İran isə teokratik dövlətdir. Livan da siyasi hakimiyyətinə görə Tehran rəhbərliyi üçün ciddi maneə rolunu oynayırdı və İran buna qarşı şiə təşkilatlarından, ilk növbədə Hizbullahdan istifadə edərək "İslam inqilabını ixrac etmək" siyasətini fəal şəkildə həyata keçirirdi.

Suriya prezidenti Hafiz Əsəd də öz növbəsində Livanın islam respublikasına çevrilməsinə qarşı olduğunu gizlətməyib. Belə ki, o, 1987-ci ilin iyulunda verdiyi bəyanatda "Suriya heç vaxt İrana... Livanda İslam Respublikası yaratmağa imkan verməyəcək" deyə vurğulayır [10, c.170].

***İranın yaxın şərq siyasətində Hizbullahın yeri.*** 1982-ci ildə radikal Hizbullah təşkilatının yaranması ilə əlaqədar olaraq Livanda şiələrin mövqeyi möhkəmləndi. Hizbullah yaradılan zaman onun siyasi-ideoloji bazisinin əsasını sionizm və imperializm əleyhinə yönəldilmiş cihad müəyyən edirdi. Təşkilatın məqsədi – İsrailin məhv edilməsi, Qüds üzərində islami nəzarətin qurulması, Livanda isə İran nümunəsi üzrə islam dövlətinin yaradılması idi. Hizbullahın 1985-ci il tarixli bəyannaməsində deyilirdi ki, Livan probleminin həlli – orada islam respublikasının təsis edilməsidir, belə ki, yalnız bu tip rejim bütün Livan vətəndaşlarının ədalət və bərabərliyinə təminat yarada bilər. Bütün bunlar bilavasitə ayətulla Xomeyninin ideyaları ilə uyğunluq təşkil edir. Hətta, hər şeydən əvvəl, yeni təşkilatın ideologiyası "xomeynizm" ideologiyası olmuşdu".

Hizbullahın rəhbəri X.Nəsrullah qeyd edir ki, "...İslam dövləti kimi Hizbullah İrana da Suriya və oradakı rejim kimi qardaş və dost ölkə kimi baxır. Bu dostluq və qardaşlıq əlaqələri çərçivəsində İran və Suriya təşkilata təsir edə bilər, təsir etməyə də bilər. İran və Suriya bizə verdikləri yardım və dəstək baxımından qərarlarımıza təsir edir". "Suriya və İran Hizbullahı təşkilatın öz planlarına zidd hərəkət etməyə məcbur edə bilməz", H.Nəsrullah deyir. "Onlar ancaq bizimlə mübahisə edə və bizi inandıra bilərlər. Biz bütün siyasi hərəkətlərimizdə İranın əlini axtarmamalıyıq. Biz Livan xalqının bir hissəsi olan Livanda İslam hərəkatıyıq. İran İslam Respublikasına böyük hörmətimiz var. Amma bizim qərarlarımız öz qərarlarımızdır" [1, c.24].

Hizbullah 1985-ci ildə "Amal" və digər İranpərəst ekstremist təşkilatların liderlərinin İranda toplantısı oldu (2, s.27). Orada həmçinin Livanda İran nümunəsi üzrə islam respublikasının qurulması planı müzakirə olundu. İsrail tərəfindən işğal edilmiş Cənubi Livanın azad edilməsinin zəruriliyi haqqında bəyanat da verildi. Belə ki, 1982-ci il müharibəsindən sonra həmin ərazidə İsrail tərəfindən Cənubi Livanın "təhlükəsizlik zonası" mövcud idi. Təl-Əviv 2000-ci ilədək Cənubi Livan ordusu (əsasən Livanlı xristian-maronitlərdən ibarət) ilə birlikdə oraya nəzarət edirdi.

Hizbullah yarandığı gündən etibarən İranın köməyi ilə Livanda, Suriyada, bütün regionda öz təsirini gücləndirərək fəal tədbirlərin həyata keçirilməsi üçün özünün möhkəm intizama və əqidəyə malik mobil şəbəkəsini yaratdı. Bəzən Hizbullah dəstələri nizami silahlı qüvvələrə bənzər hərbi əməliyyatlar da aparırlar. 1983-cü ildən etibarən kamikadze döyüşçülərin törətdiyi terrorçuluq hadisələri xarici qüvvələrin ölkədə - Livanda iştirakına dözülməz şərait yaratdı. O zaman Livanda şiə təşkilatının üzvləri yük maşınlarının sükanı arxasına keçərək tonlarla partladıcı maddəni amerikan və fransız qoşunlarının Beyrutdakı kazarmaları önündə partlatmışdılar. Bu terrorçuluq aktları ABŞ, Fransa, İngiltərə və İtaliya qoşun kontingentlərinin Livandan çıxarılmasını sürətləndirmişdi.

Ancaq yeni əsrin əvvəllərində İranın siyasi kursunda bəzi düzəlişlər və doktrinasında məlum dəyişikliklərlə əlaqədar olaraq Hizbullahın həyata keçirdiyi tədbirlərin intensivliyi aşağı düşdü. Buna baxmayaraq, Hezbullah olduqca mürəkkəb çoxtərəfli qarşılıqlı münasibətlərin – İsrail-Livan-Fələstin-Suriya-İran əlaqələri sistemindəki geniş sahədə İranın özünəməxsus plasdarmı olmaqda davam etdi. Bununla əlaqədar olaraq, həm Livanın özündə, həm də Fələstində müxtəlif hərbi-siyasi qruplaş-

malar tez-tez silahlı yolla mübarizə aparırdılar. Bundan əlavə, İsraildə, Suriyada və İranın özündə hakimiyyətin yuxarı dairələrində belə bütövlükdə Yaxın Şərq böhranının nizama salınması prosesinə baxışlarda tam birlik yox idi. Həm də konkret olaraq İsrail-Fələstin, İsrail-Livan, İsrail-Suriya və İsrail-İran münasibətləri məsələsində həmçinin.

Əslində Hizbullah hərəkatının özündə də birlik yox idi. Onun liderlərinin bir hissəsi Hizbullahın fəallığının leqal siyasi məcraya keçirilməsində təkid edirdi. Digərləri isə onun fəaliyyətinin radikallaşdırılmasını tələb edirdilər.

Bundan əlavə, Hizbullahın yerləşdiyi ölkələrdə bu şiə qruplaşmasına münasibət birmənalı deyildi. Məsələn, Suriya rəhbərliyi bu təşkilata birbaşa münasibəti olduğundan ona olduqca ehtiyatla yanaşırdı. Bəzi məlumatlara görə, Suriya prezidenti Bəşər Əsəd, İsrailə digər təzyiq vasitələri olmadığından belə bir vəziyyətə dözürdü.

Hizbullah yarandığı gündən onun ən yaxın və başlıca müttəfiqi İİR olmuşdur. Tehran özünün Yaxın Şərqdəki maraqlarına uyğun olaraq ona maliyyə, diplomatik və siyasi yardım göstərir, həmçinin döyüş sursatı və humanitar yardımlar da edirdi. Bununla yanaşı qeyd etmək lazımdır ki, İİR-in xarici siyasətinə bəzi düzəlişlərlə əlaqədar olaraq yeni əsrin əvvəllərində Hizbullaha edilən illik maliyyə yardımının məbləği 60-100 milyon dollardan 30 milyon dollarıdək azalmışdır.

Regionun müxtəlif ölkələrində yaşayan fələstinlilərin Hizbullaha geniş dəstəyi 2000-ci ilin mayında İsrail qoşunlarının Livandan çıxması zamanı özünü daha qabarıq göstərdi. İlk əlamətlər Fransanın baş nazirinin həmin ilin fevral ayında Fələstin Muxtariyyətinə səfəri zamanı ortaya çıxdı. Onun Hizbullahı kəskin pisləyən açıq bəyanatları fələstinli tələbələrin və gənclərin etiraz nümayişlərinə səbəb olub.

Ancaq bu proses uzun çəkmədi. Misir mənbələrinin məlumatına əsasən 2001-2003-cü illər ərzində Fuad Balbizinin rəhbərliyi altında (FAT siyasi bürosunun üzvü Fərruq Kadduminin başçılıq etdiyi FAT-ın İordaniya şöbəsinin fəalı) Yəhudeya, Samariya və Qəzzə bölməsində fəaliyyət göstərən hərbiləşdirilmiş FƏTH qruplaşmasına İrandan maliyyə vəsaitlərinin göndərilməsi xətti praktiki olaraq tamamilə bərpa olundu. Bundan başqa həmin məlumatda qeyd olunurdu ki, F.Balbizi Hezbullahın "Tənzim" şiə təşkilatının fəaliyyətinin maliyyələşdirilməsini təşkil etmişdir [3].

Qərb mütəxəssislərinin fikrincə, Yasir Ərafatın ölümü və Mahmud Abbasın Fələstin Milli Hökumətinin sədri vəzifəsinə seçilməsi Fələstin siyasətində dönüş nöqtəsi oldu. Ancaq Hezbullah, HAMAS, "İslami cihad", "Əl-Əksa əzabkeşləri briqadası" İranın razılığı və Bəyannaməsi ilə fələstin hərəkatı hakimiyyətinin İsrail ilə görüşməsinə yol verməməyə cəhd göstərirdilər.

2005-ci il yanvarın sonunda Beyrutda görüşən "Hezbullah" lideri Həsən Nəsrulla və HAMAS-ın siyasi lideri Xalid Məşəl bildirdilər ki, İsrailə müqavimət göstərilməsi bütün Fələstinin azad edilməsinin yeganə yoludur [4].

Əgər əvvəllər "Hezbullah" öz fəaliyyət sahəsini yalnız Samariya ilə məhdudlaşırdısa, son zamanlar onun agentləri Beyt-Lehem rayonunda da aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, bu növ digər təşkilatlardan fərqli olaraq Hezbullah nisbətən imtiyazlı vəziyyətdədir. O, maliyyə mənbələrinin qayğısına qalmır. İranın səxavəti Hezbullaha etibarlı maliyyə vəsaitlərinin əhəmiyyətli və daimi axınını təmin edir.

İran rəhbərliyi Hizbullaha və onun əlaltılarına müxtəlif sahələrdə hərtərəfli yardım göstərir, onlara siyasi, ideoloji dəstək verirdi. O, Fələstin problemi üzrə Tehran və Hizbullahın ideoloji və siyasi qərarlarına, görüşlərinin birliyinə əsaslanırdı.

Hizbullah qruplaşmasının yaranmasından keçən iyirmi ildən artıq bir müddət ərzində İran ona legitimlik verməyə çalışmışdır, onu işğalçı rejimlə mübarizə aparan qanuni təşkilat kimi təqdim etməyə cəhd göstərmişdir.

Bunun üçün Tehran son 90-cı illərdə Fələstin milli azadlıq hərəkatına həsr olunmuş bir neçə konfrans keçirmişdi. 1991-ci ilin oktyabrında təşkil edilmiş onlardan birincisində Fələstinin azadlığı üçün cihadın istənilən halda dayandırılmasını qadağan edən fitvanı bəyan etdilər [5].

Bu cür konfranslarda adətən 40-dan çox müsəlman ölkəsindən gəlmiş nümayəndələr, həmçinin Fələstinin praktiki olaraq bütün döyüş təşkilatlarının rəhbərləri iştirak edirdilər [6].

Bu konfransların gedişində, həmçinin müxtəlif forumlarda Tehranın rəsmi təmsilçiləri ən kəskin tənqidlə “sionist rejimi” üzərinə hücumlar edirdilər. İranın bu cür işləri onun təbliğat fəaliyyəti ilə qırılmaz surətdə bağlı idi.

***İranın yaxın şərq siyasətində mühüm ideoloji təbliğat vasitəsi.*** İran özünün Yaxın Şərq regionundakı maraqlarını təmin etmək üçün eyni zamanda Hizbullaha təbliğati cəhətdən də dəstək verirdi. Təsadüfi deyildi ki, Tehran Hizbullahın yaxşı təşkil olunmuş təbliğat maşınını pulla təmin edirdi. Belə ki, Hizbullahın İran ilə birlikdə istifadə etdiyi və təşkilatın rəsmi ruporu olan – “Əl-Manar” televiziya kanalı müsəlman gənclərinin tərbiyəsində mühüm rol oynayırdı. Bu kanal onları İsrail, Birləşmiş Ştatlar, İraqdakı koalisiya qüvvələri əleyhinə aktiv əməliyyatlara çağırırdı.

“Əl-Manar” kanalı özünün yarandığı 1991-ci ildə İrandan pul vəsaitləri alaraq 1 milyon dollar illik büdcəyə malik olmuşdu [7, s.24]. 2002-ci ildə isə onun büdcəsi təxminən 15 milyon dolları dək artmışdı [8].

Bu işdə İran xüsusi xidmət orqanlarının əlinin olması şübhə doğurmurdu. Yaxın Şərq üzrə təhlilçilər və jurnalistlər də təsdiq edirdilər ki, bu vəsaitlərin böyük hissəsi İrandan gəlir (9). “Nifrət mayakı: Hizbullahın televiziyası olan “Əl-Manar” televiziyasının daxili” adlı kitabında Avi Coriş yazırdı ki, “İran hər il Hizbullaha 100-200 milyon dollar vəsait verir. Bu təşkilat isə öz növbəsində pulun bir hissəsini “Əl-Manar” telekanalına verərərk, bu cəhətdən dolayısı yolla bu kanalı maliyyələşdirir” [11, c.170].

***Nəticə.*** Tədqiqat zamanı aydın oldu ki, 1979-2004-cü illərdə İranın xarici siyasətində mühüm amil kimi Yaxın Şərq ölkələrində cəm halda yaşayan şiə əhalisinin rolu artıb. Tehranın siyasi strategiyasının belə bir aləti Yaxın Şərqdə ölkənin mövqeyinin möhkəmlənməsinə təkan verir.

Tehranın dini rəhbərliyi Hizbullah təşkilatının rolunu artırmaqla region ölkələrində yaşayan şiə əhalisinin sosial-iqtisadi və siyasi problemlərinin həllinə təsirli bir vasitə qazanmış oldu. Eyni zamanda Yaxın Şərqin sünni məzhəbli mühafizəkar rejimləri belə bir problemi diqqət mərkəzində saxlamağa vadar olurlar. Hadisələr göstərdi ki, İran Yaxın Şərqdə regional əməkdaşlıq sisteminə dərindən inteqrasiya olunub və onun iştirakı olmadan orada mövcud olan həyati problemlərin heç birini uğurla həll etmək mümkün deyil. İranın dini rəhbərliyi Hizbullahın vasitəsilə xarici qüvvələrin regionda iştirakına qarşı qətiyyətlə çıxış edir. Hizbullahın apardığı silahlı mübarizə, fələstinlilərin gözündə İsrailin Livan işğalına son qoyulmasına gətirib çıxaran mühüm amil oldu.

## ƏDƏBİYYAT

1. Ахмедов В.М. Ливанская “Хезболла” как “центр силы” на Ближнем Востоке. Сб.: Исламизм и экстремизм на Ближнем Востоке. М., ИИИиБВ – Академия геополитики и безопасности, 2001, 260 с.
2. В.Куршаков. Шиитский фактор во внешней политике Ирана // Мировая экономика и международные отношения, 2012, № 11, с. 24–32.
3. Иран и «Хезболла» финансируют террористов из FATX-а // Информационное агентство Cursor, 20.01.2004.
4. Hezbollah, Hamas Leaders Meet, Agree “Resistance” Only Option // Global News Wire – Asia Afrika Intelligence Wire: BBC Monitoring International Reports, January 31, 2005.
5. Hatina Meir. Islam and Salvation in Palestine. – The Moshe Dayan Center for Middle Eastern And African Studies. Tel Aviv University. Tel Aviv. 2001.
6. Khameini: “Zionists had close relations with Nazis”. // Jerusalim Post. April 25, 2001.
7. Jorisch interview with Lebanece Hezbollah expert, October 11, 2002 in Avi Jorisch, Beacon of Hatred: Jngide Hezbollah`s al-Manar Television (Washington, DC: Washington Jnstitute for Near East Policy, 2001).
8. Nicolas Blanford. Hezbollah Sharpens its Weapons in Propoganda War. // Christian Science Monitor, December 28, 2001.
9. Robert Fisk. Television News Is Secret Weapon of the Intifada // The Independent (London), December 2, 2000.

10. Ali Nuri Zada. İran Raises Budget of "Islamic Jihad" and Appropriates Funds to Fighters // Al Sharg al-Awsat (London), June 8, 2000.
11. Ушаков В.А. Иран и мусульманский мир (1979–1998 гг.). М., ИИИиБВ, 1999, 215 с.

**ГЮЛЬНАРА МАМЕДЗАДЕ**
*Д.ф.п.и., Старший преподаватель*
*Бакинского Государственного Университета*

## РОЛЬ ХИЗБОЛЛЫ В БЛИЖНЕВОСТОЧНОЙ ПОЛИТИКЕ ИРАНА

С момента своего образования Исламская Республика Иран в той или иной степени участвовала в военно-политических кризисах, возникших в ближневосточном регионе. Важно учитывать этот фактор.Потому что официальный Тегеран имеет серьезное влияние на события в соседних и региональных странах. Религиозное руководство Ирана пыталось более серьезно реализовать идею регионального главенства на практике. Таким образом, урегулирование ближневосточного кризиса 1979-2004 гг. является одним из приоритетных направлений иранской дипломатии. В этот период его политика в этом направлении стала более активной.

Интересна особая активность Тегерана в отношении палестино-израильского примирения, кризиса в Ливане, ситуации в Ираке. Руководство Ирана по-прежнему испытывает непримиримую враждебность к Израилю. Он оправдывает эту политику исламской идеологией, отрицающей легитимность сионистского проекта.

Есть ряд факторов, связывающих Иран как государство с ближневосточной проблемой. Таким образом, эта страна имеет географическое значение как часть огромной территории, входящей в состав Ближнего и Среднего Востока. Тегеран внимательно следит за развитием событий в мусульманском мире, который по религиозному признаку составляет четверть планеты.

Кроме того, он внимательно следит за событиями, происходящими в рамках урегулирования палестино-израильских отношений. Это одна из немногих стран, не признающих существования государства Израиль. Однако единственный путь к миру и стабильности в Палестине — это создание свободного демократического государства с участием всех палестинцев, включая христиан и евреев.

Одним из основных средств влияния в осуществлении тайных операций Ирана на Ближнем Востоке является организация «Хизбалла». Эта организация появилась после исламской революции в Иране. Это было не случайно. Иран остро нуждался в эффективном инструменте в своей бескомпромиссной борьбе против Израиля и США. В руках Тегерана таким действенным инструментом могла бы стать военно-политическая шиитская организация «Хизбалла».

*Ключевые слова*: Иран, шииты, внешняя политика, «Хизбалла», Ближний Восток, палестинские беженцы.

**GULNARA MAMMADZADE**
*Ph.D., S.l., Baku State University*

## HEZBOLLAH'S ROLE IN IRAN'S MIDDLE EAST POLICY

From the moment of its formation, the Islamic Republic of Iran, to one degree or another, participated in the military-political crises that arose in the Middle East region. It is important to consider this factor. Because official Tehran has a serious influence on events in neighboring and regional countries. The religious leadership of Iran tried to put the idea of regional leadership into practice more seriously. Thus, the settlement of the Middle East crisis of 1979-2004. is one of the priorities of Iranian diplomacy. During this period, his policy in this direction became more active.

Of interest is Tehran's special activity with regard to Palestinian-Israeli reconciliation, the crisis in Lebanon, and the situation in Iraq. The Iranian leadership continues to experience implacable hostility towards Israel. He justifies this policy with an Islamic ideology that denies the legitimacy of the Zionist project.

There are a number of factors linking Iran as a state to the Middle East issue. Thus, this country has geographical significance as part of a vast territory that is part of the Near and Middle East. Tehran is closely following developments in the Muslim world, which makes up a quarter of the planet by religion.

In addition, he is closely following the developments taking place within the framework of the settlement of Palestinian-Israeli relations. It is one of the few countries that does not recognize the existence of the State of Israel. However, the only path to peace and stability in Palestine is the establishment of a free democratic state with the participation of all Palestinians, including Christians and Jews.

One of the main means of influence in the implementation of covert Iran operations in the Middle East is the Hezbollah organization. This organization appeared after the Islamic revolution in Iran. It was no accident. Iran was in dire need of an effective tool in its uncompromising struggle against Israel and the United States. In the hands of Tehran, the military-political Shiite organization Hezbollah could become such an effective tool.

*Keywords*: Iran, Shiites, foreign policy, Hezbollah, Middle East, Palestinian refugees.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. Sani Hacıyev.*

**UOT 94**

**TALEH CƏFƏROV**
*ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru, BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının elmlər doktoru proqramı üzrə qiyabi doktorantı*
**taleh.ceferov.83@mail.ru**

# ABŞ-DAKI ERMƏNİ LOBBİ TƏŞKİLATLARI VƏ MARAQ QRUPLARININ FORMALAŞMASI

*ABŞ-da aktiv fəalyyət göstərən etnik lobbilərdən biri də erməni lobbisidir. ABŞ-ın keçmiş dövlət katibi olmuş Zbiqnev Bjezinskinin fikrincə, erməni lobbisi bu ölkədə ən effektiv fəaliyyət göstərən etnik lobbilərdən biridir. Erməni lobbisi erməni diasporunun, Ermənistanın və Qarabağ separatçılarının maraqlarını qorumaqla məşğuldur. Eynı zamanda erməni lobbisinin fəaliyyətinin əsas istiqamətlərindən biri də ABŞ-ın daxili və xarici siyasətinə təsir göstərməkdir. ABŞ-dakı erməni diasporunun lobbiçilik fəaliyyəti XX əsrin II yarısından etibarən daha geniş vüsət aldı. Bu dövrdən etibarən diasporun lobbiçilik fəaliyyəti ilk olaraq lobbi quruluşlarının yaranması ilə xarakterizə olunur. Yaranmaqda olan erməni lobbi quruluşlarının əsas fəaliyyəti ABŞ-ın qanunvericilik orqanlarında, Konqresdə erməni maraqlarının müdafiəsinə, erməni yalanlarının həqiqət kimi dünya ictimaiyyətnə sırınmasına, eləcə də antitürk fəaliyyətinin təşkilinə istiqamətlənmişdir.*

*Açar sözlər*: erməni lobbisi, lobbiçilik, maraq qrupları, erməni diasporu, miqrasiya.

***Giriş.*** Erməni tarixinin səciyyəvi xüsusiyyətlərindən biri də ermənilərin əksəriyyətinin bir neçə əsr ərzində özünün etnik ərazilərindən kənarda yaşaması, başqa sözlə, diasporda təmsil olunmasıdır. Erməni diasporu dünya diasporları arasında coğrafiyası, strukturu, əlaqələri və maliyyə mənbələri baxımdan digər diasporlardan fərqlənir. Müasir dövrdə geniş coğrafiyaya yayılmış erməni diasporunun daha güclü struktura malik olduğu ölkə ABŞ-dır. ABŞ-dakı erməni diasporunun təşəkkülü və formalaşması prosesi iki əsr müddətində (XIX-XX əsrlər) mərhələli şəkildə davam etmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərindən etibarən ABŞ-da erməni diaspor təşkilatlarının regional şöbələri fəaliyyətə başladı. 1903-cü ildən başlayaraq ABŞ-ın bir sıra şəhərlərində 36, 1907-ci ildə 48 və 1914-cü ildə 77 daşnaq komitəsi yaradıldı (1, s.150).

ABŞ-da aktiv fəaliyyət göstərən etnik lobbilərdən biri də erməni lobbisidir. ABŞ-ın keçmiş dövlət katibi olmuş Zbiqnev Bjezinskinin fikrincə, erməni lobbisi bu ölkədə ən effektiv fəaliyyət göstərən etnik lobbilərdən biridir. Erməni lobbisi erməni diasporunun, Ermənistanın və Qarabağ separatçılarının maraqlarını qorumaqla məşğuldur. Eyni zamanda erməni lobbisinin fəaliyyətinin əsas istqamətlərindən biri də ABŞ-ın daxili və xarici siyasətinə təsir göstərməkdir.

Lobbistlərın əsas vəzifələri hər hansı xalqın mədəniyyətini, müxtəlif sahələrdəki uğurlarını, həyat tərzini yaymaq, onun lehinə təbliğat aparmaq, ABŞ ictımai fikrində müsbət fikir oyatmaq, ABŞ-la öz ölkələrı arasında münasibətləri yaxşılaşdırmağa çalışmaqdır. Lobbistlərin başqa millətlərdən olması xüsusi əhəmiyyət kəsb edir. Məsələn, Robert Doulun da qeyd etdiyi kimi, erməni olmayan bir lobbini Ermənistanın lehinə təbliğatı daha da inandırıcı görünür (6, s.272).

I Dünya müharibəsindən sonra ermənilər yaratmaq istədikləri erməni dövlətinin ABŞ-ın təsiri altında olması istiqamətində Antanta ölkələrində geniş lobbiçilik fəaliyyətlərinə başladılar. I Dünya müharibəsindən az sonra, xüsusilə Ruzveltin ABŞ prezidenti olduğu 1930-cu illərdə ölkə iqtisadiyyatının inkişafı və ucuz işçi qüvvəsinə ehtiyacın artması erməni miqrasiyalarının qarşısında duran maneələri aradan qaldırmış və axın sürətlənmişdir. Erməni ailələrinin bir çoxu kənd təsərrüfatı müəssisələrində və fabriklərdə işləməyə başlamış və şəxsi işlərini qurmağa çalışmışlar. Nəticədə, ingilis dilində danışan, kollec təhsili almış yeni nəsil ortaya çıxmağa başladı. Lakın 1930-cu illərdə dünya iqtisadi böhranının və ardınan II Dünya müharibəsinin baş verməsi səbəbilə ABŞ daxili problemləri ilə məşğul olduğundan bu dövrdə erməni lobbisinin fəaliyyətində eniş baş vermişdir.

Ermənilərin ABŞ-da yaşayan digər qruplardan fərqli ondadır ki, onlar ümumən ermənilərin mənafeyini müdafiə edirlər.

Ermənilər lobbilərini formalaşdırana qədər erməni maraqlarının müdafiəsi ilə bağlı məsələlərlə milliyətcə erməni olmayan müxtəlif dini, humanitar, missioner təşkilatların nümayəndələri və regionda fəaliyyət göstərən qərb diplomatları məşğul idi. Qeyd etmək lazımdır ki, ermənilər ABŞ Konqresinə ilk qətnamə lahiyəsini 1894-cü ildə təqdim etmişdilər Qətnamədə Osmanlı imperiyası ermənilərin kütləvi qətlində ittiham edilirdi. Birinci dünya müharibəsindən sonra bu ölkədəki erməni lobbisinin əsas fəaliyyəti ABŞ ilə Türkıyə respublikaları arasında iqtisadi və siyasi əlaqələrin qurulmasının qarşısını almağa yönəlmişdi. Bu işlə əsasən erməni təşkilatı olan "Lozan müqaviləsinə qarşı komitə" (American Committee Opposed to the Lausanne Treaty) məşğul olurdu. Komitəyə ABŞ erməniləri ilə yanaşı, dini liderlər, xeyriyyə təşkilatlarının üzvləri və Konqress üzvləri daxil idi. Komitə bir sıra önləyici qərarların qəbuluna nail olsa da, ABŞ Dövlət deportamenti 1927-ci ildə Türkiyə ilə diplomatik əlaqələr yaratmağa müvəffəq olur. Senat isə bir il sonra, yəni 1928-cı ildə bu addımı təsdiqlədi.

Həmçinin erməni lobbi təşkilatlarının əsas fəaliyyət istiqamətlərindən biri də ermənilərin ABŞ-a mühacirəti üçün səylərini artırmaq idi. Bu zaman ABŞ-da 1927-ci ildə Djonson-Rid İmmiqrasiya aktı qəbul olundu. Bu akt Amerikaya mühacirət kvotalarını tənzimləyirdi, həmçinin ABŞ erməniləri və ermənipərəst təşkilatlar ermənilərin qaçqın kimi qəbul olunmasını və onların bu ölkənin ərazisinə asanlıqla və maneəsiz gəlməsi üçün səy göstərirdilər.

İkinci dünya müharibəsindən sonra "Evsiz ermənilər üzrə amerikan milli komitəsi" (American National Committee for Homeless Armenians – ANCHA) analoji tədbirlərə əl atır və 25 min erməninin ABŞ-a mühacirəti üçün şərait yaradır.

ABŞ-dakı erməni diasporunun lobbiçilik fəaliyyəti XX əsrin II yarısından etibarən daha geniş vüsət aldı. Bu dövrdən etibarən diasporun lobbiçilik fəaliyyəti ilk olaraq lobbi quruluşlarının yaranması ilə xarakterizə olunur. Yaranmaqda olan erməni lobbi quruluşlarının əsas fəaliyyəti ABŞ-ın qanunvericilik orqanlarında, Konqresdə erməni maraqlarının müdafiəsinə, erməni yalanlarının həqiqət kimi dünya ictimaiyyətnə sırınmasına, eləcə də antitürk fəaliyyətinin təşkilinə istiqamətlənmişdir.

ABŞ-da iki əsrə yaxın müddətdə antitürk təbliğatı aparan erməni lobbi təşkilatları arasında ən mütəşəkkili Amerika Erməni Assambleyası (Armenian Assambly of America –AAA)dır. 1972-ci ildən dıasporun Daşnaksütyuna qarşı çıxan nüfuzlu üzvləri tərəfindən yaradılmağa başlayan təşkilat 1984-cü ildə təsis edildi. Assambleyanın təsisçıləri Corc Vaşınqton universitetinin erməni əsilli iki professoru – Stiven Muqar və Hırayır Hovanyan hesab edilir. Təşkilatın strukturunun formalaşmasında diasporun imkanlı nümayəndələrinin maliyyəsi də cəlb edilməyə başlandı. Vaşinqton mərkəz olmaqla Assambleyanın Nyu-York, Los-Anceles, Boston, Yerevan və Azərbaycanın Xankəndi şəhərlərində şöbələri mövcuddur. Assambleya mütəmadi olaraq erməni məsələsi ilə bağlı ictmaiyyəti məlumatlandırır, Amerika ermənilərinin siyasi proseslərdə iştirakını təmin edir. Amerikada erməni diasporunun lobbiçik fəaliyyətini həyata keçirən bu təşkilatın sadəcə 1994-cü il büdcəsindəki qeydlərə əsasən icraedici və qanunverici orqanlarla münasibətlərn qurulmasına 272.870 dollar xərcləndiyi qeyd edilmşdir. Lakin təşkilatın dolayı lobbizmə ayırdığı məbləğin 7 milyon dollardan artıq olduğu bildirilir. Təşkilatın əsas mətbuat orqanları "Ermənistandan gündəlik xəbər raporu" (Daıly News Raport from Armenıa), "Ermənistan bu həftə" (Armenian This Week), "Assambleya bu həftə" (Assembly This Week), "Ermənistandan aylıq xəbərlər" (Monthly Digest of News from Armenıa) və s.-dır (2, s.72).

Müasir dövrdə ABŞ-da Amerika Erməni Assambleyasının əsas qollarından olmaqla ən güclü erməni-amerkan siyasi qurumu olaraq fəaliyyət göstərən Erməni Milli Komitəsı bu ölkədəki diaspor ermənlərinin pozulmuş haqqlarının bərpası istiqamətində fəaliyyət göstərməkdədir. Eyni zamanda təşkilat Türkıyə başda olmaqla Azərbaycan əleyhinə fəaliyyətini davam etdirməkdə maraqlıdır. Ermənilər bunu, guya, tarix boyu türksoylu xalqlar tərəfındən etnik-milli təmizləmə siyasətinə məruz qalmaları, ərazilərinin əksəriyyətinin türksoylu xalqlar tərəfindən zorla mənimsənilməsi, buradan davamlı olaraq müxtəlif vaxtlarda kütləvi surətdə köçürülmələri ilə əsaslandırmağa çalışırlar.

Amerika Erməni Milli Komitəsi (AEMK The Armenian National Committee of America ANCA) ermənilərin Amerikada dolayı lobbiçiliklə məşğul olan ən böyük və nüfuzlu siyasi qurumudur. Amerikada və dünyadakı bütün erməni diaspor təşkilatları ilə əməkdaşlıq şəraitində işləyən təşkilat Amerika ermənilərini maraqlandıran geniş miqyaslı məsələlərlə məşğuldur. Təşkilatın fəaliyyəti, ilk növbədə, Azərbaycan və Türkiyə əleyhinə yönəlmışdır (2, s.71).

Amerika Erməni Milli Komitəsi Amerika Erməni Assambleyasına nisbətən daha çox nümayəndəlik və ofis şəbəkəsinə malikdir. AEMK ABŞ-ın 25 ştatında 45 filiala malik olmaqla yanaşı iki regional ofisə malikdir, bunlar Qərbdə Qlendeyl Kaliforniya və Şərqdə Utertaun (Massaçusets) şəhərlərində yerləşən ofislərıdır. Bu təşkilatın Fransada, Böyük Britaniya və İtaliyada da regional nümayəndəlklər fəaliyyət göstərır, bir müddətdir ki, AEMK Avropa Birliyi nəzdində nümayəndəyə də malikdir.

Komitə bir çox istiqamətlərdə Ermənistan dövlətinin iqtisadi və demokratik inkişafını təmin etmək, Dağlıq Qarabağın müqəddaratını təyin etməsı hüququnu dəstəkləmək, ABŞ-ın Qarabağdakı separaçılara birbaşa köməyini təmin etmək, qondarma erməni soyqırımının tanınmasına nail olmaq, Türkıyə və Azərbaycanı Ermənistana qarşı blokadanı aradan qaldırmağa təhrik etmək üçün aktiv şəkildə lobbiçiliklə məşğuldur. Hətta ABŞ-da seçkiqabağı kompaniya çərçivəsində erməni diasporunun fəaliyyəti AR XIN-nın arxivində saxlanılan sənəddə prezident seçkisində respublikaçılar partiyasının seçkiqabağı kampaniyasında erməni dıasporunun nümayəndələri tərəfindən maliyyə dotasiyalarının verilməsi prosesinin aktivləşdirdiyi qeyd edilir. Həmçinin sənəddə "Armenian Uikli"nın 15 yanvar 2000-ci il tarixli məlumatına əsasən, erməni mənşəli 100-dən çox amerikalı tərəfindən Corc Buşun seçkiqabağı fonduna əhəmiyyətli vəsaitlərin qoyulduğu haqqında məlumat verılır. Sənəddə respublikaçıları kassasına 300 min dollardan çox vəsait daxil edən Detroyddan olan daşınmaz əmlak ticarəti üzrə iri agent Maykl Kocayan tərəfindən "Buş 2000" kampaniyasının fonduna 100 min dollar məbləğində vəsaitin daxil edildiyi öz əksini tapmışdır (3).

XX əsrın 80-ci ıllərinin sonu – 90-cı illərin əvvəllərində ABŞ-dakı erməni lobbisinin əsas məqsədlərini və fəaliyyət istiqamətlərini bu cür müəyyənləşdirmək olar: 1. Qondarma erməni soyqırımını tanıtmaq: 2. Erməni diasporunun siyasi proseslərdə iştirakını təmin etmək; 3. ABŞ-Ermənıstan əlaqələrinin gücləndirilməsi; 4. Ermənistan və Qarabağ separatçılarına dəstək əldə etmək; 5. Erməni diasporunun maraqlarına uyğun olaraq ABŞ-ın xarici siyasətinə təsir etmək və s.

ABŞ-ın erməni lobbisinə Amerıka Erməni Məclisi rəhbərlik edır. Məclisin Vaşinqtonda mərkəzi, Los-Ancelesdə şöbəsi var ki, sədri Ross Vartanyandır.

ABŞ-ın siyasi tarixində ilk dəfə erməni mənşəli Stevi Darunyan 1952-cı ildə Nyu-York şəhərində konqresə üzv seçilmişdir. 1978-ci ildə isə Şarl Paşayan adlı bir erməni ABŞ Nümayəndələr Məclisinin üzvü seçilmişdir. Bu vaxta qədər o, bir müddət orduda strateji informasiya xidmətində çalışmışdır. Həmin dövrdən etibarən ermənilər ABŞ dövlət aparatında bır sıra məsul vəzifələr tutmağa başlamışdılar. Məsələn, Karterin vaxtında Riçard Manukyan adlı bir erməni ən "sadiq" işə, "əsərləri qoruma" xidmətinin rəhbəri təyin edilmişdi (6, s.272).

Erməni lobbsinin ən fəal rəhbərlərindən olan Kaliforniya valisi Corc Dükməcyan səkkiz il bu vəzifədə işləmiş və 1991-ci ildə vəzifədən getmişdir. Kaliforniya ştatı məclisinin üzvü Valter Karabyan ABŞ siyasi dairələrində sözü keçən nüfuzlu şəxsiyyət sayılır. Dükməcyan prezident Ronald Reyqanın seçki kampanoiyasında yaxından iştirak etmiş, "Erməni mənşəli amerikan seçicilər" komitəsinin rəhbəri olmuşdur.

1991-ci ildə müstəqillik əldə edən Ermənistanın Azərbaycana təcavüzü daha da genişləndi. Ermənistan işğalçılıq siyasətini beynəlxalq ictimaiyyət qarşısında ört-basdır etməkdən ötrü, əlbəttə, erməni lobbisinin imkanlarına arxalanırdı. ABŞ-dakı erməni lobbisi isə öz növbəsində yaranmış yeni vəziyyətdən məharətlə istifadə etdi. Onların "Azərbaycanın əsarətindən azad olmağa çalışan məğrur Qarabağ (erməni) xalqının əzab-əziyyətə düçar olması" və "Ermənistanın blokadası" haqqında uydurduqları miflər ictimai şüura çox sürətlə sırınırdı. Bunun üçün Ağ Evə, Konqresə, KIV-ə təzyiq vasitələrindən istifadə olunurdu. Konqress isə Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Qafqaz regionu barədə məlumatları bu və ya digər dərəcədə erməni lobbistlərin vasitəçiliyi ilə əldə edirdi (4, s.118).

ABŞ-dakı erməni lobbi təşkilatlarının davamlı təzyiqləri nəticəsində 1992-cı ildə prezident Corc Buş "Azadlığı Müdafiə Aktı" adlı qanun layihəsini Konqresin müzakirəsinə verdi. Bu qanunun əsas məqsədi ABŞ tərəfindən keçmiş SSRI respublikalarına göstərilən müxtəlif yardımları tənzimləmək və sistemləşdirməkdən ibarət idi. Nümayəndələr Palatasında müzakirələr zamanı ermənipərəst lobbistlər qanunun mətninə 907 nömrəli bölmənin salınmasına nail oldular. Qanun layhəsi Nümayəndələr Palatasında qəbul olunduqdan sonra Senatın müzakirəsinə verildi. 100 senatordan yalnız 4-ü bu düzəlişi əleyhinə səs verdi. "907-cı düzəliş"ın Konqresdə qəbul edilməsini ABŞ-ın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində paradoksal mövqe tutması ilə əlaqələndirmək olar.

ABŞ prezidenti başda olmaqla icraedici aparatın "907-cı düzəliş"ə qarşı çıxmasına baxmayaraq, qətnamə uzun illər erməni lobbisi və ermənipərəst konqresmenlərin ciddi səyi nəticəsində öz qüvvəsində qaldı. "907-cı düzəlış" açıq-aşkar torpaqlarının 20%-ını ıtırmış və 1 milyondan artıq qaçqın və məcburi köçkünü olan Azərbaycana qarşı ədalətsiz münasibətin ifadəsı idi. 1998-ci ildə ABŞ Dövlət katibı Madlen Olbraytın Nümayəndələr Palatasının ayrılan məbləğlər üzrə Komitəsinin sədri B. Livinqstona ünvanladığı məktubunda "907-ci düzəlş"in Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Adminstrasiyasının bitərəfliyinə nail olunmasına, Azərbaycanda geniş iqtisadi və hüquqi islahatların aparılmasına, eləcə də Şərq-Qərb enerji nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə səyləri dəstəkləməyə mane olduğundan ABŞ-ın maraqlarına zərər vurduğu qeyd olunurdu. "907-ci düzəliş" 1992-cı ildə qəbul edildiyi anda onun müəllifləri tərəfındən nəzərdə tutulan məqsədlərə nail olmağı nəinki təmin etməmiş, eləcə də bizim məqsədlərimizi də təhlükə qarşısında qoymuşdur. Bu məktubda mən yenidən sizi ABŞ qanununun yararsız və səmərəsiz bölməsinin Azadlığın Dəstəklənməsi Haqqında Akta "907-cı düzəliş"in Konqres tərəfindən ləğv edilməsinə çağıraram (5).

***Nəticə***. Erməni lobbisin səyləri nəticəsində "907-cı düzəliş"lə yanaşı, qondarma "erməni soyqırımı"nın Konqres tərəfındən tanınması prosesi daha da sürətlənməkdədır. Ermənipərəst konqresmenlər tərəfindən dəfələrlə Nümayəndələr Palatasının gündəliyinə salınmış məsələ qızğın müzakirələrə yol açmışdır. Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"na həsr edilmiş müzakirələr haqqında qısa hesabatında, xüsusilə F.Pallone (Nyu Cersı), B.Şerman (Kaliforniya ştatı) və C. Kennedinin (Massaçusets ştatı) çıxışlarının daha çox aqressiv xarakter daşıdığını görmüş oluruq. Hesabatda konqresmenlərin Radanoviç tərəfindən təklif edilən (21.03.1997) qondarma "erməni soyqırımı" haqqında Qətnaməsının ən yaxın zamanda ABŞ Konqresi tərəfindən qəbul edilməsı açıq-aşkar işrar edilmişdir. Konqresmen A.Pallone öz çıxışında Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi ilə bağlı ABŞ prezidentinin siyasətini də kəskin şəkildə tənqid etmişdir. O göstərdi ki, ABŞ ATƏT-in 1996-cı ilin dekabr sammitində Azərbaycanın ərazi bütövlüyünü, Qarabağın dağlıq hissəsinin Azərbaycana məxsus olmasını tanımış, bununla yanaşı, Dağlıq Qarabağın öz müqəddəratını həll etmək hüququnu tanımamışdır. Ermənipərəst konqresmen hesab edir ki, ABŞ-ın münaqişənin həllinə bu cür münasibəti birmənalı şəkildə dəyişilməlidir (7).

ƏDƏBİYYAT

1.Şenol Kantarcı. Ermeni lobisi: ABDde ermeni dasporasının oluşumu ve lobi faaliyetleri // Ermeni Araştırmaları, 2001, sayı 1, mart-nisan-mayıs, s.139-169.
2. Məmmədov E. Azərbaycanın dasporunun formalaşması və inkşafında dövlətin rolu. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasya, Bakı, 2011, 163 s.
3. ARXINDA, f 26, siyahı 20, iş. 110, vərəq 34.
4. Cəfərov T. "Ermənı dasporunun antitürk fəaliyyəti". Ankara: Akçağ Basım yayın evi, 2021, 215 s.
5.Azərbaycan Respublkasının Xarici İşlər Nazirliyinin Dövlət Tarix Arxivi. F.26, siy. 9, iş 242, vərəq 119-120.
6. Qazıyev Y. Ermənı məsələsı. Yalanlar və gerçəklər. Bakı: Nurlan, 2009, 343 s.
7. ARXINDTA: f.26, siyahı 20. İş 110, vərəq 710.

**ТАЛЕХ ДЖАФАРОВ**
*Старший преподаватель кафедры общей истории и технологии обучения истории Азербайджанского Государственного Педагогического Университета, доктор философии по истории, докторант по программе доктора наук кафедры История Азербайджана (для гуманитарных факультетов) Бакинского Государственного Университета*

## ФОРМИРОВАНИЕ АРМЯНСКИХ ЛОББИСТСКИХ ОРГАНИЗАЦИЙ И ГРУПП ИНТЕРЕСОВ В США

Одним из активных этнических лобби в США является армянское лобби. По словам бывшего госсекретаря США Збигнева Бжезинского, армянское лобби является одним из самых эффективных этнических лобби в этой стране. Армянское лобби занимается защитой ин-

тересов армянской диаспоры, Армении и карабахских сепаратистов. При этом одним из основных направлений деятельности армянского лобби является влияние на внутреннюю и внешнюю политику США. Лоббистская деятельность армянской диаспоры в США стала более широкой со второй половины XX века. С этого периода лоббистская деятельность диаспоры характеризуется прежде всего созданием лоббистских структур. Основная деятельность зарождающихся армянских лоббистских организаций направлена на защиту армянских интересов в законодательных органах США, в Конгрессе, на распространение армянской лжи как правды перед мировым сообществом, а также на организацию антитурецкая деятельность.

*Ключевые слова*: Армянское лобби, лоббизм, группы интересов, армянская диаспора, миграция.

**TALEH JAFAROV**
*Senior Lecturer of Department of General History and History Teaching Technology,*
*Azerbaijan State Pedagogical University, PhD in History,*
*doctoral student in the program of Doctor of Science of the Department of History of Azerbaijan*
*(for humanitarian faculties), Baku State University*

## FORMATION OF ARMENIAN LOBBY ORGANIZATIONS AND INTEREST GROUPS IN THE UNITED STATES

One of the active ethnic lobbies in the USA is the Armenian lobby. According to former US Secretary of State Zbigniew Brzezinski, the Armenian lobby is one of the most effective ethnic lobbies in this country. The Armenian lobby is busy protecting the interests of the Armenian diaspora, Armenia and Karabakh separatists. The other crucial activity of the Armenian lobby is to affect the United States' domestic and foreign policy. The lobbying activity of the Armenian diaspora in the United States became much more extensive since the second half of the 20th century. From this period, the lobbying activity of the diaspora is firstly characterized by the creation of lobby structures. The essential activity of the emerging Armenian lobby structures is intended at protecting Armenian interests in the legislative bodies of the USA, in the Congress, spreading Armenian lies as truth to the world community, as well as organizing anti-Turkish activities.

*Keywords*: Armenian lobby, lobbying, interest groups, Armenian diaspora, migration.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:10 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. Qabil Əliyev.*

**UOT 94; 327(091)**

**YƏHYA BABANLI**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun doktorantı*
ORCID ID : 0000-0001-5912-6781
**y_babanli@yahoo.com**

# AZƏRBAYCAN DİASPORUNA SİSTEMLİ YANAŞMANIN NƏZƏRİ VƏ PRAKTİKİ ƏSASLARI

*Məqalədə müasir dövrdə Azərbaycan diasporunun inkişafına konseptual baxış həyata keçirilmiş və sistemli yanaşma ortaya qoyulmuşdur. Bu sahədə dövlət səviyyəsində reallaşdırılmış tədbirlərə nəzər yetirilmiş, Azərbaycan Respublikasının diasporla iş sahəsində dövlət siyasəti təhlil edilmiş, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən institusional quruculuq məsələlərinə toxunulmuşdur.*

*Sonuncu Zəfər qurultayı adlandırılan Dünya azərbaycanlılarının V qurultayı daxil, əvvəlki dörd qurultaylarının xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərinin gerçəkləşdirilməsindəki yeri və rolundan bəhs olunmuşdur. Azərbaycan diasporunun konseptual inkişafı ilə bağlı müvafiq tövsiyə və təkliflər irəli sürülmüşdür.*

*Açar sözlər*: Azərbaycan diasporu, Dünya azərbaycanlılarının V qurultayı, Zəfər qurultayı, Xaricdəki Azərbaycanlıların Koordinasiya Şuraları, Azərbaycan Evləri, Virtual Azərbaycan.

***Giriş*. *Qloballaşan dünyada diasporun təkamülü və konseptual dəyişiklikləri***. Müasir dövrdə dünyada diasporların formalaşması prosesi geniş və çoxvektorlu miqyas almışdır. Hazırda elə bir ölkə tapmaq mümkün deyil ki, orada başqa müxtəlif xalqların diasporu olmasın. Əvvəllər geniş yayılmış immiqrantların qəbul edən cəmiyyətə fərdi adaptasiyası getdikcə daha çox kollektiv inteqrasiya ilə əvəz olunur və nəticədə xalqların məskunlaşmasının fərqli, diasporal forması yaranır. Diasporlar ev sahibi ölkələrin sosial-mədəni həyatına təsir göstərir, cəmiyyətin iqtisadi-siyasi quruluşunu yeniləşdirə bilir, onun demoqrafik strukturlarını, etnik və konfessional tərkibini dəyişirlər. Diasporlar nəinki etnik xüsusiyyətlərini, milli adət-ənənələrini, rituallarını qoruyub saxlayırlar, eləcə də çox vaxt mövcud olduqları cəmiyyətə yad dəyərləri tətbiq edirlər.

Diasporların ev sahibi ölkələrin təkcə daxili siyasətinə deyil, eləcə də xarici siyasətinə təsiri getdikcə artır. Çünki əhəmiyyətli sosial-iqtisadi, maddi-maliyyə resurslarına malik transmilli diasporlar yaxın vaxtlara qədər tarixi vətənlərinə sıx bağlılığı olan ölkələrin maraqlarını fəal şəkildə qorumaq məqsədilə lobbiləşir, "publik diplomatiya" və "yumşaq güc" konseptinə çevrilirlər.

Bu sahənin bir sıra tədqiqatçılarının gəldikləri qənaətə görə, "əgər diasporların sayının daimi artımını, onların dinamizmini, fəal iqtisadi və siyasi əlaqələrini, çox yuxarı mərtəbələrə qədər lobbiçilik fəaliyyətini nəzərə alsaq - istər xilasetmə ölkələrində, istərsə də "ev sahibliyi edən" ölkələrdə onların müasir dünyada yerini və rolunu qiymətləndirmək olmaz. Mühacir icmalarının sayında artım və onların institutlaşması o qədər sürətlə baş verir ki, bəzi ekspertlərin fikrincə, bu, dünyanın diasporlaşması haqqında danışmağa əsas verir, bəziləri isə müasir dünyanın "belə deyil" dövlətlərin cəmi diasporların cəmi kimi"dir.

Müasir dövrdə diasporlar dünyanı idarə edir, beynəlxalq normalar qurur, hökumət və təsisatlar formalaşdırır, hətta "dünya evi" yaratmaq vəzifəsini qarşılarına məqsəd kimi qoyurlar. Geniş mənada deyə bilərik ki, son yarım əsrdə dünya prosesləri diasporların sosial-iqtisadi, hətta mədəni-ideoloji hökmranlığı altında gedir. Belə bir yanaşma çətin ki, mübahisəsiz adlandırmaq olar. Diasporların həm məskunlaşdıqları, həm "ikinci vətənləri"nə çevrilmiş ölkələrin daxili siyasətində, həm də getdikcə müstəqil oyunçu kimi iddia etdikləri dünya siyasətində, beynəlxalq münasibətlər sistemində şübhəsiz ki, getdikcə yeri və rolu artır.

Amma yəqin ki, "dünyanın diasporlaşması" haqqında danışmaq hələ tezdir, baxmayaraq ki, bəşəriyyətin inkişafının belə bir ssenari üzrə gedə biləcəyini istisna etmək olmaz. Qloballaşan dünyanın xarakterik xüsusiyyətlərindən biri miqrasiya proseslərinin intensivləşməsi və spektrinin

genişlənməsidir. Qloballaşma "milli bölgüləri" daha şəffaf edir və buna görə də milyonlarla insan daha yaxşı həyat axtarışında vətənlərini tərk edərək başqa ölkələrə üz tutur. Miqrasiya proseslərinin miqyasının kəskin artması immiqrant etnik icmaların konsolidasiyası ilə paralel gedir. Bir qayda olaraq,yeni yaşayış yeri seçənlər, başqa yerə köçənlər, yad, çox vaxt asi etnik-mədəni mühitdə nəinki sağ qalmaq, eləcə də etnik xarakterlərini, adət-ənənələrini, dillərini qorumaq üçün birləşməyə çalışırlar. Bu məqsədlə ya mövcud diasporlara qoşulurlar, ya da yenilərini yaradırlar. Bunun nəticəsidir ki, dünyada diasporların sayı durmadan artır və mütəşəkkil şəbəkələr qurulur.

Diaspor həssas və strateji faktor kimi yaşadığımız dövrün mühüm elementi hesab olunur. Diaspor həm ideoloji gücdür, həm də xaricdə milli mənafe və dəyərlərin təmsilçisidir. Diaspor amili xalqların yaxınlaşması, anlaşması, ölkələrarası münasibətlərin qurulması və dövlətlərarası əməkdaşlığın inkişafında mühüm amildir. Tarixin təkamül prosesi zamansız və sonsuzdur. Lakin bu inkişafı sürətləndirən səbəblər və mövcud proseslər vardır. Məhz diaspor faktoru inteqrasiya ilə təmas təşkil etməklə həm milli birliyi, həm də bəşəri təkamülü özündə əks etdirir. Bu fenomen, sağlam şəkildə "Vətənə xidmət"dir.

1991-ci ildə SSRİ-nin süqutundan sonra bir çox milli azlıqlar (əsasən sovet vətəndaşları) müstəqillik əldə etmiş dövlətlərinin subyekti kimi diaspor fəaliyyətinə başlamış və aborigen etnoslarının kompakt məskunlaşdıqları ərazilərdən kənarda yeni etnik struktur formalaşmışdır.

Eyni zamanda, postsovet məkanında insanların sərbəst hərəkəti üçün şərait yarandı ki, bu da ilk növbədə, Mərkəzi Asiya və Cənubi Qafqazın keçmiş respublikalarından güclü miqrasiya axınlarına şərait yaratdı. Nəticədə, Rusiya və digər sovet respublikalarında diasporlaşma prosesi başlandı ki, mövcud vəziyyətə görə elə Rusiya bu dövlətlər arasında birici yeri tutur.

***Vətən məfhumunun sinxronlaşdırılması, keşməkeşli tarixi keçmişə ekskursiya***. İlk insan məskənlərindən - sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın əlverişli coğrafi mövqeyi, e.ə. II əsrdən mövcud olan Böyük İpək Yolunun bu ərazidən keçməsi Azərbaycan diasporunun tarixinin kifayət qədər qədim köklərə malik olduğunu söyləməyə əsas verir. Bu yol vasitəsilə tarixin müxtəlif dövrlərində ticarət və səyahət məqsədilə dünyanın ayrı-ayrı bölgələrinə səpələnən azərbaycanlılar diasporumuzun ilk cücərtiləri hesab oluna bilər. Bəşəri inkişafla bərabər addımlayan Azərbaycan diasporu tarixin müxtəlif mərhələlərində müəyyən məqsədlər - elm öyrənmək, sənətkarlıqla, ticarətlə məşğul olmaq, müqəddəs yerləri ziyarət etmək üçün miqrasiya edən və özlərinə ikinci vətən seçən azərbaycanlılar vətənlə böyüməyi, inkişaf etməyi özlərinə mənəvi borc hesab etmiş və vətənin layiqli təmsilçisinə çevrilmişlər.

Həmçinin, ərəblər, səlcuqlar, monqollar, teymurilər və digər işğalçılar yürüşlər zamanı Azərbaycanın elm adamlarının və sənətkarlarının potensialından yararlanmaq məqsədilə onları özləri ilə aparmışlar. Sonradan bu şəxslər diasporumuzun yaranmasına öz təsirini göstərmişdir. Bundan sonrakı dövrlərdə əsasən siyasi amillərlə əlaqədar mühacirət, daha sonra təhsil, ixtisas artırmaq məqsədi daşıyan miqrasiya prosesləri diasporumuzun daha sıx formalaşmasına səbəb olmuşdur.

Lakin bütün bunlara baxmayaraq, Azərbaycanın müstəqil olmaması milli diasporumuzun təkamülü və inkişafına, tarixi vətənlə əlaqəsinə imkan verməmişdir. Nəticədə, hər bir sahədə olduğu kimi, diaspor quruculuğu işində də boşluq yaranmışdır - yüz il çar Rusiyasının, yetmiş il isə Sovetlər Birliyinin tərkibində olmağımız və şovinist siyasət nəticəsində xarici ölkələrdə yaşayan azərbaycanlılara "dırnaqarası" münasibət bəslənilmişdir. Bu tilsim ötən əsrin yetmişinci illərində qırıldı.

Bunu zaman keçdikcə, müstəqillik yolunda irəlilədikcə daha dərindən hiss etməyə başladıq və Azərbaycan Respublikasının milli dövlətçiliyində, xarici siyasət strategiyasında diasporun vacib əhəmiyyət kəsb etdiyinin şahidi olduq. Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin möhkəmləndirilməsi milli dövlətçiliyimiz baxımından müasir həyatımızın ən vacib və son dərəcə mühüm olan bir sahəsi olduğunu anladıq.

XX əsrin son onilliyi dünyanın siyasi xəritəsinin prinsipial konturlarının dəyişməsi, xalqları və dövlətləri "qırmızı imperiya" ideologiyası altında birləşdirən SSRİ-nin süqutu siyasi tarixdə yeni dövrün başlaması ilə təzahür etdi. Böyük dövlətlərin maraqlarının toqquşduğu yerə, Avropa və Asiyanın geosiyasi arealında münbit ərazilərə hakim olmaq arzusu və bu coğrafiyada hegemonluq

istəyi postsovet məkanında xaos və anarxiyanın yaranmasına səbəb oldu. Bu amillər hər bir sovet ölkəsində olduğu kimi, Azərbaycanda da ictimai-siyasi, sosial-iqtisadi vəziyyətin gərginləşməsinə gətirib çıxarsa da, XXI əsrin əvvəllərində xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasına və mütəşəkkilliyinə, Azərbaycan diasporunun formalaşmasına və inkişafına təsir edən mənfi hallara da son qoyuldu.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra milli diasporumuzun tarixinin, yayılma coğrafiyasının araşdırılması və demoqrafik vəziyyətinin öyrənilməsi aktuallıq kəsb edən məsələyə çevrilmişdir. Müstəqilliyin bərpasından sonra təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda yaşayan azərbaycanlılarda da milli mənlik şüuru canlanmağa və milli özünüdərk hissləri yüksəlməyə başladı. Sovet Azərbaycanının vətəndaşı müstəqil Azərbaycanın vətəndaşına çevrildi. Azərbaycan Respublikasının dünya birliyinə suveren dövlət kimi üzv qəbul olunması dünya azərbaycanlıları qarşısında yeni qapılar açdı. Məhz dövlətimizin düşünülmüş milli strategiyası əsasında ölkə ərazisinin hüdudlarından kənarda yaşayan soydaşlarımızın milli maraqlarının müdafiəsi məqsədilə qanunlar, proqramlar və strategiyalar qəbul olundu. Bu istiqamətdə dövlətin əsas strateji xətti müəyyənləşdirildi. Beləliklə, tarixin müxtəlif dönəmlərində fərqli səbəblərdən Vətənini tərk edərək Yer kürəsinin başqa-başqa ərazilərinə səpələnən toxumlar cücərməyə, boy atmağa və bar verməyə başladı. Azərbaycan diasporunun təkamülünə və tərəqqisinə start verildi. Azərbaycanın tarixi və mədəniyyəti kimi diasporu da kifayət qədər qədim və zəngindir. Dünyada təqribi sayı 60 milyon nəfər olan azərbaycanlıların 10 milyondan çoxu hazırda etnik torpaqlarından kənarda yaşayır. Planetin 5 qitəsində məskunlaşan soydaşlarımızın sosial-mədəni və iqtisadi-siyasi fəaliyyətləri yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlif meyarlarla sıx əlaqədardır.

***Xaricdə yaşayan azərbaycanlılarla sistematik işin qurulması***. Müstəqillik illərində qəbul edilən və milli dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən bütün sənədlərdə xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təminatı diqqət mərkəzində saxlanılmışdır. 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayının [1] keçirilməsi diaspor quruculuğu işində böyük addım olmaqla, planetin beş qitəsində yaşayan azərbaycanlıların konsolidasiyasına, xüsusilə soydaşlarımızın və həmvətənlərimizin mütəşəkkil qaydada təşkilatlanmasına rəvac verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 2002-ci il 5 iyul tarixində "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanın və 2002-ci il 27 dekabr tarixində "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun [1] imzalaması isə Azərbaycan diasporunun fəaliyyətinin koordinasiya edilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunması, onların təşkilatlanması baxımından ciddi rol oynadı. Bu siyasətin davamı olaraq, Azərbaycan ziyalılarından, tanınmış şəxslərdən, dövlət və hökumət nümayəndələrindən ibarət Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması bu sahəyə xüsusi əhəmiyyət verildiyini bir daha təsdiqlədi. Həmçinin elmi-intellektual potensialın formalaşmasına və inkişafına rəvac verdi. 2006, 2011, 2016-cı illərdə Bakı şəhərində Dünya Azərbaycanlılarının ikinci, üçüncü və dördüncü qurultaylarının keçirilməsi, müasir dövrün tələbləri nəzərə alınaraq, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2008-ci il noyabrın 19-da imzaladığı müvafiq sərəncamla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi (DİDK) [1]yaradılması da məhz zərurətdən irəli gəlir və bu sahənin inkişafına öz töhfəsini verir. Göründüyü kimi, DİDK-nin yaradılmasından sonra xaricdə yaşayan azərbaycanlıların, təşkilatlanması daha geniş vüsət alıb. Hazırda, bu istiqamətdə ümummilli lider Heydər Əliyev dövlət idarəçilik məktəbi əsasında Azərbyacan diasporu yeni inkişaf mərhələsinə qədəm qoyub.

***Dövlət-diaspor əməkdaşlığının yeni müstəviyə qədəm qoyması***. Qeyd etdiyimiz kimi, müstəqillik dövründə xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunun və dəyərlərinin qorunması, həmvətənlərimizin tarixi vətənləri ilə əlaqələrinin yaradılması, onlara milli kimlikləri və ata-baba yurdları qarşısında duran vəzifələrinin xatırladılması məqsədilə kompleks işlər görülmüş, bir sıra tədbirlər reallaşdırılmış, müasir dövrün tələbləri nəzərə alınaraq sənədlər hazırlanmış, dövlət

proqramları və həmrəylik xartiyası qəbul edilmişdir. Təsadüfi deyil ki, 2007-ci il 23 may tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda [2] xaricdə yaşayan soydaşlarımız da diqqətdə saxlanılmış və onlar ilə bağlı bir sıra məsələlər öz əksini tapmışdır. Burada Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən biri kimi "Azərbaycan Respublikası beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və milli qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsinə və onların milli özünəməxsusluğunun və dəyərlərinin qorunub saxlanılmasına kömək göstərməkdə davam edəcəkdir" [2] və Azərbaycan Respublikasının milli maraqları içərisində "dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi" [2] fikirləri əks olunmuşdur.

Bütün bunlar diasporla iş sahəsində dövlət siyasətinin milli təhlükəsizlik və maraqlar baxımından nə dərəcədə əhəmiyyətli olduğunu bir daha təsdiq edir. Bu xüsusda, 2018-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanan Strateji Yol Xəritəsini müsbət qiymətləndirmək mümkündür. O cümlədən"Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Türkiyə Respublikasının Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsi arasında "Diaspor sahəsində birgə fəaliyyətə dair" Anlaşma Memorandumu" və "Türk Şurası (hazırda Türk Dövlətləri Birliyi) Türkdilli Diasporların Birgə Fəaliyyət Strategiyası"na dəyişikliklərin təsdiq edilməsi haqqında qərarın, "2019-cu ildə Türk Şurası Türkdilli Diasporların Birgə Fəaliyyət Planı"nın imzalanması əhəmiyyətli məsələlərdəndir [3].

Türkiyənin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin (YTB) sədri Abdullah Erenin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda keçirdiyi görüşlərdə də bu istiqamətdə danışıqlar aparılıb. Bu sahədə əməkdaşlığın yeni üfüqlər açdığını xatırladıb: "Məlum olduğu kimi, noyabrın 8-də Ankarada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ - Türk Şurası) üzv ölkələrin diaspor məsələlərinə məsul dövlət qurumlarının rəhbərlərinin üçüncü iclası keçirilib. Oradakı çıxışımda da bildirdiyim kimi, müasir dünyada türkdilli diaspor təşkilatları arasında koordinasiyanın müəyyən edilməsi və əməkdaşlıq formalarının tapılması, bu sahədə birgə fəaliyyət xarici ölkələrdə yaşayan vətəndaşlarımız və soydaşlarımız üçün mühüm əhəmiyyət daşıyır. Məhz bu baxımdan həmin iclasda "Türk Şurasının Türkdilli Diaspor Birgə Fəaliyyət Strategiyası"na dəyişikliklərin təsdiq edilməsi haqqında qərarın və "2019-cu ildə Türk Şurası Diaspor Birgə Fəaliyyət Planı"nın imzalanması xüsusi önəm kəsb edir. Sözügedən iclas çərçivəsində "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Türkiyə Respublikasının Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsi arasında "Diaspor siyasəti sahəsində birgə fəaliyyətə dair Anlaşma Memorandumu"nun imzalanması iki qardaş ölkənin diaspor sahəsində ortaq əməkdaşlığına yeni təkan verəcək" [3].

Bu sahədə görülən işlər sırasında azərbaycanlıların məskunlaşdıqları ölkələrdə əsas hüquq və azadlıqlarının yerli qanunvericilik və beynəlxalq hüquq normaları çərçivəsində təmin edilməsinin prinsip və mexanizmlərini də müəyyən edilməsi başlıca məsələlərdəndir. Burada həmçinin xarici ölkələrdəki Azərbaycan diasporunun ayrı-ayrı regionlar üzrə fəaliyyətinin əsas istiqamətləri də müəyyənləşdirilməlidir. Konseptual əhəmiyyətli yanaşma ortaya qoyulmalıdır ki, "Azərbaycan" və "azərbaycanlılar" anlayışının nəzəri-ideoloji, fəlsəfi-məntiqi əsasları anlaşılsın. Dünya azərbaycanlılarının ana Vətən qarşısında məsuliyyətindən irəli gələn fəaliyyət, onların yerli cəmiyyətə inteqrasiyası, əsas hüquq və azadlıqlarının qorunması, Qarabağ gündəliyi, azərbaycanlılara qarşı ermənilərin törətdiyi terror və soyqırımı aktları, "erməni soyqırımı" iddialarının ifşası ilə bağlı xarici ölkələrdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin üzərinə düşən vəzifələr öz əksini tapsın.

Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev diaspor sahəsində dövlət siyasətini əsas prioritet istiqamət saydığını bildirmiş və bu sahənin işinin hazırkı dünyanın reallıqlarına uyğun genişləndirilməsi istiqamətində məqsəd və məramını aydın şəkildə açıqlamışdır: "Biz Azərbaycan diasporunun, icmalarının təşkilatlanması və fəaliyyətini, Vətənlə əlaqənin keyfiyyətcə yeni mərhələyə, daha yüksək səviyyəyə qaldırmaq niyyətindəyik. Azərbaycan diasporu

Azərbaycanın ənənəvi dostluq münasibətləri olan xalqların və dövlətlərin icmaları ilə sıx əməkdaşlıq etməli, onların müsbət təcrübəsindən və köməyindən bəhrələnməlidirlər. Bunun üçün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar daha sıx birləşməli, mütəşəkkil dinamik daxili strukturu olan birlik kimi çıxış etməlidirlər. Onlar həm Azərbaycanın milli-mənəvi dəyərlərini və mütərəqqi adət-ənənələrini qoruyub saxlamalı, həm də etnik qapalılıqlardan, təmsil etdikləri ölkələrin siyasi, iqtisadi, ictimai və mədəni həyatına inteqrasiya olunmalı, fəal siyasi amilə çevrilməlidir” [10].

Göründüyü kimi, daha da effektiv fəaliyyət üçün diasporlararası əlaqələrin yaradılması (xüsusilə, klassik yəhudi, ingilis, çin, yapon və müasir rus, belarus, ukrayna və b. diasporlar ilə) məqsədəuyğundur. Bu xüsusda, 2007-ci il martın 9-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu iki ölkə ilə yanaşı, əslində bütün türkdilli xalqların həyatında mühüm hadisə olmuş və birlik üçün zəmin yaratmışdır Forumda aparılan müzakirələrin nəticəsi olaraq, “Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası”, “Bakı Bəyannaməsi” və bir sıra digər mühüm sənədlər qəbul edilmişdir [9].

Beləliklə, Azərbaycan diaspor siyasəti düşünülmüş və məqsədyönlü fəaliyyəti ilə çoxtərəfli formatda davam etdirilərək dövrün tələblərinə uyğunlaşdırılmışdır. Bu sahəyə aid konkret addımlar atılmışdır. Milli mənlik şüuruna, özünüdərk prosesinə söykənən strategiyanı yeni çalarlarla yönləndirən İlham Əliyev xaricdə yaşayan azərbaycanlılar qarşısında əməli fəaliyyətə keçməsi və konkret olaraq yenicə formalaşan diasporu güc potensialına çevirərək lobbi institutlarının yaradılması istiqamətində tapşırıq və vəzifələr qoymuşdur. Onun Azərbaycan diaspor siyasətinə konseptual yanaşması və lobbi fəaliyyətinin perspektiv cəhətləri barədə mövqeyi bu baxımdan xüsusilə diqqət çəkir: “... Azərbaycan diasporu milli və dövlət maraqlarımıza aid məsələlərdə razılaşdırılmış ümumi mövqe nümayiş etdirməlidir. Burada daha vacib məqamlardan biri də budur ki, diasporumuz qarşısında siyasi dairələrdə lobbiçilik imkanlarının genişləndirilməsi və Azərbaycan naminə xarici siyasətçilərə çıxış imkanlarının təmin edilməsi işinə böyük önəm verilir” [4].

Diaspora davamlı dayaq və güvənc olmaq üçün dövlətin iqtisadi qüdrətinin təmin olunması da mühüm şərtlərdən biridir. Ümummilli liderin hakimiyyətə qayıdışından bəri sabitlik və dönməz milli inkişafa qədəm qoyan Azərbaycan hazırda İlham Əliyevin davamlı iqtisadi inkişaf konsepsiyası ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində ölkədə daxili bazarın inkişafına nail olunmuşdur. Bu, həm iqtisadi, həm də siyasi qələbənin göstəricisi olmaqla yanaşı düzgün daxili və xarici siyasət kursunun əyani təzahürüdür. Belə ki, müxtəlif ceşidli məhsulların dünya bazarına çıxarılması, sahibkarlığın inkişafı, daxili bazarın güclənməsi, istehsalatın müxtəlif sahələrində əldə olunan nailiyyətlər Azərbaycanı beynəlxalq arenada daha yaxından tanıtmağa imkan verir. Azərbaycan istehsalı olan çeşidlı mallar sərhədlərimizin hüdudundan kənarda milli brendlər adı altında yayılmaqdadır. Bu dövlətçiliyin tərəqqisi sayılmaqla yanaşı, ölkəmizin hərtərəfli tanıdılması-təbliğatında da xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycanın dinamik inkişafı, ölçülüb-biçilmiş daxili və xarici siyasət, uğurlu regional və beynəlxalq əməkdaşlıq manevrləri, həyata keçirilən meqaiqtisadi layihələr dövlətimizin beynəlxalq arenadakı müttəfiqlərinin sayının artmasına imkan yaratmışdır. Belə bir şəraitdə məntiqi olaraq Azərbaycan diasporunun da perspektiv inkişaf imkanları daha asan gerçəkləşməkdədir. Dünyanın bir çox dövlətlərində səfirlik və konsulluqların, əlaqələndirici təşkilatların təsis olunması da bu sahənin güclənməsinə təkan verən faktorlardandır. Bu rəsmi qaydada diplomatik nümayəndəliklərin xarici ölkələrdə bilavasitə olaraq diaspor quruculuğunu himayəyə cəlb edilməsi Azərbaycan diaspor cəmiyyətlərinin, milli icmaların yaranması işini daha da sürətləndirmişdir. Həmin instansiyalar ölkələrarası gediş-gəlişi asanlaşdırmaqla xalqlar və ölkələrarası münasibətlərin qurulmasına, adət-ənənələrlə qarşılıqlı hörmət və transformasiyaya öz töfhəsini verir, diplomatik münasibətlərə müsbət təsir göstərir. Başqa pirizmadan yanaşıldıqda bu təmsilçiliklərin siyasi əhəmiyyətini də aydın şəkildə görə bilərik. Danılmazdır ki, bu təsisatlar hüquqi baxımdan soydaşlarımızın və həmvətənlərimizin müdafiə olunmasını və himayəsini təmin edir, hərtərəfli əməkdaşlıqlar üçün yeni qapılar açır.

Vətən müharibəsi bir daha ölkə əhalisi ilə yanaşı, xaricdə yaşayan azərbaycanlıların da doğma Azərbaycan naminə bu günü və sabahı üçün mütəşəkkil qüvvəyə çevrildiyini göstərdi. Birbaşa dövlətin

diqqət və qayğısı sayəsində əldə olunmuş bu böyük nailiyyət Azərbaycanın ata-babalarımızdan qalan irsini göz bəbəyi kimi qorumaq və gələcək nəsillərə ötürmək üçün ruh yüksəkliyi verir. Nəticədə, Azərbaycan məhdud çərçivədə deyil, sərhədləri aşaraq dünyanın beş qitəsində nüfuzunu gündən-günə möhkəmləndirməyə və qürbətdə yaşayan övladlarının hərtərəfli himayə edə biləcək gücə qadirdir. Məhz görülən əməli işlərin nəticəsində indi Azərbaycan diasporu çiçəklənmə dövrünü yaşayır və palitrası zənginləşir. Elə buna görədir ki, diaspor nümayəndələrimiz məskunlaşdıqları və fəaliyyət göstərdikləri donor ölkələrdə rahatca genişmiqyaslı tədbirlərin təşkil olunmasına, Azərbaycan mədəniyyət günlərinin keçirilməsinə, elmi-praktiki konfranslar, simpoziumlar, müxtəlif təyinatlı sərgilərin təşkil edilməsinə, milli kinomuzun nümayişinə, tanınmış şəxsiyyətlərimizin, ədəbiyyat və incəsənət adamlarımızın həyat və yaradıcılıqlarından bəhs edən tədbirlərin keçirilməsinə nail olmuşlar. Bu ənənəvi tədbirlər düşünülmüş plana uyğun olaraq intensiv şəkildə xarici ölkələrdə davam etdirilir. O cümlədən, lobbi institutları planlı şəkildə öz səslərini qəbul etdirməyə, milli məqsədlərimizə nail olmağa çalışırlar. Bütün bu tədbirlər Azərbaycan dövlətinin daimi himayəsi və qayğısı nəticəsində həyata keçirilməkdədir. Heç təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri çərçivəsində Amerika Azərbaycan İcması üzvləri ilə görüşündə onların vətənpərvər fəaliyyətini yüksək dəyərləndirərək aşağıdakı sözləri bildirmişdir: “Azərbaycan dövləti və hökuməti öz tərəfindən əlindən gələni edəcəkdir, diasporun təşkilatlanması və möhkəmlənməsində səylərini göstərəcəkdir”.[4]

***Yeni çağırış və meyllərdən doğan yanaşmanın tətbiq olunması***. Məlumdur ki, diaspor amili müasir dünyada mühüm əhəmiyyət kəsb etməklə, beynəlxalq aləmdə xalq diplomatiyasının subyekti statusunu qazanmışdır. Hətta, mütəxəssislər diasporu müasir dünyanın ayrılmaz atributu hesab edirlər. Beynəlxalq münasibətlərin tərkibinin mürəkkəbləşməsi, ənənəvi dövlət və hökumətlərarası qurumlarla yanaşı, bu əlaqələrə qeyri-hökumət qurumlarının, transmilli korporasiyaların, kütləvi informasiya vasitələrinin, firmaların, bankların, maliyyə təşkilatlarının, həmkarlar ittifaqlarının, destruktiv qüvvələrin, etnik elementlərin, dini, milli təşkilatların, diasporların və s. qoşulması prosesi gedir.

Çünki diaspor dünyada gedən qlobal proseslər, geosiyasi hadisələr fonunda baş verən dəyişikliklər nəticəsində “siyasi alətə” çevrilərsə, milli müxtəlifliyin qorunmasına, saxlanılmasına zərbə vura bilər. Bu da bizi bir daha düşündürməyə vadar edir və milli maraqlarımızın qorunmasında həssas məsələ hesab oluna biləcək diaspor potensialından düzgün istifadə etməyin və istiqamətləndirməyin vacibliyini ön plana çəkir. Diaspor fəaliyyətində başlıca məqsəd mənsub olduğu etnik azlığın mədəniyyətini, dilini qoruyub saxlamaqdan ibarət olmalıdır. Beynəlxalq səviyyədə isə müxtəlif xalqların diasporları ilə “milli və bəşəri dəyərlərin qorunması naminə birgə fəaliyyət proqramları”nın hazırlanması və tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. Qloballaşan dünyada dövlətlərin xarici siyasət və diplomatiya sahəsində qazandığı nailiyyətlər bir sıra meyarlarla yanaşı, həm də onun xaricdə formalaşdırdığı diasporun potensial imkanları ilə ölçülür. Azərbaycan dövləti də məhz bu reallıqdan çıxış edərək müxtəlif səbəblərdən xarici dövlətlərdə yaşamağa məhkum olmuş soydaşlarımızın və həmvətənlərimizin Ana Vətənlə əlaqələrini genişləndirmək, onların milli-mənəvi birliyinə nail olmaq üçün ardıcıl və sistemli tədbirlər həyata keçirir. İndiki zamanda diasporla iş üzrə gerçəkləşdirilən vahid dövlət siyasətinin prioritet istiqaməti eyni zamanda xaricdə yaşayan azərbaycanlıların etnik özünəməxsusluqlarının qorunması və onları milli mənafelər naminə səfərbər edilməsidir.

Məhz müstəqillik illərində Azərbaycan diplomatiyası və diasporunun birgə səyinin nəticəsidir ki, Qarabağ məsələsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması istiqamətində bir çox işlər görülmüşdür.

Xüsusilə son illərdə aksiyaların keçirilməsi, petisiyaların imzalanması, müxtəlif ölkələrin dövlət-hakimiyyət orqanlarına ünvanlanan kollektiv xahiş, müraciət və ya etiraz məktubularının göndərilməsi bunu deməyə əsas verir.

Son illər diasporumuzun fəaliyyəti sosial-mədəni sferadan ictimai-siyasi müstəviyə keçmişdir ki, bu da lobbiçiliyin təkamülü və inkişafına əsas yaratmışdır. Hazırda bu sahədə yeni mərhələyə başlanılmışdır. Belə ki, xaricdə Azərbaycanın mədəniyyət və ticarət evlərinin yaradılması, milli

tariximizi əks etdirən eksponatlardan ibarət sərgilərin keçirilməsi, milli brend məhsullarından ibarət yarmarkaların təşkili, butiklərin açılması kimi tədbirlərin reallaşdırılması ənənəsinin davam etdirilməsi mühüm əhəmiyyətə malikdir. Bu sahənin inkişafı və zamanın çağırışlarına cavab verməsi üçün elmi potensialdan, kütləvi informasiya vasitələrindən və müasir texnologiyanın imkanlarından yetərincə yararlanmağımız vacib hesab edilə bilər. Nəzərə almalıyıq ki, diaspor könüllü fəaliyyət olub, ictimai xarakter daşıyır. Diasporu milli maraqların, adət-ənənələrin qorunmasında vasitə kimi görürüksə, onun hər hansı bir mərkəzi adda birləşməsi o qədər də əhəmiyyət kəsb etmir. Buna görə də milli diaspor şüuruna malik şəxsin hər hansı bir mərkəzləşdirilmiş təşkilatda birləşməsi vacib deyil. Əgər o kəsdə "diaspor şüuru" formalaşıbsa, o, yaşadığı cəmiyyətə inteqrasiya olunubsa, öz milli xüsusiyyətlərini, dilini qoruyub saxlayacaq və gündəlik həyatında vətənini təmsil edəcəkdir.

Qeyd edək ki, diasporun hərtərəfli inkişafı üçün akademik yanaşma mühüm əhəmiyyətə malikdir. Xarici ölkələrin informasiya vasitələrində Azərbaycan haqqında müfəssəl məlumatların yerləşdirilməsi və ya təhsil ocaqlarında azərbaycanlı mütəxəssislərin iştirakı ilə dərs saatlarının keçirilməsi səmərə verə bilər. Qloballaşan dünyanın kosmik sürət fazasına daxil olduğu, informasiyanın dünya bazarında ən qiymətli əmtəəyə çevrildiyi hazırkı şəraitdə "virtual dünya"nın diktə etdiyi reallıqlar diaspor quruculuğu işinin keyfiyyətcə yeni prinsiplər üzərində həyata keçirilməsini obyektiv zərurətə çevirir. Bu baxımdan qarşıda duran əsas vəzifələrdən biri də qlobal informasiya cəmiyyətinin təzahürü kimi meydana çıxan virtual dünyanın tərkib hissəsi olan "Virtual Azərbaycan"ın formalaşdırılması və inkişaf etdirilməsidir.

***Həmrəylikdən Zəfərə doğru***. 2022-ci ildə planetimizn müxtəlif qitələrinə səpələnən, ölkələrində məskunlaşan, yaşayan və fəaliyyət göstərən azərbaycanlıların V Qurultayı keçirildi. Dünya azərbaycanlılarının Ali Məclisi - bütöv bir xalqın ən ümdə arzu və istəyi olan işğaldan azad edilmiş Qarabağda, Şuşada reallaşdı. Tarixi ədalətin bərqərar olması fonunda, xeyrin şər üzərində qələbəsi nəticəsində spontan olaraq "Zəfər" adı verilən Qurultayda [1] yeni istiqamətlər göründü və hədəflər müəyyən edildi. Dövlət Başçısı özünün V Qurultaydakı müfəssəl nitqində bu həssas məqamı belə ifadə etmişdir: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır" [5].

Bu mötəbər tədbir həyata keçirilmiş, keçirilən və keçiriləcək işlərə nəzər-diqqət yetirmək üçin əlahiddə mahiyyət və əhəmiyyət daşıyırdı. Əslində, dünya azərbaycanlılarının dördüncü qurultaydan beşinci qurultaya qədərki dövrə analitik təhlil ilə yanaşsaq görərik ki, müasir dövrdə Azərbaycan diasporunun faydalı iş əmsalının dinamikası yüksəlmiş, konkret konseptual baxış ortaya qoyulmuş və fundamental sistemli yanaşmanın unikal təzahürləri öz əksini tapmışdır. Bunun bir sıra səbəbləri vardır:

- Dünya azərbaycanlılarının IV Qurultayında Prezident İlham Əliyevin proqram xarakterli çıxışından irəli gələn məsələlərin həlli istiqamətində atılan geniş addımlar, göstərilən nöqsanların aradan qaldırılmasındakı səylər, tapşırıq və tövsiyələrə ciddi əməl edilməsidir.

- 2018-ci ildə İlham Əliyevin yenidən Prezident seçildikdən sonra bu istiqamətdə qoyduğu tələb, Diasporla İş üzrə Dövlət Komitəsinin müasir yanaşmanın ortaya qoyulması və metodların tətbiq olunmasıdır. Bundan əvvəlki Qurultayda Azərbaycan diaspor sahəsində baş verən neqativ hallar, diplomatik korpus və diaspor təşkilatları arasında nifaq, konsolidasiya və koordinasiyanın zəif qurulması, birlik və həmrəylik yönündə baş verən mənfi tendensiya kimi proseslər aradan qaldırılmışdır.

Məhz buna görə də V Qurultayda Prezident belə məqamlara toxunmadı, daha çox inteqrasiya və inkişafa fokuslandı.

Diasporla İş üzrə Dövlət Komitəsi öz fəaliyyətini Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin proqram xarakterli çıxışından irəli gələn strateji kursa əsasən davam etdirib. Bu sahədə fəaliyyət Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, dplomatik korpuslar ilə qarşılıqlı şəkildə həyata keçirilib. Komitə tərəfindən diasporla iş sahəsində dövlət siyasətinin yerinə yetirilməsi, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə

əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsi təmin olunub.

Hazırda dünya üzrə qeyri-rəsmi statistikaya görə sayı 60 milyona çatan azərbaycanlıların qitələr üzrə yayılma arealı genişlənib və təşkilatlanma prosesi buna uyğun olaraq dərinləşib. Azərbaycan diasporunun əhatə dairəsi böyüyüb. Bu gün 80-ə yaxın ölkədə azərbaycanlılarla rabitə əlaqəsi qurulub.

Müqayisə üçün qeyd edək ki, Dünya azərbaycanlılarının IV Qurultayında 49 ölkədən nümayəndə iştirak edirdisə, V qurultayda 65 ölkə təmsil olunur. Eləcə də təşkilatlanma diqqətdə saxlanılıb, ötən Qurultayda 462 Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərirdisə, hazırda bu say 570-ə çatıb [1].

Azərbaycan diasporunun mütəşəkkilliyini daha da gücləndirmək üçün yeni yanaşma tətbiq edilmiş, regional olaraq diaspor təşkilatları Xaricdəki Azərbaycanlıların Koordinasiya Şuraları adı altında birləşdirilmişdir. Hazırda dünyanın 31 ölkəsini əhatə edən 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurasının əsas hədəfi diaspor fəaliyyətini gücləndirmək, lobbiçiliyi təşviq etmək və vətəndaş cəmiyyəti olaraq beynəlxalq təşkilatlara təsir imkanlarını gücləndirməkdir. Azərbaycan haqqında müfəssəl informasiya verən Azərbaycan diasporunun müxtəlif ölkələrdə "Həmrəylik məkanı"na çevrilən Azərbaycan Evlərinin genişləndirilməsi prosesi davam etdirilmişdir. Buranın konsepti ümumilikdə ziyarətçilərə Azərbaycan haqqında aydın fikir formalaşdırmaq və obyektiv məlumat vermək üçün nəzərdə tutulmuşdur. Hazırda 12 ölkədə faəliyyət göstərən 18 Azərbaycan Evi [1] xaricdə milli atributumuz kimi, maddi-mənəvi dəyərlərimizi təbliğ etdirməklə yanaşı, həmçinin sosial-mədəni məkan rolunu oynayır.

***Tarixə böyük* ehtiram*, hörmət və qayğı nümunəsi*.** Gələcək nəsillərə örnək olmaq məsuliyyət hissi aşılayır və milli-mənəvi dəyələrə sahib çıxmaq dövlətçilikdə əsas amillərdən hesab olunur. Bunu dövlət başçısı səviyyəsində nümayiş etdirməklə milli inkişafa təkan vermiş olur. Siyasi kursa sadiqlik göstərməklə, sələfinə layiq xələf olduğunu göstərməklə ibrət dərsi vermiş olur. Cəmiyyətdə sağlam atmosferin yaranmasına və harmoniyanın qurulmasına zəmin yaradır. Dövlət başçısı varisliyə dərin hörmət və ehtiramını bu şəkildə ifadə edir. Məhz diaspor təşkilatları da bu prinsipi diqqətdə saxlamalıdır.

Diaspor milli genefondun qorunması və varisliyin yaşadılması nöqteyi-nəzərindən olduqca vacib elementdir. Bu xüsusda, Azərbaycan Prezident nəsillərarası bağlılığa əhəmiyyət verdiyini çıxışı zamanı belə vurğulamışdır: "Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir.

Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz

gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi" [5].

***Prezidentin strateji mesajları, reallıqlar və perspektivlərə hesablanmış qeydləri***. Dövlət başçısı əvvəlki qurultaylardan fərqli olaraq, nöqsanlara deyil, perspektiv inkişafa kökləndi. Arxaplanda Şuşa real məktəbi daha bir reallığın şahidi oldu. Bu birlik və həmrəyliyi təcəssüm etdirməklə, məğlubiyyət deyil, bu qalibiyyəti göstərdi. Şuşanın azad olunması zamanı Azərbaycan Prezidentinin "Gözünüz aydın olsun, dünya azərbaycanlılar" qeydi əyani təsdiqini tapdı. Eləcə də bu sahədə fəaliyyətin aktuallığını itirmədiyi və yeni müstəviyə qədəm qoyduğunu göstərdi. Təbliğat-informasiya maşınının hərəkətdə olduğuna, ideoloji savaşın hələ davam etdiyinə eyham vurdu. Əslində, Xankəndi daxil, Azərbaycandan xaricə köçən ermənilərində Azərbaycan diasporu ətrafında birləşməsi daha məntiqlidir. Çünki onlar da vətəndaşı olduqları ölkəyə sədaqətlə xidmət edib, Azərbaycanın sülh çağırışına qoşulmaları labüddür.

İlham Əliyev Dünya azərbaycanlılarının V qurultayında təsadüfi deyil ki, öz nitqində əminliyini ifadə etməklə ideoloji və strateji hədəflərə diqqəti çəkmişdir: "Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gündə ehtiyac var. Bu gündə ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb" [5].

Prezident çıxışında Komitənin koordinasiyasının qənaətbəxş olduğunu deməklə, gələcək fəaliyyət istiqamətinin prioritetini göstərdi. Eləcə də azad olunmuş əraziləri konkret rəqəm ifadə etməsi ilə tam olmamasını ştrix kodlarla bildirdi.

"...mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq" [5].

Postmüharibə dövründə "azərbaycançılıq" ideologiyasının yeni motivləri meydana çıxır. Təbii ki, bu nöqteyi-nəzərdən yeni hədəflər müəyyənləşdirilməli və metodlar tətbiq olunmalıdır. Məhz Prezidentin "...bölgənin gələcəyi naminə ...biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük. ... Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdən bir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq, Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq" fikirləri buna fokuslanmışdır [5].

Göründüyü kimi, qarşı tərəf imitasiya etsə, 30 il ərzindəki kimi manevrlərini davam etdirsə, Zəngəzur, Göycə məsələsi Azərbaycan diasporunun gündəliyinə salına bilər.

*Dövlət başçısının "... bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur" yanaşması heç də təsadüfi deyildir* [5].

***Azərbaycan diasporunun müasir trendləri və lobbiçilik hədəfləri***. Etnik-milli məzmun daşıyan diaspor çox mürəkkəb təyinata malikdir. Milli özünüdərk, etnik təhlükəsizlik və beynəlxalq fəaliyyət amilini özündə cəmləşdirən diaspordan düzgün istifadə edilməzsə, maraqlı qüvvələr diasporu öz məqsədlərinə çatmaq üçün vasitə kimi istifadə edə bilərlər. Ona görə də strategiya düzgün qurulmalıdır ki, bundan siyasi məqsədlər üçün yox, xalqlararası dostluğun yaranmasında

vasitə, sosial yaxınlaşma, doğmalaşma faktoru kimi istifadə edilsin. Bir məsələni də diqqətdə saxlamaq vacibdir ki, diasporun hərtərəfli inkişafı üçün həm mövcud olduğu ölkənin, həm etnik vətəninin, həm də beynəlxalq təşkilatların qayda-qanunlarına uyğun müvafiq strategiya qəbul olunmalıdır. Bu gün regional deyil, qlobal təşkilatlarda təmsil olunaraq beynəlxalq birliklərin yaradılması zəruridir. Yəni, azərbaycanlılarla yanaşı digər xalqların diaspor nümayəndələrini də bu işə cəlb etmək böyük səmərə verə bilər. Xaricdə yaşayan azərbaycanlı ailələrini bu fəaliyyətə cəlb etmək üçün stimullaşdırıcı tədbirlər həyata keçirilməli və diaspor kontingentinin ictimai mənşəyi, demoqrafik vəziyyəti, miqrasiya etmə səbəbləri və hansı işlə məşğul olduqları nəzərə alınaraq iş aparılmalıdır. İstənilən diaspor nümayəndəsi, sosial-ictimai mənşəyindən asılı olmayaraq, vətənlə istədiyi vaxt əlaqə yaratmaq imkanına malik olmalı və bu sahədə dövlət siyasətini həyata keçirən aidiyyatı qurumlara sərbəst çıxışına şərait yaradılmalıdır.

Dövlət başçısı da Zəfər qurultayında bu kimi həssas məsələlərə toxunaraq, Azərbaycan dilinin, mentalitetinin qorunub-saxlanılması ilə yanaşı, azərbaycanlıların yerli cəmiyyətlərə adaptasiyası və inteqrasiyasının vacib olduğunu vurğuladı: "Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar ilk növbədə Azərbaycan dilini bilməlidirlər. Burada əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir. İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidirlər".[5]

***Azərbaycan diasporunun öz fəaliyyətində müasir dövrün çağırışlarını nəzərə alması və müvafiq tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab olunur:***

- ***Azərbaycanın diplomatik nümayəndəliklərində diaspor məsələlərinə məsul şəxslərin təyin edilməsi və vahid diaspor strategiyasının qurulması;***
- ***dünyada etnik-siyasi, sosial-mədəni anlaşılmazlıqların adi hal aldığı vaxtda xarici ölkələrin ali təhsil müəssisələrində "Azərbaycan multikulturalizmi" kursunun tədris olunması;***
- ***Azərbaycan diasporu sahəsində informasiyanın idarəedilməsi, fəaliyyətin qiymətləndirilməsi və monitorinq keçirilməsi üzrə konsepsiyanın hazırlanması;***
- ***Azərbaycan diasporu ilə bağlı məlumatların, təbliğat və təşviqat materiallarının əsaslı, düzgün-dolğun olması üçün vahid informasiya bankının yaradılması və bu bank vasitəsilə süzgəcdən keçirməklə yayılması;***
- ***Azərbaycan diasporunun qeyri-hökumət təşkilatları ilə əlaqələrin genişləndirilməsi və bu istiqamətdə yeni qurumların təsis edilməsi;***
- ***Azərbaycan diaspor nümayəndələrinin Azərbaycanın biznes mühitinə təşviq edilməsi üçün müvafiq layihələrin reallaşdırılması;***
- ***ən nəhayət, Azərbaycan Respublikasının Dövlət-Diaspor Əməkdaşlığı (İnteqrasiya və İnkişaf Siyasəti) Konsepsiyasının və Azərbaycan Respublikasının Dövlət Diaspor (YURDDAŞ) Proqramının hazırlanması və qəbul olunması;***
- ***"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"* [6] *və "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın* [7] *bazasında Xaricdə Təhsil Alan Azərbaycanlı Tələbələrin Assosiasiyasının yaradılmasıdır.***

Habelə hazırda dünyada trendə çevrilən "geyim lobbiçiliyi"ndən geniş istifadə edilməlidir. Zənnimizcə, məşhur Azərbaycan xalçalarının motivləri – onların dərinliyi, zəngin rəngləri, zərifliyi, əcdadlarımızın hər bir naxışı hansı incəliklə canlandıraraq yaratdığı modelə uyğunlaşdırılaraq ərsəyə gətirilən "Sumax" adlanan "Haute Couture" [8] kolleksiyası buna bariz nümunədir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın belə bir əhəmiyyətli layihənin həyata keçirilməsində göstərdiyi dəstək heç də təsadüfi deyildir. Bu xüsusda, "Made in Azerbaijan" brendinin təbliği və təşviqi arzuolunandır.

Beləliklə, Azərbaycan nə qədər güclü olsa, daxildəki vətəndaşlarla yanaşı, xaricdəki azərbaycanlılar da özlərini bir o qədər də təhlükəsiz, rahat hiss edəcəklər. Dünyanın müxtəlif yerlərində məskunlaşan soydaşlarımız və həmvətənlərimiz nə qədər güclü olsa, milli maraqlarımız da bir o qədər mühafizə, müdafiə olunacaqdır. Ona görə də diaspor təşkilatlarının bütövlükdə və onların üzvlərinin fərdi qaydada real siyasətə, məqsədyönlü işlərə fəal şəkildə cəlb edilməsi olduqca arzuolunan bir məsələdir. Azərbaycan diasporu öz ruhu, dəsti-xətti ilə hərəkət etməli, təkrarçılığa yol verməməli, vahid ideologiyaya və strategiyaya uyğun fəaliyyət göstərməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "hər birimiz - həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin - xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, - onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, - azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.

Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır - həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir" [5].

***Nəticə***. Dünya azərbaycanlılarının V Qurultayı bir daha açıq-aydın göstərdi ki, artıq mahiyyətcə və keyfiyyətcə yeni dövrünü yaşayan, tarixin sınaqlarından çıxmış Azərbaycan diasporu özünün mütəşəkkillik və möhkəmlənmə dövrünə qədəm qoymuşdur. Azərbaycan diasporunun inkişaf tendensiyasını müəyyən etmək üçün müxtəlif ərazilərdə yaşayan və müvafiq qurumlarda təmsil olunan, birləşən soydaşlarımız və həmvətənlərimizin ümumi məqsədlər və milli prioritetlər ətrafında vəhdətinin təmin olunması bu sahədə əsas çağırışlardan sayıla bilər. Dövlət sərhədlərinin hüdudlarından kənarda yurd salan azərbaycanlılar və xaricdə fəaliyyət göstərən diaspor təmsilçilərinin Azərbaycana bağlılığı və respublika haqqında həqiqətlər ilə birlikdə yaşamaları və fəaliyyət göstərmələri başlıca hədəflərdən hesab edilməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin saytı. - http://diaspor.gov.az/hesabatlar/; http://diaspor.gov.az/xeberler2020/x4141.php [25.10.2022].
2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası. - https://www.e-qanun.az/framework/13373 [25.10.2022].
3. Azərbaycanla Türkiyə arasında diaspor, təhsil və QHT sahələrində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub / Yeni Azərbaycan. -2018. -28 noyabr. -№ 225. -s.6.
4. Prezident İlham Əliyev və Azərbaycan diasporu, 300 s. / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. - https://files.preslib.az/projects/diaspora/a5.pdf [25.10.2022].
5. İlham Əliyev Şuşa şəhərində Dünya azərbaycanlılarının V qurultayında çıxış edib / Azərbaycan Respublikası Prezidentinin saytı, 22 aprel 2022. - https://president.az/az/articles/view/55859 [25.10.2022].
6. Azərbaycan Respublikası Təhsil Nazirliyinin saytı. - https://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet-proqrami.pdf [25.10.2022].
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin saytı. - https://nk.gov.az/az/document/6176/ [25.10.2022].
8. Azərbaycan Dövlət İnformasiya Agentliyinin saytı. - https://azertag.az/xeber/Rufet_Ismayil_Sumax_kolleksiyasini_olkemizin_qelebesine_hesr_edirem_VIDEO-1892139 [25.10.2022].
9. Müstəqillik illərində böyük inkişaf yolu keçmiş Azərbaycan diasporu / Olaylar. -2012. -7 mart. - s.15.
10. Əliyev İ. İnkişaf Məqsədimizdir. Üçüncü kitab. Fevral-2004 –Aprel-2004. Azərnəşr, Bakı, 2009. 162 s.

**ЯХЬЯ БАБАНЛЫ**
*доктор философии по истории,*
*Докторант по программе доктор наук*
*Института истории имени А.А.Бакиханова НАНА*

## ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ОСНОВЫ СИСТЕМНОГО ПОДХОДА К АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЕ

В статье осуществлен концептуальный обзор развития азербайджанской диаспоры в новейшее время и представлен системный подход. Рассмотрены меры, реализуемые на государственном уровне в этой сфере, проанализирована государственная политика Азербайджанской Республики в области работы с диаспорой, затронуты вопросы институционального строительства, имеющие большое значение в этом направлении. Проанализированы место и роль предыдущих четырех съездов, в том числе V Съезда азербайджанцев мира, который был назван съездом Победы, в реализации целей и принципов государственной политики Азербайджанской Республики в отношении азербайджанцев, проживающих за рубежом. Были даны соответствующие рекомендации и предложения относительно концептуального развития азербайджанской диаспоры.

*Ключевые слова*: Азербайджанская диаспора,V Конгресс азербайджанцев мира, Съезд победы, Координационные советы азербайджанцев зарубежья, Дома Азербайджана, Виртуальный Азербайджан.

**YAHYA BABANLI**
*PhD in History,*
*Doctoral student under the program of Doctor of Science*
*at the Institute of History named after A.A.Bakikhanov of ANAS*

## THEORETICAL AND PRACTICAL FOUNDATIONS OF A SYSTEMATIC APPROACH TO THE AZERBAIJANI DIASPORA

In the article, a conceptual review of the development of the Azerbaijani diaspora in modern times was carried out and a systematic approach was presented. Measures implemented at the state level in this area were reviewed, the state policy of the Republic of Azerbaijan in the field of working with the diaspora was analyzed, and institutional building issues of great importance in this direction were touched upon.

The place and role of the previous four congresses, including the V Congress of the World Azerbaijanis, which was called the last Victory Congress, in the implementation of the goals and principles of the state policy of the Republic of Azerbaijan regarding the Azerbaijanis living abroad, were discussed. Relevant recommendations and proposals were made regarding the conceptual development of the Azerbaijani diaspora.

*Keywords*: Azerbaijani diaspora,V Congress of World Azerbaijanis, Victory congress, Coordinating Councils of Azerbaijanis Abroad, Azerbaijan Houses, Virtual Azerbaijan.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Sevinc Əliyeva, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94(479.24)**

**ƏZİZAĞA QƏNİ-ZADƏ**
*AR MN Milli Müdafiə Universitetinin dissertantı*
**yupiter57@mail.ru**

# MÜASİR AZƏRBAYCANIN ORDU QURUCULUĞUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

*Məqalədə 1993-cü ilin oktyabrında yenidən Azərbaycan Respublikasının rəhbəri seçilmiş Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 2003-cü iladək ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirdiyi əvəzolunmaz fəaliyyəti mötəbər mənbə və ədəbiyyatlar əsasında tədqiq olunmuşdur. Ulu öndərin Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsi uğrunda vahid komandanlıqdan idarə edilən ordunun formalaşdırılmasının və müdafiə qüdrətinin möhkəmləndirilməsinin nəzəri əsasları məqalədə öz əksini tapmışdır.*

*Ermənistanın dövlət terrorizminin gücləndiyi bir zamanda xalqın iradəsi ilə hakimiyyətə gətirilən Heydər Əliyev tezliklə yeni ordu quruculuğuna başlayır. Ulu öndər ilk növbədə xarici siyasətə yeni düzən verir, güclü nizami ordu yaradır. Ölkənin iqtisadi gücünü daim artıraraq, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində planlı siyasət həyata keçirir.*

*Açar sözlər*: müstəqillik, Ordu quruculuğu, müharibə, vahid komandanlıq, cəbhədə uğurlar, atəşkəs.

***Giriş***. Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. Zənnimizcə, zəmanəmizin dühası olan Heydər Əliyevi ən lakonik şəkildə xarakterizə etsək, bu yanaşmanı məqbul hesab etmək olar. O, ölkə həyatının bütün sahələrində inkişaf və tərəqqinin banisi və ilhamçısı olmuşdur. Xüsusilə ümummilli liderin ordu quruculuğu sahəsində fəaliyyətinin nəticələri dövlətimizin bugünkü etibarlı təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, ölkəmizin nə zamansa müstəqillik yoluna qədəm qoyacağını öncədən görən ulu öndər Azərbaycan hərb sənətini yenidən dirçəltmək və müstəqil dövlətin Silahlı Qüvvələri üçün yüksək ixtisaslı milli zabit kadrlarının hazırlanması üçün əlindən gələni əsirgəməmişdir. Hələ 1970-ci illərdə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına göndərilmiş, milli hərbi kadrlar hazırlanması üçün hər cür qayğı göstərilmişdir [62, 9-23, 44-45; 56; 42, 9; 57].

Uzun və yorucu bürokratik əngəllərdən sonra Heydər Əliyev 1971-ci ildə Cəmşid Naxçıvanski adına respublika orta hərbi internat məktəbin yaradılmasına nail olmuşdu. [69; 62, 25].

Əslində o dövürdə belə bir hərbi məktəbin yaradılması öz ideyası və miqyasına görə inqilabi səciyyə daşıyırdı. Belə ki, milli ruhlu hərbi kadrların yetişdirilməsi, bu prosesin zəruri vəsilələrini təşkil edən təhsil bazası və tədris korpusunun yaradılması heç vaxt mərkəzi hakimiyyətin strateji maraqları çərçivəsinə daxil olmamışdı. Ancaq Ulu Öndər Heydər Əliyevin tarixi xidməti və heç nə ilə müqayisəyə gəlməyəcək nailiyyəti böyük bir sovet imperiyasının, onun ideoloji maşınının qurub keşiyində durduğu stereotipi yerindən tərpətməyə müvəffəq oldu, şəxsi münasibəti, nüfuzu, əlaqələri, nəhayət, iradəsi və qətiyyəti sayəsində respublikada milli hərbi kadr hazırlığı üçün baza rolunu oynaya biləcək ilk hərbi məktəbin təməlini qoya bildi. Maraqlıdır ki, o zaman tez-tez bu məktəbdə olan Heydər Əliyev, pedoqoji kollektivlə, kursantlarla görüşlər keçirərək, faydalı və işgüzar məsləhətləri ilə şəxsi heyəti daim daha böyük uğurlar qazanmağa səsləyirdi.

Təsadüfi deyildir ki, o, öz çıxışlarından birində söyləmişdir: "...sizə ixtisaslaşdırılmış məktəbdə oxumaq, hərbi peşəyə hazırlaşmaq kimi böyük şərəf nəsib olmuşdur. Silahlı Qüvvələrin sıralarında xidmət etmək, xüsusən də kadr kimi, zabit kimi xidmət etmək çox şərəfli və məsul vəzifədir, xalqın böyük etimadıdır. Buna görə də gərək siz biliklərə möhkəm yiyələnəsiniz, mənəvi, fiziki cəhətdən özünüzü möhkəmləndirəsiniz..." [62, 31].

İllər ötdükcə Cəmşid Naxçıvanski məktəbinin səsi-sorağı bütün ölkəyə yayılır. Bakının ali hərbi məktəbləri ilə yanaşı, Leninqraddakı Hərbi Tibb Akademiyasında, Hava Hücumundan Müdafiə Hərbi-Siyasi Məktəbində, Mühəndis-Texniki və Hərbi-Dəniz Məktəblərində, Kiyevdəki Hərbi Radiotexnika Mühəndisləri və Hərbi-Siyasi Dəniz Məktəblərində, Simferepol Ali Hərbi-Siyasi Məktə-

bində, Çerniqov Ali Hərbi Aviasiya Məktəbində, Ali Zenit-Raket Komandirləri Məktəbində və ümumiyyətlə, SSRI-nin 26 şəhərinin 47 ali hərbi məktəbində yüzlərlə azərbaycanlı gənc təhsil almışdır [62, 31]. Təkcə onu qeyd etmək olar ki, 70-80-ci illərdə SSRI-nin 50-dən çox şəhərində 105 hərbi ali məktəbdə müxtəlif hərbi ixtisaslar üzrə 17 mindən çox azərbaycanlı zabit hazırlanaraq hərb sənətinin sirlərinə yiyələnmişdir [41, 9].

Gənc hərbçi kadrların hazırlanmasında təcrübəli veteran hərbiçilərin də potensialından istifadənin vacibliyini qiymətləndirən Heydər Əliyev onlara xüsusu qayğı göstərir, onlarla birgə milli hərbçi kadrların hazırlanmasında yaxından iştirak edirdi. Əslində faşizmə qarşı mübarizədə Azərbaycan xalqının oynadığı rolun düzgün qiymətləndirilməsinə önəmli qiymət verən Heydər Əliyev bununla öz vətəninin təcrübəli hərbçilərinə hər zaman sahib çıxacağına xüsusi diqqət çəkmişdi. O, Mehdi Hüseynzadənin Avropanın böyük antifaşist hərəkatında qəhrəmanlığının təbliğinin, haqqında əsərlərin yazılmasının, kinofilm çəkilməsinin, heykəllər qoyulmasının təşəbbüsçüsü olmuşdur.

70-80-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının böyük qələbəsinə [24; 35; 65] və Sevastopolda Sapun-dağda 77-ci Azərbaycan diviziyasının şərəfinə böyük abidələr ucaldılır [67; 55; 70]. Bütün bunlarla yanaşı, o, həm də Bakı neftinin İkinci Dünya Müharibəsində faşizm üzərində qələbədə oynadığı ümumdünya tarixi əhəmiyyətli rolunun SSRI rəhbərliyi tərəfindən etiraf edilməsinə də nail olaraq, 1978-ci ildə doğma Bakının Lenin ordeni ilə təltif edilməsi sahəsində müstəsna xidmətə imza atmışdır [42, 9].

Azərbaycanın siyasi həyatının sürətlə inkişafı, millətin milli özünüdərk prosesindəki məqsədyönlü siyasi fəaliyyəti və gələcək müstəqil Azərbaycanın ordu qruculuğu sahəsində misli görünməmiş fədakarlığı əslində Heydər Əliyevin şəxsiyyəti, onun çoxcəhətli idarəçilik istedadı və iti siyasi fəhmi ilə sıx surətdə bağlı olmuşdur.

1976-cı ilin martından etibarən Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, [68; 1, 27-33] 1982-ci ilin noyabrından etibarən isə Siyasi Büronun üzvü seçilərək, SSRI Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və sovet dövlətinin aparıcı rəhbərlərindən biri olmuşdur [68; 1, 27-33, 689-703].

Heydər Əliyev Moskada çalışdığı vaxtlarda da Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın yalnız keçmiş SSRI məkanında deyil, həm də dünyada tanıdılması üçün əlindən gələni etmişdir. Azərbaycana gəldiyi zamanlarda isə daim hərbi təhsil müəssisələri ilə dərindən maraqlanmış, onların iş fəaliyyətlərinin operativləşməsi üçün lazımi göstərişlər vermişdir.

Bu isə M.S.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyini narahat etməyə başlamışdı. Ətrafına mənşəcə erməni olan siyasi «işbazları» toplayan M.S.Qorbaçov onların uydurma "Böyük Ermənistan" xülyasını həyata keçirmək üçün bütün təsir rıçaqlarını işə salmışdır [63; 31].

1987-ci ildə M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olan akademik Aqenbekyan Fransada "Humanite" qəzetinə müsahibəsində Qarabağın Ermənistan SSR-ə birləşdirilməsinin vacibliyi haqqında fikirləri yuxarıda söylənilənləri təsdiqləyir [63; 31]. Aqanbekyan əslində SSRİ rəhbərliyinin mövqeyini ifadə edirdi. Bu hadisə eyni zamanda Azərbaycan xalqına qarşı cox ciddi və məkrli planların hazırlandığını təsdiqləyirdi. Elə belə də oldu. Ermənistan SSR-dən 200 mindən artıq azəri türkü yer-yurdlarından didərgin salındı [18, s.112; 23].

1990-cı ilin 20 yanvar gecəsində isə Azərbaycan özünün müstəqilliyi uğrunda ilk şəhidlərini verir [39] Xalqın başsız qalması ölkədaxili xaosun durmadan artmasına rəvac verməkdə idi. Hadisədən dərhal sonra Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 20 yanvar faciəsinə ilk hüquqi-siyasi qiymət verərək, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bildirir. "Bizim Ümumittifaqdan nicatımız yoxdur" sözlərini deyən Heydər Əliyev qorxmadan, çəkinmədən imperiya rəhbərlərini ən qatı qatillər adlandırır [66; 16].

Xalqının ağır bir vəziyyətdə olduğunu görən Heydər Əliyev ona qarşı repressiv təzyiqlərə baxmayaraq, 1990-cı il iyulun 20-də Bakıya dönür [57; 68; 53, 4-5]. Bakıda özünə qarşı sui-qəsdlərin törədilə biləcəyindən xəbərdar olan Heydər Əliyev 2 gün sonra- iyulun 22 də Naxçıvana gedir [53, 4-5; 54; 36]. Elə həmin gün xalq Naxçıvan şəhərinin Azadlıq meydanında 80 min nəfərlik bir izdihamla Heydər Əliyev şəxsiyyətinə sahib çıxacağına nümayiş etdirdi [60; 44; 53]. Xalqın respublikanın müxtəlif bölgələrindən gəlmiş nümayəndələri ilə mütəmadi görüşlər keçirən Heydər Əliyev, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırır. Azərbaycan xalq deputatlığına namizədliyi irə-

li sürüldüyü Nehrəm seçki dairəsində seçiciləri ilə görüşən Heydər Əliyev: "Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır..." [17, 279] ifadəsi ilə əslində açıq-aşkar xalqı bütün yekdilliyi ilə mübarizəyə səsləmişdir.

Bu dövrdə ermənilər və onların havadarları olan Rusiya hərbçiləri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan çıxılmaz vəziyyətə düşmüşdü [60; 44; 53; 17, 279]. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın da halı ağır idi. Məhz belə bir ağır şəraitdə Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçilən Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının imperiyapərəst qüvvələrə qarşı mübarizəsini öz üzərinə götürür [60; 44; 53; 17, 279; 52]. 1990-cı il noyabrın 17-də Heydər Əliyev Azərbaycan xalqının istiqlal mübarizəsinə özünün ən böyük töhfəsini verdi. Böyük siyasətçi cəsarətli addım ataraq, Muxtar Respublikanın rəsmi adından "sovet sosialist" sözlərini götürülməsi və Azərbaycan Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağını dövlət bayrağı kimi qəbul edilməsinə nail olmuşdur [60; 44; 53; 17, 279; 52; 21, 64-68]. Artıq Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü başlanmışdır. Bu şərəfli yolda qorxub-çəkinmədən irəliləyən Heydər Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı illərdə muxtar respublikanın siyasi, sosial-iqtisadi inkişafının ən çətin bir mərhələsində xalqla bərabər Ermənistanın silahlı təcavüzü və işğal təhlükəsinə qarşı da olmuşdur.

"...Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır..." [40, 770; 26; 50, 127; 21, 64-68].

Heydər Əliyevin ən böyük fəaliyyətlərindən biri də blokada vəziyyətinə düşmüş Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzü və işğal təhlükəsindən xilas etməsi idi [40, 770; 26; 50, 127; 21, 10].

Muxtar respublikada həyata keçirilən demokratik islahatların təsiri altında 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti sessiyasının qərarı ilə ölkə "Azərbaycan Respublikası" adlandırılır [21, 69]. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilir. 1991-ci il oktyabrın 18-dən isə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı yekdilliklə qəbul edilir [9].

Uzun və keşməkeşli bir tarixi inkişaf yolu keçmiş Heydər Əliyev axır ki, illərdən bəri görmək istədiyi müstəqil Azərbaycan dövlətinin öz istiqlalına qovuşmasının şahidi olur. Müstəqilliyin qazanmasının asan olmadığını dərk edən Heydər Əliyev onun qorunmasının da asan olmayacağını yaxşı başa düşürdü. Bu məsələnin nə dərəcədə çətinliyini anlamayan insanlar isə Heydər Əliyev kimi şəxsiyyətin önəmliliyini qəbul etmir, mərkəzi hakimiyyətə isə yaxın buraxmaq belə istəmirdilər.

Heydər Əliyevin mərkəzi hakimiyyətdən uzaq tutulması, dırnaqarası işbaz siyasətçilər tərəfindən ölkə iqtisadiyyatının və siyasi həyatının inkişafının düzgün istiqamətə yönləndirilməməsinə gətirib çıxarır.

Ölkə bütünlüklə xaos içində idi. Bütün bunlar isə erməni silahlı dəstələrinin Dağlıq Qarabağ və ona yaxın ərazilərdə daha da fəallaşması üçün geniş imkanlar açırdı. Ordu quruculuğuna böyük ehtiyac duyulmaqda idi.

1991-ci il avqustun 30-da prezidentin milli ordu deyil, milli qvardiya yaratmaq təklifi Ali Sovetdə qəbul edilməyərək milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında qərar qəbul olunur [10]. Sentyabrın 5-də Müdafiə Nazirliyi təşkil edilərək general Valeh Bərşadlı müdafiə naziri vəzifəsinə təyin olunur [58]. Azərbaycan Respulikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının silahlı qüvvələri haqqında qanun qəbul edir [14; 15]. Qanun və qərarların qəbul edilməsinə baxmayaraq, ordu quruculuğuna lazımi diqqətin yetirilməməsi isə ölkə torpaqlarında erməni terrorizminin misli görünməmiş qırğın və talanlarına geniş vüsət vermişdir. Nizami ordunun 3-4 çağırışda formalaşdırılması və döyüşə tam hazır olmayınca cəbhəyə göndərilməsi, bu vaxta qədər isə yerlərdə könüllü muzdlulardan təşkil edilmiş özünmüdafiə taborlarının fəaliyyəti nəzərdə tutulurdu ki, bütün bunların da səmərəsi olduqca aşağı idi. Noyabrın 19-da 22 rayon və şəhər özünümüdafiə taborunun yaradılması haqqında əmr verildi. [45; 15; 7; 20; 38]. Özünümüdafiə taborlarının komandirləri və onların müavinləri rayonun hərbi komissarları tərəfindən seçilir, icra hakimiyyəti başçısının razılığı ilə Müdafiə Nazirliyi tərəfindən təsdiq edilirdi [45]. Lazımi döyüş qabiliyyəti, təchizatı olmayan və müdafiə taktikasına keçməyə məcbur olan bu özünümüdafiə qüvvələri lazımi səviyyədə silah-

lanmış və təlim görmüş düşmənlə yaxşı vuruşa bilmir, tez-tez baş verən çətin döyüşlər nəticəsində olduqca ağır itkilərə məruz qalırdı. Hərbi hissələrin böyük əksəriyyəti müxtəlif siyasi qüvvələrin, eləcə də pozuculuqla məşğul olan xarici ölkələrin xüsusi idarələrinə işləyən satqınların güclü təsiri dairəsində idi [45].

Ölkə hakimiyyətinin səriştəsiz və siyasətdə delitant insanlar tərəfindən dəfələrlə əldən-ələ keçməsi və ordu quruculuğu sahəsində önəmli qərarların vaxtnda verilməməsi torpaqlarımızın bir-birinin ardınca işğalı ilə nəticələnirdi. Erməni vəhşilikləri susmaq bilmirdi. Xalq böyük fəlakətin yaxınlaşdığını hiss edirdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş imperiyapərəst qüvvələr və onların əlaltıları iqtidarın səriştəsizliyindən məharətlə istifadə edərək ölkəni parçalamağa və vətəndaş müharibəsi törətməyə çalışırdılar.

Ölkənin belə çətin durumu qarşısında xalqın təkid və inadlı tələbindən sonra Heydər Əliyev 1993-cü il iyunun 15-də Bakıya dönür [46; 28]. Elə həmin gün Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin Sədri vəzifəsinə seçir. Ölkədə yaranmış mürəkkəb vəziyyət, Əbülfəz Elçibəyin Naxçıvana getməsi ilə bir qədər də mürəkkəbləşir. İyunun 24-də Milli Məclis yaranmış vəziyyəti müzakirə edərək, respublika prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə verir [48]. Qətiyyətli və inadcıl addımları ilə vətəndaş müharibəsi təhlükəsini tez bir zamanda aradan qaldırmağı bacaran Heydər Əliyev: «Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir» deyərək müstəqil Azərbaycanın təməl bünövrəsini qoyur. 1993-cü il oktyabrın 3-də xalq Heydər Əliyevi alternativ əsaslı, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçir [48].

Ermənistanın dövlət terrorizminin gücləndiyi bir zamanda xalqın iradəsi ilə hakimiyyətə gətirilən Heydər Əliyev tezliklə yeni ordu quruculğuna başlayır. Qarşıya qoyulan məsələlərə görə Heydər Əliyev birinci növbədə respublikanın aparmış olduğu xarici siyasətə yeni düzən verməli, Müdafiə Nazirliyinə tabe olmayan müxtəlif siyasi ambisiyalı, döyüş qabiliyyəti aşağı olan, nizam-intizamsız hərbi hissələri ləğv edərək, güclü nizami ordu yaratmalı idi. Bunun üçünsə ilk olaraq xalqı ayağa qaldıraraq onu birləşdirmək lazım idi.

Heydər Əliyevin bu sahədəki ilk fəaliyyəti 1993-cü il sentyabr-oktyabr aylarında Surət Hüseynov, Əlikram Hümbətov və Rəhim Qazıyevin güclü müqavimətini sındıraraq, onların əllərində cəmləşmiş bütün silah-sursatın və əsgəri heyyətin alınması olur [47; 22; 32, s.161-170].

1993-cü il noyabrın 1-də Prezident Fərmanı ilə təcili şəkildə Dövlət Müdafiə Şurası yaradılır [59]. Onun həmin gün keçirilən ilk iclasında ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olunaraq, müvafiq qərarlar qəbul edilir. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələri şəxsi heyətinin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə istiqamətləndirilmiş tədbirlər müəyyən edilir [59].

Prezident Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət edərək, hamını ölkənin azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırır [22; 49].

Prezidentin çağırışı ilə minlərlə könüllü gənc vətənin torpaqları uğrunda gedən döyüşlərə qatılmaq üçün orduya üz tutur. Tezliklə könüllülərdən ibarət taborlar yaradılaraq cəbhəyə göndərilir [64]. Əfqanıstan müharibəsindən çıxmış bir çox zabit-əsgər heyətinin Prezidentə müraciətindən sonra isə bu təcrübəli döyüşçülərdən ibarət hərbi hissə yaradılır [64].

1993-cü ilin noyabrın 26-da Milli Məclis "Müdafiə haqqında" qanun qəbul edir [8]. Qanunda ordu quruculuğunda məsul vəzifəli şəxs və orqanların fəaliyyəti sistemləşdirilərək, məsuliyyət sahələri dəqiqləşdirilir. Noyabr-dekabr aylarında 16, 7 min döyüşçüsü olan 40 ehtiyat taboru təşkil edilir [27]. Bütün bunlarla yanşı prezident şəxsən cəbhə bölgələrində ordunun, əsgərlərin vəziyyəti ilə yaxından tanış olur, konkret tədbirlər müəyyənləşdirir, vəziyyətə uyğun çevik qərarlar qəbul edirdi.

Bu əsnada Səhra Cəbhə İdarəsi və 33 köhnə başıpozuq hərbi hissə tamamilə ləğv edilir. Bunların yerinə isə 36 yeni tabor təşkil edilərək, səmərəli hərbi təlimlər üçün proqramlar hazırlanmağa başlayır [17, 270]. Ordunun bütün döyüş hazırlığının yüksəldilməsi işi bilavasitə dövlət başçısının ciddi nəzarəti altına alınır. 1994-cü ilin sonunda milli ordunun sıralarında 54 min əsgər və zabit qulluq göstərirdi. Silahlı qüvvələrin bazası durmadan möhkəmləndirilirdi [17, 270].

Bütün bunların nəticəsi olaraq Azərbaycan ordusu erməni silahlı birləşmələrinin respublikanın içərilərinə doğru hücumunu dayandıraraq, hətta əks-hücuma keçib 1994-cü il yanvarın 5-də müvəffəqiyyətli əməliyyatlar nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsini, 22 kəndi işğaldan azad edə bilir [71]. Qısa zaman kəsiyində hücumunu genişləndirən Azərbaycan ordusu Cəb-

rayıl rayonu ərazisinin bir hissəsini, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çənli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı kimi yaşayış məntəqələrini düşmən işğalından tamamilə azad edir [30]. Düşmən Kəlbəcər-Ağdərə, Goranboy-Tərtər istiqamətlərində aparılan hərbi əməliyyatlarda ağır itkilərlə geri çəkilməkdə idi.

Azərbaycan ordusunun inadla irəliləməsi Ermənistan tərəfi ilə yanaşı, müttəfiqi olan o zamankı Rusiya hakimiyyətini də durmadan narahat etməyə başlamışdı. Regionda formalaşmış yeni geosiyasi reallıqları nəzərə alan Heydər Əliyev Azərbaycanın suverenliyinə hörmət çərçivəsində qonşu Rusiyanın atəşkəsə nail olmaq sahəsində səylərinə cavab olaraq 1994-cü il mayın 8-də nəhayət ki, münaqişədə iştirak edənlər arasında Bişkek protokolunun imzalanmasına razılıq verir [19]. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olunur [19].

Əslində Heydər Əliyevin Bişkek protokuluna imza atmasına razılıq verməsi ölkə daxilində və ölkə xaricində bir sıra uğurlu siyasətə hesablanmış bir addım idi. Ölkənin müharibə şəraitində olduğunu anlayan Heydər Əliyev, hərbi qüdrətin artırılması üçün dağınıq vəziyyətdə olan ölkə iqtisadiyyatının dirçəldilməsinin vacib olduğunu daha yaxşı başa düşürdü. Digər tərəfdən ölkənin beynəlxalq miqyasda tanınmağa və müttəfiq axtarışına da ehtiyacı duyulurdu.

Heydər Əliyev neft amilinin Azərbaycan üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyini və Azərbaycanın beynəlxalq aləmdəki mövqeyinə məhz neft amilinin təsir edə biləcəyini yaxşı bilirdi. Onun fikrincə, Azərbaycanın milli sərvəti sayılan neft nəinki iqtisadi, habelə siyasi məqsədlər üçün də istifadə oluna bilərdi.

Əlbəttə ki, neft diplomatiyasında əsas mənfəət kimi həm də Qarabağ probleminin Azərbaycanın xeyrinə həll olunması məsələsi dururdu.

Uzun sürən və çətin həllini tapan danışıqlardan sonra nəhayət ki, Heydər Əliyev 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail olur [37]. Məhz "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, onun beynəlxalq əlaqələrinin genişlənməsində, dünyanın mühüm dövlətlərinin Azərbaycanda maraqlarının formalaşmasında, Azərbaycanın müstəqil dövlət kimi dünya birliyinə inteqrasiyası prosesində mühüm bir mərhələnin əsasını qoymuş olur. Artıq müəyyən bir mərhələdən sonra Azərbaycana neft gəlirlərinin axını lazımi ordunun təşkil olunması üçün ən real vasitəyə çevriləcək idi.

Neft məsələsinin gündəmə gətirilməsi Azərbaycana nəinki iqtisadi baxımdan dvidentlər gətirdi, o həmçinin görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizə yaxın dostlar və müttəfiqlər də qazandırmış oldu. 1996-1997- ci illərdə Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukrayna arasında strateji əməkdaşlıq haqqında sazişlər bağlandı [33, 66; 4]. 1997- ci il oktyabrın 10-da isə Strasburqda GUAM regional təşkilatının təşkilini bəyan edən sazişə imza atıldı [33, 66].

90-cı illərin ortalarından etibarən Heydər Əliyevin ordu quruculuğu ilə bağlı planları durmadan reallaşmağa başlayır.

Ordunun möhkəmləndirilməsi, NATO-ya tərəf əməli addımların atılmasını da tələb edirdi. 1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edən "Sülh Naminə Tərəfdaşlıq Proqramı"nı qəbul edir. Həmin ilin may ayının 4-də Prezident Heydər Əliyev bu proqramın Çərçivə sənədinə imza atır [13].

Heydər Əliyev hərbi gücün artırılması üçün yeni texnikalar və yeni silahlar alaraq ölkənin hərbi qüdrətini durmadan yeniləyir, yeni-yeni hərbi tipli məktəblərin, müxtəlif ixtisaslı hərbi mərkəzlərin açılması üçün sərəncamlar verirdi. 1993-cü ildə ölkə tarixində ilk dəfə olaraq Hərbi Hava Qüvvələrinin tərkibində Uçuş Hazırlığının Təlim Mərkəzi yaradılmışdır [43] ki, sonradan bu mərkəz Prezidentin 20 avqust 2001-ci il tarixli 168 saylı sərəncamına əsasən Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən və ali hərbi təhsil verən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır [2].

1996-cı ildə Azərbaycan Hərbi Dəniz Qüvvələri üçün daha yüksək səviyyəli mütəxəssislərin hazırlanması üçün Bakı Ali Hərbi Dənizçilik Məktəbinin bazasında Azərbaycan Dövlət Dəniz Akademiyası yaradılır [3] ki, sonradan bu akademiyanın adı Prezdentin fərmanı ilə dəyişdirilərək Azərbaycan Ali Hərbi Dənizçilik məktəbi adlandırılmışdı [3].

Bu dövrdə ordu quruculuğunun əsas tərkib hissəsi olan hərbi təhsil, ixtisaslı hərbi kadrların hazırlanması prosesi də daim diqqət mərkəzində olmuşdu. Belə ki, əsası Naxçıvanski adına hərbi lisey-

lə qoyulan hərbi təhsil müəssisələrimizin sayı, nüfuzlu ali hərbi təhsil ocaqları hesabına daha da genişlənməkdə idi. Təsadüfü deyildir ki, ordu quruculuğu sahəsində atılmış ən mühüm addımlardan bir məhz 1997-ci ildə Azərbaycan Ali Hərbi Məktəbin yaradılması olmuşdur [2].

Zabit-əsgər heyətinin yenilənməsi işinə də hər zaman diqqət ayıran Heydər Əliyev müxtəlif zamanlarda ölkədaxili hərbi məktəblərə baş çəkir, hazırlanmış yüksək ixtisaslı kadr heyyətini daha yüksək biliklərlə təmin olunması üçün onları xaricə - Türkiyəyə, Rusiyaya, Ukraynaya, Pakistana, Çinə və digər ölkələrə hərb elminin müxtəlif ixtisaslarına dərindən yiyələnmək üçün göndərirdi [5; 6].

Xaricdə keyfiyyətli hərbi təhsil almaları ilə yanaşı Azərbaycan hərbiçiləri mütəmadi olaraq NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirdilər [5].

Azərbaycanın NATO ilə əlaqələrini durmadan genişlənməsi tərəflər arasında bu əlaqələrin "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində də inkişafı üçün zəmin yaratmış olur ki, bu da ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl demək idi [5].

Getdikcə Respublikada Hərbi Akademiyasının yaradılmasına böyük ehtiyac duyulmaqda idi. Respublikanın Müdafiə Naziri tərəfindən vəsadət qaldırıldıqdan sonra Respublika Prezidenti Heydər Əliyevin 20 fevral 1999-cu il tarixli fərmanı ilə Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması haqqında sərəncam verilir [34]. Prezidentin fərmanından 2 gün sonra Müdafiə Nazirinin 22 fevral 1999-cu il fərmanı ilə Hərbi Akademiyanın nəzdində Hərbi Diplomatiya kursu və Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursu yaradılır [29].

Prezidentin 20 avqust 2001-ci il tarixli fərmanı ilə isə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədi ilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edilir [61; 25].

Beləcə respublikanın hərbi qüdrəti durmadan yüksəlir, yeni-yeni nailiyyətlərə imza atılırdı.

***Nəticə***. Çox əlamətdar haldır ki, bütün həyatını xalqına, onun xoşbəxt gələcəyinin qurulması naminə sərf edən Heydər Əliyev, Azərbaycanın qüdrətli hərbi qüvvələrinin təşkili üçün də əlindən gələni əsirgəməyərək ömrünün sonuna kimi orduya, hərbi kadrlara böyük diqqət yetirdi, özünün son kütləvi görüşlərindən birini də məhz hərbi orta məktəbin müdavimləri ilə keçirdi [12].

Azərbaycanlılığı ilə bütün ömrü boyu fəxr etmiş dahi bir şəxsiyyət olan Heydər Əliyev siyasətini bu gün də uğurla davam etdirən Azərbaycan Respublikası Prezidenti İlham Heydər oğlu Əliyev orduya, hərbi quruculuğa böyük önəm verərək, ölkəni regionun super güclərindən birinə çevirməyə müyəssər olmuşdur. Qeyd etmək lazımdır ki, Cənab Prezident işğal altında olan torpaqlarımızın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, sülh yolu ilə azad edilməsi xəttini Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biri olaraq bəyan etsə də, belə bir sülhpərvər siyasətə rəğmən o, həm də hər il müdafiə xərclərinin artırılmasına, Silahlı Qüvvələrin müasir cəbbəxana və modern texnika ilə təchiz edilməsinə də xüsusi diqqət yetirmişdir. Çünki, söhbət müstəqil dövlətin ərazi bütövlüyünün bərpasından, yurd-yuvasından didərgin düşən Azərbaycan vətəndaşının öz doğma torpaqlarında yaşamaq istəyi kimi təbii hüquqlarının təmin olunmasından gedirdi. Sirr deyil ki, Azərbaycan bu gün regionun aparıcı siyasi-iqtisadi nüfuz və güc sahibi olmaqla yanaşı, hərbi müstəvidə də əsas söz sahibidir. Bu gün qürür duyucu haldır ki, Hərbi təhsil və hərbi səhiyyə ilə yanaşı hərbi sənaye də davamlı bir şəkildə inkişaf etdirilir [51].

## ƏDƏBİYYAT


1. Axundova E. Şəxsiyyət və zaman 1969-1982 (II hissə). Bakı: Ozan, 2007, 784 s.
2. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasim Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir. AzərTac 27.07.2002. - https://azertag.az/xeber/AZARBAYCAN_ALI_HARBI_MAKTABI_VA_ALI_HARBI_TAYYARACHILIK_MAKTABI_MAZUNLARININ_BURAXILISINA_HASR_OLUNMUS_MARASIM__AZARBAYCAN_PREZIDENTI_HEYDAR_ALIYEV_MARASIMDA_ISTIRAK_ETMISDIR-965179 [Müraciət tarixi: 5.06.2022].
3. Azərbaycan Dövlət Dəniz Akademiyasına gedən yol. - http://adda.edu.az/az/content/1[Müraciət tarixi: 5.06.2022].

4. Azərbaycan-Gürcüstan münasibətləri / "Heydər Əliyev irsi" Beynəlxalq Elektron kitabxana. - https://lib.aliyevheritage.org/az/1407885.html [Müraciət tarixi: 5.06.2022].
5. Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən qüdrətli ordusudur. Yeni Azərbaycan, 2014, 26 iyun, s.4. - http://anl.az/down/meqale/yeni_az/2014/iyun/379625.htm [Müraciət tarixi: 5.06.2022].
6. Azərbaycan Ordusunun hərbi təhsil sistemi. - https://mod.gov.az/az/azerbaycan-ordu sunun-herbi-tehsil-sistemi-326/ [Müraciət tarixi: 5.06.2022].
7. Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi. 30 oktyabr, 2019. - https://mod.gov.az/az/pre/29025.html [Müraciət tarixi: 5.06.2022].
8. Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi. 6 oktyabr, 2018. - https://mod.gov.az/az/pre/24440.html [Müraciət tarixi: 5.06.2022].
9. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. - https://az.wikipedia.org/wiki/Azərbaycan_Respublikasının_Dövlət_Müstəqilliyi_haqqında_Konstitusiya_Aktı [Müraciət tarixi: 5.06.2022].
10. Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı Bakı şəhəri, 30 avqust 1991-ci il, № 182-XII. - https://e-qanun.az/framework/6594 [Müraciət tarixi: 5.06.2022].
11. Azərbaycan Respublikasının Müdafiə Şurası haqqında Əsasnamə barəsində Azərbaycan Respublikasının Ali Sovetinin qərarı. - https://e-qanun.az/framework /6688 [Müraciət tarixi: 5.06.2022].
12. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitqi - 17 iyun 2002-ci//"Heydər Əliyev irsi" Beynəlxalq Elektron kitabxana. - https://lib.aliyevheritage.org/az/943664.html [Müraciət tarixi: 5.06.2022].
13. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin **"**Sülh naminə tərəfdaşlıq**"** çərçivə sənədinin imzalanma mərasimində bəyanatı - Brüssel, NATO-nun iqamətgahı, 4 May 1994-cü il. Azərbaycanın NATO yanında nümayəndəliyi. 2010-05-04. - https:// nato-pfp.mfa.gov.az/az/news/3111/azerbaycan-respublikasinin-prezidenti-heyder-eliyevin-sulh -namine-terefdasliq-cercive-senedinin-imzalanma-merasiminde-beyanati-brussel-nato-nu n-iqametgahi-4-may-1994-cu-il [Müraciət tarixi: 5.06.2022].
14. Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü. - https://az.wikipedia.org/wiki/Azərbaycan_Respublikası_Silahlı_Qüvvələri_günü [Müraciət tarixi: 5.06.2022].
15. Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında Azərbaycan Respublikasının qanunu. - https://e-qanun.az/framework/6681[Müraciət tarixi: 5.06.2022].
16. Azərbaycan SSR Ali Soveti (1920-1991-ci illər). - https://www.meclis.gov.az/ news-az.php?id=15&lang=az [Müraciət tarixi: 5.06.2022].
17. Azərbaycan tarixi. 7 cilddə. VII cild (1941-2002-ci illər). Bakı, Elm, 2008, 608 s.
18. Azərbaycanlıların soyqırımı və deportasiyası. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası. - https://files.preslib.az/ projects/azer baijan/gl7.pdf [Müraciət tarixi: 5.06.2022].
19. Bişkek protokolu: Atəşkəs razılaşmasından 23 il keçir. AzVision.az, 12 May 2017. - https://azvision.az/news/117248/biskek-protokolu--ateskes-razilasmasindan-23-il-kecir.html [Müraciət tarixi: 5.06.2022].
20. Bu gün Milli Qəhrəman Şirin Mirzəyevin doğum günüdür. 05/01/2022. - http://az.baku-art.com/az/bu-gun-milli-qehreman-shirin-mirz-yevin-dogum-g-n-d-r [Müraciət tarixi: 5.06.2022].
21. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2015, 232 s.
22. Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması. - https://republic.preslib. az/az_a3.html [Müraciət tarixi: 5.06.2022].
23. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. - https://youthfoundation.az/about-us/azərbaycan/ermənistan-azərbaycan-dagliq-qarabag-munaqisəsi/ [Müraciət tarixi: 5.06.2022].
24. Əliyeva İ. Minnətdarlıq abidəsi / Azərbaycan qəzeti. - https://www.azerbaijan-news. az/posts/detail/minnetdarliq-abidesi-197847 [Müraciət tarixi: 5.06.2022].

25. General-leytenant Arzu Rəhimov: "hərbi xidmətə çağırış sistemində vahid elektron informasiya sistemi yaradılır" / Poliqon, 14 İyun 2013. - https://poliqon.az/general-leytenant-arzu-rhimov-hrbi-xidmt-cagiris-sistemind-vahid-elektron-informasiya-sistemi-yaradilir/ [Müraciət tarixi: 5.06.2022].
26. Hacıyev İ. Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılması Azərbaycanın tarixi nailiyyətidir. Azərbaycan. 2009. 21 iyul, s.4. - http://anl.az/ down/meqale/azer baycan/azerbaycan_iyul2009/86846.htm [Müraciət tarixi: 5.06.2022].
27. Hacıyev İ. Zaman xalqın müdrik seçiminin düzgünlüyünü dönə-dönə təsdiqləyib / Xalq qəzeti, 11 Oktyabr 2019. - https://xalqqazeti.com/az/news/32189 [Müraciət tarixi: 5.06.2022].
28. Heydər Əliyev 15 iyunda Azərbaycanı xaosdan və qardaş qırğınından qurtardı / Səs, 2010, 12 iyun, s.7. - http://anl.az/down/meqale/ses/2010/iyun/123909.htm [Müraciət tarixi: 5.06.2022].
29. Hərbi Akademiyanın rəisi: "Prezidentin qarşımıza qoyduğu məsələ xaricdən asılılığı aradan qaldırmaqdır": Müsahibə. Strateq.az, 18 mart 2019. - https://teref.az/musahibe/112749-herbi-akademiyanin-reisiprezidentin-qarsimiza-qoydugu-mesele-xaricden [Müraciət tarixi: 5.06.2022].
30. Horadiz əməliyyatından 23 il ötür / Səs qəzeti, 5 yanvar 2017. - https://sesqazeti. az/news/social/585777.html [Müraciət tarixi: 5.06.2022].
31. "Humanite"də Qarabağ davasını salan bədnam yazı – 35 il əvvəl Qorbaçovun müşaviri nə demişdi? Tarix (foto). 09.02.2022. - https://azpost.info/humanited% C9%99-qarabag-davasini-salan-b%C9%99dnam-yazi/ [Müraciət tarixi: 5.06.2022].
32. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004, 472 s.
33. Xəlilova H. GUAM çərçivəsində Azərbaycan Ukrayna münasibətləri // Uluslararası Türk Dünyası Araştırmaları Dergisi Cilt: 1, Sayı: 1 - Temmuz 2018. - https://dergipark. org.tr/en/download/article-file/513865 [Müraciət tarixi: 5.06.2022].
34. İxtisaslaşdırılmış hərbi ali təhsil müəssisələri. - https://www.seferberlik.gov.az/az/ military/menu/detail/249 [Müraciət tarixi: 5.06.2022].
35. İsmayılbəyli S. 416-cı Azərbaycan diviziyasının xatirəsinə ucaldılmış abidənin açılış mərasimi keçirilib. Olaylar, 2012, 12-14 may, s.15. - http://anl.az/down/meqale/olaylar/ 2012/may/251324.htm [Müraciət tarixi: 5.06.2022].
36. İsmayılqızı X. 22 iyul, 1990-cı il: Azərbaycanın dövlət müstəqilliyinin əbədiyyət tarixi. İki sahil qəzeti, 27 may 2022. - https://ikisahil.az/post/ 315065-22-iyul-1990-ci-il-azerbaycanin-dovlet-musteqilliyinin-ebediyyet-tarixi [Müraciət tarixi: 5.06.2022].
37. Keçmiş ABŞ səfiri: ""Əsrin Müqaviləsi"ni reallaşdırmağa qadir olan yeganə şəxs Heydər Əliyev olub" BBC News, 20 Sentyabr 2019. - https://www.bbc.com/azeri/azer baijan-49738435 [Müraciət tarixi: 5.06.2022].
38. Qarabağ müharibəsində Azərbaycan ərazi özünümüdafiə batalyonlarının siyahısı. - https://az.wikipedia.org/wiki/Qarabağ_müharibəsində_Azərbaycan_ərazi_özünümüdafiə_batalyonlarının_siyahısı [Müraciət tarixi: 5.06.2022].
39. Qara Yanvar. - https://az.wikipedia.org/wiki/Qara_Yanvar [Müraciət tarixi: 5.06.2022].
40. Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakr: Azərbaycan, 1996, 780 s.
41. Qurbanov İ. Azərbaycanda təhsilin inkişafında Heydər Əliyev fenomeni: Ulu öndərin ideyaları yaşayır və qalib gəlir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətən müharibəsində qazandığımız tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir" mövzusunda Elmi-nəzəri konfransın materialları. 4 may 2021-ci il, s. 9-11. - https://mdu.edu.az/images/pdf/Konfrans230620 21.pdf [Müraciət tarixi: 5.06.2022].
42. Mahmudov Y. Tariximizin dirçəliş konsepsiyasının müəllifi / Azərbaycan, 2015, 9 may, № 99, s.9-11.
43. Məmmədov M. Hərbi təhsil ordu quruculuğunda təməl daşıdır. Missiya az, 24-06-2022. - https://missiya.az/20131-herbi-tehsil-ordu-quruculugunun-temel-dasidir.html [Müraciət tarixi: 5.06.2022].
44. Məmmədov M. Naxçıvandan başlanan yol: 20 il əvvəl muxtar respublikanın Ali Məclisi SSRİ-nin saxlanmasına dair keçirilən ümumittifaq referendumunda Naxçıvan MR-in iştirak etməməsi barədə qərar qəbul etmişdir. Azərbaycan, 2011.-13 mart, s.3. - http://www.anl.az/down/meqale/azerbaycan/2011/mart/163149.htm [Müraciət tarixi: 5.06.2022].

45. Məmmədov N. Birinci Qarabağ müharibəsində müvəqqəti məğlubiyyətimizin səbəbləri və ibrət dərsləri. Kredo qəzeti, 15 may, 2020-ci il. - http://www.anl. az/down/ meqale/kredo/2020/may/707861(meqale).pdf [Müraciət tarixi: 5.06.2022].
46. Milli Qurtuluş Günü: Əsası 1993-cü il iyunun 15-də qoyulan inkişaf və zəfər yolu. 15.06.2021. - // https://azertag.az/xeber/Milli_Qurtulus_Gunu_Asasi _1993_cu_il_ iyunun_15_de_qoyulan_inkisaf_ve_zefer_yolu-1807147 [Müraciət tarixi: 5.06.2022].
47. 1993 – Gəncə hadisələri. Azərbaycan televiziyası 1993-cü il Gəncə hadisələrinə həsr olunmuş verilişlər hazırlamışdır. İyunun 4-də efirə getmiş birinci verilişin mətnini oxuculara təqdim edirik. 05.06.2002. - https://azertag.az/xeber/1993___GAN CA_HADISALARI__Azerbaycan_televiziyasi_1993_cu_il_Gence_hadiselerine_hesr_olunmus_veri lisler_hazirlamisdir_Iyunun_4_de_efire_getmis_birinci_verilisin_metninio xuculara_teqdim_edirik-962765 [Müraciət tarixi: 5.06.2022].
48. Mirzəyev S., Qaibov M. Heydər Əliyev və Azərbaycan Parlamenti. (Heydər Əliyev xatirə zalının materiallarından). - https://www.meclis.gov.az/news-az.php?id=16&lang =az [Müraciət tarixi: 5.06.2022].
49. Mirzəzadə A. Güclü və modern Azərbaycan ordusu Heydər Əliyev siyasətinin nəticəsidir. Azərbaycan, 2010, 11 aprel, s.2. - http://anl.az/down/meqale/azerbaycan/ 2010/aprel/114815.htm [Müraciət tarixi: 5.06.2022].
50. Muxtarlı Ə. Muxtariyyətə gedən yol: tarix və müasirlik. Tarix və onun problemləri, № 2, 2014, s.125-130. - http://static.bsu.az/w8/Tarix% 20ve%20onun%20problem/2014%20%20%202/18%20%20ƏLaKBəR%20cABBARLI.pdf [Müraciət tarixi: 5.06.2022].
51. Müdafiə sənayesinin inkişafı ölkəmizin hərbi qüdrətini daim gücləndirir. Azərbaycan, 29 mart 2011, s.1. - http://www.anl.az/down/meqale/azerbaycan/2011/ mart/164965.htm [Müraciət tarixi: 5.06.2022].
52. Naxçıvan MR Heydər Əliyev dövründə. - https://www.azerbaijans.com/content _764_az.html [Müraciət tarixi: 5.06.2022].
53. Naxçıvandan başlanan müstəqillik yolu. AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu / Səs, 2015. 4 sentyabr. № 163. s.4-5. - https://files. preslib. az/projects/toplu/v2/f6_2_2.pdf [Müraciət tarixi: 5.06.2022].
54. Naxçıvanın qeyrət qalası. Sədərək, 8 iyul 2020. - https://mod.gov.az/az/pre/ 31407.html [Müraciət tarixi: 5.06.2022].
55. Nuriyev A. Bir şəklin izi ilə: Araşdırma. Ukrayna-Azərbaycan Dostluğunun tarixçəsi. 21.10.20. - https://525.az/news/153123-bir-seklin-izi-ile-arasdirma [Müraciət tarixi: 5.06.2022].
56. 14 iyul 1969-cu il: Tərəqqi yolunun başlanğıcı, müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün. 14 İyul. - https://aztv.az/az/news/512/ 14-iyul-1969-cu-il-tereqqi-yolunun-baslangici-musteqil-ve-qudretli-azerbaycan-dovletinin-temel inin-qoyuldugu-gun [Müraciət tarixi: 5.06.2022].
57. 14 iyul 1969-cu il: Tərəqqi yolunun başlanğıcı, müstəqil və qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün. 14.07.2019. - https://azertag.az/xeber /14_ iyul_1969_cu_il_Tereqqi_yolunun_baslangici_musteqil_ve_qudretli_Azerbaycan_dovl etinin_temelinin_qoyuldugu_gun-1305976 [Müraciət tarixi: 5.06.2022].
58. Polkovnik Ramiz Məmmədov general-leytenant Valeh Bərşadlı barədə yazdı. 07 İyul 2020. - https://azeridefence.com/polkovnik-ramiz-m%C9%99mm%C9%99 dov-general-leytenant-valeh-b%C9%99rsadli-bar%C9%99d%C9%99-yazdi/ [Müraciət tarixi: 5.06.2022].
59. Rüstəmov İ. Ordu quruculuğunda yeni mərhələ. Xalq qəzeti, 2010, 23 fevral. s.3. - http://www.anl.az/down/meqale/xalqqazeti/2010/fevral/108370.htm [Müraciət tarixi: 5.06.2022].
60. Sadıqoğlu A. Heydər Əliyevin böyük siyasətə qayıdışı. 07.05.2013. - https://azertag.az/xeber/Heyder_Aliyevin_boyuk_siyasete_qayidisi-212145 [Müraciət tarixi: 5.06.2022].

61. Samin Ə. Bundan sonra da Ordumuzun güclənməsi üçün addımlar atılacaq / İki sahil, 30 iyun 2022. - http://ikisahil.az/post/325562-bundan-sonra-da-ordumuzun-guclen mesi-uchun-addimlar-atilacaq [Müraciət tarixi: 5.06.2022].
62. Seyidov M., Rzayev M. Zamanı qabaqlayan dahi. Bakı, Vektor nəşrlər evi, 2008, 315 s.
63. SSRİ-də Qarabağ davasının səbəbkarı Abel Aqanbekyan: "Heç nə bilmirəm... Xatırlamıram... Belə suallar verməyin!" (Müsahibə). 29.09.2021. - https://azpost. info/ssri-d%C9%99-qarabag-davasinin-s%C9%99b%C9%99bkari-abel-aqanbekyan/ [Müraciət tarixi: 5.06.2022].
64. Süleymanov M. Müstəqil Azərbaycanın ordu quruculuğunda əsaslı dönüşün başlanğıcı: Ümummilli lider Heydər Əliyevin xalqa müraciətindən 25 il ötür. Xalq qəzeti, 2 noyabr 2018, № 247, s.3. - https://www.elibrary.az/docs/qazet/qzt2018 _5403.htm [Müraciət tarixi: 5.06.2022].
65. Taqanroqda azərbaycanlı əsgərlərin xatirəsinə Şöhrət Memorialının təntənəli açılışı olmuşdur. 2012-05-10. - https://special.azertag.az/az/xeber/171769 [Müraciət tarixi: 5.06.2022].
66. Tarixi ədalətin susduğu gün– 20 Yanvar faciəsi. 19.01.2022. - https://tehsil. biz/news/az/31647/Tarixi-daltin-susduu-gn-20-Yanvar-facisi [Müraciət tarixi: 5.06.2022].
67. Umudlu İ. Xaricdəki abidələrimiz- həssas yerimiz. Ayna, 10 oktyabr 2009. s.4. - http://www.anl.az/down/meqale/ayna/ayna_oktyabr2009/92155.htm [Müraciət tarixi: 5.06.2022].
68. Ümummilli lider Heydər Əlirza oğlu Əliyev. - https://nk.gov.az/az/page/33/ [Müraciət tarixi: 5.06.2022].
69. Ümummilli lider Heydər Əliyev: Naxçıvanski adına lisey mənim üçün bir övladdır. 20 aprel 2019. - https://mod.gov.az/az/pre/26536.html [Müraciət tarixi: 5.06.2022].
70. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən 50 il ötür. 14 İyul 2019. - https://sia.az/az/news/politics/750039.html [Müraciət tarixi: 5.06.2022].
71. Verdiyev Ə. Füzulinin strateji əhəmiyyətinə baxış (hərbi ekspert) 03 oktyabr 2020. - https://ordu.az/az/news/173141/fuzulinin-strateji-ehemiyyetine-baxis-herbi-ekspert [Müraciət tarixi: 5.06.2022].

**АЗИЗАГА ГАНИ-ЗАДЕ**
*Диссертант Национального университета обороны МО Азербайджанской Республики*

## РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В СТРОИТЕЛЬСТВЕ АРМИИ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНА

В статье на основе авторитетных источников и литературы изучена неоценимая деятельность общенационального лидера нашего народа Гейдара Алиева, вновь избранного руководителем Азербайджанской Республики в октябре 1993 года, в области строительства армии в нашей стране до 2003 года. В статье отражены теоретические основы формирования и укрепления великим лидером обороноспособности армии, управляемой из единого командования, во имя обеспечения независимости, территориальной целостности и неприкосновенности границ Азербайджана.

Гейдар Алиев, пришедший к власти по воле народа в период усиления государственного терроризма в Армении, вскоре приступает к созданию новой армии. В первую очередь великий вождь дает новый порядок внешней политике и создает сильную регулярную армию. Постоянно наращивая экономическую мощь страны, он проводит планомерную политику в области укрепления материально-технической базы армии.

*Ключевые слова*: независимость, армейское строительство, война, единое командование, успех на фронте, перемирие.

**AZIZAGA GANI-ZADE**
*Dissertation student of the National Defense University of the Ministry of Defense of the Republic of Azerbaijan*

## THE ROLE OF NATIONAL LEADER HEYDAR ALIYEV IN BUILDING THE ARMY OF MODERN AZERBAIJAN

Based on authoritative sources and literature, the article studies the invaluable activity of the national leader of our people, Heydar Aliyev, who was newly elected head of the Republic of Azerbaijan in October 1993, in the field of army building in our country until 2003. The article reflects the theoretical foundations of the formation and strengthening by the great leader of the defense capability of the army, controlled from a single command, in the name of ensuring the independence, territorial integrity and inviolability of the borders of Azerbaijan.

Heydar Aliyev, who came to power at the will of the people during the period of increasing state terrorism in Armenia, will soon begin to create a new army. First of all, the great leader gives a new order to foreign policy and creates a strong regular army. Constantly increasing the economic power of the country, he pursues a systematic policy in the field of strengthening the material and technical base of the army.

*Keywords:* independence, army building, war, unified command, success at the front, truce.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Nurulla Əliyev, t.e.d. Qabil Əliyev.*

**UOT 32:93/94**

**PƏRVİN SADIQOVA**
*Bakı Slavyan Universitetinin baş müəllimi*
**sadigovapervin20@gmail.com**

# YAXIN ŞƏRQDƏ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ TÜRKİYƏNİN ƏRƏB BAHARINDAN SONRA LİVİYADA BAŞ VERƏNLƏRƏ TƏSİR İMKANLARI

*"Ərəb baharı" bütün təzahürləri ilə regional ölkələrinin milli təhlükəsizliyini təhdid ünsürünə çevirmişdir. Bütün bu illər ərzində region dövlətlərin zəifləməsindən istifadə edən terror təşkilatları qeyri-sabitliyi fürsət bilərək fəaliyyət sahələrini genişləndirmiş, Türkiyə Cumhuriyyəti də daxil olmaqla, Yaxın Şərq regionun bütün dövlətlərini terror təhdidi ilə üz-üzə qoymuşdur. Bütün bu qeyri-müəyyənlik nəticəsində 12 ildir ki Liviyada davam edən radikal qarşıdurmalar Liviya xalqını çox ciddi sosial, siyasi və iqtisadi təhlükəsizlik problemləri ilə üz-üzə qoymaqdadır. Türkiyənin Yaxın Şərq regionunu ilə tarixi, coğrafi və dini yaxınlığı problemləri daha adekvat dəyərləndirmək və həll yollarını müəyyən etmək imkanlarına malik olmasından xəbər verir. Bütün bu dəyərləndirmələr ərəb baharından sonra Türkiyənin regionda önəminin artmasından və regionun təhlükəsizlik problemlərinin həllində oynayacağı rolun bütün region ölkələri üçün önəmindən xəbər verir.*

*Açar sözlər*: Yaxın Şərq, "Ərəb baharı", Liviya böhranı, Türkiyə-Liviya əlaqələri.

***Giriş***. Soyuq müharibənin sona çatması ilə dövlət mərkəzli münaqişə və təhlükəsizlik anlayışları insan mərkəzli mübahisərlə əvəz olunmağa başladı. Ənənəvi təhlükəsizlik konsepsiyaları dövlət mərkəzli idi və dövlətin müstəqilliyi, suverenliyi üzərində legitimliyi qorumağı müdafiə edirdi. Əlbəttə ki, dövlət mərkəzli təhlil öz dominant mövqeyini qoruyub saxlayır, lakin artıq insan təhlükəsizliyi məsələləri müzakirə obyektinə çevrilməkdədir (4).

Müasir dövrdə internet amilinin cəmiyyətə təsiri, ictimai rəyin manipulyasiya edilməsi və eləcə də siyasi məqsədlərlə insan kütlələrinin idarəetmə imkanları əhəmiyyətli dərəcədə güclənmişdir (8).

Rəqəmsallaşan dünyada dövlət daxili məsələlərinin geniş insan kütlələrinə sürətlə yayılmasının şahidi oluruq. Bu məsələlərin ictimai qınağa bəzən isə kütləvi etirazlara səbəb olması müasir beynəlxalq münasibətlərdə tez-tez rast gəlinən hala çevrilməkdədir. BMT, NATO kimi qurumların insan təhlükəsizliyini təmin etmək naminə dövlətlərə müdaxilə məsələsinə "demokratikləşmə dalğası na verilən dəstək, yoxsa dövlətlərin süverenlyinin əlindən alınması kimi qiymətləndirilməsinə müxtəlif yanaşmalar mövcuddur.

2010-cu il 18 dekabrda Tunisdə bir satıcının polis tərəfindən təhqir edilməsinə etiraz əlaməti olaraq özünü yandırması çox qısa bir zaman ərzində Tunus və Misirdə kütləvi etirazlara səbəb olmuş, "ərəb baharı" deyə adlandırılan bu proseslər çox sürətlə Yaxın Şərqin və Şimali Afrikanın digər ərəb ölkələrinə də yayılmışdır. Bu etirazların bir çoxu beynəlxalq müdaxilə ilə nəticələnmiş, milyonlarla insanın ölümünə, yaşayış yerini tərk etməsinə və region əhalisini ciddi sosial-iqtisadi, humanitar çətinliklərlə üz-üzə qalmasına səbəb olmuşdur. Regionda qlobal təşkilatlar və beynəlxalq münasibətlərin əsas aktorları tərəfindən dəstəklənən siyasi hakimiyyət mübarizələri bugün də davam etməkdədir.

Beynəlxalq Valyuta Fondunun hesablamalarına əsasən, 2010-2011-ci illərdə "ərəb baharı" region ölkələrində siyasi iqtisadi və müxtəlif səpkili iktilərə səbəb olmuş, ümumilikdə 55 milyard dollara başa gəlmişdir.

HSBC bankı isə 2014-cü ildə oxşar bir hesabat dərc etmişdir. Hesabatda Misir, Tunis, Liviya, Suriya, İordaniya, Bəhreyn və Livanın öz ümumi daxili məhsullarının 35%-ni itirdiyini, ümumilikdə, ərəb baharının regionun 17 dövlətinə 800 milyard dollar zərər verdiyini açıqlamışdır. Təkcə 2011-ci ildə baş verən hadisələr zamanı Avropa Birliyinə 140 min insanın axın etdiyi, bu illər ərzində Avropa Birliyinə gələn miqrantların sayının milyonlarla olduğu statistik araşdırmalarla ortaya qoyulmuşdur (11).

"Ərəb baharı" bütün təzahürləri ilə regional ölkələrinin milli təhlükəsizliyini təhdid ünsürünə çevirmişdir. Bütün bu illər ərzində region dövlətlərin zəifləməsindən istifadə edən terror təşkilatları

qeyri-sabitliyi fürsət bilərək fəaliyyət sahələrini genişləndirdilər. Türkiyə Cümhuriyyəti regionun ən çox terror təhdidə məruz qalan dövlətlərindən birinə çevrilmişdir.

"Ərəb baharı" digər regional dövlətlərlə yanaşı Liviyaya da ciddi təsir göstərmişdir. Liviya dövlətinin 40 illik lideri Müəmmər Qəddafi silahlı mübarizənin ilk günlərində üstünlüyə malik idi. Daha sonra fevralın 26-sında BMT Təhlükəsizlik Şurasının 1970 saylı qətnaməsinə əsasən tədbiq edilən silah embargosu, Qəddafi ailəsinin bank aktivlərinin dondurulması və Liviya üzərində uçuşa qadağan olunan zonanın yaradılması rejimi çıxılmaz vəziyyətə qoymuşdur. Müdaxilə qərarından 48 saat sonra Paris şəhərində ABŞ, İngiltərə, İtaliya və Kanadanın iştirak etdiyi görüşdə Liviyaya silahlı müdaxilə qərarı koalisiya qüvvələrinin həyata keçirdiyi əməliyyatlarda BMT qərarlarının sərhədlərini aşdığı, sivillərin yaşadığı ərazilərin bombalanması nəticasində çox sayda insanın həyatını itirməsinə media vasitəsilə tənqidlər günü-gündən artırdı. Bunun nəticəsində, 27 martda BMT TŞ yeni qərar qəbul etmiş və Liviyaya ediləcək humanitar müdaxiləni NATO-ya həvalə etmişdir (7, s.21).

Liviyaya müdaxilənin ilk günlərində Türkiyə ehtiyatlı siyasət yürüdürdü. Kənardan müdaxiləyə qarşı olmasına baxmayaraq, sonradan NATO-nun müdaxiləsi ilə razılaşmaq məcburiyyətində qaldı. Türkiyə qarşıdurmaların və hadisələrin şiddətlənməyə başladığı dövrdə öz vətəndaşlarının həyat təhlükəsizliyini təmin etməyə çalışırdı. Türk işçilərinin təxliyyəsi dövlətin prioritetləri arasında idi və qısa müddət ərzində 25 min vətəndaşını ölkədən uğurla çıxarmağa nail oldu (9).

Sonrakı prosesdə Türkiyə bölgədə daxili qarşıdurmaların artmasının yaratdığı humanitar böhranın aradan qaldırılmasına istiqamətlənmiş addımlar atmağa çalışmışdır. Regionda davamlı təhlükəsizliyin təmin olunması naminə Rəcəb Tayyib Ərdoğan, Liviya böhranına dair üçün 3 bəndlik yol xəritəsini açıqlamışdır. Yol xəritəsi davamlı atəşkəsin təmin edilməsi, humanitar yardım üçün təhlükəsiz zonaların yaradılması və xalqın iradəsi ilə seçkilərin keçirilməsini özündə etiva edirdi.

Qəddafinin siyasi iqtidarında bəzi yüksək rütbəlilərin rejimi dəstəkləmədiklərini bəyan etmələri küçə iğtişaşlarına qoşulanların sayının gün keçdikcə artmasına səbəb oldu. Rejiminin ədalət və daxili işlər naziri olan Mustafa Abdül Cəlil fevralın 21-də istefa verərək, Türkiyə iqtidarının da dəstəklədiyi Milli Keçid Şurasının (MKŞ) rəhbərliyinə gətirilmişdir (1, s.3).

Bu prosesdə dəfələrlə xalqın tərəfində olduğunu bildirən Türkiyə iqtidarı, Qəddafinin tezliklə istefa verməli olduğunu, liviyalıların haqlı tələblərinə cavab verən daha etibarlı və demokratik bir nizamın qurulmasının vacibliyini vurğulayırdı.

Mindən çox tankı, çoxlu sayda hərbi sursatı və Qəddafinin hava hücumundan müdafiə sistemini məhv edən 9600 hava hücumundan sonra NATO-nun o zamankı sədri Anders Foq Rasmussen NATO tarixindəki uğurlu müdaxilələrdən birinin başa çatdığını elan etmişdi. Bununla belə, NATO-nun Liviyaya müdaxiləsi heç də bir mənalı qarşılanmamış, Kubanın sabiq baş naziri Fidel Kastronun "Prensa Latina" xəbər agentliyində dərc olunmuş məqaləsində Liviyadakı xaosun səbəbinin qərb dövlətlərinin Liviyanı təbii sərvətlərini ələ keçirmək naminə rəsmən işğal etməsi kimi qiymətləndirmişdi (2, s.6).

Beləliklə, Qəddafinin ölümündən sonra Türkiyə Liviyadakı siyasi proseslərə aktiv mövqe nümayiş etdirməyə davam etmiş, açıq və birmənalı şəkildə rejim dəyişikliyini dəstəkləmişdir. Türk rəsmiləri dəfələrlə Liviya təmas qrupunun görüşlərində iştirak etmiş və prosesə fəal dəstək verməyə çalışmışdır. Türkiyə iqtidarı yeganə həll yolunun Liviya xalqının tələblərinə uyğun demokratik dövlət qurulması olduğunu hər fürsətdə dilə gətirmişdir.

Türkiyənin Qəddafidən sonrakı Livaya rəsmiləri ilə yol xəritəsinin müəyyən edilməsində o cümlədən, Liviyadakı qarşıdurmalarda MKŞ-nın liderinə verdiyi siyasi dəstəklə xalqın rəğbətini qazanmışdır. Ərəb baharının ilk günlərində Türkiyə Cümhuriyyətinin Qəddafi rejiminə qarşı qurulmuş Milli Keçid Şurasını tanıması və o zamanki xarici işlər naziri Əhməd Davudoğlunun Benqaziyə səfərində Qəddafiyə qarşı qurulan MKŞ-ni dəstəklədiyini dilə gətirməsi şuranın legitimliyini artırmışdır. Ə.Davutoglu 2011-ci il iyun ayında Liviya əhali önündə çıxışı zamanı yeni qurulacaq hökümətin ilk növbədə, demokratik və azad Liviya xalqının tələblərinə uyğun qurulmalı olduğunu, Liviya xalqının birliyi və həmrəyliyinin qorunub saxlanmalı olduğunu, Liviyanın yeni azad bayrağı bütün beynəlxalq təşkilatlarda dalğalanmalı olduğunu vurğulamışdır (7, s.8).

MKŞ tərəfindən yeni konstitusiya bəyannaməsi yazıldığı və Liviyanın demokratiya ilə idarə olunan bir ölkə olması üçün çalışacaqları bildirsələr də, şuranın sədri Mustafa Əbdül Cəlil 2011-ci

ilin oktyabrında mətbuata verdiyi açıqlamada, müsəlman ölkəsi olaraq, şəriətin qanunun əsas mənbəyi olduğuna inandıqlarını, yeni konstitusiyada şəriətə və islam prinsiplərinə zidd olan hər hansı qanunun olmayacağını açıqlamışdır (10).

Bu açıqlamalar modern Liviya xəyalları quran muxaliflərin o qədər də ürəyincə deyildi. 2012-ci il avqustun 8-də müvəqqəti təyin olunan Milli Keçid Şurası səlahiyyətlərini 200 deputatdan ibarət parlamentə verməsilə Liviyanın idarəsi Ümumi Milli Konqresə (ÜMK) keçdi. Beləliklə, Müəmmər Qəddafinin devrildiyi və öldürüldüyü iğtişaşlar zamanı yaradılan bu şura ləğv edildi (5).

ÜMK 2014-cü ilə qədər Liviya iqtidarını əlində cəmləşdirməyi bacarsa da, daxili çaxnaşmalar səngimək bilmirdi. 2014-cü ilin əvvəlində vaxtilə Qəddafinin ordusunda general olmuş, daha sonra Cadla müharibədə əsir düşərək Amerikaya qaçmış, Qəddafinin ən qatı düşmənlərindən birinə çevrilən və Qəddafinin ölümündən sonra Liviyaya qayıdan Xəlifə Xəftər ÜMK-i ləğv etməyi və müvəqqəti hökumət qurmağın vacibliyi ehtiva edən çağırışlar edirdi. Xəlifə Xəftərin bu tələbi rədd edildikdən sonra ÜMK-ə qarşı "namus mübarizəsi"nə başladığını bəyan etmişdir. Həmin vaxtdan bu günə qədər Liviyada daxili sabitlik əvvəlkindəndə acınacaqlı vəziyyətə düşmüş, radikal islamçı qrupların da iştirakı ilə qarşıdurmalar ən yüksək həddə çatmışdır. Xəftərin və müxtəlif silahlı birləşmələrin təzyiqləri nəticəsində fevralın 7-də ÜMK ləğv edilmiş, iyunun 25-də növbədənkənar seçkilər keçiririlmişdir. Lakin seçkilərdə yekdillilik əldə oluna bilməmiş və hər iki tərəf öz parlamentini, ordusunu və hökumətini legitim elan etmişdir (7, s.34).

Liviyanın Tripoli və Benqazi şəhərlərində şiddətlənən qarşıdurmalar başlanğıcda kiçik miqyaslı görünsə də, zaman keçdikcə münaqişələr ölkə miqyasında vətəndaş müharibəsinə çevrildi. Liviya faktiki olaraq, Yeni Milli Konqres ilə General Xəftərə sadiq qüvvələr arasında bölündü.

2014-cü il avqustun sonunda Misir və Birləşmiş Ərəb Əmirlikləri tərəfindən Tripolinin təyyarələrlə bombalanması nəticəsində vətəndaş müharibəsi xarici güclərin də iştirak etdiyi münaqişəyə çevrildi. Qərb dövlətləri bu qarşıdurmaları Liviyanın daxili işi kimi görməsinə və birbaşa müdaxilə etməkdən imtina etməsinə baxmayaraq, öz maraqları doğrultusunda tərəflərə dəstək verirlər.

Birləşmiş Millətlər Təşkilatı ölkədəki problemi həll etmək məqsədilə Mərakeşin Süheyrat şəhərində baş nazir Fayez əl-Sarracın tabeliyində Milli Razılıq Hökuməti (MRH) adlanan yeni bir barışıq hökumətinin qurulmasına köməklik göstərdi. Mülki şəxsiyyətə malik Fayez əl-Sarrac hazırda beynəlxalq aktorlar tərəfindən Liviyanın baş naziri kimi qəbul edilir. BMT, Qərb və Türkiyə tərəfindən baş nazir olaraq görülən Sarrac Liviyanın keçid prosesinin başa çatdırılmasında və ərazi bütövlüyünün qorunmasında mühüm fiqur hesab olunur. Heç bir silahlı qruplaşmaya daxil olmayan Sarrac Liviyanın qərb bölgələrinin dəstəyini aldı. Xüsusilə, Sirtədə İŞİD-lə mübarizə Fayez əl-Sarracın mühüm uğuru kimi qiymətləndirilir (9).

Tobruk bölgəsində Fayez əl-Sarrac hökumətinə qarşı çıxan və dəstək verənlər olduğu kimi, Tripoli bölgəsində də dəstəkləyənlər və qarşı çıxanlar var. Liviyada hər iki tərəfi dəstəkləyən siyasətçilərin Türkiyədən gözləntiləri böyükdür.

Hal-hazırda Liviyada paytaxt Tripolidə ölkənin qərbində hakim olan BMT-nin dəstəklədiyi Milli Razılıq Hökuməti, Tobruk mərkəzli şərq hissələrində Xəlifə Xəftər tərəfindən dəstəklənən Təmsilçilər Şurası və ölkənin şərq bölgələrində Dərna Mücahidləri Şurasının nəzarəti altında olan 3 ayrı hökumət var. Bu 3 əsas strukturdan başqa xüsusilə cənub bölgələrində yerli silahlı birləşmələr və qəbilələrin siyasi və hərbi qrupları da Liviyanın müəyyən hissələrinə nəzarət edir. Bir sözlə, Liviya onlarla irili-xırdalı hərbi və siyasi birləşmələr arasında bölünmüş vəziyyətdədir.

Türkiyə Cümhuriyyəti hazırda Liviyada davamlı sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına töhfə vermək və qarşılıqlı fayda əsasında bütün mümkün sahələrdə əməkdaşlıq etmək marağını hər fürsətdə dilə gətirir. Bu çərçivədə 27 noyabr 2019-cu il tarixində MRH ilə "Aralıq dənizində dəniz yurisdiksiyasının məhdudlaşdırılması" və "Təhlükəsizlik və hərbi əməkdaşlıq" mövzusunda Anlaşma Memorandumları imzalanmışdır.

Türkiyə dövləti həmçinin BMT-nin rəhbərliyi altında və liviyalılar arasında dialoq yolu ilə Liviyadakı problemin diplomatik həllinin tapılması istiqamətində beynəlxalq addımlara fəal dəstək verir. Bu çərçivədə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Liviya böhranının diplomatik yolla

həlli üçün 19 yanvar 2020-ci il tarixində keçirilən və bir çox ölkənin iştirak etdiyi Berlin konfransına qatılmışdır.

Hələ ki, rəsmi Ankara Xəlifə Həftərın və onun rəhbərlik etdiyi koalisiyanın Türkiyə əleyhinə bəyanatlarına diplomatik nəzakət çərçivəsində qısa bəyanatlarla cavab verir. Xəftər bu bəyanatlarla bir növ Türkiyənin Liviyadakı konstruktiv rəftarını birbaşa hədəfə alaraq onu sarsıtmağı hədəfləyir (6).

***Nəticə***. Liviyanın içində olduğu bu dərin böhran prosesi diplomatik müstəvidə də özünü biruzə verir. Beynəlxalq qüvvələr bir tərəfdən Liviyada Xəftərin qarşısındakı silahlı qruplara silah embarqosu tətbiq edir, digər tərəfdən regional və beynəlxalq aktorların Xəlifə Xəftərə silah dəstəyinin qarşısını ala bilmir. Misir və BƏƏ kimi regional güclər, Rusiya və Fransa kimi beynəlxalq aktorlar müxtəlif üsullarla Xəftərə dəstək verdiyi halda Türkiyə BMT-nin legitim saydığı MRH-nə siyasi və hərbi yardımına görə əsassız ittihamlarla üzləşir. Bütün bu qeyri-müəyyənlik nəticəsində 12 ildir ki Liviyada davam edən radikal qarşıdurmalar Liviya xalqını çox ciddi sosial, siyasi və iqtisadi təhlükəsizlik problemləri ilə üz-üzə qoymaqdadır. Türkiyənin Yaxın Şərq regionunu ilə tarixi, coğrafi və dini yaxınlığı problemləri daha adekvat dəyərləndirmək və həll yollarını müəyyən etmək imkanlarına malik olmasından xəbər verir. Türkiyə Cümhuriyyəti Liviya böhranının həllində təcrübə qazanarsa eyni təhdidlə üzləşmiş bir çox region ölkələrinin problemlərinin həllinə töhfə verməkdə aparıcı rol oynaya bilər.

## ƏDƏBIYYAT


1. Emrah Kekili, “Haftar’ın Darbe Girişiminden BM Çözüm Taslağına Libya Siyaseti” / SETA, 24 Şubat 2016. - https://www.setav.org/haftarin-darbe-girisiminden-bm-cozum-taslagina-libya-siyaseti/ [08.11.2022].
2. Emrah Kekili, “Türkiye-Libya ilişkileri: kriz alanları ve iş birliği imkanları”. İstanbul, SETA yayınları, Mart 2017, sayı 191, 20 s. - https://setav.org/assets/uploads/2017/03/191.Tu%CC%88rk-Libya-Analizi.pdf [08.11.2022].
3. Filiz Değer, “Türkiye Cumhuriyeti Hükümeti ile Libya Devleti Ulusal Mutabakat Hükümeti Arasında İmzalanan Deniz Yetki Alanlarının Sınırlandırılması Mutabakatının Hukuki Statüsü ve Geleceği” // The Journal of Diplomatic Research-Diplomasi Araştırmaları Dergisi, Vol.2, No.1, July 2020, s.1-15. - https://dergipark.org.tr/tr/download/article-file/1616484 [08.11.2022].
4. Francis Fukuyama, “The End of History and the Last Man”. New York, The Free Press, 1992, 418 p. - http://aps-ua.org/wp-content/uploads/2017/03/The-End-of-History-and-the-Last-Man-Francis-Fukuyama-1992.pdf [08.11.2022].
5. Hasan Yiğit, “Orta Doğu’daki güvenlik sorunlarının bölgesel güvenlik yapılanmasına etkisinin analizi”, Bursa, Uludağ Üniversitesi, 2017, 164 s. - https://acikerisim.uludag.edu.tr/bitstream/11452/4312/1/487347.pdf [08.11.2022].
6. Nuri Kuzu, “Arap Baharı'nda ve sonrasında Libya”, Sakarya Üniversitesi, 2018, IV+29 s. - https://www.academia.edu/38088947/ARAP_BAHARINDA_VE_SONRASINDA_L%C4%B0BYA [08.11.2022].
7. Nurettin Ceviz, “Tarihten Günümüze Libya”. ORSAM, Ankara, Rapor No:37, 23.03.2011, 32 s. - https://www.orsam.org.tr/tr/tarihten-gunumuze-libya/ [08.11.2022].
8. Rəsul Balayev, “Rəqəmsal texnologiyalar və tətbiqi informatika” / İqtisadiyyat.com, Bakı, 07.10.2021. - https://www.iqtisadiyyat.com/az/pages/5/news/1247 [08.11.2022].
9. Sema Kalaycıoğlu, “Türkiye’nin Afrika ve Libya Politikası” / 21. Yüzyıl Türkiye Enstitüsü, 29 Kasım 2020. - https://21yyte.org/tr/merkezler/bolgesel-arastirma-merkezleri/orta-dogu-ve-afrika-arastirmalari-merkezi/turkiye-nin-afrika-ve-libya-politikasi [08.11.2022].
10. Zeynep Paralı, “Türkiye Cumhuriyyeti ile Libya Ulusal Mutakabat Hükümeti arasında imzalanan Akdenizde yetki alanlarının sınırlandırılmasına ilişkin mutabakat muhtırasının uluslararası politikaya

etkileri” // Nazilli İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2020, Cilt 1, Sayı 1, s.49-64. - https://dergipark.org.tr/tr/download/article-file/1170056 [08.11.2022].
11. 800 milyar dolar ayaklandı / Bigpara, Ekim 13, 2013. - https://www.hurriyet.com.tr/ekonomi/800-milyar-dolar-ayaklandi-24904626 [08.11.2022].

**ПАРВИН САДЫГОВА**
*Старший преподаватель Бакинского Славянского Университета*

## СПОСОБНОСТЬ ТУРЦИИ ВЛИЯТЬ НА ТО, ЧТО ПРОИЗОШЛО В ЛИВИИ ПОСЛЕ «АРАБСКОЙ ВЕСНЫ» В КОНТЕКСТЕ БЕЗОПАСНОСТИ НА БЛИЖНЕМ ВОСТОКЕ

«Арабская весна» во всех ее проявлениях превратила национальную безопасность стран региона в элемент угрозы. За все эти годы террористические организации, воспользовавшись слабостью государств региона, расширили сферы своей деятельности и поставили перед угрозой терроризма все государства ближневосточного региона, в том числе и Турецкую Республику. В результате всей этой неопределенности радикальные конфликты продолжающиеся в Ливии на протяжении 12 лет поставили ливийский народ перед очень серьезными социальными, политическими и экономическими проблемами безопасности. Историческая, географическая и религиозная близость Турции к ближневосточному региону свидетельствует о том, что она способна более адекватно оценивать проблемы и находить решения. Все эти оценки указывают на возрастающее значение Турции в регионе после «арабской весны» и на важность той роли, которую она будет играть в решении проблем безопасности региона для всех стран региона.

*Ключевые слова*: Ближний Восток, «арабская весна», ливийский кризис, турецко-ливийские отношения.

**PARVIN SADIGOVA**
*Senior Lecturer of Baku Slavic University*

## TURKEY'S ABİLİTY TO İNFLUENCE WHAT HAPPENED İN LİBYA AFTER THE ARAB SPRİNG İN THE CONTEXT OF SECURİTY İN THE MİDDLE EAST

The "Arab Spring" with all its manifestations has turned the national security of regional countries into a threat element. During all these years, the terrorist organizations that took advantage of the weakness of the regional states expanded their fields of activity, and made all the states of the Middle East region, including the Republic of Turkey, face the threat of terrorism. As a result of all this uncertainty, the radical conflicts that have been going on in Libya for 12 years have made the Libyan people face very serious social, political and economic security problems. Turkey's historical, geographical and religious proximity to the Middle East region indicates that it has the ability to assess problems more adequately and determine solutions. All these evaluations indicate the increasing importance of Turkey in the region after the Arab Spring and the importance of the role it will play in solving the security problems of the region for all the countries of the region.

*Keywords*: Middle East, “Arab Spring”, Libyan crisis, Turkish-Libyan relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Əsgər Əhməd, t.e.d. Sani Hacıyev.*

**UOT 94; 32:93/94**

**FƏRİDƏ ALLAHVERDİYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**faridaallahverdiyeva@gmail.com**

# MODERNLƏŞMƏYƏ REAKSİYA OLARAQ SİYASİ İSLAMIN TƏŞƏKKÜLÜ

*Siyasi İslamla bağlı üstünlük təşkil edən akademik ədəbiyyat onun orjinallığını sistemli və təfərrüatlı təhlilə müraciət etmədən, ona istinad etməklə kifayətlənir. Üstəlik, İslamın müasir siyasi tarixinə yönəlmiş tədqiqatlar bu xüsusiyyətlərin məhdud və qismən təhlilini təklif edir. Bu çərçivədə dominant, qurucu perspektivlərin izahedici əsasları və analitik alətləri, Siyasi İslam təcrübəsinin daha geniş və davamlı təhlilini verməkdə çətinlik çəkir. Din problemi ilə bağlı fərqli, konstruktiv, modernləşmə və idarəetmə strategiyaları, dinin siyasətlə ifadəsi, onların yeni cəmiyyətlərin qurulmasına təsirləri, məhsuldar münasibətlər haqqında davam edən müzakirələr Siyasi İslamın orijinal xüsusiyyətlərini üzə çıxarmaq məqsədi daşıyır. İslami Hərəkatların "essensializmi" və "ümumbəşəriliyi" İslamçılığı daxildən və xaricdən müəyyən etməyə və anlamağa çalışan ədəbiyyatda ən çox məşğul olan məqamlardan biri olmuşdur. Müsəlmanların eyni dinə mənsub olmaları və qlobal mənada eyni tarixi təcrübəyə malik olmaları kontekstində "ümmət" kateqoriyası ilə müəyyən edilməsi funksionallıq qazandığı halda, onların "millət" kateqoriyası ilə tərifi xilafətdən sonrakı dövrdə funksionallıq qazanmışdır. İslamın, dünyanın müxtəlif milli dövlətləri daxilində fərqli milliləşdirmə siyasətlərinə məruz qalması və fərqli gündəmlərlə üzləşməsi, islamçılığı tərif etməyə çalışmaqda gərgin situasiya yaradır. Müasirliyin dini anlama və yaşama tərzini "bir dəfə və həmişəlik" dəyişdirməsi və müsəlmanları din-dünya dilemması ilə üz-üzə qoyması müsəlmanların çoxluq təşkil etdiyi bütün coğrafiyalarda demək olar ki, oxşar problemlərin yaşanmasını zəruri edib. Müasirləşmə ilə, bir çox coğrafiyadakı müsəlmanlar öz varlıqlarını anlamlandırmaq imkanlarından məhrum oldular.*

*Açar sözlər*: Siyasi İslam, Yaxın Şərq, müasirləşmə, demokratiya, dini hərəkatlar.

***Giriş.*** Yaxın Şərq ölkələrində din həmişə siyasətə və ictimai həyata təsir göstərən amil olmuşdur. Yaxın Şərqdə doğulmasına baxmayaraq, İslam Uzaq Şərqdən Qərbi Avropaya, Afrikadan Şimali Amerikaya qədər uzanan bir dindir. İslam öz daxilində siyasət və inancı birləşdirən, həm dünyəvi, həm siyasi cəhətləri olan dindir. İslam peyğəmbəri Məhəmməd, Mədinədə bir növ dövlət nizamı qurduğu və dini lider olduğu üçün, İslamda siyasi yanaşma olması tez-tez vurğulanır. İslam dininin yayılması və İslam dövlətlərinin böyüməsi ilə birlikdə, İslami idarəetmə forması da yayıldı. Belə olan halda, dünyada İslamla bağlı müzakirələr artdı, İslam inancı və siyasət sintez halında bir baxışa çevrildi. Din, dövlət idarəçiliyində və daxili siyasətdə mühüm faktor oldu. Xüsusilə, 11 sentyabr ABŞ-da, ekiz qüllələrə qarşı edilən terror hücumlarından sonra, İslam təkcə bir din olaraq deyil, həm də siyasi ideologiya olaraq beynəlxalq gündəmin zirvəsində idi. İslamla bağlı təsəvvürlərdə dəyişikliklər baş verərkən, "siyasi İslam", "fundamentalizm", "radikal İslam", "islamcılıq" kimi terminlər siyasi qruplaşmaların zorakı hərəkətlərini təhlil və tənqid etmək üçün istifadə edilməyə başladı. Terminlərin konseptual mənada istifadəsi ilə bağlı fikir birliyi olmasa da, İslam hökmləri çərçivəsində, qurulmuş siyasi sistemi dəyişdirməyi və ya tamamilə ləğv etməyi hədəfləyən bütün cərəyanlar "Siyasi İslam" olaraq adlanır [1, s.670]. Siyasi İslami hərəkatlar da, meydana çıxdıqları bölgələrə görə fərqlənmiş, müəyyən sosial, iqtisadi kütləyə çatmaq imkanı tapmışdır. Siyasi İslami hərəkatlar haqqında vurğulanmalı əsas element də, siyasi islamçılar İslama bir din kimi olduğu qədər, ideologiya kimi də yanaşırlar. Siyasi islamçıların əsas ideoloji qaynaqları Quran və peyğəmbərin şəriətidir.

Avropa və ABŞ-ın nəzarəti altında formalaşan Yaxın Şərq coğrafiyasında İslamın hər bir forması antisekulyar olaraq sistemdən sıxışdırıldı. Bu marjinallaşma ilə dərin bir kimlik böhranı yaşayan Yaxın Şərq cəmiyyətləri, siyasi İslamı özləri üçün başlanğıc nöqtəsi kimi görürdülər. İslamın siyasiləşdirilməsi, yəni Siyasi İslamın tərifi müxtəlif şəkildə qeyd olunsa da, Siyasi İslam bir cəmiyyətin və ya ölkənin siyasi, sosial və iqtisadi həyatını formalaşdırmaq üçün İslam istinadlarının tətbiqidir deyə bilərik. Digər tərəfdən, Qərb modernizmi tərəfindən alt-üst edilmiş müsəlman cəmiyyətlərinin və müsəlman elitalarının reaksiyası kimi müəyyən edilə bilər. Qərb modernizmi qarşısında zəif olan İslam ölkələri, müstəmləkə vəziyyətinə düşdü.

XX əsrdən etibarən, İslamın beynəlxalq aləmdə həyatın bütün sahələrində meydana çıxması, çağdaş tarixin ən fundamental hadisəsi kimi özünəməxsus yer tutur. Dinin siyasətə inteqrasiyası ilə yanaşı, dünyəvi ideologiyalar, sol-sosialist ideologiyalar və milli-azadlığa əsaslanan bir çox ideologiyalar Yaxın Şərqin siyasi həyatına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Müasir ideologiya olan islamçılıq isə, zahiri bir adlandırmadır. İslamçılar özlərini ifadə etmək üçün "İttihad-ı İslam", "İslam siyasəti" kimi ifadələrdən istifadə etmişlər [2, s.31]. 1904-cü ildə nəşr olunan, türk millətçiliyinin ideoloqlarından olmuş Yusif Akçura tərəfindən yazılmış "Üç tərzi siyasət" adlı məqalədə, qəbul edilən üç siyasi üslub göstərilmişdir. Osmanlı İmperatorluğunda qəbul edilən osmanlıçılıq, ayrıca türkçülük və islamçılıq təhlil edilmişdir. İslamçılığı bir hərəkat olaraq ilk qeyd edən Ziya Göyalp olmuşdur. İslamçılıq və demokratiya əlaqəsinə nəzər saldıqda, islamçıların, demokratiyanı demokratiya nəzəriyyələri baxımından müzakirə etmədikləri görünür. Bu əlaqənin ən yüksək başlığının, İslam və müasirlik olduğunu görmək olar. İslamçıların demokratiya ilə əlaqəsi, Osmanlı islamçılarından başlayır. İslam dünyasında islamçı kimi tanınan və ya qəbul edilən hərəkatların yüksəlişi, bəzi yerlərdə demokratik proseslər və güc tətbiqləri ilə hakimiyyətə gəlmələri, İslamın demokratiyaya uyğun olub-olmaması ilə bağlı müzakirələrin önünü açmışdır.

Çağdaş İslam təfəkkürünün mühüm nümayəndələrindən biri kimi qəbul edilən və eyni zamanda siyasi kimliyə malik olan Tunisli mütəfəkkir Rəşid Qannuşi demokratiya ilə İslam arasında uyğunluq olması fikrində israrlı şəxsiyyət kimi önə çıxır. İctimai hərəkatlar ideologiyası, strategiyası, diskursları, növləri, intellektual mənşəyi, metodları, kimlikləri, sosial hadisələrlə əlaqələri və son nəticədə onu ictimai hərəkata çevirən bütün əsas və yan amilləri ilə sosial reallıqdır. İctimai hərəkatdan o zaman danışa bilərik ki, bu sosial reallıq bütün bu faktlarla birlikdə "kollektiv tələb" formasına çevrilsin. 1970-ci illərin əvvəllərində Rəşid Qannuşi və dostları tərəfindən Tunisdə qurulan Əl-Nahda hərəkatı uzun illər İslami hərəkat olaraq varlığını davam etdirmiş və 1970-ci illərin əvvəllərində başlayan ictimai dəyişiklik və transformasiyadan faydalanaraq siyasi partiya kimliyi qazanmışdır. Əl-Nahda hərəkatı Tunisdə təkcə islami hərəkat olaraq deyil, həm də təşkilati əsasda ən böyük hərəkatdır. Hərəkat Tunisin sosial, siyasi və mədəni arenasında mühüm mövqeyə uyğun gəlirdi. Eyni zamanda, 2010-cu ilin sonlarında başlayan və bütün Yaxın Şərqə təsir edən xalq üsyanlarının başlanğıc yerinin Tunis olması, hərəkatın əhəmiyyətini daha da artırır. Lakin Rəşid Qannuşi, Əbdülfəttah Moro və dostlarının Tunisdə başlatdıqları hərəkat qısa müddətdə fərqli metoda çevrildi. Çünki, Tunisdə sərt dünyəvilik və qərbyönümlü siyasət hakim idi və təhlükəsizlik bölmələri bu fəaliyyətləri təqib edərək qarşısını alırdı. 2011-ci il Tunisdə Ərəb Baharının başlanmasına səbəb olan üsyanlardan sonra, yalnız siyasi arenada fəaliyyət göstərəcəyini və onların siyasi islamçılıqdan müsəlman demokratiyasına təkamül etdiklərini Qannuşi özü dünyaya bəyan etdi. Qannuşi demokratiyanı fəlsəfə və ya ideologiya kimi deyil, hakimiyyətin gücünə nəzarət etməyə yönəlmiş prosedurlar və alətlər məcmuəsi kimi qəbul edir [9, s.5]. Başqa sözlə, demokratiya vətəndaşların siyasi proseslərdə bərabər şəkildə iştirak etdiyi siyasi sistemdir. Koks və Marksın fikrincə, Qannuşinin demokratiya anlayışı ümumi Qərbin demokratiya anlayışına kifayət qədər yaxındır [3, s.3]. Qannuşinin ideal idarəetmə sistemi haqqında düşüncəsi, insan ləyaqətini tanıyan və təhsil üçün mexanizmlər paketini nəzərdə tutan sistemdir. Demokratik idarəçilik sistemində məqsəd, bəşəriyyətin tərəqqisini təmin etmək, hökmdarla idarə olunan arasındakı siyasi, iqtisadi və mədəni uçurumları mümkün qədər azaltmaq olmalıdır. Onun fikrincə, demokratiyanın bəşəriyyətə təklif etdiyi ən əsas prinsiplər xalqın suverenliyi, seçkilər, hakimiyyət bölgüsü və ictimai azadlıqlardır. Qannuşinin demokratiyaya aid etdiyi bu keyfiyyətlər, İslamla demokratiya arasında ziddiyyətlər olmasının əksinə, uyğunluq olduğunu ifadə edir.

Demokratiya, İslam əleyhinə bir ideologiya kimi deyil, daha çox xalqa suverenlik verən və hakimiyyəti nəzarətdə saxlamağı hədəfləyən bir sıra prosedurlardan ibarət mexanizm kimi dəyərləndirilir. Demokratiyanın bir çox komponentləri olsa da, ən əsas üç komponent kimi iştirak, bərabərlik və azadlığı qeyd etmək olar. Demokratiya xalqın hakimiyyəti olduğu üçün, xalqın iştirakı mütləq zəruri təcrübədir. İştirak yoxdursa, demokratiyadan danışmaq olmaz. Bu mənada iştirak prinsipi insanların özlərini idarə edən, öz həyatlarını və öz cəmiyyətinin müqəddəratını təyin edən həyati vacib qərarların qəbulunda iştirak etmələrini nəzərdə tutur. Bundan əlavə, hər bir dövrdə iştiraka məhdudiyyət qoyulmuş və siyasi həyatda kimin iştirak edəcəyi ölkələrin siyasi-mədəni

şərtlərinə uyğun olaraq dəyişmişdir. Siyasi bərabərlik, demokratik dövləti oliqarx və ya aristokratik rejimlərdən fərqləndirən prinsipdir. Demokratiya baxımından bərabərlik prinsipi mütləq bərabərliyi önə çəkmir, dövlətin vətəndaşlara göstərdiyi xidmətlərdə, vətəndaşların qanun qarşısında bərabərliyini ifadə edir. Bunu, bərabər imkanlar da adlandırmaq olar. Demokratik həyatın əvəzsiz, əsas anlayışı olan azadlıq, bütün siyasi anlayışlar arasında izah edilməsi ən mürəkkəb olandır. Fransa İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin 4-cü maddəsinə əsasən, ən ümumi və qəbul edilmiş tərif "başqalarının azadlığına mane olmadan başqasına zərər verməyəcək hər hansı bir hərəkət etməkdir". Azadlığın hüdudu, başqalarının hürriyyətinin hüdududur [7, s.180]. Azadlıq, müasir demokratiyanın ən fundamental dəyərlərindən biridir.

Müasirlik, tarixən XIX əsrdə Avropada başlayan və sonradan demək olar ki, bütün dünyaya təsir edən sosial həyat və təşkilat formalarına aiddir. Rasionallaşma, sekulyarlaşma, ixtisaslaşma, bürokratlaşma və s. atributlar müasirliyi müəyyən etmək və xarakterizə etmək üçün istifadə olunan əsas elementlərdir. Modernləşməni, ənənəvi ictimai quruluşun yox olması ilə nəticələnən proses kimi ifadə etmək olar. Bu dəyişiklik prosesinin yaranmasında kapitalizm, onun sürətləndirilməsində isə Sənaye İnqilabı aparıcı rol oynamışdır. Müasir anlayışı, sənaye sivilizasiyasını özündə cəmləşdirir. Müasir cəmiyyəti səciyyələndirən inkişaflara nəzər saldıqda, biliyin sosial həyatda rolunun artması, geniş coğrafiyalarda iqtisadi inteqrasiya, urbanizasiyanın formalaşması və mədəni-demoqrafik strukturun dəyişməsi kimi göstərmək olar. Modernləşmə insanların bu dünyada intellektual, siyasi, iqtisadi, sosial və psixoloji cəhətdən daha fəallaşdığı bir sahə kimi əksini tapsa da, bu sahə müasirləşmənin təsiri ilə ənənəvi institutların müasir funksiyalara uyğunlaşdırılması prosesi kimi ifadə edilmişdir. Xüsusilə Yaxın Şərqə nəzər saldıqda, qısa müddətdə bütün dünyanı öz təsiri altına alan modernləşmə hərəkatlarının müxtəlif etnik, dini və sosial quruluşların mozaikasını ehtiva edən bu bölgəyə dərindən təsir etdiyini görürük. Siyasi quruluşu pisləşən Osmanlının hakim olduğu Yaxın Şərq ölkələrində modernləşmə, müstəmləkəçilik hərəkatları ilə daha sürətlə yayıldı. Müsəlman cəmiyyətlər də, müstəmləkə olmamaq və müstəqillik əldə etmək üçün daxili siyasi strukturlarından asılı olmayaraq, Qərb modeli dövlət və cəmiyyət quruluşu yaratmaq istəyirdilər.

Hazırda Yeni Dünya Nizamında hökm sürən münaqişələrə nəzər saldıqda, kapitalizmlə kommunist ideologiyalar arasında davam edən qarşıdurmalardan daha çox, Qərb ənənəsinin İslam fundamentalizmi ilə toqquşması kimi xarakterizə etmək olar. Samuel Hantinqton öz tezisində bəyan edir ki, ideologiyaların toqquşmasına şahidlik edən dövr artıq başa çatıb, lakin qloballaşma dövründə fərqli bir konflikt, sivilizasiyaların toqquşması qüvvədədir. Sivilizasiyaların toqquşması dedikdə əslində nəzərdə tutulan dinlər arasında münaqişədir. Xüsusilə 11 sentyabr hücumundan sonra, real-siyasi mənzərədə öz müqabilini tapan bu arqumentdə yer alan münaqişə tipli tərəflər Qərb və İslam dünyasıdır. Yəni, müasir dövrdə Qərbin yeni düşməni siyasi İslamdır demək olar. Hantinqtonun "Sivilizasiyaların toqquşması" tezisi əslində klassik modernləşmə tezisindən başlayaraq, qeyri-Qərb cəmiyyətlərinin modernləşməsi ilə bağlı fikirə, o qədər də optimist yanaşmır. İslam və ya şərq dünyasında yaşayan insanlar, qərblilərdən mahiyyətcə fərqli olduqları üçün bu cəmiyyətlərin zamanla modernləşə biləcəyi fikriylə razılaşmır. Hantinqtonun konflikt düşüncəsinin uyğun gəldiyi reallıq, bərabərsizliklərin və ədalətsizliklərin günü-gündən artdığı, etnik və dini qarşıdurmaların bütün dünyada geniş vüsət aldığı bir dövrün reallığıdır. Qloballaşma dövründə texnologiya son dərəcə inkişaf etsə də, modernist ideologiyanın "tərəqqi" tezisini yenidən açmaq həddindən artıq optimist bir gözlənti olardı.

Ərəb baharının başlanması ilə, islami hərəkatlar da səthə çıxmağa başladı. Müasir və yeni ictimai hərəkatlar baxımından, regionun güclü və köklü dövləti olan, 1922-ci ildə müstəqilliyini əldə edən Misirdə ortaya çıxan Müsəlman Qardaşları göstərmək olar. Bir çox müasir islamçı hərəkatlar kimi, Müsəlman Qardaşları da Peyğəmbərin və Dörd Xəlifə dövrünün həqiqi İslamı təmsil etdiyini iddia edirdilər. Onların fikrincə, fitnə Müaviyə dövründən başlamış, Abbasilər sülaləsi dövründə də davam etmiş, müzakirə və mübahisə fanatizmlə əvəz olunmuşdur. İslam cəmiyyətində durğunluq hökm sürərkən, hakimiyyətin qeyri-ərəb ünsürlərə, yəni iranlılara və türklərə keçməsi ilə, bu hal geniş vüsət almışdır. Çünki onların fikrincə, ana dilləri ərəbcə olmadığı üçün, İslamın həqiqi tərifini anlaya bilmirdilər [8, s.109-111]. Həsən əl-Bənna İslam dünyasının çətin vəziyyətindən çıxması üçün, İslam dövlətinin qurulmasının, xilafətin hakimiyyətinin yenidən bərpa olunmasını və onun

müsəlmanlara rəhbərlik etməsinin lazım olduğunu müdafiə edirdi. Beləliklə, dini və əxlaqi dəyərləri bərqərar etmək mümkün olardı. Bunun baş verməsi üçün, bütün müsəlman ölkələri müstəqilliklərini bərpa etməli idilər. Bənna, müsəlmanların İslamla əlaqəsinin yenidən möhkəmlətməyin zəruriliyini vurğulayırdı. Bunun üçün, dinə daxil edilmiş bidətləri, xurafatları təmizləmək lazım, Quran və səhih hədislərin dinin əsas mənbəyi olması xatırlanmalıdır. O, İslam və müasir həyatın bir yerdə davam edə biləcəyi fikrini təlqin etmək üçün, təşkilatlanmanın zəruri olduğunu bildirirdi.

Həsən əl-Bənnadan sonra İxvan düşüncəsinə ən çox təsir edən şəxslərdən biri də Seyyid Qütbdür. Qardaşlığın daha radikal ritorikaya çevrilməsinə və hətta İxvandan ayrılmasına səbəb olan Qütbə görə, cəmiyyətlər müsəlman və cahil olmaqla, iki yerə bölünür. Müsəlman cəmiyyətləri Allahın hökmləri ilə idarə olunduğu halda, cahil cəmiyyətlər İslam inancı ilə idarə olunmayan cəmiyyətlərdir [2, s.165-169]. Qütbə görə, təbliğ və cihad etməklə cahil cəmiyyətlərlə mübarizə aparmaq lazımdır. İslamın müqəddəsliyinə görə İslam uğrunda mübarizə aparanlar da müqəddəsdirlər, lakin Seyyid Qütbün açdığı bu yoldan bir çox radikal terror təşkilatları da çıxdı. Özü isə, 1965ci ildə edam edildi. Qütbün irəli sürdüyü qətiyyət və tənqidlərə nəzər saldıqda deyə bilərik ki, onun siyasi düşüncəsi Quran mərkəzli bir dirçəliş layihəsi, nümunəvi Quran nəsli qurmaq məqsədi daşıyır. Bundan sonra, Müsəlman Qardaşlar Misirdəki demokratikləşmə prosesində söz sahibi olmaq üçün digər müxalifət hərəkatları ilə birgə hərəkət etdilər.

***Nəticə.*** Yaxın keçmişdə İslamın siyasiləşdirilməsinin bir çox spesifik formalarına da rast gəlinir. Halbuki islami hərəkatlar özlərini siyasiləşdirərək milli dövlətlər strukturu daxilində və müasirliyə daxil olan bir kateqoriya olaraq çoxalmış və qurulmuşlar. Son zamanlar radikallaşmadan, hətta terrorizmdən tutmuş, demokratik proseslərə inteqrasiya olunmaqla, müasirliyi özünəməxsus şəkildə içimizə salan ifratlara kimi İslamın müxtəlif çalarlarda siyasiləşməsinin mühüm görünüş və nəticələrinin şahidi oluruq. Yaşadığımız günlərdə görünür ki, “Siyasi İslam” mövzusu gündəmdən düşmür, əksinə, başqa forma və görünüşlər alaraq varlığını qoruyur. Siyasi dəyişiklik və transformasiya çox vaxt “sivilizasiya” problemi kimi müasirlikdən İslam cəmiyyətinə keçidlə qarışdırılır. Fundamental qaynaqlara əsaslanan İslami nitqin nəzəri və yüksək intellektual ifadəsi çox vaxt alternativ sivilizasiya layihəsi və sosial təşkilat modeli kimi düşünülür. Buna görə də sistemi kökündən dəyişdirərək tarixi bir qırılma nəticəsində arzulanan cəmiyyət modelinə çatmaq hədəflərin ən təməlini təşkil edir. Nəticə etibarilə, modernləşmə layihəsinin özünəməxsus dini siyasəti, o cümlədən millətçilik ideologiyasının özünəməxsus siyasi tarixi, bütün kimlik tələblərini özündə ehtiva edib transformasiya edir. Beləliklə, demokratiya ilə İslam arasında qarşılıqlı maraqlara əsaslanan harmoniya yaranır və üstəlik, özünəməxsus İslam demokratiyası ehtimalı ortaya çıxır. Demokratik anlayış hakim vəziyyətə gətirildikdə, İslam dəyərləri əməli həyatda mövcud olma fürsəti qazanarkən, bu dəyərlərlə rənglənən demokratiya, zaman-zaman üzləşdiyi böhranlardan çıxmaq imkanı qazanır. Buradan belə nəticəyə gəlmək olar ki, demokratik vasitələrlə İslami dəyərlərin sintezindən, İslami demokratiya modeli yarana bilər.

## ƏDƏBİYYAT

1. Anies Rasyid Baswedan. Political Islam in Indonesia: Present and Future Trajectory // Asian Survey, Vol.44, No.5, (Sep.-Oct. 2004), p.670.
2. Büyükkara, M. A. Çağdaş İslami Akımlar (Altıncı baskı). İstanbul: Klasik Yayınları, 2017, 31 s.
3. Carolina Cox - John Marks, The “West”, Islam and Islamism: Is Ideological Islam Compatibale with Liberal Democracy? London: Civitas, 2003, p.127.
4. Manaz, A. Siyasal İslamcılık 1: Dünyada Siyasal İslamcılık. İstanbul: IQ Kültür Sanat Yayıncılık. 2008, 1088 s.
5. Mustafa Öcan, Arap Baharı ve Sonrası İslami Hareketler Yol Ayrımında. İstanbul, Çizgi kitapevi, Kasım, 2017, 166 s.
6. Öniş, Ziya. «Turkey and the Arab Spring: Between Ethics and Self-Interest» // Insight Turkey Vol.14 No.3, 2012, s.45-63.
7. Özer, A. 11 Eylül, Bölünen Dünya, Hantington Ve Çatışma // Toplum Ve Demokrasi, 3(5), 2009, s.191-210.

8. Ramazan Altıntaş, Din ve Sekülerleşme. İstanbul, Pınar Yayınları, 2005, 200 s.
9. Raşid Gannuşi, İslam Devletinde Kamusal Özgürlükler, çev. Osman Tunç, İstanbul: Mana Yayınları, 2015, 200 s.

**ФАРИДА АЛЛАХВЕРДИЕВА**
*Докторант Бакинского Государственного Университета*

## СТАНОВЛЕНИЕ ПОЛИТИЧЕСКОГО ИСЛАМА КАК РЕАКЦИЯ НА МОДЕРНИЗАЦИЮ

«Эссенциализм» и «универсальность» исламских движений были одним из наиболее обсуждаемых вопросов в литературе, пытающейся определить и понять исламизм изнутри и снаружи. Другими словами, это выражение напряженности между «уммой» и «нацией». В то время как определение мусульман с категорией «умма» в контексте принадлежности к одной религии и с одинаковым историческим опытом в глобальном смысле стало функциональным, их определение с категорией «нация» приобрело функциональность в постхалифатском периоде. мире в том смысле, что они подвергались разной политике национализации в разных национальных государствах и сталкивались с разными программами. Это неизбежное напряжение обсуждалось в обширной литературе, пытающейся дать определение исламизму, и не может быть разрешено в рамках неразрывности зрелости. Конечно, проблемы исламского движения в той или иной мусульманской стране нельзя отделить от проблем мусульман в других частях исламского мира. Тот факт, что современность трансформирует способ понимания религии и жизни в ней «раз и навсегда» и ставит мусульман лицом к лицу с дилеммой «религия-мир», привел к необходимости столкнуться с почти одинаковыми проблемами во всех географических регионах, где мусульмане составляют большинство. С модернизацией мусульмане лишились средств осмысления собственного существования и существования.

*Ключевые слова*: Политический ислам, Ближний Восток, модернизация, демократия, религиозные движения.

**FARIDA ALLAHVERDIYEVA**
*Doctoral student of Baku State University*

## THE FORMATİON OF POLİTİCAL ISLAM AS A REACTİON TO MODERNİZATİON

The 'essentialism' and 'universality' of the Islamic Movements has been one of the most preoccupied points in the literature that tries to define and understand Islamism from within and without. In other words, this is the expression of the tension between the 'ummah' and the 'nation'. While the definition of Muslims with the category of 'ummah' in the context of belonging to the same religion and having the same historical experience in the global sense became functional, their definition with the category of 'nation' gained functionality in the post-caliphate world in the sense that they were exposed to different nationalization policies within different nation states and faced different agendas. This inevitable tension is a tension that has been discussed in the large literature trying to define Islamism and cannot be resolved within the framework of the inextricability of maturity. Of course, the problems of the Islamic movement in a certain Muslim country cannot be separated from the problems of Muslims in other parts of the Islamic world. The fact that modernity transforms the way of understanding and living religion 'once and for all times' and leaves Muslims face to face with the religion-world dilemma has made it necessary to experience almost similar problems in all geographies where Muslims are the majority. With modernization, Muslims have been deprived of the means to make sense of their own existence and existence.

*Key words*: Political Islam, Middle East, modernization, democracy, religious movements.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.e.f.d. Məşdi İsmayılov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94**

**SAMİRƏ KƏRİMOVA**
*Sumqayıt Dövlət Universiteti*
**TarixVeOnunProblemlery@gmail.com**

# KİPR PROBLEMİNİN SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ (1953-1960)

*Məqalədə Kipr probleminin tarixi kökləri, bu adanın Yunanıstana birləşdirilməsi cəhdləri, Enozis ideyası şərh edilmişdir. 1947-ci ilin fevralın 10-da Parisdə İtaliya ilə imzalanmış müqavilənin şərtlərinə görə Osmanlı dövlətindən işğal etdiyi on iki adanı Yunanıstana verməsi, ABŞ və Sovet İttifaqının Kipr məsələsi ilə bağlı mövqeyi araşdırlmışdır. Bu zaman SSRİ Şərqi Aralıq dənizində öz siyasi maraqlarını təmin etməyə cəhd göstərmişdir. Adada mövcud olan İngilis hakimiyyətinin, Şərqi Aralıq dənizində Qərb dövlətlərinin, Türkiyənin, Yunanıstanın mövqelərini zəiflətmək və bu adanı kommunist bazasına çevirmək siyasəti, Kipr probleminin ilk illərində Türkiyənin Kiprlə bağlı siyasəti, Kiprdə qanlı terror aktları-EOKA terror təşkilatı, adanın Türkiyə və Yunanıstan arasında bölüşdürülməsinə dair "taksim tezisi", İngiltərə, Türkiyə və Yunanıstan arasında Sürix və London müqaviləsi, problemin həllində ABŞ və NATO-nun vasitəçiliyi təhlil edilmişdir.*

*Açar sözlər:* Kipr problemi, SSRİ, Türkiyə, Avropa ölkələri, ABŞ, Enozis, Yunanstan.

***Giriş.*** Şərqi Aralıq dənizi və Kipr əsrlər boyu siyasi, hərbi və ticarət hökmranlıq mübarizələrinə səhnə olmuş və son dövrlərdə müasir donanmaların yerləşdiyi geosiyasi məkandır. Həmçinin bu bölgə dünyanın ticarət və sənaye mallarının axdığı strateji mövqeyə malikdir. Ona görə də bu bölgə son bir neçə əsrdə Osmanlı dövrü də daxil olmaqla Rusiya, İngiltərə, Fransa, İtaliya, Amerika ilə Türkiyənin suverenlik uğrunda mübarizə apardığı bir bölgə idi. Bölgənin dünya dəniz nəqliyyatının ürəyi olması səbəbindən inkişaf etdirilən siyasi-hərbi strategiyalar baxımından Kipr Aralıq dənizi strategiyasının əsas nöqtələrindən biridir.

Bəllidir ki, Kipr problemi öz tarixini II Dünya müharibəsinin sonlarından götürmüşdür və bu adanın Yunanıstana birləşdirilməsi – enozis uğrunda müxtəlif qrupların göstərdiyi cəhdlərdən qaynaqlanmışdır. Enozis ideyası 1947-ci ildən etibarən daha geniş miqyas almış Yunanıstanın özündə də canlanma yaranmışdı. 1947-ci ilin fevralın 10-da Parisdə İtaliya ilə imzalanmış müqavilənin şərtlərinə görə İtaliya 1911-1912-ci illərdə Osmanlı dövlətindən işğal etdiyi on iki adanı Yunanıstana verdi [10, s.91]. Bu hadisədən sonra onlar Kiprə yiyələnmək üçün daha qəiyyətli addımlar atmağa başladılar.

Adanın tarixinin uzun müddət türk dövləti ilə bağlı olması Türkiyəni də bu hadisələrə biganə qoymadı. Lakin 1955-ci ilə qədər Türkiyə bu proseslərə ehtiyatla yanaşırdı. Bunun bir səbəbi sovet təhlükəsi idi ki, bu yolda Türkiyə NATO-ya daxil olmağa daha çox önəm verirdi. Ikincisi Yunanların adanın statusunun dəyişdirilməsi ilə bağlı İngiltərəyə edilən təyziqlərin nəticəsiz qalması idi. Bir tərəfdən də Türkiyə Balkan İtiifaqının reallaşmasına daha çox diqqət ayırmışdı.

Soyuq müharibənin başlanğıcı dövründə Sovet İttifaqının Kipr məsələsi ilə bağlı mövqeyi Kipr-Sovet münasibətlərinə qarşı Kipr-ABŞ balansı çərçivəsində davam etdi. SSRİ adanın Aralıq dənizini "kommunist bazası"na çevrilməsi üçün siyasət aparırdısa, ABŞ Kiprin NATO-nun himayəsində olmasını tələb edirdi. Demək olar ki, Kipr adaya ya ABŞ, ya da SSRİ-nin nüfuz etməsi mərhələsini keçirirdi. Kiprin strateji əhəmiyyətini nəzərə alan hər iki blok adanın qarşı tərəfin nəzarətinə keçməməsi üçün müxtəlif siyasətlər həyata keçirdi.

Sovetlər kommunist ideologiyasının yayılması üçün adada kommunist fəaliyyətlərin əsas təşkilatçısı və maliyyəçisi idi. Kipr probleminin ilkin mərhələlərində Sovet İttifaqı Kipr rumları və onların idarəçiliyinə dəstək verirdi. O, Kipr türklərinə qarşı törədilən zorakılıqları ölkənin daxili işi kimi təqdim edərək bu işdə NATO ölkələrini, xüsusilə Türkiyəni ittiham edirdi. Bu yaşamanın arxasında müxtəlif səbəblər dayanırdı. Kiprli Rumların kommunizmə qucaq açması, qərb qanadının böyük imperialistlərindən olan ingilislərin Kiprdə bazalarının olması və Türk-Sovet münasibətlərinin gərginliyi əsas səbəblərdən hesab edilə bilər [4, s.41].

SSRİ Şərqi Aralıq dənizində öz siyasi maraqlarını təmin etmək məqsədi ilə Kipr problemindən məharətlə istifadə edirdi. Burada SSRİ-nin siyasəti Kipr problemi vasitəsilə NATO-nun zəifləditilmə-sindən ibarət idi.

NATO-nun kollektiv təhlükəsizlik anlayışını və bütün dünyanın təhlükəsizliyini təhdid edən Kipr problemi, rus kommunistlərinin rasional manevrləri sayəsində sovetlərin maraqları ilə üst-üstə düşəcək şəkildə irəliləyirdi. Sovetlər sanki yunanları dəstəkləsələr də, nə adanın Yunanıstanla birləşməsini, nə də məsələnin həllini istəyirlər. Moskva Şərqi Aralıq dənizində slavyanların yayılmasına maneə kimi gördükləri Yunan idealını və ellinizm anlayışını rədd edirdi. Bu çərçivədə, Kipr problemində kommunizm siyasəti aşağıdakı məqsədlərə uyğun olaraq inkişaf etdirilmişdir:

- Kipr problemində xaos vəziyyətini saxlamaqla Şərqi Aralıq dənizində NATO qanadının zəifləndilməsi;
- Məsələnin həllinə, xüsusən də türk-yunan və ada xalqları arasında ola biləcək barışığa mane olmaq;
- Kiprin yunan adasına çevrilməsinin qarşısını almaq;
- Kiprdə "tamamilə müstəqil, əlaqəsi kəsilmiş və neytral" Kipr Respublikasının qurulmasını təmin etmək və qurulan dövlətin Qərbin himayəsində olmasının qarşısını almaq [13, s.110].

İkinci Dünya müharibəsi və sonrakı illərdə SSRİ-nin Yaxın Şərq regionunda xüsusilədə Şərqi Aralıq dənizində hökmranlıq etmək siyasəti daha da ön plana çıxmışdır. Bu prosesdə Kipr kommunistlərinin kirpli yunanlarla eyni istiqamətdə hərəkət etməsi Türkiyəni ciddi şəkildə narahat edirdi.

Şərqi Aralıq dənizində möhkəmlənməyin əsas yolu Kipr adası idi. Lakin adada davam edən İngilis hakimiyyəti SSRİ-nin cənuba doğru genişlənməsində əsas mane hesab olunurdu. Bu səbəbdən sovetlərin birinci vəzifəsi ingilis hegemonluğunu adadan təmizləmək idi. Adada ingilis hakimiyyətinə son vermək məqsədi ilə qırğın siyasətinə əl atmalı idilər.

Kipr Respublikası yaranmazdan əvvəl SSRİ bütün gücü ilə İngiltərəyə qarşı yunanları dəstəklədilər. İngilis hökmranlığına son qoymaq üçün yunanlara kömək edən SSRİ də Kiprin Yunanıstana birləşdirilməsinə və xüsusilə Kiprin Türkiyə ilə Yunanıstan arasında bölünməsinə qarşı çıxdı [20, s.47]. Bundan əlavə, Kiprin NATO-ya daxil olmasına mane olmaq üçün səy göstərir və imperialist olduqlarını vurğulayaraq hər zaman NATO əleyhinə təbliğat aparırdılar. SSRİ-nin bu dövrdə Kipr siyasətində uğurlu olduğunu deyə bilərik. Çünki Kipr Yunanıstanın və Türkiyənin istədiyi kimi nə ilhaq edildi, nə də bölündü, NATO-nun təsir dairəsinə də girmədi.

Adada ingilis hakimiyyətinə son vermək məqsədi ilə siyasət həyata keçirən Sovetlər adada ingilis hökmranlığına qarşı üsyanları alovlandırmaq üçün yetişdirdikləri yunan kommunistlərini Kiprə göndərdi və bu qrup Kiprin Yunanıstana birləşməsinə rəhbərlik edən Enosis kampaniyasına böyük dəstək verdi [2, s.167]. 1941-ci ildə yaradılan AKEL-in mahiyyətidə bundan ibarət idi. Sovet Rusiyasının Kiprdə mövcudluğu AKEL-lə başlamışdır.

Bu dövrdə AKEL kommunist partiyası Enosis tərəfdarlarından biri idi. Bununla əlaqədar olaraq SSRİ-də Enosis dəstəkçisi kimi çıxış etmişdi. Lakin SSRİ nə qədər Enosis tərəfdarı olsada adanın Yunanıstana birləşdirilməsi onun əsas məqsədi deyildi. Beləliklə, Sovetlər Enosis kampaniyasını adada İngilis varlığına qarşı mübarizə üçün əks hərəkat kimi qəbul edirdilər [24, s.85].

Bu yanaşmanın səbəbi aydın idi: Şərqi Aralıq dənizində strateji mövqedə olan və ingilislərin əlində olan Kipr adasından ingilislərin çıxarılmasına şərait yaratmaq, Şərqi Aralıq dənizində Qərb dövlətlərinin, Türkiyənin, Yunanıstanın mövqelərini zəiflətmək və bu adanı kommunist bazasına çevirmək [1, s.270].

1948-ci ildə rumlar İngiltərənin muxtariyyət təklifini rədd edərək Enosis istiqamətində mövqe tutmasına ada türkləri qarşı çıxaraq öz aralarında təşkilatlanmaq prosesini sürətləndirmiş, eyni zamanda Türkiyəni yanlarına çəkməyə çalışmışdılar. Lakin Qərb dövlətləri ilə münasibətlərində problem yaşamaq istəməyən Türkiyə Kipr probleminin olmadığını açıqlamış ve adada mövcud olan hakimiyyətin davam etdirilməsi istiqamətində öz mövqeyini bildirmişdi [12, s.2].

Türkiyədə isə 1950-ci il mayın 14-də keçirilən seçkilərdə qalib gələrək hakimiyyətə başına keçən Demokrat Partiyasının dövründə də Kipr probleminin olmadığı fikri hakim idi. Ancaq Yunanlar

və Rumlar davamlı olaraq Kipr məsələsini beynəlxalq aləmin gündəminə gətirməsi ilə Türkiyə Kipr məsələsində aktiv siyasət yürütməyə başlamışdır.

Türkiyə 1955-ci ilə qədər Kipr probleminə maraq göstərməmişdir. Bunun ilkin səbəbi artan sovet təhdidləri idi və bu təhdidlər qarşısında Türkiyə təhlükəsizliyini qaranti altına almağa məcbur idi. 1952-ci ildə Türkiyə NATO-.ya daxil olmaqla bu məsələni həll etmiş oldu [15, s.101]. 1952-1954-cü illərdə Yunanıstan Kiprin ona verilməsi tələbi ilə dəfələrlə İngiltərə müraciət etmişdi. İngiltərə isə rədd cavabı verirdi.

İngiltərə yunanlara niyə rədd cavabı verdiklərini adada türklərin varlığı ilə izah etdi. Adada təkcə yunanlar deyil, müsəlman türklər də yaşadığı tezisi ilə çıxış edərək Kiprin Anadolunun ayrılmaz bir parçası olduğunu ifadə etdi. Bu səbəbdən İngiltərə adanın Yunanıstanla birləşməsinin Türkiyə və Kipr türkləri tərəfindən qəbul edilməyəcəyini bildirirdi [7, s.77].

Kipr problemini müstəqillik mübarizəsi adlandıran və bu mübarizənin tərəfdarı olan SSRİ, Kipr məsələsinin ilk dəfə BMT Baş Assambleyasının gündəliyinə gəldiyi zaman problemin həll aktorlarının adada yaşayan xalqlar olduğunu bildirərək öz müqəddəratını təyin etmək hüququ çərçivəsində bu mübarizənin arxasında durduğunu açıqlamışdı [6, s.65].

Kipr probleminin ilk illərində Türkiyənin kiprlə bağlı aktiv siyasəti yox idi. Ona görə də İngiltərə mövcud status-kvodan razı görünən Türkiyəni öz tərəfinə çəkmək üçün səylər göstərirdi [9, s.54].

Lakin Balkan Paktı yaradılana qədər Türkiyə yenədə bu məsələyə qarışmamaq yolunu seçmişdi. Nəhayət, 9 avqust 1954-cü ildə Balkan paktı quruldu. Lakin bu ittifaq Yunanıstanın Kiprlə bağlı siyasətində bir dəyişikliyə səbəb olmadı. 16 avqust 1954-cü ildə o, əvvəlki iddialarını təkrarladı və Kiprdə öz müqəddəratını təyinetmə hüququnu (self-determination) verilməsi tələbi ilə BMT-yə müraciət etdi. Bu müraciət də Birləşmiş Millətlər Təşkilatı tərəfindən rədd edildi. Bu hadisələrin ardından Kiprdə qanlı hadisələr başladı. 1955-ci ildən başlayaraq şiddətli terror aktlarının təşkilatçısı olan EOKA terror təşkilatı adanı qan gölünə çevirmiş və Enosisə qarşı çıxan türk icması, ingilislər və Kipr Rumları üçün adada həyat dözülməz hala gəlmişdi. Əvvəlcə ingilislərə qarşı başlayan EOKA hərəkətləri qısa müddətdə türklərə qarşıda çevrilməyə başlamışdı.

Bu hadisələr şiddətləndikcə İngiltərə Türkiyə və Yunanıstanı məsələni müzakirə etmək üçün 29 avqust 1955-ci ildə keçiriləcək London konfransına dəvət etdi. Beləliklə, Türkiyə də məsələyə qarışmalı oldu. İngiltərə də bu dəvəti etməklə əsas məqsədi bu problemdə Yunanıstan qarşısında təkbaşına qalmaq istəməməsi idi [21, s.30].

Belə olduqda Türkiyədə məsələyə qarışmalı oldu. Faktiki olaraq, Türkiyə BMT-nin gedən danışıqlarında bu məsələyə qarışsada bunu öz hüquq və haqqlarını müdafiə etmək üçün deyil, sadəcə məsələnin tez bağlanmasını istədiyi üçün edirdi. Türkiyənin fikrincə adada status-kvonun qorunub saxlanılması sabitliyin bərpası ilə yanaşı, həm də adaya maraqlı dövlətlərin mənfəətlərinə uyğun gəlirdi [5, s.65].

Konfrans yunanların bitərəf münasibəti səbəbindən nəticəsiz qalsa da, aşağıdakı üç aspektdə əhəmiyyətli oldu. Birincisi İngiltərə Türkiyənidə Kipr probleminin həlli prosesinə daxil etdi. İkincisi, İngiltərə konfransdan sonra adaya muxtariyyətinin verilməsi yolunda yeni bir həll variantı müəyyən etdi. Nə nəhayət üçüncüsü İngiltərənin Türkiyəni dəvət etməsi ilə Yunanıstana qarşı tək mübarizə aparmaqdan canını qurtarmış oldu [15, s.101].

1956-cı ilin yanvarında Yuqoslaviyanın "Barba" qəzetində London konfransı ilə bağlı fikirlərini bildirən SSRİ xarici işlər naziri Şepilov Kiprdə azlıqda olan türklərə qarşı yunanlara kömək etməyə hazır olduqlarını bildirdi. 1956-cı ilin iyunun 16-da Yunanıstan parlamentinin sədri Konstantin Radopulasın SSRİ-yə yazdığı məktubla adada ingilis-türk ortaqlığına qarşı birgə mübarizəyə çağırdı [22, s.108].

1956-cı il iyunun 28 və 29-da SSRİ xarici işlər naziri D.T.Şepilov qeyri-rəsmi şəkildə Afinaya gəldi. Bu, yüksək rütbəli sovet liderinin Yunanıstana ilk səfəri idi. Yunanıstanın xarici işlər naziri Evangelos Averovun sözlərinə görə, bu, Yunanıstanın Moskva ilə iqtisadi əlaqələri inkişaf etdirmək şansı idi, eyni zamanda Sovetin "dinc hücumu"na görə ehtiyatlı davranırdı. Yunan hökuməti Şepilovun səfərinin Yaxın Şərq məsələləri və təbii ki, Kiprlə bağlı böyük əhəmiyyətini dərk edirdi [18, s.43].

1957-ci il iyulun 7-də Makarios SSRİ-nin Afinadakı səfirini ziyarət etdi və bununla da SSRİ-Makarios əməkdaşlığı açıq şəkildə gündəmə gəldi [14, s.232].

Türkiyə siyasətinə nəzər yetirdiyimiz zaman o dövr hakimiyyət başında olan hökumət adanın ingilis idarəçiliyində qalmasını ən ideal yol hesab etdiyini bildirirdi. Bu səbəbdən 1954-1956-ci illər ərzindədə ingilis hakimiyyətini müdafiə etdi. Lakin əgər ingilislər adadan gedərsə ada Türkiyənin idarəsi altına keçirilməli idi [16, s.1].

Beləliklə London konfransıda Kipr problemini həll edə bilmədi. Əksinə rumlarla türklər arasında qarşıdurmalar daha da artmağa başladı. Rumlara qarşı türklərdə özlərinin Türk Müqavimət Təşkilatını yaratmalı oldu.

Adanın iki xalq arasında bölünməsi qarşısında Adnan Menderes hökuməti 1956-cı ilin dekabrın 28-də adanıın Türkiyə və Yunanıstan arasında bölüşdürülməsini özündə ehtiva edən "taksim tezisi"ni qəbul etdiyini açıqladı [3, s.102]. İngiltərə tərəfi isə tezisi qəbul etməyərək hərbi bazalarının saxlanılması şərti ilə müstəqil Kipr dövlətinin yaradılmasına tərəfdar olduğunu bildirdi.

Nəticəsiz qalan London konfransının ardınca ABŞ və NATO problemin həllində vasitəçiliyi öz üzərlərinə götürdülər. Onların təzyiqiilə 1958-ci ilin dekabrın 9-da Yunanıstan enosisdən, Türkiyə də taksım tezisinden əl çəkdiyini bəyan edərək İngiltərənin Kiprin statusu haqqında konfrans keçirilməsi haqqında dəvətini qəbul etdilər [17, s.1].

İngiltərə, Türkiyə və Yunanıstan arasında 11 fevral 1959-cu ildə Sürix müqaviləsi və 19 fevral 1959-cu ildə London müqaviləsi imzalandı. Bu razılaşmalar nəticəsində üç ölkənin zəmanəti altında Kipr Respublikasının yaradılması qərar alındı [8, s.359].

London müqaviləsinin əsasını Sürixdə qəbul edilmiş mətnlər təşkil edirdi. Bunlar Kipr Respublikasının əsas strukturu, Zəmanət müqaviləsi və Müttəfiqlik müqaviləsi idi. Bu müqavilələrə görə, İngiltərə iki bölgə istisna olmaqla, adadakı hökmranlığını Kipr Respublikasına buraxırdı. Bu iki bölgə İngilis hərbi bazası əraziləri olacaqdır ki, burada da İngiltərə öz hökmranlığını davam etdirəcəkdi [8, s.361].

Müttəfiqlik müqaviləsinə əsasən adaya 950 Yunan və 650 türk əsgərinin yerləşdiriləcəkdi. Saziş Kiprdə enozis və bölünməni qadağan edir, Türkiyə, Yunanıstan və İngiltərəyə qurulacaq dövlətdə qanunu qorumaq üçün qarant hüququ verirdi. İngiltərə, Türkiyə və Yunanıstana adada konstitusiya quruluşu pozulduqda, rejimə qarşı təhlükə yarandıqda müqavilədə göstərilən nizamı bərpa etmək üçün birlikdə və ya tək başına Kiprə müdaxilə etmək hüququ verilmişdi. Bu maddə 1974-də Türkiyənin Kiprə müdaxiləsinin ilk gerçəklərindən biri oldu.

Türkiyə Cumhuriyyetinin Kipr problemində fəal rol oynaması və söz sahibi olması onun xarici siyasətinin əsas nailiyyətlərindən biri kimi hesab oluna bilər. Müqavilələrin Türkiyə üçün ən böyük dəyəri adada türklərin azlıq təşkil etmısinə baxmayaraq rumlarla eyni hüquqları verən Kipr vətəndaşı olması və adanın idarəsində söz sahibi olmasından ibarət idi. Beləliklə kipr türkləri adada enosisin qarşısının alınması və ada uğrunda mübarizədə əhəmiyyətli dərəcədə qazanc əldə etdilər.

Sovet-kommunist bloku təhlükəsinin həddən artıq hiss olunduğu 1950-ci illərin beynəlxalq mühitində Ankara və Afina xarici siyasətlərini ABŞ-ın maraqlarına uyğun davam etdirmiş və buna görə də Türkiyə Kipr məsələsində taksim tezisindən, Yunanıstan isə enosisdən imtina etməli olmuşdu. Çünki, ilkin təhlükə SSRİ idi. 1959-cu il Sürix-London razılaşmaları ilə NATO-nun cənub cinahındakı təhlükə aradan qaldırıldı. Çünki Türkiyə-Yunanıstan münasibətlərində gərginlik yaradan, ABŞ-ın Şərqi Aralıq dənizindəki hökmranlığına və NATO-nun təhlükəsizlik strukturuna xələl gətirən Kipr məsələsi imzalanan razılaşmalarla hələlik həll olundu.

1960-cı il avqustun 16-da Kipr Konstitusiyasının qüvvəyə minməsi ilə Kipr Respublikası rəsmi olaraq elan edildi [23]. Konstitusiyaya görə, adada yunanlar və türklər ortaqlıq əsasında yaşamalı idi.

Kipr Respublikası qurulanda SSRİ Prezidenti Brejnev 1960-cı il avqustun 16-da prezident Makariosa təbrik məktubu göndərdi. Məktubda o, Kipr xalqının müstəqillik uğrunda gərgin mübarizəsi nəticəsində əldə etdiyi müstəqilliyi təbrik edir xalqının və özünün təbriklərini çatdırırdı. Bundan əlavə, SSRİ hər zaman müstəqil Kipr Respublikası ilə diplomatiya sahəsində sıx əməkdaşlığa hazır olduğunu və Sovet xalqının yeni yaradılmış Respublikanın tərəfində olduğunu bəyan edirdi [19, s.275].

***Nəticə.*** Kipr adası strateji baxımdan son dərəcə mühüm ərazidə yerləşdiyi üçün böyük dövlətlərin o cümlədən SSRİ-nin maraq dairəsində idi. Ancaq Türkiyə üçün bu ərazi yalnız strateji baxım-

dan deyil, eyni zamanda Kipr türklərinin taleyi baxımından da əhəmiyyət daşıyırdı. Ona görə də Kipr problemi SSRİ-Türkiyə münasibətlərinə ciddi şəkildə təsir göstərirdi. Çünki SSRİ Türkiyənin həmin bölgədə nüfuzunun artmasını istəmirdi. SSRİ ilə yanaşı digər - ABŞ, İngiltərə, Yunanstan kimi dövlətlərin də problemin həllində öz maraqları var idi.

ƏDƏBİYYAT

1. Armaoğlu Fahir. 20.Yüzyıl siyasi tarihi. 1914-1995. Ankara, Ayrac Sanal yayın evi, 1999, 492 s.
2. Aziz. 1964 yılında Kıbrıs buhranı ve Sovyetler Birliği // Aknara Universitesi Sosyal Bilimler Fakültesi Dergisi, c.XXIV, №3, s.167-210 s.
3. Balcı A. Türkiye dış politikası. İlkeler, aktörler ve uyğulamalar. İstanbul: Alfa Yayıncılık, 2017, 400 s.
4. Bayraktar O. Capitalizing on the Cold War: Turkey, Greece and the Cyrups problem, 1963-1974. Ankara: The Graduate School of Economics and Social Sciences of İhsan Doğramacı Bilkent University, 2018, 158s.
5. Bölükbaşı D. Turkey and Greece: The Aegean Disputes.A Unique Cse in İnternational Law. London: Routledge-Cavendish, 2004, 992 s.
6. Bölükbaşı S. Barışçı Çözümsüzlük. Ankara: İmge Yayınevi, 2001, 367 s.
7. Ergenekon S. Kıbrıs sorunun Birleşmiş Milletlere taşınmasının ardından ortaya çıkan Yunan-Rum EOKA tedhiş örgütü // Ufuk Üniversitesi Sosyal Bilimler Enstitüsü dergisi, 2018, c.7, №13, s.75-89.
8. Ergenekon Savrun, Tınal M. Soğuk savaş döneminde İngiltere ve Türkiyenin Kıbrıs politikaları (1955-1964) // Çağdaş Türkiye tarihi araşdırmaları merkezi, 2017, c.17, № 34, s.349-371.
9. Gokay B. Soviet Eastern Policy and Turkey (1920-1991). Soviet Foreign Policy, Turkey and Communism. NewYork: Routledge, 2012, 208 s.
10. İsmayılov R. Axundova N. Bağırova A. Asiya və Agfrika ölkələrinin çağdaş tarixi (1945-ci ildən sonrakı dövr). Bakı: Çaşıoğlu, 2003, 592 s.
11. Kıbrıs Cumhuriyyetini doğuran anlaşma imzalandı / Milliyet Halk qazetesi, 1959, 20 şubat, s.1.
12. Kıbrıs meselesi dün Mecliste görüşüldü / Cumhuriyyet qazetesi, 1950, 24 ocak, s.2.
13. Tamçelik S. Kıbrıs Rum Komünist Partisinin (AKEL) 3-6 mart 1966 tarihli XI. Kurultayında aldığı enosis kararı ve SSCB-nin Kıbrıs politikası // Ankara: Sosyal Bilimler Dergisi, s.110-144. - http://journals.manas.edu.kg/mjsr/oldarchives/Vol01_Issue01_2001/11.pdf [07.10.2022].
14. Tellal E. SSCB-Türkiye ilişkileri. Ankara: Siyasal Yayınevi, 2020, 232 s.
15. Tosun R. Kıbrıs meselesi // Ankara: Sosyal Bilimler Enstitüsü Dergisi, 2001, №10, s.95-107.
16. Türk tezi İngilterede büyük bir takdir topladı / Akşam qazetesi, 1995, 2 eylül, s.1.
17. Üçlü konferans gerçekleşiyor / Milliyet Halk qazetesi, 1958, 19 aralık, s.1.
18. Аргириос Т. Деколонизация Кипра и позиция советского союза (1953-1959 гг.) // Конфиликтология // Notabene. 2020, №2, c.42-56.
19. Громыко А.А., Пономарев Б.Н. История внешней политики СССР 1945–1980 гг. В Двух томах , т. 2 – Москва: Издательство «Наука», 1981, 590 с.
20. Иванова И.И. Кипрский вопрос во внешней политике Турции // Востоковеды о международных проблемах Востока. М.: Институт востоковед. РАН; Восточный университет, 2007. 315 с.
21. Иванова И.И. Эволюция ближневосточной политики Турецкой Республики в XX-XXI вв. Москва: Издатель Воробьёв А.В., 2019, 380 с.
22. Калинин А.А. Политические аспекты советско-греческих отношений в 1953–1959 гг. // Вестник Вятского государственного университета, 2017, № 12, С.106–116.
23. Конституция Республики Кипр от 16 августа 1960 г. URL: http://www.concourt.am/armenian/legal_resources/world_constitutions/constit/cyp ros/cyprus-r.htm [07.10.2022].
24. Поцхверия Б.М. Турция и кипрский вопрос. Политика Англии на Ближнем и Среднем Востоке, Москва: Наука, 1966, s.85.

**САМИРА КЕРИМОВА**
*Сумгаитский государственный университет*

## ВЛИЯНИЕ КИПРСКОЙ ПРОБЛЕМЫ НА СОВЕТСКО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ (1953-1960)

В статье говорится об исторических корнях кипрской проблемы, попытках присоединения этого острова к Греции, идеи Энозиса. Рассматриваются условия договора, подписанного с Италией 10 февраля 1947 г. в Париже, в результате которого Греции перешли двенадцать оккупированных островов Османского государства, а также позиция США и СССР в отношении кипрского вопроса. В это время СССР пытался обеспечить свои политические интересы в Восточном Средиземноморье. Анализируется британское влияние на острове, курс на ослабление позиций западных стран, Турции и Греции в Восточном Средиземноморье и превращение этого острова в коммунистическую базу, политика Турции на Кипре в первые годы кипрской проблемы, кровавые террористические акты на Кипре - террористическая организация ЭОКА, «таксимский тезис» о разделе острова между Турцией и Грецией, Цюрихско-лондонское соглашение между Англией, Турцией и Грецией, посредничество США и НАТО в решении данной проблемы.

*Ключевые слова*: кипрская проблема, СССР, Турция, страны Европы, США, Энозис, Греция.

**SAMIRA KARIMOVA**
*Sumgayit State University*

## THE IMPACT OF THE CYPRUS PROBLEM ON USSR-TURKEY RELATIONS (1953-1960)

In the article, the historical roots of the Cyprus problem, attempts to join this island to Greece, and the idea of Enosis are explained. According to the conditions of the agreement signed with Italy on February 10, 1947 in Paris, the position of the United States and the Soviet Union on the issue of Cyprus, which gave the twelve islands occupied by the Ottoman state to Greece, was investigated. At this time, the USSR tried to secure its political interests in the Eastern Mediterranean. The policy of weakening the positions of the British authorities on the island, Western countries in the Eastern Mediterranean, Turkey and Greece and turning this island into a communist base, Turkey's policy on Cyprus in the first years of the Cyprus problem, bloody terrorist acts in Cyprus - the EOKA terrorist organization, the division of the island between Turkey and Greece, the "taksim thesis", the Zurich and London agreement between England, Turkey and Greece, and the mediation of the United States and NATO in solving the problem were analyzed.

*Keywords*: Cyprus problem, USSR, Turkey, European countries, USA, Enosis, Greece.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Şirxan Səlimov, s.e.d. Adil Mirabdulayev..*

**UOT 94(479.24); 572.9**

**GÜLNAR BƏŞİROVA**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun dissertantı*
**gulnar.bsirova@mail.ru**

# XX ƏSRİN SONUNDA SUMQAYIT ŞƏHƏRİNİN TARİXİNDƏN

*Bu məqalədə 1988-ci ilin fevral ayının o dəhşətli günlərində bu şəhərdə baş verən hadisələrin səbəblərini, gedişatını və nəticələrini obyektiv qiymətləndirməyə cəhdlər edilmişdir. 1988-ci il Sumqayıt hadisələri əslində Azərbaycan Respublikasına və onun xalqına qarşı yönəlmiş xarici qüvvələrin təxribatı idi. O, Azərbaycana hərtərəfli təzyiq göstərmək üçün təhrik olundu. Təəssüflər olsun ki, bəzi azərbaycanlılar da bu hadisələrdə düşünülməmiş şəkildə iştirak ediblər.*

*Açar sözlər*: Azərbaycan, Ermənistan, Sumqayıt, şəhər, iğtişaş, fevral, hadisə.

***Giriş***. Azərbaycan xalqı təxminən 200 ildir ki, öz tarixi-etnik torpaqlarından didərgin salınıb. Düşünülmüş və planlı şəkildə həyata keçirilən bu məkrli siyasət kütləvi deportasiya və soyqırımı ilə müşaiyət olunmuş, nəticədə on minlərlə, soydaşımız tarixi torpaqlarından qovulmuşdular [12].

Məlum olduğu kimi, ötən əsrin 80-ci illərinin ortalarında keçmiş SSRİ respublikalarından biri olan Ermənistan digər müttəfiq respublikanın - Azərbaycanın daxili işlərinə kobud şəkildə müdaxilə edərək, ölkəmizin siyasi- coğrafi, etnik-mədəni baxımdan tarixi ərazisi olan Dağlıq Qarabağ bölgəsi ilə bağlı əsassız iddialar irəli sürdü. Bununla da, iki müttəfiq respublika arasında münaqişə getdikcə daha da gücləndi. 1987-ci ilin noyabrında ermənilərin nümayəndələri Moskvaya gedərək mərkəzi orqanlar qarşısında əsassız tələblərini irəli sürdülər. Elə həmin aydan etibarən Ermənistan SSR-də öz tarixi torpaqlarında, ata yurdlarında yaşayan azərbaycanlı əhaliyə qarşı hücumlara start verildi. Bunun da nəticəsində minlərlə azərbaycanlı ailəsi qaçqına çevrilərək Azərbaycana pənah gətirdi. Artıq 1988-ci ilin yanvar ayında Azərbaycanda Ermənistandan qovulan 4 mindən çox azərbaycanlı vardı [14].

1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlanmışdı. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürülürdü. Mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası və azərbaycanlı orta məktəbi idi. C.Cabbarlı adına İrəvan Azərbaycanlı Dram Teatrının ləvazimatı isə yandırılmışdıdı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurmuşdular. Bütün bunlar törədilən zaman Sumqayıt faciəsi hələ hazırlanırdı [13].

XX əsrin 80-ci illərinin sonunda Sumqayıt şəhərinin tarixinə qeyri-adi, gözlənilməz, acı bir səhifə yazılmışdır. Bu 1988-ci il 27-29 fevral hadisələri idi [9]. "Sumqayıt hadisələri Dağlıq Qarabağ hadisələri ilə bilavasitə bağlı olmuşdur. Məlumdur ki, tarix boyu Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olmuşdur [3].

1988-ci il fevralın 22-də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi iğtişaşlar Azərbaycanın ən böyük sənaye mərkəzlərindən biri olan Sumqayıtda da vəziyyəti gərginləşdirmişdi [3].

1988-ci il fevralın 28-də Sumqayıtda baş vermiş bu hadisələr SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı təşkil etdiyi və həyata keçirdiyi təxribatların növbəti tərkib hissəsi idi. Məqsəd isə hər zaman olduğu kimi, dünya ictimaiyyətində yanlış rəy formalaşdırmaq, anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmaq idi. Bütün şahid ifadələri Sumqayıt hadisələrinin təşkilatçısının erməni, iki dəfə məhkum edilən Eduard Qriqoryan olduğunu sübut edirdi [16].

Bakının 30 km-də yerləşən Sumqayıt şəhəri təsadüfən seçilməmişdi. Həmin ərəfədə Ermənistandan zorla çıxarılmış 41 mindən artıq Azərbaycan türklərinin əksəriyyəti məhz Sumqayıtda məskunlaşmışdı və ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərə görə qəzəb içərisində idilər. Hələ Sovet dövründə də "ölü zona" adlandırılan şəhərin yerli əhalisi də yoxsulluq və səfalət ucbatından radikal addımlar atmağa meylli idi. Ona görə də burada geniş miqyaslı iğtişaşlar törətmək mümkün olmuşdu [13].

Qeyd etdiyimiz kimi Sumqayıtdakı hadisələrin əsas təşkilatçıları ermənilər idi. Həmin hadisənin baş verməsində Sumqayıt əhalisi arasına yerləşdirilən və Azərbaycan dilini təmiz bilən ermənilərdən ibarət təxribatçı qruplar xüsusi rol oynamışdı [13].

Sumqayıt faciəsinin erməni millətçiləri tərəfindən dərindən düşünülmüş, planlaşdırılmış əməliyyat olduğunu sübut edən dəlillərdən biri də faciənin baş verməsindən bir neçə saat əvvəl şəhərə erməni televiziya kanalı əməkdaşlarının və fotoreportyorlarının daxil olub hadisəni çəkmək üçün gözləmələri idi. Cinayət aksiyasına ilk başlayan azərbaycanlı görkəmində özünü "Paşa" ləqəbi ilə təqdim edən Qriqoryan olmuşdu. O şəxsən özü altı sumqayıtlı ermənini öldürmüşdü [2]. Sumqayıt şəhəri hadisələri törətmək üçün əlverişli yer kimi seçilmişdi. Bunun obyektiv və subyektiv amilləri vardı. Hadisələrin baş verməsi ərəfəsində şəhərdə müxtəlif millətlərdən olan 258 min 200 adam yaşayırdı ki, onların 14 min 208 nəfəri erməni idi və bunların müəyyən qismi "Qarabağ" və "Krunk" təşkilatlarına üzvlük haqqı verməkdən imtina edən, bu təşkilatların millətçi və separatçı siyasətini qəbul etməyən adamlar idi. Sumqayıt şəhəri hadisələri lazımi məcraya yönəltmək, onun geniş miqyasda yayılmasına yol verməmək baxımından əlverişli idi. Burada hadisələri törədib Bakıdan dərhal dünya ictimaiyyətinə antiazərbaycan təbliğatını yaymaq üçün geniş imkan var idi. Hadisələr ərəfəsində Sumqayıt şəhər əhalisinin orta yaşı 25-26 il idi. Şəhərdə ağsaqqal , böyük-kiçik münasibətləri formalaşmadığından şəhər müəssisələri və texniki peşə məktəbləri yataqxanalarında yaşayıb və valideyn nəzarətindən uzaq olan gəncləri hadisələrə təhrik etmək, qoşmaq asan idi [5].

Gənc sənaye şəhəri Sumqayıt dünya ictimaiyyəti nəzərində tək inşaatçılar, metallurqlar və kimyaçılar şəhəri kimi deyil, həm də xalqlar dostluğu, müxtəlif millətlərin qardaşlıq şəhəri kimi tanınmışdı. Burada hadisələri törətməklə bütövlükdə Azərbaycan xalqının təbiətinə xas olan dostluq, insanpərvərlik, beynəlmiləlçilik kimi xüsusiyyətlərinə ləkə yaxmaq, onu dünya ictimaiyyətinə millətçi, vəhşi, barbar bir xalq kimi göstərmək və bu səbəbdən də onlarla birgə yaşamağın mümkün olmaması fikrini formalaşdırmaq nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, Sumqayıt iğtişaşları da əsasən şəhərin "Dostluq"və "Sülh" küçələrində törədilmişdi [5].

Qeyd etmək yerinə düşərdi ki, 1988-ci il 27-29 fevral hadisələri Sumqayıtda törədilsə də, bu hadisələrin səbəbi nə Sumqayıtla, nə də ki, sumqayıtlılarla bağlı deyildi. Hadisələrin ən azı iki tərəfi vardı: birinci və bəlkə də ən əsas tərəf M.S.Qorbaçovun başçılığı ilə dünya sosialist sistemini və eləcə də SSRİ-ni dağıtmaq siyasətini həyata keçirən qüvvələr, ikinci tərəf isə fürsətdən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan qoparmaq və Ermənistana birləşdirmək istəyən erməni və ermənipərəst millətçi və separatçı qüvvələr idi. Hadisələr əvvəlcədən hazırlanmış ssenari ilə cərəyan etmişdi [6]. Əvvəcədən hazırlanmış ssenarinin həyata keçirilməsi – Ermənistanda yaşayan azərbaycanlıların mütəşəkkil şəkildə öz ata-baba yurdlarından zorla qovulması prosesi başlanmışdı. İlk qaçqınlar Bakıya, Sumqayıta gəlib, başlarına gətirilən fəlakətdən, zorakılıqdan şikayətlənib, cavab aksiyalarının həyata keçirilməsini tələb edib, nümayişlərə, yürüşlərə başlamışdılar. Onların arasında ustalıqla maskalanmış, Azərbaycan dilində səlis danışan erməni emissarları var idi və o vaxt Azərbaycan tərəfi hadisələrin belə cərəyan edəcəyini heç ağlına belə gətirmirdi. Hadisələrin gedişi Azərbaycan ərazisində təxribatların törədilməsinə ehtimal yaratmışdı. Lakin digər millətlərə həmişə öz səmimi münasibəti ilə seçilən Azərbaycan xalqı həmin vaxt təxribatların qarşısını ala bilmirdi. Çünki bu təxribatlar, necə deyərlər, erməni hiyləsi ilə yoğrulmuşdu [1].

Sumqayıtda törədilmiş iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam həlak olmuş, 400 nəfərdən çox adam bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın zədələnmiş və bir hissəsi yandırılmış, dövlətə o vaxtki qiymətlərlə 7 milyon rubl məbləğində maddi ziyan vurulmuşdur [9].

Həmçinin1988-ci ilin fevral ayının 27-29-da Sumqayıtda baş verən iğtişaşlar zamanı 6 nəfər azərbaycanlı da həlak olmuşdur. Faktlara əsasən deyə bilərik ki, bu günahsız 6 nəfərin ölümündə ermənilərin əli vardır. Burada baş verən qətl hadisələrindən başqa, bir çox sumqayıtlı, o cümlədən 23 nəfər erməni, 7 nəfər rus və 50 nəfər azərbaycanlı müxtəlif bədən xəsarətləri almışdılar [3].

Sumqayıt faciəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur. Martın 1-dən isə Sumqayıtda komendant saatı tətbiq olunmuşdur [13].

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib [16].

Sumqayıt böyük bir siyasi oyunun qurbanı oldu. Burada törədilən hadisələrin əks-sədası bütün dünyaya yayılmışdı. Sumqayıt hadisələri SSRİ-nin dağıdılmasında bir alət rolunu oynadı. Sovet imperiyasını dağıtmaq üçün konflikt lazım idi. Bu konflikti də ermənilər Qarabağda çox bacarıqla yarada və həyata keçirə bilmişdilər [8].

Hər bir Sumqayıt vətəndaşı, ziyalısı, həmin dövrü yaşamış hər bir sakin artıq indi o vaxtlar törədilmiş iğtişaşların səbəbini və mahiyyətini tam təfərrüatı ilə anlayıb, başa düşmüşdü.

Əgər o vaxtlar Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olsaydı, nəinki Sumqayıt hadisələri, eləcə də Bakı şəhərində 20 Yanvar faciəsi törədilməzdi. Ermənistan ərazisində yaşayan soydaşlarımız öz dədə-baba yurdlarından qovulmaz, bir milyona yaxın azərbaycanlı öz doğma torpaqlarından çıxarılmaz, didərgin salınmazdı [1]. Sumqayıt hadisələri gələcəkdə Qarabağın genişmiqyaslı işğalı üçün ermənilərin yalnız ön sözü imiş [4].

Sumqayıt hadisələri Qarabağın müdafiəsinə könüllü olaraq qalxan gənc azərbaycanlıları da məyus etmiş, onların həvəs-istəklərini bir növ ürəklərində dondurmuşdu. Bu gün qətiyyətlə demək mümkündür ki, Qarabağı işğala aparan yol məhz Sumqayıtdan başlanmışdır. Bu yolun bələdçisi sabiq SSRİ-nin rəhbərləri, təpədən-dırnağacan silahlanmış ordu bölmələri, xarici kəşfiyyat idarələri olmuşdur. Unutmuşdular ki, gələcək nəsillər onları heç vaxt bağışlamayacaq [7].

Onu da qeyd etmək lazımdır ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq daha geniş miqyas alardı [16].

Sumqayıt təxribatı ermənilərin Azərbaycan Respublikası torpaqlarını ələ keçirmək, azərbaycanlıları öz doğma yurd-yuvalarından deportasiya etmək kimi strateji məqsədlərini həyata keçirməkdə həlledici məqam oldu. Azərbaycan Respublikası torpaqlarının işğalı, milyonlarla insanın qaçqın düşməsi Sumqayıt hadisələrinin real nəticəsi idi [10].

Bu gün tam əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət sayəsində dünyanın ən güclü Silahlı Qüvvələri arasında yer alan Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi. Beləcə 20 Yanvar faciəsini, Sumqayıt hadisələrini, Xocalı soyqırımını törədən ermənilərin və havadarlarının planları boşa çıxdı. Prezident İlham Əliyev bildirir ki, Ermənistan bir daha təxribat törətsə nəticəsi daha ağır olacaq: "Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Biz heç vaxt imkan verməri̇k ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər".

Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan ordusunun 44 gündə məhv edilməsi, erməni miflərinin dağıdılması Azərbaycan xalqının birlik və həmrəyliyinin rəmzi, ermənilərin rəzilliyidir [15].

***Nəticə.*** Beləliklə, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub, torpaqlarımızı işğaldan azad etdilər. Bütün dünya gördü ki, siyasi iradə, güc, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət olan yerdə haqq-ədalət öz yerini tapır. Bu həqiqəti Azərbaycan yaratdığı reallıqları ilə nümayiş etdirdi.

## ƏDƏBİYYAT

1. Bayramov V. Sumqayıt hadisələri ermənilərin düşünülmüş məkrli planı idi / "Xalq qəzeti", 2003, 27 fevral, 2.
2. Богдатьев Л. Продолжение подвига. (О городе Сумгаите) / газ. «Вышка», 1980, 3 января, 120.
3. Eyruz Məmmədov, Ramazan Məmmədov. Sumqayıt 1988: Cinayət və cəza. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 384 s.
4. Əliyev X. 1988-ci il Sumqayıt hadisələri Qarabağ müharibəsi üçün son söz imiş / "Azərbaycan" qəz., 2001, 28 fevral, 4.
5. İsmayılov A. Sumqayıt – SSRİ-nin süqutunun başlanğıcı. Bakı, Çaşıoğlu, 2010, 204 s.
6. Qəhrəmanov N.F. Sumqayıt hadisələri: həqiqətin bir üzü var / "Respublika" qəz., 2001, 1 mart, 4.
7. Mehdixanlı T. Qarabağı işğala aparan yol (Sumqayıt hadisələri) / "Azərbaycan" qəz., 2003, 20 fevral, 5.
8. Məmmədov E. Böyük siyasi oyunun qurbanı: 12 il əvvəl Sumqayıtda qırğını kimlər törətdi? / "Xalq qəzeti", 2000, 27 fevral, 2.

9. Məmmədov R.S., Sadıqov H.Ş. Sumqayıt: tarixdən səhifələr (1930-2000). Sumqayıt, 2010, 240 s.
10. İbrahim Məmməd oğlu Məmmədov. Ermənistanın Azərbaycana qarşı işğalşılıq siyasətinin tərkib hissəsi: 1988-ci il Sumqayıt hadisələri. - http://www.aak.gov.az/avtoref_to_mudaf/pdf_to_mudaf/tar/tar_n_mim_22_04_15. pdf [01.11.2022].
11. Fuad Ələsgərov: "Sumqayıt hadisələrinin əsl təqsirkarlarının aşkar edilməsi istiqamətində fəaliyyət davam etdirilir" - Müsahibə. / APA, 28 fevral 2012. - https://apa.az/az/daxili-siyaset/-252604 [01.11.2022].
12. Azərbaycan Elmlər Akademiyası Milli Münasibətlər İnstitutu Vaqif Arzumanli, Nazim Mustafa Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: "Qartal", 1998, 280 s. - http://anl.az/el/a/av_tqs.pdf [01.11.2022].
13. Sumqayıt hadisələr (1988). - https://az.wikipedia.org/wiki/Sumqay%C4%B1t_hadis%C9%99l%C9%99ri_(1988) [01.11.2022].
14. Musa Qasımlı: "Sumqayıt hadisələri sovet rəhbərliyinin və erməni dairələrinin Azərbaycan xalqına qarşı təxribatı idi" – Müsahibə. / "Azərbaycan".-2011.-2 mart.-N 48.- S.7-8. - http://www.anl.az/down/meqale/azerbaycan/2011/mart/160654.htm [01.11.2022].
15. Xuraman İsmayılqızı. Sumqayıt hadisələri planlaşdırılan erməni təxribatlarının ilk həlqəsi idi/ İki sahil, 26 fevral 2021. - https://ikisahil.az/post/200933-sumqayit-hadiseleri-planlashdirilan-ermeni-texribatlarinin-ilk-helqesi-idi [01.11.2022].
16. Sumqayıt hadisələri: Ermənilərin törətdikləri təxribatdan 32 il ötür / Report İnformasiya Agentliyi, 28 fevral 2020-ci il. - https://report.az/daxili-siyaset/sumqayit-hadiseleri-ermenilerin-toretdikleri-texribatdan-32-il-otur/ [01.11.2022].

**ГУЛЬНАР БАШИРОВА**
*Диссертант Института археологии, этнографии и антропологии НАНА*

## ИЗ ИСТОРИИ ГОРОДА СУМГАИТ В КОНЦЕ XX ВЕКА

В данной статье предприняты попытки объективно оценить причины, ход и последствия тех событий, которые произошли в те страшные дни февраля 1988 года в этом городе. Сумгаитские события 1988 года на самом деле были диверсией внешних сил, направленных против Азербайджанской Республики и её народа. Она была спровоцирована с тем, что оказать всестороннее давление на Азербайджан. К большему сожалению некоторые азербайджанцы также не продуманно участвовали в этих событиях.

*Ключевые слова:* Азербайджан, Армения, Сумгаит, город, бунт, февраль, мероприятие

**GULNAR BASHIROVA**
*Dissertation student of ANAS Institute of Archaeology, Ethnography and Anthropology*

## FROM THE HISTORY OF THE CITY OF SUMGAYIT AT THE END OF THE 20TH CENTURY

This article attempts to objectively assess the causes, course and consequences of the events that occurred in those terrible days of February 1988 in this city. The Sumgait events of 1988 were actually a diversion of external forces directed against the Republic of Azerbaijan and its people. It was provoked in order to exert comprehensive pressure on Azerbaijan. Unfortunately, some Azerbaijanis also participated in these events thoughtlessly.

*Keywords:* Azerbaijan, Armenia, Sumgait, city, riot, february, event.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Nailə Ciddi, t.e.d. İbrahim Zeynalov.*

**UOT 327**

**AYTƏKİN QASIMOVA**
*Bakı Dövlət Universiteti*
**aytakin102bm@gmail.com**

# TÜRKDİLLİ XALQLARIN MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ TÜRKSOY-UN ROLUNUN PRAKTİKİ TƏHLİLİ

*XX əsrin son onilliyində dünyada baş verən qlobal siyasi hadisələr nəticəsində Sovet imperiyası süqut etdi, uzun illər orada yaşamalı olan xalqlar siyasi müstəqilliklərini qazanaraq öz suveren dövlətlərini yaratdılar. Bu xalqların milli-mənəvi dirçəliş yolunda dünya xalqları ailəsində layiqli yer tutmaları üçün geniş üfüqlər açılmışdı. Zəngin və qədim mədəni irsə malik türk xalqları tarixin verdiyi bu gözəl fürsətdən istifadə edərək milli-mədəni mənada yenilənmək yolunda ciddi addımlar atmağa başladılar. Həmin dövrdə TÜRKSOY Təşkilatının yaradılması eyni soy-kökə, dilə, tarixi-mədəni keçmişə, adət-ənənələrə malik xalqlarımızın mənəvi həyatında baş verən proseslərin əlaqələndirilməsi və düzgün istiqamətləndirilməsi baxımından məqsədəuyğun və faydalı addım idi.*

*Açar sözlər*: TÜRKSOY, Azərbaycan, əməkdaşlıq, türk, mədəniyyət.

***Giriş***. Türklərin YUNESKO-su adlandıra biləcəyimiz TÜRKSOY-un yaradılması ilə bağlı ilk növbədə qeyd etmək lazımdır ki, ölkələrimizin müstəqillik əldə etməsi tarix, mənşə, dil, din və mədəniyyət baxımından eyni mənşədən olan xalqlarımız arasında əlaqələrin genişlənməsi və dərinləşməsi üçün yeni şəraitdə geniş imkanlar açıb. İlk dəfə 1992-ci ilin oktyabrında Ankarada keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısı son illərdə möhtəşəm ənənəyə çevrilmiş, qardaş xalqlarımız arasında dostluğun və sıx əməkdaşlığın möhkəmlənməsinə və inkişafına xidmət edir.

***TÜRKSOY bugün türk dəyərlərinin qorunmasını, vahid Türk Dünyası ideyasını bütün dünyanın diqqətinə çatdırır.*** 1992-ci ilin iyununda 6 ölkənin mədəniyyət nazirləri tərəfindən İstanbulda yaradılmış Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurası bu sahədə mühüm rol oynayır. 1992-ci ilin dekabrında bu təşkilat Bakıda TÜRKSOY adını aldı. TÜRKSOY Baş İdarəsi 1993-cü ilin fevralından Ankarada fəaliyyət göstərir. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə Almatıda TÜRKSOY-un yaradılması haqqında Saziş imzaladılar. Müqaviləni imzalayan Türkiyə Cümhuriyyəti Parlamenti və digər türkdilli dövlətlər TÜRKSOY-u rəsmən tanıdıqlarını bəyan etdilər. Daha sonra Daimi Şuraya Tatarıstan, Başqırdıstan, Şimali Kipr Türk Respublikası, Tuva və Xakasiya qoşuldu. Beləliklə, mədəni əlaqələrimiz də günü-gündən inkişaf edir və genişlənir.

Yeni təşkilat olan TÜRKSOY-un məqsədlərini belə ümumiləşdirmək olar: Türkdilli ölkələr və toplumlar arasında mədəni əlaqələri inkişaf etdirmək; Türk mədəniyyətinin tədqiqi, araşdırılması, inkişaf etdirilməsi, qorunması və beynəlxalq arenada təbliği; Tarixi, siyasi və coğrafi şəraitdən və xarici amillərdən irəli gələn mədəni fərqlərin aradan qaldırılması; Türk mədəniyyətini başqa mədəniyyətlərin təsirindən xilas etmək, öz resurslarına əsaslanaraq öz mədəni dinamikasına uyğun hərəkət etmək və digər ortaq xarici mədəniyyətlərlə rəqabətədavamlı etmək; Geniş coğrafiyada yaşayan türk dövlətləri və toplumları arasında əlifba və dil birliyinin yaradılması; Dünya sivilizasiyasının formalaşmasında mühüm rol oynayan türk mədəniyyətinin gələcək nəsillərə ötürülməsi; Türk mədəniyyəti, incəsənəti və digər mövzularda arxiv və sənədləşmə mərkəzinin yaradılması. 1993-cü ildə yaradılan TÜRKSOY-un əsas ideyası dünyanın müxtəlif yerlərində yaşayan türkdilli xalqların bir-birinin mədəniyyətini tanıması və onlardan bəhrələnməsidir. Daha doğrusu, türk xalqlarının mədəni irsin tədqiqi, qorunması və təbliğində bir araya gəlməsidir. O vaxtdan bəri TÜRKSOY bəşər sivilizasiyasının xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunus Əmrə, Nəvai, Məxtumqulu, Abay kimi nadir incilər gətirmiş türk xalqlarının mədəni inteqrasiyasını bir araya gətirib, bu qədim və zəngin irs tədqiq edilmiş və onun üzə çıxarılması, dünyada geniş təbliği və müxtəlif mədəni layihələrin həyata keçirilməsində faydalı işlər görüb. TÜRKSOY-un mədəni aspekti və digər beynəlxalq təşkilatlarla, xüsusilə YUNESKO ilə qurduğu

əməkdaşlıq əlaqələri təqdirəlayiqdir [5, s.2].

TÜRKSOY-a üzv ölkələrin mədəniyyət nazirləri türk dünyasında tarix, mədəniyyət və incəsənət sahələrində görüləcək işlər barədə görüşlər keçirib, qərarlar qəbul ediblər. Bu qərarlar çərçivəsində 1993-cü ildə Ankarada Türk Dünyası Yazarlar Birliyinin Toplantısı, 1994-cü ildə Heydər Əliyevin Ankarada iştirak etdiyi şair Füzulinin anadan olmasının 500 illiyi, 1994-cü ildə Qazaxıstanda Türk Dünyası Əl Sənətləri Sərgisi, 1994, 1995, 1996-cı illərdə Şimali Kipr Türk Respublikasında TÜRKSOY Opera Günləri, 1993 və 1994-cü illərdə Türkmənistanda Aşıq Aydın Pir Festivalı, 1995 və 1996-cı illərdə Türkiyədə TÜRKSOY Novruz Festivalı təşkil edilmişdir.

***TÜRKSOY həmçinin türk mədəniyyətinin ortaq dəyərlərini, insanlarını, ədəbi və intellektual əsərlərini təbliğ etmək üçün çalışır.*** Qırğızıstanın Milli Qəhrəmanı MANAS-ın 1000 illiyi və "Manas dastanı" və məşhur qazax şairi Abayın 150 illik yubiley tədbirləri üçün "ABAY" adlı əsərlər nəşr edilib. 1995-ci ildə "Altaydan Tunaya qədər Türk dünyasının ortaq motivləri", "Türkmən poeziyasının antologiyası", "Başqırd xalq dastanı URAL BATIR" və "Türk-başqırd danışıq bələdçisi" nəşr edilmişdir. Bundan əlavə, 1996-cı ilin iyun ayının sonuna qədər "Türkiyə Cümhuriyyətlərinin Memarlıq Abidələri" və Tatarların "İdige Dastanı" nəşr edilmişdir. 1999-cu ilin sonunda "Dədə Qorqud" və "Böyük Bolqar (Tatar) Tarixi" əsərləri nəşr olundu. Bu kitablar adətən iki dialektdə çap olunur. Türkiyə Respublikası Mədəniyyət Nazirliyi (HAGEM) ilə birlikdə tədbirin daha da fəallaşması üçün "Vətəndən Türk Dünyasına" adlı jurnal nəşr olunur. Bundan əlavə, Türksoy təşkilatı Hayrettin İvginin redaktorluğu ilə "Türksoy" jurnalının 4 nömrəsini nəşr etdirib.

Türksoy 1993-cü ildə qurulsa da, bu işləri çox kiçik büdcə ilə həyata keçirib. Bu uğurda qurucu respublikaların dövlət başçıları olan Süleyman Dəmirəl, Heydər Əliyev, Nursultan Nazarbayev, İslam Kərimov, Əsgər Akayev, Səfərmurad Türkmənbaşının xidmətləri olmuşdur [4, s.70].

1996-cı ilin martında Ankarada türkdilli ölkələrin mədəniyyət nazirləri bütün bu səylərlə kifayətlənməyərək dünya mədəniyyətinə inteqrasiya etmək niyyətlərini bəyan etdilər. Təhsil, elm və mədəniyyət vasitəsilə beynəlxalq əməkdaşlığı artırmaq, sülh və əmin-amanlığın qorunmasına kömək etmək məqsədilə UNESCO-nun baş katibi Federiko Mayor İstanbula dəvət edilmiş və "UNESCO-TÜRKSOY mədəni əməkdaşlıq sazişi" imzalanmışdır. Bunun nəticələri Türkiyə və dünya mətbuatında əks-səda doğurub. Bu əməkdaşlıq türk cümhuriyyətləri və türk toplumları üçün böyük uğur və mədəni qazanc olmuşdur.

Aralarında möhkəm tarix, dil, mədəniyyət və din bağı olan Türk Cümhuriyyətləri gələcəkdə sülh, inam və əməkdaşlıq mühiti qurmağı, keçmişi gələcəyə daşımağı əsas məqsədləri kimi görüblər. Bildirilib ki, Türk Cümhuriyyətləri arasındakı bu həmrəylik bizə dostluq, qardaşlıq, açıqlıq və mədəniyyətlə dolu günlər gətirəcək. Bundan əlavə, türklərin ortaq keçmişini, tarixini, incəsənətini, mədəniyyətini, dilini qorumaq və inkişaf etdirmək TÜRKSOY-un ən təbii haqqıdır və bundan başqa məna çıxarmaq olmaz. Bütün bu səylərlə yanaşı, TÜRKSOY-un dəstəkçisi olan Türkiyə Respublikasının Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) vasitəsilə Avrasiyaya və TÜRKSOY-a üzv ölkələrə böyük mədəni yardımlar göstərdiyi məlumdur. Təşkilatçılar TÜRKSOY-u yaradaraq bütün dünyaya bəyan etdilər ki, bizim məqsədimiz yüksək türk mədəniyyətinin varlığını və kimliyini qoruyub saxlamaq, onu dünya mədəniyyətləri ilə inteqrasiya etmək, bu mədəni silahla regional və dünya sülhünə töhfə verməkdir.

1999-cu il mayın 7-8-də Ankarada "Divan-i Lüğət-it Türk"ün yazılmasının 925-ci ildönümü, 5-23 iyunda isə Bursada TÜRKSOY-a üzv ölkələrin rəssamlarının toplantısı keçirildi. 1999-cu il mayın 25-27-də Bişkekdə türkdilli ölkələrin mədəniyyət nazirlərinin toplantısı və Çingiz Aytmatovun 70 illik yubileyi keçirildi. 1999-cu il iyunun 7-də Parisdə Dədə Qorqudun 1300 illik yubileyi qeyd olundu. 2000-ci il sentyabrın 4-8-də Türkiyə Cümhuriyyəti Türk Şairlərinin Toplantısı keçirilmişdir. 25-27 iyun 1999-cu il tarixində Türkiyə Cümhuriyyətində Türk Dilində Danışan Ölkələrin VI Opera Günləri keçirilmişdir. Tuğanlıq festivalı, Teatr festivalı, Şairlər Buluşması, Anma və Kutlama Günləri təşkil edilmişdir.

TÜRKSOY tərəfindən 1999-cu ildə görülən işlərin yekunu olaraq, həmçinin, gələcəkdə qarşıda duran vəzifələri özündə əks etdirən "XXI əsrə müraciət" qəbul olundu. Ankarada keçirilən Nazirlər Şurasının 13-cü iclasında qəbul edilən çağırış TÜRKSOY adından Türkiyənin dövlət, xalq və hökumət başçılarına ünvanlanıb. Müraciətdə aşağıdakı ifadələr yer alıb:

- Biz xalqlar arasında əməkdaşlığın və mədəni mübadilənin gücləndirilməsi üçün əlaqələrimizin intensivləşməsinə təkan verəcək mühitin yaradılmasının zəruriliyini dərk edirik. Bütün bunlar XX əsrin sonlarında başlayan qloballaşma prosesi, dünya miqyasında hərbi münaqişələrin artması, terrorizm, iqtisadi böhranlar və təbii fəlakətlərin artdığı bir fonda baş verir;

- Yeddi il əvvəl TÜRKSOY çərçivəsində fəaliyyətə başlayanda məqsədimiz Avrasiyanın əsas etnik qruplarından biri olan türkdilli xalqların mədəniyyətini və tarixini birgə öyrənmək idi. Əminik ki, XXI əsrdə başladığımız işləri uğurla davam etdirəcəyik;

- Dünya sivilizasiyasına töhfə vermiş türkdilli xalqların mədəniyyəti XXI əsrdə dünya mədəni irsinin mühüm tərkib hissələrindən birinə çevriləcək;

- Biz heç bir ölkənin siyasi oriyentasiyasına müdaxilə etmədən, Müqavilənin (TÜRKSOY-un təməli və prinsipləri haqqında müqavilə) subyektlərinin və türkdilli ölkələrin suverenliyinə böyük hörmətlə yanaşaraq, mədəniyyət sahəsində mədəni inteqrasiyamızı sürətləndiririk. XXI əsrdə türk dünyasının ortaq mədəni dəyərlərini təbliğ etməli, onun təbliğinə nail olmalıyıq;

- TÜRKSOY-un məqsəd və ideyaları çərçivəsində mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən beynəlxalq, regional və milli təşkilatlar, hökumətlər və qeyri-hökumət təşkilatları ilə əlaqələrin daha da inkişaf etdirilməsi tədbirləri davam etdiriləcək;

- Əminik ki, XXI əsrdə xalqlar və ölkələr arasında dözümsüzlük tendensiyası tolerantlıq və qarşılıqlı hörmətlə əvəz olunacaq;

- Biz Türk ölkələrinin mədəniyyət nazirləri olaraq bu qiymətli dəyərləri həyata keçirmək üçün səylərimizi davam etdirəcəyik;

TÜRKSOY-un indiyədək keçirdiyi görüşlərin nəticələri bir daha sübut edir ki, onun fəaliyyəti türkdilli xalqların dünya mədəniyyətinə inteqrasiya səylərini artırıb, mənəvi dəyərlərinin inkişafına kömək edib. Müxtəlif ölkələrdə keçirilən mədəniyyət günləri, festivallar, beynəlxalq müsabiqələr, sərgilər, yubiley və anım gecələri bu istiqamətdə atılan addımlardır. Belə yubiley tədbirlərinin keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi bugünkü nəsillərə qaytarmaq, eyni köklərə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Eyni zamanda, bu yubiley tədbirlərinin təşkili bir daha göstərir ki, İbn Sinanın, Nizami Gəncəvinin, Nəvainin, Yunus Əmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın və bir çox başqa dahilərin əsərləri, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlara aid deyil, onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir [3, s.8].

Zirvə görüşlərinin və TÜRKSOY tədbirlərinin tarixi bir daha sübut edir ki, belə mühüm görüşlərin mütəmadi olaraq keçirilməsi xalqımızın siyasi, sosial və mədəni həyatında böyük hadisədir. Mədəni əlaqələrin qurulmasında ən böyük uğur türk xalqları ilə ənənəvi əlaqələrin qurulmasıdır. Bu səbəbsiz deyil. Çünki hər bir ailənin gələcəyi, xoşbəxtliyi səmimiyyət və sevgidən asılı olduğu kimi, dünyanın gələcəyi də xalqların, millətlərin qarşılıqlı münasibətlərindən, əməkdaşlığından asılıdır. Xalqların öz köklərinə - dillərinə, dinlərinə, inanclarına, əcdadlarının adət-ənənələrinə qayıtdığı bir dövrdə bu incəliyə, birliyə ehtiyac daha çox hiss olunur. Türk Kültür və Sənətləri Ortaq Yönətimi - TÜRKSOY türkdilli xalqların birlik və həmrəyliyinin inkişafı üçün yarandığı gündən bu istiqamətdə səmərəli fəaliyyət göstərir.

2000-ci ilin mayında Başqırdıstanın Ufa şəhərində TÜRKSOY Beynəlxalq Təşkilatının 14-cü illik toplantısı keçirilmişdir. Ortaq mədəniyyətimizin, dilimizin, adət-ənənələrimizin yaşadılmasına xidmət edən bu qurum türkdilli xalqlar arasında qardaşlıq və mədəni əməkdaşlıq körpüsü olduğunu bir daha sübut etdi. TÜRKSOY-un planlaşdırdığı tədbirlərdə Azərbaycan incəsənət ustaları da uğurlu çıxış ediblər. Həmin vaxt keçirilən "Tuqanlıq" Beynəlxalq Teatr Festivalında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı N.Xəzrinin "Burla xatun" tamaşası ilə respublikamızı təmsil etmiş və TÜRKSOY-un xüsusi mükafatına layiq görülmüşdür. Başqırd tamaşaçıları rejissor Vaqif Əsədovun quruluşçusu olduğu bu tamaşadan əlavə festivalda türkdilli teatrlarının hazırladığı 14 əsərin nümayişinə baxıblar. "Tuqanlıq" festivalının uğuru onu göstərir ki, gələcəkdə türk teatrları, türk mədəniyyət və incəsənət xadimləri bir araya gələrək türk mədəniyyətinin öz tarixi əzəmətini qaytarması üçün mübarizə aparacaqlar.

2001-ci il yanvarın 16-da Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyev Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nüma-

yəndələrini qəbul edərək demişdir: “Təşkilatın əsas məqsədi ilk növbədə ondan ibarətdir ki, tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bütün bunları ortaq şəkildə müzakirə edib, onu yenidən araşdırıb bugünkü nəsillərə ötürməkdir”. O, TÜRKSOY təşkilatının əhəmiyyətindən, onun iqtisadi və kommersiya əlaqələrindən fərqindən danışarkən demişdir ki, "Dünya ticarət və iqtisadiyyatsız yaşaya bilməz. Ticarət və iqtisadiyyatın nə milliyyəti, nə də milli kökü var. Lakin, mədəniyyət, dil, milli dəyərlər, adət-ənənələr kimi məfhumların böyük tarixi, dərin kökləri var. Ədəbiyyatımızı, musiqimizi, tarixi köklərimizi sübut edən əsərlərimiz təbii ki, böyük əhəmiyyət kəsb edir. Məsələn, biz "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini qeyd etdik. Tədbirə təkcə türkdilli ölkələrdən deyil, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Tədbir ərəfəsində “Kitabi-Dədə Qorqud” haqqında öyrəndiklərimizin həmin vaxta qədər heç on faizini belə bilmirdik. Amma indi “Kitabi-Dədə Qorqud” hər kəs üçün böyük babadır”.

2001-ci il aprelin 26-27-də İstanbulda Azərbaycan Respublikası Prezidentinin də iştirak etdiyi Türkdilli Ölkələrin Başçılarının VII Zirvə Görüşündə türk xalqları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyindən danışan natiqlər qədim və zəngin mədəniyyətə malik olan, bəşəriyyətə sayılıb-seçilən şəxsiyyətlər bəxş etmiş nadir mədəni irsimizin gələcək nəsillərə çatdırılması və dünyaya daha yaxından tanıdılması baxımından bu tarixin son dərəcə əhəmiyyətli olduğunu bir daha diqqətə çatdırmışlar. TÜRKSOY təşkilatının bu sahədə gördüyü işlər və ümumilikdə fəaliyyəti haqqında da məlumat verilib. Burada Türkmənistan Prezidenti növbəti VIII sammitin 2002-ci ildə Aşqabadda keçirilməsini təklif etdi [11, s.30]. Dövlət başçılarının VIII Zirvə toplantısında elan etdikləri bəyannamədə mədəniyyət məsələləri də xüsusi yer tuturdu. 19 bənddən ibarət bəyannamənin 3-cü bəndi belədir: “Dövlət başçıları tarix, dil və mədəniyyət əlaqələrinin möhkəmləndirilməsinə və bu istiqamətdə araşdırmaların gücləndirilməsinə tərəfdar olduqlarını bildirir, TÜRKSOY-un təhsil və mədəniyyət sahəsindəhəyata keçirdiyi fəaliyyətinin əhəmiyyətindən söhbət açaraq onun müsbət töhfə verdiyini vurğulanmışlar".

2002-ci il iyulun 16-da TÜRKSOY-un 10 illiyi münasibətilə İstanbulda keçirilən bu beynəlxalq təşkilatın 18-ci iclasında qurumun 19-cu iclasının 2003-cü ilin yanvarında Azərbaycanda keçirilməsi qərara alınıb. 2003-cü il fevralın 5-də Bakı Muzey Mərkəzində TÜRKSOY Beynəlxalq Təşkilatının Daimi Şurasının növbəti 19-cu iclası keçirilmişdir. İclasda türkdilli ölkələrin, o cümlədən 6 müstəqil dövlətin və Rusiya federasiyasının subyekti olan 6 türkdilli respublikanın mədəniyyət nazirləri iştirak etmişlər. Mədəniyyət nazirləri türkdilli xalqların mədəni inteqrasiyası, bu qədim və zəngin irsin tədqiqi və kəşfi, dünyada geniş təbliği və müxtəlif mədəniyyət layihələrinin həyata keçirilməsi istiqamətində TÜRKSOY ilə qurulan əməkdaşlıq əlaqələrindən danışıblar. Xalq yazıçıları Elçin və Anara türkdilli xalqlar arasında mədəni əlaqələrin inkişafında müstəsna xidmətlərinə görə TÜRKSOY Beynəlxalq Təşkilatı tərəfindən mükafatlar təqdim olunub. Fevralın 6-da TÜRKSOY Daimi Şurasının 19-cu iclası öz işini başa çatdırıb. Bu münasibətlə Muzey Mərkəzində türkdilli ölkələrin mədəniyyət nazirləri birgə bəyanat imzalayıblar. İclasda Mədəni İrsin Mühafizəsi üzrə YUNESKO-nun Beynəlxalq Konvensiyasının layihəsinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin memarlıq abidələrinin mühafizəsi və bərpası üzrə Beynəlxalq Əlaqələndirmə Mərkəzinin yaradılması ilə bağlı təklifinin dəstəklənməsi məqsədəuyğun hesab edilib, TÜRKSOY-un nəzdində türk dünyası qəbul olundu, 2003-cü il TÜRKSOY Beynəlxalq Mükafatının verilməsi ilə bağlı elan mətni yüksək qiymətləndirildi.

***Nəticə***. Bu gün TÜRKSOY bütövlükdə türk dünyasının mədəni inteqrasiyasında xüsusi rol oynamışdır. 1993-cü ildən fəaliyyət göstərən qurum təkcə müstəqil ölkələri deyil, həm də Rusiya Federasiyasının tərkibindəki türk respublikalarını və türk muxtar təşkilatlarını müşahidəçi qismində birləşdirir. Qısa müddətdə TÜRKSOY-un yaranması, Türk Dünyasının mühüm tarixi hadisələrini özündə əks etdirən çox zəngin təqvimin tərtib edilməsi mədəniyyət və incəsənət sahəsində bir çox uğurlar qazandırıb. Bütün türk dəyərlərinin qorunması, tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, incəsənətin müxtəlif sahələrində birgə müsabiqələrin təşkili vahid Türk Dünyası ideyasını bütün dünyanın diqqətinə çatdırır. TÜRKSOY ilə YUNESKO arasında birgə əməkdaşlıq sazişinin imzalanması təşkilatın beynəlxalq aləmdə nüfuzunu artırdı [7, s.250].

TÜRKSOY təşkilatın yaradılması və iş prinsipləri haqqında razılaşmaya əsasən - Ümumi mənəvi dəyərləri, tarixi irsi, mədəniyyət və incəsənət əsərlərini, ənənəvi idman növlərini və xalq oyun-

larını təbliğ etmək; Televiziya və radio proqramları, sənədli filmlər, videofilmlər hazırlamaq, türk dünyasının ən yaxşı mədəniyyət və incəsənət əsərlərini təbliğ etmək; Teatr, musiqi, opera və balet sənətlərində birgə festivalların, müsabiqələrin və digər tədbirlərin təşkili; Sərgilərin təşkili, incəsənətin və heykəltəraşlığın inkişafı üçün tədbirlərin həyata keçirilməsi; Çap məhsullarını davamlı olaraq nəşr etmək; Türk Dünyası tarixində mühüm tarixi şəxsiyyətləri, mədəniyyət, incəsənət və ədəbi hadisələri anmaq üçün kollektiv tədbirlər və yubileylər təşkil etmək; TÜRKSOY-un məqsəd və vəzifələri çərçivəsində beynəlxalq elmi konfranslar, simpoziumlar və müzakirələr təşkil etmək; Mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən digər milli və beynəlxalq təşkilatlar, ictimai strukturlar və hərəkatlar ilə əlaqələrin saxlanılması, əməkdaşlıq üçün müxtəlif birgə tədbirlərin həyata keçirilməsi və s. kimi mühüm funksiyaları bu gün də uğurla həyata keçirir.

İnanırıq ki, türkdilli ölkələrin başçıları XXI əsrdə öz ideyalarını həyata keçirmək üçün TÜRKSOY-a yüksək səviyyədə köməkliklərini davam etdirəcəklər. TÜRKSOY-un Mədəniyyət Nazirləri Daimi Şurasının Bursada keçirilən iclasında Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi uğurlu addımlardan biridir. Bundan əvvəl Respublikamızın daha bir şəhəri olan Şəki Türk Dünyasının Mədəniyyət Paytaxtı (2016-cı ildə) seçilmişdi. İnanırıq ki, Şuşa öz qüruru, zəngin tarixi və mədəni ənənələri ilə özünün yeni fəxri statusunu doğrultacaqdır. Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə həyata keçirilən genişmiqyaslı mədəniyyət layihələri, tikinti, təmir və bərpa işləri onun dağlar incisinin ruhuna, onun gözəl dünyasına qayıtmasını təmin edir. Eyni zamanda, 24 may 2022-ci il tarixində Şamaxıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Turizm Nazirlərinin VII Toplantısında Şamaxı şəhəri 2023-cü il üçün Türk Dünyasının Turizm Paytaxtı seçilib.

## ƏDƏBİYYAT

1. Abbasbəyli A.N., Atmaca T. Müasir dövrdə Azərbaycan və Türkiyə münasibətləri // Dirçəliş XXI əsr, 1998, № 10, s.33-37.
2. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 631 s.
3. Hüseynova F.İ. TÜRKSOY –Türk xalqlarının mədəni inteqrasiyasının təzahürü kimi // Mədəni-Maarif, 2006, № 4, s.7-10.
4. Vəliyev İ.V., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı: AzAtaM , 2003, 89 s.
5. Ayşegül Aydıngün, Çiğdem Balım, Bağımsızlıklarının Yirminci Yılında Orta Asya Cumhuriyetleri Türk Dilli Halklar-Türkiye ile İlişkiler, Atatürk Kültür Merkezi Yayınları, Ankara 2012, s.5.
6. Fırat Purtaş, "Cultural Diplomacy Initiatives of Turkic Republics" // Perceptions, 22(1), 2017,p.97.
7. Mustafa Durmuş, Harun Yılmaz, "Son Yirmi Yılda Türkiye'nin Orta Asya'ya Yönelik Dış Politikası ve Bölgedeki Faaliyetleri", Ayşegül Aydıngün-Çiğdem Balım, eds., Bağımsızlıklarının Yirminci Yılında Orta Asya Cumhuriyetleri Türk Dilli Halklar-Türkiye ile İlişkiler, Atatürk Kültür Merkezi Yayınları, Ankara 2012, 487 s.
8. Dusen Kasseinov, "The Importance of TURKSOY on the 10th Anniversary of the Nakhchivan Agreement", Center of Analysis of International Relations, Special Publication-Turkic Council: 10th Anniversary of the Nakhchivan Agreement, Baku 2019, 42 p.
9. Milton Cummings, Cultural Diplomacy and the United States Government: A Survey, Center for Arts and Culture, Washington 2003, p.1.
10. Ruhi Ersoy, "An Outlook on the Turkish Cultural World in the 21st Century, Specific to Khiva, the Capital of the Turkic World", Unpublished Report on the Round-table Meeting in the EU Parliament, Brussels 2021, 12 p.
11. Salim Ezer, Cultural Diplomacy As a Foreign Policy Tool Of Turkey: The Case of TURKSOY, Middle East Technical University, The Graduate School of Social Sciences, (Unpublished Master's Thesis), Ankara 2019, 46 p.

**АЙТАКИН ГАСЫМОВА**
*Бакинский Государственный Университет*

## ПРАКТИЧЕСКИЙ АНАЛИЗ РОЛИ ТЮРКСОЙ В КУЛЬТУРНЫХ ОТНОШЕНИЯХ ТУРЕКОЯЗЫЧНЫХ НАРОДОВ

В результате глобальных политических событий в мире в последнее десятилетие XX века распалась советская империя, народы, вынужденные долгие годы жить в ее рамках, обрели политическую независимость и создали свои суверенные государства. Перед этими народами открылись широкие горизонты на пути национально-духовного возрождения, занять достойное место в семье народов мира. Турецкие народы, обладающие богатым и древним культурным наследием, начали предпринимать серьезные шаги к своему национально-культурному самовозрождению, используя эту прекрасную возможность, предоставленную историей. Создание Организации ТЮРКСОЙ в то время было своевременным и полезным шагом для координации и правильного направления процессов в духовной жизни наших народов, имеющих единую родословную, язык, исторические и культурные корни, традиции.

*Ключевые слова*: ТЮРКСОЙ, Азербайджан, сотрудничество, турецкий язык, культура.

**AYTAKIN GASIMOVA**
*Baku State University*

## A PRACTICAL ANALYSIS OF THE ROLE OF TURKSOY IN CULTURAL RELATIONS OF TURKISH-SPEAKING PEOPLE

As a result of global political events in the world in the last decade of the 20th century, the Soviet empire collapsed, the peoples who were forced to live within it for many years gained their political independence and created their own sovereign states. Broad horizons have opened up for these peoples on the path of national-spiritual revival, to take a worthy place in the family of world nations. The Turkish peoples, who have a rich and ancient cultural heritage, began to take serious steps towards their national-cultural self-recovery, using this wonderful opportunity given by history. The establishment of the TURKSOY Organization at that time was a timely and useful step in order to coordinate and correctly direct the processes in the spiritual life of our peoples who have the same ancestry, language, historical and cultural background, and traditions.

*Keywords*: TURKSOY, Azerbaijan, cooperation, Turkish, culture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.e.f.d. Kərəm Məmmədov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 32:93/94**

**ГЮЛЬНАЗ ГАСАНОВА**
*Докторант кафедры Международные отношения факультета Международных отношений и экономики Бакинского Государственного Университета*
**gulnazhasanova1016@gmail.com**

# ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА СОВРЕМЕННЫХ ГОСУДАРСТВ

*Информация сегодня самый дорогой и необходимый продукт, за добычу и владение которой борятся все государства. Информационное поле необъятно, а стало быть государства, владеющие стратегической информацией во всех сферах, способны обеспечить свое доминирующие положение в международных отношениях. А это создает благоприятные условия для продвижения амбициозных национальных интересов.*

*Azərbaycanın 44 gülük Zəfər mühariindən sonra beynəlxalq nüfuzu xeyli artmışdır. Bunu müharibədən sonrakı iki ildə baş vermiş siyasi hadisələr, xüsusi olaraq Rusiya Federasiyası - Ukrayna müharibəsindən sonra Avropada və dünyada formalaşmış mürəkkəb siyasi vəziyyətdə dövlətimizin durmadan artan nüfuzunu bir daha sübut edir. Ukrayna böhranı müəyyən mənada Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərində müsbət rol oynadı. Bu böhran Mərkəzi və Şərqi Avropanın enerji təhlükəsizliyi sisteminin kövrəkliyini bir daha göstərdi. Ukrayna böhranı həm də Vaşinqtonu Azərbaycana ABŞ-ın Avropadakı müttəfiqləri üçün etibarlı potensial təbii qaz tədarükçüsü kimi yaxından baxmağa məcbur etmişdir. Azərbaycan qazının Avropaya nəqli 2020-ci ilin axırında Cənub Qaz Dəhlizinin sonuncu seqmentinin - TAP-ın işə düşməsi ilə başlayıb. Hazırda Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya Azərbaycan qazının alıcılarıdır. Göründüyü kimi, yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır.*

*Açar sözlər*: Azərbaycan, xarici siyasət, regional, milli, təhlükəsizlik, strategiya.

***Giriş***. Azərbaycanın tarixi əsasən müxtəlif regional qüvvələr arasında gedən müharibələr və real müstəqillik uğrunda uzun sürən mübarizə tarixidir. Belə bir "miras" kiçik ölkələrin suverenliyini və hüquqlarını təmin etməyə qadir beynəlxalq mexanizmlərin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycanın dünya birliyində fəal və məsuliyyətli üzv olmasını tələb edir. Məsuliyyətin kökləri Azərbaycanın bütün dövrlərdə müxtəlif dinlərə, dünyagörüşlərə, etnik qruplara mənsub insanların birgə yaşaması, tolerantlıq kimi səciyyəvi xüsusiyyətləri ilə bağlıdır. Azərbaycan dərin tarixi köklərə malik, etnik və dini tolerantlıq baxımından həqiqətən unikal olan dünyəvi müsəlman ölkəsidir. Azərbaycan XX əsrin əvvəllərində müsəlman Şərqində ilk demokratik respublika qurduqdan sonra burada müsəlmanlar, xristianlar və yəhudilər əsrlər boyu dinc yanaşı yaşamışlar. Mədəniyyətlər arasında körpü rolunu oynayan Azərbaycan beynəlxalq ictimaiyyətin maraqları naminə bu dəyərlərin təbliğində öz məsuliyyətini həmişə hiss etmiş və bu gün də edir.

***Milli və regional təhlükəsizlik siyasəti bu gün yeni çağırışlar dövrünə daxil olmuşdur.*** Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli və regional təhlükəsizlik siyasətinin uğurlu nəticələri bu gün hər sahədə özünü göstərir [1, s.2-3]. İlk növbədə bizim üçün həyati əhəmiyyət kəsb edən, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən 44 günlük Zəfər müharibəsində tarixi qələbəmiz möhkəm zəmin yaratmış olduğunu deyə bilərik. Olduqca qürurverici haldır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilərək bu strategiya Azərbaycanın xarici siyasətinin təməllərindən birinə çevrilmişdir.

Bu gün Azərbaycan ərazisinin ölçüsündən, hərbi gücündən və iqtisadi potensialından asılı olmayaraq, beynəlxalq münasibətlər sistemində iştirak edən bütün dövlətlərə münasibətdə, dövlət suverenliklərinin bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət aparır. Şəffaflıq və proqnozlaşdırılaşma imkanı Azərbaycanın xarici siyasətini xarakterizə edən əsas xüsusiyyətlərdir. Bütün ölkələrlə dostluq, qarşılıqlı faydalı ikitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirən Azərbaycan öz regionunda və onun hüdudlarından kənarda dinc yanaşı yaşama və mehriban qonşuluğun təşviqində çox maraqlıdır.

Azərbaycanın 44 gülük Zəfər mühariindən sonra beynəlxalq nüfuzu xeyli artmışdır. Bunu müharibədən sonrakı iki ildə baş vermiş siyasi hadisələr, xüsusi olaraq Rusiya Federasiyası - Ukrayna müharibəsindən sonra Avropada və dünyada formalaşmış mürəkkəb siyasi vəziyyətdə dövlətimizin durmadan artan nüfuzunu bir daha sübut edir. Digər tərəfdən, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında zəngin tarixi, dostluq ənənələrinin mövcudluğu və ardınca da strateji tərəfdaşlıq münasətlərinin formalaşması bu dediklərimizi bir daha sübut edir [4, s.1].

Azərbaycan Respublikasının bir neçə il öncə BMT TŞ-nın üzvü olması, bu gün bloklara Qoşulmayan Ölkələr Təşkilatına sədrlik etməsi, bunlara paralel olaraq ən müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun artdığını subut edən növbəti faktlardır.

Rusiya Federasiyası - Ukrayna müharibəsi ilə əlaqədar birinciyə qarşı ABŞ və müxtəlif beynəlxalq təşkilatların birgə tətbiq etdiyi bütöv sanksiyalar sisteminin nəticələri, o cümlədən Avropa ölkələrinin əlverişli Rusiya enerji daşıyıcıları bazarından məhrum olması nəticəsində təbii qaz və digər enerji daşıyıcılarına kəskin ehtiyacının atdığı bir şəraitdə kifayət qədər enerji mənbələri və ehtiyatlarına malik olan Azərbaycan Respublikasının rolu və əhəmiyyəti daha da artmışdır.

Bu deyilənlərə mühüm strateji-coğrafi yerləşmə faktorda əlavə etsək, aydın olur ki, Azərbaycanın coğrafi mövqeyi tarixən də, bu gün də bir çox cəhətdən olduqca vacib əhəmiyyətə malikdir. Azərbaycanın bu gün ən müxtəlif səviyyələrdə və beynəlxalq təşkilatların tribunalarından logistik əhəmiyyəti və geniş iqtisadi əlaqələr imkanlarından tez-tez səslənən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji dəhlizləri üzərində, əsas ticarət yollarının kəsişməsində yerləşməsi bizə çox vacib enerji və infrastruktur mərkəzinə çevrilmək imkanı verir [7, s.3]. Əlbəttə ki, ölkəmizin belə bir mərkəzə çevrilməsinin mühüm şərtlərindən biri Azərbaycanın coğrafi mövqeyi kimi üstünlüyündən tam istifadə etməkdir.

Azərbaycanın regional təhlükəsizlik və bütövlükdə beynəlxalq iqtisadi əlaqələri üçün vacib olan bir məsələni qeyd etmək istərdik. Bu, Zəngəzur dəhlizi məsələsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir ki, Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir beynəlxalq yol olacaq [2, s.165].

Azərbaycanın zəngin təbii sərvətləri ölkənin firavanlığına, xalqın maddi rifahına xidmət etməklə yanaşı, həm də respublikanın milli təhlükəsizliyinin, siyasi müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsində mühüm amildir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarına çıxarılması bir növ "Azərbaycanın enerji strategiyası" adlandırılan siyasətin əsas elementinin indi daha intensiv, daha da ardıcıl davamı deməkdir.

***Müasir mərhələdə Azərbaycan Respublikasının maraq və mövqelərinə zərər verə biləcək təhdidlər və təhlükəsizlik riskləri.*** Beynəlxalq aləmdə qeyri-dövlət subyektləri – beynəlxalq terror qrupları, hərbi, separatçı hərəkatlar, etnik və dini ekstremizm, mütəşəkkil cinayətkarlıq şəbəkələri, habelə qeyri-qanuni miqrasiya, narkotik məhsullar və insan alveri, kütləvi qırğın silahlarının yayılması, təxribat riski; kritik enerji və nəqliyyat infrastrukturu, son illərdə cidi təhlükəyə çevrilən kiberhücumlar qlobal və regional təhlükəsizlik mühitinə ciddi təsir göstərən amillərdir.

Həm ənənəvi, həm də yeni təhlükə və problemlərin qarşısını fəal beynəlxalq səylərlə almaq olar, onların aradan qaldırılması birtərəfli mümkün deyil.

Azərbaycan beynəlxalq terrorizmə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə əlaqədar ikitərəfli və çoxtərəfli çərçivələrdə beynəlxalq əməkdaşlıqda fəal iştirak edir. Terrorla mübarizə ilə bağlı bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahədə daim məlumat mübadiləsi aparır və müvafiq hesabatlar hazırlayır. Sülhməramlılarımız Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin üzvü olan digər ölkələrin əsgərləri ilə çiyin-çiyinə xidmət edirlər. Azərbaycan hökumətinin və şirkətlərinin Əfqanıstana yardımı və bu ölkənin yenidən qurulması istiqamətində göstərdiyi səylər ehtiyac içində yaşayan əhali üçün imkanlar açır.

Transmilli cinayətkarlığa və insan alverinə qarşı mübarizə region ölkələri ilə, eləcə də BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın gündəliyində duran məsələdir.

Cənubi Qafqazda sabitlik və qlobal təhlükəsizlik arasında əlaqə bu gün olduqca aktual problemə çevrilmişdir. Cənubi Qafqazda, konkret olaraq Gürcüstan Respublikasında hələ də uzanan Abxaziya münaqişəsi, Azərbaycanla Ermənistan arasında sonuncunun qeyri-qanuni və ədalətsiz mövqeyi ucbatlndan sülh sazişinin imzalanmaması, habelə nəqliyyat sisteminin normal fəaliyyətinin hələ də təmin edilməməsi, bütövlükdə Qərbdəki havadarlarının boş vədlərinə aldanan Ermənistan hökumətinin 10 noyabbr 2020-ci il üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməməsi regionda təhlükəsizlik və sabitliyə xələl gətirir, region ölkələrinin iqtisadi və siyasi inkişafına mane olur, real regional əmək-

daşlığa mane olur. Bütün bunlar təbii olaraq nəinki Azərbaycan Respublikasını, həmçinin region dövlətlərini xüsusi narahat etməyə bilməz.

***Azərbaycan Respublikası beynəlxalq münasibətlərin səmərəli çoxtərəfli sisteminin formalaşdırılması və stimullaşdırılması tərəfdarıdır.*** Beynəlxalq sülhün ən yaxşı halda çoxtərəfli münasibətlərin səmərəli sistemi vasitəsilə əldə olunmasına əmin olan Azərbaycan regionumuzda və bütün planetdə beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsində BMT-nin rolunun vacibliyini qəbul edir. BMT Nizamnaməsində əks olunmuş beynəlxalq hüququn norma və prinsipləri mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşını təşkil edir. Azərbaycan XXI əsrin problem və təhdidlərinə daha effektiv cavab vermək üçün BMT-nin əməliyyat imkanlarının artırılmasına, o cümlədən beynəlxalq hüquq sisteminin gücləndirilməsinə və qəbul edilmiş qərarların həyata keçirilməsinə yönəlmiş islahatları dəstəkləyir.

Azərbaycanın yerləşdiyi regionun enerji ehtiyatları ilə zənginliyi və əsas geosiyasi oyunçuların bu resursların dünya bazarına nəqli marşrutlarına tam nəzarəti ələ keçirmək istəyi regiondakı qarşıdurma və rəqabətin şiddətini müəyyən edir.

Məlumdur ki, bu gün təkcə ərzaq deyil, həmçinin enerji təhlükəsizliyi də dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementidir. Təsadüfi deyil ki, artıq bir çox tanınmış nüfuzlu ekspertlər müasir dünyanın siyasi mənzərəsinin artıq hərbi bloklara mənsubiyyətlə deyil, enerji resurslarına nəzarətlə müəyyənləşdiyi barədə fikirlər səsləndirirlər.

Eyni zamanda, Avropa İttifaqı və ABŞ Rusiyanın Avrasiyada əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji rəqibləri kimi çıxış edir və SSRİ-nin dağılması ilə müstəqillik əldə etmiş dövlətləri öz təsirlərinə tabe edərək regionda aktiv ekspansiyaya can atır. Ukrayna, Belarus, Azərbaycan, Gürcüstan, Moldova və Ermənistanın kimin təsir zonasında qalacağı və koalisiyaya kiminlə qoşulacağı ilə bağlı tərəflər arasında barışmaz mübarizənin olduğu qeyd edilir.

ABŞ hazırda NATO müttəfiqləri ilə birlikdə Avrasiyanın, xüsusilə Cənubi Qafqazın, Xəzər və Qara dəniz hövzələrinin regional təhlükəsizliyinin təmin edilməsi məsələlərində Rusiyadan sonra ikinci yerdədir. 2022-ci iln martından başlamış və sonu hələ də görünməyən Rusiya - Ukrayna müharibəsinin nəticələrinin ABŞ və NATO üzrə müttəfiqlərinin postsovet məkanında daha da güclənəcəyini inkar edənlər çətin ki olsun.

Getdikcə daha sərtləşən geosiyasi qarşıdurma şəraitində region dövlətləri üçün milli suverenliyi tam şəkildə qorumaq və öz maraqlarını müdafiə etmək getdikcə çətinləşir. Lakin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan dövlətinin geosiyasi maraqların qorunması sahəsində ilkin prinsiplərə sədaqət regionda mühüm mövqe tutan dövlətimizə nəinki öz suverenliyini qoruyub saxlamağa, təzyiq cəhdlərinə qarşı durmağa kömək edir, eyni zamanda təsirini artırır.

Bundan əlavə, Azərbaycanın iqtisadi potensialı, Azərbaycan ordusunun hərbi qüdrəti artır. Bu, birincisi, əsas geosiyasi oyunçuları Azərbaycanla hesablaşmağa vadar edir, ikincisi, beynəlxalq iqtisadi və nəqliyyat layihələrini birgə həyata keçirən, daha inamla sıx əməkdaşlıq quran dövlətləri Azərbaycanla yaxınlaşdırır. Burada Azərbaycanın dövlət suverenliyi və geosiyasi müstəqilliyi mütləq müsbətdir və tərəfdaşlarımız bilirlər ki, Azərbaycanla razılaşmalara arxalana bilərlər və ölkə xarici təzyiqlərə görə mövqeyini dəyişmir.

Aydındır ki, güclü və müstəqil Azərbaycan heç də hamı üçün əməkdaş, tərəfdaş ola bilməz. Daha doğrusu bunu istəməyənlər də tapılır. Ona görə də ölkəni zəiflətmək, geosiyasi təsirini azaltmaq, onu geosiyasət subyektindən obyektə çevirmək cəhdləri olub və bundan sonrada olacaq. Bunun üçün müxtəlif rıçaqlardan istifadə edərək Azərbaycanı xarici təsirlərə, milli maraqlara yad, tabe etmək cəhdləri artıq edilib və ola bilsin ki, yenə də ediləcək. Bununla belə, Azərbaycan xalqı öz tarixində ilk dəfə deyil ki, mürəkkəb geosiyasi çağırışlarla üzləşir.

***Avropada neft və qaz böhranından Azərbaycan Respublikasının milli maraqlarının qorunması üçün istifadə edilməlidir.*** Ukrayna böhranı müəyyən mənada Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərində müsbət rol oynadı. Bu böhran Mərkəzi və Şərqi Avropanın enerji təhlükəsizliyi sisteminin kövrəkliyini bir daha göstərdi. Borcların ödənilməsinə dair razılıq əldə olunmasa və yeni qiymət sxemi əldə olunmasa, Rusiyanın Ukraynaya qaz tədarükünü dayandıracağı ilə hədələmələri 2006 və 2009-cu illərdə Rusiya-Ukrayna "qaz müharibələri"ni xatırlatdı. Bu müharibələrin nəticəsi bütün regionda qaz təchizatının kəsilməsi oldu.

Ukrayna böhranının təkcə Avropa İttifaqı ölkələri üçün deyil, enerji təhlükəsizliyi baxımından da təsiri olacaq. Bu, həm də ən çox birbaşa Azərbaycana təsir edəcək. Cənub Qaz Dəhlizi boyunca (Xəzər regionundan Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropaya) qazın ilkin tədarükünün böyük hissəsinin Azərbaycanın "Şahdəniz" yatağının hesabına təmin ediləcəyi gözlənilir. İndi söhbət 10 milyard kubmetr regionda illik həcmlərdən gedir və gələcəkdə bu rəqəm arta bilər. Bu dəhliz bir çox Mərkəzi və Şərqi Avropa ölkələrinin Rusiya təchizatından asılılığını əhəmiyyətli dərəcədə azaldacaq.

Azərbaycan hətta Ukraynanın özünə qaz tədarükündə maraqlı olduğunu bildirib. Ukrayna böhranından əvvəl bu müzakirələr sırf nəzəri xarakter daşıyırdı. Bununla belə, fevral ayında Ukrayna hökuməti nəhayət, illik gücü 10 milyard kubmetr olan mayeləşdirilmiş təbii qazın (LNG) qəbulu üçün terminalın tikintisi üçün konkret addımlar atmağa başladı. Gürcüstanın Qara dəniz sahilində LNG terminalının tikintisi ilə bağlı artıq Gürcüstanla danışıqlar aparan bu terminalın əsas LNG təchizatçısı Azərbaycanın olacağı gözlənilir. Bu arada Azərbaycan Ukraynanın enerji bazarını fəal şəkildə inkişaf etdirir. Son dörd ildə Azərbaycan dövlət neft şirkəti SOCAR Ukrayna layihələrinə 160 milyon dollara yaxın sərmayə qoyub. Öz brendi altında fəaliyyət göstərən 39 yanacaqdoldurma məntəqəsi.

Ukrayna böhranı həm də Vaşinqtonu Azərbaycana ABŞ-ın Avropadakı müttəfiqləri üçün etibarlı potensial təbii qaz tədarükçüsü kimi yaxından baxmağa məcbur etmişdir. 2022-ci ilin aprel ayında ABŞ Dövlət Departamentinin beynəlxalq enerji əməkdaşlığı üzrə xüsusi nümayəndəsi və əlaqələndiricisi Karlos Paskual Cənubi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Cənub Qaz Dəhlizinin rolunu vurğulamışdır.

Azərbaycan qazının Avropaya nəqli 2020-ci ilin axırında Cənub Qaz Dəhlizinin sonuncu seqmentinin - TAP-ın işə düşməsi ilə başlamışdır. Hazırda Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya Azərbaycan qazının alıcılarıdır. Göründüyü kimi, yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır.

İlham Əliyev demişdir ki, 2021-ci ildə qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil etmişdir. Onun 8,2 milyard kubmetri Avropaya nəql olunmuşdur. Bu isə əvvəlki illə müqayisədə 40 faiz artım deməkdir. Bu il biz ixracımızı 22 milyard kubmetrə qədər artıracağıq və onun 11,5 milyard kubmetri Avropa istehlakçılarına çatdırılacaqdır. Artıq söylədiyim kimi, bu ilin iyul ayında biz xanım Prezident Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzaladıq. Bu, çox əhatəli sənəddir, ona əsasən, 2027-ci ilə qədər biz təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırırıq və bunu etməyə tam potensialımız var Biz TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarımızla artıq məsləhətləşmələrə başlamışıq [5].

Sonda bu məsələni xüsusi olaraq vurğrlamaq istərdik ki, indiki mürəkkəb şəraitdə Azərbaycan Respublikasının milli və regional təhlükəsizliyi üçün çətinlik yarada və ya sınaq ola biləcək yeni çağırışlar nə qədər çox olsa da, onda arxada qalacaq. Çünki Azərbaycan Respublikasının Prezidenti, müdrik liderimiz İlham Əliyev demişkən, biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var, biz bilirik nə istəyirik və bundan sonra da öz məqsədlərimizə çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik [3, s.234].

***Nəticə***. Aydındır ki, Ukrayna böhranı davam edəcəyi halda, Bakı Qərblə Rusiya arasında balansın yaradılmasına dair yeganə ağlabatan siyasətdən sadiq qalacaq. Azərbaycan Rusiya silah-sursatının və hərbi texnikasının əsaslı alışını silahların özləri üçün deyil, Rusiyanın hərbi-sənaye kompleksinə verilən xərac kimi davam etdirəcək. Bundan əlavə, Qərblə Rusiya arasında sanksiyaların mübadiləsi Bakını Moskva üçün çox dəyərli tərəfdaşa çevirmişdir. O da mümkündür ki, həm Moskvanın hərəkətlərinə siyasi dəstək baxımından, həm də kənd ərzaq məhsullarının tədarükü baxımından Rusiyanın Qafqazda ən çox arzu olunan tərəfdaşı Ermənistan deyil, Azərbaycan olacaq.

Lakin hadisələrin belə dönüşündə Rusiya Federasiyası Qarabağ münaqişəsinin həllinə kömək etməyəcək Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanmasl məsələsində müəyyən gəlişmələr edə bilər. Bu ərazilərin statusunun həll olunmaması Ermənistan və Azərbaycanla danışıqlarda Moskvanın əlinə əlavə təsir vasitələri verəcək anlamı deməkdir. Son bir il ərzində AİŞ-nın prezidenti Ş.Mişel, lap son aylarda ABŞ Nümayənələr Palatasının sədri N.Pelosinin Ermənistana səfəri, ən nəhayət Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında səhəd xəttində müşahidə missiyası məqsədi ilə 40 beynəlxalq müşahidəçinin Ermənistana gəlməsi, hətta bundan baş verəcək

digər hərəkətlər heç bir halda bölgədə sülh və əmin-amanlığın təmin olunmasına səbəb olmayacaq [6, s.6]. Əksinə, ABŞ-ın, Fransanın guya münaqişəni həll etmək üçün edəcəyi bu qəbildən olan bütün cəhdlər Moskva tərəfindən pozulacaq.

Vəziyyətdən ən optimal çıxış yolu variantı Azərbaycan tərəfinin qəbul etdiyi 10 noyabr 2020-ci il üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməsi və Ermənistana təklif edilən 5 əsas maddəlik yekun sülh sazişinin ən qısa zamanda imzalanmasıdır. Eyni zamanda Azərbaycan bu arada enerji sektorunda Aİ və ABŞ ilə yaxşı münasibətlər qurmaq istəyini qoruyacaq, digər sahələrdə isə digər xarici və daxili siyasət prioritetlərinin xeyrinə məsafə saxlayacaq.

ƏDƏBİYYAT

1.Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti / Azərbaycan. - 04.05.2010, s.2-3.
2.Əliyev, İlham. İnkişaf - məqsədimizdir: [120 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - 119-cu kitab. - 2022. - 392 s.
3.Əliyev, İlham. İnkişaf - məqsədimizdir: [120 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - 118-ci kitab. - 2022. - 392 s.
4.İlham Əliyev: Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə əlaqələrini rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır /Azərbaycan. - 26.10.2021. - s.1.
5.İlham Əliyev Bolqarıstanda açılışa qatılıb. - https://modern.az/aktual/371305/ilham-eliyev-bolqaristanda-acilisa-qatildi-yenilenib/ [19.11.2022].
6.İlham Əliyevin Qarabağ zəfəri son nəticə deyil, başlanğıcdır // Azərbaycan. - 20.10.2022., - s.6.
7.Orta dəhlizin inkişafı ilə bağlı məsələlər zamanın hökmüdür // Azərbaycan. - 14.10.2022., - s.3.

**ВАФА АБУЛОВА**
*Докторант Бакинского Государственного Университета*

## ПОЛИТИКА НАЦИОНАЛЬНОЙ И РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: ПОСЛЕДНИЕ УСПЕХИ И НОВЫЕ ВЫЗОВЫ

Международная репутация Азербайджана значительно возросла после 44-й Победной войны. Это лишний раз доказывается политическими событиями, происходившими в два послевоенных года, особенно в сложной политической ситуации в Европе и мире после российско-украинской войны. В определенном смысле украинский кризис сыграл положительную роль в отношениях Азербайджана со странами Запада. Этот кризис еще раз показал хрупкость системы энергетической безопасности Центральной и Восточной Европы. Украинский кризис также заставил Вашингтон присмотреться к Азербайджану как к надежному потенциальному поставщику природного газа союзникам США в Европе. Транспортировка азербайджанского газа в Европу началась в конце 2020 года с вводом в эксплуатацию последнего участка Южного газового коридора - ТАР. В настоящее время покупателями азербайджанского газа являются Турция, Грузия, Греция, Болгария, Албания и Италия. Как видно, спрос на азербайджанский газ растет перед лицом новых вызовов.

*Ключевые слова*: Азербайджан, внешняя политика, региональная, национальная, безопасность, стратегия.

**VAFA ABULOVA**
*Doctoral student of Baku State University*

## NATIONAL AND REGIONAL SECURITY POLICY OF THE REPUBLIC OF AZERBAIJAN: RECENT SUCCESSES AND NEW CHALLENGES

The international reputation of Azerbaijan has increased significantly after the 44th Victory War. This is once again proved by the political events that took place in the two post-war years, especially in the difficult political situation in Europe and the world after the Russian-Ukrainian war.

In a certain sense, the Ukrainian crisis has played a positive role in Azerbaijan's relations with Western countries. This crisis once again showed the fragility of the energy security system of Central and Eastern Europe. The Ukrainian crisis has also forced Washington to look at Azerbaijan as a reliable potential supplier of natural gas to US allies in Europe. The transportation of Azerbaijani gas to Europe began at the end of 2020 with the commissioning of the last section of the Southern Gas Corridor - TAP. At present, the buyers of Azerbaijani gas are Turkey, Georgia, Greece, Bulgaria, Albania and Italy. As can be seen, the demand for Azerbaijani gas is growing in the face of new challenges.

*Keywords*: Azerbaijan, foreign policy, regional, national, security, strategy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**СОНА АБАСОВА**
*Диссертант Бакинского Государственного Университета*
*кафедры «Дипломатии и современных интеграционных процессов»*
**sabasova9@gmail.com**

# ТУРИЗМ И КУЛЬТУРНАЯ ПОЛИТИКА СОВРЕМЕННОГО ГОСУДАРСТВА

*В статье рассматриваются вопросы, касающиеся развития культурной политики. Автор отмечает возросшую роль и значение культурной политики в решении глобальных проблем. Среди основных инструментов культурной политики особое место занимает туризм, который гуманизирует международные отношения и укрепляет образ государства.*

*Ключевые слова*: культура, культурная политика, политическая система, государственная политика, международные отношения, культурное развитие.

***Введение.*** Сегодня культура не расценивается как бремя, а рассматривается как актив развития. Инвестирование в культуру видится важнейшим вкладом в формирование человеческого потенциала, приносящим социальные и экономические выгоды, в наиболее полную самореализацию человека. Одним из эффективных средств реализации государственной культурной политики, средств сохранения и развития единого культурного пространства, политики открытого развития культурно-национальных обществ и организаций, взаимообмена культурными мероприятиями, предоставления возможности развиваться самодеятельному творчеству и профессиональному искусству, может стать туризм.

«Культурное развитие» считается развитием современного мира во всем культурном многообразии, что зафиксировано в документе ООН на основе Всемирной конференции по политике в области культуры (Мехико, 1982 г.). Рост значимости потенциалов культурной политики неизбежен. Более того, анализ содержания глобальных процессов позволяет говорить о том, что количество обращений к потенциалам механизмов культурной политики и впредь будет только расти.

Культурная политика уже сегодня на ближайшие десятилетия буквально обеспечила себе свою неиссякаемую актуальность. Культурная политика – это усвоение культурного наследия, воспроизводство культурных ценностей, формирование кадров, культуры и искусств, забота о достижении ими высот творческого мастерства, реализация высокохудожественных эстетически качественных культурных способностей и потребностей людей. Это создание условий для культурной деятельности и приобщение людей к культурным ценностям, возвышение их духа и достоинства, постоянное совершенствование человека на основе духовных идеалов истины, добра, красоты и любви. Для этого необходимо иметь развитую инфраструктуру культуры сферы туризма, способную предоставлять необходимые услуги. Огромные ресурсы, которыми располагает общество, должны быть доступны для потребителей. Целесообразно разрабатывать и реализовывать специальные программы по возрождению потенциала традиционной культуры, региональных и этнонациональных культур, включая их достижения в общественный культурный потенциал. Культура сегодня это уже не организация полноценного досуга, это фактор устойчивого развития государства и проживающих в нем народов.

Туризм расширяет границы и продолжает расти, невзирая на социально-экономические и политические трудности в мире. Основным средством международной коммуникации является не война, а дипломатия. Сегодня в секторе путешествий и туризма занято более 235 млн человек. Главная цель публичной дипломатии в туризме состоит в расширении диалога между людьми разных национальностей, вероисповедания, возраста, пола как внутри своей страны, так и за рубежом. Её действия направлены на проведение исследования о наличии значимых природных и культурно-исторических туристических объектов, о потенциале развития туристической зоны в странах на системном и институциональном уровне, услугами

и турпродуктами, которые может предложить местное население туристам и отдыхающим посетителям. Для реализации турпродукта необходимо учитывать не только трудовые ресурсы, но и культурное пространство, в котором осуществляется турдеятельность. Также политическая и языковая образованность позволит работникам туриндустрии выстраивать диалог, осуществлять рекламу, продвигать турпродукт. Но надо понимать и принимать тот факт, что роль общественных отношений в публичной дипломатии распространяется дальше, чем пропаганда и реклама.

Публичная дипломатия в туризме должна быть направлена не только на осуществление взаимодействия между государствами, но и на установление разного рода контактов, защиту самобытности языка, выстраивание долгосрочных отношений, добрососедской внешней политики и лучшего понимания ценностей и институтов своего и другого государства. Благодаря публичной дипломатии, можно осуществлять продвижение национальных интересов, формировать позитивный настрой и общественное мнение, путём ознакомления зарубежных туристов с природой, историко-культурным наследием, обычаями, традициями, достижениями в различных областях знаний, проведением совместных туристских мероприятий.

К продуманной публичной дипломатии можно отнести создание сайтов, объединивший информацию для путешественников. Сайт собирает и размещает информацию о самолетах и отзывы туристов её могут использовать как путешественники, так и авиакомпании. Социологи выяснили, что 8 человек из 10 читают отчеты о путешествиях в блогах, форумах, соцсетях. Вопросы экологии, состояние окружающей среды, природные, погодные и климатические условия имеют решающее значение при выборе повторных поездок в определенную страну. Рост популярности хостелов, велосипедов, серфинга, событийного туризма по всему миру привлекает новые потоки туристов. Чтобы оставаться активными в туристическом секторе нельзя игнорировать возникающие мировые тренды в области туризма.

Общественное мнение большого количества людей способно оказать влияние на политическую систему государства и политику правительства. Любой вид дипломатии использует определенный язык и образы, в зависимости от аудитории, на которую он рассчитан. Именно это позволяет ей достичь намеченных политических целей.

Глобальность туризма, пересекающего любые государственные границы, привело к появлению поколения людей, способного стереть границы между формальным, неформальным и виртуальным обучением, которое может происходить в любое время в любом месте. Новое «мобильное» общество свободно использует огромный потенциал информационных технологий и устройств, позволяющих ознакомиться с достопримечательностями в любой точке мира.

Современный этап развития общества предъявляет новые требования к удовлетворению растущих потребностей людей. Один из способов развития и рынка услуг в сфере культуры формирование необходимых культурных, духовно-нравственных установок людей. Социокультурная деятельность людей инновационного типа требует качественно нового уровня работы, по форме, по содержанию учреждений культуры, в том числе и учреждений туризма. Важную роль здесь играет культурная политика государства. Культура может приносить прибыль, не только создавая околокультурный продукт для продажи, но, прежде всего, своим благотворным влиянием на экономику, политику и образование, она может дать этой прибыли еще больше. По большому счету экономика есть «материальное тело» культуры, как и культура есть «духовно-нравственная душа» экономики, и они не могут быть успешными – одна без другой. Культура прежде всего, мировоззрение, идеалы, навыки, традиции человека, его творческий потенциал. Истолкование культуры как сферы досуга искажает ее суть и предназначение. Более того, автоматический перевод культуры в сферу культурной индустрии превращает ее в массовую, коммерческую культуру, где много экономики и мало культуры. Следовательно, и вся экономика лишается многих духовно-нравственных источников собственного развития. По нашему мнению, это должна учитывать политика государства в области культурного строительства.

В странах с красивой природой и природными ресурсами, как Азербайджан, процесс развития туризма неотвратим. Страна богата достопримечательностями и высококлассными курортами, не уступающими мировым. В последнее время по всей стране построены великолепные отели, горнолыжные центры. "В контексте продвижения горнолыжного, зимнего туризма мы пропагандируем такие центры Азербайджана, как Шахдаг, Туфандаг и Агбулаг. Так, в Польше, Чехии, Германии, Швейцарии и Австрии планируется провести различные мероприятия по пропаганде азербайджанского туризма и развитию деловых отношений между туристическими компаниями Азербайджана и этих стран". Кроме того, ведутся работы по продвижению потенциала страны по проведению крупных деловых мероприятий. "Потенциал нашей страны по проведению масштабных деловых мероприятий будет представлен на выставке IBTM (выставка поощрительных поездок и бизнес-командировок), которая пройдет в ноябре в Барселоне. В текущем году для популяризации туристических возможностей Азербайджана ожидается участие и в выставке World Tourism Market, которая ежегодно проводится в Лондоне", - сказали в Государственном агентстве по туризму Азербайджана [1].

В рамках очередного этапа реализации проекта "Развитие предпринимательства и само-занятости в селах" в Губинском, Гусарском, Хачмазском, Шекинском, Загатальском, Гахском, Лянкяранском, Астаринском и Лерикском районах с высоким туристическим потенциалом создаются новые субъекты предпринимательства, которые будут функционировать в качестве сельских гостевых домов. Проект реализуется при поддержке Государственного агентства занятости, Агентства по развитию малого и среднего бизнеса и Госагентства по туризму.

На новом этапе проекта, направленного на поддержку развития сельского туризма и занятости в селах, в указанных районах планируется создать 50 субъектов предпринимательства, которые будут функционировать в качестве сельских гостевых домов для туристов. С этой целью в первую очередь был проведен отбор подходящих кандидатов, которых привлекли к тренингам для получения соответствующих знаний в сфере туризма и услуг. На территории туристических объектов были проведены ремонтные работы. На первом этапе проекта в прошлом году в Исмаиллинском районе были созданы и оснащены оборудованием 15 сельских гостевых домов, трудоустроены около 40 человек из 15 семей [2].

Азербайджан уникальная страна, известная не только необыкновенной природой, но и множеством уникальных достопримечательностей и памятников архитектуры. В Нахчыване, Кельбаджаре, Лянкяране и Бабадаге горячая вода выходит из глубин земли, в селении Сураханы расположен храм огня Атешгях. Все желающие восстановить и укрепить свое здоровье обращаются в многочисленные оздоровительные центры Азербайджана. Обилие минеральных источников, наличие соляных пещер и единственное в мире месторождение лечебной нефти Нафталан, также способствуют формированию в Азербайджане лечебного туризма. Неповторимая архитектура, самобытная культура, разнообразная национальная кухня влекут в страну почитателей исторического, этнографического и гастрономического туризма. А вокруг одного из основных жанров азербайджанской традиционной музыки - мугама, объявленного ЮНЕСКО шедевром устного и нематериального культурного наследия человечества, даже сформировалось новое направление туризма - мугам-туры.

В последние годы в нашу страну приезжает очень много гостей из Ближнего Востока, из мусульманских стран. До пандемии Азербайджан посетило три миллиона туристов из стран-участников Организации исламского сотрудничества (ОИС). Поэтому есть потребность в предоставлении "халяльного туризма". Халяльный туризм - услуга, ориентированная на мусульман, которые получают возможность отдыхать в соответствии с нормами ислама. Гости при таком туризме размещаются в отелях, которые предлагают только безалкогольные напитки, и пищу, соответствующе стандартам халяль. Инфраструктура должна быть раздельной для мужчин и женщин. Наиболее известная специализированными отелями и курортами для мусульман страна - Турция. Предложения такой туристической услуги есть также в Малайзии, Эмиратах, Египте [3].

В 2018 году Государственное агентство по туризму было создано на базе Министерства культуры и туризма Азербайджанской Республики. Государственное агентство по туризму действует как центральный орган исполнительной власти, реализующий государственную политику и регулирование в сфере туризма.

Президент страны Ильхам Алиев уделяет огромное внимание данным направлениям государственной политики. За последние десять лет Президентом страны было подписано сотни различных постановлений, распоряжений и указов, которые имеют непосредственное или косвенное отношение к сфере культуры и туризма. Это объясняется тем, что культура и туризм являются стратегическими направлениями государственной политики. Любые решения, которые приняты главой государства, служат завтрашнему дню, служат развитию культуры и сохранению культурного богатства всех проживающих в нашей стране народов. В настоящее время разрабатывается стратегия развития туризма на освобожденных территориях.

***В заключении*** проведенное исследование позволяет утверждать, что туризм в условиях глобализирующегося мира берет на себя ряд важных социокультурных функций. Продолжая быть предметом интересов бизнеса, он приобретает черты мощной культурной индустрии, приобщая человека массового общества к знанию о культурных традициях мира, способствуя межкультурному и межконфессиональному диалогу. Как культурное явление туризм вбирает в себя многовековой опыт общения и социальной контактности народов и государств на уровне программы индивидуального развития личности, ее интеллектуальных, духовно-эстетических и физических характеристик.

ЛИТЕРАТУРА

1. Садраддин Агджаев. В госагентстве Азербайджана рассказали о мероприятиях по привлечению в страну туристов из Европы / Trend news agency, 12 сентября 2022. - https://www.trend.az/business/tourism/3643363.html [01.11.2022].
2. В ряде районов Азербайджана продолжается создание сельских гостевых домов / Trend news agency, 28 июля 2022. - https://www.trend.az/business/tourism/3626243.html [01.11.2022].
3. Зарина Оруджалиева. Халяльный туризм – как следствие притока в Азербайджан арабских гостей / Sputnik Азербайджан, 28.06.2022. - https://az.sputniknews.ru/20220628/khalyalnyy-turizm---kak-sledstvie-pritoka-v-azerbaydzhan-arabskikh-gostey-443436905.html [01.11.2022].
4. Туристическая политика Азербайджана. - https://azerbaijan.az/ru/related-information/214 [01.11.2022].
5. Ермилова Д.В. Туризм в начале XXI века: социокультурный и экокультурный аспекты: монография / Д.В. Ермилова, А.А. Коржанова. – Ярославль, Канцлер, 2010, 180 с.
6. Global and regional tourism performance. - https://www.unwto.org/global-and-regional-tourismperformance [01.11.2022].

**SONA ABASOVA**
*Bakı Dövlət Universiteti «Diplomatiya və müasir inteqrasiya prosesləri» kafedrasının dissertantı*

## MÜASİR DÖVLƏTİN MƏDƏNİ SİYASƏTİ VƏ TURİZM

Məqalə mədəniyyət siyasətinin inkişafı ilə bağlı məsələlərdən bəhs edir. Müəllif qlobal problemlərin həllində mədəni siyasətin artan rolunu və əhəmiyyətini qeyd edir. Mədəni siyasətin əsas alətləri arasında beynəlxalq münasibətləri humanistləşdirən və dövlətin imicini gücləndirən turizm xüsusi yer tutur.

*Açar sözlər*: mədəniyyət, mədəni siyasət, siyasi sistem, dövlət siyasəti, beynəlxalq münasibətlər, mədəni inkişaf.

**SONA ABASOVA**
*Dissertant, Baku State University*
*Department of Diplomacy and Modern Integration Processes*

## CULTURAL POLICY AND TOURISM OF THE MODERN STATE

The article deals with issues related to the development of cultural policy. The author emphasizes the growing role and importance of cultural policy in solving global problems. Among the main tools of cultural policy, tourism has a special place, which humanizes international relations and strengthens the image of the state.

*Keywords*: culture, cultural policy, political system, state policy, international relations, cultural development.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.e.f.d. Kərəm Məmmədov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT(327)**

**ÜLVİ ƏHMƏDLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*
**ulviehmedli@gmail.com**

# ŞƏRQ TƏRƏFDAŞLIĞI PROQRAMININ İNTEQRASİYA SƏRHƏDLƏRİ

*Avropa İttifaqı sərhədlərində sabitliyi təmin etmək üçün bir sıra mexanizmlər irəli sürmüşdür. Bu proqramlardan biri Şərqi Avropa və Cənubi Qafqaz dövlətlərini əhatə edən Şərq Tərəfdaşlığı proqramıdır. Proqram demokratiyanın, dövlət institutlarının və iqtisadiyyatın inkişafını əhatə edir. Bununla da proqrama qoşulan dövlətlər bu sahədə Aİ ilə uzlaşmağı əsas məqsəd kimi görür. Məqalədə proqrama üzv olan dövlətlərin inteqrasiya yolunda gəldikləri hazırkı səviyyə və inteqrasiyanı məhdudlaşdıran amillər tədqiq edilib. Burada dövlətlərin daha da dərin inteqrasiyasına mane olan Qərb ilə Rusiya arasındakı geosiyasi toqquşma və dövlətlərin öz milli maraqları əks olunub.*

*Açar sözlər*: Avropa İttifaqı, Şərq Tərəfdaşlığı, inteqrasiya.

***Giriş***. İkinci Dünya müharibəsinin dağıdıcı təsirləri Avropanın sabitliyə qovuşması üçün yeni mexanizmlərə ehtiyacının olduğunu ortaya qoydu. 1951-ci ildən başlayan Avropa dövlətlərinin inteqrasiyası Avropa İttifaqı adlı institutun yaranmasına gətirib çıxartdı. Bununla da Brüssel daxilində nizam yaratmağa müvəffəq oldu. Lakin onun sərhədlərindən qeyri-sabitlik hədəsi gəlməyə başladı.

SSRİ dağıldıqdan sonra yeni yaranmış dövlətlər və geosiyasi çaxnaşma Avropa İttifaqını müxtəlif təşəbbüslərlə çıxış edərək təhlükəsizliyini təmin etməyə vadar etdi. Xüsusilə, 2000-ci illərdən etibarən Aİ həm ərazisini genişləndirərək, həm də sərhədlərində yeni mexanizmlərlə öz dəyərlərini yayaraq stabilliyi təmin etməyə çalışır.

Bu istiqamətdə 2004-cü ildə Avropa Qonşuluq Siyasəti (AQS) və daha sonra isə 2009-cu ildə Şərq Tərəfdaşlıq (ŞT) proqramları irəli sürülüb. Düzgün idarəçilik, iqtisadi uzlaşma və insanlararası əlaqələrin artımını təşviq edən bu proqramlar qonşu dövlətlərin Avropa inteqrasiyası yolunda hədəflərinə xidmət edir.

1990-cı illərin əvvəlində müstəqillik əldə edən Azərbaycan, Gürcüstan, Ermənsitan, Ukrayna, Belarus və Moldova yeni dünya nizamında öz gələcəklərini firavan görmək üçün Avropa dövlətləri ilə sıx əməkdaşlıq qurmağa başladılar. İqtisadi və siyasi inkişafda Brüsselin təcrübəsindən faydalanmaq və nəzərdə tutulan imkanlar və yardımlardan yararlanmaq üçün irəli sürülən mexanizmlər inteqrasiya prosesinin sürətlənməsini hədəfləyirdi.

Bu proqramlara qoşulan altı dövlətin inteqrasiya yolu müəyyən sərhədlərlə çərçivələnir. Brüssel və xarici aktorların mövqeləri həmin sərhədləri müəyyən edir. Şərq Tərəfdaşlığı proqramının gəldiyi nöqtələr üzv olan dövlətlər üçün fərqli məqamları əks etdirir.

Məqalə proqramın mahiyyətini, dövlətlərin gözləntilərini və yaranmış vəziyyətdə Şərq Tərəfdaşlığı ölkələrinin inteqrasiya yolunda sərhədlərini tədqiq edir. Dövlətlərin tutduğu hədəflər müqayisəli, proqramın mahiyyəti və dövlətlərin gözləntiləri isə deskriptiv şəkildə təhlil edilib.

***Şərq Tərəfdaşlığı proqramı***. Şərq Tərəfdaşlığı təşəbbüsü Avropa Qonşuluq Siyasəti proqramının yeni formatı hesab edilir. 2004-cü ildə irəli sürülən bu proqram Aİ-nin yaxın qonşuluğunda olan dövlətlərin stabilliyinə, təhlükəsizliyinə və inkişafına dəstək olmaq məqsədini güdür. Brüssel bir sıra problemlərin həllində yalnız şəkildə addım ata bilməz və bunun üçün onun lazımı təsiredici alətləri mövcud deyil. Belə olduğu təqdirdə, Aİ müsbət inkişafı şərtləndirən vəziyyəti yaratmaq üçün təşəbbüslər irəli sürməyə köklənir (1, s.2).

Lakin AQS-in qarşıya qoyduğu məqsədlərin qeyri-müəyyənliyi onun tənəzzülü ilə nəticələndi. İdealist yanaşma ilə dostlar çevrəsi yaratmaq və realist olaraq təhlükəsiz sərhədlərə sahib olmaq fikri çətinliklə üzləşdi. Burada qonşu dövlətlərdə iqtisadi inteqrasiya üçün ağır islahatların aparılmasında problemlər yaşandı, eyni zamanda Aİ-yə yeni üzvlərin qəbulu düşüncəsi də birmənalı qarşılanmadı. Qonşu dövlətlər və üzv dövlətlər bu istiqamətdə ziddiyyətlərlə qarşılaşdılar.

Nəticədə isə qarşıya qoyulan hədəflərə çatılmadıqda yeni təşəbbüs kimi Şərq Tərəfdaşlığı Proqramı irəli sürüldü. 2009-cu il Praqa sammitində ortaya qoyulan bu proqrama Azərbaycan, Ermə-

nistan, Gürcüstan, Ukrayna, Belarus və Moldova qoşuldu. Bu proqram düzgün idarəçilik və demokratik inkişaf; Aİ qanunvericiliyi ilə iqtisadi uzlaşma; enerji təhlükəsizliyi; insanlararası əlaqələrin artırılması kimi hədəfləri əhatə edir (2, s.2, 3).

Şərq Tərəfdaşlığı proqramı Avropa İttifaqının dəyişdirici güc olmaq arzusunu əks etdirir. Belə ki, onunla əlaqədə olan kənar dövlətlər Avropa dəyərlərinə və normalarına inteqrasiya etməyə başlayır. Aİ dövlətlərə nəzarət etmək və ya ələ keçirmək deyil, sanki onları dəyişdirmək məqsədini güdür. Hüququn aliliyi, düzgün idarəçiliyi özünə əsas dəyər hesab edən Brüssel bu meyarları təbliğ etmək üçün maliyyə yardımları, vətəndaş cəmiyyətlərinə dəstək kimi müxtəlif proqramlardan istifadə edir (3, s.89-91).

Şərq Tərəfdaşlıq Proqramının çərçivəsində Brüsselin üzv olmayan dövlətlərə ən ambisiyalı təklifi olan Assosiasiya Sazişi yer alır. Burada iki əsas istiqamətdə hədəf götürülüb. İlkin olaraq Sazişi imzalayan dövlətin Dərin və Hərtərəfli Azad Ticarət Zonası mexanizmi ilə tədricən iqtisadi inteqrasiyası nəzərdə tutulub. İkincisi isə həmin dövlətlərdə bazar iqtisadiyyatının formalaşması əsas götürülüb. Bu alət imzalayan dövlətlərin müasirləşməsinə xidmət edir, lakin Aİ müasirləşməyə konkret izah verə bilmir. Burada əsasən demokratiyanın və sosial-iqtisadi vəziyyətin gücləndirilməsi nəzərdə tutulur (4, s.8, 9).

Son illərdə dünya ciddi hadisələrlə sarsılmağa başladı. Dəyişən vəziyyət ŞT-nin də bu nizama uyğunlaşdırılmasını tələb edirdi. Xüsusilə 2020-ci il pandemiyası zamanı proqram yeni hədəflər müəyyən etdi. İlk öncə qeyd edək ki, pandemiya zamanı Aİ ŞT-yə üzv dövlətlərə 1 milyard avro həcmində yardım paketi ayırdı. Buraya həm sağlamlıqla bağlı, həm də pandemiyanın sosial-iqtisadi vəziyyətə təsiri ilə bağlı problemlərin aradan qaldırılması aid idi.

2019-cu ildə başlayan məsləhətləşmələr nəticəsində Aİ 2020-ci ildən sonrakı dövrə aid proqram üçün bir neçə hədəf ortaya qoydu. Nəzərdə tutulan hədəflər aşağıdakılardır:

- dayanıqlı və inteqrasiya olunmuş iqtisadiyyatlar;
- qurumların hesabatlılığının təmin edilməsi, hüququn aliliyi və təhlükəsizlik;
- ətraf mühitə və iqlimə davamlılıq;
- rəqəmsal transformasiya;
- ədalətli və inklüziv cəmiyyətlər.

2021-ci il ŞT sammiti çərçivəsində üzv dövlətlər ilə qeyd edilən plan əsasında əməkdaşlığın genişləndirilməsi nəzərdə tutuldu. Gələcək illərdə regional iqtisadiyyatların inkişafı üçün paketin 17 milyard avroya qaldırılması bəyan edildi (5).

Yuxarıda göstərildiyi kimi Şərq Tərəfdaşlığı təşəbbüsündə bir sıra sahələrin inkişafı, müvafiq yerli sistemlərin Avropa iqtisadiyyatı və idarəetməsi ilə uzlaşdırılması nəzərdə tutulur. Lakin mövcud proqramdan dövlətlərin istəkləri və hədəfləri bir-birindən fərqlənir.

***Şərq Tərəfdaşlığına üzv dövlətlərin hədəfləri***. Proqrama üzv olan dövlətləri istəklərinə görə iki qrupa ayırmaq olar. Buraya Aİ-yə üzvlüyü hədəfləyən və hədəfləməyən dövlətlər aiddir. Belə ki, Gürcüstan, Ukrayna və Moldova Aİ ilə tam inteqrasiyanı açıq aşkar bəyan edib. Onların bu niyyətləri Assosiasiya Sazişi sənədinin imzalanması ilə rəsmi olaraq bildirilmiş hesab edilir. Azərbaycan və Ermənistan isə Şərq Tərəfdaşlığından özlərinin inkişafı və Aİ ilə əlaqələrin tənzimlənməsi kimi istifadə edir. Bu iki dövlət Aİ-yə üzvlük niyyətini bəyan etməyib. Son olaraq qeyd edək ki, Belarus 2021-ci ilin 28 iyununda ŞT proqramında iştirakını ləğv etdiyini bəyan edib. Bu, hazırkı hakimiyyətin inteqrasiyada ümumiyyətlə maraqlı olmadığını göstərir.

Gürcüstan, Ukrayna və Moldova ilə imzalanan Saziş üç istiqaməti əhatə edir. Birinci olaraq, Aİ-nin fəaliyyətini əhatə edən bir sıra çərçivə sazişləridir. Buraya Dərin və Hərtərəfli Azad Ticarət Zonası, xarici siyasət və təhlükəsizlik məsələlərində uzlaşma, eyni zamanda azadlıq və ədliyyə sistemində də əməkdaşlıq daxildir. İkincisi, komplekslik istiqaməti hesab edilir. Bu, hər üç dövlətin Avropa inteqrasiyasında yüksək səviyyədə ambisiyalarını əhatə edir. Sazişə imza atan dövlətlər Avropa bazarı ilə tam inteqrasiya hədəfləyirlər. Lakin bunun üçün bir sıra hüquqi nizamlamalar da tələb edilir. Son olaraq isə Assosiasiya Sazişi bir sıra şərtlərin yerinə yetirilməsini əhatə edir. Demokratik prinsiplər, insan hüquqları, fundamental azadlıqlara nail olmaq əsas şərtlər sırasındadır.

Qeyd edək ki, inteqrasiyanı sürətləndirmək və nəzərdə tutulan tələblərə əməl edilməsini yoxlamaq üçün hər üç dövlət mütəmadi olaraq Avropa İttifaqına hesabatlar təqdim edir (6, s.135, 136).

Assosiasiya Sazişini imzalamayan Azərbaycan və Ermənistanın mövcud geosiyasi vəziyyətində müxtəliflik müşahidə edilir. Belə ki, Azərbaycan heç bir siyasi bloka üzvlüyünü bəyan etməyərək 2011-ci ildə Qoşulmama Hərəkatına üzv oldu. Bununla da həm Avrasiya, həm də Avropa inteqrasiyasında orta nöqtəni götürərək milli maraqlarını praqmatik üslübda qurmağa çalışdı. Lakin Ermənistanda isə məsələlər daha mürəkkəb forma alıb.

Ermənistan müstəqilliyinin ilk illərində xarici siyasətində Avropa inteqrasiyasında fəal rol almağa başladı. Avropa Şurası və ATƏT-ə üzvlük, Aİ ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması, Yerevanda Aİ-nin nümayəndəliyinin açılması kimi addımlar bunun bariz nümunəsidir.

İnteqrasiya yolu artan qrafikdə inkişaf edirdi, lakin o vaxtkı prezident Serj Sarqsyanın 2013-cü ildəki çıxışı hadisələrə öz nöqtəsini qoydu. Rəsmi Yerevan Avropa inteqrasiyasını sonlandıraraq Avrasiya İttifaqına istiqamət aldı. Baş verən çıxışdan sonra Aİ ilə danışıqlarda fasilə yarandı. 2015-ci ildə yenidən başlanan dialoqlar nəticəsində Brüssel ilə Yerevan yeni saziş imzalamağa razılaşdı. Bu saziş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin inkişaf etdirilmiş versiyası hesab edilə bilər. Ermənistan nəticədə Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişinin imzalanması ilə bağlı danışıqlara başladı. 2017-ci ildə isə tərəflər müsbət nəticə əldə etdi və saziş imzalandı (7, s.1, 2).

Azərbaycanın Avropa İttifaqı ilə inteqrasiyadan istəkləri isə digər dövlətlərdən fərqlənir. Bunu təhlil etmək üçün Azərbaycanın xarici siyasət xəttinə nəzər yetirmək lazımdır. Bu xətt 1993-cü ildə hakimiyyətə gələn ümumilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müstəqilliyin ilk illərində yaranan siyasi və iqtisadi böhranları həll etmək üçün Azərbaycan xarici siyasətində iqtisadiyyat amili, xüsusilə də enerji amili ön plana çəkildi. 1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi" sənədi ilə başlanan neft strategiyası ölkənin regionda geoiqtisadi əhəmiyyətini artırdı.

Bu strategiyanın əsas istiqamətində isə Avropa dövlətləri yer alır. Azərbaycan Avropa ilə əlaqələri tənzimləmək üçün 1996-cı ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzaladı, 2001-ci ildə isə Avropa Şurasına üzv oldu. Xarici siyasətdə enerji amilini nəzərə alsaq Azərbaycanın Aİ ilə münasibətlərində iqtisadiyyatın böyük rol oynadığını görə bilərik. Bu yanaşmanı Şərq Tərəfdaşlığı proqramında üzvlüyünün hədəflərinə də tətbiq etmək mümkündür.

Cənubi Qafqaz regionun siyasi, etno-siyasi, sosial-mədəni aspektlərini ələ alaraq Azərbaycan addımlarında riskləri xüsusi nəzərə alır. Bu da onun Brüssel ilə inteqrasiya hədəflərini üzvlükdən kənar şərtlərlə qurmağa vadar edir. Azərbaycan xarici siyasətində geosiyasi risklər xüsusi diqqət içərisində saxlanılır (8, s.341-343).

Avropaya inteqrasiyada ən məhdud baxışı olan dövlət Belarusdur. Rəsmi Minskin yanaşmasında Rusiya ilə coğrafi və siyasi yaxınlığın xüsusi yeri var. Lukaşenkonun xarici siyasi xətti inteqrasiyanı maksimum səviyyədə çərçivələndirdi. 1995-ci ildə Tərəfdaşlıq və Əməkdaşlıq sazişi imzalayan Belarus 2 il sonra bunu dondurdu. Daha sonra Belarus 2003-cü ildə Avropa Qonşuluq siyasətinə üzv oldu. Lakin Brüssel 2004-cü ildə Belarusun bəzi siyasətçilərinin hesablarını dondurmağa başladı. 2006-cı il seçkilərindən sonra isə bu kampaniyanın əhatə dairəsi genişlənməyə başladı (9, s.23, 24).

Hadisələrin yekun sonunda isə Belarus 2021-ci ildə Şərq Tərəfdaşlığında olan iştirakından imtina etdi. Bununla Minsk Avropaya inteqrasiya yolunu bağladı. Lakin bu qərar çoxdan verilmişdi, Belarusun hazırkı hakimiyyəti gələcəyi Qərbdə deyil, Şərqdə görür. Təbii ki, burada Kremldən olan təhlükə və qorxunu mütləq nəzərə almaq lazımdır. Qərbə yolun açılması Şərqin zəifləməsi nəticəsində mümkün ola bilər.

Şərq Tərəfdaşlığı proqramı inteqrasiyanı daha da sürətləndirmək və Aİ-nin sərhədlərində sabit regionun yaradılmasını məqsəd olaraq irəli qoymuşdu. Məqsəd bir olsa da, üzv olan dövlətlərin hədəfləri vahid deyildi. Bəziləri üzvlüyü əsas tutsa da, digərləri əlaqələri müəyyən çərçivədə inkişaf etdirməyi hədəfləyirdi. Bu isə özlüyündə proqramın sərhədlərini müəyyən edir. Beləliklə hər bir üzv dövlət üçün Şərq Tərəfdaşlığının fərqli sərhədləri mövcuddur.

***Şərq Tərəfdaşlığının sərhəddi.*** Şərq Tərəfdaşlığı proqramının sərhədləri sadəcə altı dövlət tərəfindən müəyyən edilmir. Burada xarici aktorların da öz rolu var. İlkin olaraq Brüsselin mövqeyi önəm kəsb edir. Belə ki, 2021-ci il dekabr ayının 15-də Belçikanın paytaxtı Brüssel şəhərində "Şərq

Tərəfdaşlığı" zirvə görüşü keçirilib. Görüş zamanı proqrama üzv olan dövlətlərin siyasi liderləri və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də iştirak edib.

Sammit zamanı tərəflər birgə bəyannaməyə imza atıb. Bəyannamədə Şərq Tərəfdaşlığı çərçivəsində birgə əməkdaşlıq və qarşıya qoyulan hədəflərlə yanaşı siyasi stabilliyi hədə altına salan problemlər də öz əksini tapıb. Bəyannamədə Aİ regionda mövcud olan münaqişələrdən narahatlığını ifadə edərək problemlərin sülh yolu ilə həllinə tərəf olduğunu qeyd edib. Bundan başqa, Aİ proqramda iştirak edən dövlətlərin Avropaya inteqrasiyada qarşıya qoyduqları hədəflərə, inteqrasiya səviyyəsinə hörmətlə yanaşdığını da ifadə edib (10).

Bununla da Avropa İttifaqı Şərq Tərəfdaşlığı proqramının əslində konkret üzvlük nəzərdə tutmadığını sadəcə qarşılıqlı əməkdaşlığın inkişafını ehtiva etdiyini sərgilədi.

Brüsseldən başqa Kreml də sərhədlərin çəkilməsində paya sahibdir. Şərq Tərəfdaşlığının sərhəddi həm də Rusiyanın geosiyasi ambisiyalarının başladığı yerə qədərdir. ŞT-yə üzv olan dövlətlərin inteqrasiya çərçivəsi də bu maraqların əhatəsində məhdudlaşır. Hələ 2010-cu ildə rusiyalı tədqiqatçı Andrey Zaqorski Moskvanln Aİ-nin yeni proqramından irəli gələn bir sıra əməkdaşlıq sazişlərini özü üçün problemli hesab etdiyini qeyd edib. Burada iqtisadi assosiasiya, azad hərəkət etmə və azad bazar modeli, eyni zamanda enerji sahəsində əməkdaşlıq kimi formatlar əsas gətirilib (11, s.1-3).

2014-cü ildə Aİ Ukrayna, Moldova və Gürcüstan ilə Assosiasiya Sazişi imzaladı. Beləliklə, bu dövlətlər Dərin və Hərtərəfli Azad Ticarət Zonasına daxil oldular. Kremlin bu addımların qarşısında öz inteqrasiya modeli olan Avrasiya İqtisadi Birliyini təsis etdi. Daha sonra Ukraynanın ərazi bütövlüyü Krımın ilhaqı ilə pozuldu. Rusiyanın aqressiv addımları ŞT-nin sərhədlərini müəyyən etdi.

Şərq Tərəfdaşlığının çərçivələri sadəcə geosiyasi amillər ilə nəticələnmir. Avropa inteqrasiyasında maraqlı olan dövlətlər öz çıxarlarını güdürlər. Lakin bu inteqrasiya indiki məqamda heç də altı dövlətin hamısına sərf etməyə bilər. Burada iqtisadi və idarəetmə sahəsində olan amillər də daxildir.

Bu istiqamətdə bəzi dövlətlərin göstərdiy nəticələrə nəzər salmaqda fayda var. Misal üçün Aİ-yə üzvlüyü hədəf qoyan Ukrayna inteqrasiya yolunda ciddi nəticələr əldə edib. Belə ki, aparılan islahatlar nəticəsində demokratik institutların inkişafı hüququn aliliyi prinsipinin qorunması baxımından nəzərəçarpan irəliləyişlər qazanılıb. Lakin bununla belə hələ də korrupsiya faktoru, ərazi münaqişəsinin yaratdığı iqtisadi çətinliklər Ukraynanı üzvlükdən uzaqda saxlayır. Oxşar mənzərə digər dövlətlərdə də müşahidə edilir. Misal üçün, Moldovada hələ də ən böyük problemlərdən biri ədliyyə sahəsində şəffaflığın az olmasıdır (12, s.5). Təbii ki, bütün bunlar əslində üzvlük yolunda proqramın zəifliyini və ya effektiv olması mənasına gəlməməlidir. Bütün bunlarla yanaşı 2009-cu il ilə müqayisədə nəzərdə tutulan reformların aparılması və nəticələrin əldə edilməsində ciddi irəliləyişlər mövcuddur.

Qeyd edək ki, ərazi münaqişələri ŞT dövlətlərinin inkişafını və stabilliyinə kölgə salır. 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsi, 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsi geosiyasi mənzərəni qarışdırmağa başladı. Yaranmış qeyri-sabitlik ŞT üzrə planların da icra edilməsinə öz təsirini göstərəcək. Lakin bu məqamda Aİ təhlükəsizlik məsələlərində də aktiv rol oynamağa başlayıb. Ukraynaya hərbi yardımlar və Azərbaycan-Ermənistan münaqişəsində vasitəçilikdə fəallıq Brüsselin sərhədlərdə baş verənlərin maksimum sabitliklə nəticələnməsinə çalışdığını göstərir.

Hər üç istiqamətdən baxdıqda Şərq Tərəfdaşlığı proqramı geosiyasi, iqtisadi və idarəçilik sahələrində müəyyən çətinliklərlə üzləşir. Proqram Aİ-nin sərhədlərində stabillik və yaxşı idarəçiliyi təşviq edir və Aİ ilə maksimum yaxınlığı yaratmağa çalışır. Lakin ŞT-yə qoşulan dövlətlərin maraqları ilə Brüsselin maraqlarında mümkün uyğunsuzluq, xarici aktorların istəkləri ilə üst-üstə düşməyən mövqelər Şərq Tərəfdaşlığını məhdud çərçivələrə salır. ŞT regionunda baş verənlər isə inteqrasiya sərhəddinin uzunluğunu artırır. Böhranlar ciddi iqtisadi problemlərə və geosiyasi qeyri-stabilliyə gətirir ki, hadisələrin necə nəticələnəcəyi haqqında proqnoz verməyi çətinləşdirir.

***Nəticə.*** Avropa İttifaqı Avropa Qonşuluq Siyasətində qarşıya qoyulan hədəflərə çatılmadığını və proqramın səmərəli olmadığını gördükdə, Şərq Tərəfdaşlıq proqramı ilə altı Şərqi Avropa və Cənubi Qafqaz dövlətlərini yeni mexanizm ətrafında cəmləşdirdi. Proqram inteqrasiyanı dərinləşdirmək üçün Assosiasiya Sazişi adlı sənədlə ən yüksək təklifini təqdim etdi. Burada üzv dövlətlərin Avropa ilə həm iqtisadi, həm də siyasi mənada yaxınlaşması daha üst səviyyədə təşkil edilir.

Lakin ŞT dövlətləri mövcud geosiyasi səbəblərdən və öz maraqları çərçivəsində inteqrasiyadan istəkləri də fərqlidir. Ukrayna, Gürcüstan və Moldova tam inteqrasiyanı və üzvlüyü hədəfləsə də Azərbaycan və Ermənistan müxtəlif səviyyələrdə inteqrasiyanı məqsəd qoyur. Belarus isə ümumiyyətlə Aİ ilə inteqrasiya siyasətini dondurub.

ŞT çərçivəsində inteqrasiyanın sərhədləri eyni zamanda Kreml rəhbərliyi tərəfindən də cızılır. Rusiya ilə Qərbin sərhəddində yerləşən altı dövlət xarici siyasətlərini qurarkən hər iki tərəfin maraqlarını nəzərə almaq məcburiyyətindədir. Belə ki, geosiyasi rəqabət inteqrasiyanın sərhədlərini müəyyən edir. Münaqişələrin hərbi xarakter aldığı zamanda Avropa İttifaqı ilə münasibətlərin səviyyəsi və inteqrasiya yoluna alınacaq gələcək qərarlar haqqında proqrnozlar çətinləşir.

Lakin bununla belə ŞT proqramı dövlətlərin Avropa İttifaqına tam inteqrasiya olunması üçün əsas sahələrdə reformların aparılması və Avropa dəyərlərinə uzlaşmanı tam şəkildə əhatə edir. Yarandığı ilk gündən etibarən Şərq Tərəfdaşlığı proqrama qoşulan dövlətlərin hökumət idarəçiliyi və iqtisadiyyat sahələrində islahatların aparılmasında ciddi nailiyyətlər qazanıb. Ancaq bu dövlətlərin indiki göstəriciləri hər iki istiqamətdə Aİ-yə üzv olmaq üçün kifayət etmir. Bir sözlə Ukrayna, Gürcüstan və Moldova sərhədləri Aİ-nin daxilində, Azərbaycan və Ermənistan isə yaxınlığında görür. Belarus isə ümumiyyətlə Aİ ilə inteqrasiyada özünü görmür.

## ƏDƏBİYYAT

1. European Commission, “Review of the European Neighbourhood Policy”, High Representative of the Union for Foreign Affairs And Security Policy, 18.11.2015, Brussels, p.21.
2. Elena Korosteleva, “The Eastern Partnership Initiative: A New Opportunity for Neighbours?”, Journal of Communist Studies and Transition Politics, Vol. 27, No. 1, pp.1-21.
3. Jean Crombois, “The Eastern Partnership: Geopolitics and policy inertia”, European View 2019, Vol. 18(1), pp. 89–96.
4. Kataryna Wolczuk, Laure Delcour, Rilka Dragneva, Klaudijus Maniokas, Darius Žeruolis, “The Association Agreements as a Dynamic Framework: Between Modernization and Integration”, EU-STRAT Working Paper Series, No. 6, September 2017, p.36.
5. “Eastern Partnership policy beyond 2020”, 11 January 2022, European Council, - https://www.consilium.europa.eu/en/policies/eastern-partnership/eastern-partnership-policy-beyond-2020/ [Accessed 21 September 2022].
6. Roman Petrov, “The new generation of the European Union Association Agreements with Ukraine, Moldova And Georgia”, FACING THE CHALLENGES IN THE EUROPEAN UNION, Ewa Latoszek, Magdalena Proczek, Agnieszka Kłos, Marta Pachocka, Ewa Osuch-Rak (eds), POLISH EUROPEAN COMMUNITY STUDIES ASSOCIATION WARSAW 2015, pp.133-145.
7. Hrant Kostanyan and Richard Giragosian, “EU-Armenian Relations: Charting a fresh course”, Centre for European Policy Studies, No. 14, November 2017, p.30.
8. Bakhtiyar Nabiyev, “Principal starting points and conceptual views in the geopolitics of Azerbaijan”, Revista Universidad y Sociedad, Vol. 13 No. 5, 2021, pp.339-344.
9. Kai-Olaf Lang, Martin Koopmann, “The EU and Belarus – A Relationship With Reservations”, Belarus and the EU: From IsolatIon towards cooperation, Konrad Adenauer Stiftung, 2011, pp.22-33.
10. “Joint Declaration of the Eastern Partnership Summit”, Brussels, 15 December 2021, https://www.consilium.europa.eu/media/53527/20211215-eap-joint-declaration-en.pdf [21.09.2022].
11. Andrei Zagorski, “Eastern Partnership – Russia Eastern Partnership from the Russian Perspective Eastern Partnership – Russia”, 2010, Friedrich Ebert Stiftung (23).
12. Dorina Baltag, “The resilience of the Eastern Partnership: what role for the Visegrad countries?”, Institute of International Relations Prague, V4 Think-Tank Platform, 2022.

**УЛЬВИ АХМЕТЛИ**
*Докторант Бакинского Государственного Университета*

## ИНТЕГРАЦИОННЫЕ ГРАНИЦЫ ПРОГРАММЫ ВОСТОЧНОГО ПАРТНЕРСТВА

Европейский Союз выдвинул ряд механизмов для обеспечения стабильности вдоль своих границ. Одной из таких программ является программа «Восточное Партнерство», в которую входят страны Восточной Европы и Южного Кавказа. Программа охватывает развитие демократии, государственных институтов и экономики. Государства, присоединившиеся к программе, согласовывают свои институты с ЕС в этой области. В статье изучен текущий уровень интеграции государств-участников программы и факторы, ограничивающие интеграцию. Здесь находят отражение и геополитический конфликт между Западом и Россией, препятствующий более глубокой интеграции государств, и собственные национальные интересы государств.

*Ключевые слова*: Европейский союз, Восточное Партнерство, интеграция.

**ULVİ AHMADLİ**
*Baku State University doctorate student*

## INTEGRATİON BOUNDARİES OF THE EASTERN PARTNERSHİP PROGRAM

The European Union has put forward a number of mechanisms to ensure stability along its borders. One of these programs is the Eastern Partnership program, which includes the countries of Eastern Europe and the South Caucasus. The program covers the development of democracy, state institutions and the economy. The states joined the program adjusts its institutions with the EU in this area. In the article, the current level of integration of the member states of the program and the factors limiting integration were studied. Here, the geopolitical conflict between the West and Russia, which prevents deeper integration of the states, and the states' own national interests are reflected.

*Keywords*: European Union, Eastern Partnership, integration.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. İsmayıl Musa, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**KÖNÜL HÜSEYNOVA**
*Doktorant, Bakı Dövlət Universiteti*
**konulhuseynova2@bsu.edu.az**

# AVROPA İTTİFAQI -TÜRKİYƏ MİQRASİYA RAZILAŞMASI

*Bu məqalədə miqrasiya sahəsində Aİ-Türkiyə birgə fəaliyyəti araşdırılır. Aİ-Türkiyə miqrasiya razılaşmasının əsas aspektləri və razılaşmanın miqrasiya axınına təsiri məsələləri təhlil edilir. Həmçinin müqavilə ilə bağlı mövcud problemlərə diqqət yetirilir.*

*Açar sözlər:* miqrasiya, miqrasiya böhranı, Suriyalı miqrantlar, Aİ-Türkiyə birgə fəaliyyət planı, Türkiyə Qaçqınlar Təsisatı, Aİ-Türkiyə miqrasiya razılaşması.

***Giriş***. Avropa İttifaqı miqrasiya proseslərinin tənzimlənməsində tranzit ölkələr ilə tərəfdaşlığa mühüm əhəmiyyət verir. Bu isə, daha çox İttifaqın miqrasiya problemini birlik sərhədləri xaricində həll etmək cəhdlərindən irəli gəlir. 2011-ci ildə Suriyada vətəndaş müharibəsinin başlanması və başqa qlobal böhranlar milyonlarla insanı qonşu ölkələrə və Avropaya qaçmağa məcbur etdi. Suriya, Əfqanıstan, İraq, həmçinin Pakistan, Nigeriya kimi daha uzaq ölkələrdən 1 milyondan çox sığınacaq axtaran və başqa miqrantlar Avropa İttifaqı ölkələrinə gəlmişdilər. 2016-cı ildə gəlişlər əhəmiyyətli dərəcədə artırdı və blok miqrasiya yükünü effektiv bölüşə bilmədiyinə görə , Cənub və Şərq Üzv Dövlətləri daha çox təsirə məruz qalırdı. Miqrasiya problemi tezliklə kontinental xarakter aldı və uzun illərdi davam edən Avropa inteqrasiya layihəsini və vahid Avropa anlayışını sarsıtmaq təhlükəsi yaratdı.

Avropaya miqrasiya axınında əsas tranzit ölkələrdən biri Türkiyədir. 18 mart 2016-cı ildə Avropa İttifaqı və Türkiyə, Türkiyədən Avropaya nizamsız miqrasiya axınını dayandırmaq məqsədilə razılığa gəldilər. Aİ – Türkiyə bəyannaməsinə görə, Türkiyədən Yunan adalarına gələn bütün yeni qeyri-qanuni miqrantar və sığınacaq axtaranlar və sığınacaq üçün müraciətləri qəbul edilməyənlər Türkiyəyə qaytarılmalıdır. Bu məqalədə miqrasiya böhranının aradan qaldırılmasında Aİ və Türkiyə əməkdaşlığı təhlil edilir. Xüsusilə, miqrasiya razılaşması ilə bağlı mövcud problemlərə və razılaşmanın miqrasiya axınına təsiri məsələlərinə aydınlıq gətirilir.

***Miqrasiya böhranının aradan qaldırılmasında Aİ və Türkiyə birgə fəaliyyəti.*** Avropa Komissiyası miqrasiya ilə bağlı fəaliyyətləri həm genişlənmə ölkələrində, həm də qonşu ölkələrdə "Qoşulmadan əvvəl Yardım" və "Avropa qonşuluq fondları" vasitəsi ilə dəstəkləyir. Avropa Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Yohannes Han bildirmişdir ki, "Mövcud qaçqın böhranı qlobal ölçüdə bir problemdir. Biz öz tərəfdaşlarımız və Aİ sərhədlərindən kənardakı qonşu ölkələrlə hansı ki, daha çox təsirə məruz qalıb, əl-ələ işləməliyik" (12, European Commission). Türkiyə hal hazırda 2.7 milyon qeydə alınmış Suriyalı qaçqına ev sahibliyi edir və Aİ Türkiyəyə bu problemin həllində köməklik göstərməyi öz öhdəsinə götürür(12, European Commission). Ümumilikdə, Türkiyə dünyada ən çox qaçqına ev sahibliyi edən ölkədir və artıq bu böhranın həllinə xeyli maliyyə vəsaiti xərcləyib. Aİ-Türkiyə birgə Fəaliyyət Planı oktyabrda razılaşdırıldı və 29 noyabr 2015-ci ildə Aİ-Türkiyə sammitində aktivləşdirildi. Fəaliyyət Planı miqrasiya axınını nizamlamaq və qeyri-qanuni miqrasiyanın qarşısını almaq məqsədi daşıyır (5, European Commission). İki hissədən ibarət olan fəaliyyət planın 1-ci hissəsində müvəqqəti himayə altında olan suriyalılara və onlara ev sahibliyi edən türk icmalarına dəstəklə bağlı tədbirlər, 2-ci hissədə isə qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün əməkdaşlığın gücləndirilməsi tədbirləri öz əksini tapmışdır (6, European Commission). Görüləcək tədbirlər böhranla mübarizədə Türkiyəyə dəstək üçün Aİ tərəfindən vəsaitlərin ayrılması, humanitar yardımın göstərilməsi, həmçinin Türkiyə tərəfindən bütün miqrantların qeydiyyata alınması, uyğun sənədlərlə təmin olunması, sığınacaq prosedurlarının tamamlanması kimi məsələləri əhatə edirdi. Qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün isə miqrant qaçaqçılığının qarşısının alınması və qanunsuz miqrantların mənbə ölkəsinə geri qaytarılması sahəsində əməkdaşlığa dəstək verilməsi vurğulanırdı (6, European Commission). Birgə fəaliyyət planında əksini tapan məsələlərin reallaşdırılması üçün görülən tədbirlərdən biri də

qaçqınlar üzrə fondun yaradılması oldu. 2015-ci ilin sonlarında Türkiyə Qaçqın Fondunun yaradılması Türkiyədəki qaçqınlara Aİ yardımının sürətli, effektiv və səmərəli səfərbər edilməsi üçün Aİ-nı koordinasiya mexanizmi ilə təmin etmək məqsədi daşıyırdı. Fondun ümumi büdcəsi 2016-2017-ci illər üçün 3 milyard avro idi və 2016-cı il Sentyabr ayının sonuna kimi dəyəri 1.2 milyard avro olan 34 layihə üzrə müqavilə imzalanıb, bunun 677 milyon avrosu ödənilib (5, European Commission). Təsisat əsasən humanitar yardım, təhsil, miqrasiya idarəçiliyi, səhiyyə, bələdiyyə infrastrukturu və sosial-iqtisadi dəstəyə diqqət yetirir (12, European Commission). Birgə Fəaliyyət Planında əks olunan tədbirlər Aİ üçün dəstək xarakterli olsa da, Türkiyə üçün daha çox öhdəlik xarakterli idi. Aİ və Türkiyə daha sonra razılaşdıqları bəyannamə ilə birgə fəaliyyət planına sadiq qaldıqlarını bir daha təsdiqlədilər.

Miqrasiya sahəsində Aİ-Türkiyə əməkdaşlığında ən mühüm nümunələrdən biri 18 Mart 2016-cı ildə Türkiyədən Avropaya qeyri-qanuni miqrasiyaya son qoymaq üçün Aİ və Türkiyə arasında imzalanan razılaşma oldu. Bu məqsədə nail olmaq üçün, bəyannamədə aşağıdakı əsas məsələlərlə bağlı razılığa gəldilər (8, Council of the EU): 1) 20 mart 2016-cı ildən etibarən Türkiyədən Yunan adalarına keçən bütün yeni qeyri-qanuni miqrantlar Türkiyəyə geri qaytarılacaq; 2) Yunan adalarından Türkiyəyə qaytarılan hər bir Suriyalı üçün, başqa bir Suriyalı Türkiyədən Aİ-na köçürüləcək; 3) Türkiyə, Türkiyədən Aİ-na qeyri-qanuni miqrasiya üçün yeni dəniz və ya quru yollarının açılmasının qarşısını almaq üçün zəruri tədbirləri görəcək; 4) Aİ və Türkiyə arasında qeyri-qanuni keçidlər sona çatdıqdan və ya əhəmiyyətli şəkildə azaldıqdan sonra Könüllü Humanitar Qəbul Sxemi aktivləşdiriləcək; 5) Türkiyə vətəndaşları üçün viza tələblərinin ən geci 2016-cı ilin iyun ayının sonuna kimi aradan qaldırılması məqsədilə işlərin sürətləndirilməsi; 6) Aİ Türkiyədə Qaçqınlar üçün Fond çərçivəsində ilkin olaraq ayrılmış 3 milyard avronun ödənilməsini sürətləndirəcək, 2018-ci ilin sonuna kimi isə əlavə 3 milyard avro maliyyə səfərbər edəcək; 7) Gömrük İttifaqının təkmilləşdirilməsi üzrə aparılan işləri alqışlayıblar; 8) Aİ və Türkiyə üzvlük prosesini sürətləndirmək öhdəliyini bir daha təsdiqlədi; 9) Aİ Suriya daxilində humanitar vəziyyətin yaxşılaşdırılması üçün Türkiyə ilə birgə çalışacaq. Bəyannamədə həmçinin Egey dənizində NATO fəaliyyətinin qurulması və miqrant qaçaqçılığına qarşı tədbirlərin gücləndirilməsi də qeyd olunurdu. Bəyannamədə ən vacib məsələlər Türkiyədən Yunan adalarına üz tutan qeyri-qanuni miqrantların qarşısının alınması, adalara qanunsuz gələn kimsənin geri qaytarılması, qayıdan hər bir Suriyalı əvəzinə, Türkiyədə gözləyən bir Suriyalı qaçqının Aİ üzv dövlətinə qəbul edilməsi idi. Bunun əvəzində Türkiyə ölkədə qaçqınların üzləşdiyi humanitar vəziyyətin yaxşılaşdırılması üçün 6 milyard avro alacaq, və türk vətəndaşlarına Avropaya səyahət üçün viza məhdudiyyətləri aradan qaldırılacaq (15,The International Rescue Committee).

***Miqrasiya razılaşmasının reallaşdırılması ilə bağlı problem və nəticələr.*** Avropa ölkələri və Türkiyə arasında miqrasiya əlaqələri Aİ-Türkiyə razılaşmasının ortaya çıxmasından çox əvvəl mövcud olmuşdur. Almaniya, İtaliya, və İspaniya daha əvvəl Türkiyə ilə ikitərəfli miqrasiya müqavilələri bağlamışdılar, əslində bunlar əsasən II Dünya Müharibəsi sonrası iqtisadiyyatlarını canlandırmaq üçün türk işçi qüvvəsini Avropaya gətirməyə yönləndirilmiş əmək paktları idi. 2016-cı il razılaşması isə həm miqrasiya probleminin ölçüsünün Avropanın əvvəllər gördüyündən daha böyük olması, həm də sığınacaq axtaranların və digər miqrantların gəlməsinin qarşısını almaq üçün Aİ-nın qonşu dövlətlərlə koordinasiyalı fəalliyyəti baxımından fərqli idi (11, Kyilah Terry, Migartion Policy İnstitute). Bu razılaşma, Avropa sərhədlərində gərginliyin azaldılması, gələcək miqrantları belə təhlükəli səyahətlərdən yayındırmaq və eyni zamanda üzv dövlətlərin İttifaqla bağlı əsas məsələlərdə vahid mövqedən dayana biləcəklərini nümayiş etdirmək məqsədi daşıyırdı (11, K.Terry, Migartion Policy İnstitute). Bu razılaşmada Avropanın məqsədləri aşkar idi. Blok çoxlu sayda sığınacaq axtaranları qəbul etməkdə çətinlik çəkirdi və Ümumi Avropa Sığınacaq Sistemi 1999-cu ildə fəaliyyətə başladığı vaxtdan indiyə qədər üzv dövlətlər arasında miqrant yükünün bölüşdürülməsində ən böyük çətinliklə qarşılaşmışdır.

Türkiyə isə razılaşmanı qismən, Suriya prezidenti Bəşər əl Əsəd rejiminin uzun müddət davam etməyəcəyi gözləntisi ilə əsaslandırırdı. Suriya vətəndaş müharibəsinin ilkin mərhələsində Türkiyə açıq-qapı siyasəti elan etdi və döyüşlərdən qaçan Suriyalılar üçün müvəqqəti müdafiə təklif etdi. Lakin Suriya konfliktinin davam etməsi və artan qaçqın sayı çətinliklər yaratdı, və 2016-cı ildən bəri

Türkiyə özünün şərq sərhədlərini möhkəmlətdi. 2021-ci il martında, 2016-cı il razılaşması imzalandıqdan sonra təxminən 1 milyon artımla, 3,7 milyona yaxın Suriyalı qaçqın Türkiyədə yaşayırdı (11, K. Terry, Migration Policy İnstitute). Türkiyənin qaçqınları və iqtisadi miqrantları Avropadan geri götürmək vədi boşuna deyildi (7, P.Kingsley and J.Rankin). Ən böyük mükafat iyunun sonuna kimi 75 milyon türk üçün 26 Avropa üzvünün sərhədsiz səyahət zonasında viza məhdudiyyətlərinin yumşaldılması idi. Türkiyə həmçinin Aİ üzvlük danışıqlarını artıq təklif olunan iki sahədə deyil, beş siyasət sahəsində yenidən başlamaq istəyirdi. Müqavilənin həmçinin daxili siyasi təzyiqlərdən qaynaqlandığı vurğulanır, belə ki, cəmi bir neçə ay sonra hökumət çevriliş cəhdini dəf edəcəkdi. Lakin qeyd olunan hərbi çevriliş cəhdi ilə bağlı, Türkiyənin atdığı addımlar Aİ tərəfindən tənqidlə qarşılandı və müqavilədə əksini tapan bir sıra mühüm məsələlərlə bağlı tərəflər arasında gərginlik yaşandı. Bunlardan bir də Türkiyə ilə üzvlük danışıqları idi.

Türkiyənin Avropa İttifaqı ilə inteqrasiyası uzun və mürəkkəb bir məsələdir və razılaşmada bu prosesin sürətləndirilməsi ilə bağlı da müddəa var idi. Lakin baş verən hadisələrin fonunda üzvlük danışıqları nəinki sürətləndirildi, əksinə Türkiyə-Aİ üzvlük danışıqlarının dayandırılması təklifləri ilə nəticələndi. Almaniyanın liberal deputatı Qraf Lambsdorff Türkiyənin İttifaqa qoşulması ilə bağlı müsahibəsində qeyd etmişdir ki, "hüquqi baxımdan Türkiyə hələ də namizəddir, amma faktik olaraq belə deyil. Nə Ankarada nə də ki, Brusseldə heç kəs bu məsələyə inanmır ki, Türkiyə nəhayət Avropa İttifaqına qoşulacaq. Və buna görə də biz deyirik ki, yeni başlanğıc etmək və münasibətləri yeni təməl üzərində qurmaq daha yaxşı olar" (13, Euronews). Görünür Aİ ancaq öz siyasi maraqlarını təmin etmək məqsədilə Türkiyə üçün önəmli olan belə bir məsələdən istifadə etmişdir. Bundan əlavə Avropa Parlamenti insan haqları vəziyyətini və yeni Türkiyə konstitusiyasını nəzərə alaraq, Şura və Komissiyaya mövcud Aİ-Türkiyə üzvlük danışıqlarının rəsmi olaraq dayandırılmasını tövsiyə edib (7, European Parliament). Qəbul edilmiş qətnamə məcburi xarakter daşımasa da, Aİ-Türkiyə münasibətlərində siyasi gərginliyi artırmışdır. Qətnamədə Aİ üçün əhəmiyyətli olan bəzi sahələrdə əməkdaşlığın davam etdirilməsi zəruriliyi də vurğulanıb. Bunlar, 1995-ci il Aİ-Türkiyə Gömrük İttifaqının modernləşdirilməsi; türk vətəndaş cəmiyyətini dəstəkləmək üçün Aİ vəsaitlərinin ayrılması; həmçinin, Türkiyə vətəndaşlarının, xüsusi ilə tələbələrin, alimlərin, iş adamlarının və Aİ ölkələrində qohumluq əlaqəsi olan insanların faydalanması üçün Aİ viza sərbəstliyi ilə bağlı bütün 72 meyarı həyata keçirilməsinə çağırış idi (7, European Parliament). Parlamentin qətnaməsinin ardınca Aİ-nin bəyanatı da İttifaqın miqrasiya razılaşmasında üzvlük prosesinin sürətləndirilməsi vədindən yayındığını göstərirdi. Beləki, Aİ-nin mart ayında Ankara ilə miqrasiya böhranını həll etmək üçün əlamətdar razılaşmanın bir hissəsi olaraq "sürətlənmiş templə" yeni fəsillər açmağa hazırlaşacağına dair vədinə baxmayaraq, Slovakiyanın sədrlik etdiyi Avropa Birliyinin bəyanatında "hazırda mövcud şərtlər altında yeni fəsillərin açılması nəzərdə tutulmur" deyilirdi (4, D.Kemp).

Digər tərəfdən Türkiyənin də artıq öz standartlarında, öz dəyərlərində və öz siyasətində Avropaya yönəlməkdən əl çəkdiyi qeyd olunur. Aİ-nin qarşısında duran vəzifə münasibətlərin daha da pisləşməsinin qarşısını almaqdır. Aİ liderləri dörd əsas mövqeyə sadiq qalmalıdırlar (14, Marc Pierini): birincisi, Türkiyə strateji tərəfdaşdır və dialoq kanalları açıq qalmalıdır. Suriya böhranı və terrorizm bu dialoqu açıq saxlamaq üçün çoxsaylı səbəblərdən yalnız ikisidir; ikincisi, Aİ-Türkiyə Gömrük İttifaqı, 2016-cı il mart qaçqın razılaşması, Erasmus tələbə mübadilə proqramları kimi davam edən Aİ siyasət və proqramları və bunlarla yanaşı Türkiyə tərəfindən dondurulanlar hər kəsin xeyrinə davam etdirilməli və ya bərpa olunmalıdır; üçüncüsü, vizanın liberallaşdırılması qarşılıqlı fayda gətirən mühüm öhdəlikdir və bundan imtina etmək olmaz; dördüncüsü, Türkiyənin avtoritet idarəçiliyə doğru yolu Aİ-yə üzvlük məsələsində irəliləyişi qeyri-mümkün edir. Bu, Avropa Parlamentinin noyabrın 24-də səsvermədə təklif etdiyi kimi, üzvlük danışıqlarının rəsmi dondurulmasına çevrilməməlidir, lakin əlbəttə ki, daha yaxşı vaxtlara qədər yavaşlamağa səbəb olmalıdır.

Ümumilikdə, Türkiyədə hökumət razılaşmanın əsas elementlərinin yerinə yetirilmədiyini iddia edir. Avropa İttifaqı 2016-2019-cu illər arasında Türkiyədəki suriyalı qaçqınlara humanitar yardım, təhsil, səhiyyə, bələdiyyə infrastrukturu və sosial-iqtisadi dəstək üçün 6 milyard avro ayırmağa razılaşıb. Aİ, 6 milyard avroluq maddi yardımı iki mərhələdə verməyi qərara alaraq vəsaitlərin birinci hissəsi olan 3 milyard avronu Türkiyəyə köçürmüş, ikinci hissəni isə 2018 -ci ilin sonuna

kimi köçürəcəyini vəd etmişdir. Lakin Türkiyə prezidenti Rəcəp Tayyip Ərdoğan razılaşmanın imzalanmasından 6 ay sonra çıxışında məyusluğunu belə dilə gətirmişdi: “bizə ödənilən 179 milyon avro, bizə vəd edilən isə 3 milyard avro” (2, Euronews). Türkiyə hökuməti həmçinin ödənişlərin dövlət hesablarına deyil, qaçqınlara xidmət göstərən təşkilatlara getməsi ilə bağlı məsələ qaldırmışdır. Aİ-Türkiyə arasındakı münasibətlərdə, vəsaitlərin birinci yarısının kifayyət qədər tez köçürülməməsi və Aİ-nın verdiyi vədləri tutmaması səbəbiylə gərgin vəziyyət yaranmışdı. Baxmayaraq ki, Avropa Birliyi tam məbləğin ayrıldığını iddia edir. Aİ-yə görə tam əməliyyat büdcəsi 2019-cu ilin noyabr ayında təhvil verilib və bundan əlavə 2020-ci ildə 535 milyon avro məbləğində əlavə humanitar maliyyə vəsaiti hesabına dəstəyin davamlılığı təmin edilib (16, European Commission).

Razılaşmanın konkret olaraq miqrasiya axınına təsiri məsələsinə gəldikdə isə müqavilə imzalandıqdan sonrakı illərdə quru və dəniz yolu ilə gələn miqrantların sayında müəyyən istisnalarla ümumi azalma müşahidə olunmuşdur. Lakin Yunan adalarından Türkiyəyə qaytarılan hər bir Suriyalı əvəzinə, başqa bir Suriyalının Türkiyədən Aİ-na yerləşdirilməsi vədi isə gözləniləndən daha az nəticə verdi. Beləki, 2016-cı ilin martından 2021-ci ilin martına qədər Türkiyədən 28.000-dən bir qədər çox suriyalı qaçqın Avropa Birliyinə yerləşdirildi ki, bu da razılaşmada göstərilən maksimum 72.000-dən çox azdır (11, K.Terry, Migartion Policy İnstitute). Böhranın zirvəsində İtaliya və Yunanıstan sığınacaq axtaranların Avropaya əsas gəliş nöqtələri idi. İnfoqrafikdən də aydın olur ki, 2015-ci ildə Yunanıstana 861.000-dən çox gəliş var idi. Sazişin imzalanmasından bir il sonra bu rəqəm 36 000-ə düşdü, sonra yenidən təxminən 75 000-ə qalxdı. 2019-cu ildə gələnlərin sayındakı artım, Aİ-Türkiyə arasında yaşanan siyasi gərginlik səbəbindən, Türkiyənin sərhədləri açması nəticəsində olmuşdur. Covid-19 pandemiyası nəticəsində sərhədlərin qapanması və insanların hərəkətliliyinə qoyulan məhdudiyyətlər 2020-2021-ci illərdə gəlişlərin sayında yenidən azalma ilə müşahidə olunmuşdur.

| *Previous years* | *Sea arrivals* | *Land arrivals* | *Dead and missing* |
|---|---|---|---|
| 2021 | 4,331 | 4,826 | 115 |
| 2020 | 9,714 | 5,982 | 102 |
| 2019 | 59,726 | 14,887 | 71 |
| 2018 | 32,494 | 18,014 | 174 |
| 2017 | 29,718 | 6,592 | 59 |
| 2016 | 173,450 | 3,784 | 441 |
| 2015 | 856,723 | 4,907 | 799 |
| 2014 | 41,038 | 2,280 | 405 |

*Mənbə: Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının “Əməliyyat Portalı: Qaçqınların Vəziyyətləri, Aralıq dənizi Vəziyyəti, Yunanıstan” Situation Mediterranean Situation (unhcr.org)*

Lakin ümumi gələnlərin sayının dramatik azalmasına görə təkcə Aİ-Türkiyə razılaşması məsuliyyət daşımır. Belə ki, Qərbi Balkanlardakı ölkələr də Avropaya gedən yaxşı tanınan quru yolunu bağlayaraq miqrantların keçidinə mane oldu (11, Kyilah Terry, Migartion Policy İnstitute). Türkiyə ilə razılaşma ərəfəsində Avropa qitənin mərkəzinə gedən ən məşhur quru yolunu effektiv şəkildə bağlayaraq, Yaxın Şərqdən və onun hüdudlarından kənardan gələn çarəsiz miqrant legionlarının yolunu kəsdi. Miqrantlar qapıları bağlayan ölkələrdən yan keçərək Avropaya başqa hansı yollarla gedə bilərdi (1, A.Faiola, The Washington Post). Cənub-qərbi Avropada bu, həqiqətən çətindir. Macarıstan artıq yolu bağlayıb və keçməyə çalışan sığınacaq axtaranları həbs edir. Yunanıstan-Makedoniya sərhədində qalan 13 min miqrant üçün Albaniya və Bolqarıstan mümkün variantlardır. Ancaq Albaniyadakı dağlıq ərazi keçilməsi çətindir və yolçuları zəbt edən və döyən yerli mafyalarla doludur. Bolqarıstanda sərhəd nisbətən yaxşı qorunur və hakimiyyət orqanlarnının bu yolu sınayan miqrantları döydüyü və həbs etdiyi iddia edilir. Bununla belə, Balkan marşrutunu bağlamaqla daha

çox miqrantı Avropaya daha riskli yolu - "Mərkəzi Aralıq dənizi marşrutu" kimi tanınan qanunsuz Liviyadan və dənizin daha geniş hissəsindən İtaliyaya qədər uzanan marşrutu - sınamağa vadar edə biləcəyi güman edilir (1, A.Faiola, The Washington Post). Bu marşrut 2014-cü ildə mövcud böhranın əvvəlində məşhur idi. Lakin Liviyada minlərlə ölüm və pisləşən şərait daha çox miqrantın Türkiyə, Yunanıstan və Balkanlar vasitəsilə nisbətən daha asan marşrut seçməsinə səbəb olmuşdur. İndi isə bu vəziyyət yenidən dəyişə bilər. Bununla belə, Aİ-Türkiyə razılaşması miqrasiyanı məhdudlaşdırmaq üçün birgə fəaliyyətin ən bariz simvolu hesab olunur.

Beləliklə, Avropa İttifaqı Aİ-Türkiyə miqrasiya razılaşmasında öz maraqlarına uyğun olan vədlərinə sadiq olsa da, Türkiyənin İttifaqa qoşulması ilə bağlı müdəanın əksinə mövqe nümayiş etdirmişdir. Demokratik dəyərlərin, qanunun aliliyinin, insan haqlarının pozulmasını əsas gətirərək üzvlük danışıqlarını dondurmağa çağırış edən Avropa Parlamentinin üzvləri, nədənsə miqrasiya razılaşmasının reallaşdırılması zamanı qeyd olunan hüquq pozuntularını görməzdən gəlir.

***Razılaşma ilə bağlı dəyərləndirmələr***. Aİ-Türkiyə arasında, Avropa ərazisinə nizamsız gələnlərin sayını azaltmaq və miqrasiyanın qarşısını almaq üçün əməkdaşlıq olduqca mübahisəli oldu. Xüsusilə, qeyri-hökümət təşkilatları tərəfindən Türkiyədə insan hüquqları və demokratiyanın vəziyyətinə görə tənqid olundu (3, s.467). Müqavilə beynəlxalq hüququ bir neçə cəhətdən pozur (10, s.1195): birincisi, Aİ Türkiyəni "təhlükəsiz üçüncü ölkə" hesab edir, burada sığınacaq üçün müraciət edənlərin və qaçqınların beynəlxalq müdafiə üçün müraciət edə biləcəyi güman edilir; ikincisi, Türkiyə Aİ-nın bir hissəsi deyil və buna görə Aİ qanunları və Aİ-da tətbiq olunan prosessual təminatlar Türkiyəyə şamil edilmir, beləliklə bu yaşamaq hüququnun və işgəncənin qadağan edilməsinin inkar edildiyi hallarda və insan hüquqları kontekstində geriyə göndərməmə prinsipinin birbaşa pozulması olacaq; üçüncüsü, Türkiyənin sığınacaq üçün müraciət edənlərin və qaçqınların sığınacaq prosedurları ilə bağlı yaxşı təcrübəsi yoxdur və onlara maddi və prosessual müdafiəni təmin etmək üçün lazımi daxili mexanizmlərə malik deyil . Türkiyənin daxili sığınacaq proseduru ilə bağlı digər problem isə ondan ibarətdir ki, o, sığınacaq axtaran və qaçqın qruplarına müraciətlərinin mahiyyətinə görə deyil, statuslarına və mənşə ölkələrinə görə müdafiə təmin edir.

Hüquqi baxımdan, BMT Qaçqınlar Agentliyi artıq bildirib ki, saziş 1951-ci il Qaçqın Konvensiyasının əsas aspektləri ilə ziddiyyət daşıdığı üçün demək olar ki, işlək deyil (7, P.Kingsley & J.Rankin, The Guardian). Konvensiyanın şərtlərinə görə, qaçqınlıq vəziyyəti ilə bağlı məsələlər ümumi siyasətlə deyil, fərdi əsasda qiymətləndirilməlidir. Türkiyə Qaçqınlar üzrə Konvensiyanı imzalamışdır, lakin Türkiyə Konvensiyanı qeyd-şərtlə qəbul etmişdir, belə ki, konvensiya "coğrafi məhdudiyyətlərlə" Türkiyəyə şamil olunur (10, s.1195). Bu coğrafi məhdudiyyət, Türkiyənin Aİ-dan gəlməyən sığınacaq axtaran və qaçqınlara yalnız məhdud (tam əvəzinə) müdafiə təmin edə biləcəyini ifadə edir, həmçinin onların türk cəmiyyətinə inteqrasiyasını əngəlləyir. Qaçqınlar həmçinin hüquqlarına təminat verilməyən ölkələrə - nəzarətçilərə görə Türkiyə də bura daxildir -geri qaytarılmamalıdır. Lakin müqavilə yalnız Suriyalılara şamil edilirdi və Əfqanlar, Pakistanlılar və Avropa müdafiəsi hüququna malik olmayan digər millətlər razılaşmanın başqa bir aspektinə əsasən Türkiyəyə geri göndərilə bilərdi. Beynəlxalq hüquqda məcburi qaytarılma ilə bağlı prinsip, geriyə göndərməmə prinsipidir. Geriyə göndərməmə prinsipi qaçqın və ya sığınacaq axtaranın təqiblə üzləşəcəyi mənşə ölkəsinə geri qaytarılmaması hüququdur. Prinsipin pozulması birbaşa və ya dolayı yolla baş verə bilər. Praktik baxımdan, bu siyasət qaçqınları keçid etməyə həvəsləndirə və Türkiyəni onların qarşısını almaqdan çəkindirə bilər (7, P.Kingsley & J.Rankin, The Guardian). Əgər Aİ yalnız Avropaya çatan miqrantları qəbul edirsə və sonra yenidən Türkiyəyə qaytarırsa, o zaman həm qaçqınlar, həm də türklər, ilk növbədə Yunanıstana çoxlu miqrantın çatmasını təmin etməkdə daha maraqlı olacaq. Üstəlik, çəkindirmə tamamilə səmərəli şəkildə işləsə belə, bu sadəcə olaraq qaçqınları Bolqarıstan, Qara dəniz, və ya Aralıq dənizi vasitəsiylə İtaliyaya uzanan müxtəlif marşrutları yoxlamağa təşviq edə bilər.

***Nəticə***. Aİ-Türkiyə miqrasiya razılaşması, Aİ ölkələrinə qaçaq yollarla gələn miqrantların Türkiyəyə geri gödərilməsini və bunun əvəzində Türkiyədə qanuni olaraq yerləşən Suriyalıların Avropada qaçqın olaraq qəbul edilməsini nəzərdə tuturdu. Bu anlaşmanın qarşılığında isə Türkiyəyə 6 milyard avro maliyyə yardımı, Türkiyə vətəndaşlarına Aİ ölkələrinə viza prosesinin asanlaşdırılması və Türkiyənin Aİ-na qəbul müddətinin sürətləndirilməsi nəzərdə tutulurdu.

Ümumilikdə razılaşma Türkiyədən Avropaya miqrant axınının azalmasına müsbət təsir etsə də, Yunan adalarından Türkiyəyə qaytarılan hər bir Suriyalı əvəzinə, başqa bir Suriyalının Türkiyədən Aİ-na yerləşdirilməsi vədi gözləniləndən daha az nəticə verdi. Türkiyəyə 6 milyard avro maliyyə yardımının ödənilməsi məsələsində müəyyən gecikmələr olsa da, Aİ 2019-cu ildə məbləğin tam olaraq ödənildiyini bildirmişdir. Lakin Türkiyə vətəndaşları üçün viza məhdudiyyətlərinin aradan qaldırılması və Aİ-Türkiyə üzvlük danışıqlarının sürətləndirilməsi vədi yerinə yetirilməmiş, əksinə Avropa Parlamentinin tövsiyəsi ilə Türkiyə ilə danışıqların dondurulması məsələsi aktuallaşmışdır. Lakin Aİ Türkiyəni strateji tərəfdaş hesab edir və miqrasiya, terrorizm və s. kimi məsələlərin həllində tərəflər arasında əməkdaşlığın zəruriliyi vurğulanır.

ƏDƏBİYYAT

1. 7 things to know about the incredibly complicated migrant crisis, Anthony Faiola, March 11, 2016, 7 things to know about the incredibly complicated migrant crisis - The Washington Post.
2. AB-Türkiye Mülteci Anlaşması: AB fonları nereye ve nasıl harcanıyor? AB-Türkiye Mülteci Anlaşması: AB fonları nereye ve nasıl harcanıyor? | Euronews
3. Elodie Thevenin (2021) Between human rights and security concerns: politicisation of EU-Turkey and EU-Libya agreements on migration in national parliaments, European Security, 30:3, 464-484, DOI: 10.1080/09662839.2021.1947804
4. EU says won't expand Turkey membership talks, Danny KEMP, December 13, 2016, EU says won't expand Turkey membership talks (yahoo.com) [20.11.2022].
5. European Neighbourhood Policy And Enlargement Negotiations, European Commission, 06/12/2016. - https://ec.europa.eu/neighbourhood-enlargement/countries/detailed-country-information/turkey_en [20.11.2022].
6. EU-Turkey joint action plan. Brussels, 15 October 2015, European Commission. - https://ec.europa.eu/commission/presscorner/detail/en/MEMO_15_5860 [20.11.2022].
7. EU-Turkey refugee deal – Q&A, Patrick Kingsley and Jennifer Rankin, Tue 8 Mar 2016, EU-Turkey refugee deal – Q&A | Refugees | The Guardian
8. EU-Turkey statement, 18 March 2016, Council of the EU. - https://www.consilium.europa.eu/en/press/press-releases/2016/03/18/eu-turkey-statement/ [20.11.2022].
9. Parliament wants to suspend EU accession negotiations with Turkey, 13-03-2019, Parliament wants to suspend EU accession negotiations with Turkey | News | European Parliament (europa.eu)
10. Poon, J. (2016). EU-Turkey Deal: Violation of, or consistency with, international law? // European Papers-A Journal on Law and Integration, 2016 (3), 1195-1203.
11. The EU-Turkey Deal, Five Years On: A Frayed and Controversial but Enduring Blueprint, APRIL 8, 2021 By Kyilah Terry, Article: The EU-Turkey Deal, Five Years On: A Fray.. | - migrationpolicy.org [20.11.2022].
12. The Facility for Refugees in Turkey, European Neighbourhood Policy And Enlargement Negotiations, European Commission, 06/12/2016, The Facility for Refugees in Turkey - European Commission (archive.org) [20.11.2022].
13. Turkey is no longer an EU candidate, MEP says, Euronews, 10/04/2017. - https://www.euronews.com/my-europe/2017/04/10/turkey-is-no-longer-an-eu-candidate-mep-says [20.11.2022].
14. Turkey's Impending Estrangement From the West, Marc Pierini, December 12, 2016, Turkey's Impending Estrangement From the West - Carnegie Europe - Carnegie Endowment for International Peace.
15. What is the EU-Turkey deal? 18 March 2022, What is the EU-Turkey deal? | The IRC in the EU (rescue.org) [20.11.2022].
16. Türkiye (europa.eu) https://neighbourhood-enlargement.ec.europa.eu/enlargement-policy/turkiye_en [20.11.2022].

**КЕНЮЛ ГУСЕЙНОВА**
*Докторант, Бакинский Государственный Университет*

## СОГЛАШЕНИЕ ЕВРОПЕЙСКОГО СОЮЗА И ТУРЦИИ О МИГРАЦИИ

В этой статье исследуется, совместные действия ЕС и Турции в сфере миграции. Анализируются основные аспекты миграционного соглашения между ЕС и Турцией и влияние соглашения на миграционный поток. В нем также рассматриваются текущие вопросы, связанные с соглашением.

*Ключевые слова:* миграция, миграционный кризис, сирийские мигранты, совместный план действий ЕС-Турция, Турецкий фонд помощи беженцам, миграционное соглашение ЕС-Турция.

**KONUL HUSEYNOVA**
*PhD candidate, Baku State University*

## EUROPEAN UNİON-TURKEY AGREEMENT ON MİGRATİON

This article examines EU-Turkey cooperation in the field of migration. The main aspects of the EU-Turkey migration agreement and the impact of the agreement on the migration flow are analyzed. It also focuses on current issues related to the agreement.

*Keywords:* migration, migration crisis, Syrian migrants, EU-Turkey joint action plan, Turkey Refugee Facility, EU-Turkey agreement on migration.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.e.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Adil Mirabdullayev.*

**UOT 327**

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
**babashlisanubar@yahoo.com**

# MÜASİR DÖVRDƏ ÇİNİN YUMŞAQ GÜC SİYASƏTİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

*Müasir beynəlxalq münasibətlərdə əsas aktorlardan biri də Çindir. Çin beynəlxalq aləmdə mövqeyini gücləndirmək məqsədilə yumşaq gücünə xüsusi diqqət ayırmaqdadır. Çinin yumşaq gücünün mənbələrinə çin dili, mədəniyyəti, təhsili, kütləvi informasiya vasitələri, o cümlədən, qəzetlər, jurnallar, televizya, humanitar yardımlar, sülhü dəstəkləmə əməliyyatları və s. aiddir. Çin beynəlxalq aləmdə yumşaq gücünü uğurla reallaşdırır. Lakin hazırda, onun qarşısında bir sıra problemlər də mövcuddur.*

*Açar sözlər*: yumşaq güc, sərt güc, təbliğat, Konfutsi, informasiya.

***Giriş***. Çin dünyada iqtisadi inkişaf tempinə, qlobal aləmdə qazandığı beynəlxalq nüfuzuna görə güclü beynəlxalq aktordur. 1978-ci ildən etibarən başlayan islahat prosesindən sonra Çin sovet tipli mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan daha çox bazar iqtisadiyyatına keçid etdi. Məhz bu islahatlar nəticəsində Çin dünyanın dinamik inkişaf edən iqtisadi mərkəzinə çevrilmişdir. Çin tədqiqatçıları Sovet İttifaqının ABŞ ilə soyuq müharibədə yumşaq gücün olmaması səbəbindən tab gətirə bilmədiyini hesab edirlər. Pekin rəhbərliyi hesab edir ki, Çin özünün böyük güc statusuna nail olmaq və saxlamaq üçün həm sərt, həm də yumşaq gücünü formalaşdırmalıdır.

Çin xarici dünyadan getdikcə daha çox asılı vəziyyətə düşdükcə, hökumət müsbət beynəlxalq ictimai rəyin əhəmiyyətini dərk edib ölkənin inkişafı naminə Çin xalq diplomatiyasından üç bir-biri ilə əlaqəli məqsəd naminə - özünü dünyaya tanıtmaq, müsbət imic formalaşdırmaq və milli maraqlarına nail olmaq üçün istifadə edir [3, s.10]. Çinin 6-cı prezident Hu Cintao, Çinin yumşaq güc siyasətinin fəallaşmasını müdafiə edirdi. Məhz bu dövrdən etibarən Çin Asiya-Sakit okean diplomatiyasından kənara çıxdı və beynəlxalq əlaqələrini genişləndirdi. 11 sentyabr 2001-ci il terror aktlarından sonra ABŞ-ın xarici siyasət addımları yumşaq gücün Asiyada təsirini itirməsinə səbəb oldu [4, s.225]. 2003-cü ildə İraqın işğalından sonra beynəlxalq aləmdə ABŞ-ın əleyhinə fikirlərin yaranması Çinin beynəlxalq əlaqələrini və mövqeyini gücləndirmək imkanı əldə etdi.

Çində mədəni diplomatiya Konfutsi irsini paylaşdığı Şərqi Asiya qonşularını deyil, həm də beynəlxalq ictimaiyyəti cəlb etmək məqsədi daşıyır. Ölkələr öz mədəni sərvətlərini media vasitəsilə ictimaiyyətə tanıtmaq və beynəlxalq təsir imkanlarını genişləndirmək məqsədilə çıxış edirlər. Hər bir ölkənin mədəni yumşaq gücü təkcə onun cəlbediciliyinə deyil, həm də güclü təbliğat metodlarına və bacarıqlarına əsaslanır. Çində təbliğat xəbərlərin yayımlanması, ideologiya formalaşdırmaq və tanıtmaq məqsədi daşıyır. Kommunist sistemlə idarə olunan Çin hesab edir ki, informasiya hər zaman idarə edilməlidir. Çin beynəlxalq aləmlə əlaqələrini genişləndirdikcə, Çin rəsmiləri məlumatlara nəzarət etmək üçün daha çox səy göstərirlər. Üstəlik, bu nəzarət təkcə ölkə daxilini deyil, xarici də əhatə etməkdədir.

Çində təbliğat fəaliyyəti Dövlət Şurasının İnformasiya İdarəsinin nəzarəti altında həyata keçirilir. Dövlət Şurasının İnformasiya İdarəsi ölkənin xaricdəki bütün kommunikasiyalarına nəzarət edir, eyni zamanda Çində mediaya nəzarət edib senzura tətbiq edə bilir. Sözügedən mərkəz jurnallar, kitablar nəşr edir, filmlər istehsal edir. Eyni zamanda, Qərb həyat tərzini təbliğ edən Çin televiziya proqramları bu qurum tərəfindən məhdudlaşdırılır. Dövlət Şurasının İnformasiya Ofisinin internet məzmununu yoxlamaq və mobil tətbiqləri qəbul etmək kimi bir sıra digər səlahiyyətləri də mövcuddur. “China Daily” və “Global Times” kimi xarici dilli qəzetlər də Dövlət Şurasının İnformasiya İdarəsinin nəzarətindədir.

Çinin yumşaq güc mənbələrindən biri olan rəsmi xəbər agentliyi “Sinxua” dünya üzrə təxminən 170 ofisi mövcuddur və 8 dildə yayımlanır. Çinin altı dildə yayımlanan Mərkəzi Televiziyanı (CCTV) CNN və BBC kimi beynəlxalq xəbər kanalına çevirmək niyyətindədir. Çin Beynəlxalq Ra-

diosu da 38 dildə yayımlanır və ölkənin xaricdəki əlaqələrinə töhfə verməkdədir. Çin informasiya sahəsində ABŞ-dan daha aqressiv siyasət yeridir. Çin Beynəlxalq Radiosu isə ingilis dilində yayımlarını gündə 24 saata çatdırdığı halda, 1942-ci ildən bəri ABŞ dövlət tərəfindən maliyyələşdirilən Amerikanın Səsi media təşkilatı Çində yayımlarını dayandımışdır [6, s.102].

Çin qonşularına münasibətdə tərəfdaş kimi yanaşır, onlarla dostluq münasibətləri saxlayır və onların iqtisadi inkişafına dəstək verir. Çin zəif qonşuların özü üçün təhdid doğurduğunu hesab edir. Qonşuları ilə sülh şəraitində yaşayan Çin Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistanla mövcud olan 23 regional problemdən 17-ni həll etməyə müvəffəq olmuşdur [2, s.21-22].

Corc Buş və Donald Tramp administrasiyalarının birtərəfli xarici siyasət yeritməsi və onların bir sıra qlobal əhəmiyyətli layihə və tədbirlərdən geri çəkilməsi ABŞ-ın yumşaq güc siyasətini bir qədər zəifl ətmişdir. Belə vəziyyətdə Çin beynəlxalq nüfuzunu gücləndirmək imkanı əldə etmişdir. Çinin Paris İqlim Sazişi kimi ətraf mühit və iqlimlə bağlı beynəlxalq konfranslarda və sazişlərdə iştirakı ölkənin yumşaq güc siyasətini gücləndirmək məqsədi daşıyır. Çin qlobal reputasiyası üçün beynəlxalq ekoloji tədbirlərdə fəal iştirak edir. Bu yolla Çin qlobal imicini gücləndirir və beynəlxalq nüfuzunu artırır [5, s.2].

ABŞ prezidenti Donald Tramp tərəfindən Paris İqlim Sazişindən çıxmaq qərarı və keçmiş prezident Barak Obama dövründə istixana qazlarının tullantılarının azaldılması üzrə tədbirlərdə iştirakdan imtina onun iqlim dəyişikliyi ilə mübarizədə əməkdaşlıqdan geri çəkilməsi kimi şərh olunur. Çinin iqlim dəyişikliyi ilə bağlı səyləri, xüsusən də bərpa olunan enerji texnologiyaları ölkəni bu sahədə irəli aparıb. ABŞ-ın geri çəkildiyi və əməkdaşlıq etmək istəmədiyi bu platformada Çinin fəallığı müşahidə edilir. Çünki Çin iqlimi qlobal təsir dairəsini genişləndirəcək və qlobal liderliyinə töhfə verəcək bir sahə hesab edir. Qlobal istiləşməyə qarşı iqlim siyasətlərində oxşar yanaşmaya sahib olan Avropa İttifaqı və Çinin mövqeyi uyğundur. Aİ-nin inteqrasiyası və genişlənməsi Çin üçün dinc yüksəliş nümunəsi hesab oluna bilər. Aİ iqlim vəziyyətində olduğu kimi yumşaq gücün səmərəli tətbiqi baxımından uğurlu nümunədir.

31 dekabr 2019-cu ildə Çin Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) Vuhan şəhərində aşkar edilmiş və sonradan COVID-19 kimi təsnif edilən yeni tip koronavirusun səbəb olduğu naməlum pnevmoniyanın yoluxma halları barədə məlumat verdi. Virusun yoluxma şiddəti Ümumdünya Səhiyyə Təşkilatını Çində yayılmağa başlayan yeni koronavirusun digər ölkələrə keçməsi ilə əlaqədar 30 yanvar 2020-ci ildə səhiyyədə qlobal fövqəladə hal elan etdi. Qlobal fövqəladə hal elan edilməsi Çində çağırışlarına davamlı dəstək və bütün ölkələrdə mövcud vəziyyətlə bağlı hazırlığı təmin etməyə yönəlmişdi. Ümumdünya Səhiyyə Təşkilatı 11 mart 2020-ci ildə koronavirusun 114 ölkədə 118.000 yoluxma və 4291 ölüm halının qeydə alınması ilə bağlı qlobal pandemiya elan edildi [8].

Çin xəstəlik mübarizə üçün sərt tədbirlər, o cümlədən sərt karantin qaydaları, karantin mərkəzləri, müvəqqəti xəstəxanaların tikintisi və digər təcili tədbirlər gördü. 2020-ci ilin əvvəlində Çini ilk dəfə vurduqda, ölkə virusla mübarizə üçün sərt tədbirlər, o cümlədən sərt kilidləmə, müvəqqəti xəstəxanaların tikintisi və digər təcili tədbirlər görüldü. Virusun Avropaya və dünyanın digər bölgələrinə bu qədər sürətlə təsir edəcəyi və əlbəttə COVID-19-un mənfi təsirlərinə məruz qalan Çinin iqtisadiyyatının qısa zaman ərzində bərpa edilməsi proqnozlaşdırılmırdı. Çinin digər ölkələrə COVID-19 ilə bağlı dəstəyi onun geosiyasi nüfuzunun və nəticədə yumşaq gücünün yayılmasına və güclənməsinə xidmət etmişdir.

Çin bir tərəfdən koronavirus pandemiyasına ilkin reaksiyasına görə bir sıra dövlətlər tərəfindən tənqid olunur, digər tərəfdən isə tibbi məhsul, avadanlıq və heyətin yardım məqsədilə mübadiləsinə görə rəğbət qazanmışdır. Avropa Covid-19 yeni tip koronovirusun yayılmasından bəri Çin şirkətləri xaricə 4 milyarda yaxın tibbi maska satmışdır. Virusun eskalasiyasının ən yüksək olduğu şəraitdə tibbi maskalar ən çox tələb görən və rəqabətə səbəb olan məhsullardır və virusun yayılmasına qarşı reaksiyanı gecikdirən Çin belə şəraitdə "maska diplomatiyası" vasitəsilə mövqeyini gücləndirməkdədir. Çin Serbiya, Macarstan, Çexiyaya yardım xarakterli maska və digər tibbi məhsul və avadanlıqlar göndərmiş və Şərqi Avropa dövlətləri ilə mövcud münasibətləri və əməkdaşlığını daha da inkişaf etdirmişdir. Virusun ilk yayıldığı dönəmdə Çini dövlət rəsmiləri tərəfindən tənqid edən ABŞ Milli Rezervin tibbi material bazası bitdiyi üçün Çindən maska və xalat, əlcək və bir çox başqa tibbi məhsul-

lar və avadanlıqlar idxal etmişdir [7]. Çin həmçinin virusun ən yüksək həddə çatdığı İrana 250.000 maska [1], Afrika ölkələrinə maska və milyonlarla digər tibbi avadanlıq göndərmişdir.

***Nəticə***. Çin Qərbin birtərəfli yanaşmasına qarşı dünyada mədəni, sosial, siyasi və ideoloji müxtəlifliyə hörmətin vacibliyini müdafiə edir. Lakin, Çinin siyasi sistemi demokratiya, liberalizm və plüralizmin təşviq edildiyi və ideallaşdırıldığı hazırkı qlobal siyasi atmosferə uyğun gəlmir. Çinin beynəlxalq münaqişələrə qarışmamaq kimi ənənəvi xarici siyasəti ölkənin beynəlxalq məsələlərdən, xüsusilə insan huquqlarının pozulması kimi vacib problemlərdən uzaq durmasına səbəb olur. Çinin çoxtərəfli diplomatiyası, xaricdə yardım proqramları və sülhməramlı əməliyyatlarda iştirakı mədəniyyətlə yanaşı inkişaf etdirilməli olan digər yumşaq güc elementləridir.

## ƏDƏBİYYAT

1. China's envoy contributes 250,000 masks to Iran over COVID-19 outbreak, Xinhua|2020-02-25, http://www.xinhuanet.com/english/2020-02/25/c_138818028.htm [04.10.2022].
2. Gill, B., Huang Y. Sources and limits of Chinese “soft power”, Survival, 4(2), 2006,17-36, pp.19
3. Hartig F., How China Understands Public Diplomacy: The Importance of National Image for National Interests, International Studies Review (2016) 0, 1–2, P.10
4. Holyk, G. G. (2011). Paper tiger? Chinese soft power in east Asia. Political Science Quarterly, 126(2), 223-254, p.225.
5. Mcbeath, J. ve Wang, B. China's environmental diplomacy. American Journal of Chinese Studies, 15 (1), 2008, 1-16, p.2.
6. Shambaugh, D. (2015). China's soft-power push: The search for respect. Foreign Affairs, 94(4), pp. 99-107, p 102.
7. U.S. Buys Masks From China While Criticizing It For COVID-19, April 1. - https://www.npr.org/2020/04/01/825056981/u-s-buys-masks-from-china-while-criticizing-it-for-covid-19 [04.10.2022].
8. WHO Director-General's opening remarks at the media briefing on COVID-19 - 11 March 2020, 11 March 2020. - https://www.who.int/director-general/speeches/detail/who-director-general-s-opening-remarks-at-the-media-briefing-on-covid-19---11-march-2020 [04.10.2022].

**САНУБАР БАБАШОВА**
*Докторант Бакинского государственного университета,*
*факультет международных отношений*

# ПОЛИТИКА МЯГКОЙ СИЛЫ КИТАЯ В СОВРЕМЕННЫЙ ПЕРИОД: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

Китай является одним из главных акторов современных международных отношений. Китай уделяет особое внимание своей мягкой силе, чтобы укрепить свои позиции в международном мире. К источникам мягкой силы Китая относятся китайский язык, культура, образование, средства массовой информации, в том числе газеты, журналы, телевидение, гуманитарная помощь, операции по поддержанию мира и т.д. Китай успешно реализует свою мягкую силу в международном мире. Но в настоящее время перед ним стоит ряд проблем.

*Ключевые слова*: мягкая сила, жесткая сила, пропаганда, Конфуций, информация.

**SANUBAR BABASHOVA**
*Phd student of the Department of International Relations of Baku State University*

## CHINA'S SOFT POWER POLITICS IN THE MODERN PERIOD: PROBLEMS AND PROSPECTS

China is one of the main actors in modern international relations. China pays special attention to its soft power in order to strengthen its position in the international world. The sources of China's soft power include the Chinese language, culture, education, mass media, including newspapers, magazines, television, humanitarian aid, peace support operations, etc. belongs to. China is successfully realizing its soft power in the international world. But at present, there are a number of problems in front of it.

*Keywords*: soft power, hard power, propaganda, Confucius, information.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.ü.e.d. Ağalar Abbasbəyli, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**KHOLİDAH TAMAMİ**
*Bakı Dövlət Universitetinin doktorantı*
**kholidahtamami@gmail.com**

# AZƏRBAYCANIN QLOBAL İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ ÇƏRÇİVƏSİNDƏ ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏYƏ KEÇİDİ

*Tədqiqatın məqsədi Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə və enerji sektorunda dayanıqlı inkişafın təmini məqsədilə həyata keçirdiyi dövlət siyasətinin təsviri və təhlilidir. Ölkəmizdə energetika sahəsində elmi tədqiqatların təşviqi və əldə olunan nəticələrin istehsalata tətbiq imkanları nəzərdən keçirilmişdir. Azərbaycanın alternativ enerji sahəsində resurs potensialı və perspektiv inkişaf imkanları tədqiq edilmiş, pirioritet enerji istiqamətləri müəyyən edilmişdir. Ölkənin müxtəlif regionlarının relyef və iqlim xüsusiyyətləri nəzərə alınaraq, böyük həcmdə günəş, külək, geo termal və hidro enerji ehtiyatlarının mövcudluğu vürğulanmışdır. Eyni zamanda, Azərbaycanda enerji səmərəliliyinin hüquqi tənzimlənməsi, o cümlədən, alternativ enerji mənbələrindən istifadənin təşviqi və icra prosedurlarının müəyyən edilməsinə dair ötən il (2021-ci il) qəbul edilmiş qanunvericilik sənədinin əsas müddəaları təhlil edilmiş, müvafiq tövsiyələr göstərilmişdir. Azərbaycanda enerji sekotrunda görülən işlərlə yanaşı, Asiya İnkişaf Bankı və Dünya Bankı kimi mötəbər beynəlxalq təşkilatların hesabatlarına da uyğun olaraq, insan kapitalının inkişafı, enerji infrastrukturunun təkmilləşdirilməsi, habelə, yeni texnoparkların yaradılması, energetika sekotrunda fəaliyyət göstərən müəssisələrin fəaliyyətini stimullaşdırmaq məqsədilə dövlət tərəfindən müxtəlif güzəştlərin edilməsi mühüm istiqamətlər kimi təsbit edilmişdir.*

*Açar sözlər*: iqlim dəyişikliyi, dayanıqlı inkişaf, enerji siyasəti, bərpa olunan enerji.

***Giriş***. Azərbaycan Cənubi Qafqazda yerləşib, şimalda Rusiya, şimal-qərbdə Gürcüstan, qərbdə Ermənistan, cənubda İran və şərqdə Xəzər Dənizi ilə həmsərhəddir. Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra mühüm iqtisadi sarsıntılar yaşadı, böyük enerji ehtiyatları ölkəni 1990-cı və 2000-ci illərdə sürətli iqtisadi artıma apardı. Azərbaycan İqtisadiyyatı neft-qaz sənayeindən çox asılı olduğuna görə neft qiymətlərindəki şokların nəticələrinə qarşı həssasdır. 2008-2012-ci illər arasında Azərbaycanda Ümum Daxili Məhsulun (ÜDM) orta illik artımı 5.5%, 2013-2017-ci illərdə. 1,54 faiz təşkil edib. Bu daralma 2014-cü ildə qlobal neft qiymətlərinin düşməsi və bunun nəticəsində neft hasilatının azalması ilə daha da kəskinləşdi. Dünya Bankının statistik məlumatlarına əsasən, 2019-cu ildə Azərbaycan İqtisadiyyatı 2.5% böyümüşdür. COVİD-19 pandemiyası ilə əlaqədar olaraq, 2020-ci ildə ölkə iqtisadiyyatı 4.3% kiçilmişdir. 2021-ci ildə, iqtisadiyyatda kəskin artım müşahidə olunmuşdur. Belə ki, ötən il iqtisadi artım tempi 5.6% təşkil etmişdir (Dünya Bankı, 2021). Dünya Bankı Azərbaycan iqtisadiyyatında 2022-ci il üçün 2.7%, 2023-cü il üçün is 2.2% artım proqnozlaşdırır (Dünya Bankı, 2022).

Azərbaycanın ixracında neft və qaz üstünlük təşkil edir ki, bu da ölkənin ümumi ixracının 90%-dən çoxunu təşkil edir (Aras və başqaları, 2013). Azərbaycan iqtisadiyyatının neft-qaz sektorundan həmiyyətli dərəcədə asılı olması qeyri-neft sektorunun inkişafını zərurətə çevirir.

Ölkə rəhbərliyi iqtisadiyyatın şaxələndirilməsi və neft-qaz sektorundan asılılığın azaldılmasının əhəmiyyətini vurğulayır və bu məsələ Milli iqtisadi Perspektivlər üzrə Strateji yol xəritəsində öz əksini tapır. Ümumi enerji istehsalında bərpa olunan enerjinin payının artırılması ölkədə rifahın yüksəlməsi və məşğulluğun təmininə, eyni zamanda, enerji təhlükəsizliyinə və Ümum Daxili Məhsulun artmasına gətirib çıxaracaq. Strateji yol xəritəsinin mühüm məqsədlərindən biri 2025-ci ilədək birbaşa xarici investisiyada qeyri-neft sektorunun payının 1.5%-dən 4%-ə yüksəldilməsidir. Ölkənin ötən on illiklər ərzində neft-qaz sahəsində əldə etdiyi zəngin təcrübə alternativ enerji istehsalında yeni texnologiyaların tətbiqi imkanlarını genişlındirəcək və ümumilikdə texniki innovasiya prosesini sürətləndirəcək. Dünyanın bir sıra ölkələrində, məsələn, Kanadada neft-qaz sektorunda mövcud olan təcrübə geotermal enerji potenisalının reallaşdırılmasında geniş istifadə olunur. Bundan başqa, Norveçin də-

nizdə neft-qaz infrastrukturunu inkişaf etdirməsi nəticəsində qazandığı təcrübə dənizdə külək enerjisinin istehsalına vəümumilikdə bu sahənin inkişafında əhəmiyyətli rol oynayır (IRENA, 2019).

Eyni zamanda, alternativ enerji sektorunun inkişafı Azərbaycanın iqlim dəyişikliyi ilə bağlı müəyyən etdiyi məqsədlərə çatmaqda olduqca effektiv və səmərəli yoldur. Azərbaycan hökuməti Paris Razılaşması çərçivəsində 1990-cı il baza ili qəbul edilməklə 2030-cu ilə qədər ölkədə istixana qazlarının emissiyasını 35% azaltmaq öhdəliyi götürmüşdür (Mustafayev və başqaları, 2022). Ölkə müstəqillik əldə etdikdən sonra əhəmiyyətli iqtisadi özəlləşdirməyə baxmayaraq, Azərbaycanın enerji sənayesi hələ də əsasən hökumətin nəzarətindədir. Asiya İnkişaf Bankı Azərbaycanda dövlət sektorunda idarəetməni, o cümlədən, maliyyə idarəetməsini təkmilləşdirmək və özəl sekotrun inkişafını dəstəkləmək məqsədilə 250 milyon dollar əlavə maliyyə yardımı göstərmişdir (ADB, 2019). Enerji sektorunda fəaliyyət göstərən müəssisələrin mütləq əksəriyyətinin dövlət mülkiyyətində olması bu sahədə qeyri-səmərəli fəaliyyətin mühüm səbəblərindəndir. Belə ki, dövlətə məxsus enerji müəssisələri dövlət büdcəsindən külli miqdarda subsidiya alır. Energetika sektoru üçün ayrılan subsidiyanın həcmi 2016-cı ildə ÜDM-nin 3.4%-nə bərabər olmuşdur. 2014-2016-cı illərdə subsidiya miqdarı 2 dəfə artaraq 751 million dollardan 1 milyard 269 million dollara yüksəlmişdir. Ümumi subsidiya məbləğinin yarıdan çoxu elektrik enerjisinin istehsalına istiqamətləndirilmiş, lakin alternativ enerji istehsalı üçün ayırılan məbləğ cüzi miqdar təşkil etmişdir (IRENA, 2019).

***Enerji Tədqiqatlarının İnkişafı.*** Azərbaycanda enerji texnologiyasının təkmilləşdirilməsi və yeni texnoloji üsulların ixtirasını həyata keçirən bir neçə elmi-tədqiqat və ali təhsil müəssisələri var. Onlar milli və beynəlxalq proqram və layihələrdə iştirak edərək azərbaycanlı alim və tədqiqatçılara yeni bacarıq və biliklər əldə etməklə yanaşı, bu layihələrin inkişafına öz töhfələrini veriblər. Tədqiqat və təkmilləşdirmə fəaliyyətini həyata keçirmək üçün, məsələn, daha yaxşı məktəb təhsili və ali təhsil proqramlarında daha çox iştirak yolu ilə müvafiq təcrübənin əldə olunması və bacarıqların inkişaf etdirilməsi zəruridir. Bu sahədə bir sıra mühüm addımlar atılsa da, Asiya İnkişaf Bankı (AİB) ölkənin infrastrukturunu və insan kapitalını daha da inkişaf etdirmək üçün daha çox resurs və daha effektiv institusional quruluşa və vahid siyasətin formalaşdırılmasına ehtiyac olduğunu vurğulamışdır (ADİB, 2019). Ölkədə insan kapitalının inkişafı istiqamətində atılan mühüm addımlardan biri Ali Təhsil Sisteminin Beynəlxalq Rəqabət Qabiliyyətinin Artırılması üzrə “2019-2023-cü il Dövlət Proqramının icrasıdır. Proqram çərçivəsində yerli ali təhsil müəssisələri ilə digər ölkələrin yüksək reytinqli universitetləri ilə ikili diplom proqramlarının yaradılması təşviq olunur. Dünya Bankının məlumatına görə, Azərbaycanın ilk növbədə fundamental tədqiqatlara yönəlmiş dövlət sektoru elmi-tədqiqat və təkmilləşdirmə institutları özəl sektorla nisbətən zəif əlaqələrə malikdir və buna görə də ölkənin kommersiyalaşdırılması və ümumi innovasiya göstəricilərinin (patentlər və s.) yaxşılaşdırılması üçün imkanlar mövcuddur. İnnovasiyaların stimullaşdırılması səylərinə adətən vergi, torpaq alınması və gömrük güzəştləri təklif olunan texnoparkların yaradılması daxildir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdində Yüksək Texnologiyalar üzrə Araşdırmalar Mərkəzi 2008-ci ildə Azərbaycana qabaqcıl texnologiyaların idxalı və ölkədə elmə əsaslanan sənaye sahələrinin inkişafı məqsədilə yaradılıb.

AMEA-nın Yüksək Texnologiyalar Parkı (YTP) prezidentin 8 noyabr 2016-cı il tarixli sərəncamı ilə yaradılıb. Bakı Mühəndislik Universiteti tələbələrin innovasiyalarını dəstəkləmək üçün 2013-cü ildə texnopark yaradıb. RDI fəaliyyətləri Azərbaycana öz iqtisadiyyatının rəqabət qabiliyyətini saxlamağa və yaxşılaşdırmağa və onu neft və qazdan uzaqlaşdırmağa kömək etmək üçün lazımdır. Azərbaycanın bir sıra elmi-tədqiqat və təhsil müəssisələri ölkənin gələcək texnoloji tərəqqi yoluna çıxarılmasında mühüm rol oynamışdır (International Energy Agency, 2021). Ümumi xərcləri ÜDM-in 0,2%-i səviyyəsindədir bu da beynəlxalq standartlara görə aşağıdır, ona görə də elmi-tədqiqat fəaliyyətlərinə ayrılan vəsaitin artırılması və ölkənin yanaşmasının dəyişdirilməsi üçün güclü bir zərurət var. Bundan əlavə, Azərbaycanda tətbiqi tədqiqatlara ayrılan maliyyənin ümumi məbləğdə payı aşağıdır (ümumi məbləğin 20%-dən azdır). Hökumət neft və qaz texnologiyaları, xüsusilə karbonun tutulma, istifadə və saxlanması texnologiyası ilə yanaşı, enerji sektorunun rəqəmsallaşdırılmasına və smart texnologiyalara, o cümlədən smart şəbəkələrə, enerjinin saxlanmasına, enerji üçün rəqəmsal texnologiyalara, Rayon İstilik və Soyutma (RİS) və qaz şəbəkələrinəin qurulması və mütəmadi təkmilləşdirilməsinə diqqət yetirməlidir. RDI strategiyasına əsas maliyyələşdirmə və rəqabətli layihə

əsaslı qrantların qarışığı, startaplara dəstək, iqlim dəyişikliyi və enerji sektorunda uyğunlaşma ilə bağlı tədqiqatlara dəstək, universitet texnoparklarının daha da inkişaf etdirilməsi tədbirləri, texnologiyanın gücləndirilməsi tədbirləri daxildir (International Energy Agency, 2021).

***Azərbaycanda enerjinin tənzimlənməsi siyasəti.*** Azərbaycanda müstəqil enerji tənzimləyicisi yoxdur. Azərbaycanın qanunverici orqanı 2017-ci ildə Energetika Nazirliyinin nəzdində Enerji Tənzimləmə Agentliyinin yaradılması haqqında qərar qəbul edib. Yerin təki haqqında qanundan fərqli olaraq, Enerji Qanunu yalnız enerji müqaviləsi imzalandıqda konkret blok (bir qrup şirkət və ya təşkilatlar) üçün hasilat hüququ verir. Tarif (qiymət) Şurası tarif metodologiyasını müəyyən edir, tənzimlənən şirkətlər tərəfindən təqdim olunan tarifləri (o cümlədən enerji ilə məhdudlaşmayaraq) yoxlayır və qiymətlərin tənzimlənməsi bazasına dəyişikliklər edir (International Energy Agency, 2021).

Elektrik sektoru fərqli topdansatış, ötürmə və paylama qiymətləri əsasında faktiki olaraq tamamilə hökumət tərəfindən tənzimlənir. Bərpa olunan enerji mənbələri haqqında qanun layihəsinə əlavə tarif daxil edilsə də, xarici investorlar üçün əlavə tariflər və ya güzəştli tariflər yoxdur. Bu hüquq qanunla verildikdə, dövlət qurumları Tarif (qiymət) Şurasının qərarlarını dəyişdirə, tənzimləyici qərarlar da məhkəmənin hökmü ilə ləğv edilə bilər. Enerji müəssisələri Tarif (qiymət) Şurasının qərarlarına məhkəmə yolu ilə və ya birbaşa Tarif (qiymət) Şurasına etiraz edə bilərlər. Azərbaycan hökuməti hələ də özünün nəhəng alternativ enerji və enerji səmərəliliyi potensialını reallaşdıra bilməyib. Bununla belə, hökumət bu məqsədlə hazırda təsdiqini gözləyən müxtəlif qanunlar hazırlayıb. Azərbaycan hökuməti diqqətini bərpa olunan enerjinin inkişafı və onun iqlim dəyişikliyinin idarə edilməsinə təsirləri üzərində düşünməyə yönəltməlidir. 1995-ci ildə Azərbaycan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını Əlavə I üzvü olmayan ölkə oldu, 2016-cı ildə isə Paris Sazişini ratifikasiya etdi (International Energy Agency, 2021). Dövlət enerji də daxil olmaqla müxtəlif sektorlarda iqlim dəyişikliyinin doğurduğu mənfi təsirlərin minimuma endirilməsi ilə bağlı icra olunacaq fəaliyyətləri müəyyən edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi iqlim dəyişikliyi üzrə fəaliyyət strategiyasını, eləcə də ümummilli məhdud siyasət hazırlayır. Nisbətən günəşli və küləkli olduğundan, eləcə də böyük hidro, bioenerji və geotermal ehtiyatlara malik olduğundan, Azərbaycanda istifadə olunmamış bərpa olunan enerji mənbələri var. Hökumət bərpa olunan enerjidən istifadəni təşviq etmək üçün qanunvericilik üzərində işləyir.

Bərpa olunan enerji haqqında qanun layihəsində dəstək mexanizmləri kimi hərraclar və tenderlər təklif olunur. Bura həmçinin ilkin layihəsienerji satınalma razılığı və qoşulma müqaviləsi kimi əlavə hüquqi sənədlərin yaradılması daxildir. Bundan əlavə, hərracların keçirilməsi qaydaları və /net-billinq" sistemlərindən istifadə qaydaları hazırlanır. Azərbaycanın çoxlu günəş işığı və çoxlu günəş enerjisi potensialı var. Texniki potensial, Energetika Nazirliyinin məlumatına görə, 23 000 MVt-dan çoxdur (International Energy Agency, 2021). Müxtəlif bərpa oluna bilən enerji növlərinin potensialı və digər göstəriciləri aşağıda təsvir olunmuşdur;

Günəş enerjisi - Azərbaycan nisbətən günəşli ölkədir və böyük günəş enerjisi potensialına malikdir. Ölkədə günəş enerjisinin texniki potensialı təxminən 23 000 MVt-dır (International Energy Agency, 2021). Külək enerjisi - Azərbaycanda xüsusilə Xəzər dənizinin sahillərində çoxlu külək var. Ölkənin 3000 MVt-dan çox texniki külək enerjisi potensialı və 800 MVt-a yaxın iqtisadi külək enerjisi potensialı var. Azərbaycan Elmi-Tədqiqat və Layihə Energetika İnstitutu Yaponiyanın Tomen korporasiyası ilə birgə Abşeronda küləyin orta illik sürətinin saniyədə 7,9-8,1 metr (m/san) arasında olduğunu hesablayıb. Küləyin orta sürətinin 6 m/san olması külək enerjisinin iqtisadi və texniki potensialını daha da sübut edir (International Energy Agency, 2021).

***Kiçik miqyaslı hidroenergetika.*** Azərbaycanda il boyu ətraf mühit və havanın orta temperaturu unikaldır. Yayı isti, rütubətli, quraq və aydındır; qışıl uzun, şaxtalı, quru və əsasən kölgəlidir; il ərzində temperatur müntəzəm olaraq 2.2-dən 31.6 dərəcəyə qədər dəyişir və nadir hallarda - 1.6 dərəcədən aşağı və ya dən36 dərəcədən yuxarı olur. Hazırda Azərbaycanda hidroelektrik alternativ enerjinin ən geniş yayılmış növüdür, baxmayaraq ki, onun potensialından hələki tam istifadə olunmur. Kiçik su elektrik stansiyalarsının 520 MVt texniki gücü var ki, bu da ildə 3,2 TVt/saata qədər elektrik enerjisi istehsal edə bilər (Azərbaycan Respublikası Energetika Nazirliyi, 2022).

***Geotermal.*** Azərbaycanın 800 MVt-a qədər geotermal elektrik potensialı var. İlkin araşdırmalara görə, Azərbaycanın 11 geotermal zonasına termal suyun növündən asılı olaraq elektrik və ya isti-

lik enerjisi verə bilən temperaturu 30°C-dən 100°C-dək olan sular daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, Quba rayonunda suyun temperaturu 36°C-dən 85°C-dək, Kür-Aras ovalığında isə 95°C-yə qədərdir (International Energy Agency, 2021).

***Biokütlə***. Azərbaycanın sənaye, kənd təsərrüfatı və sosial xidmətlər sahəsində sürətli inkişafı yanan sənaye tullantılarından, meşə və qida emalı tullantılarından, kənd təsərrüfatı tullantılarından və digər bioloji maddələrdən biokütlə əsasında enerji istehsalı üçün yeni perspektivlər açır. Energetika Nazirliyinin məlumatına görə, texnoloji potensial 380 MVt. Azərbaycanda ildə təxminən 2 milyon ton bərk məişət və istehsalat tullantıları tullantıların emalı stansiyalarına atılır. Bərk məişət və sənaye tullantılarının emalı Bakıya və digər iri sənaye şəhərlərinə ictimai binaların istiliklə bağlı problemlərini aradan qaldırmağa kömək edə bilər (International Energy Agency, 2021).

Bununla belə, Beynəlxalq Enerji Agentliyinin (BEA) son təhlilinə əsasən, Azərbaycan iqtisadiyyatının neft və qazadan asılılığı davam edərsə, gələcəkdə əhəmiyyətli iqtisadi şoklar riski ilə üzləşəcək. 1995-2014-cü illərdə ölkənin nəhəng enerji ehtiyatlarının postsovet məkanında genişləndirilməsi və onların Avropa bazarlarına çıxarılması üçün yeni boru kəmərlərinin tikintisi sayəsində Azərbaycanın ÜDM-i 2178 faiz artıb. IEA-nın 160 səhifəlik hesabatına əsasən qlobal enerji bazarları sürətlə inkişaf edir. Paris İqlim Dəyişikliyi Sazişi çərçivəsində öz məqsədlərinə çatmaq üçün Azərbaycanın enerjisinin böyük hissəsini alan sənayeləşmiş ölkələr 2050-ci ilə qədər sıfır xalis emissiyaya nail olmaq barədə razılığa gəliblər. Nəticədə Bakı ciddi maneələrlə üzləşəcək. Neft və qaz Azərbaycanın ixrac gəlirlərinin 90%-ni, ölkə büdcəsinin 60%-ni təmin edir.

Azərbaycanın karbohidrogenlərdən həddən artıq asılılığı onu qlobal bazar dalğalanmalarına qarşı həssas edir. Dünya Bankının məlumatına görə, 2014-2015-ci illərdə neftin qiymətinin düşməsi ilə Azərbaycan iqtisadiyyatı iki dəfə kiçildi, 2014-cü ildəki 75 milyard dollardan 2016-cı ildə 38 milyard dollara düşdü. 2020-ci ildə Azərbaycan iqtisadiyyatı 4,3 faiz kiçilib. Hesabatın əsas diqqəti Azərbaycanın genişlənən daxili enerji tələbatını qarşılamağa davam etməsi və eyni zamanda istixana qazı emissiyalarını azaltması üçün enerji sənayesini yenidən qurmaq üçün nə edə biləcəyinə yönəlib. Ölkənin elektrik stansiyaları tərəfindən istehsal olunan enerjinin yalnız 17 faizi bərpa olunan mənbələr, 82 faizi isə təbii qazın payına düşür (International Energy Agency, 2021).

***Nəticə***. Azərbaycanın yarımqatböyük bərpa olunan enerji potensialı var ki, ölkənin daxili enerji ehtiyaclarını asanlıqla ödəyə bilər. Bakı artıq bazara əsaslanan elektrik enerjisi sektorunun yaradılmasına yönəlmiş dəyişikliklərə başlayıb və bərpa olunan enerjinin inkişafı üçün təşəbbüslər irəli sürüb. Azərbaycanda 2025-ci ilə qədər bazarın liberallaşdırılması üçün hüquqi bazanın yaradılması məqsədi daşıyan yeni elektrik enerjisi qanunu yaradılmışdır ki, bu da dövlət enerji obyektlərinin özəlləşdirilməsinə, eləcə də enerjinin özəl generatorlar tərəfindən inkişafı və satışına imkan verir. Azərbaycanın Energetika Nazirliyi 2030-cu ilə qədər bərpa olunan enerjinin ümumi enerji istehsalında payının 30%-ə çatdırılması ilə bağlı gözləntilərini bəyan edib və 11 xarici enerji şirkəti ilə bərpa olunan enerji stansiyalarının yaradılmasına dair razılaşmalar əldə edib. İyulun 12-də yenilənən bərpa olunan enerji mənbələrinin qanunvericilik bazasının daha çox elementləri buraxıldı, lakin tam bazar əsaslı sistemin nə vaxt tətbiq olunacağı hələ də qeyri-müəyyəndir.

Azərbaycan hökuməti 2030 Dayanıqlı İnkişaf Məqsədləri-ə və 2030-cu ildən sonrakı tədbirlərə uyğun olaraq istixana qazı emissiyalarının azaldılması üçün qanuni öhdəliklər qəbul etməli, eləcə də emissiya proqnozları hazırlamalıdır. Ölkənin 2030-cu ilə qədər Milli İnkişaf Məqsədlərini yerinə yetirməsinə imkan yaratmaq üçün rəhbər siyasət sənədi və fəaliyyət planı qəbul edilməli, 2030-cu ildən sonra İXQ emissiyalarının azaldılması planlarını əks etdirən Aşağı Emissiyalı İnkişaf Strategiyasını hazırlanmalı və bu sənədlərdə ən sərfəli siyasət və tədbirləri müəyyən edilməlidir. İXQ emissiyalarının monitorinqi, hesabatı və yoxlanılması sistemini tətbiq etməklə onları modelləşdirmə qabiliyyətini artırmalıdır. Azərbaycan hökuməti AMEA, Energetika Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, ARDNŞ, özəl sektor biznesləri, BMİ və donorlar arasında sıx koordinasiyaya əsaslanan inteqrasiya olunmuş enerji Tədqiqatlarının İnkişafı İnnovasiyaları (RDI) strategiyasını formalaşdırmalıdır. Strategiyanın səmərəli həyata keçirilməsi üçün maraq qruplarının davamlı əməkdaşlığını təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Aras, O. N., Suleymanov, E. & Huseynov, R. (2013). The Importance of Azerbaijan's Energy Revenues in its Exports Volume and the Effects on the National Economy. - https://d1wqtxts1xzle7.cloudfront.net/31421493/10-with-cover-page-v2.pdf?Expires=1664190061&Signature=HctDy1upBneDUc0QFZ44SqTx2jZpzUwULVtWRuxDtSjUMmMZCYNpXUWR8GCWd-xdoZKSNhXOulZO-s6rKGSrdWHm8U~k4zRMoaBKBCNreeHow80AktczI1cA78cO7XaCQb-jBioZtXtjx2wVMeg8KQ4R1Rx22gZGYq39y0vLU9IhEzoy4Rn2BV7cCRx1fj-Y1Ay8jwmBOdm4tVPQ5WYHwZSid9dwHP~uiTw3HkHeT6kALXwC8kaCX5SlO0EKJGT-LuXOHrBjo9q25~JpFCvF-2KZEFcc~4ctG0ZfsCjnKvZheGUxX~RpJHAQzZQLWiJMAseE5RHP2nxSpHcalxcPZw__&Key-Pair-Id=APKAJLOHF5GGSLRBV4ZA [25.10.2022].
2. Asian Development Bank. (2019). Asian Development Bank Annual Report 2019. - https://www.adb.org/sites/default/files/institutional-document/650011/adb-annual-report-2019.pdf [25.10.2022].
3. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2022). Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə. - https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade [25.10.2022].
4. International Energy Agency (2021). Azerbaijan Energy Profile. - https://iea.blob.core.windows.net/assets/c33c86e0-58ed-4465-954a-f6291b401ced/AzerbaijanEnergyProfile1.pdf [25.10.2022].
5. International Renewable Enerjy Agency (2019). Renewables Readiness Assessment: Republic of Azerbaijan. - https://www.irena.org/-/media/Files/IRENA/Agency/Publication/2019/Dec/IRENA_RRA_Azerbaijan_2019.PDF [25.10.2022].
6. The World Bank (2022, June). Global Economic Prospects. - file:///Users/admin/Downloads/9781464818431%20(1).pdf [25.10.2022].
7. The World Bank (2022). World Bank national accounts data, and OECD National Accounts data files. - https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.KD.ZG?locations=AZ [25.10.2022].

**ХОЛИДА ТАМАМИ**
*Докторант Бакинского Государственного Университета*

## ПЕРЕХОД АЗЕРБАЙДЖАНА НА ИСПОЛЬЗОВАНИЕ АЛЬТЕРНАТИВНЫХ ИСТОЧНИКОВ ЭНЕРГИИ В РАМКАХ БОРЬБЫ С ГЛОБАЛЬНЫМ ИЗМЕНЕНИЕМ КЛИМАТА

Целью исследования является описание и анализ реализуемой Азербайджаном государственной политики по борьбе с изменением климата и обеспечению устойчивого развития в энергетическом секторе. Рассмотрены вопросы популяризации научных исследований в области энергетики в нашей стране и возможности применения полученных результатов в производстве. Были изучены ресурсный потенциал и перспективные возможности развития альтернативной энергетики Азербайджана, определены приоритетные энергетические направления. С учетом особенностей рельефа и климата различных регионов страны подчеркнуто наличие большого количества солнечных, ветровых, геотермальных и гидроэнергетических ресурсов. При этом были проанализированы основные положения законодательного документа, принятого в прошлом году (2021 г.) о правовом регулировании энергоэффективности в Азербайджане, включая поощрение использования альтернативных источников энергии и определение процедур реализации, и даны соответствующие рекомендации. указано. Помимо работы, проделанной в энергетическом секторе, в Азербайджане, согласно отчетам авторитетных

международных организаций, таких как Азиатский банк развития и Всемирный банк, развитие человеческого капитала, улучшение энергетической инфраструктуры, а также создание новые технопарки и предоставление государством различных концессий для стимулирования деятельности предприятий, работающих в энергетическом секторе, являются важными вопросами, требующими рассмотрения.

*Ключевые слова*: изменение климата, устойчивое развитие, энергетическая политика, возобновляемые источники энергии.

**KHOLİDAH TAMAMI**
*Doctoral student of Baku State University*

## AZERBAİJAN'S TRANSİTİON TO USE OF ALTERNATİVE ENERGY SOURCES WİTHİN THE FRAMEWORK OF THE FİGHT AGAİNST GLOBAL CLİMATE CHANGE

The purpose of the study is to describe and analyze the state policy implemented by Azerbaijan to combat climate change and ensure sustainable development in the energy sector. Promotion of scientific research in the field of energy in our country and possibilities of application of the obtained results to production were considered. The resource potential and prospective development possibilities of Azerbaijan's alternative energy field were studied, priority energy directions were determined. Taking into account the relief and climate characteristics of different regions of the country, the presence of large amounts of solar, wind, geo thermal and hydro energy resources has been emphasized. At the same time, the main provisions of the legislative document adopted last year (2021) on the legal regulation of energy efficiency in Azerbaijan, including the promotion of the use of alternative energy sources and determination of implementation procedures, were analyzed and relevant recommendations were indicated. In addition to the work done in the energy sector in Azerbaijan, according to the reports of reputable international organizations such as the Asian Development Bank and the World Bank, the development of human capital, the improvement of energy infrastructure, as well as the creation of new technology parks, and the provision of various concessions by the state in order to stimulate the activities of enterprises operating in the energy sector are important matters to be considered.

*Keywords*: climate change, sustainable development, energy policy, renewable energy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.e.d. Qabil Əliyev.*

**UOT 902**

**ƏMRAH DADAŞOV**
*Tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru*
**amrahdadasov@bsu.edu.az**

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ AŞKAR EDİLƏN QƏDİM ŞUM ALƏTLƏRİNDƏN TOXANIN TƏSNİFATI

*Erkən əkinçilik mədəniyyətinin tədqiqi baxımdan aparılan arxeoloji qazıntılar zamanı tapılan son neolit-erkən eneolit dövrünə aid edilən abidələrin əhəmiyyəti böyükdür. Azərbaycan ərazisində əkinçilik təsərrüfatına keçid mərhələsi neolit mədəniyyəti əsasında təşəkkül tapmışdır. Arxeoloji tədqiqatlardan əldə olunan faktiki materiallar Azərbaycanın erkən əkinçilik mədəniyyətinin yerli əsasında, bəsit formadan mükəmməl səviyyəyədək inkişafını, genetik əlaqə və təkamülünü müəyyənləşdirməyə imkan verir.*

*Açar sözlər:* Azərbaycanın eneolit abidələri, eneolit əkinçiliyi, ibtidai toxalar, daş, sümük və buynuzdan düzəlmiş toxalar, tapılan daş toxaların növləri.

***Giriş***. Aparılan arxeoloji tədqiqatlar Cənubi Qafqazda o cümlədən Azərbaycan ərazisində erkən əkinçilik mədəniyyətinin təşəkkülü ilə bağlı bir çox məsələlərlə tam aydınlıq gətirməsə də istehsal təsərrüfatına keçidin başlıca xüsusiyyətlərini, erkən əkinçilik, təsərrüfat məşğuliyyətinə dair maraqlı faktik materiallar əldə edib.

Qədim əkinçilik və mədəniyyətlə bağlı əmək alətləri arasında torpağı becərmək üçün alətlər xüsusi yer tutur. Ona görə də bu vasitələrin yalnız bu və ya digər forması qədim kənd təsərrüfatının inkişaf səviyyəsini və onun xronoloji mərhələlərini müəyyən edə bilər.

***

Son illərdə Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində torpağın becərilməsi üçün qiymətli qədim əmək alətləri kolleksiyası toplanmışdır. Sonuncular qədim əkinçiliyin yaranması, onun təşəkkül tapması və Azərbaycan ərazisində yaşayan qədim tayfaların əsas istehsal təsərrüfatına çevrilməsi dövrlərini əhatə etmək baxımından elmi əhəmiyyətə malikdir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan ərazisində ibtidai icma quruluşunun müxtəlif mərhələlərinə aid çoxsaylı şum alətləri aşkar edilsə də, onların tədqiqat işlənmə tarixinə əsər ayrılmayıb. Hətta Azərbaycanın qədim əkinçilik təsərrüfatının inkişaf tarixini tədqiq edən, bu problemə dair bir sıra qiymətli monoqrafiya və məqalələr yazmış T.A.Bünyatov da torpağın qədim şumlanması üsullarından bəhs edərkən özünü yalnız kənd təsərrüfatı ilə məhdudlaşdırmışdır [1, s.24]. Bu məsələnin daha ətraflı işıqlandırılmasında İ.Q.Nərimanov və Q.S.İsmayılovun apardığı tədqiqatlar xüsusi yer tutur [2, s.143].

Q.S.İsmayılovun Son Tunc və Erkən Dəmir dövrünün şum alətlərinə həsr olunmuş "Zərgərtəpə abidəsi və Azərbaycanda toxa əkinçiliyinin bəzi məsələləri" əsərində məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar ilk dəfə olaraq erkən şum alətlərinin görünüşü və yayılması, habelə onların təkmilləşdirilməsi məsələləri müzakirə edilmişdir [3, s.76-77]. O, Azərbaycan ərazisində tapılmış ən qədim əkinçilik alətlərinin təsnifatını ətraflı elmi izahını vermişdi. Q.S.İsmayılovun Son Tunc və Erkən Dəmir dövrünün şum alətlərinə həsr olunmuş "Zərgərtəpə abidəsi və Azərbaycanda toxa əkinçiliyinin bəzi məsələləri" əsərində məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar ilk dəfə olaraq erkən şum alətlərinin görünüşü və yayılması, habelə onların təkmilləşdirilməsi məsələlərini müzakirə etmişdir.

Azərbaycanda ən qədim şum alətlərinin tapıldığı abidələr eneolit dövrünə aiddir. Eramızdan əvvəl V-IV minilliyi əhatə edən bu dövr istər Azərbaycanda, istərsə də bütün Cənubi Qafqazda yerli oturaq qəbilələrin yeni təsərrüfat formasına - əkinçiliyə əsaslı şəkildə keçidi ilə səciyyələnir. Əkinçiliklə məşğulluğun kökləri bu dövrdən başlaması şübhəsizdir. Qeyd edim ki, Azərbaycanda, istərsə də bütün Cənubi Qafqazda əkinçilik daha qədim, neolit dövründən başlanmışdır. Bizə məlum olan eneolit əkinçiliyinin əsası ibtidai neolit əkinçiliyindən formalaşmışdır. Bütövlükdə, əkinçilik və heyvandarlıq vərdişlərinin mənimsənilməsi neolit dövründə bəşəriyyətin ən böyük nailiyyəti olub, sonrakı mədəni-tarixi tərəqqinin əsaslarını təşkil etmişdi. Bu dövürdə əkinçilk və heyvandarlıq məşğuliyyəti Asiya və Avropanın bir çox ərazilərinə yayılmışdı. Əkinçilik təsərrüfatının formalaşması yeni əmək

alətlərinin, o cümlədən təkmilləşmiş şum alətlərinin yaradılması zərurətini doğururdu. Belə şəraitdə ibtidai toxa kimi alətlər meydana çıxdı. Lakin heç bir şübhə yoxdur ki, əkinçilik təsərrüfatının ilk mərhələsində daha primitiv əkin alətlərindən istifadə olunurdu. Bəzi tədqiqatçıların fikrincə onlar, ucları itlənmiş çay daşı və ya ucu iti sümük alətlər idi. Yeni yaranmış toxalar və onlarla müqayisədə əkinçilərin əməyini asanlaşdıran daha təkmilləşdirilmiş alətlər idi.

Azərbaycanın ərazisində tapılan qədim toxaların hazırlandığı materiallara görə üç qrupa bölmək olar: 1) daş; 2) sümük; 3) buynuzdan hazırlanmış toxalar.

Maraqlı odur ki, onlar da öz növbəsində müxtəlif növlərlə təmsil olunurlar.

Azərbaycanda ilk daş toxa nümunələri Naxçıvan yaxınlığında yerləşən Kültəpə ərazisində tapılmışdır [4, s.42]. Onlar formaca iki növlə təmsil olunurlar. Birinci növ toxada sap üçün deşik ilə təchiz edilmişdir. O.A.Həbibullayevın təsvirinə görə bu toxalar bərk boz çay daşdan hazırlanmışdır. Oval və yastı formalı bu daş alətin hər iki tərəfi dəqiq çapılmışdır. Alətin ucu iş prosesində pardaqlanmaq üçün çapılmışdır. Taxta tutacaq üçün alət üfüqi istiqamətdə düz tərəfdən birtərəfli açılan bir dəliklə təchiz edilmişdir. Təsvir edilən alətin uzunluğu təqribən 15 sm-dir. Kültəpədə tapılan ikinci toxa sümükdən hazırlanmışdır. Bu alətin səthi tamamilə cilalanmışdır. Kültəpədən tapılanan ikinci növ toxalar hər iki tərəfi çapılmış nümunələrdən ibarətdir. Onlardan biri yastı daşdan hazırlanmışdır. Onun hər iki tərəfi bıçaq kimi itilənmiş, hətta parıldayıcı effektə qədər çapılmışdır. Toxaların yuxarı hissəsində kiçik diametrli bir dəlik var. O.A.Həbibullayevə görə dəlik alətə taxta tutacaq keçirmək üçün nəzərdə tutulub. Belə alətlərin aşkarlandığı yerdə taxta sapa rast gəlinməyib. Görünür zamanla onlar çürüyərək torpağa qarışmışdır. Lakin güman etmək olar ki, kənd təsərrüfatının ilkin mərhələsində bu alətlər toxa funksiyalarını yerinə yetirib və görünür, taxta sap daş toxaya iplə bağlanıb, bərkidililirmiş. Arxeoloji materiallar şəhadət verir ki, Yer kürəsinin bəzi ərazilərində son vaxtlara qədər ağacdan, sümükdən və daşdan hazırlanmış toxalar taxta sapa bərkidilmiş və torpağı şumlamaq üçün istifadə olunurdu.

Azərbaycanda eneolit dövrü yaşayış məskənlərindən tapılan şum alətləri arasında sayca sümük və buynuzdan hazırlanmış alətlər üstünlük təşkil edir. Bu ərazidə Naxçıvan yaxınlığındakı Kültəpə, Baba-Dərviş, Töyrətəpə, Şomütəpə qədim yaşayış məskənlərindən də şum alətləri aşkar edilmişdir. Bu yaşayış yerlərinin sakinləri əkinçilik təssərrüfatının keçid mərhələsində idilər. Bunlardan Şomutəpə mədəniyyəti erkən neolit mədəniyyətinin əsasında təşəkkül tapmışdı [5, s.131].

Bu vasitələrin elmi təsnifatı və daha ətraflı tədqiqi İ.Q.Nərimanov tərəfindən verilmişdir [6, s.3-14]. Təsnifatından belə məlum olur ki, ibtidai qrupa aid olan bu toxaların əksəriyyəti sümükdən, kiçik hissəsi isə buynuzdan hazırlanmışdır.

Qeyd edək ki, Cənubi Qafqazın digər bölgələri Ermənistan və Gürcüstanın eneolit yerlərində də mal-qara çiyinlərindən hazırlanmış toxalar tapılıb. Onların xarakterik nümunələri Gürcüstandan Şulaveridən, İmiris-Qoradan və Aruxlodan, Ermənistandan isə Tequtdan tapılıb [7, s.10-34].

Arxeoloji tədqiqatlar müəyyən etmişdir ki Kültəpə sahəsinin eneolit təbəqəsindən tapılmış toxaya bənzər sümük əşyaları qədim zamanlarda toxa kimi istifadə olunub. Şum aləti kimi ibtidai sümük toxalar ilk tunc dövründə də mövcud olmuşdur. Lakin neolit dövründən fərqli olaraq eneolit dövründə sümük alətlər istifadədən çıxmış və onların yerinə xüsusi sərtliyi ilə seçilən çay daşlarından hazırlanan toxalar seçilmişdir. Qeyd etmək lazımdır ki, istər Azərbaycanda, istərsə də Cənubi Qafqazın bütün ərazilərində ilk tunc dövrünə aid belə toxalara nadir hallarda rast gəlinir.

Azərbaycanda ilk tunc dövrünə aid daş toxa nümunəsi yuxarıda adı çəkilən qədim Kültəpə yaşayış yerində tapılmışdır. Bu toxa bərk boz çay daşından hazırlanmışdır. Toxanın səthi hər yerdən çapılaraq itlənmiş kəsici formaya salınmışdı. Toxa kimi istifadə üçün üzərindən üfüqi olaraq dəlik açılmışdır. Toxanın ümumi uzunluğu 14,2 sm 17-ə çatır.

Kültəpədə tapılan toxa maketini xatırladan oxşar daş alətin biri də Astara rayonunda aşkarlanmışdır. 1929-cu ildə tapılmış, hazırda Azərbaycan Tarixi Muzeyində mühafizə olunan bu daş alətin səthi diqqiqliklə çapılmışdır. Üst tərəfində tutacaq üçün bir dəlik var. İtlənmiş hissə çapılaraq yuvarlaqlaşdırılmış və itlənmişdir, uzunluğu 10 sm.-dir. Erkən Tunc dövrünün toxaları haqqında məlumat verərkən Baba Dərvişdən tapılan əmək alətini də qeyd etməmək olmaz [8,s.230-231]. Buynuzdan hazırlanan ikitərəfi enli və yastı formaya malik olan bu alətin üzərində tutacaq üçün dəlık açılmışdır. Tutacaq çox güman ki, ağacdan hazlrlanmışdır. Q.S.İsmayılov bu aləti baltaya bənzədir. Maraqlıdır

ki, alətin hər iki yanları çox dəqiqliklə çapılırdı ki, bu da onun toxa kimi istifadə edilməsinə dəlalət edir. Alətin uzunluğu 12, eni isə təqribən 1 sm-dir. Qeyd olunan dövrə aid toxalar son zamanlar Quruçay və Köndələnçay hövzələrinin yerindən çoxlu sayda tapılmışdır. Günəştəpə və Qaraköpəktəpədə də oxşar toxalar Kültəpədə tapılan toxa nümunələrindən əsaslı şəkildə fərqlənir. Adətən onların hamısı bazalt növündən olan yastı çay daşlarından hazırlanmışdır.

Erkən Tunc dövrünə aid olan ibtidai toxa alətlərinin azlığı təsadüfi deyil. Məlumdur ki, əkinçilik və maldarlıq yerli qəbilələrin yeni iqtisadi nailiyyətləri idi. Tədqiqatçıların fikrincə, məhz bu dövrdə maldarlıqda iri buynuzlu mal-qaradan istifadə edilmişdi [9, s .45-48].

Erkən Tunc dövrünə aid yaşayış yerləri ilə müqayisədə Orta Tunc dövrünə aid ərazilərdə demək olar ki, heç bir şum alətinə rast gəlinməmişdir. Yeganə istisna Qədim Üzərliktəpə yaşayış yerinin yaxınlığında yerləşən Rəsultəpədə tapılan daş toxa nümunəsidir. Bu tapıntı çay daşından düzəldilmiş dairəvi alətdir. Daşı digər daşla döyərək bir tərəfini iti şəkilə salırdılar. Eyni üsulla toxanın yan tərəflərindən qulp üçün dəlik açılırdılar. Dəlikdən ağac materialından tutacaq keçirib, onun ağac gövdəsindən düzələn ip ilə toxanın dəliyinə bərkidirdilər.

Son tunc dövrünə aid alətləri ilk dəfə qədim Xanlar düşərgə yaşayış yerində aşkar edilmişdir. Arxeoloji qazıntılar zamanı buradan qırxdan çox daş toxa tapılmışdır [10, s.72]. Xanlardan sonra Baba-Dərviş yaşayış yerindən də oxşar toxalar tapılmışdır.

1960-cı illərdə Alazan vadisində və Kiçik Qafqazın cənub-şərq ətəklərindəki Kurəkçay və Köndələnçayın qovşağında son tunc dövrünə aid böyük daş şum alətləri kolleksiyası aşkar edilmişdir. Bu abidələrin bütün toxalar üçün ümumi cəhəti ondan ibarətdir ki, onların hamısı bazalt növündən ibarət çay daşlarından düzəldilmişdir. Bunun üçün adətən oval yastı daşlardan istifadə olunmuşdur. İlk baxışdan bu qədim şum alətləri vahid formada görsənir. Alətlərin hər iki yanlarındakı dişləri daşı daşa döymə yolu ilə düzəldirdilər. Üzərindən dəliklərin açılması da eyni üsulla aparılırdı. Aşkar edilən toxalar müxtəlif ölçü və xüsusiyyətlərə malikdir. Q.S.İsmayılovun Kürəçay və Köndələnçay hövzəsində apardığı arxeoloji tədqiqatlar zamanı tapılmış toxalar deyilənləri təsdiqləyir [11, s.32].

Küruəçay və Köndələnçayın qovşağında, xüsusən də Qarakəpəktəpə, Şəkərcik, Zərgərtəpə və başqa qədim yaşayış məskənlərində, eləcə də onların bilavasitə yaxınlığında qədim əkin sahələrində daş toxalara rast gəlmişdir. Qədim Şəkərcik yaşayış yerindən yalnız iki daş toxa tapılıb. Bozumtul yastı çay daşından hazırlanmış bu alətlər ilk növbədə kiçik ölçüləri ilə seçilir. Digər tərəfdən, onların istehsal texnologiyası fərqlidir. Çünki onların səthi hər iki tərəfdən döyülərək kiçik lopalarla işlənir. Eyni şəkildə, yanlarında tutacaq üçün dəlik açılır. Bizim təsvir etdiyimiz hər iki alətin ölçüləri demək olar ki, eynidir. Onların uzunluğu 9, eni isə 7-8 sm-dir. Q.S. İsmayılov bu toxaların yanında tapdığı keramika nümunələri əsasında onu son tunc dövrünə aid edir. Bununla belə, bu toxalar öz ölçülərinə və istehsal texnikasına görə son tunc dövrü ərazilərindən tapılan toxalardan əhəmiyyətli dərəcədə fərqlənir. Ancaq bu fenomenin səbəblərini aydınlaşdırmaq üçün əlimizdə faktiki məlumat yoxdur.

Daha çox sayda daş şum alətləri qrupu Kürəçay-Köndələnçayın qovşağında yerləşən Zərgərtəpə qəsəbəsində tapılmışdır. Təkcə bu abidədən 30-dan çox toxa nümunəsi aşkarlanır ki, onların da əksəriyyəti bütöv alətlər kimi təmsil olunur. Hamısı uzunsov yastı çay daşlarından düzəldilmişdir. Toxaların bir, bəzən isə hər iki tərəfi cilalanmışdır [12, s.42]. Eyni zamanda, toxaların böyük əksəriyyəti müəyyən dərəcədə daşın təbii qabığını saxlamışdır. Toxaların kənarı dəqiqliklə cilalanaraq itlənmiş hissəsidir ki, bu da əkinçinin yaxşı məhsul alması üçün çalışmasına işarədir.

Zərgərtəpədən daş çapanları iki qrupa bölmək olar:

1) bir tərəfi itilənmiş 2) iki tərəfi itilənmiş

Çay daşının bir tərəfi orijinal halında qorunub saxlanılır, o biri ucu çapılaraq itilənir. Belə toxaların üst ucu enli deyil, alt işçi ucu isə enlidir.

Belə toxaların sapı üçün dəlik yuxarıda deyil bir qədər aşağıda yerləşir. Birinci qrupun ən böyük toxa nümunəsinin uzunluğu 25 sm-dən çox deyil, ən kiçiyi isə 12 sm-dir.

İkinci qrupun toxaları yuxarıda qeyd edildiyi kimi, ikitərəflidir. Başqa sözlə, toxa aləti üçün seçilmiş daşın hər iki əks ucu itlənmiş vəziyyətdə olur. Əksər hallarda bütün səth daşla döyülərək işlənir. Birinci qrupun toxalarından fərqli olaraq, ikinci qrupun toxalarının hər iki ucu bərabər və eyni ölçüdədir. Bundan əlavə, sap üçün dəlik ortada yerləşir. Onlar müxtəlif ölçülərdə təqdim olunur. Ən ki-

çik nümunənin uzunluğu 12-15 sm, ən böyüyü isə 24 sm-dir. Beləliklə, hər iki qrupun toxalarının ölçüləri bir-birinə yaxındır.

Göstərdiyimiz alətlərin toxa kimi istifadəsi heç bir şübhə doğurmur. Q.S.İsmayılovun fikrincə son tunc dövrünə aid müxtəlif ölçülü daş toxalar ilk növbədə onların təyinatı ilə bağlıdır. O, hesab edir ki, torpağı şumlayarkən əvvəlcə iri və daha kobud ağır toxalardan, sonra isə kiçik toxalardan istifadə edirdilər ki, bu da topağı əzib yumuşalmasına, əkinə yararlı edirdi.

Bütövlükdə bu fikirlə razılaşmaq olar ki, daş toxaların dəliyinə taxta sapı dəliyin ölçüsünə eyni götürüb bərkidirdilər və beləliklə, müasir toxaların modelini vermiş olurlar. Eyni zamanda, bizə elə gəlir ki, daş toxaların müxtəlif ölçülü olması məqsəddən deyil, qəbilə üzvlərinin yaş və cinsindən, yəni, kimlər tərəfindən istifadə edilməsindən aslı olub. Üstəlik, torpaq sahələrində işləyənlər müxtəlif yaşa, cinsə və fiziki gücə malik olublar.

***Nəticə***. Yuxarıda qeyd edildiyi kimi, Kürəkçay və Köndələnçay hövzəsində Qaraköpəktəpə yaşayış məntəqəsində də Son Tunc dövrünə aid daş şum alətləri aşkar edilmişdir. Onlar Zərgərtəpədə tapılan toxalarla eynilik təşkil edir, bir və ya iki üzlü toxalar nümunələrinə aid olunur.

Qeyd etmək yerinə düşər ki, bəzi toxaların ikitərəfli olması alətin tədricən təkmilləşməsi ilə bağlıdır. Şübhəsiz ki, belə daş toxalar torpaq işləri üçün daha vacibdir.

Maraqlıdır ki, Zərgərtəpə ilə Qaraköpəktəpə arasında yerləşən qədim əkin sahələrinin səthində Quruçay və Köndələnçay hövzələrindəki ayrı-ayrı daş toxa nümunələri ilə yanaşı son tunc dövrünə aid gil qabların parçaları da aşkar edilmişdir. Burada tapılan toxalar əsasən yuxarıda təsvir edilənlərlə eynidir. Yalnız bir daş toxa onlardan forma və ölçü baxımından kəskin şəkildə fərqlənir. Bazalt növ çay daşından düzəldilmiş bu toxa öz formasına görə qismən kəsikşəkillidir. Onun yuxarı hissəsi dar, yuxarıdan aşağıya döğru hissəsi isə simmetrik olaraq genişlənir. Kəsici dişlər bərabər və böyük lopalarla döyülərək itilənmişdi. Toxanın iti kənarları da bu şəkildə işlənmişdir. Bu toxanın uzunluğu təxminən 30 sm-dir. Kəsici hissənin eni 16 sm-dir. Zərgərtəpə və Qaraköpəktəpədən fərqli olaraq bu toxanın tutacağı üçün dəlik yoxdur.

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazın digər bölgələrindən tapılan daş toxalar demək olar ki, məlum deyil. Yeganə istisnalar Gürcüstanda Alazan çayının yuxarı axarında tapılan toxalardır.

## ƏDƏBİYYAT


1. Буниятов Т.А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Баку, Элм, 1957, 234 с.
2. Исмаилов Г.С. Каменные орудия древних племен Азербайджана. МКА, т.VII. Баку, 1973, 416 с.
3. Исмаилов Г.С. Поселение эпохи ранней бронзы Узунтепе в Физулинском районе // Изв.АН Азерб.ССР, №4, Серия истории, философии и права, 1973, с.76-77.
4. Абибуллаев О.А. Археологические раскопки в Кюльтепе. Баку, Элм, 1958, 125 с.
5. Dostiyev T.M.Arxeologiya. Bakı, Elm və təhsil, 2021, 393 s.
6. Нариманов И.Г. О земледелии эпоху энеолита в Азербайджане // СА, 1971, №3, с.3-14.
7. Иессен А.А. Кавказ и Древний Восток в 4-3 тыс.до н.э. - КСИА, № 93, 1963, т. III-IV.
11. Nuruzadə Ş. Arxeoloji irs milli-mənəvi dəyərlər // Azərbaycan Arxeologiyası. Bakı: Xəzər Universiteti Nəşriyyatı Cild 21 № 2 2018, s.110-120.
12. Süleymanlı S. A. Mədəni irsin qorunması sahəsində beynəlxalq-hüquqi tənzimetmə və Azərbaycan Respublikasının qanunvericiliyi. -Bakı: Azərbaycan nəşriyyatı, 2018. – 296 s.
13. Каменский С. Ю. Актуализация археологического наследия в современных социально-культурных практиках: диссертация ... кандидата культурологии: 24.00.01 / Каменский Сергей Юрьевич; [Место защиты: Ур. гос. ун-т им. А.М. Горького].- Екатеринбург, 2009.- 175 с. - www.dslib.net/teorja-kultury/aktualizacija-arheologicheskogo-nasledija-v-sovremennyh-socialno-kulturnyh.html [09.09.2022].
14. Массон В.М. Вопросы культурного наследия. - Ашхабад, 2002, -48 с.

**ВАФА АХМАДОВА**
*Преподаватель кафедры общественных наук*
*Азербайджанский Университет Архитектуры и Строительства,*
*доктор философии по истории*

## О СУЩНОСТИ АРХЕОЛОГИЧЕСКОГО НАСЛЕДИЯ

В статье анализирован археологическое наследие как часть историко-культурного наследия, археологические памятники, состоящие из материальных остатков прошлого, результаты и знания, полученные в результате их изучения, и их охрана трактуется как важный источник исторической памяти. Отмечается, что объектом археологического наследия являются археологические объекты, частично или полностью скрытые над землей, под землей или под водой в результате археологических раскопок или находок, и связанное с ним культурное наследие являются основными источниками информации. Объектами археологического наследия являются поселения и жилища, курганы, древние могилы, каменные изваяния, наскальные рисунки, остатки древних укреплений, каналов, кораблей, дорог, древние места, культовые обряды, исторические памятники, созданные народами и другими этническими народностями на территории Азербайджана. Повествуется о местах проведения религиозных обрядов, присвоение и фальсификация археологического наследия на ранее оккупированных территориях Азербайджана в результате военной агрессии Республики Армения.

*Ключевые слова:* культурное наследие, археологическое наследие, археологические памятники, курганы, поселения, могилы, каменные изваяния, наскальные рисунки.

**VAFA AHMADOVA SHAMIL**
*Azerbaijan University of Architecture and Construction*
*Teacher of the department of social sciences,*
*doctor of philosophy in history, assistant professor*

## ABOUT OF ARCHAEOLOGICAL HERITAGE

In the article, the archaeological heritage as a part of the historical-cultural heritage, archaeological monuments consisting of the material remains of the past, the results and knowledge obtained as a result of their research, and their protection. interpreted as an important source of historical memory. It is noted that the object of archaeological heritage is the archaeological objects partially or completely hidden on the ground, under or under water as a result of archaeological excavations or findings, and the cultural heritage related to it are the main sources of information. The objects of archaeological heritage are settlements and dwellings, barrows, ancient graves, stone statues, rock paintings, remains of ancient fortifications, canals, ships, roads, ancient places, religious rituals. , the historical monuments formed by the peoples and other ethnic communities in the territory of Azerbaijan, the places where religious ceremonies are held, the appropriation and falsification of the archaeological heritage in the occupied territories of Azerbaijan as a result of the military aggression of the Republic of Armenia are discussed.

*Keywords:* cultural heritage, archaeological heritage, archaeological monuments, barrows, settlements, graves, stone sculptures, petroglyphs.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 sentyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. Qabil Əliyev.*

**UOT 902**

**DÜRDANƏ YUSİFOVA**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun*
*"Azərbaycanın orta əsrlər dövrü arxeologiyası" şöbəsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru*
**durdaneyusifova57 @ gmail.com**

# GÖYGÖL RAYONUNUN ANTİK VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİNİN TOPOQRAFİYASI

*Məqalə Göygöl rayonu ərazisində yerləşən antik və ilk orta əsrlər dövrü arxeoloji abidələrin topoqrafiyasına həsr edilmişdi. Arxeoloji qazıntı işlərinin nəticələri sübut edir ki, Göygöl ərazisindən aşkar olunmuş ilk orta əsr yaşayış yerləri, qalalar, qəbir abidələri, alban dövrü xristian abidələri və körpülər Gəncə ilə eyni mədəni areala daxil olub, zəngin elmi informasiyaların daşıyıcılarıdır. Bölgənin yaşayış yerlərindən biri də Göygöl rayonunun Çaylı kəndi yaxınlığındakı "Sərbəstəpə yaşayış yeridir". Kürəkçayın iki qolu arasında yerləşir və təxminən 6,8 hektar sahəni əhatə edir. Bölgədə coğrafi, topoqrafik və iqlim amillərinin təsiri altında yaranan fərqli əlamətlər, arxeoloji abidələrin plan quruluşunda özünü göstərir. Məqalədə Göygölün Balcılı, Zurnabad, Kərəmli, Yeni Zod, Çaykənd yaxınlığında ilk orta əsrlər dövrünə aid qəbir abidələri və alban xristian məbədlərinin qalıqları haqqında şərh verilir.*

*Açar sözlər:* Göygöl, topoqrafiya, arxeoloji, qəbir abidələri, məbəd, qala.




Göygöl rayonunu orta əsr abidələrinin topoqrafik xəritəsi.
*Tərtibçi*: A.M. Məmmədov, D.S.Yusifova

***Giriş.*** Göygöl rayonunun ərazisi Kiçik Qafqazın şimal-şərqində, Murovdağın şimal yamacları, Murovdağ - Şahdağ silsiləsində yerləşir və onun qollarını əhatə edir. Region səthi quruluşuna, hündürlüyünə, fiziki-coğrafi xüsusiyyətinə görə şimaldan cənuba doğru bir-birindən kəskin fərqlənən dörd əsas geomorfoloji zonaya bölünür. Bunlar da öz növbəsində; Yüksək dağlıq zona, Orta dağlıq zona, Alçaq dağlıq zona və Dağətəyi dağlıq zonaya bölünür (1, s.21), Murovdağın qollarından birincisi Kəpəz dağıdır. Göygöl bu dağın ətəyində yerləşir. Göygölə gedən yol Çaykəndin içindən keçib Kürəkçayının kənarı ilə uzanır. Bölgənin ən böyük çaylarından olan Kürəkçay, Qoşqar və Gəncəçayı, Murovdağ və Şahdağ silsiləsinin ensiz suayrıcı yolundan başlayaraq, şimal istiqamətdə yamac boyu axırlar (1, s.29). İqlimi mülayim və isti iqlimlidir. Murovdağ Şahdağ silsiləsinin davamı olub Tərtərçay - Kürəkçay və Gorançay arasında suayrıcıdır. Silsilənin ən yüksək zirvəsi Gamışdağdır (3724 m). Göygöl ərazisi tektonik quruluşa görə zəngin faydalı qazıntı və mineral su ehtiyatlarına malikdir. Bura çınqıllı-qum, manqan, inşaat gilləri, kaolin, odadavamlı gillər, qum və daş, kükürd kimi faydalı qazıntıları olan ərazilərimizdəndir. Çaylar öz mənbəyini Murovdağ silsiləsindən götürüb və Kür hövzəsinə daxildir. Regionun böyük hissəsi dağətəkləri və təpəliklərdən ibarətdir.

Göygöl bölgəsi arxeoloji abidələrlə zəngin olan ərazilərimizdəndir. İlk orta əsrlərdə şəhərlərin yaşayış məntəqələrində ticarət və sənətkarlığın artması, digərinin dini zəmin əsasında yaranması, bəzilərinin isə inzibati mərkəz rolu oynamasından asılı olaraq bir-biri ilə sıx surətdə bağlılığı olmuşdur. Bölgədə coğrafi, topoqrafik və iqlim amillərinin təsiri altında yaranan fərqli əlamətlər, arxeoloji abidələrin plan quruluşunda özünü göstərir. Bu kimi amillər ilk növbədə ərazinin topoqrafik xüsusiyyətləri ilə izah olunur. Bu ərazidə təbii fəlakətlərin baş verməsi, həm geoloji strukturun dəyişməsinə, həm də geomorfoloji quruluşun dəyişməsinə səbəb olmuşdur. Relyefin mürəkkəbləşməsi qeyd edilən amillərdən irəli gəlmişdir.

Gəncə ərazisindən aşkar olunmuş yaşayış yerləri Göygöl kurqanları ilə eyni mədəni areala daxil olub, zəngin elmi informasiyaların daşıyıcılarıdır. Kürəkçay və Qoşqarçay hövzəsinin arxeoloji abidələr haqqında ilk məlumatlar 1834-cü ildə Dyuba de Monpere tərəfindən verilmiş, Xanlar ətrafında, indiki Göygöl ərazisindən topladığı tunc əşyalar və qara rəngli saxsı qab qırıqlarının tunc dövrünə aid olduğu qeyd edilmişdi (2, s.5). 1896- cı ildə A.İvanovski Murut kəndinə gedən yolun üstündə, Göygölün cənubunda 3 kurqan qeydə almışdır. Davud Şərifov Xanlar ətrafında bir neçə kurqan tədqiq etmişdir. 1899-cu ildə Xanlar rayonunun Murut kəndində E. Reslerin qazdığı 13№ li kurqanlardan Kür-Araz eneolit mədəniyyəti üçün xarakterik olan ölünün yandırılması ilə əlaqədar yaranmış təbəqə aşkar etmişdir.

XIX əsrin sonu XX əsrin əvvəlırində Y.Hümmel alman əsilli şəxslərin Qarabağda, Gəncəbasarda E. Reslerin, Göygöldə (keçmiş alman koloniyası Yelenendorf, sovet dövründə Xanlar) apardıqları qazıntılar Azərbaycanda arxeologiya elminin təşəkkülünün ilk mərhələsinə təsadüf edir. Göygöl və ətraf ərazilərdən çoxlu sayda kurqan tipli qəbir abidələri Y.Hümmel tərəfindən qazıntı işi aparılaraq öyrənilmişdi. Murut kəndi yaxınlığında 10-li kurqanda qəbir avadanlıqları içərisində tuncdan düzəldilmiş bilərziklər, xüsusən qolbaqlar üstünlük təşkil edir. Göygölün qərbində Bayan kəndi yaxınlığında yerləşən qəbristanlıqlarda əl ilə dulus çarxında hazırlanmış ağ maddə ilə bəzədilmiş qabarıq naxışlı qablar aşkar edilmişdi (2; 1).

Tədqiqatlar sübut edir ki, Qafqaz Albaniyasında xristianlığın ilk yayıldığı və möhkəmləndiyi ərazilərdən biri də məhz Böyük Qafqazın cənub ətəkləri və Kicik Qafqaz dağlarının şərq ərazilərindəki abidələr olmuşdur. Bölgənin Balcılı, Zurnabad, Mizrik, Kərəmli,Yeni Zod, Çaykənd və başqa kəndlərinin yaxınlığında, eləcə də rayonun sıx meşəlik ərazisində coxlu sayda ilk orta ərlər dövrünə aid qəbir abidələrinə və xristian məbədlərinin qalıqlarına rast gəlinir. Vaxtilə bölgədə Davud Şərifov, Rəşid Göyüşov, Arif Məmmədov, Mübariz Xəlilov arxeoloji tədqiqat işləri aparılmışdır.

Araşdırmalar sübut edir ki, yaşayış məskənləri əvvəllər dağ rayonlarında və çay mənbələri olan yerlərdə salınmış, sonralar isə şəhərlər karvan yolları üstündə inkişaf etməyə başlamışdır. Belə yaşayış yerlərindən biri də Göygöl rayonunun Çaylı kəndi yaxınlığındakı “ Sərbəstəpə yaşayış yeridir ”. Kürəkçayın iki qolu arasında yerləşir və sahəsi təxminən 6,8 h (3, s.28). Yaşayış yeri iki mədəni təbəqədə tədqiq olunmuş, alt mədəni təbəqə ilk tunc dövrünə aid edilmişdir. Qazıntı zamanı kül qalıqlarının tapılması buranın yanğına məruz qaldığı fikrini söyləməyə imkan vermişdir.

Qoşqarçay və Kürəkçay hövzəsində yerləşən orta əsr abidələrindən biri də Zurnabad qalasıdır. Qeyd edək ki, bu qala hələ 1938-ci ildə E.Resler tərəfindən tədqiq edilmişdir. İlkin tədqiqatlar qalanı inkişaf etmiş orta əsrlər dövrünə aid edir. Tikintisində qaya daşlarından istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerindən aşkar edilən maddi mədəniyyət qalıqları qalanın və yaşayış yerinin X-XII əsrlərə aid olduğu fikrini təsdiqləyir. Balçılı qalası - Göygöl rayonunun eyni adlı kəndin adı ilə XII əsrə aid olan qaladı (2; 3). Qazıntı işləri zamanı oradan divar və bürc qalıqları, ocaq yeri, keramika məmulatı içərisində dulus dəzgahlarında hazırlanmış və məişətdə istifadə edilən şirli və şirsiz saxsı qab hissələrinin nümunələri qeydə alınmışdır. Qala bürclərinin qalıqları 45x42x10sm ölçülü çiy kərpiclə hörülmüş, hündürlüyü 5-6metr ölçülərində qeydə alınmışdır. Həmin qazıntıların nəticəsi onu deməyə əsas verir ki, ərazidə uzun yüzilliklər boyu yaşayış mövcud olmuşdur. Qalanın içərisində binalar qalmasa da çoxlu bünövrə yerləri vardır. İstər bürclərin, istərsə də ara divarlarının bayır hissəsində hərbi məqsədlərlə istifadə üçün xüsusi mazğallar qurulmuşdur. Qalanın içərisində tikilmiş binaların döşəmələrinin və divarlarının müəyyən qismini qayalar təşkil edir. Ərzaq ehtiyatı saxlamaq üçün qazılmış quyuların əksəriyyəti də sal qayaları yonmaqla əmələ gətirilmişdir.

Gəncədən Göygölə doğru gedən yol istiqamətində bir neçə X-XII əsrlərə aid körpülərin olması orta əsrlər dövründə ticarət əhəmiyyətli yolların buradan keçdiyini təsdiq edir. Məlum həqiqətdir ki, Qafqaz Albaniyasında dinin təsirindən yaranmış memarlıq abidələrindən olan məbəd və kilsə qalıqları Göygöl rayonu ərazisində çoxluq təşkil edir.

Göygöl rayonunun Yeni Zod kəndindən (kecmiş Azad və Kamo kəndindən) 15 km şimal-qərbdə, dəniz səviyyəsindən təqribən 2800-3000 metr yüksəklikdə, Zurnabad kəndindən təxminən 3-4km, Topalhəsənli kəndindən 6-7 km VI-VIII əsrlərə aid Band məbədi yerləşir (3, s.26-28). Məbəd bir növ ətraf kənd mərkəzindən ən hündür zirvədədir. Band məbədi yerli qara daşlardan, çaydaşından əhəng məhlulu ilə inşa edilmişdir (3, s.28). Band məbədinin eni 4 metr, uzunluğu 8 metr, hündürlüyü yanlardan 3,5 və 5,5 metrdir. Məbəd ikineflidir, iki pəncərəsi, mehrabı və iki şam yandırmaq üçün xüsusi düzəldilmiş yeri vardır. Məbədin divarının eni 0,80 sm.-dir. Göygöl rayonunda mövcud digər məbədlərdə olduğu kimi, Band məbədinin də qapısının üstündə sağ və sol tərəflərində dairəvi xaçlar həkk edilmişdir. Band məbədinin içəri hissəsində sütunların alt və üst tərəfində də xaçlar vardır. Məbədin şimal divarında olan xaçlar istisna olmaqla, yerdə qalan xaçlar vaxtilə bu bölgəyə köçürülmüş ermənilər tərəfindən qoyularaq, tamam dəyişdirilmişdir (3, s.28-30).

Bölgədə dövrümüzədək daha salamat halda gəlib çatmış Çaykənd məbədi Çaykənd-Göygöl yolunun sağında, kəndin yaxınlığında yerləşir. Məbəd sal qaya üzərində inşa edilmişdir, uzunluğu 11 metr, eni 7 metr, hündürlüyü təqribən 6 metrdir. Divar boyu xaçlar yerləşdirilmişdir. Məbədin tağbənd formalı qapısı vardır. Qapının sol tərəfində və aşağı hissəsində Alban yazıları və xaçlar həkk olunmuşdur (2, s.27).

Göygöl ərazisindəki Yeni Zod (Azad) kəndi yaxınlığındakı məbəd üç salonu olmaqla, iki hissədən ibarətdir. Uzunluğu 17 metr, eni 11 metr, divarının qalınlığı 0,80 metrdir. Məbəd qaya daşı ilə hörülüb. Üzərinə qırmızı rəngli Göygöl daşından üzlük çəkilib. Giriş qapısının solunda birinci salonun alt hissəsində gizli zirzəmisi vardır. Onun hündürlüyü 1,2 metr, eni isə 1,5 metr, uzunluğu 2 metrdir. Məbədin Yeni Zod kəndinə doğru baxan hissəsində 3 ədəd müşahidə dəliyi vardır. Məbədin özülü qaya üzərində yerləşir. Bünövrəsi çay daşındandır. Məbədin şərq tərəfində 3 ədəd pəncərəsi var. Tağbənd formalı pəncərələrin hündürlüyü 2,2 metr, eni isə 1 metrdir. Məbədin qərb hissəsində - divarda, çöl tərəfdə Alban yazıları vardır. Məbədin qərbində, təxminən 50 - 60 metr məsafədə sandıq formalı qəbirlər vardır. Üç hektara yaxın sahəsi olan bu yaşayış yerindən əldə olunan arxeoloji materiallar bu ərazidə yaşayışın IV-VII və XIII-XV əsrə aid olduğunu bildirir (2, s.30).

İlk orta əsr Alban xristian məbədlərindən biri də Göygöl rayonu ərazisində olan Qarabulaq məbədidir. Məbəd Sarısu kəndindən 8 km şimal-qərbdə Sarıqaya yaxınlığındakı meşədə yerləşir. Bir neçə otaqdan ibarət olan məbədin giriş qapısının üstündə xaç işarələri olduğu qeyd edilir. Məbədin uzunluğu 15-16 metr, hündürlüyü 7-8 metrdir.

Göygöl rayonu ərazisində tədqiqata cəlb edilməmiş və qalın meşə ərazilərində müxtəlif tip ilk orta əsrlər dövrünə aid məbədlər mövcuddur. Yerli əhalinin verdiyi məlumata görə, Kəpəz dağının yaxınlığında, Maral gölünün ətrafındakı meşəlikdə, üstündə zanbaqvari güllü xaçlar həkk edilmiş çoxlu sayda qəbirlər və digər abidələr mövcuddur. Bütün bunlar ilk orta əsrlər dövründə bu bölgədə

sıx yaşayışın olmasından xəbər verir. Arxeoloq A.M.Məmmədov Meşəli kəndi ərazisində yerləşən Xarxaput Alban xristian məbədi haqqında məlumat vermişdir. Abidənin divarları ətrafında arxeoloji qazıntılar aparmış və tapılan arxeoloji materiallar əsasında bu məbədin VII əsrdə inşa edildiyi qənaətinə gəlmişdir. Məbədin kitabəsində bərpa tarixi 1230-cu il tarixi qeyd olunmuşdur. Memarlıq quruluşuna görə məbəd Band, Azad (Yeni Zod) Qarabulaq, Gədəbəydəki Qalakənd, Ağdam rayonundakı Gavurqala, Oğuz rayonundakı Çalut məbədləri ilə eynilik təşkil edir. Tikinti xüsusiyyətlərinə görə bir neçə məbəddən ibarət olmaqla monastr tipli dini tikilidir. Tədqiqatçı apardığı arxeoloji qazıntılara əsasən abidənin tarixini VII əsrə, bərpa tarixini isə XII-XIII əsrlərə aid etmişdir (2; 3, s.7-16).

Tarixi-arxeoloji araşdırmalardan aydın olmuşdur ki, bölgənin Alban xristian abidələri olan mağara-məbədlər, monastr və kilsələrin dinin təsiri ilə formalaşmasındakı durğunluq, dini ziddiyyətlər zəminində baş vermişdir. Qafqaz Albaniyasında xristianlığın təbliği prosesinin ləng getməsinin səbəbi biri digərini əvəzləyən məzhəb qarşıdurması olmuşdur ki, buna səbəb Bizans imperiyasının diofizit təriqətinin, monofizit və nestorian təriqətlərini təqib etməsi idi (4, s.20) Maddi mədəniyyət tarixinin öyrənilməsində qəbir abidələri əsas amillərdən biri olaraq ilk orta əsrlərdə də öz əhəmiyyətini saxlamışdır. Bu cəhət Qafqaz Albaniyasının əsas hissəsini təşkil edən Gəncə-Qazax bölgəsinin ilk orta əsrlər üçün daha böyük əhəmiyyət kəsb edir. Çünki, Gəncə-Qazax bölgəsi erkən feodalizm və intibah dövründə mövcud dini etiqadların müxtəlifliyi baxımından olduqca əhəmiyyətlidir (5, s.185-188).

***Nəticə***. Maddi mədəniyyətin tərkib hissələrindən olan qəbristanlıqlarda aparılan arxeoloji qazıntılar ilk orta əsrlər Azərbaycan mənəvi mühitinin, dini adət-ənənələrinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Əsas etibarı ilə bölgənin ilk orta əsr və orta əsrlər dövrü qəbir abidələri torpaq qəbirlər olmaqla xristian və müsəlman qəbirlərindən ibarət olmuşdur. Xristian qəbirlərində bir qayda olaraq skelet arxası üstündə uzadılmış, qol sümükləri sinəsi üzərində çarpazlanmış vəziyyətdə, baş hissəsi qərb, şimal-qərb, ayaqları isə şərq, cənub-şərq tərəfə yönləndirilmiş vəziyyətdə olmuşdur.

Belə nəticəyə gəlmək olar ki, bölgənin ilk orta əsrlər Alban xristian dövrü abidələrinin yaranması Qafqaz Albaniyasında xristianlığın rəsmi dövlət dininə çevrilməsindən sonrakı dövrə təsadüf etmişdir. Araşdırmaların nəticəsi olaraq deyə bilərik ki, bütpərəstliyin dərin kök saldığı bu ərazilərdə, Alban xristian din xadimləri, məbədləri ilk bütpərəst tikililəri üzərində inşa etdirmiş, VII əsrdən həm İslam dininin təsirindən qorunmaq, həm də dini təsiri gücləndirmək məqsədi ilə Qarabağda olduğu kimi sıx meşəlik, sıldırım qayalıqlarda və dağ zirvələrində məbədlərin inşasına üstünlük vermişlər (5, s.189).

## ƏDƏBİYYAT

1. İbrahimov T.O., Şabandayeva A.D. Göygöl Dövlət Qoruğu. Bakı, “ Elm və Təhsil”, 2012, 184 s.
2. Məmmədov A.M. Qafqaz Albaniyasının xristian abidələri // Qafqaz Albaniyasının Azərbaycanın və Qafqazın tarixində yeri və rolu. Beynəlxalq elmi konfransın əsərləri. Bakı, 2012, s.___.
3. Məmmədov A.M. Qoşqarçay və Kürəkçay hövzəsinin tarixi-arxeoloji tədqiqi. Bakı, Ağrıdağ, 2000, 96 s.
4. Yusifova D.S. Gəncə-Qazax bölgəsinin orta əsr dini abidələri. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtoreferatı. Bakı, 2017, 24 s.
5. Yusifova D.S. Qazax-Ağstafa bölgəsinin antik və ilk orta əsr arxeoloji abidələri // “Naxçıvan Universiteti” Elmi Əsərlər. Naxçıvan “NUH”, 2021, №2, s.185-191.

**ДУРДАНА ЮСИФОВА**
*Сотрудник Института Археологии, Етнографии и Антропологии НАНА,*
*отдел «Археология Средневековья Азербайджана», доктор философии по истории*

## ТОПОГРАФИЯ АНТИЧНЫХ И РАННЕСРЕДНЕВЕКОВЫХ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ ГЁЙГЁЬСКОГО РАЙОНА

Статья посвящена топографии античных и раннесредневековых археологических памятников, расположенных на территории Гёйгёльского района. Результаты археологических рас-

копок доказывают, что найденные в районе Гёйгёль поселения, надгробные памятники, крепость, христианские памятники и мосты албанского периода принадлежат к тому же культурному ареалу, что и Гянджи и являются носителями богатой научной информации. Одним из жилых массивов района является «Жилой массив Сербастепе» возле села Чайлы Гёйгёльского района. Он расположен между двумя притоками Курекчая и занимает площадь около 6.8 га. В исследование были включены раннесредневековые надгробные памятники и остатки христианских храмов близ Балчили, Карамли, Зурнабада, Чайкенда которые являются христианскими памятниками албанского периода.

*Ключевые слова:* Гёйгёль, топография, археологические надгробные памятники, храм, крепость.

**DURDANA YUSIFOVA**
*Employee of ANAS Institute of Archaeology, Ethnography and Anthropology, of the Middle Ages of Azerbaijan", doctor of philosophy in history*

## TOPOGRAPHY OF ANCİENT AND EARLY MEDİEVAL ARCHAEOLGİCAL MONUMENTS OF GOYGOL REGİON

The article is devoted to the topography of the ancient and early medieval archaeological monuments located in the territory of Goygol region. The results of the archaeological excavations prove that the first medieval settlements, grave monuments, castles, Chiristian monuments and bridges of the Albanian period found in the Ganja area belong to the same cultural area as Goygol and are carriers of rich scientific information. One of the residential areas of the region is "Serbastepe residential area" near Chayli village of Goygol region. It is located between two tributaries of Kurekchay and covers an area of approximately 6.8 hectares. Early medieval grave monuments and remains of Christian temples near Balchili, Karamli, Zurnabad, Chaykend, which are Christian monuments of the Albanian period, were included in the research.

*Keywords:* Goygol, topography, archaeological, grave, monuments, temple, bridge.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Arif Məmmədov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 94(479.24)**

**NİGARXANIM QASIMOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, elmi işçi*
**nigarqasimova509@mail.ru**

**İLHAM MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, elmi işçi*
**mammadov-1965@mail.ru**

# KÜR-ARAZ BÖLGƏSİ ÜZRƏ ETNOTOPONOMİK LÜĞƏTİN HAZIRLANMASINA DAİR

*Məqalə Kür-Araz bölgəsinin keçmişinə, onun türk mənşəli tayfalarına və coğrafi adlara (toponim, etnonim, oykonim) həsr olunmuşdur. Tədqiqata əlavə olunmuş izahlı toponomik lüğət qədim dövrlərdən adı çəkilən ərazidə türk və ərəb mənşəli tayfaların olmasını bir daha təsdiqləyir. Həmçinin Kür-Araz bölgəsinə dair etnotoponomik lüğətin hazırlanmasına kompleks şəkildə yanaşılır və tədqiq edilir.*

*Acar sözlər*: Azərbaycan toponimikası, etnotoponim, topoqrafik materiallar, oykonim, Kür-Araz bölgəsi.

***

***Giriş***. Müxtəlif tarixi, linqvistik və etnogenetik problemlərin inkişafı üçün toponomik materiallar tədqiqatçılar tərəfindən getdikcə daha çox cəlb olunur. Coğrafi adlar etnogenez problemlərinin həlli üçün qiymətli mənbədir. S.B.Veselovski toponimik məlumatları arxeoloji materiallarla müqayisə etmişdir (3). V.A.Juçkeviç yazırdı ki, toponimlərin tarix elmindəki rolunu maddi mədəniyyət qalıqlarının rolu ilə müqayisə etmək olar (3). Bu coğrafi adların tarixi şərtiliyi ilə bağlıdır. Çoxqatlı toponimiya respublikanın etnik tarixi, dili və tarixi coğrafiyası məsələlərini işıqlandırmaq üçün çox qiymətli material verə bilər. Toponomiya müxtəlif tarixi dövrlərin etnik tərkibi, etnik icmaların dilləri haqqında məlumatları özündə ehtiva edir, qədim zamanlardan etnik müxtəlifliyi ilə seçilən respublikanın tarixi etnoqrafiyası üçün getdikcə daha qiymətli olur. Toponomik faktlar təkcə respublikanın müxtəlif qruplarının etnik tərkibini müəyyən etmək üçün deyil, lüğətinin qədim elementləri yalnız coğrafi adlarda əksini tapmış mühüm mənbədir (4). B.A. Serebrennikov qeyd edirdi ki, toponimlərdə indi dildən itmiş, qorunmuş formada olan sözlər ola bilər. Yerli yazılı mənbələrin son dərəcə az olması səbəbindən topoqrafik materiallar türkdilli tayfaların Azərbaycan ərazisinə nüfuz etmə vaxtını, bu tayfaların azərbaycanlıların etnogenezindəki yeri və rolu haqqında dövrün etnik tərkibini müəyyən etmək, qədim etnonim mənbələrində qeyd olunan daşıyıcıların etnik mənsubiyyətini müəyyən etmək, qədim tayfalar arasında genetik əlaqəni tapmaqdır.

Kür-Araz bölgesi respublika əhəmiyyətli Mingəçevir, Şirvan və Yevlax şəhərlərini, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Yevlax və Zərdab inzibati rayonlarını əhatə edir. İqtisadi rayon əsasən Kür-Araz ovalığında yerləşir, əlverişli İCM-ə malikdir. Ovalığın ərazisinin mərkəzi və şərq hissələri okean səviyyəsindən aşağıda yerləşir, səthi hamardır. Dəniz və çay çöküntüləri düzənliyin çox hissəsini örtür. İqtisadi rayonun ətrafında olan dağlara yaxın sahələrinin səthi meyllidir. Yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi səciyyəvidir (11).

Beləliklə, Kür-Araz etnitnotoponomik lüğətinin qismən diqqətinizə təqdim edirik.

**Abadkənd** *oyk., mür.* Salyan r-nunun Xələc i.ə.v.-də kənd. 1954-cü ilədək Cındırlı (əsli Candarlı) olmuşdur. Cənub-Şərqi Şirvan düzündədir. Oykonim *abad* və *kənd* topokomponentlərindən düzəlib, "müntəzəm və çoxlu tikintisi, yaşayış üçün hər cür şəraiti olan, məskun edilmiş, səliqəli, inkişaf etmiş, becərilmiş, düzəldilmiş yer, yaşayış məntəqəsi" deməkdir. *Abad* topokomponenti çox vaxt şəxs adlarına qoşularaq rus dilindəki *-qrad, -ovka,* yunan dilindəki *-pol,* alman dilindəki *burq* topoformantlarına uyğun gəlir və memorial toponimlərin yaranmasında iştirak edir. Bu topokomponent hind, Pakistan, fars, türk (həmçinin digər türkdilli xalqlar) toponimiyasında rast gelmək mümkündür. Candarlı toponiminə gəlincə, bu toponimə Çandır/Çandar/Candar variantlarında Türkmənistan, Öz-

bəkistan, Gürcüstan toponimiyasında təsadüf olunur. Azərbaycanın Qazax-Ağstafa bölgəsində Candargöl hidronimi və Çəndirli familiyası da qeydə alınmışdır. XIX əsrdə Azərbaycanın keçmiş Cavad qəzasında yaşayan xələclərin bir tirəsinin adı candır olmuşdur. İndiki Abadkənd kəndinin Xələc i.ə.v.-nin tərkibində olması bu toponimin etnotoponim olmasını söyləməyə əsas verir. Çandar etnonimi Səlcuq oğuzları ilə əlaqələndirilir (7).

**Ağamalılar** *oyk., sadə.* İmişli r-nunun Muradxanlı i.ə.v.-də kənd. Mil düzündədir. Etnotoponimdir. 1933-cü ildə Ağamallar kimi qeydə alınmışdır. Yaşayış məntəqəsi XIX əsrin ortalarına qədər maldarlıqla məşqul olmuş təklə tayfasının ağamalılar tirəsinə mənsub ailələr tərəfindən salınmışdır (5).

**Aşağı Loki** *oyk, mür.* Ağdaş r-nunun eyniadlı i.ə.v.-də kənd. Türyan çayının sağ sahilindən bir qədər aralı, Şirvan düzündədir. Oykonim "aşağıda yerləşən Ləki kəndi" deməkdir (4). Etnotoponimdir.

**Babaxanlı** *oyk., sadə.* Cəlilabad r-nunun Bozayran i.ə.v.-də kənd. Düzənlikdədir. Mənbələrə görə, yaşayış məntəqəsi 1905-ci ildə Məşədiəli kəndindən köçüb gəlmiş *babaxan* nəslinə mənsub ailələr tərəfindən salınmışdır. Etnotoponimdir. 1917 və 1933-cü illərdə Salyan r-nunun Kür Qarabucaq i.ə.v.- də də eyniadlı kənd qeydə alınmışdır (2).

**Beşdəli** *oyk., mür.* 1. Sabirabad r-nunun Minbaşılı (Zalqarağac) i.ə.v.-də kənd. Muğan düzündədir. Etnotoponimdir; 2. Zəngilan r-nunun Zəngilan şəhər i.ə.v.-də (keçmiş Keçikli) kənd. Dağətəyi ərazidədir. Tədqiqatçıların fikrincə, Şahsevənlərin ataxanlı qolunun *beşdəli* tirəsinin məskunlaşması nəticəsində yaranmış məntəqələrdəndir. Yerli əhalinin verdiyi məlumata görə isə, Ordubad r-nunun Tivi kəndindən gəlmiş beş dəliqanlı (igid) qardaş məskunlaşdığına görə kənd belə adlandırılmışdır. 1933-cü ildə Ağdaş r-nunun Qaradağlı i.ə.v.-də də Beşdəlli adlanan kənd qeydə alınmışdır (4).

**Bərgüşad** *oyk., sadə.* Ucar r-nunun eyniadlı i.ə.v.-də kənd. Şirvan düzündədir. 1917-ci ildə Cavanşir qəzasının Şirvanlı i.ə.v.-də, 1933-cü ildə Bərdə r-nunun eyniadlı i.ə.v.-də də Bərgüşat adlı yaşayış məntəqələri qeydə alınmışdır. Tədqiqatçılar bu oykonimi "bərgülərin kəndi" kimi izah edərək, etnotoponim hesab edirlər. Ukraynanın Vannitski vilayətində Bərşad adlı şəhər və r-nun olması faktı da məlumdur (7).

**Biləsuvar** *oyk., mür.* 1. Azərbaycanda inzibati r-n. Muğan düzünün c. hissəsində İran sərhədi boyunda yerləşir. Mərkəzi Biləsuvar şəhəridir; 2. Azərbaycanda şəhər, eyniadlı inzibati r-nun mərkəzidir. Muğan düzündə yerləşir. İlk dəfə XIII əsrə aid mənbələrdə adı çəkilir. Mənbələrin verdiyi məlumata görə, Sasani Şahı Xosrov Ənuşirəvan (531-579) Kür-Araz ovalığına 10 min *suvar* yerləşdirmişdi (8). Bu məlumat toponimin ikinci komponentinin etnonim olmasını təsdiqləyir. *Bilə* komponenti toponimiyada "çöl", "səhra", "düzən" mənalarında da işlənir. Bu baxımdan Biləsuvar toponimi etnotoponim olub, "Suvar düzü, suvarların yaşadığı düzənlik yer" deməkdir. Yaşayış məntəqəsi 1938-ci ildə rus şairi A.S.Puşkinin şərəfinə Puşkin adlandırılmışdı. 1992-ci ildən ərazinin qədim adı Biləsuvar özünə qaytarılmışdır (4).

**Birinci Udullu** *oyk., mür.* Hacıqabul r-nu-nun Udullu i.ə.v.-də kənd. Pirsaat çayının sol sahilində, Ləngəbiz silsiləsinin (Böyük Qafqaz) ətəyindədir. Əvvəlki adı Cəngan olmuşdur. Yaşayış məntəqəsinin adının şahsevənlərin *udullu* və ya xəzərlərin *edilli* tayfa adları ilə bağlı olması haqqında mülahizələr var. Hər iki halda etnotoponimdir (4).

**Böyük Kəngərli** *oyk., mür.* Kürdəmir r-nunun eyniadlı i.ə.v.-də kənd. Yuxarı Şirvan kanalının sahilində, Şirvan düzündədir. Etnotoponimdir. Birinci komponent ərazinin sahəsinin genişliyini bildirir (5).

**Burvənd** oyk., sadə. Sabirabad r-nunun Xiləmirzəli i.ə.v.-də kənd. Kürün sol sahilində, Şirvan düzündədir. XIX əsrdə xiləmirzəli tayfasının burada *Burvənd* adlı oymağı olmuşdur. Sonralar oymaq böyüyərək kəndə çevrilmişdir. 1917-ci ildə kəndin adı Buravənd kimi qeydə alınmışdır (7). Etnotoponimdir.

**Canavarlı** *oyk., düz.* Bərdə r-nunun Mehdixanlı i.ə.v.-də kənd. Qarabağ düzündədir. Kəndin ərazisi keçmişdə meşəlik olmuşdur. Güman edildiyinə görə, ərazidə çoxlu canavar olduğundan kənd bu adı almışdır. Zootoponimdir (2).

**Cəfərbəyli** *oyk., sadə.* Ağcabədi r-nunun Hacıbədəlli i.ə.v.-də kənd. Düzənlikdədir. Tam adı Tərəkəmə Cəfərbəylidir. Keçmişdə Qiyambalı (Qiyamballı, Genbollu) da adlanmışdır. Oykonim kəbirlilərin *cəfərbəyli* tirəsinin adı ilə bağlıdır. Etnotoponimdir (3).

**Cırkürd** *oyk, mür.* Göyçay r-nunun Bığır i.ə.v.-də kənd. Şirvan düzündədir. Yaşayış məntəqəsini Türkmən kəndindən köçüb gəlmiş ailələr salmışlar. Oykonim *cır* (kiçik) və *kürd* (etn.) komponentlərindən ibarət olub, "kürdlərin az hissəsi", "kiçik kürd kəndi" mənasındadır (4). Etnotoponimdir.

**Çayarxı** *oyk, sadə.* Göyçay r-nunun Qarabaqqal i.ə.v.-də kənd. Düzənlikdədir. Kənd Göyçay çayından ayrılan *Çayarxı* adlı arxın sahilində salındığı üçün belə adlandırılmışdır. Oykonim "çayın kiçik qolunun sahilində salınmış kənd" mənasındadır (5).

**Çöl Dəllək** *oyk., mür.* Sabirabad r-nunda kənd. Muğan düzündədir. Oykonim *çöl* (düzənlik) və *Dəllək* (etnotoponim) komponentlərindən düzəlib, "çöldə, düzənlikdə yerləşən Dəllək kəndi" mənasındadır. Toponimin birinci komponenti yaşayış məntəqəsini r-nun ərazisindəki Yaxa Dəllək kəndindən fərqləndirməyə xidmət edir (3).

**Çöl Ərəb** *oyk., mür.* Kürdəmir r-nunun Muradxan i.ə.v.-də kənd. Şirvan düzündədir. Oykonim *çöl* (düzənlik) və *Ərəb* (etnotoponim) komponentlərindən düzəlib, "düzənlikdə yerləşən Ərəb kəndi" mənasındadır. Toponimin tərkibindəki birinci komponent yaşayış məntəqəsini keçmişdə bu ərazidə mövcud olmuş çoxsaylı *ərəb* komponentli (Ərəb Qaradağ, Ərəb Çəltikçi, Ərəb Sarvan, Ərəb Mehdibəy və b.) kəndlərdən fərqləndirməyə xidmət edir (6).

**Dadaşbəyli** *oyk., sadə.* Sabirabad r-nunun Qara Güney i.ə.v.-də kənd. Kür çayının sahilində, düzənlikdədir. Yaşayış məntəqəsi XIX əsrdə Yuxarı Dadaşbəyli və Aşağı Dadaşbəyli adı ilə iki müstəqil hissədən ibarət olmuş, Sovet hakimiyyəti illərində birləşmişdir (1). Oykonim

**Dayıkazımlı** *oyk., sadə.* Kürdəmir r-nunun Axtaçı i.ə.v.-də kənd. Şirvan düzündədir. Yaşayış məntəqəsi keçmişdə Şirvan düzündə yaşamış *dayikazımlı* nəslinin məskunlaşması nəticəsində yaranmışdır (4). Etnotoponimdir.

**Dəliquşçu** *oyk., sadə.* Zərdab r-nunun eyniadlı i.ə.v.-də kənd. Kür çayından 3 km. aralı, Şirvan düzündədir. Kəndi quşçu tayfasının *dəliquşçu* tirəsinə mənsub ailələr saldığı üçün kənd onların adı ilə adlandırılmışdır. Hazırda kəndin məhəllələrindən biri Dəliquşçu döngəsi adlanır.(5) Etnotoponimdir .

**Eymur** *oyk, sadə.* Ağdaş r-nunun eyniadlı i.ə.v.-də kənd. Kür çayının sahilində, Şirvan düzündədir. Oykonim türkdilli *eymur* tayfasının adı ilə bağlıdır. Etnotoponimdir. *Eymurlar* və ya *emirlər/imirlər* XII əsrdə səlcuq yürüşlərində fəal iştirak etmiş, Səfəvilər dövlətinin ictimai və siyasi həyatında müəyyən rol oynamışlar (8).

**Əkinçi** *oyk, düz.* Kürdəmir r-nunun Topalhəsənli i.ə.v.-də qəsəbə. Şirvan düzündədir. Sovet hakimiyyəti illərində salınmış bu qəsəbə Azərbaycanın maarifçisi, təbiətşünas alimi H.Zərdabinin (1842-1907) nəşr etdirdiyi "Əkinçi" qəzetinin (1875-77) şərəfinə adlandırılmışdır (6).

**Əliqulular** *oyk., sadə.* İmişli r-nunun eyniadlı i.ə.v.-də kənd. Mil düzündədir. Yaşayış məntəqəsinin adı mənşəcə şahsevənlərin təklə tayfasının əliqulular nəslinin adı ilə bağlıdır (5). Etnotoponimdir.

**Əmirarx** *oyk, sadə.* Ağdaş r-nunun Güvəkənd i.ə.v.-də kənd. Kənd XIX əsrin sonlarında Əmirarx adlı arxın kənarında bir qrup ailənin məskunlaşması nəticəsində yaranmışdır. Arxın adı Şirvan düzündə yaşamış türkdilli *eymur* tayfasının adı ilə bağlıdır. Etnotoponimdir (7).

**Fərzəli** *oyk., sadə.* Cəlilabad r-nunun Astanlı i.ə.v.-d kənd. Fərzəli çayının sahilində, düzənlikdədir. Tam adı Kərbəlayı Fərzəli olmuşdur. Yerli əhalinin məlumatına görə, *Kərbəlayı Fərzəli* həmin kənddə məskunlaşmış maldar ailələrin başçısının adı olmuşdur. XIX əsrin axırlarında həmin ailələrin qışlaq yerində oturaqlaşması nəticəsində yaranmış yaşayış məntəqəsi Fərzəlinin adı ilə adlandırılmışdır. Oykonim 1917-ci ildə Fərzili variantında da qeydə alınmışdır. Kəndin adı 2003-cü ildən Fərzili kimi rəsmiləşdirilmişdir (1).

**Fətəlikənd** *oyk, mür.* Saatlı r-nunun eyniadlı i.ə.v.-də kənd. Muğan düzündədir. Yaşayış məntəqəsini XIX əsrin sonlarında çarizmin köçürmə siyasəti nəticəsində rus kəndliləri *Severskoye* (şimali) adı ilə salmışdılar. 1977-ci ildən yazıçı-dramaturq *Mirzə Fətəli Axundovun* şərəfinə Fətəlikənd adlandırılmışdır. Memorial toponimdir (4).

**Gürcüva** *oyk., mür.* Ağdaş r-nunun Məşədi i.ə.v.-də kənd. Şirvan düzündədir. Əsl adı Gürcüobadır. 1917-ci ildə Gürcüabad variantında qeydə alınmışdır. Yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Nuxa qəzasından gəlmiş ingiloy ailələrinin məskunlaşması nəticəsində yaranmışdır. Oykoniminin tərkibindəki *gürcü* etnik adı da əslində gürcü dilinin dialektində danışan ingiloylara aiddir (5).

**Hacıcavadlı** *oyk, düz.* Cəlilabad r-nunun Ağdaş i.ə.v.-də kənd. Göytəpə çayının sahilindədir. Yerli əhalinin məlumatına görə yaşayış məntəqəsini XVIII əsrdə Cənubi Azərb.-dan gəlmiş İbrahim, Hacı Cavad və İsrafil adlı üç qardaş salmışdır. Kənd əvvəllər İbrahimli, sonralar isə Hacı Cavadlı adlanmışdır. Oykonim "Hacı Cavada məxsus kənd mənasındadı (2).

**Hüşün** *oyk., sadə.* Ağdaş r-nunun Kükəl i.ə.v.-də kənd. Şirvan düzündədir. Oykonimin monqol dilinə mənsub *xuşun/xoşun* sözündən olub, "feodal malikanəsi, feodal mülkü" mənasında olması ehtimal edilir (4).

**Xanlarkənd** *oyk., mür.* Saatlı r-nunun eyniadlı i.ə.v.-də kənd. Muğan düzündədir. Yaşayış məntəqəsi Böyük Vətən müharibəsindən sonrakı illərdə salınmışdır. İnqilabçı Xanlar Səfərəliyevin (1885-1907) adı ilə adlandırılmışdır (1). Memorial toponimdir.

**Xırdapay** *oyk, sadə.* Kürdəmir r-nunun eyniadlı i.ə.v.-də kənd. Şirvan düzündədir. XIX əsrin ortalarında Muğan düzünün şm.-ında yaşayan şahsevənlərin tərkibində xəlfəli, muğanlı tayfaları ilə yanaşı *xırdapay* adlanan tayfanın da adı çəkilir. Kəndin həmin tayfaya məxsus ailələr tərəfindən salındığı ehtimal edilir. Etnonim *xırda* (kiçik) və *pay* (hissə) komponentlərinin birləşməsi kimi "kiçik hissə" mənasındadır (7).

**İmambağı** *oyk., sadə.* Cəbrayıl r-nunun Cəbrayıl qəsəbə i.ə.v.-də kənd. Qarabağ silsiləsinin ətəyindədir. İmanbağı şəklində də işlənir. Yaşayış məntəqəsini keçmiş Mirzəcanlı kəndindən köçmüş ailələr İmamqulubəy adlı şəxsə məxsus İmambağı adlanan ərazidə saldıqları üçün belə adlandırılmışdır (2).

**İnilli** *oyk., sadə.* Cəlilabad r-nunun şiləvəngə i.ə.v.-də kənd.Ovalıqdadır. Əsli İnallıdır. XII-XIII əsrlərdə oğuz tayfalarından biri kimi adı çəkilən inallılar Səlcuq hökmdarı İbrahim İnalın (XII əsr) nəsli hesab edilir. Orta əsrlərdə Cənubi Azərb. ərazisində yaşayan inallılar XVII əsrdə Şahsevənlərin dəmirçili qolunun tərkibinə daxil olmuşlar. XIX əsrdə Lənkəran qəzasında 12 ailədən ibarət bir el olan inallılar, görünür, bu yaşayış məntəqəsində məskunlaşmışlar. Mənbələrə görə, Ağa Məhəmməd Şah Qacarın Qarabağa hücumu zamanı Qarabağ elatlarının bir qismi, o cümlədən kolanılar köçüb Naxçıvanda, Şirvanda və b. yerlərdə məskunlaşmışlar (10).

***Nəticə.*** Toponimlər digər dil vahidlərindən fərqli olaraq ictimai-siyasi xarakter daşıyır. Belə ki, hər hansı bir yazılı mənbənin deyə bilmədiyi məlumatları, məhz coğrafi adların köməyi ilə müəyyənləşdirmək mümkündür. Toponimika respublikamızın etnik tarixini, dilini və tarixi coğrafiyasını işıqlandırmaq üçün bu istiqamətdə maraqlı məlumatların əldə edilməsində mühüm rol oynayır. Toponimiya müxtəlif tarixi dövrlərin etnik tərkibi, etnik icmaların dilləri haqqında məlumatlarla zəngindir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi I-IV cildlər. Bakı: Elm, 2007, 504 s.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cilddə, I cild. Bakı: Şərq-Qərb, 2007, 304 s.
3. Məmmədov N.G. Toponimika (dərslik). Bakı: Bakı Universitetinin nəşriyyatı, 2007, 408 s.
4. Qeybullayev Q.A. Azərbaycan toponomiyası. Bakı: Elm,1986, 192 s.
5. Yusifov Y.V., Kərimov S.K. Toponomikanın əsasları. Bakı: Maarif, 1987, 542 s.
6. Алиев Ф.М. Азербайджан в конце XVIII в. // В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с.129-139.
7. Историческая география Азербайджана. Баку: Элм, 1987, 148 с.
8. Пириев В.З. Об исторической географии Азербайджана XIII - нач. XV вв. // В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с.98-109.
9. Рахмани А.А. Азербайджан: границы и административные деления в конце XVI-XVII в. // В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с.120-128.
10. Эфендиев О.А. Территория и границы Азербайджанских государств XV-XVIвв. // В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с.110-119.
11. https://az.wikipedia.org/wiki/K%C3%BCr-Araz_oval%C4%B1% C4%9 F% C4 %B1.

**НИГЯРХАНЫМ ГАСЫМОВА**
*Бакинский Государственный Университет,*
*Исторический факультет, научный сотрудник*

**ИЛЬХАМ МАММЕДОВ**
*Бакинский Государственный Университет,*
*Исторический факультет, научный сотрудник*

## О СОСТАВЛЕНИИ ЭТНОТОПОНОМИЧЕСКОГО СЛОВАРЯ КУРА-АРАЗСКОГО РЕГИОНА

Статья посвящена прошлому Кура-Аразского региона, его тюркским племенам и географическим названиям (топоним, этноним, ойконим). Толковый топономический словарь, приложенный к исследованию, еще раз подтверждает присутствие на указанной территории с древнейших времен племен тюркского и арабского происхождения. Также комплексно подходит и изучается подготовка этнотопономического словаря Кура-Аразского региона.

*Ключевые слова:* топономия Азербайджана, этнотопоним, топографические материалы, ойконимы, Кура-Аразский регион.

**NIGARKHANIM GASIMOVA**
*Baku State University, History faculty, researcher*

**ILHAM MAMMADOV**
*Baku State University, History faculty, researcher*

## ON THE COMPILATION OF THE ETHNOTOPONOMIC DICTIONARY KURA-ARAZ REGION

The article is devoted to the past of the Kura-Araz region, its Turkic tribes and geographical names (toponym, ethnonym, oikonym). The explanatory toponomic dictionary attached to the study once again confirms the presence of tribes of Turkic and Arab origin in the indicated territory since ancient times. The preparation of the ethnotoponomic dictionary of the Kura-Araz region is also comprehensively approached and studied.

*Keywords*: Toponomy of Azerbaijan, ethnotoponym, topographic materials, oikonyms, Kur-Araz region.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılzadə, t.e.d. Qabil Əliyev.*

**UOT 902**

**VÜSALƏ BƏBİROVA**
*"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu,*
*Aparıcı elmi işçi*
**vusale.bebirova@bk.ru**

# ŞABRAN RAYONUNDA ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA

*Məqalədə Şabran rayonunda son illərdə aparılan arxeoloji qazıntılardan bəhs edilir. Şabran şəhər ərazisində orta əsr qəsrinin tədqiqatları, şəhərin ətrafında yerləşən Çaqqallıqtəpə I, II, III arxeoloji abidələrdə əldə olunan maddi-mədəniyyət nümunələrindən və qazma evlərdən söhbət açılır. Tədqiqatlar bu abidələrin e.ə.IV minilliyin 2-ci yarısını -III minilliyin əvvəllərini əhatə etdiyini göstərir. Məqalədə "Şabran arxeoloji ekspedisiyası"nın hesabatlarına istinadlar edilmiş və təhlillər aparılmışdır.*

*Açar sözlər*: Şabran, Çaqqallıqtəpə, Almastəpə, arxeologiya, tədqiqatlar.

***Giriş***. Ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə maddi-mədəni irsimizin qorunması,tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsinə çatmışdır. Heydər Əliyevin elmə olan qayğısı elmi araşdırmalara, tarix, mədəniyyət, arxeoloji və etnoqrafik tədqiqatların aparılması üçün geniş imkanlar yaratdı [1]. Bu qəbildən onun 2003-çü ildə "Şabran" [2] və sonradan 2019-cu ildə prezident İham Əliyev tərəfindən "Çıraqqala" qoruqlarının yaradılmasını nəzərdə tutan sərəncamların imzalaması şabranlılara rayonun qədim tarixi abidələrini qorumaq üçün bir fürsət yaratdı. Atasının yolunu davam etdirən prezident İlham Əliyev cənabları da azərbaycan xalqının zəngin maddi-mədəni irsinin üzə çıxarılması, dərindən və hərtərəfli öyrənilməsi üçün arxeologiya və etnoqrafiya sahəsində araşdırmaların müstəsna əhəmiyyətini qeyd edərək bir çox sərəncamlar imzalamışdır [3]. Bu sərəncamlar Azərbaycanın bir çox bölgələrinə,həmçinin Şabran rayonuna da şamil edilmişdir.

Azərbaycanın qədim şəhər mədəniyyətini özündə əks etdirən şəhərlərdən biri də Şabran şəhəridir. Şabran şəhərinin arxeoloji maddi-mədəni irsinin tədqiqi azərbaycanlıların milli mənəvi dəyərlərinin öyrənilməsi baxımından aktuallıq kəsb edir. Aydındır ki, 1980-ci illərdə orta əsr Şabran şəhəri ərazisinin müxtəlif sahələrində arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntı işləri zamanı əldə olunmuş ən böyük nailiyyət orta əsr qəsrinin aşkar edilərək üzə çıxarılması olmuş, lakin müəyyən səbəblərdən bu qəsrin tam tədqiqata cəlb olunması yarımçıq qalmışdı.

Uzun müddətdən sonra 2012-ci ildən başlayaraq orta əsr Şabran şəhərində yenidən arxeoloji tədqiqatlara başlanılmış və ötən əsrin 80-ci illərinin tədqiqatları zamanı qəsrin qazıntıları gedişində çıxarılmış torpağın qəsrin ətrafında qalaq şəklində yığılıb qalması səbəbindən 2012-ci ildə qəsrin qazıntısını davam etdirmək mümkün olmamışdır və qazıntı sahələri qəsrə yaxın olan ərazidə salınmışdır. Lakin 2013-cü ildə qəsrin cənub-qərb hissəsində yığılmış torpağın təmizlənməsi burada arxeoloji tədqiqatların davam etməsinə imkan yaratdı. 2013-cü ildə orta əsr Şabran şəhər yerinin ərazisində arxeoloji qazıntı işləri davam etdirilmişdir. 2012-ci ildə orta əsr Şabran şəhər dövlət qoruğunun ərazisində salınmış arxeoloji qazıntı sahəsini genişləndirmək məqsədi ilə bu sahənin qərb və şərq hissələrində iki yeni qazıntı sahəsi salındı. Sahələrin hər biri 20 x 5 m (100 kv.m) idi. Kvadratın cənub divarı tərəfdə yer səthindən 70 sm dərinlikdə iri və orta həcmli çay daşlarından hörülmüş divar üzə çıxdı. Sahənin kvadratı cənub divarı boyunca şərqdən qərbə doğru 5 m uzanır. Divarın şərq tərəfində yer səthindən 55 sm dərinlikdə kənarları bişmiş kərpiclərlə və uzunsov formalı çay daşları ilə hörülmüş bir qurğu aşkar olunmuşdu. Ehtimal ki, bu kürə yeri olmuşdur. Onun içərisi təmizləndikdən sonra ölçüləri götürülmüşdü. Ocağın şimal hissəsində ellips formalı, kənarları bişmiş kərpicdən və çay daşlarından hörülmüş təndir yerləşirdi. Təndirin diametri - 50 x 80 sm-dir. Təndirin şərq tərəfindən döşəmə aşkar olunmuşdu. Döşəmənin uzunluğu 120 sm, eni 75 sm-dir. Təndirdən cənub-şərqdə kvadratın cənub küncü tərəfdə ocaq yeri üzə çıxmışdı. Ocaq dördkünc formalı olub ölçüsü 40 x 50 sm-dir, dərinliyi 20 sm-dir. Ətrafı çay daşlarından hörülmüşdür. Kvadratın cənub-şərq hissəsindəki quyunun ətrafı bir daha təmizləndikdən sonra quyunun şərq hissəsindən kvadratın qərbinə doğru daha bir divar aşkarlanmışdı. Divarın uzunluğu 2,2 m-dir. Divar bişmiş kərpiclərdən ibarət olmuşdur. Qərbə doğru

gedən divar cənuba doğru dönərək bir saylı təndirin döşəməsi ilə birləşir. Dönüb birləşən hissənin uzunluğu 50 sm-dir. Təndirin döşəməsinin şərq hissəsindən dəmir ərintiləri və külçə, yaşımtıl-sarı rəngli maddənin ərintiləri və kömür aşkar olunmuşdu. 2013- cü ilin hesabatından aydın olur ki, l-ci kvadratın sahəsi yer səviyyəsindən 1,2 m dərinliyə endirildikdən sonra kvadratı iki hissəyə bölən və daha sonra keçən ilin qazıntı sahəsi arasında yerləşən 1 m-lik ayırıcı sədlər götürülmüş və bu kvadratın ərazisində arxeoloji qazıntı işləri başa çatmış hesab edilmişdi. Bundan sonra keçən ilin qazıntı sahəsinin şərqində yerləşən 2-ci kvadratın qazıntılarına başlanılmışdı. Burada da eyni ölçülərdə ayırıca divarlar saxlanılmışdı. Qazıntıların gedişində 10-20 sm dərinlikdən tikinti materiallarının (çay daşı, bişmiş kərpic, kaşı) hissələri, saxsı qab qırıqları və dəmir külçələri üzə çıxmağa başlamışdı. Sonrakı qazıntılar bu kvadratda tikili qalıqlarının fundamentlərinin, təndir və ocaq yerlərinin, bişmiş yastı kərpiclərdən və qismən də çay daşlarından döşənmiş döşəmələrin, həmçinin su təchizatı sisteminin elementi olan saxsı tünglərin aşkar edilməsinə gətirib çıxartmışdı. Qazıntılar gedişində bir-birinə birləşdirilmiş 8 tüng üzə çıxması təsvir edilmişdir. 1-ci və 8-ci tünglər sınmış vəziyyətdə göstərilir. Digərləri qismən dağıdılmış və tamamilə salamat qalanları da görmək mümkündür. Tünglərin bir ucu geniş, digər ucları isə daralmış vəziyyətdədir. Tünglərin belə vəziyyətdə olması onların bir-birlərinin içinə geyindirilməsi üçün nəzərdə tutulmuşdur. Rəngləri çəhrayıdır. Tünglərin dar uclarının diametrləri 10 sm-dir. Bu tüngləri yerlərindən tərpətməmək qərara alınmışdı. Buna görə də arxeoloqlar onların geniş hissələrinin diametrlərini götürməkdə çətinliklə üzləşmişdilər. Onların təxmini diametrləri 15 sm-ə çatırdı. Uzunluqları 50 sm-dir. Tünglər şərqdən qərbə doğru yarımdairəvi şəkildə, cənubunda yerləşən ocaq yerini dövrələyərək 3,1 m məsafədə uzanmışdı. Hesabatda göstərilir ki, 2-ci kvadratın ərazisi də yer səviyyəsindən 1,2 m dərinlikdə qazıldıqdan sonra ayırıcı sədlər aradan götürülərək keçən ilin və bu ilin qazıntı sahələri (1 və 2 saylı) birləşdirilmiş və bununla da qazıntıların ümumi mənzərəsi yaranmışdı. Hesabatdan aydın olur ki, birinci kvadratda üzə çıxmış döşəmə 1 saylı sahədəki döşəmənin ardıdır. Birinci kvadratın cənub hissəsindəki üç otaq isə bir saylı sahədə üzə çıxmış otaqların bir növ davamıdır.

Qeyd edək ki, 2013-cü ildə orta əsr Şabran şəhər yerində arxeoloji yoxlama qazıntılarının aparılması haqqında hesabat məlumatları da vardır. Bu qazıntılar "Azərbərpalayihə" təşkilatı ilə bağlanmış müqavilə əsasında qoruğun gələcək inzibati binasının tikilməsi üçün nəzərdə tutulmuş ərazidə iki mərhələdə aparılmışdır. Birinci mərhələdə 400 kv.m-lik bir sahə qazılaraq tədqiq edilmişdi. Torpağın səviyyəsi 1,3-2,8 m dərinliyədək qazılmış və bu zaman iki tikinti horizontu üzə çıxarılmışdır. Birinci tikinti horizontuna daxil olan mədəni təbəqələr XVI-XVII, ikinci horizontun təbəqələri isə e.ə. XIV-XV əsrlərə aid edilir. Bu horizontların arasında 30 sm-lik çınqıllı lal təbəqə yerləşirdi. Bu təbəqələrdən müxtəlif təyinatlı tikili qalıqları, ocaq yerləri və təndirlər, külli miqdarda maddi-mədəniyyət nümunələri üzə çıxarılmışdır. Burada aşkar edilmiş maraqlı tikili qalığı kimi böyük bir hasarın salamat qalmış fundamentini göstərmək olar. Arxeoloji hesabatlardan aydın olur ki, qazıntı sahəsinin qərb hissəsində yer səviyyəsindən 60 sm dərinlikdən cənub-qərb istiqamətində iki cərgəni təşkil edən bişmiş kərpiclərlə yanaşı, şərqə doğru uzanan enlibir daş divar aşkar edilmişdir. Bu divar 1,8 m enində olub, cənub-qərb - şimal-şərq istiqamətində 6,6 m məsafədə uzanaraq, əvvəllər aşkar edilmiş enli hasar divarına paralel surətdə gedirdi. Daş divar pərakəndə surətdə yerləşdirilmiş müxtəlif ölçülü çay daşlarından ibarətdir. Şərq hissəsi sıra ilə düzülmüşdür. Bu sahənin ərazisi 144 kv.m təşkil edir. Bu sahə 1-1,1 m dərinliyinədək qazılmışdı. Burada da maddi-mədəniyyət nümunələri ilə yanaşı müxtəlif daş düzümləri, ocaq və dirək yerləri, həmçinin də 1-ci sahədə aşkar edilmiş böyük divarın ardı üzə çıxmışdı. Divar kvadratın cənub-qərb hissəsindən başlayaraq şimal-şərqə doğru uzanır. Divarın qərb hissəsi 8,6, şərq hissəsi isə 7,15 m-dən şərq tərəfə dönür. Bundan sonra o, yenidən şimal-şərqə doğru gedir və sahənin divarları içəriyə tərəf uzanmış şəkildə təsvir edilərək hesabatlarda öz əksinin tapmışdır [4,s.288]. Qazıntı sahəsinin bütün dərinliklərindən üzə çıxan artefaktlar əsasən saxsı məmulatlardan, metal alətlərdən, şüşə qırıqlarından, bəzək əşyalarından, mis sikkələrdən, osteoloji qalıqlardan və s. ibarət idilər. Saxsı məmulatlar tədqiqatlar gedişində aşkar edilmiş arxeoloji materiallar içərisində üstünlük təşkil edir. Bunlar əsasən müxtəlif formalı və təyinatlı sadə və şirli saxsı qablardan, çıraqlardan ibarət idi. Qeyd edək ki, saxsıməmulatlar çox zaman yalnız fraqmentlər şəklində aşkar edilmişdi. Lakin bununla yanaşı, bu məmulatları bəzən qismən də olsa, bərpa etmək mümkün olmuşdu. Saxsı qabların böyük əksəriyyətinin gili çəhrayı rəngdədir, lakin açıq və tünd çəhrayı çalarlara da

təsadüf olunur. Amma aşkar edilmiş qablar içərisində qırmızı, qəhvəyi, narıncı, qonur, qara, boz, sarımtıl-çəhrayı, ağımtılrənglilər və bu rənglərin müxtəlif çalarları da mövcud idi. Bəzən çölü açıq boz, içərisi qırmızı və ya çölü çəhrayı, içərisi qırmızı rəngdə olan vaza tipli qablara da təsadüf olunur. Çox vaxt onların səthlərinə ağımtıl, qəhvəyi, qonur, sarımtıl, bozumtul-qonur, boz və noxudu rəngdə anqob çəkilirdi. Tapıntılar içərisində həm qalın divarlı, həm də nazik divarlı qablara rast gəlinir. Bir çox fraqmentlərin formalarına müvafiq olaraq qabların quruluşunu təsəvvür etməyə imkan yaranmışdır.

Qeyd edildiyi kimi, yoxlama qazıntılarının gedişində iki tikinti horizontu qazılaraq tədqiq edilmişdir. Qazıntılar zamanı əldə edilmiş saxsı qab nümunələrinin təhlili göstərdi ki, 2-ci tikinti horizontunun mədəni təbəqələrindən aşkar olunmuş saxsı qab fraqmentləri bəzi xüsusiyyətlərinə, şirlənmə üsullarına və ornamentlərinə görə 1-ci tikinti horizontundan tapılmış fraqmentlərdən fərqlənir. Bu, onların ayrı-ayrı tarixi dövrlərə aid olmaları ilə əlaqədardır. Belə ki, 1-ci horizontun təbəqələri XVI-XVII əsrlərə aid olduğu halda, 2-ci horizontun təbəqələri artıq XIV- XV əsrləri əhatə edirdi. Bu təbəqələrdən müxtəlif təyinatlı tikili qalıqları, ocaq yerləri və təndirlər, küllü miqdarda maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır [4, s.289].

Daha sonra AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Şabran arxeoloji ekspedisiyası" 2016-cı ildə Şabran rayonunun Aygünlü kəndi ərazisində yerləşən Çaqqallıqtəpə abidələrində arxeoloji qazıntı işləri aparılmış və arxeoloji hesabatlarda öz əksini tapmışdır.

Onu qeyd edək ki, I Çaqqallıqtəpə Aygünlü kəndi ərazisində, Şabran-Quba magistral yolunun solunda yerləşir. Dəniz səviyyəsindən 101 metr yüksəklikdədir. Samur-Dəvəçi su kanalı çəkilərkən abidəni kəsmiş və abidənin bu hissəsi güclü dağıntıya məruz qalmışdır. II Çaqqallıqtəpəisə birincidən təqribən 200 metr kəndə tərəf istiqamətində yerləşir. Dəniz səviyyəsindən 99 m. yüksəklikdədir. Bir tərəfi əkin sahələrinə gedən yolun salınması ilə əlaqədar olaraq dağıdılmış və burada 3-4 metrliyində yarğan əmələ gəlmişdir. Lakin bu hissədə heç bir arxeoloji materiala rast gəlinmir. Materiallar əsasən abidənin ovalvari hissəsinin cənub tərəfindən tapılmışdır. III Çaqqallıqtəpə ilk iki abidədən kəndə tərəf təqribən 200 metr məsafədə, əkin sahəsinin ortasında hündür bir təpədir. Yerli əhali bu təpəni İlanlıtəpə adlandırır. Dəniz səviyyəsindən 94 metr yüksəklikdə yerləşir.Arxeoloji qazıntılar hər üç abidədə aparılmış vəilkin tədqiqatlar hər üç təpənin İlk tunc dövrünə aid olduğunu və Kür-Araz mədəniyyətinin digər abidələrindən fərqli xüsusiyyətlərini müəyyən etməyə imkan vermişdi.

Hesabatlardan aydın olur ki, I Çaqqallıqtəpənin su kanalının hər iki tərəfində qalan hissəsində qazıntılar aparılmış vəkanalın solunda 2x2 m ölçülü sahədə qazıntılar zamanı üst təbəqənin qismən dağıdıldığı müəyyən edilmişdi. Qazıntı sahəsinin üst təbəqəsində qalın kül təbəqəli ocağın daxilində iri həcmli təsərrüfat küpünün sınıqları, nisbətən aşağı təbəqədə dairəvi qazma tipli evin qalıqları təmizlənmişdi. Evin döşəməsi və kənarları gillə suvanmışdır. Evin daxilində küllü torpağa, az miqdarda saxsı parçalarına rast gəlinir. Əsas materiallar qazma evin döşəməsi üzərindən əldə olunmuşdu. Onlar daş əmək alətlərindən, üzəri yapma naxışlı kiçik həcmli saxsı qabın hissəsindən, dopudan, gildən hazırlanmış və bişirilməmiş iki ədəd araba təkəri modelindən ibarət olmuşdur.

Kanalın sağında isə qazıntılar üçün 5x2,5 m sahə götürüldü. Qazıntı sahəsinin üst təbəqələrində dağılmış formada möhrə, gil, kərpic qalıqları və saxsı hissələri əldə olunmuşdur. Tədqiqatlar abidənin bu hissəsində 4 memarlıq xüsusiyyəti izləməyə imkan vermişdi. Qeyd edək ki, bu günədək Azərbaycanın ilk tunc dövrünə aid heç bir yaşayış yerində bu qədər fərqli tikinti xüsusiyyətləri izlənilməmişdir [5, s.129].

Hesabatlardan aydın olur ki, I Çaqqallıqtəpə abidəsinin ən alt təbəqəsi üçün dairəvi - günbəzvari qazma evlər xarakterik olmuşdur. Bu evlərin hamısının divarları və döşəməsi suvanmışdır. Bəzi qazma evlərin döşəməyə yaxın hissəsində divar boyu bir neçə yerdə dairəvi kiçik oyuqlar vardır. Güman edirik ki, bunlar təsadüfi deyildir. Qazma evlər geniş diametrli olmaları ilə dövrün təsərrüfat quyularından, o cümlədən I Çaqqallıqtəpə abidəsində də təmizlənmiş quyulardan fərqlənirlər. Quyuların ağzı dar olur və adətən onların daxilindən qarışıq materiallar əldə olunur. Evlərin isə daxilində sərbəst hərəkət etmək mümkündür və arxeoloji materiallara döşəmə üzərində də rast gəlinir[5,s.130].

Tədqiqatlar göstərir ki, Çaqqallıqtəpə abidələri e.ə. IV minilliyin ikinci yarısı – III minilliyin əvvəlinə aiddir və Azərbaycanın şimal-şərq bölgələri və Dağıstan ərazisindəki həmdövr abidələr

arasında xüsusi yer tutur. İlkin nəticələr abidələrdə növbəti qazıntı mövsümündə tədqiqatların davam etdirilməsi zərurətini ortaya qoymuşdur [5, s.133].

Digər arxeoloji hesabatlarda göstərilir ki, 2015-ci ildən başlayaraq vaxtilə orta əsr Şabran şəhər yerinin ərazisində aşkar edilən qəsrin torpaq altında qalan hissəsinin təmizlənməsinə başlanılmışdı. Bu arxeoloji qazıntıların gedişində 100 kv.m-lik sahə 4 m dərinlikdə qazırlaraq tədqiq olunmuşdur. Qazıntılar zamanı qəsrin bürcü cənub-şərqdən cənub-qərb istiqaməti boyunca 8,5 m uzunluğunda açılmışdır. Qeyd edək ki, bürcün açılmış hissəsi qəsrin ötən illərdə açılmış hissələrindən struktur cəhətdən fərqlənmir və iki hissəyə bölünür. Bürcün aşağı hissəsi təqribən 11 cərgədə mişar daşından (20x40 sm), üst hissəsi isə çay daşı və bişmiş kərpicdən hörülmüş vəüst hissə aşağı hissədən bir qədər ensiz olduğuna görə, burada bütün qəsr boyu olduğu kimi, özünəməxsus yarus əmələ gəlmişdir. Qazıntı zamanı müxtəlif səviyyələrdən dörd təbəqə yanğın izləri aşkar edilmiş vəbunlar təqribən 60-80 sm, 1,5 m, 2 m və 3 m dərinliklərdən üzə çıxarılmışdır. Bu da şəhərin dəfələrlə hücuma məruz qalaraq yandırılmasını sübut edir.Qəsrin tikinti üslubunun müxtəlifliyi məhz bununla əlaqədardır [6, s.292].

Yer səviyyəsindən 3 m dərinlikdən başlayaraq qazıntı sahəsinin dibinədək 1 m hündürlüyü olan yanıq torpaq təbəqəsi üzə çıxmışdı. Bu təbəqə burada vaxtı ilə güclü yanğın olduğunu göstərir. Yanıq təbəqəsində XIII-XIV əsrlərə aid aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin olması yanğının monqol hücumları zamanı baş verdiyini ehtimal etməyə əsas verir. Gələcək tədqiqatlar bu barədə daha dəqiq fikir yürütməyə imkan verəcək.

Qazıntılar gedişində əldə edilmiş saxsı qablar içərisində xeyrə və boşqab tipli qab fraqmentləri üstünlük təşkil edir. Aşkar edilmiş gil məmulatlar arasında saxsı qablardan başqa çıraqları, butələri, su tünglərini, kaşıları və həvəngdəstəni də qeyd etmək olar. Saxsı məmulatlar çox zaman təmiz və yaxşı yoğrulmuş, bəzən tərkibində qum və çınqıl qarışığı olan gildən olduqca keyfiyyətli, nadir hallarda isə kobud və keyfiyyətsiz hazırlanmışlar. Görünür, bu onların təyinatı ilə əlaqədar olmuşdur. Az miqdarda olsa da, qazıntılar zamanı ağ gilli fayans və bozumtul gilli sladon qablara da rast gəlinmişdir [6, s.291].

Şabran şəhəri və onun ətrafında gedən arxeoloji tədqiqatlar 2017-ci ildə də davam etmişdir. Çaqqallıqtəpə və Almastəpə abidələrinin tədqiqatları zamanı dairəvi və yarımdairəvi tikililər aşkarlanmış, düzbucaqlı manqal,təsərrüfat quyuları,dairəvi ocaq yerləri müəyyən edilmişdir. Çoxlu sayda sümük və saxsı üzə çıxarılmışdır.Aşkarlanmış keramika məmulatı içərisində klassik Kür-Araz mədəniyyəti nümunələri ilə yanaşı, Azərbaycanın şimal-şərq bölgələri və Dağıstan ərazisi üçün xarakterik olanları da var. Bu abidədə aşkara çıxarılan keramika məmulatlarının bəzi nümunələrinin daha arxaik-xalkolit (eneolit) dövrünə aid olduğu ehtimal edilir. Çaqqallıqtəpə abidələrinin daş, sümük, saxsı məmulatı Qafqazın şimal-şərq bölgəsinin ilk tunc dövrü abidələri üçün xarakterikdir. Bu tip materialların oxşarlarına Xaçmaz rayonu ərazisindəki Sərkərtəpə, Dağıstan ərazisindəki Vəlikənd, Kabaz Kutan və s. abidələrdən rast gəlinir. İlk nəticəyə əsasən abidəni e. ə.IV minilliyin sonları və III minilliyin əvvəllərinə aid etmək olar. Ekspedisiyanın ikinci tədqiqat obyekti Gəndov kəndi ərazisində, dəniz səviyyəsindən 115 metr yüksəklikdə yerləşən Almastəpə abidəsi olub. Abidənin əkin sahəsinə tərəf olan hissəsi təsərrüfat işləri ilə əlaqədar dağıdılıb və divar qalıqlarının arasında güclü yanmış qatın göründüyü yarğan əmələ gəlib. Bu hissədə qazıntı sahəsində iki tikinti qatının olduğu müəyyənləşdirilib. Birinci təbəqə güclü dağıntıya məruz qalıb, az sayda arxeoloji materiallar isə qarışıq şəkildədir. İkinci təbəqədə çoxlu sayda sapand daşları, içərisində müxtəlif həcmli və formalı saxsı məmulat olan evin qalıqları aşkarlanıb. Müşahidə göstərir ki, abidənin bu hissəsi güclü hücumdan sonra yanıb və sakinlər heç bir əşya götürmədən evi tərk ediblər.Bu evin içərisindəki saxsı məmulatları tərkibinə və formalarına görə bir-birindən fərqlənir. Onların heç birində dulus çarxının izləri müşahidə edilməyib. İri təsərrüfat küplərinin formaları diqqətçəkicidir. Darağızlı, xarici səthindən kəmərşəkilli yapma ilə əhatələnmiş, günbəz (umbon) formalı sonluqlara malik konusvari oturacaqlı küplərə Azərbaycan ərazisindəki abidələr arasında rast gəlinməyib. Ağzı novçalı kuzə və parçtipli qabların bənzərlərinə isə Ağsu rayonundakı Nüydi materialları içərisində rast gəlinir. Toplanmış yerüstü materialların ilkin təhlili və qazıntı materiallarına əsaslanmaqla Almastəpə abidəsini antik dövrə (təqribən e. ə. VI-IV əsrlərə) aid etmək olar [7].



*Şabranın qəsr divarları*



*Şabranda arxeoloji qazıntılar zamanı aşkar edilən təndirxanalar*




*Çaqqalıqtəpədəki qazıntılardan*




*Çaqqalıqtəpədən tapılan maddi--mədəniyyət nümünələri*

***Nəticə***. Beləliklə, Şabran şəhərinin arxeoloji maddi-mədəni irsinin öyrənilməsi və tədqiqatlara cəlb edilməsi yeni arxeoloji tapıntıların meydana gəlməsinə şərait yaratmışdır. Eyni zamanda həmin arxeoloji materialların tədqiqi gələcəkdə Şabran şəhərinin maddi irsinin formalaşmasına öz müsbət töhfəsini verəcəkdir.

## ƏDƏBİYYAT

1. Museyibli N., Azərbaycan arxeologiya elminin inkişafı və prioritet istiqamətləri. - https://www.azerbaijan-news.az/view-35812/azerbaycan-arxeologiya-elminin-inkisafi-ve-prioritet-istiqametleri [27.09.2022].
2. “Şabran şəhəri” tarix və mədəniyyət abidəsinin qorunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://e-qanun.az/framework/2315 [27.09.2022].
3. “Çıraqqala” abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/az/articles/view/32365 [27.09.2022].
4. Qoşqarlı Q.O., ƏsədovV.A., Ağamalıyeva S.M., Babayev T.D. və s. 2013-2014-cü illərdə Şabran şəhər yerində aparılmış arxeoloji qazıntılar, s.287-292 //Azərbaycanda arxeoloji tədiqatlar 2013-2014. Bakı, “Xəzər Universiteti”, 2015, 419 s.
5. Aşurov S.H., Hüseynova S.A., Əliyeva F.A., Babayeva T.V., Nəhmətova İ.A., N.V. Məmmədova, Abdullayeva A.Q. Şabran arxeoloji ekpedisiyasının 2016-cı il tədqiqatları // Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016-cı illər. Bakı, AFPoliqrAF, 2017, s.129-134.

6. Xəlilov M.C., Cəfərova E.B. Quba, Şabran və Xaçmaz rayonlarında tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016-cı illər. Bakı, AFPoliqrAF, 2017, s.291-297.
7. Şabran ərazisindəki ilk tunc və antik dövr abidələrində arxeoloji tədqiqatlar. - https://azertag.az/xeber/Sabran_erazisindeki_ilk_tunc_ve_antik_dovr_abidelerinde_arxeoloji_tedqiqatlar_aparilib-1110530 [27.09.2022].

**ВЮСАЛА БАБИРОВА**
*Государственный историко-культурный заповедник «Чираггала-Шабран», ведущий научный сотрудник*

## ОБ АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ ШАБРАНСКОГО РАЙОНА

В статье рассматриваются археологические раскопки, проведенные в Шабранском районе в последние годы. Обсуждаются исследования средневековых крепостных стен городища Шабран и прилегающие к нему археологические памятники ЧакгаллыгтепеI,II,III выявлена материальная культура и отмечены типы жилищных домов. Научные исследования показали, что эти археологические памятники относятся к 2-ой половине IV тысячелетия до н.э.- начало III тысячелетия до н.э. В статье рассматриваются и анализируются отчеты Шабранской археологической экспедиции.

*Ключевые слова*: Шабран, Чакгаллыгтепе,Алмастепе,археология, исследования.

**VUSALA BABİROVA**
*"Chiraggala-Shabran" State Historical-Cultural Reserve, Leading researcher*

## ABOUTARCHAEOLOGICAL RESEARCHES OF SHABRAN REGION

The article discusses the archaeological excavations carried out in the Shabran region in recent years. The study of the medieval fortified walls of the ancient settlement of Shabran and the adjacent archaeological sites of Chakgallygtepe I, II, III are discussed.The article discusses and analyzes the reports of the Shabran archaeological expedition.

*Key words*: Shabran, Chakgallygtepe, Almastepe, archeology, research.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 sentyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d.İlhamə Sadıqova, t.e.d. Qüdrət İsmayılov.*

UOT 94(479.24); 902

**İLHAMƏ SADIQOVA**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu*

**GÜNEL PİRQULİYEVA**
*"Çıraqqala-Şabran"Dövlət Tarix-Mədəniyyət Qoruğu*
**gunel.pirquliyeva@bk.ru**

# AZƏRBAYCAN ARXEOLOGİYA ELMİNİN TƏŞƏKKÜLÜ TARİXİ MATERİALLARDA (XIX ƏSRİN SONU –XX ƏSRİN ƏVVƏLLƏRİ)

*Elm müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet sahələrindəndir.*

İlham Əliyev.

*Məqalədə XX əsrin əvvəllərində Azərbaycanda arxeologiya elminin yaranması, təşəkkülü və inkişafından bəhs edilir. XX əsrin əvvəllərində yaranan İstiqlal Muzeyi, Azərbaycan Dövlət Muzeyi, elmi cəmiyyət və komitələrin fəaliyyətinə toxunulur. Azərbaycanın müxtəlif bölgələrinə təşkil olunan elmi ekspedisiyalar, arxeoloji qazıntılar, tarixi abidələrin qorunması sahəsində aparılan tədbirlərdən söhbət açılır. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycana gəlmiş tədqiqatçıların və yeni yaranan milli kadrların adları çəkilir. Məqalənin yazılmasında internet, arxiv və nadir fond materiallarından istifadə edilmişdir.*

*Açar sözlər*: XX əsrin əvvəlləri, abidələrin qorunması, milli kadrlar, arxeoloji tədqiqatlar, tarixi materiallar.

***Giriş***. XX əsrin əvvəlləri özünün ziddiyyətli iqtisadi-siyasi prosesləri ilə, tarixi yenilikləri ilə yanaşı həm də elmin yaranması,təşəkkül və formalaşması ilə yadda qalmışdır. Azərbaycan Demokratik Respublikası mövcud olduğu qısa bir müddət ərzində mədəni-maarif sahəsinə də diqqət yetirə bilmişdir. 1919-cu ildə Bakıda Universitetin yaradılması [1] ADR-in ən təqdirə layiq xidməti olmuşdur. Bununla yanaşı elmin inkişafı, tarix və incəsənət abidələrinin qorunması ilə bağlı tədbirlər də nəzərdə tutulurdu. Bu məqsədlə milli hökumət 1919-cu il dekabrın 7-də "İstiqlal" muzeyinin açılışını elan etdi [2, s.65; 3, s.243-244; 4]. Lakin bolşevik hökuməti Azərbaycan Demokratik Respublikasını suquta uğratdığı üçün bu işi də yarımçıq qoydu.

Bolşevik hökumətinin ikili siyasəti tarixin çətin yollarını keçmiş Azərbaycanın XX əsrin əvvəllərində artıq yeni bir həyata qədəm qoymasına zəmin yaratdı. Elmin inkişafı və milli kadrların yaranması bu tədbirlər arasında gözə çarpacaq dərəcədə sevindirici bir hal idi. Azərbaycanın xeyriyyəçi mərd oğullarının yeni hökumətə miras qoyduğu maddi-mədəni irs şura hökumətinin inkişafına xeyli təkan verdi. Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyevdən miras qalan (İsmailiyyə binası) [5], Hacı Məhəmmədhüseyn Məmmədov (Zəncirli bina), Murtuza Muxtarovdan ("Səadət sarayı" binası və s.) [5, 6] saymaqla bitməyən mülklər sovet hökuməti tərərfindən müsadirə edilərək müəyyən orqanların fəaliyyətinə verildi.

Bütövlükdə,azərbaycan messinatlarının yunan,italyan barokko üslubunda [7], milli ornamentləri unutmadan tikdirdikləri binalar müasir dövrümüzə kimi gəlib çatmış maddi-mənəvi irs olaraq müstəqil Azərbaycanın himayəsi və qoruması altındadır.

Sovet hökümətinin mədəni- maarif sahəsində ilk tədbirlərindən biri,Milli hökumətin yaratdığı 1920-ci ildə "İstiqlal" muzeyinin əsasında Zeynalabdin Tağıyevin evinin binasında Azərbaycan Dövlət Muzeyini yaratması oldu.Bundan bir müddət sonra 1923-cu ildə Azərbaycanın təbiət, tarix və iqtisadi cəhətdən hərtərəfli planlı şəkildə öyrənilməsi üçün İsmailiyyə binasında yerləşdirilən Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyəti (ATTC)[8,9], Azərbaycanın tarix, incəsənət, arxeoloji, etnoqrafik abidələrinin mühafizəsi, qeydə alınması, maddi mədəniyyət nümunələrinin toplanması və qorunması məqsədilə 1923-cü ildə Azərbaycanın Arxeoloji Komitəsi (AAK) [10, s.77] sonradan, 1927-ci ildən Azərbaycanın qədim tarix, incəsənət və təbiət abidələrini qoruyan komitə, 1929-cu ildə isə Azərb. Dövlət Elmi Tədqiqat İnstitutu və s. bu kimi elmi müəssisələr yaradıldı [11]. Bu cəmiyyət və

komitələrə yeni yaranmiş sovet sosialist respublikalarından dəvət olunmuş elm adamlari, mutəxəssislər, alim, professorlar cəlb edildi. Onlar elmi tədqiqatlar aparır və yerli kadrların yaranmasında böyük rol oynayırlar.

Tarixi-memarlıq abidələrin qorunması məqsədi ilə Azərb.SSR Xalq Komissarları Sovetinin Azərb. SSR-də qədim abidələrin qeydə alınması və mühafizəsi haqqında 1924-cü il martın 4-də verilmiş 20№-li dekretə,1925-ci il iyunun 30-da 45№-li "əlavələr" edildi. "Əsasnaməyə" uyğun olaraq Arxeoloji Komitə respublika ərazisində qədim abidələrin mühafizəsi, qeydiyyatı, həmin adidələrin tədqiqi və müşahidədə saxlanması məsələsi üzrə ölkənin mərkəzi ali elmi orqanı oldu [12 s.104, 13, s.183]. Bununla da Azərbaycan elmi inkişaf və tərəqqi yoluna qədəm qoydu.

Hələ XIX əsrdə Azərbaycana gələn səyyahların yol xatirələrinə buraya işləməyə, yaxud da tapşırıqla göndərilən əcnəbi mütəxəssislərin gündəliklərinə göz gəzdirdikdə Azərbaycanın torpağına, tarixinə olan marağı görürük. Xarici ziyalılar ya təsadüfən,ya da həvəskar tədqiqatlar apararaq, əldə etdikləri materialları xaricə, Avropa muzeylərinə aparırdılar. Həvəskar arxeoloqlarla başlayan bu axtarışlar sonralar peşəkar arxeoloqlara keçir. Azərbaycanın bir çox bölgələrində Qarabağ, Gəncə, Gəncəçay vadisində, Gədəbəy, Şəmkir, Xanlar və s. ərazilərində V.Belk, R.Virxov, E.Resler, Q.Rozendorf, Bayern, V.Skinder, D.Şults, A.Spitsin, A.İvanovski, M.Fyodorov, İ.Polyakov [14], sonrakı dövrlərdə İ.İ.Meşşaninov, A.A.Miller, T.Passek, B.Latının, Y.Paxomov, V.M.Sısoyev, V.M.Zummer, Y.Hummel, R.Ziffeldt, C.Aleksandroviç və başqaları tədqiqatlar aparmağa başlayırlar.

Bu bölgələr içərisində Qarabağ diyarı tarixi, etnoqarfik, arxeoloji abidələri ilə incəsənəti və folklor nümunələri hər zaman xarici mütəxəssislərin, səyyah və alimlərin daha çox marağına səbəb olurdu [15,s.25-26].

Şuşa realnı məktəbinin müəllimi olan E.Resler Moskva Arxeoloji Komitəsinin tapşırığrı ilə (1892-1903) Qarabağ və Gəncəçay vadisində tədqiqatlar aparmışdır. Onun ilk tədqiqat obyekti (1891-1897) Xocalıdakı abidələr olur. Çoxsaylı tapıntılar içərisində onun 11№-li kurqanın qazıntısı zamanı üzərində Assuriya mixi yazısı olan əqiq muncuğun aşkar etməsidir. Sonradan bu yazı İ.İ.Meşşaninov tərəfindən oxunmuş və orada Assuriya padşahı Adadnirarinin adı olması müəyyən edilmişdir [16, s.107]. Bütövlükdə, E.Reslerin apardığı qazıntılar nəticəsində Qarabağ tunc dövrü tarixinin öyrənilməsi üçün zəngin materiallar toplamışdır [17, 18].

Qarabağda arxeologiya sahəsində görülən sonrakı tədqiqatlar XX əsrin 20-ci illərinə təsadüf edir. XX əsrin 20-ci illərində Azərbaycanın bir çox bölgələrində ATTC və AAK tərəfindən təşkil olunan elmi araşdırmalar, tarixi, etnoqrafik tədqiqatlar, arxeoloji həfriyyat işləri o dövrdə cəmiyyətlərin "xəbərləri"ndə yerli və xarici mətbuatda işıqlandırılırdı. Bu illərdə Azərbaycanda yaranan elmi müəssisələrdə xarici ölkələrlə əməkdaşlıq geniş vüsət almışdır.

1926-ci ildə ATTC-nin tapşırığı ilə akademik, şərqşünas alim İ.İ.Meşşaninovun rəhbərliyi altında Qarabağ (Xocalı) və Naxçıvana (Qızılvəng) arxeoloji ekspedisiya göndərildi [19, s.172]. İlk dəfə təşkil olunan arxeoloji ekspedisiyani İ.İ.Meşşaninov öz gündəliyində "1-ci Azərbaycan ekspedisiyası" adlandırdı [20, s.180]. Xocalıda apardığı qazıntılardan sonra, Naxcıvana yola düşən İ.İ.Meşşaninovun tədqiqatlarından başqa yay aylarında Qızılvəngə Zaqafqaziya Elmi Assosiasiyası tərəfindən göndərilən A.A.Miller də arxeoloji tədqiqatlar aparmışdır [21, s.326. 22, s.196]. 30-cu illərdə davam etdirilən ekspedisiyalardan biri də 1934-cü ildə S.Aşurbəylinin rəhbərliyi ilə təşkil olunan Şuşa ekspedisiyası olmuşdur. Şuşa, Ağdam rayonlarına və Çanaxçı kəndinə təşkil edilən ekspedisiyanın məqsədi bu bölgələrin yerüstü abidələrinin qeydə alınması və tədqiqindən ibarət idi [23, s.19].

Xocalıda növbəti qazıntilar 1950-ci ildə A.İessenin başçılığı altında aparılmışdı. Arxeoloji ekspedisiyalar geniş miqyas alaraq Xocalıda, həmçinin Ağdamda da davam etdirildi [17].

XX əsrin əvvəllərində şura hökumətinin apardığı ağır siyasi rejim özünü elmdə də göstərirdi. Mənfur düşmənin havadarı olan bu rejim 1927-ci ildə Naxçıvan və Zəngəzura etnoqrafik materiallar yığmaq məqsədilə səfər təşkil edən Ələsgər Ələkbərovun Sisian rayonun kəndlərində yaşayan azərbaycanlıların pis vəziyyətdə yaşadığını və ermənilər tərəfindən terrora məruz qaldıqlarını qələmə alaraq, ürək ağrısı ilə məktub yazıb dövlət orqanlarına göndərir [24, s.36, 25 s.70-71]. Lakin onun bu məktubu nəinki nəzərə alınmır, hətta Ələkbərovun özünü bir il müddətinə həbs edirlər [25, s.85, 26, s.130]. Bəli, belə hadisələr artıq gələcəkdə kütləvi repressiyaların başlanmasından xəbər verirdi. Bü-

tün bunlara baxmayaraq həyat davam edirdi və gənc müdavimlər özlərini elmə həsr edərək yeni-yeni nailiyyətlərə müvəffəq olurdular.

Bu dövrdə arxeoloji və etnoqarfik tədqiqatlar Qarabağla bərabər Azərbaycanın bir çox bölgələrinə təşkil olunurdu. Cəmiyyət və komitələr ilə yanaşı Azərbaycan Dövlət Muzeyinin də rəhbərliyi altında tarixi, etnoqrafik, arxeoloji tədqiqatlar aparılmışdır. 1921-ci ildə Gəncə qəzasına ilk rəsmi arxeoloji ekspedisiya göndərilmişdir ki, onun da fəaliyyəti nəticəsində qəzanın 3 kəndində yerləşən 7 kurqanda qazıntı işləri aparılmışdır. İlk qazıntı işlərinə iyunun 1-də Gəncə qəzasının Nüzgər kəndində (indiki Şəmkir rayonu), Şamir-dərəsi adlanan yerdə başlanılmışdır. 1921-ci ildə başlanmış axtarışlar 1922-ci ildə də davam etdirilmişdir. Ekspedisiya bu dəfə Gəncə qəzasının "Həsən təpəsi", "Xanlar təpəsi" və "Qala yeri" adlı ərazilərinə baxış keçirmiş, burada yerləşən kurqanları qeydə almışdı [27].

Keçən əsrin 20-ci illərinin ortalarında Azərbaycanın bölgələrinə daha bir ekspedisiya təşkil edildi. D.Şərifovun rəhbərliyi altında təşkil edilmiş həmin ekspedisiya 1925-ci ildə Nuxa (indiki Şəki) qəzasında - qədim Qəbələ şəhər yerində, 1926-cı ildə isə Yaloylutəpədə və Gəncə qəzasının dağlıq hissəsində - Çovdarda arxeoloji tədqiqat işləri həyata keçirir [28]. 20-ci illərdə təşkil edilmiş ekspedisiyaların tapıntıları bu gün də Azərbaycan Tarixi Muzeyinin arxeologiya fondunun ən qiymətli nümunələrindəndir. 1938-ci ildə İ.Cəfərzadənin rəhbərliyi ilə Köhnə Gəncədə aparılan arxeoloji tədqiqat işlərində muzeyin əməkdaşları V.Leviatov, A.Nuriyev, N.K.Minkeviç, Q.İone, İ.Şeblıkin və b. iştirak etmiş, XII-XIII əsrlərə aid zəngin material toplamışlar [27].

Arxeologiya elmində müstəsna xidmətləri olan İ.İ.Meşşaninovun yaratdığı məktəb bizə yerli, milli kadrların yetişməsinə, Ə.Ələkbərov, D.Şərifov, İ.Cəfərzadə, M.Salamov, Q.Sadiqi, İ.Əzimbəyov, S.Qazıyev, L.Hüseynzadə, Hacı Mirbağır Mirbağırzadə və başqaları kimi tarixçi, arxeoloq, etnoqraf mütəxəssislərin üzə çıxmasına təkan verdi [3].

***Nəticə***. XX əsrin əvvəllərindən Azərbaycanda yaranmağa başlayan arxeologiya elminin təşəkkülü, tərəqqisi və bütövlükdə elmin inkişafı əsrin ortalarından ulu öndərimiz Heydər Əliyevin qayğısı nəticəsində daha da genişlənmiş, yeni nailiyyətlər əldə etmişdir. "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" [29] deyən H.Əliyevin elmə və mədəniyyətə olan diqqəti onun oğlu tərəfindən davam etdirilməkdədir.

XX əsrin sonlarında mənfur qonşuların Qarabağ torpaqlarına təcavüzü nəticəsində son tunc-ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş-qutu qəbirləri, XVIII əsr Şuşa qala divarları, orta əsr istehkamları [30], bir sözlə bütöv Qarabağın və onun gözü sayılan Şuşanın tarixi, arxeoloji, incəsənət abidələrini viran qoyub xarabalıqlara çevirmişlər.

Ümummilli lider ulu öndər Heydər Əliyev Qarabağ, Şuşa və Laçın ictimaiyyəti ilə görüşəndə, hər zaman Qarabağın Azərbaycanın həyatında müstəsna yeri olduğunu qeyd edərək, bu insanlarda gec-tez o torpaqlara, doğma evlərinə, yurd-yuvalarına qayıdacaqlarına ümid yaradırdı. O söyləyirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur" [29]. H.Əliyevin siyasi kursunu uğurla davam etdirən onun oğlu ölkəmizin prezidenti cənab ali baş komandan İlham Heydər oğlu Əliyevin şanlı ordumuza rəbərliyi nəticəsində ata vəsiyyətini yerinə yetirərək 44 günluk müharibədə (27.09.2020-10.11.2020) tarixin beşiyi sayılan Qarabağ torpaqlarını azad etdi. Indi azad edilmiş torpaqlarda tikinti-quruculuq və tarixi-memarlıq abidələrinin bərpası və mühafizəsi işləri gedir.

## ƏDƏBİYYAT

1. BDU-nun tarixi. - http://bsu.edu.az/az/content/tarxmz_[10.10.2022].
2. ÇıraqzadəV. İstiqlal yollarında (tarixi oçerklər). Bakı, Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi, 1992, 81 s.
3. İbrahimova İ. Azərbaycan milli kadrlarının ilkin arxeoloji fəaliyyəti // Elmi axtarışlar, II toplu (filologiya, tarix, incəsənət). Bakı, 2000, s.243-247.
4. Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Muzeyi. - https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Xalq_C%C3%BCmhuriyy%C9%99tinin_%C4%B0stiqlal_Muzeyi [10.10.2022].

5. Tarixi binalar-Azərbaycan Milli Elmlər Akademiyası. - https://science.gov.az/az/pages/istoricheskie-zdaniya [10.10.2022].
6. "XX yüzillik.Faktlar,hadisələr və insanla-1901-ci il". 24.09.2020. - https://www.youtube.com/watch?v=8mBFo8qe758 [10.10.2022].
7. Hacı Zeynalabdin Tağıyevin ailəsinin sonrakı taleyi. - https://www.youtube.com/watch?v=UbQ-W8MF0mE [10.10.2022].
8. Керимова Т. Из истории Национальной Академии Наук. Баку, "Тахсил", 2005, 568 с.
9. Научная работа в АССР // Народное образование в Азербайджане 1920-1927, Изд.НКП АССР, Баку, 1928, с.115-125.
10. Məhərrəmov E. Talanmış abidələrimiz barəsində // Azərbaycan Arxeologiyası, Bakı, Xəzər Universiteti, 1999, s.77-78.
11. İbrahimova İ. Azərbaycan tarixində "Azərbaycanı Tədqiqi və Tətəbbö Cəmiyyətinin rolu" // Gənc azərbaycanşünasların məruzələri, Bakı,1998, s.122-130.
12. Собрание узаконений и распоряжений Рабоче-Крестянского Правительства АССР за 1924 год // Изд.НКЮ АССР. Баку, 1926, 409 с.
13. Керимова Т. Археологическая наука Азербайджана //Азербайджан и Азербайджанцы, Баку, 2006, №5-12, с.181-193.
14. İbrahimova İ. Azərbaycanda XIX əsrin sonu-XX əsrin əvvəllərində arxeoloji tədqiqatlar haqqında // AMEA Xəbərləri (tarix, fəsəfə və hüquq seriyası), 2008, №9, s.80-92.
15. Sadıqova İ. Qarabağın arxeoloji tədqiqatlarında xarici mütəxəssislərin rolu // Şuşa-270: arxeologiyası, tarixi, etnoqrafiya və antropologiyası. Respublika elmi konfransının tezisləri. Bakı, 18 fevral 2022-ci il, s.25-27.
16. Мещанинов И.И. К вопросу об ассирийской бусине из Ходжалинского могильника // Изв.ООИА, 1926, №3, с.107-111.
17. Müstəqillik illərində Qarabağda arxeoloji tədqiqatlar. - http://webcache.googleusercontent.com/search?q=cache:gsW0pneaBaYJ:anl.az/down/meqale/xalqqazeti/2017/mart/532978.pdf&cd=2&hl=ru&ct=clnk&gl=az [10.10.2022].
18. H.Cəfərov: "Ermənilər Qarabağda arxeoloji qazıntılar aparır. - https://1905.az/hiday%C9%99t-c%C9%99f%C9%99rov-erm%C9%99nil%C9%99r-qarabagda-arxeoloji-qazintilar-aparir/ [10.10.2022].
19. Field Henry. USSR Nakhichevan // An excerpt from the Oriental Institute archeological reporton on the Near East. The American Journal of Semitic Languages,Vol.LVI, No.2, April 1939, p.172-174.
20. İbrahimova İ. XX əsrin 20-ci illərindəAzərbaycanın Qarabağ və Naxçıvan bölgələrinə təşkil olunmuş ilk arxeoloji ekspedisiya haqqında // Pedaqoji Universitetin Xəbərləri, Bakı, 2008, №2, 180-185.
21. Миллер А.А. Археологические исследования в Нахичеванской Республике летом 1926 г. // ГАИМК Сообщения I, Ленинград, 1926, с.326.
22. İbrahimova İ. Akademik İ.İ.Meşşaninov və akademik A.A.Millerin Qızılvəngdə arxeoloji tədqiqatları // Tarix və onun problemləri, Bakı, 2000, №1, s.196-197.
23. Mahmudova V. İlk Şuşa ekspedisiyası // Şuşa-270: arxeologiyası, tarixi, etnoqrafiya və antropologiyası. Respublika elmi konfransının tezisləri. Bakı, 18 fevral 2022-ci il, s.18-19.
24. ARDA, Fond 389, siyahı 1, iş 72, vərəq 35-36.
25. Керимова Т., Садыгова И., Алиев И. Жизнь, творчество, судьба ученого. Баку, "Университет Хазар", 576 с.
26. ARDA, Fond 389, siyahı 1, iş 32,vərəq 130.
27. Arxeologiya fondu-Elmi fondlar-Milli Azərbaycan Tarixi Muzeyi. - http://azhistorymuseum.gov.az/az/fond/3 [10.10.2022].
28. İbrahimova İ. Azərbaycan Tarixi Muzeyinin 20-ci illərdə apardığı tədqiqat işlərindən // Azərbaycan Arxeologiyası, Bakı, 1999, №3-4, s.92-95.
29. Heydər Əliyevin müdrik kəlamları. - https://ictimaixeber.az/2019/05/heyd%C9%99r-%C9%99liyevin-mudrik-k%C9%99lamlari/ [10.10.2022].

30. Ulu öndər Heydər Əliyev: Şuşa əziz bir şəhərdir , əziz bir torpaqdır, əziz qaladır, əziz bir abidədir. - https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyev_Susa_eziz_bir_seherdir_eziz_bir_torpaqdir_eziz_bir_qaladir_eziz_bir_abidedir-1689597 [10.10.2022].

**ИЛЬХАМА САДЫГОВА**
*Институт археологии, этнографии и антропологии НАНА*
**ГЮНЕЛЬ ПИРГУЛИЕВА**
*Государственный историко-культурный заповедник «Чираггала-Шабран»*

## СТАНОВЛЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ НАУКИ ПО ИСТОРИЧЕСКИМ МАТЕРИАЛАМ (КОНЕЦ XIX - НАЧАЛО XX ВВ.)

В статье рассматриваются зарождение, становление и развитие археологической науки в Азербайджане в начале XX века. Затрагивается деятельность Музея Истиглал, Азгосмузея, научных обществ, организаций и комитетов созданных в начале XX века. Освещаются археологические раскопки, научные экспедиции организованные в разные регионы Азербайджана а также, принимаются меры для охраны исторических памятников. Перечисляются имена исследователей и национальных кадров Азербайджана. При написании статьи использовались интернетные ресурсы, архивные и фондовые материалы.

*Ключевые слова*: начало XX века, охрана памятников, национальные кадры, археологические исследования, исторические материалы.

**ILHAMA SADIQOVA**
*ANAS Institute of Archaeology, Ethnography and Anthropology*
**GUNEL PIRGULIYEVA**
*"Chiraggala-Shabran" State Historical-Cultural Reserve*

## FORMATION OF AZERBAIJANI ARCHAEOLOGICAL SCIENCE BASED ON HISTORICAL MATERIALS (LATE XIX - EARLY XX CENTURIES)

The article deals with the origin, formation and development of archaeological science in Azerbaijan at the beginning of the 20th century. The activities of the Istiglal Museum, the Azerbaijan State Museum, scientific societies and committees established in the early XX century are touched upon. Archaeological excavations, scientific expeditions organized in different regions of Azerbaijan are covered, as well as measures are taken to protect historical monuments. The names of researchers and national personnel of Azerbaijan are listed. When writing the article, Internet resources, archival and stock materials were used.

*Keywords*: early XX century, protection of monuments, national personnel, archaeological research, historical maretials.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il*
*Rəyçilər: t.ü.f.d. İ.Əliyev, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 39**

**NİCAT QACAYEV**
*AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun doktorantı*
**TarixVeOnunProblemleri@gmail.com**

# QƏRBİ AZƏRBAYCANDA TOY ADƏTLƏRİ

*Məqalədə Qərbi Azərbaycan əhalisinin toy adət-ənənələri və onun spesifik terminologiyası kimi məsələlərə toxunulmuşdur. Qərbi Azərbaycanlıların ən qədim dövrlərdən başlayaraq günümüzə qədər əldə etdiyi mənəvi dəyərlər geniş araşdırılmışdır. Müəllif məqaləni yazarkən dövrün tədqiqata cəlb edilməyən əsərlərindən bəhrələnmiş, toy adətlərinin spesifik tərəflərini sistemli şəkildə izah etmişdir.*

*Açar sözlər:* Qərbi Azərbaycan, mənəvi dəyərlər, ailə, böyüklərə hörmət.

***Giriş***. Qərbi Azərbaycan əhalisi tarixinin öyrənilməsi həm elmi-dərki, həm də praktik baxımdan vacibdir. 44 günlük müharibə nəticəsində işğal altında qalan Azərbaycan torpaqları işğaldan azad oldu və bu tarixi qələbə Qərbi Azərbaycanlıların tarixi, mədəniyyəti, ailə-məişət kimi məsələlərini aktuallaşdırdı.

Tarixən Azərbaycanın qərbində, Qarabağ ərazilərində yaşayan azərbaycanlılar ermənilər tərəfindən saysız-hesabsız soyqırımınlara, amansız deportasiyalara məruz qalmışlar. Hələ Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülmüşdür. 1918-1920-ci illərdə indiki Ermənistan Respublikasının ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və yaxud doğma torpağından didərgin düşmüşdür. Bu rəqəmi Z.Korkodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq edərək yazır: "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur".

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan da özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək özünəbənzər adət və ənənələri, yüksək mənəvyyatı ilə diqqəti cəlb edib. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunun yüksək qiymətləndirən Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev: "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir", - deyib [2, s.36].

Müasir dünyanın, çağdaş həyatın bütün sahələrinin elektronlaşdığı, qloballaşdığı, internetləşdiyi bir vaxtda xalqımızın yeni nəsil nümayəndələri, eləcə də başqa ölkələrdə yaşayan və yad mədəniyyətlərin daşıyıcılarına çevrilən soydaşlarımız arasında Azərbaycan milli-mənəvi yaşam düşüncəsində etnik kimliyimizin bir hissəsinə çevrilən ailə mədəniyyətimizin ayrılmaz tərkib hissəsi hesab edilən ağsaqqallıq-ağbirçəklik dəyərlərinin dirçəldilməsi zəmanəmizin əsas milli-mental məsələlərindən biridir. Tarixi Azərbaycan coğrafiyasının zaman-zaman qonşu dövlətlər tərəfindən parçalanıb işğal altına alınması və bu dövlətlərin tərkibində milli-mənəvi assimilyasiyaya məruz qalması problemin həssaslığını şərtləndirən amillərdəndir. Xüsusilə xalqımızın böyük bir kəsiminin – Qərbi Azərbaycan türklərinin uzun illər Azərbaycan Respublikasından kənarda – tarixi düşmənimiz olan ermənilərin siyasi və sosial basqısı altında yaşaması və 1988-1991-ci illərdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində minillər boyu yaşadıqları ata-baba yurdlarından vəhşicəsinə deportasiyası və Qarabağ münaqişəsi nəticəsində insanlarımızın Qarabağdakı doğma yurdlarından qovulub çıxarılması xalqımızın ailə dəyərlərinə sarsıdıcı zərbə vurmuşdur.

Xalqımız hər zaman öz böyüklərinə, yaşlı insanlara hörmət göstərib, qadına – anaya, bacıya, xala-bibiyə, gəlinə, qaynanaya dəyər verib, bir sözlə, yol bö- yüyündür deyiblər. Cəmiyyətimizdə yaşlı insanların həyat təcrübəsini bu dəyər konsepti çərçivəsində araşdırmağa xüsusi ehtiyac vardır [4, s.24].

Azərbaycan cəmiyyəti də müasir dünyanın bir parçasıdır, Qərb və Şərq mədəniyyətlərinin ən dəyərli cəhətlərini özündə birləşdirir. Dünyayla mədəni inteqrasiyamızın güclənməsi, informasiya texnologiyalarının sürətli inkişafı planetdə yaşayan xalqları bütövləşməyə və vahid dəyərlər sisteminə doğru aparır. Belə bir şəraitdə ənənəvi mədəniyyətin qorunması, milli-mənəvi dəyərlərin yaşadılması üçün səylərin səfərbər edilməsi daha aktualdır. Ona görə də ilk növbədə cəmiyyətdə mövcud olan dəyərlərin günümüzdəki vəziyyəti öyrənilməlidir.

Təbii ki, bütün dövrlərdə mütərəqqi adət və ənənələrin yaradıcısı, eyni zamanda onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqdır. Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hissləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Bu müstəvidə də zəngin adət-ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünəməxsus yer tutur. Novruz süfrəsi adət və ənənələrimizin zənginliyini göstərir. Belə ki, çərşənbələrdə, istərsə də Novruz axşamında süfrədə milli xörəklərimiz, ən başlıcası isə plov olmalıdır. Şəkərbura, paxlava, şəkər çörəyi və digər şirniyyatlar, kişmiş, püstə, badam, boyanmış yumurtalar süfrələrimizi bəzəyir. Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir.

Azərbaycanda toy şənlikləri də qədim və zəngin xalq adət-ənənələrinə söykənir. Elçi getmə, nişan taxma və toy adətlərinin dərin kökləri vardır. Əgər qız və oğlan bir-birini bəyənib, talelərini nikah vasitəsilə birləşdirmək arzusundadırlarsa, onlar, ilk növbədə, valideynlərinin razılığını almalıdırlar.

Yas mərasimləri ilə bağlı da azərbaycanlıların bir maraqlı adət və ənənələri var. Qadınlar zinət əşyaları taxmır, qara paltar geyinir, qara yaylıq bağlayırlar. Kişilər üzlərini qırxmırlar. Bu günlər ərzində qohumlar bayram keçirməməli, toy etməməli, musiqi alətlərində çalmamalıdırlar. Yas günlərində mərhumun yaxınları özgə toylarına, şənliklərə və hətta təqdimat mərasimlərinə belə getmirlər [3, s.56].

Ailə dəyərlərimizin mühum tərkib hissəsi kimi götürdüyümüz ağsaqqallıq-ağbirçəklik institutunun müəyyən tarixi mühitlə əlaqəsi problemləri də diqqətdə saxlanılmalıdır. Heç kəsə sirr deyil ki, Qarabağ köçkünlərinin coğrafi baxımdan bağlı olduğu Qarabağ bölgəsində yaşanan humanitar fəlakət mədəni institutlara, ailə dəyərlərinə və ictimai-sosial, mədəni-mənəvi dünyagörüşə təsirsiz ötməmişdir. O baxımdan, humanitar fəlakət şəraitində ailə dəyərlərinə – ağsaqqallıq və ağbirçəklik institutuna dəyən ictimai-mədəni zədələrin öyrənilməsi aktual problemlər sırasındadır [1, s.12]. Xüsusilə şəxsiyyət və onun aid olduğu doğma mühit, el-oba, qohum-əqrəba, camaat kimi sosial-mədəni aspektlər ailə institutunun strukturunu və funksiyasını öyrənmək, onun zədələnmiş elementlərini bərpa etmək, qorumaq və gələcəyə çatdırmaq yollarını müəyyənləşdirmək baxımından son dərəcə vacibdir. Həm bu gün yaşayan ağsaqqal və ağbirçəklərin ictimai fəaliyyətini öyrənmək, həm də keçmişdən gələn tarixi-mədəni təcrübəni təhlil edərək milli ailə institutunun mövcud vəziyyətini, problemlərini və perspektivlərini müəyyənləşdirmək ailə mər- kəzlərinin əsas prioritet sahələrindən olmalıdır.

Araşdırmalar zamanı milli ailə dəyərləri sisteminin əsas istiqamətini təşkil edən ağsaqqallıq-ağbirçəklik institutu ilə yanaşı, yaşlı insanların problemlərinin, əsas qayğılarının öyrənilməsi də diqqət mərkəzində saxlanılmalıdır. Mənəvi dəyər daşıyıcıları olan insanların qorunması, onların gənclərlə ünsiyyətinin artırılması, vətənpərvərlik düşüncəsinin möhkəmləndirilməsi ağsaqqalların-ağbirçəklərin yaşadaraq günümüzə daşıdıqları milli ailə-yaşam formatlarının rolunun aktivləşdirilməsi, ağsaqqalların cəmiyyətin bütün sferalarına inteqrasiya olunma imkanlarının araşdırılması istiqaməti də nəzərdən qaçırılmamalıdır.

Gənclərin böyüklərə, övladların valideynlərə münasibətində ağsaqqallıq institutunun mövcud vəziyyəti aydın görünür. Ağsaqqalın, ağbirçəyin ailədə, camaat arasında və cəmiyyətin daha geniş dairələrindəki mövqeyinin öyrənilməsi ilə ictimaiyyətimizi zənginləşdirən mənəvi resursları aktivləşdirmək və populyarlaşdırmaq mümkündür. Bunun üçün müxtəlif sosial qruplar arasında araşdırma aparılmalı və mövcud vəziyyət təhlil edilməlidir. Bir ailənin, bir nəslin, bir elin ağsaqqalı aid olduğu sosial çərçivədəki mənəvi mühit kontekstində götürülməli və ictimai-mənəvi baxımdan öyrənilməlidir.

Dünyada elə bir millət də tapmaq çox çətindir ki, ailə dəyərləri ilə yaşayan insanların həyatı bütövlükdə poeziya ilə əhatələnsin: azərbaycanlı doğulanda – bayatı ilə qarşılanır, evlənəndə nəğmələrlə təbrik edilir, həyatdan köçəndə də mərsiyələrlə – ağılarla yola salınır [6, s.34]. Azərbaycan milli bədii söz sənəti kimi, kökləri qədimlərə çıxan poeziyası da bu təsirlərə görə həm açıq, həm sinkretik, həm də qlobal kulturoloji hadisədir. Bunu biz miladdan əvvəlki Qobustan qayalarına həkk olunmuş ilkin qayaüstü poetik rəsmlərdə də, xalqın lirik geninə çevrilmiş 51 bayatılarda da, dini baxışlarının toplusu olan «Avesta»da da, ədəbi-bədii fikirlərin cəmi kimi qiymətləndirilən "Kitabi-Dədə Qorqud" eposunda da görürük, eyniliklə qədim türkcəmizdə, ərəbcə, farsca, çağdaş azərbaycanca, daha sonralar rusca, ingiliscə və başqa dillərdə yaradılan ədəbi-bədii nümunələrdə də müşahidə edirik [5, s.120]. Daha peşəkar baxışla nəzər salsaq, Qədim Şərq, türk, Azərbaycan, yunan, ərəb, İslam, Avropa, Qərb, Rusiya, keçmiş sovet, eləcə də dünyanın modern ədəbi-poetik texnologiyalarının tələblərinə cavab verən zəngin ədəbi irsin də biz araşdırıcılara yuxarıdakı kulturoloji mülahizəni yürütməyə imkan yaratdığını görərik. Müqayisəli-tarixi metodla Azərbaycan, deməli, həm də Şərq və Qərb – dünya ailə-məişət əlaqələrini tədqiqə cəlb edəndə görürük ki, bu kulturoloji hadisə çox mürəkkəb və ənənəviliyini qoruyub saxlamaqla, həm də istənilən zaman üçün moderndir – yenilikdir.

Vaxtilə xaricdən gətirilən, dövrümüzdə isə əsasən də internet, yeni media, sosial şəbəkələr və KİV vasitəsilə həyatımıza yeridilən basqıların qarşısını almaq xeyli çətindir. Bu istiqamətdə araşdırmalarımızı cəmiyyətə təqdim etməklə milli ailə dəyər sistemimizin, ağsaqqallıq-ağbirçəklik institutunun, fəlsəfəsinin zəifləməsinin qarşısını almaq, ailələrdəki münaqişələrin, boşanmaların, nəsillərarası mənəvi-psixoloji toqquşmaların qarşısını, qismən də olsa, almaq üçün ictimai-virtual aksiyaların həyata keçirilməsi dəstəklənməlidir. Eyni zamanda, bu istiqamətdə güclü maarifçilik işləri aparılmalı, sadalanan problemin həllinə yönəli bir çox məsələlər vaxtında ictimailəşdirilməlidir.

Bu araşdırmamıza ailə dəyərləri, ağsaqqallıq-ağbirçəklik institutu haqqında daha geniş təsəvvürləri, sosial təcrübələri olan yaşlı insanların, həm də onlar vasitəsilə öz mədəni davranışlarını daha da zənginləşdirməyə ehtiyacı olan gənclərin faydalanması üçün müəyyən mülahizələrimizi sistemləşdirməyə çalışdıq. Bütövlükdə araşdırmamız yaşlı nəslin malik olduğu mənəvi dəyərlərin gənc nəslə tam və mükəmməl şəkildə ötürülməsinə yardımçı olacağını nəzərdə tutduğumuz üçün geniş əhatə dairəsinə malikdir və ümummilli xarakterlidir: istərdik ki, bu tədqiqatlarımızdan Azərbaycan cəmiyyəti faydalansın.

***Nəticə***. Azərbaycan ərazisinin son dərəcə əlverişli iqlim şəraiti, zəngin flora və faunası, yerli əhalinin qədimliyi, təsərrüfat məişəti, çoxsahəli sənətkarlığı, maddi və mənəvi dünyası onun etnoqrafik baxımdan daha çeşidli və məzmunlu olmasına əsaslı zəmin yaratmışdır. O da həqiqətdir ki, xalq minilliklərdən başlayaraq Qafqaz, Yaxın Şərq və başqa ölkələrin xalqları ilə davamlı və arasıkəsilməyən sıx iqtisadi və mədəni əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan, qovuşuqluqdan çox şey əxz etmiş, faydalanmış və zənginləşmişdir. Xalqın etnoqrafiyası Qafqaz, bir qədər də geniş mənada, Yaxın və Orta Şərq xalqlarının etnoqrafiyasının ayrılmaz tərkib hissəsidir. Hər bir xalqın maddi mədəniyyəti yalnız onun özünəməxsus spesifik-lokal cəhətləri və fərdi xüsusiyyətləri ilə seçilir. Bu isə bir etnosa məxsus mədəniyyəti digər etnosun mədəniyyətindən əsaslı surətdə fərqləndirilir. Bu baxımdan Azərbaycan xalqının çoxəsrlik empirik təcrübə, bilik və vərdişlərə əsaslanan maddi mədəniyyət tarixi zəngin olub, özünün spesifikasını və milli xüsusiyyətlərini maddi mədəniyyətin bütün sahələrində bariz şəkildə nümayiş etdirir.

## ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. I cild. Bakı, "Şərq-Qərb", 2007, 544 s.
2. Azərbaycan etnoqrafiyası. II cild. Bakı. "Şərq-Qərb", 2007, 384 s.
3. Azərbaycan etnoqrafiyası. III cild. Bakı. "Şərq-Qərb", 2007, 384 s.
4. Cəmilə Çiçək (İsbəndiyarova). Klassik ənənə və XX əsr Azərbaycan məhəbbət dastanları. Bakı, 2018, 146 s.
5. Kitabi-Dədə Qorqud ensiklopediyası, I cild. Bakı, "Yeni nəşrlər evi", 2000, 622 s.
6. Kitabi-Dədə Qorqud ensiklopediyası, II cild. Bakı, "Yeni nəşrlər evi", 2000, 567 s.
7. Nərgiz Quliyeva. Etnoqrafiya və etnologiya. Bakı, ADPU, 2009, 157 s.

**НИДЖАТ ГОДЖАЕВ**
*Докторант института Археологии, Этнографии и Антропологии НАНА*

## СВАДЕБНЫЕ ОБЫЧАИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

В статье были затронуты такие вопросы, как свадебные традиции народов Западного Азербайджана и его специфическая терминология. Духовные ценности, приобретенные западными азербайджанцами с древнейших времен до наших дней, широко исследованы. При написании статьи автор использовал работы того периода, которые не были задействованы в исследовании, и систематически разъяснял специфику свадебных обычаев.

*Ключевые слова*: Западный Азербайджан, моральные ценности, семья, уважение к старшим.

**NİJAT GOJAYEV**
*Doctoral student of the Institute of Archaeology, Ethnography and Anthropology of ANAS*

## WEDDING CUSTOMS OF WESTERN AZERBAIJAN

In the article, issues such as the wedding traditions of the people of West Azerbaijan and its specific terminology were touched upon. The spiritual values acquired by West Azerbaijanis from the earliest times to the present day have been extensively researched. While writing the article, the author benefited from the works of the period that were not involved in the research, and systematically explained the specific aspects of wedding customs.

*Keywords:* Western Azerbaijan, moral values, family, respect for elders.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Xatirə Ağayeva, t.e.d. Nərgiz Quliyeva.*

**UOT 39**

**GÜNEL NURUŞOVA**
*Bakı Dövlət Unuversitetinin doktorantı*
**gunelnursoy1990@outlook.com**

# AİLƏ MƏİŞƏTİNDƏ ADƏT HÜQUQU

*Adət hüqüqü bir çox xalqların ailə məişətində fərqli şəkildə mövcud olmuşdur. Ailə hər bir etnosun mədəni-ənənəvi əsaslarının və xüsusiyyətlərinin daşıyıcısıdır. Ailə sosial, ictimai təsisatdır və onun tipi, tərkibi, bütün həyati quruluşu, sistemi, qaydası, forması geniş tarixi perspektivdə həmişə onun mövcudluğunun, varlığının ümumi ictimai-iqtisadi şərtlərinə, şəraitlərinə uyğun gəlir. İctimai-iqtisadi amillərin müəyyən kompleksinin, məcmusunun təsiri sayəsində yaranan ailə-məişət sistemi, quruluşu ictimai həyat, məişət, yaşayış, güzəran sahələrinə nisbətən müstəqil olur. Qeyd edək ki, ailə-məişət sferası, sahəsi ictimai məişət sahəsinə nisbətən daha qapalıdır, bu qapalılıq sayəsində daha mühafizəkardır. Ailə adətləri, ənənələri, qaydaları, mərasimləri, ayinləri mühüm inersiyaya, ətalətə malikdir. Bu adətlərdə və ənənələrdə həmişə xeyli qalıqlı hallar olur. Həmin halların müəyyən qismi müasir həyatın yeniliklərinə ya heç uyğunlaşdırılmamış, ya da az uyğunlaşdırılmışdır. Ailədaxili münasibətlərin tənzimlənməsi, eyni zamanda cəmiyyətdəki əlaqələrin genişləndirilməsi, mövcud təbəqələşmə şəraitində icma daxilində birliyin qorunub saxlanmasına xidmət edən bir sıra adətlər olmuşdur. Onlardan biri də "atalıq institutu" olmuşdur. Mahiyyətcə bərabərlik, icma üzvləri arasında maddi imkanından asılı olmadan yaxınlıq, qan davasının yatırılma üsulu, övladın kollektivçiliyə, cəsarət və məsuliyyətə alışdırılmasının bir üsulu kimi maraqlı, eyni zamanda itib getməkdə olan bu adət aktual, eyni zamanda, maraqlı problemlərdəndir.*

*Açar sözlər*: adət, ailə, məişət, atalıq, xalq, ənənə.

***Giriş.*** Müasir qloballaşma, inteqrasiya dövründə xalqların adət-ənənlərini mümkün qədər qoruyub saxlaması, öz mədəni keçmişimə sahib çıxması, eyni zamanda, cəmiyyətin tamlığı üçün şərait yarada biləcək ənənələrin təbliğ edilərək gələcək nəsillərə ötürməsi aktual məsələlərdəndir. Mədəni antropologiyada, etnoqrafiyada bir çox xalqların, o cümlədən Qafqaz xalqlarının tarixində rast gəlinmiş "atalıq" institutu bu baxımdan əhəmiyyətlidir. Qafqaz xalqlarının mentalitetinin əsasını ənənələr, habelə mənəvi dəyərlər təşkil edir. Bu ənənələr və mənəvi dəyərlər əsrlər boyu əski nəsillərdən yeni nəsillərə ötürülmüşdür və hal-hazırda da mühafizə olunmaqdadır. Onun formalaşması prosesinin özündə atalıq, qonaqpərvərlik, zümrə-nümayəndə iclasları, himayəçilik, qardaşlıq və bir çox digər ənənəvi ictimai təsisatların mühüm xidməti olmuşdur. Zaman keçdikcə, əsrlər boyunca bu ictimai təsisatlar, institutlar öz aralarında sıx və qarşılıqlı əlaqələrdə olmuş, insanlar, ictimai zümrələr və etnoslar arasındakı qarşılıqlı münasibətlər məhz bu təsisatlar vasitəsilə gerçəkləşdirilmiş, nizamlanmışdır.

***Araşdırma.*** Qafqaz xalqlarında uzun müddət tətbiq edilən və ictimai asayişin təmin edilməsi baxımından mühüm yer tutan adətlərdən biri də "Atalıq" institutu olmuşdur."Atalıq" institutunun tarixi, sosioloji, antropoloji və hüquqi aspektlərinin üzə çıxarılması mövzuya çoxölçülü yanaşma tələb edir. Müxtəlif mənbələrdə əsrlər boyu davam etdirilən atalıq ənənəsinin sonrakı illərdə Rusiya tərəfindən qadağan edildiyi qeyd olunsa da, lakin qadağaların adət-ənənənin tətbiqinə mane ola bilmədiyinə dair faktlara da rast gəlmək mümkündür. Belə ki, bu ənənə XX əsrin əvvəllərinə kimi, bəlkə də sonralar da gizli şəkildə tətbiq olunmağa davam etmişdir.

Şimali Qafqazın demək olar ki, bütün xalqlarının ictimai quruluşu qorumaq üçün tətbiq etdiyi bu uşaq tərbiyəsi ənənəsinin mənşəyi dəqiq deyil. Türkcə "ata" sözündən gələn bu ənənə Qafqaz xalqları tərəfindən uzun müddət və müxtəlif mənalarda istifadə edilmişdir. "Atalıq" institutunu yalnız bu və ya digər xalqın adına yazmaq və ya bunu həmin insanların sosial düşüncəsinin məhsulu kimi görmək düzgün olmazdı. Əslində, bu və buna bənzər qurumlar Qafqazın hüdudlarından çox-çox uzaqlarda, hətta tarixin müxtəlif dövrlərində də dünyanın müxtəlif xalqları tərəfindən istifadə edilmişdir. Müxtəlif xalqların bir yerdə yaşadığı Qafqaz regionunda zamanla "atalıq" institutunda ərazi və insanlara görə dəyişlik müşahidə olunmuşdur. Əsrlər boyu mülki-hüquq institutu kimi mövcud ol-

muş “atalıq” institutunun sosioloji-hüquqi təhlili bu institutun həyata keçirilməsinə baxışı daha aydın üzə çıxaracaqdır.

Atalıq – ümumi mənada, yeni doğulmuş uşağın öz ailəsindən kənarda təhsil aldığı adət-ənənə hüquq institutudur. Bu təcrübədən əsrlər boyu Şimali Qafqazın demək olar ki, bütün xalqları tərəfindən istifadə edilmişdir. Məlumdur ki, dağlı xalqlarının öz uşaqlarını başqasına verməsinin səbəbləri çox fərqlidir. Keçmiş səyyahların və salnaməçilərin fikrincə, dağlılar övladlarının ərköyün böyüməsini istəmirdilər. Ona görə də onu yaxın dostuna təhvil verir beləcə inanırdılar ki, uşağın bu cür tərbiyəsi onun gələcəkdə cəmiyyətdə hörmətli bir insan kimi yer almasına şərait yaradacaqdı. Bir çox tədqiqatçıların yazılarına əsasən, “Atalıq” institutu Qafqazda çərkəzlərə xas bir ənənə olduğu düşünülür. Əslində, tarixi mənbələrdə Krım xanlarının övladlarının Qafqazda Adıgey-Çərkəz adət-ənənələri ilə tərbiyə almaları bu arqumenti daha da gücləndirir [2; 3; 5; 13]. Qafqaz xalqlarının geniş şəkildə istifadə etdiyi bu qurum təkcə çərkəzlərlə məhdudlaşmır, cəmiyyətdən cəmiyyətə, dövrdən dövrə dəyişir.

Müxtəlif Qafqaz tayfaları arasında türklərin ailə həyatında rastlaşdığımız atalıq, Səlcuqlarda mövcud olmuş atabəyiliklə bir az da yaxınlıq göstərir. Qafqazdakı bəzi türk ailələri azyaşlı uşaqlarını tərbiyə və təhsil üçün başqa ailələrə verir, uşağın təhsili ilə məşğul olan bu ailənin başçısına atalıq deyirdilər. Bu üsulun Krım xanlarının şahzadələrinə də şamil edilməsi Səlcuqlardakı atabəylik institutunun əcdadla bağlı ola biləcəyi dair fikirləri gündəmə gətirir. Məlum olduğu kimi, “atalıq” sözü türk sözüdür və bir çox dağ xalqlarının dilinə beləcə daxil olmuşdu. Eyni söz rusşünaslıqda öz mənşəyini qoruyub saxlamış və əlaqəli şəkilçinin artması ilə “atalıçestvo” kimi təcəssüm edilmişdir. Bundan əlavə Göktürklər dövründəki atalıq təşkilatının nümunələri də tapılmışdır. Səlcuqlar dövründə “atabək” adı ilə tanınan bu ənənə Qafqaz və İdil bölgələrində yaşayan Bulqar türklərində də müşahidə edilirdi.

Atalığın ailəsi ilə övladlığa götürülənin ailəsi arasında ömürlük yaxın münasibət olurdu. Bu yaxınlıq qohumluq əlaqələri qədər, hətta ondan da vacib idi. Ona görə də deyə bilərik ki, atalıq institutu “süni qohumluq” institutudur [3, s.23-25]. Şimali Qafqaz xalqlarında valideynlər və uşaqlar arasındakı davranış qaydaları adət hüququ ilə nizamlanır. Bu normalar valideynlərin xüsusilə ataların öz uşaqlarına münasibətində nümayişkaranə təmkinliliyini nəzərdə tutur. Şimali Qafqazın bütün xalqlarında ata özündən böyük, yaşlı olan şəxslərin yanında uşaqların əllərindən tuta, onları əzizləyə, onlarla oynaya bilməz. Ana da uşağın dünyaya gəlişindən sonra özünü elə aparır ki, sanki onunla uşaq arasında heç bir ümumilik yoxdur, o, yalnız uşaqlarının adları ilə bağlı olan qadağalarda nəzərdə tutulan göstərişləri yerinə yetirir [6, s.93].

Atalıq yetişdirilən uşağın ikinci atası olub (mənəvi ata), bəzən əsl-doğma atadan daha yaxın olurdu. Atalığın xanımı yetişdirilən şəxs üçün ikinci ana, qızları və oğulları isə bacı və qardaş olurdu. Uşağın təhsilinə atalıq öz doğma atasından daha diqqətli idi və öz övladları ilə müqayisədə atalıq himayəsindəki uşağa daha diqqətli olurdu. Əslində, bu vəzifə onun üçün son dərəcə vacib idi. Çünki himayəsinə götürdüyü uşaq yeniyetməlik yaşına çatdıqda döyüşmək, silah işlətmək, at sürmək, qənimət əldə etmək və s. xüsusiyyətlərə malik olmalıydı [13]. Uşağın atalıq evindəki həyatı boyu müəyyən mərasimlər, tədbirlər keçirilirdi. Məsələn, uşağın yeriməyə doğru ilk addımını möhtəşəm şəkildə qeyd edirdilər. Bir yaşı olanda uşağı öz ailəsinə, qohumlarına göstərirdilər. O zaman atalıq da müxtəlif hədiyyələrlə mükafatlandırılırdı.

Oğlan atalıq yanında yaşadığı aldığı müddətdə valideynləri ilə yalnız bir-iki dəfə görüşə bilərdi. Lakin görüş zamanı valideynləri heç bir şəfqət və mərhəmət göstərmir, hətta çox vaxt uşağı tanımırmış kimi davranırdılar. Əslində, uşağın kimi gördüyü barədə heç bir real məlumatı olmurdu. Çox vaxt kimə göstərildiyindən xəbərsiz idi. Ona görə də atalığın yanından qayıdan gəncin öz doğma ailəsinə alışması üçün bəzən illər lazım olurdu [3, 28-29]. Fərqli atalar tərəfindən yetişdirilən qardaşlar arasında yadlaşma vəziyyəti hökm sürürdü. Digər tərəfdən atalıq evi ilə mənəvi doğmalıq var idi. Süd qardaşları və bacıları arasında qurulan qohumluq müqəddəs idi. Ona görə də atalıq ilə doğma ailə arasında mübahisə yarananda atalıq ilə böyüyən gənc çox vaxt atalığın tərəfini tuturdu.

Etnoqrafik müşahidələrə görə, xüsusilə atalığın həyat yoldaşı övladlığa çox maraq göstərirdi. Burada insanlar arasında ümumi bir inancın da təsiri olmuşdur. Bu inanca görə, övladlığa götürülən oğlanın atalıq tərəfindən başına gələcəyi hər hansı bir zərərin əvəzində atalığın ailəsi, xüsusən də onun həyat yoldaşı mütləq bədbəxtliklə üzləşəcəkdi. Atalıq tərbiyə etdiyi uşağa güclü emosional bağ-

larla bağlanırdı. 16-17-ci əsrlərdə tətbiq edilən adət-ənənələrə görə, əgər uşaq həyatını itirərdisə, atalıq yas əlaməti olaraq qulaq məmələrini kəsirdi. 18-19-cu əsrlərdə bu ənənə itdi və yerini bir illik yas adəti aldı [11, s.18-19].

Atalığın mənşəyini və mahiyyətini şərh etmək üçün bir sıra cəhdlər var. Əvvəla, bu adətin yerli, qafqazlı deyil, alınma - türk və ya monqol olduğuna diqqət çəkildi. Başqırdlar uşaqları qohumuna böyütməyə verir, o, bunu özünə hörmət və inam əlaməti kimi qəbul edir və heç bir ödəniş almırdı və uşaq on yaşına qədər atalığın yanında qala bilərdi. Bəzi tədqiqatçılar bu adəti "ictimai nikah" dövründə atanın naməlum olması ilə əlaqələndirərək onu izah etməyə çalışmışdır: Uşaqlar çərkəzlərdən atalıq rolunu öz üzərinə götürmək istəyən kənar bir şəxs tərəfindən tərbiyə olunmaq üçün verilirdi, çünki onların bu və ya digər ataya aid olması şübhə doğururdu [7, s.96-97]. Burada qarışıq nikah olduğundan, eyni qardaşlığın bütün üzvlərinin eyni dərəcədə analarının əri ola biləcəyindən başqa heç bir səbəb yoxdur. Yalnız bu və ya digər insanın onları açıq şəkildə tanıması onları öz övladına çevirdi. Bunun üçün bu və ya digər ailədə bir dünyaya gəlmək kifayət deyildi, övladlığa götürmə də tələb olunurdu: övladlığa götürmə, yuxarıda təsvir edilən yetkin oğlunun atalıq tərəfindən anasının ərinin əlinə verilməsi formasını aldı.

Bəzən atalıqin intiqamı dayandırmaq və döyüşən tərəfləri barışdırmaq üçün ümumi vasitə olduğuna dair əlamətlər var. Atalığın başqa bir kifayət qədər ümumi təfsiri göstərir ki, buradan yaranan münasibətlər və süni qohumluq dostlar və himayəçilər olduğunu göstərirdi. Bu mövqeyi inkişaf etdirən tədqiqatçılar, uşağın valideynləri ilə tərbiyəçiləri arasında əmlak və ya sinif asılılığının olduğuna əsaslanırdılar və bununla izah edirdilər ki, atalıq “atalıq institutu qarşılıqlı iqtisadi maraq əsasında yaranmışdır [3, s.23-27]. Eyni maddi maraq zəminində nüfuzlu və imkanlı bir ailənin oğlunu təhsilə aparmaq üçün ovçular arasında böyük rəqabət gedirdi. Bu təfsir bəzi atalıq hallarında mövcud olan münasibətlərin müəyyən elementini düzgün ifadə edir. Bəzi hallarda, həqiqətən, asılı bir şəxsin "güclü" müdafiəçinin simasında "güclü" bir himayədar əldə etmək istəyi və ya torpaqsız bir təhkimçinin, heç olmasa, bağlanmış şəkildə torpaq sahibi olmaq istəyi var idi.

Tədqiq olunan institutun qalan variantları fərqli bölgələrdə övladlığa götürmə kimi təsvir edilən adətlərdir. Məslələn, nənə qızının ilk uşağını övladlığa götürmək imtiyazından istifadə edir. Bank adalarında övladlığa götürmə geniş yayılmışdır. Burada müəyyən şərtlər daxilində övladlığa götürənin valideynlərin istəyinə zidd olaraq başqasının uşağını götürmək hüququ var və sonuncu buna mane ola bilməzdi. Övladlığa götürmə aktı uşağı övladlığa götürən qadına fidyə ödənilməsi ilə ifadə edilir ki, bu da adətən doğuşda olan qadının anası olur. Atanın övladını geri almaq hüququ var, lakin pul şərtləri o qədər ağırdır ki, bu, nadir hallarda mümkün olur. Uşaq adətən arvadın ailəsindən övladlığa götürülür; ərin qəbiləsindən uşağın övladlığa götürülməsinə yol verilmir. Burada doğuş faktını gizli saxlamağa çalışırlar. Uşağı övladlığa götürənlərə təhvil verdikdən sonra ata nəslinə yaxınlaşmağa belə cəsarət etmir. Göstərilən fidyə ana tərəfindən qidalanan uşaq doğulduqdan dərhal sonra ödənilir [13]. Bütün qidalanma müddətində övladlığa götürən anaya yemək verir və sonra uşağı götürür. Bank adalarının birində fidyə ödənilmir: uşaq övladlığa götürmək istəyən şəxsin anaya yemək verməsi kifayətdir. Ana uşağı eyni yeməklə yeyib yedizdirirsə, övladlığa götürmə bu aktla təsdiqlənir və uşaq dərhal övladlığa götürənə verilir. Bu vəziyyətdə uşaq övladlığa götürənin arvadı və ya başqa bir qadın tərəfindən qidalanır. Çox vaxt uşaqlar başqa kənddən övladlığa götürülür, burada övladlığa götürən çox vaxt evdəki uşaqların təbii və ya girov qardaşı hesab olunurdu.

Çox xarakterik olan, məsələn, ilk oğlunun doğulmasından sonra həyata keçirilən aşağıdakı mərasimdir. Qucağında yeni doğulmuş qadınlardan biri qapıda dayanır; uşağa əlində kiçik bir yay verilir. Bir qədər məsafədə, yeni doğulmuş körpənin bütün ana xətti üzrə dayıları toplanır və uşağı olan qadına küt oxlarla atəş açmağa və ya limon atmağa başlayır. Qadın döyülməməyə çalışır. Bir müddət sonra bu mərasim uşağın atası tərəfindən dayılara fidyə ödəməklə dayandırılır. Daha sonra atanın bacısı uşağı qucağına alır və ona deyir ki, “arvadınla kəndə qayıdırsan”. Eyni mərasim digər bölgələrdə bir qədər fərqli şəkildə keçirilir. Burada uşaq daxmada qalır və soğan almır, ata isə qapının ağzında dayanır, yeni doğulmuş körpənin dayılarına eyni qaydada limon və ya digər meyvələr atılır. Mərasim hücum edənlərə fidyə verilməsi ilə eyni şəkildə başa çatır [12, s.225-228]. Eyni qrupun digər adalarında, həmçinin ilk uşaq doğulduqdan sonra, arvadın və ərin qohumları arasında atanın arvadın qohumlarına fidyə ödəməsi ilə başa çatan xüsusi uydurma döyüş mərasimi keçirilir. Nəhayət, eyni arxi-

pelaqda, arvadın ilk hamiləliyinin başlaması ilə, ər gələcək yeni doğulmuşun dayısının iştirak etdiyi bir bayram təşkil edir və hədiyyələr alır. Eyni kompleks, açıq-aydın, atanın hər doğulan uşaq üçün arvadın qohumlarına müəyyən bir məbləğ ödəməsini ehtiva edir.

"Atalıq" institutunun dövlətin təşkilində heç bir siyasi rolu olmadığı görünsə də, taxt-tac uğrunda mübarizələrin arxasında duran ən mühüm amillərdən biri də elə məhz bu institut olub. Şahzadələr güclənərək taxtı ələ keçirməsi üçün keçmişdə onun atalığı olmuş şəxs və mənsub olduğu tayfa güc mərkəzinə çevrilərək hərəkətə keçmiş, xanlığın taleyinə təsir göstərmişdir. Atalıq adəti xalqlar arasında mənəvi və mədəni dəyərlərin mübadiləsi baxımından müsbət qiymətləndirilmişdir. Tədqiqatçıların fikrincə, atalıq ənənəsi müxtəlif tayfalara mənsub dağlı ailələri arasında sülhə və yaxınlaşmaya kömək edirdi, üstəlik, bu tərbiyə üsulu ilə uşaqlar yad dialektlərdə danışa bilirdilər və bu, gələcəkdə müxtəlif dillərin danışıldığı bir mühitdə son dərəcə faydalı olurdu [8, s.45-48].

Tərbiyə edilən uşağın ailədə qalma müddəti iki ildən yetkinliyə qədər dəyişirdi. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində uşaq adətən iki yaşına qədər atalığın evində qalırdı. Uşağı yedirtmək, geyindirmək, silahdan istifadə etmək, ev işlərini idarə etmək, oxuyub yazmağı öyrətmək atalığın ailəsinin üzərinə düşürdü. Qız uşağı gələcəyin evdar xanımı kimi böyüdülürdü. Əl işlərinə, yemək bişirməyə, evdə asayişi və rahatlığı qorumağa çox vaxt sərf etməli idi. Atalık həyat yoldaşı ilə qızını bir neçə günlüyə evlərinə aparacaqdı. Bəzən valideynləri uşağı görməyə gəlirdilər. Tərbiyə edilən uşaq doğulduğu evə qayıdanda varlılar ona gözəl paltarlar alıb qiymətli at hədiyyə edərdilər, kasıblar isə kiçik hədiyyələrlə kifayətlənərdilər. Atalıq kifayət qədər böyük xərc tələb edirdi[9, s.349-351]. Ona görə də zaman keçdikcə bu ənənə yalnız cəmiyyətin yüksək təbəqələri arasında yayılmağa başlamışdı. Belə ki, 11-ci əsrdə bu qurum Qafqazda feodal quruluşunun möhkəmlənməsinə təsirsiz ötüşməmişdi. Əslində qoruyucu-qorunan (tabe-vassal) münasibətləri "Atalıq" institutu sayəsində inkişaf edirdi. 1822-ci ildə Qafqazı işğal edən general A.P.Yermolovun verdiyi sərəncamda "...bütün kabardiyalı mülkədarlara öz uşaqlarını digər xalqlara vermək qadağan olunmuş, uşaqların Kabardada tərbiyə alınması tapşırılmışdı [7, s.96-97]. Əvvəllər atalıqlara verilən uşaqların isə "dərhal geri qaytarılması" əmr edilmişdir. Həmin müddətdən sonra da atalıq institutu mövcud olsa da zamanla tamamilə ləğv edilmişdi.

Atalıq qurumunun qan düşmənçiliyinin aradan qaldırılması da mühüm rol oynadığı iddia edilir. Belə ki, qan davasına qurbanın ailələri ilə qatil arasında atalıq əlaqəsinin olduğunu müəyyən etməklə son qoymaq olardı. Beləcə bir-birinə qan düşməni olan iki tayfa arasında sülh yaranırdı. Eyni zamanda aralarında düşmənçilik olan dağlılar uşaq qaçırtma adətindən istifadə edirdilər. Beləliklə, ailələr və tayfalar arasında davam edən və qarşısıalınmaz qan davalarına son qoymaq üçün qaçırılan uşağın təhsili ilə sülh əldə edilirdi. Uşağı geri gətirəndə heç bir ziyafət keçirilməsə də, hər iki ailə qohum sayıldığından dava sona çatmış sayılırdı.

Qafqazda uşaqların ailədəki davranışı bütövlükdə bütün yaşlı şəxslərə hörmət olunması və itaətlə fərqlənir. Lakin bu məqamda uşaqların ciddiliyinin dərəcəsi yaşdan asılıdır. Burada iki yaş həddini ayırmaq olar: 6-8 və 10-12 yaşlar. Uşaqlar cinsindən asılı olmayaraq 6-8 yaşlarınadık əməli olaraq heç bir şeylə məhdudlaşdırılmırdılar: oğlanlar və qızlar bir yerdə oynayırdılar, onları əmək fəaliyyətinə cəlb etmirdilər. 6-8 yaşlarından etibarən uşaqları – oğlanları və qızları tədricən bir-birindən ayırmağa başlayırdılar [1, s.81-89]. Özü də bu yaşda olan qız uşaqlarına daha ciddi yanaşır, onları qadınların yerinə yetirdikləri ev işlərinə cəlb edirdilər.

10-12 yaşlarında olan oğlan uşaqlarını bu məqamadək valideynlərlə birlikdə yaşadıqları ümumi otaqdan qonaq, kunak otağına, qız uşaqlarını isə xüsusi otaqlara keçirirdilər. Oğlan uşaqlarına kişi paltarının daha tam dəstini, qız uşaqlarına isə korset, bellik geyindirirlər və qızlar həmin belliklərdən, korsetlərdən ərə getmə məqamınadək istifadə edirdilər. Bu zamandan etibarən qızlar hətta cinsi yetkinlik həddinə çatmasalar da, özlərinin yetkin xanımlar kimi aparmalı idilər. Qaranlıq düşəndən sonra həmin qızlar evdən kənarda ola, yeniyetmə və gənc oğlanlarla birlikdə qala bilməzdilər. Bu yaşda olan uşaqlar ictimai yerlərdə davranışın etiket qaydalarının bütün kompleksini mənimsəməli idilər[6, s. 99].

Oğlanlar bu fikirləri mənimsəyirlər ki, "hər bir yaşlı şəxs onlardan yardım istəyə bilər və bu xidməti göstərməkdən imtina etmək, böyüklə birinci olaraq danışmaq, böyükləri ötmək və yaxud onların yolunu kəsmək olmaz" və s. Həm oğlanlar, həm də qızlar bu yaşadək böyüklərə və əks cinsdən

olan şəxsə diqqətin qaydalarını mənimsəməli və yerinə yetirməlidirlər. Özü də qızlar öz yaşıdları olan oğlanlara hörmətlə yanaşmalı idilər: yolu və yeri onlara verməli idilər, çünki Şimali Qafqaz mühitində "kişi qadından böyük sayılır". Bu zaman oğlanlar və qızlar artıq "qarşılıqlı yadlaşma" işarələrini nümayiş etdirməlidirlər. Bununla belə Şimali Qafqazda cinslərin "qarşılıqlı yadlaşmasını" şişirtmək də lazım deyildir. Region xalqlarının ənənələrində gənclərin ünsiyyətinin adətlərlə, ənənələrlə izacə verilmiş, təsdiq olunmuş formaları (söhbətlər, xalq oyunları, mərasimlər və s.) mövcuddur.

F.İ.Leontoviç atalığın, "atalıq" təsisatının əhəmiyyətini bu cür izah etmişdir. Dövlət quruluşu olmamış, fasiləsiz müharibələrdən, knyaz evlərinin, nəsillərinin düşmənçiliyindən, qan qisasından parçalanmış çərkəz cəmiyyəti "atalıq" institutunda, təsisatında hər bir ailəyə dayaq, əlaqələr məcmusu və geniş ərazini əhatə edən qohumluq əlaqələri vasitəsi vermişdir. "Atalıq" təsisatı, institutu ailələri və nəsilləri bir-biri ilə sıx şəkildə birləşdirirdi. Qeyd edək ki, ali zümrədən olan Şimali Qafqaz qızlarını da doğma ocaqlardan kənarda tərbiyə edirdilər. F.İ.Leontoviç yazmışdır: "Çərkəz knyaginyası və yaxud zadəgan qızı, qadını 12 və yaxud 13 yaşlarında, bəzən isə ərə getmək ərəfəsində "atalığa" verilirdilər. Knyaginyalar adətən varlı zadəganın arvadının tərbiyəsinə verilirdilər. Həmin "atalıq" – qadınlar qızları qadın işlərini yerinə yetirməyə öyrədir, onlara gələcək vəziyyətlərini izah edirlər [5, s.148].

Atalığın tətbiqinin könüllü olduğu kimi, zorakı bir forması da olurdu, yəni uşağın qaçırılması yolu ilə də atalıq edilirdi. Tetbu de Marignyinin dediyi kimi, hərdən yeni doğulan oğlan uşağını valideynlərinin xəbəri olmadan çərkəzlərdən qaçırırdılar və ertəsi gün qaçıran özünü qaçırılan uşağın atalıqı elan edirdi. Atalıqin ən qədim təsvirlərindən biri (1796) alman səyyahı M.Reynegsə məxsusdur. Reynegs kabardiyalılar haqqında deyir ki, bir şahzadənin oğlu olanda, şahzadənin və ya bu knyaz ailəsinin başqa bir üzvündən asılı olan şəxslərdən biri ("kul") xahiş və hədiyyələrlə yeni doğulmuş uşağın anasını razı saldı və o, uşağı oğurlamağa icazə verirdi. Ana razılaşsa, bu namizəd gecə yeddi "zadəgan"la birlikdə şahzadənin evinə gedib, uşağı götürüb yetkinlik yaşına çatdırmalı idi. Uşağın bütün tərbiyəsi dövründə bu "zadəganlar" şahidlik edirdilər, sonra uşaq valideyn evinə qayıdanda bu yeddi şahid and içərək geri qayıdan şəxsin oğurlanmış şəxslə kimliyini təsdiqləyirdi [10, s.21-24].

Atalıq institutunun genezisinin öyrənilməsinin müasir tarixində iki əsas istiqaməti ayırd etmək olar. Onlardan birincisi və ən erkəni ümumi mənada onun mövcudluğunun səbəblərini xalq içərisində yayılmış şərhlə izah edirlər, Belə ki, uşaqların (xüsusilə oğlanların - gələcək döyüşçülərin) ciddi tərbiyəsinə ehtiyac var idi və bu da yalnız yad şəraitdə, himayəsindən valideyn kənar ailə mümkün ola bilərdi. Son zamanlar çərkəzlərin (kabardinlərin) tədqiqatçıları arasında atalığın mənşəyini hərbi təhsillə, təlimlə bağlayan bir nəzəriyyə yaranmışdır. İkinci izaha əsasən, atalıq ən qədim cəmiyyətlə əlaqədar olaraq yaranmış, ümumbəşəri tarixi xarakter daşıyan xüsusi qurum olmuşdur. Atalığın genezisi probleminə toxunan tədqiqatçılar hesab edirdilər ki, qədimdə bu adət universal idi və onun köklərini qədim zamanlarda - çoxarvadlılıq və ata qanununun olmaması ilə xarakterizə olunan ana qəbilə və əvvəlki nikah adətləri dövründə axtarmaq lazımdır. M.O.Kosven də atalığın ibtidai köklərə malik olduğuna inanırdı, lakin o, "icma nikahı" nəzəriyyəsini tənqid edərək, onu "son dərəcə süni və hətta uydurma" adlandırırdı [4, s.47]. Dağlıların təhsil sisteminin formalarından biri kimi kökləri əsrlərin dərinliklərinə, keltlərin, almanların, monqolların, slavyanların və türklərin feodallaşmış cəmiyyətinə gedib çıxan konkret qurum - atalıq olmuşdu. Bu adət əhalinin etnopedaqogikasında da özünəməxsus yer tutmuşdur. "Atalychestvo" termini türkcə "atalık" sözündən olub, "ata kimi", "atalıq" və ya "uşağı böyütməyə götürən atanı əvəz edən şəxs" mənasını verir. Bu sözün etimologiyasından da aydın olduğu kimi, atalıq adətinin mahiyyəti ondan ibarət idi ki, qeyri-sabitlik və daxili müharibələr şəraitində insanlar (çox vaxt qonşu tayfalardan olanlar) bir-birinin övladlarını, adətən, yetkinlik yaşına çatana qədər böyütmək üçün götürüb, bir-birinin övladına çevrilirdilər. onların atal-kami, pedaqoqları, bu isə bu ailələr arasında qohumluq əlaqələrinin qurulmasını nəzərdə tuturdu.

***Nəticə.*** İnsan cəmiyyətində ən qədim dövrdən qarşılıqlı münasibətləri tənzim edən normalar mövcud olmuşdur. Belə normalar uzun müddət nəsildən-nəslə keçərək təkrar olunduğundan adət halına keçmiş, tədricən davamlı xüsusiyyət daşıyaraq, hər hansı cəmiyyətin hüquq sisteminə çevrilmişdir. Öz konkretliliyi, ənənəviliyi və varsiliyi ilə seçilən belə hüquq sistemi insanların davranışlarını nizamlamaqla yanaşı, həm də təkmilləşərək, ilk vaxtlar cəmiyyətdə əhəmiyyətli, həlledici məsələlərin həllində, mühüm qərarların verilməsində əsas rol oynamışdır. Məhz bu baxımdan, atalıq institutu

qafqaz xalqlarının əksəriyyətində qeydə alınmış maraqlı və əhəmiyyətli sistem olub, sosial institutlardan birinə çevrilmişdir. Maraqlıdır ki, hər hansı yazılı normaların olmaması, vərdişlər əsasında qorunub saxlanan adətlər elə qədim, ilkin hüququ sistemin özəyini təşkil etmişdir. Hər bir nəsil ata-babasının ona ötürdüyü atalıq adətini növbəti nəsilə olduğu kimi çatdırmağı özünə borc bilmiş, bununla da qədim adətin ən sərt qaydaları belə uzun müddət itib getməmişdi. Sonradan, hüquq sistemi yazılı, normativ nizamlama kimi formalaşdıqda belə, atalıq adətini bəzi xüsusiyyətləri də saxlanılmışdır. Müasir dövrdə də Qafqaz xalqlarının məişətində az da olsa, atalığın izlərini görmək mümkündür. Əyalərlərdə, ucqar kənd yerlərində şəhərlərə nisbətən adət hüququna əsaslanan davranış normaları daha çox müşahidə olunur. Bütövlükdə, cəmiyyətin tamlığını, bütövlüyünü, kollektiv məsuliyyəti və ədalətli davranış xüsusiyyətlərini göstərən cəhətlər bu sistemin əsasını təşkil edir. Qafqaz xalqlarında, xüsusən, türk xalqlarında ailənin ən mühüm, səciyyəvi xüsusiyyətlərindən biri onun ənənəvi olması, ənənələrə bağlılığıdır. Ənənələrə bu bağlılıq özünü hər şeydən öncə əsrlərlə qərarlaşmış əxlaqi prinsiplərə və əxlaq normalarına əməl olunmasında, qədim adət və ənənələrə sarsılmaz, mətin sədaqətdə, bağlılıqda qərarlaşmış əxlaq normalarının qorunmasında göstərir. Bölgədə ailə-qohumluq münasibətləri humanist, insanpərvərlik meyilli mədəni normaların, dəyərlərin tam sistemi ilə təşəkkül tapmış və müdafiə olunmuş, dəstəklənmişdir. Ailə ənənələri mədəni təcrübənin əsrlər boyunca nəsildən nəslə ötürülməsinə şərait yaradırdı. Qafqaz xalqlarının ənənəvi ailəsində münasibətlərin əsas nizamlayıcısıları adətlər və ənənələr olmuşdur.

## ƏDƏBİYYAT

1. Бгажноков Б.Х. Социальная организация семьи. Нальчик, Издательский отдел КБИГИ, 2010, 160 с.
2. Гаджиева С.Ш. Аталычество и побратимство в Дагестане XVIII - начале XX вв. Махачкала: Дагестанское книжное издательство, 1995, 152 с.
3. Гусейнов Г.М., Гичибекова Р.М., Шабанова Л.К. / Аталычество – мировоззренческий аспект защищенности детей в социальном опыте горцев Дагестана: ориентиры, категории, ценности // Вестник Майкопского государственного технологического университета, 2019, Вып. 4(43), с.23-33.
4. Косвен М.О. Этнография и история Кавказа. М.: Наука, 1961, 258 с.
5. Леонтович Ф.И. Адаты кавказских горцев. Нальчик: «ЭЛЬ-ФА», 2002, 263 с.
6. Малявина Г. И, Василенко В. В., Земцева Л. Ф. Национальный этикет. Учебное пособие. Федеральное государственное автономное образовательное учреждение высшего образования «Северокавказский Федеральный Университет». Ставрополь, 2017, 194 с.
7. Тория Ж. Н. Традиционные устои воспитания на Кавказе: вчера, сегодня, завтра // The European Jornal of Economics and management Sciences, Section 7, Sociology, №1, 2020, p.96-99.
8. Харсиев Б.М-Г. Обычаи семьи и семейного быта горцев Кавказа XIX-начала XX века / Магас: ООО «Пилигрим», 2015, 140 с.
9. Хасбулатова З. И. Традиционная культура воспитания детей у чеченцев (XIX – начало XX века). Диссертация на соиск. уч. ст. д-ра ист. н. Москва, 2015, с.349-355.
10. Barut A. Kırım Hanlığı ile Kuzey-Batı Kafkasya İlişkilerinde Atalık Müessesesinin Yeri // Emel Dergisi, Sayı: 219, 1997, s.21-24.
11. Soysal A. Kırım Hanzâdelerinin Kafkasya'dan Talim Ve Terbiyesi // Emel Dergisi, 36, İstanbul 1966, s.17-25.
12. Tavkul U. Kırım-Kafkasya İlişkilerinde "Atalık" Kurumunun Kökeni Üzerine Değerlendirmeler // Karadeniz Araştırmaları, Sayı:51, Güz 2016, s.223-232.
13. Ali Asker. Kafkas toplumlarının adet hukukunda "atalık" müessisesi / II Turk hukuku tarihi kongresi bildirileri. - https://cdn.istanbul.edu.tr/FileHandler2.ashx?f =kafkas-toplumlarinin-adet-hukukunda-%E2%80%9Catalik%E2%80%9D-muessesesi_ali-asker_hakim-aziz.pdf [24.10.2022].

**ГЮНЕЛЬ НУРУШОВА**
*Докторант Бакинского Государственного Университета*

## ОБЫЧНОЕ ПРАВО В СЕМЕЙНОЙ ЖИЗНИ

Обычное право по-разному существовало в семейной жизни многих народов. Семья является носителем культурно-традиционных основ и особенностей каждого этноса. Семья социальный и общественный институт, и ее тип, состав, вся жизненная структура, система, порядок, правило, форма всегда соответствуют общим социально-экономическим условиям и условиям ее существования в широкой исторической перспективе. Структура семейно-бытовой системы, созданная под влиянием определенного комплекса социально-экономических факторов, становится самостоятельной по отношению к сферам общественной жизни, быту. Следует отметить, что сфера семейно-бытовой жизни более закрыта, чем сфера общественной жизни, и в силу этой закрытости более консервативна. Семейные обычаи, традиции, правила, обряды, ритуалы обладают важной косностью и инерцией. В этих обычаях и традициях всегда есть значительные остаточные случаи. Определенное количество этих остаток, либо не приспособлены к нововведениям современной жизни, либо не приспособлены вовсе. Регулирование внутрисемейных отношений, а также расширение отношений в обществе представляли собой ряд обычаев, служивших сохранению единства внутри общины в сложившихся условиях расслоения. Одним из них был «институт отцовства». По существу равноправие, сплоченность между членами общины вне зависимости от их материального положения, метод пресечения кровной мести, метод приучения ребенка к коллективизму, мужеству и ответственности, этот интересный, но исчезающий обычай является одним из нынешних и в то же время интересных проблемы.

*Ключевые слова*: обычай, семья, быт, аталычество, нация, традиция.

**GUNEL NURUSHOVA**
*Doctoral student of Baku State University*

## CUSTOMARY LAW İN FAMİLY LİFE

Customary law has existed differently in the family life of many peoples. The family is the bearer of the cultural-traditional foundations and characteristics of each ethnic group. The family is a social and public institution, and its type, composition, all vital structure, system, order, and form always correspond to the general socio-economic conditions and circumstances of its existence. The family-household system, the structure of which is formed due to the influence of a certain complex, totality of socio-economic factors, becomes independent in relation to the spheres of public life, household, living. It should be noted that the family-household sphere, its field is more closed than the public sphere, and due to this closedness it is more conservative. Family customs, traditions, rules, ceremonies, rituals have important inertia, passivity. There are always considerable residual cases in these customs and traditions. Some of these cases are either not adapted or little adapted to the innovations of modern life.

There have been a number of customs that have served to regulate intra-family relations, as well as to expand ties in society, to maintain unity within the community in the current conditions of stratification. One of them has been the "institute of paternity". Essentially equality, closeness between community members regardless of their financial means, a method of suppressing blood

feuds, and a method of accustoming a child to collectivism, courage and responsibility, this interesting but disappearing custom is one of the current and at the same time interesting problems.

*Keywords*: custem, family, mode of life, paternity, nation, tradition.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.e.d. Şirin Bünyadzadə, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 930:314**

**HİKMƏT ƏHMƏDOV**
*Bakı Dövlət Universitetinin*
*Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində*
*"Dünya Azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-nin böyük elmi işçisi t.ü.f.d.*
**TarixVeOnunProblemlery@gmail.com**

# XIX ƏSRDƏ YELİZAVETPOL (GƏNCƏ) ƏHALİSİNİN TƏHSİL SƏVYYƏSİ VƏ MƏŞĞULİYYƏTİ

*Məqalə XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyası əhalisinin təhsil səviyyəsinə və məşğuliyyətinə həsr olunub. İşdə XIX əsrdə keçmiş Gəncə xanlığının ərazisində yaranan Yelizavetpol quberniyasında yaşayan azərbaycanlıların təhsil səviyyəsinin, ilk rus-tatar məktəblərin açılması, məktəblərdə dərslərin müasir qaydada keçilməsi, təhsil alanlar arasında azərbaycanlı qızların sayı qeyd olunur. Bununla yanaşı Yelizavetpol quberniyası əhalisinin məşğuliyyəti, Çar rusiyasının ərazidə keçirdiyi islahatlar, istehsal münasibətləri, ticarətin inkişafı, aqrar münasibətlər və bu kimi aktual məqamlar məqalədə elmi təhlil olunub.*

*Açar sözlər:* əhali, inzibati-ərazi bölgüsü, milli, qəza, dairə, bələdiyyə, qəsəbə, kənd, kənd soveti, şəhər, şəhər soveti, inzibati mərkəz, əhalinin siyahıya alınması.

***Giriş.*** XIX əsrdə Çar Rusiyasının apardığı Ümumrusiya siyahıyaalmalarda və digər məlumatlarda Yelizavetpol (Gəncə) quberniyası ərazisində yaşayan əhalinin milli tərkibini, təhsil səviyyəsini, məşğuliyyətini, bölgələr üzrə yerləşməsini və digər mühüm məqamları qeyd olunur. Problemin araşdırılmasında kameral siyahıyaalınmalarından, 1897-ci il siyahıyaalması da daxil olmaqla əvvəlki dövrlərdə, XIX əsrdə keçirilən bütün siyahıyaalmaların nəticələrindən istifadə etməklə və elmi təhlil edərək işğal dövründə Yelizavetpol (Gəncə) quberniya ərazisində əhalinin bölgələr üzrə yerləşməsi, təhsil səviyyəsi, məşğuliyyəti haqda geniş məlumat toplamaq olar.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasında yaşayan əhalinin tərkibi, məşğuliyyəti, təhsil səviyyəsinin öyrənilməsi müasir dövr tarixşünaslığımızda mühüm rola malikdir. Belə ki, XIX əsrdə İranla Çar Rusiyası arasında bağlanmış 1813 və 1828-ci il məlum müqavilələri əsasında İrandan və digər ərazilərdən Şimali Azərbaycan ərazisinə, o cümlədən də Yelizavetpol (Gəncə) quberniyası ərazisinə köçürülüb gətirilmiş ermənilərin sayının artması, azərbaycanlılara nisbətən çəkisini, təhsilə əlçatanlığını dərindən öyrənmək günümüzün ən aktual məsələlərindən biridir. Araşdırılan mövzu bu günümüzdə də aktual olduğuna görə, xüsusən də ermənilərin Azərbaycana gəlmə olduqlarını sübut etmək üçün ən tutarlı vasitədir.

***XIX əsrdə Yelizavetpol (Gəncə) əhalisinin təhsil səvyyəsi və məşğuliyyəti.*** 1804-cü il yanvarın 3 də Çar Rusiyasının qoşunları Gəncə xanlığını işğal etdikdən sonra Gəncə şəhəri çar I Aleksandrın arvadı Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırıldı. Xanlıq üsul-idarəsi ləğv edilərək Yelizavetpol dairəsi yaradıldı. 1840-cı il 10 aprel islahatı nəticəsində dairə qəzaya çevrildi.

Yelizavetpol qəzası Gürcü-İmereti quberniyasının tərkibinə verildi. Qəza Yelizavetapol, Qazax, Şəmşədil və Ayrım məntəqələrinə bölünərək ərazidə qəza idarə sistemi təşkil olundu.

Çar Rusiyası ərazisində 1846-cı il 14 dekabr tarixli inzibati-ərazi bülgüsündən sonra Yelizavetpol qəzası yeni yaradılmış Tiflis quberniyasının tərkibinə daxil edildi. İmperiya ərazisində aparılan yeni inzibati-ərazi bölgüsündə Çar II Aleksandrın 1867-ci il 9 dekabr tarixli fərmanı ilə Yelizavetpol (Gəncə) quberniyası yaradıldı. Yelizavetpol şəhəri eyniadlı quberniyanın mərkəzi oldu. Quberniyanın ərazisi keçmiş Gəncə, Qarabağ, Şəki xanlıqlarının və Samux və Şəmşədil mahallarının ərazilərini əhatə edirdi. Quberniyanın tərkibinə Yelizavetpol, Şuşa və Nuxa qəzaları və ləğv edilmiş Ordubad qəzasının bir hissəsi daxil edildi. Yeni Qazax və Zəngəzur qəzaları yaradıldı. 1873-cü ildı Yelizavetpol quberniyasının tərkibində Ərəş, Cəbrayıl və Cavanşir qəzaları təşkil olundu. 1893-cü ilin məlumatına əsasən quberniya ərazisində yeni icmalar yaradıldı. Yeni icmaların yaradılmasının əsas səbəbi vergi yığmaq işinin asanlaşdırmaq və əhalinin sayının dəqiqləşdirilməsi üçün dağınıq halda yerləşən azsaylı əhalisi olan kənd və obaların vahid bir icmada birləşdirilməsi idi. Birləşdirilmiş icmalar: Vandam icması 917 ev, Vartaşen

icmsı 891 ev, Nic icması 816 ev, Xılxına icması 811 ev, Baş Göynük icması 725 ev, Xınzirək icması 613 ev, Goran icması 584 ev, Qutqaşen icması 584 ev və Tağlar icması 525 ev (7).

XIX əsr Azərbaycan xalqının müstəqil fikir tarixində mühüm dövrlərdəndir. Çünki, bu dövrdə işğalçı Çar Rusiyası həm Rusiya ərazisində həmdə işğal etdiyi ərazilərdə bir çox islahatlar həyata keçirməyə məcbur oldu. İslahatlardan sonra çar Rusiyasında ictimai-siyasi və iqtisadi sahələrdə əsaslı dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər fonunda Azərbaycanda meydana gələn yeni sahibkarların nümayəndələri, Azərbaycanın görkəmli ziyalıları bütün imkanlarından istifadə edərək xalqın milli şüurun oyanması, maariflənməsi, mədəni həyatının yüksəlməsi sahəsinə başçılıq etməyə başladılar. Təbii ki, bunların hamısını həyata keçirmək üçün bölgədə məktəblərin açılması mütləq idi.

Çar hökuməti işğal etdiyi ərazilərimizdə XIX əsrin 30-cu illərində Rusiyadakı məhəllə məktəbləri tipində qəza məktəbləri yaratmağa başladı. Belə məktəblərdən biri də 1833-cü ildə Yelizavetpolda açıldı. Qəza məktəbləri 3 sinifdən ibarət idi: birinci sinif hazırlıq sinfi hesab olunurdu. Iki yuxarı sinifdə şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsədən başlanğıc kurs, yerli dillər, hüsnüxət, rəsm və rəsmxət tədris olunurdu. Qəza məktəblərində ənənəvi məktəblərdən (mollaxanalar) fərqli olaraq, yeni dərs üsullar tətbiq olunur, dünyəvi elmlər öyrədilir, əlifba təlimində səs üsulu əsas götürülürdü. Şimali Azərbaycan ərazisində ilk "rus-müsəlman" məktəbi 1875-ci ildə Yelizavetpol (Gəncə) quberniyası Qazax qəzasında Salahlı kəndində açılmışdır (3, s.83).

Xüsusilə XIX əsrin II yarısında maarifçilik sahəsində dönüş başladı. Bu dövrdə Avropa və Rusiyada təhsil alan azərbaycanlı gənclər vətənlərində xalqımızın maarifçilik, ictimai-siyasi həyatında böyük fəallıq göstərirdilər. Görkəmli ziyalılarımız və ictimai xadimlərimiz A.A.Bakıxanov, M.F. Axundov, H.B.Zərdabi, Nəcəf bəy Vəzirov və digərləri xalqımızın maariflənməsi sahəsindəki səyləri əvəzsizdir. Yeni maarifpərvərlərin əsas məqsədi keçmiş şərq təhsil sistemindən müasir təhsil sisteminə keçilməsi idi. Bu yöndə yeni tədris məktəblərinin yaradılması qaçılmaz idi. Ziyalılarımızın zəhməti tədricən öz müsbət nəticələrini verməyə başladı. Onların təşəbbüsü və böyük mübarizəsi nəticəsində Şimali Azərbaycanda müasir dövrün tələblərinə uyğun məktəblər açıldı. Bu məktəblərdə istedadlı, lakin maddi cəhətdən imkanı olmayan məktəbyaşlı uşaqların oxumaları, sonrakı təhsil pillələrində himayədarlıq edilməsi məqsədilə milli burjuaziyanın köməyi ilə ilk müsəlman xeyriyyə cəmiyyəti - "Təhsil alan müsəlman uşaqlarına kömək cəmiyyəti" yaradldı.

XIX əsrin ikinci yarısında Yelizavetpol (Gəncə) quberniyası ərazisində xalq maarifinin inkişafında "rus-müsəlman" məktəblərinin mühüm xidmətləri var idi. Belə ki, bu təhsil mərkəzləri quruluşu, təhsil təşkilinin orjinallığı baxımından azərbaycanlılara məxsus və dövrün müasir pedaqoji tələblərinə uyğun məktəblər idi. Qeyd etmək lazımdır ki, bu məktəblərdə dərslər rus dilində və Azərbaycan dilində keçirilirdi (4, c.36).

XIX əsrdə Şimali Azərbaycanda, o, cümlədən də Yelizavetpol (Gəncə) quberniyasında açılan və azərbaycanlılar üçün nəzərdə tutulan "rus-müsəlman" məktəbləri savadın nisbətən yayılmasına kömək etsə də ümumiyyətlə bu məktəblər əhalinin təhsilə olan tələbatını ödəmək üçün kifayət etmirdi. Məktəblərin açılmasına baxmayaraq əhalinin əksəriyyəti savadsız idi.

XIX əsrin ortalarında Gəncədə xüsusi, yeni tipli məktəblər fəailiyyət göstərməyə başladı. 1860-ci illərdə bu məktəblərdə 198-ə yaxın şagird təhsil alırdı. Yeganə qız məktəbində 18 şagird təhsil alırdı. XIX əsrin 60-cı illərin ortalarında artıq Yelizavetpol (Gəncə) məktəblərində 981 nəfər təhsil almışdı. Xüsusilə qeyd etmək lazımdır ki, məktəblərdə təhsil alan şagirdlərin əksəriyyəti xristian əsilli gənclər idi.

1883-cü ildə Yelizavetpol (Gəncədə) şəhərində "Müqıddəs Nina" xeyriyyə cəmiyyətinin təşkil etdiyi qızlar gimnaziyası fəaliyyət göstərməyə başladı. Bununla yanaşı şəhərdə pedaqoji seminariya açılmışdı. Seminariyaya 18 tələbə qəbul olunmuşdur ki, onların da əksəriyyəti zəngin ailənin nümayəndələri idilər.

Yelizavetpol (Gəncə) quberniyası əhalisinin məşğuliyyəti haqda danışarkən qeyd etməliyik ki, XIX əsrdə quberniya iqtisadiyyatında və kənd təsərrüfatının inkişafında xeyli yeniləşmə və inkişaf müşahidə olunurdu. Xüsusilə də 1861-ci il 19 fevral tarixli təhkimçilik hüququnun ləğv edilməsi haqda Çar fərmanından sonra kəndlilərin azad edilməsi, pay torpaqları və mükəlləfiyyətlər haqda qanunun qəbul edilməsi Rusiya İmperisa ərazisində o, cümlədən də Yelizavetpol (Gəncə) quberniyasında kənd təsərrüfatı, ticarət, manufakturalar və s. sahələrdə də xeyli inkişaf müşahidə olunmağa başladı.

XIX əsrin əvvəllərində Gəncə xanlığında xanlıqlar dövründə olduğu kimi mülkiyyət forması mülk idi. Yəni hakim sinfin mülkiyyəti olan torpaq, meşə, otlaq onlara şərtsiz məxsus idi. Mülkədarlar öz mülklərini sata, bağışlaya, öz vərasələrinə irsən keçirə bilərdi.

*Gəncə şəhəri və onun mahallarının 2 mart 1804-cü ilə aid qısa kameral təsviri*

| *Kəndlərin adı* | *Evlərin sayı* | *Canlıların sayı* | | | | | *Əmlak* | |
|---|---|---|---|---|---|---|---|---|
| | | *Kişi* | *Qadın* | *At* | *Buynuzlu mal-qara* | *Qoyun* | *Bağlar* | *Əkin sahələri* |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Gəncə şəhəri, kəndlər | 213 | | | | | | | |
| 1. Kəlis kənd | 792 | 257 | 590 | 44 | 89 | 27 | 186 | ---- |
| 2. Çelambirt | 15 | 215 | 156 | 15 | 45 | --- | 5 | ---- |
| 3. İyirmi dörd | 28 | 130 | 100 | 18 | 3 | 34 | 9 | ---- |
| 4.Noraşen Mahalında: | 74 | 125 | 121 | 9 | 6 | ---- | 68 | ---- |
| 1.Boyan | 51 | 100 | 80 | 10 | 45 | 100 | 15 | 20 |
| 2. Quşçu | 8 | 30 | 23 | 7 | 40 | ---- | ---- | 25 |
| 3. Seyid kənd | 8 | 26 | 21 | 3 | 14 | ---- | ---- | 12 |
| 4. Təstiexça | 8 | 26 | 22 | 3 | 11 | 10 | ---- | 9 |
| 5. Covdar | 9 | 25 | 21 | 4 | 20 | 50 | ---- | 15 |
| 6. Zəqlik | 40 | 100 | 57 | 30 | 120 | 150 | ---- | 20 |
| 7. Barsum | 29 | 65 | 66 | 4 | 65 | 50 | 15 | 15 |
| 8. Barsum | 9 | 19 | 17 | 2 | 13 | ---- | 3 | 8 |
| 9. İmirzin | 13 | 28 | 17 | ---- | 18 | ---- | ---- | 15 |
| 10. Sonqrabad | 12 | 23 | 16 | 1 | 16 | ---- | 1 | 10 |
| 11. Qurut | 5 | 8 | 7 | ---- | 2 | ---- | ---- | 1 |
| 12. Qapanlu | 16 | 29 | 26 | | | | | |
| 13. Çamait | 60 | 100 | 70 | 7 | 60 | 70 | ---- | 20 |
| 14. Əbləh | 16 | 32 | 26 | 3 | 20 | ---- | ---- | 20 |
| 15. Qara keşiş | 7 | 15 | 10 | ---- | 10 | 50 | ---- | 10 |
| 16. Dulus | 12 | 25 | 20 | ---- | 2 | ---- | ---- | 4 |
| 17.Suluk | 14 | 26 | 14 | ---- | 5 | ---- | ---- | 10 |
| 18 Qaçikənd | 10 | 20 | 20 | ---- | 1 | ---- | ---- | 2 |
| 19.Qədis | 6 | 12 | 10 | ---- | 4 | ---- | ---- | 8 |
| 20. Köşk | 7 | 10 | 7 | ---- | 4 | ---- | ---- | 8 |
| Forştatda (bayır şəhərdə); şəhər alınandan oradan 2000 tatar (azərbaycanlı - E.B) ailəsi müxtəlif yerlərə getdi | 615 | 1189 | 1168 | 2 | 4 | ---- | 92 | ---- |

*Mənbə: Elgün Babazadə. Gəncə xanlığının tarixindən, s.151-152.*

XIX əsrin 70-ci illərindən sonra Yelizavetpol (Gəncə) quberniyasının ərazilərində yeni kapitalizm münasibətlərinin inkişafı sürətləndi. Kapitalizm dövründə sənətin elə sahləri inkişaf etmişdir ki, orada sənətkarlar malları sifarişlə deyil birbaşa bazar üçün hazırlayırdılar.

O dövrlər ən çox xalçaçılıq, toxuculuq və dəri emalı (dabbağçılıq) sahələri inkişaf etmişdi. Sənətkarliq öz əhəmiyyətini itirməmiş və əhalinin əsas məşğuliyyətinə çevrilmişdir. Yelizavetpol (Gəncə) quberniyası zadəganları öz kapitallarını imkişaf etməkdə olan emal sahələrinə qoyaraq yeni müəssisə-

lər açırdılar. Şərabçılıq, konyakn, spirtin və mahlıcın hazırlanması xüsusilə intensiv inkişaf edirdi. Yelizavetpol (Gəncə) sənaye müəssisələri əsasən "Forer qardaşları", "Qummel qardaşları", "Yelizavetpol", "Konkordiya", "Pobeda" və "Əmirxanov qardaşları" səhmdar cəmiyyıtlərinin əlində idi (8).

Rus fabrik-zavod mallarının Azərbaycana gətirilməsi nəticəsində burada müəyyən kustar sənaye sahələri süquta uğrayır. Məsələn , Gəncədə ağ, Şamaxıda və onun ətraflarında ipək parça, Nuxada papaqçılıq və ipək istehsalı və s. kimi kustar sənaye sahələri ya tamamilə məhv olmuş, ya da çox məhdudlaşdırılmışdı (1, s.27).

XIX əsr Yelizavetpol (Gəncə) quberniyası əhalisinin məşğuliyyəti haqda qeyd etmək lazımdır ki, bölgənin əhalisi əsasən kənd təsərrüfatı ilə məşğul olurdular. 1886-cı il məlumatına görə Yelizavetpol quberniyası ərazisində yaşayan əhali 1521 kəntdə, 3 şəhərdə yerləşmişdilər. Çar Rusiyası quberniya ərazisindən, 1892-ci il məlumatına görə, 20724 pud tənbəki, 30000 pud təmiz pambıq, 650000 vedrə şərab və digər kənd təsərrüfatı məhsulları daşıyıb aparmışdır.

***Nəticə.*** Tədqiqatın əsas elmi nəticəsi ondan ibarətdir ki, XIX əsrdə Çar Rusiyasının Yelizavetpol (Gəncə) quberniyası ərazisində həyata keçirdiyi diskriminasiya siyasəti, azərbaycanlılara qarşı aparılan ayrıseçkilik siyasəti, azərbaycanlı müsəlman əhalinin təhsildən kənar tutulması faktlarını aşkarlamaqdır. Azərbaycanlılardan fərqli olaraq Çar Rusiyası tərəfindən ermənilərin birmənalı müdafiə olunması, ərazimizdə ermənilərin sayının saxta yolla artırılması, erməni və xristian millətlərin təhsil almalarına şərait yaradılmasını və digər mühüm tarixi faktları araşdırmaq, faktlar əsasında düzgün nəticəyə gəlməkdir. Çar Rusiyası bilərəkdən azərbaycanlıların təhsil almasında bir çox əngəllər törədir, onların maariflənməsini istəmirdilər. Bunun əksinə olaraq Çar hakimiyyəti quberniya ərazisində yaşayan müsəlmanların kənd təsərrüfatında çalışmalarına şərait yaradır və əsas məşğulyətlərini inkişaf etdirərək azərbaycanlıların istismarını daha da gücləndirirdi. Bu siyasət Çar Rusiyasının Cənubi Qafqazı, o, cümlədən də Şimali Azərbaycan ərazisini ilhaq etməsinin başlıca qayəsi idi.

## ƏDƏBİYYAT


1. İzzət Rüstəmov. Həsən Bəy Zərdabi. Bakı, "Turan nəşrlər evi", 2012, 235 s.
2. Elgün Babazadə. Gəncə xanlığının tarixindən. (Rus dilindən (Bakı, 2003) tərcümə). Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 428 s.
3. Ахмедов Г. Из истории педагогики Азербайджана. Часть 2. Баку, 1993, с.83.
4. Мустафа-заде В.И. Роль просветителей Азербайджана и их борьба против схоластики за развитие светского школьного образование в Азербайджане. Баку, 1954, с.36.
5. Семйон Броневкий. Новейшия Географическия и историческия известия о Кавкзе. Москва, 1823, 289 с.
6. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Изд. по распоряжению главноначаль- ствующего гражд. частью на Кавказе Завкавк. Стат. ком. Тифлис, 1893 г., с.2.
7. Ethno-Caucasus. - http://www.ethno-kavkaz.narod.ru/zakatalyI1897.htmI [30.09.2022].
8. Gəncənin tarixi. https//web/arxchive.orq.. [30.09.2022].



**ХИКМЕТ АХМЕДОВ**

*Старший научный сотрудник научно-исследовательской лаборатории «Азербайджанцы мира: история-демография» кафедры истории Азербайджана (для естественных факультетов) Бакинского государственного университета, кандидат исторических наук*


# УРОВЕНЬ ОБРАЗОВАНИИ И ЗАНЯТНОСТЬ НАСЕЛЕНИИ ГЯНДЖИ (ЕЛИЗАВЕТОПОЛЬСКАЯ ГУБЕРНЯ) В КОНЦЕ XIX ВЕКА


В настоящей статье анализируется состав населения Елизаветпольской губернии в конце XIX века на основе материалов Всероссийской переписи населения, проведенной в Российской империи в 1897 году. Переписи анализировали население, браки, рождаемость и смерт-

ность в уездных полицейских участках и горных округах, а также постоянное и фактическое население.

*Ключевые слова:* населения, административно-территориальное деление, национальный состав, уезд, округ, муниципалитет, поселка, село, сельский совет, город, городской совет, административный центр, перепись населения.

**HIKMAT AHMADOV**
*The senior researcher of the scientific research laboratory "World Azerbaijanis: history-demography" under the Department of History of Azerbaijan (faculties of science) of Baku State University, Ph.D.*

## EDUCATION AND EMPLOYMENT OF THE POPULATION OF GANJA (ELIZAVETPOL PROVINCE) IN THE END OF XIX CENTURY

The present article is analyzing the composition of the population of Azerbaijan during this period by based on of the materials of the All-Russian Population Census, conducted in the Russian Empire in 1897. Censuses analyzed the population, marriages, births and deaths in the, district police stations and the mountainous districts, as well as the permanent and actual population.

*Keywords*: administrative-territorial division, national, municipality, township, village, village council, the city, the city council, the administrative center.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. Anar İsgəndərov.*

**UOT 930:314**

**GÜNAY AŞUROVA**
*Bakı Dövlət Universitet Tarix fakültəsi,*
*Dünya Azərbaycanlıları: Tarixi-demoqrafiya ETL-nin elmi işçisi*
**TarixVeOnunProblemlery@gmail.com**

# XIX ƏSRİN SONLARINDA YELİZAVETPOL QUBERNİYASININ ƏHALİSİNİN KAMERAL TƏSVİRİ VƏ ETNİK TƏRKİBİ

*Etnik zəmində Azərbaycana qarşı ərazi iddiaları əsasında torpaqlarının işğal edilməsi 150 ildən artıq bir dövrdə Azərbaycana qarşı aparılan etno-demoqrafik siyasətin nəticəsidir. Ona görə də Azərbaycanın beynəlxalq miqyasda erməni işğalına qarşı apardığı xarici siyasətində bu tip araşdırmalardan geniş istifadə olunmalıdır. Bu səbəbdən XIX əsrin II yarısında Azərbaycan ayrı-ayrı ərazilərdəki etnik dəyişikliklərinə təsir edən amilləri və nəticələrini tədqiq etməkdə fayda vardı. Xüsusilə etnik rəngarəngliyi ilə seçilən Qarabağ, Gəncə və s. bölgələrdə etno-demoqrafik dəyişiklikləri siyasi və iqtisadi baxımdan dəyərləndirilməli, indiki siyasi durumun formalaşmasındakı rolunun öyrənilməsi sahəsində elmi araşdırmalar daha da genişləndirilməlidir.*

*Açar sözlər*: Yelizavetpol quberniyası, etnik tərkib, etno-demoqrafik siyasət, köçürmə siyasəti, say dinamikası.

***Giriş.*** "Kameral təsvir" termini XVIII əsrdə və XIX əsrin I yarısında dövlət mülkiyyətini idarə etmək, pul və natural vergiləri, həmçinin digər mülkiyyətini idarə etmək, pul və natural vergiləri, həmçinin digər mükəlləfiyyətləri dəqiqləşdirmək üçün ölkənin inzibati, iqtisadi və maliyyə sahələrində statistika məlumatlarını toplamaq və aparılan uçotun əks etdirilməsi üçün istifadə olunmuşdu. Kameral siyahıyaalmaları əsasən bu göstəricələr üzrə həyata keçirilirdi: ailə və ailə üzvlərinin siyahısı, əhalinin silki göstəricisi, evlərin sayı və bəzən mülkiyyətin qeydiyyatı. Çarizmin əhalinin siyahıyaalma siyasətinin ən başlıca məqsədlərindən biri də, vergi verən təbəqənin dəqiqləşdirilməsi və məmurların özbaşınalığına qarşı mübarizə aparmaq idi. Xüsusilə, çarizmin XIX əsrin 40-ci illərdə həyata keçirdiyi inzibati islahatlardan sonra, quberniyalarda bu statistik məlumatların toplanmasına daha çox aparılmağa başlamışdır.

XIX əsrin I yarısında Rusiya imperiyasının Şimali Azərbaycan torpaqlarını işğal etməsi, təkcə Azərbaycanın coğrafi mənzərəsini dəyişdirmədi, o cümlədən onun etnik mənzərəsinə də ciddi təsir etdi. Müstəmləkə siyasətini möhkəmləndirmək məqsədi ilə aparılan köçürmə siyasəti, Gəncə şəhərindən də yan keçməmişdi. İrəvan, Naxçıvan və Qarabağla yanaşı Gəncə ərazisinə də qeyri-müsəlman əhalinin köçülməsi Rusiya imperiyası üçün olduqca vacib idi. 1804-cü ilin yanvarında çətinliklə işğal edilən bu ərazidə möhkəmlnmək və müstəmləkə iqtisadiyyatını həyata keçirmək üçün, bu şəhərdəki xristian kəsimdən lazımınca istifadə edilməsi vacib olmuşdur. Hətta onların sayının artırılmasına yönələn siyasət də həyata keçirilmişdir. Qafqaz diyarının idarəçiliyinin dəyişdirilməsi haqqında 1867-ci il 9 dekabr tarixli çar fərmanına görə Yelizavetpol quberniyası yaradılmışdır. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi Yelizavetpol quberniyasının tərkibinə daxil edilmişdi. O cümlədən yeni Qazax və Zəngəzur qəzaları yaradılmışdı. Yelizavetpol quberniyası 1868-1917- ci illərdə Şimaldan Zaqatala dairəsi və Dağıstan vilayəti, cənubdan Qacar dövləti, şərqdən Bakı quberniyası, qərbdən Tiflis və İrəvan quberniyası ilə həmsərhəd olan Rusiya imperiyası ərazisi idi. 1873-cü ildə Yelizavetpol quberniyası tərkibində Ərəş, Cəbrayıl və Cavanşir qəzaları təşkil olundu. Sonralar Cəbrayıl qəzasına Azərbaycana qarşı işğalçılıq müharibəsində iştirak etmiş rus zabiti P.Karyaginin adı verildi [3, s.112].

Ümumiyyətlə etnik tarixin öyrənilməsi, o cümlədən etnik sərhədlərin müəyyən edilməsinin özünəməxsus çətinlikləri mövcud idi. Azərbaycanda uzun müddət etnik və dini mənsubiyyətinin eyni adla adlandırılması, burda yaşayan bəzi etnik azlıqlar üçün müəyyən imkanlar yaranmışdır. Azərbaycan, o cümlədən Zaqafqaziyanın islam dininə məxsus əhalisi "müsəlman" adlandırılmışdı. Bu da etnik mənsubiyyətinin dəqiqləşdirilməsində müəyyən çətinliklər törətmişdir. Etnik tarixşünaslığımızla

bağlı bəzi çatışmazlıqların olduğunu demək mümkündür. Etnik tarixin XIX əsrə aid olan cəhətlərinə gəldikdə tarixçilərimizin bu sahədə az da olsa xidmətləri vardır. XIX əsrdə Azərbaycan əhalisinin etnik tərkibində baş verən dəyişikliklər, bu ərazilərə gələn qeyri-azərbaycanlı etnoslarla birbaşa bağlıdır.

Lakin Ümumrusiya üzrə ilk ciddi, sanballı və sistemli siyahıyaalma 1897-ci ilin yanvarında keçirilmişdi. Bu siyahıyalama xüsusi ciddi-cəhdlə işlənib hazırlanmış müfəssəl və çox geniş qaydalar üzrə aparılırdı. Burada Qərbi Avropanın statistika sahəsindəki təcrübəsindən geniş istifadə olunur.

1897-ci il Rusiya imperiyasının siyahıalınması Yelizavetpol quberniyasının əhalisinin say dinamikasının öyrənilməsi baxımından önəmlidir. Quberniyanın 60,8 %-ni türklər, 33,3%-ni ermənilər, 1.7%-ni ruslar, 1.6%-ni ləzgilər, 0,8%-ni udinlər , 0,39%-ni tatlar və 0,26%-ni isə almanlar təşkil edirdi. Yelizavetpol quberniyasında 552,822 nəfər müsəlman, 298,685 nəfər qriqorian, 10,429 nəfər pravoslav xristian, 9507 nəfər paganist idi. Quberniyada əhalinin 36,3%-i şiə, 36,3%-i qriqorian, 25,2%-i sünni, 0,24%-i yəhudi, 0,21%-i isə pravoslav idi. Quberniyada əhalinin 89,84%-i kəndlərdə, 10,16%-i isə şəhərlərdə yaşayırdı. Ümumiyyətlə Yelizavetpol quberniyası 8 qəzadan ibarət idi; Yelizavetpol, Ərəş, Cəbrayıl, Cavanşir, Nuxa, Şuşa, Zəngəzur və Qazax [4].

1897-ci ildə quberniyada 878,415 nəfər yaşayırdı ki, bunlardan 480,012 nəfər kişi, 398,403 nəfəri qadın olmuşdur. Yelizavetpol quberniyasının ərazisi 38922,43 kvadrat verst idi. Quberniyanı ilk illərdə hərbi qubernator, 1872-ci ilin martından isə qubernator idarə edirdi. Bu ərazidə əhalinin sıxlığı Qafqaz quberniyaları arasında ən aşağı idi, 1kvadrat verstə 22,6 nəfər düşürdü. XX əsrin sonlarında kameral təsvirlərdən də aydın olur ki, Yelizavetpol quberniyasında ən sıx yaşayışı olan dairə Nuxa, əhalinin ən az məskunlaşdığı dairə isə Cavanşir olmuşdu. Çar Rusiyasında kişilərin sayı ilə qadınların sayı arasında ən böyük disbalans Yelizavetpol quberniyasında müşahidə edilirdi [3, s.120].

İrəvan quberniyasında olduğu kimi, Yelizavetpol quberniyasında da qəzaların mərkəzi şəhərlərində qadın sayı qəzaların özü ilə müqayisədə xeyli az idi. Ümumiyyətlə Yelizavetpol quberniyasında etnik rəngarəngliyin bir sıra səbəbləri vardır. Təbii ki, bu Çar Rusiyasının köçürmə siyasət ilə yanaşı həm də, Yelizavetpol quberniyasının coğrafi yerləşməsi ilə də sıx bağlı idi.

Yelizavetpol quberniyasında xristian təriqətçi köçkünlərinin saldıqları ilk yaşayış məntəqələri "Rus Borisi" (1842-ci il) və Slavyanka (1844-cü il) kəndləri olmuşdur. Sonralar isə Qoreloe, Nova Troitskoe, Nova Spasskol, Nova Mixaylovka, Nova Saratovka (1847-ci il), Nova İvanovka (1850-ci il), Nadel (Keçmiş Molla Osman 1861-ci il), Mixaylovka (Gəncəbasarda 1870-ci il) kəndlərinin əsasını qoymuşdular [5, s.13]. Gəncə şəhərində isə köhnə təriqətçilər sonralar yerli əhali tərəfindən Malakanlar və Kələmlik adlandırılan, Xan bağında yerləşdirilmişdi. Şəhər daxilində əkinçilik üçün müəyyən məhdudiyyət qoyulduqdan sonra malakanlar Kələmliyin bir hissəsini ermənilərə satmışdılar. Onlardan bir qismi öz sənətini dəyişərək şəhərdə qalmış, digər hissəsi isə şəhərətrafı ərazilərdə torpaq yeri götürərək, Gəncəbasar kəndlərinə səpələnmişdilər. Çarizmin köçürmə siyasəti yerli əhalinin məşğuliyyətinə və o cümlədən sosial vəziyyətinə təsirsiz ötüşməmişdi. Xüsusilə, Yelizavetpol quberniyasının tərkibində olan Şuşa, Cəbrayıl və Zəngəzur qəzasında bunu açıq-aşkar görə bilərik. Amma bununla yanaşı bu qəzalarda yaşayan əhalinin əksəriyyəti azərbaycan türkləri hesab edilir. Misal üçün, Zəngəzur qəzasına baxaq. XIX sonlarında Zəngəzur qəzasının ərazisi 6644 verst, kişi əhalisi 53,072 nəfər, qadın cinsli 43138 nəfər, cəmi əhali 96 min 210 nəfər idi. Qəza mərkəzi Gorusda 1450 nəfər yaşayırdı. 1897-ci il siyahıya alınması nəticələrinə əsasən qəzanın etnik tərkibində müsəlman əhali 51,6%, ermənilər 46,1%, kürdlər 1,3% təşkil edirdi.

XIX əsrin sonunda Zəngəzur qəzası əhalisi içərisində müsəlman əhalisi mütləq üstünlüyünü qoruyub saxlayırdı. Belə ki, qəzada məskunlaşmış 70015 nəfər (36854 nəfər kişi bə 33161 nəfər qadın) əhalinin (10328 ailə-təsərrüfat) 38922 nəfəri müsəlmanların (6543 ailə-təsərrüfat), cəmisi 30850 nəfəri (3722 ailə-təsərrüfat) erməniləri və 443 nəfəri (63 ailə-təsərrüfat) rusların payına düşürdü. Yəni müsəlmanlar qəza əhalisinin 55,59%-ni, ailə təsərrüfatının isə 63,35%-ni təşkil edirdilər [2, s.355].

Yuxarıda qeyd etdiyimiz kimi ruslar Gəncədə daha çox erməni ailələrini məskunlaşdırmışdırlar. Nəticədə əhalisi ermənilərdən ibarət olan Çaykənd, Azad Ərgaç, Ablah,Zurnabad, Manaşit kəndləri yarandı. Bunun üçün, onlara 200 min desyatin dövlət torpağı, yəni əvvələr yerli əhalinin əlindən alınmış torpaq və azərbaycanlılardan dövlət tərəfindən 2 milyon manatlıq satın alınmış torpaq verilmişdir.

1886-ci ilin fevral ayında Rusiya Dövlət Şurasının qərarlarından birinə əsasən bütün Cənubi və Şimali Qafqaz meşşanlarının, kəndlilərinin və gəlmə əhalisinin ailəlikcə siyahıya alınmasında da əsas məqsəd hərbi xidmətə çağrılmalı olanların sayını müəyyənləşdirmək idi. Siyahıyaalmanın forması Qafqaz Baş rəisliyi tərəfindən təsiq edilmiş və həmin formaları hazırlamaq vəzifəsi Qafqazın sabiq baş rəisi generla-adyutant knyaz Dondukov-Korsakov təfərindən Qafqazın sabiq statistika komitəsinə, tanınmış müfəttiş, qafqazşünas Zeydlisə həvalə olunmuşdu. Siyahıyaalınma proqramında evləri, kişi və qadınların sayı, silk, din, ana dili, savadlılıq məşğuliyyət, ev və digər mülklər haqqında suallar qoyulmuşdu [6, s.241].

XIX əsrin II yarısında çar Rusiyanın keçirdiyi burjua islahatları ucqarlarda da öz təsirini göstərməyə başlamışdır. Məhdud cəhətlərinə baxmayaraq bu islahatlar kapitalist münasibətlərin meydana gəlməsi ilə təbəqələşməni dərinləşdirmişdi. Burjuaziya və proletariat sinfinin təşəkkül prosesinin getdiyi Azərbaycan şəhələrindən biri də Gəncə oldu. Gəncə şəhərinin iqtisadiyyatının bir sıra sahələrdəki kapitalist münasibətlərinin inkişafı onun ümumrusiya bazarına cəlb olunma prosesini sürətləndirdi. Xüsusilə 1897-ci il çar Rusiyasının verdiyi yeni şəhər əsasnaməsinə uyğun olaraq, Gəncə şəhəri tam hüquqlu şəhər statusunu aldı. Bu addım Gəncə şəhərində burjua münasibətlərin inkişafına və Çar Rusiyasının iqtisadi siyasətində başlıca yer tutmasına səbəb olmuşdu. Təbii ki, biz Yelizavetpol quberniyasının əhalisinin etnik tərkibi haqqında danışarkən digər qəzalarla yanaşı, Qarabağ regionuna daxil olan qəzalardakı vəziyyətlə də tanış olmalıyıq. Çarizmin süni şəkildə bu regionlarda əhalinin etnik tərkibini süni şəkildə dəyişdirməsi və bu vəziyyəti davamlı şəkilə salması bunun bariz nəticələrindən idi. Yuxarıda qeyd etdiyimiz kimi, 1868-ci ildə Yelizavetpol quberniyası yaradıldıqdan sonra Qarabağ regionu da onun tərkibinə daxil edilmişdi. Şuşa şəhəri, Cəbrayıl, Cavanşir, Zəngəzur və Şuşa tarixi Qarabağ əraziləri idi və 1886-ci ildə bu ərazilərdə əhalinin siyahıalması keçirilmişdi. Statistik məlumatalara əsasən azərbaycanlı və erməni əhalisinin say nisbəti aşağıdakı kimi qeyd etmək olar. Cəbrayıl qəzası - 33577-i nəfər azərbaycanlı, 11688-i nəfər isə erməni əhali məskunlaşmışdırlar [4].

1897-ci il Ümumrusiya əhalinin siyahı alınması keçirildi. Bu statistik məlumatlara əsasən Cəbrayıl qəzasında azərbaycanlılar 49189 nəfər, ermənilər isə 15746 nəfər təşkil edirdilər. Göründüyü kimi, ermənilərin artması yalnız təbii artımla bağlı deyildi. O cümlədən lazımi şərait yarandıqda erməni əhalinin bu ərazilərə miqrasiyasını təşkil etmək idi. Verilmiş statistik məlumatlardan göründüyü kimi, XIX əsrin sonlarında Yelizavetpol quberniyasına daxil olan Qarabağın bəzi ərazilərində (Şuşa, Şuşa və Zəngəzur qəzalarında) ermənilərin sayı artmışdı ki, bu da erməni tarixçilərinə Qarabağda erməni etnik ünsürün üstünlük təşkil etdiyini iddia etməsinə "əsas" verir. Bununla belə, ermənilərin Qarabağ əhalisinin tərkibində mütləq əksəriyyət əldə edə bilməmələri faktı dilə gətirilmir. Ermənilərin sayının artmasının Rusiya hökumətinin köçürmə siyasəti və təbii artım nəticəsində baş verdiyi, bunun ermənilərin Qarabağda daim və fasiləsiz olaraq üstünlük təşkil etdiyini təsdiqləmək üçün əsas sayıla bilməyəcəyi də nəzərə alınmır [4].

***Nəticə***. Aparılan araşdırmalardan məlum oldu ki, XIX əsrin ikinci yarısında çarizmin keçirdiyi siyahıalınmalarda göstərilən rəqəmlərdə müəyyən uyğunsuzluqların mövcud olması, ya bilərəkdən edilən bir səhv idi, ya da qeyri-peşəkar hesablama idi. Hətta Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən tərtib olunan Azərbaycan əhalisi ilə bağlı məlumat xarakterli adres kalendarda istifadə olunan mənbə kimi 1897-ci il əhalinin sayının hesablanaması haqqında qeyd olunan məlumat maraqlıdır. Xatırladaq ki, bu məlumat 1919-cu ildə fransızca çap olunaraq Cenevrə Sülh Konfrası iştirakçılarına paylanılmışdı. Belə ki, kitabın Azərbaycan əhalisi bölməsində oxuyuruq: “Azərbaycan respublikası əhalisinin sayı onun ərazisi ilə uyğundur. Əhalinin sayı haqqındakı məlumatlar həmişə rəqəmləri səhv göstərilən və gecikdirilən xüsusi hesablamadan götürülür. Axırıncı hesablamanı 1897-ci ildə Rusiya keçirmişdir. Bədbəxtlikdən indi bu hesablamanın nəticələrinə əsaslanmalıyıq” [1, s.16].

## ƏDƏBİYYAT

1. Məmmədov A. Tarixi demoqrafiya. Dərslik. Bakı, 2019, 230 s.
2. Nərimanoğlu H. XIX-XX əsrin əvvəllərində Zəngəzur bölgəsinin demoqrafik durumunda dəyişikliklər// Türk-müsəlman xalqına qarşı soyqırımları IV Beynəlxalq elmi konfrans materialları 22-27 aprel, 2017, Tarix institunun əsərləri, Bakı, 2017, s.353-359.

3. Muradov Ş., Baxış Ç. Azərbaycan respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişiklər və reallıqlar. Bakı, 2013, 135 s.
4. XIX-XX əsrlərdə Qarabağda Azərbaycanlı və erməni əhalinin say nisbətinin dəyişməsi. - https://story.karabakh.center/az/azerbaycanli-ve-ermeni-ehalinin-say-nisbetinin-deyishmesi [11.10.2022].
5. Almanlar Azərbaycanda / Xalq cəbhəsi, 2016 mart 4, s.13.
6. Основы теории народонаселения. Под ред. Валентея Д.И.М. Москва, Высшая школа, 1986, 376 с.

**ГЮНАЙ АШУРОВА**
*научный сотрудник научно-исследовательской лаборатории «Азербайджанцы мира: историческая демография» Бакинского государственного университета*

## КАМЕРНАЯ ХАРАКТЕРИСТИКА И НАЦИОНАЛЬНЫЙ СОСТАВ НАСЕЛЕНИЯ ЕЛИЗАВЕТПОЛЬСКОЙ ГУБЕРНИИ В КОНЦЕ XIX В.

Захват его земель на основе территориальных претензий к Азербайджану по национальному признаку является результатом этнодемографической политики, проводимой против Азербайджана более 150 лет. Поэтому этот вид исследований должен широко использоваться во внешней политике Азербайджана против армянской оккупации в международном масштабе. По этой причине было полезно изучить факторы и последствия этнических изменений в различных районах Азербайджана во второй половине XIX века. Этнодемографические изменения в Карабахском, Гянджинском и др. регионах, отличающихся своим этническим разнообразием, должны быть оценены с политической и экономической точки зрения, а научные исследования должны быть дополнительно расширены в области изучения его роли в формировании текущей политической ситуации.

*Ключевые слова*: Елизаветпольская губерния, национальный состав, этнодемографическая политика, переселенческая политика, динамика численности.

**GUNAY ASHUROVA**
*Researcher at the Research Laboratory "Azerbaijanis of the World: Historical Demography" of the Baku State University*

## CAMERA DESCRİPTİON AND ETHNİC COMPOSİTİON OF THE POPULATİON OF YELİZAVETPOL PROVİNCE AT THE END OF THE 19TH CENTURY

Occupying its lands based on territorial claims against Azerbaijan on ethnic grounds is the result of the ethno-demographic policy conducted against Azerbaijan for more than 150 years. Therefore, this type of research should be widely used in Azerbaijan's foreign policy against the Armenian occupation on an international scale. For this reason, it was useful to study the factors and consequences of the ethnic changes in different areas of Azerbaijan in the second half of the 19th century. Ethno-demographic changes in Karabakh, Ganja, etc. regions, which are distinguished by their ethnic diversity, should be evaluated from a political and economic point of view, and scientific research should be further expanded in the field of studying its role in the formation of the current political situation.

*Keywords*: Yelizavetpol governorate, ethnic composition, ethno-demographic policy, resettlement policy, population dynamics.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 oktyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevil Heydərova, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ŞÖLƏ MƏMMƏDOVA**
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası şöbəsinin kiçik elmi işçisi*
**shela.mammadova@yahoo.com**

# İŞĞALA QƏDƏRKİ DÖVRDƏ QARABAĞ BÖLGƏSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ

*Məqalədə Azərbaycanın Qarabağ bölgəsində işğala qədərki dövrdə demoqrafik vəziyyət tədqiq olunur. Aparılan araşdırma zamanı Qarabağın qədim tarixi, bu tarixi torpaqlarda yaşayan tayfaların etnik mənsubiyyəti, qəsdən dolaşıqlıq yaradılan Ərsak toponimi, XIII əsrdən işlənməyə başlayan Qarabağ toponimi, Qarabağın dəyişən hüdudları barədə də məlumat verilir. Qarabağın skif, sak tayfalarından başlayaraq, oğuz, alban, qıpçaq, qaramanlı və qacar kimi türk tayfalarını yurdu olmasına diqqət çəkilir və gətirilən faktlarla bu fikirlər əsaslandırılır. Sovet hökuməti tərəfindən 1923-cü ildə yaradılan Dağlıq Qarabağ Muxtar Vilayəti çərçivəsində əhalinin faiz nisbətinin ermənilərin xeyrinə necə və hansı üsullarla dəyişdirilməsi barədə məlumat verilir. Nəticədə işğala qədərki dövrdə Qarabağın demoqrafik vəziyyətini necə dəyişməsi ilə bağlı tam təsəvvür formalaşdırılır.*

*Açar sözlər:* Azərbaycan, Qarabağ bölgəsi, demoqrafik vəziyyət, əhali, erməni terroru.

**Giriş**. Qarabağ qədim dövrlərdən bəri Azərbaycan türklərinin ata-baba yurdu və ən qədim vilayətlərindən biri olub. Xüsusilə də son illərdə bu istiqamətdə aparılan tədqiqatların dərinləşdirilməsi və Qarabağ tarixinə dair yeni-yeni əsərlərin ortaya qoyulmasını qeyd etmək lazımdır. Məsələn, belə əsərlərdən birində Azərbaycan Albaniya dövlətinin mövcud olduğu dövrdə Qarabağın dağlıq hissəsinin həmi ərazidə yaşayan İskit-Sak türklərinin adı ilə Ərsak adlandırılması, bu toponimin erməni tarixçiləri tərəfindən qəsdən saxtalaşdırılaraq "Artsax" kimi təqdim edilməsi məsələsinə diqqət yetirilir [2, s.6]. Təbii ki bu fakt yeni deyil, bu barədə Kərim Şükürovla Yaqub Mahmudovun müəllifliyi ilə hələ 2005-ci ildə çapdan çıxan "Qarabağ: real tarix, faktlar, sənədlər" əsərində də məlumat verilmiş, hətta bu toponimə Mirəli Seyidovun 1983-cü ildə bu barədə çapdan çıxan əsərinə istinadən izah da verilmişdir: *"Ərsak "ər" və "sak" sözlərindən əmələ gəlməklə, qədim türk dillərində "ər sak" – "igid sak" və ya "sak əri", "sak igidi", "kişi sak" və ya "sak kişisi" mənasındadır"* [9, s.150; 5, s.18]. Yaxud da "Qara" və "bağ", yəni böyük bağ mənasını ifadə edən, bir çox hallarda da bu adı daşıyan türk tayfalarının adı ilə izah edilən "Qarabağ" toponimi də bu tarixi məkanın Azərbaycan xalqına aid olmasını təsdiq edən bir başqa amildir. Daha çox tayfa adı ilə izah edilməsi mənası da daha məntiqli olan Qarabağ bölgəsinin adı ilə eyni adı daşıyan ərazilərin istər Naxçıvanda, istər Mərkəzi Asiya, istər Azərbaycanın güneyində [4, s.98-99], hətta Krımda belə olması [13, s. 117] bu fikrimizi daha da qüvvətləndirir. Qarabağda işğala qədərki dövrdə demoqrafik vəziyyəti Azərbaycan türklərinin xeyrinə olmuşdur. Lakin 1805-ci il Kürəkçay müqaviləsi və 1806-cı ildə xan ailəsinə qarşı dəli mayor ləqəbli Lisaneviç tərəfindən Qarabağ xanlarının nəslinə qarşı planlı soyqırım aktı ilə Qarabağda demoqrafik vəziyyət bölgənin aborigen əhalisi olan Azərbaycan türklərinin heç də xeyrinə dəyişmədi. Xanlığın çar Rusiyasına tabe olması ilə əsasən Qacarlar dövləti istiqamətində baş verən əhali axınları, 1828-ci il Türkmənçay müqaviləsindən sonra daha sistemli və acınacaqlı hal aldı. Bu vəziyyət sonrakı illərdə, xüsusilə də XX əsrin əvvəlində Azərbaycanın türk-müsəlman əhalisinin, o cümlədən də Qarabağ əhalisinin başına gətirilən müsibətlər, XX əsrin sonlarına doğru Qarabağın dağlıq hissəsinin işğalı ilə daha böhranlı xarakter aldı. Baş verənləri ümumi şəkildə dəyərləndirmək və qısa şəkildə də olsa Qarabağda işğala qədərki dövrdə demoqrafik vəziyyətini xronoloji ardıcıllığa uyğun olaraq tədqiq etməyə çalışacağıq.

***Qarabağın dağlıq hissəsinin ermənilər tərəfindən işğalına qədərki dövrdə demoqrafik vəziyyət***. Qarabağın müxtəlif yerlərində qədim türk boylarına aid xeyli sayda maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qafqaz regionunun istər say, istərsə də hərbi-siyasi baxımdan üstün olan oğuz türklərinin adı aşşur mixi yazılı kitabələrində İşquz kimi xatırlanır. İşquzları isə yunanlar iskit, farslar isə sak adlandırırdı. Herodotun İskitlərlə bağlı yazdıqlarından aydın olur ki, onların yurdu Araz ça-

yından şimalda yerləşən Azərbaycan ərazisi, o cümlədən də müasir Qarabağ bölgəsi olmuşdur [2, s.19]. Qarabağın dağlıq hissəsi isə erkən orta əsrlər dövründə Azərbaycan Albaniya dövlətinin tərkibində Ərsak kimi tanınırdı [14, s.201]. Hələ III əsrdən Ərsak ərazisində alban tayfaları ilə yanaşı barsil, savir, hun, xəzər və s. türk tayfaları da yığcam halda yaşamışlar. Ümumiyyətlə, Arranın (Qarabağın) əhalisi monqol istilalarınadək türk dilli xalq kimi təşəkkül tapmışdı [8, s.107]. Təsadüfi deyil ki, "Əcaib əd-dünya" adlı mənbədə qeyd olunurdu ki, Arranda türklər ən əsas qrup idi. Yaxud da bir başqa mənbə məlumatına görə, *"Arranda türkmanlar toplaşsaydılar, qarışqa və çəyirtkə yığnağını xatırladardılar"* [8, s.107].

Qarabağ adına ilk dəfə 1284-cü ildə Fəzlullah Rəşidəddinin "Came ət-Təvarix" əsərində təsadüf olunur [6, s.25]. XIII-XIV əsrlərdə Qarabağın sərhədləri cənubda Araz çayına, cənub-qərbdə Həkəri çayına, şimal-qərbdə Zəyəmçaya, şimalda və şimal-şərqdə Kür çayına, cənub-şərqdə Quştasfa çatırdı [8, s.99]. Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu dövlətləri dövründə Qarabağda əsas söz sahibi Qaramanlı türkləri olmuşdur [16, s.62]. Onlar hətta Qacarların üstünlüyü dövründə də Qarabağda müəyyən qədər mövcudluğunu qoruyub saxlamışdılar. 1593-cü il Osmanlı təhrir dəftərində Qarabağda Qaramanlı tayfasının 3 oymağının olması barədə məlumat verilir: "Şəmkir Aranı nahiyəsində və Gəncə vilayətinin Axıstabad sancağında qədimdən yaşayan Qaramanlı camaatı, Axıstabad Aranı nahiyəsində Yalnızağac kəndində yaşayan Qaramanlı camaatı və Xanlıq kəndində yaşayan Qaramanlı tayfasının Rüstəmbəyli camaatı" [7, s.80].

Qarabağ Səfəvilər dövründə Gəncə-Qarabağ bəylərbəyiliyi tərkibində idi. Araz və Kür çayları arasında yerləşən qədim Aran torpağı mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyinin ərazisi bəzən Tiflisə qədər uzanırdı. 1554-cü ildən sonra Qazax və Şəmşəddil, Şah I Abbas dövründə Zəyəm, Səfəvilərin hakimiyyətinin son illərində isə Kaxetiya və Zəngəzur da Qarabağ bəylərbəyliyinə tabe olmuşdur [7, s.19]. Bu bəylərbəyiliyin demoqrafik vəziyyətinə nəzər saldıqda bəlli olur ki, nəinki Qarabağ ərazisi, hətta İrəvan da Şah I Abbasın hakimiyyəti dövrünə qədər Qacar türk tayfasının əsas yurd yeri olmuşdur. Osmanlı müəllifi İbrahim Rəhimizadə 1588-ci ildə Gəncə-Qarabağ bəylərbəyi Ziyadoğlu Məhəmməd xanın ulusunun 40-50.000 evdən artıq olduğunu qeyd etməklə Qacarların sayının XVI əsrin sonlarında da təqribən 200-250 min nəfər olduğunu bir daha təsdiq edir [7, s.32]. Ümumiyyətlə, Səfəvilər dövründə Qarabağa Ziyadoğlu Qacarları nəslindən olanlar rəhbərlik edirdi. Məhəmməd Məsum "Xülasət-əs-Siyər" adlı əsərində bu barədə məlumat verərək Ziyadoğlu Qacar nəslinin XVI yüzilliyin 40-cı illərindən XVII yüzilliyin 60-cı illərinə qədər, təxminən yüzillik bir tarixini öz əsərində işıqlandırmışdır. Digər mənbələrdən isə məlum olur ki, Ziyadoğlu Qacarları Qarabağ bəylərbəyiliyini Nadir şahın Qarabağı onların idarəçiliyindən almasına qədər idarə ediblər [12, s.59-61]. Gəncə-Qarabağ əyalətinin icmal dəftərində Qarabağda yaşayan "Taife-i Ulusat-i Otuzikilü"nün adı çəkilir. Bu tayfa ittifaqı 8 Kuman/Qıpçaq və 24 Qacar tayfasının birliyindən yaranmışdı [2, s.34].

1727-ci il tarixli "Müfəssəl dəftər"ə görə, Gəncə-Qarabağ əyaləti üzrə bütövlükdə qeydə alınmış 121.975 nəfərdən 80,340 nəfəri (65,9%) türk-müsəlman, 37.885 nəfəri (31%) xristianlar və 3.750 nəfəri (3,1%) isə kürdlər olmuşdu [3, s.17]. XVII yüzilin əvvəllərinə kimi xristianlar Qarabağın yüksək inzibati hakimiyyətində qətiyyən təmsil olunmamışdılar. Qarabağın dağlıq hissəsində olan xristian alban məliklərinin hər birinin hakimiyyəti adətən bir kəndə yayılırdı. XVII yüzilin əvvəllərində Səfəvi şahı I Abbas məlik rütbəsini ilk dəfə olaraq hakim səviyyəsinə qaldırdı [6, s.27]. Qarabağ məlikliklərinin əhalisi haqqında isə ilk tutarlı statistik məlumat Qarabağ xanlığının ləğv edilməsi ilə bağlı 1823-cü ildə keçirilən kameral sayımda verilmişdir. Həmin sayım üzrə bütün Qarabağ əyalətində 18 min 563 ailə qeydə alınmışdı, onlardan beş xristian məlikliyinin payına yalnız 1 min 559 ailə və ya bütün ailələrin 8,4 faizi düşürdü [11, s. 220-235, 242-245, 310-337, 412]. Hətta bu məliklər belə əslində erməni deyildi. Ümumiyyətlə, XIX əsrin əvvəllərinədək Qarabağ ərazisində yerli türk-müsəlman əhalisi ilə yanaşı yaşayan xristian əhalisi Alban-Qıpçaq nəsillərinin nümayəndələri idi. Qarabağın beş xristian məlikliyinin əhalisi dini cəhətdən mərkəzi Gəncəsər olan Alban Apostol Kilsəsinin, siyasi idarəçilik baxımdan isə Qarabağ xanının təbəələri idilər. O zamanadək Qarabağ ərazisində bir nəfər belə erməni sakini yaşamamışdır. İndi coğrafi baxımdan Azərbaycanın qərbində yaşayan ermənilər bir vaxtlar Azərbaycandan çox uzaqda – Yuxarı Fərat çayı hövzəsində yaşayırdılar [2, s.15-16].

1828-ci il Türkmənçay müqaviləsindən sonra 21 mart tarixində erməni vilayətinin yaradılması da Azərbaycanın Qarabağ bölgəsindəki demoqrafik vəziyyətə kifayət qədər mənfi təsir göstərdi. Üstəlik Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə ermənilərin Qacarlar dövlətindən Şimali Azərbaycana köçürülməsi təsdiq edildi. Ermənilərin köçürülməsinin "hüquqi-siyasi" təminatı ilə birgə təşkilati tədbirlər də həyata keçirilmişdir. 1829-cu il Ədirnə müqaviləsi ilə də ermənilərin yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ ərazisi idi. Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, yəni cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən də Qarabağa qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə 200.000-dən çox erməni köçürüldü. Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı [5, s.33-36]. 1911-ci ildə N.Şavrov əbəs yerə yazmırdı ki, *"Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb"* [15, s.64]. Bu köçürülmələr tam olaraq istənilən nəticəni vermədikdə artıq başqa yollara əl atıldı.

XX əsrin əvvəllərindən etibarən erməni terroru ilə Qarabağdakı demoqrafik böhran daha da kəskin hal aldı. Məlum olduğu kimi terror əhaliyə daima qorxu hissi təlqin etmək məqsədilə həyata keçirilən cinayətkar siyasətin reallaşdırılmasında ifadə olunan sosial-siyasi hadisədir. Terror bütün halda əhali ilə bağlıdır. Hər bir terror hadisəsi də demoqrafik aspektə malikdir. Terror və demoqrafiya arasında təbii-tarixi əlaqə mövcuddur. Azərbaycanın tarixi-demoqrafik inkişafında terror ağır izlər qoyub. Buna misal olaraq Şimali Azərbaycanda Rusiya imperiyasının, sonra isə sovet dövlətinin və ermənilərin terror fəaliyyətini göstərmək olar. Əsasən də, Qarabağda ermənilərin terrorçuluq fəaliyyətini dini - millətçi - separatçı terror kimi təsnif etmək olar. Bu terrorçular qarşılarında qoyduğu məqsədə çatmaq üçün bütün vasitələri (soyqırım, deportasiya, partlayış, girov və s.) tətbiq edib [10, s.168]. "Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri" adlı ensiklopediyada [1] ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi cinayətlərin (və ya terror aktlarının) müxtəsər xrono (zaman) dinamikası müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, ermənilər bu dövrdə azərbaycanlılara qarşı təxminən dörd yüzdən çox terror və ya bu yönümlü cinayət törətmişdir. Erməni terroru Azərbaycanın tarixi-demoqrafik inkişafının bütün sahələrinə faciəli təsir göstərmişdir:

– erməni terrorçuluğunun genişləndiyi, genosid, deportasiya və hərbi terrorla müşahidə olunduğu dövrlərdə (1905-1906; 1918-1920; 1948-1953; 1980-cı illərin sonları - bizim günlər) azərbaycanlıların say dinamikası aşağı düşmüşdür;

– Həmin dövrlərdə Cənubi Qafqaz əhalisi içərisində azərbaycanlıların xüsusi çəkisi azalmışdır;

– ölüm halları çoxalmışdır;

– məcburi miqrasiya genişlənmiş, əhali içərisində qaçqınlıq və köçkünlük yaranmışdır və s. [10, s.169].

Qarabağdakı demoqrafik vəziyyətdən bəhs edərkən bir məqamı da unutmamaq lazımdır. Belə ki, Türkmənçay müqaviləsindən sonra ermənilərin Şimali Azərbaycana köçürülməsinin 150 illiyi münasibəti ilə ermənilərin özləri tərəfindən 1978-ci ildə keçmiş Ağdərə rayonu, indiki Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində Marağa abidəsi ucaldılmış və həmin abidə 1988-ci ildə dağıdılmışdır [5, s.35]. Ümumiyyətlə, Qarabağda məskunlaşdırılan ermənilər əsasən Azərbaycanın xristian tarixi keçmişinin qorunub saxlanıldığı Qarabağın dağlıq hissəsindəki tarixini və ərazisini mənimsəmək üçün daha çox orada möhkəmləndilər. Daha doğrusu əvvəlcə 1920-ci ildə daşnaklar tərəfindən yaradılmış yeni termin – Dağlıq Qarabağ termini ortaya çıxarıldı. 1923-cü ildə isə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı [5, s.35]. Bu vilayəti isə erməni işğalına qədər demoqrafik vəziyyəti aşağıdakı kimi idi: 1939-cu ildə 150,8 min nəfər əhalisi olan DQMV-də əhalinin 132,8 min nəfəri ermənilər, 14,1 min nəfəri azərbaycanlılar, 3,2 min nəfəri isə ruslar idi. 1959-cu ildə 130,4 min nəfər əhalinin 110,1 min nəfəri ermənilər, 18 min nəfəri azərbaycanlılar, 1,8 min nəfəri isə ruslar idi. 1979-cu ildə isə 162,2 min nəfər əhalini 123,1 min nəfəri ermənilər, 37,3 min nəfəri azərbaycanlılar, 1,3 min nəfəri isə ruslar idi. 1989-cu il sovet əhali siyahıyaalımasının yekunlarına görə, Dağlıq Qarabağ Muxtar Vilayətinin 187,8 min nəfərlik əhalisinin 145,4 min nəfəri (77%) erməni, 40,3 mini (21,5%) azərbaycanlı idi. Göründüyü kimi 1939-1979-cu il əhali siyahıyaalınmalarına görə, Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisi içərisində azərbaycanlıların sayı müəyyən dərəcədə artmışdır. Bu erməni separatçılarının təqiblərinə baxmayaraq, azərbaycanlıların öz doğma torpaqlarına bağlılığı və onların içərisində təbii artımı ilə əlaqədar olmuşdur [5, s.73-74].

*Nəticə*. Qarabağda demoqrafik vəziyyətin erməni işğalına qədər necə dəyişdiyini xronoloji ardıcıllıqla izlədikdə aydın olur ki, Qarabağ Azərbaycan türklərinin ən qədim məskənlərindən biri olmaqla yanaşı Azərbaycanın qədim tarixini özündə yaşadan tarixi yurd yerimizdir. Bu yer yerində yaşayan türk tayfaları bir-birinə əvəz etsə də, bəzi hallarda birgə yaşasalar da heç vaxt 1805-ci ildən sonra tarixində baş verən kəskin dönüşdəki sonrakı kimi demoqrafik problemlər yaşamamışlar. Lakin aparılan tədqiqatlar göstərdi ki, yerli – türk-müsəlman əhaliyə etibar etməyən çar hököməti, sonrasında isə sovet hökuməti hər yolla ermənilərdən özlərinə dayaq yaratmağa çalışmış və bu istəklərinə həm məskunlaşdırmalar, həm də soyqırımlar, terrorlar, repressiyalar, sürgünlər törətməklə nail olmağa çalışmışdılar. Bütün bu baş verənlərin zirvəsi isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi olmuş 30 ildən sonra da bu problem Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun canı, qanı bahasına həll edilmişdir. Bu gün azərbaycanlıların Qarabağda azad edilən tarixi yurd yerlərinə qayıdışı üçün lazimi təhlükəsizlik tədbirləri görülür və görülməyə də davam edir. Bu günlərdə də davam edən erməni terrorunun qarşısının alınması antiterror siyasətinin gücləndirilməsini zəruri edir. Bu siyasət həyata keçirilərkən terrorun Qarabağdakı ağır demoqrafik nəticələrinin aradan qaldırılmasının da diqqətdən kənarda qalmayacağına əminik.

## ƏDƏBİYYAT

1. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX -XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya / Elmi red. R. Mustafayev. – Bakı: Elm, – 2003. – 367 s.
2. Əlizadə, R., Nəciyev, E.R. Qarabağın alban-qıpçaq tarixinə dair / R.Əlizadə, E.R.Nəciyev. – Bakı: Turxan NPB, – 2021. – 72 s.
3. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). – Bakı: Şuşa, – 2000. – 576 s.
4. Qeybullayev, Q.Ə. Qarabağ: Etnik və siyasi tarixinə dair / Q.Ə.Qeybullayev – Bakı: Elm, – 1990. – 248 s.
5. Mahmudov, Y.M., Şükürov, K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər /Y.M.Mahmudov, K.K.Şükürov – Bakı: Təhsil, – 2005. – 380 s.
6. Mustafazadə, T.T. Qarabağ xanlığı / T.T.Mustafazadə. – Bakı: Sabah, – 2010. – 333 s.
7. Nəciyev, E.R. Səfəvilər dövlətinin əhalisi (tarixi-demoqrafik tədqiqat): / Tarix [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis.: 5503.02 / E.R.Nəciyev. – Bakı: 2021. – 212 s.
8. Piriyev, V. Azərbaycan XIII-XIV əsrlərdə / V.Piriyev. – Bakı: Nurlan, – 2003. – 458 s.
9. Seyidov, M.Ə. Qarabağ-Arsaq – Artsaq toponiminin etimalogiyası haqqında qeydlər // – Bakı: Azərbaycan filologiyası məsələləri, – 1983, – s. 142-153.
10. Şükürov, K.K. Terror və demoqrafiya (Azərbaycana qarşı erməni terrorunun materialları üzrə) // "Qarabağ dünən, bu gün və sabah" Azərbaycan xalq cümhuriyyətinin 90 illiyinə həsr olunmuş 7-ci elmi-əməli konfransının materialları /elmi red. Ə.Abbasov [və b.]. – Bakı: Qanun, – 2008. – s.167-169.
11. Описание Карабагской провинции (составленное в 1823 году, по распоряжению главноуправлявщаго в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым П-м. – Тифлис: «В типографии управления наместника Кавказского», – 1866. – 425 с.
12. Павлова, И.К. Хроника времен Сефевидов. Соч. Мухаммад-Масума Исфахани "Хуласат ас-сийар" / И.К.Павлова – М.: Наука, – 1993. – 120 с.
13. Топонимика Крыма: Сб. статей памяти И. Л. Белянского. (2010), — // Симферополь: Универсум. – 2011. – 376 с.
14. Тревер, К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. – VII в. н.э.) / К.В.Тревер – Москва-Ленинград: АН СССР. – 419 с.
15. Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам / Н.Н. Шаврова. – СПб.: Рус. собрание, – 1911. – 78 с.
16. Эфендиев, О.А. Карабах в составе государств Каракойунлу, Аккойунлу и Сефевидов (XV-XVII вв.). // – Баку: Карабах. Очерк истории и культуры. – 2004. – с. 62-63.

**ШОЛЕ МАМЕДОВА**
*младший научный сотрудник отдела исторической географии и демографии Института Истории имени А.А.Бакиханова НАНА Азербайджана*

## ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ КАРАБАХСКОГО РЕГИОНА ДО ОККУПАЦИИ

В статье рассматривается демографическая ситуация в Карабахском регионе Азербайджана до армянской оккупации. В ходе исследования изучена древняя история Карабаха, этническая принадлежность племен, проживающих на этих исторических землях, топоним Арсак, который был намеренно перепутан, топоним Карабах, начавший использоваться с XIII века, приводится также информация об изменении границ Карабаха. Обращается внимание на то, что в Карабахе жили такие тюркские племена, как скифы, саки, огузы, албаны, кыпчаки, караманлы и гаджары и эти мнения подтверждаются представленными фактами. Приводится информация о том, как и какими методами изменялся процент населения в пользу армян в рамках созданной советской властью в 1923 году Нагорно-Карабахской автономной области. В результате, складывается целостная картина того, как менялась демографическая ситуация Карабаха в дооккупационный период.

*Ключевые слова*: Азербайджан, Карабахский регион, демографическая ситуация, население, армянский террор.

**SHOLE MAMEDOVA**
*Junior Researcher of the Department of Historical Geography and Demography of the Institute of History named after A.A. Bakikhanov of ANAS of Azerbaijan*

## DEMOGRAPHİC SİTUATİON OF THE KARABAKH REGİON BEFORE THE OCCUPATİON

The article deals with the demographic situation in the Karabakh region of Azerbaijan before the Armenian occupation. During the study, the ancient history of Karabakh was studied, the ethnicity of the tribes living on these historical lands, the toponym Arsak, which was deliberately confused, the toponym Karabakh, which began to be use from the 13th century, information is also provided on the change in the borders of Karabakh. Attention is drawn to the fact that such Turkic tribes as the Scythians, Saks, Oguzes, Albans, Kipchaks, Karamanly and Gajars lived in Karabakh, and these opinions are confirmed by the presented facts. Information is provided on how and by what methods the percentage of the population changed in favor of the Armenians within the framework of the Nagorno-Karabakh Autonomous Region created by the Soviet authorities in 1923. As a result, a holistic picture is emerging of how the demographic situation of Karabakh changed in the pre-occupation period.

*Keywords*: Azerbaijan, Karabakh region, demographic situation, population, Armenian terror.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 sentyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. F.Əliyeva, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); 930:314**

**GÜLNARƏ SƏDRƏDDİNOVA**
*"Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" ETL -də elmi işçi*
**gulkaayxan@mail.ru**

# XIX ƏSRDƏ ŞAMAXIDA ƏHALİNİN MƏŞĞULİYYƏTİ

*Məqalədə XIX əsrdə Şamaxının ərazisində yaşayan əhalinin tərkibi, əhali təbəqələri, onların məşğuliyyəti tədqiq olunmuşdur. Göstərilmişdir ki, XIX əsrdə Şamaxı həm xanlığın mərkəzi, həm də mühüm ticarət, sənətkarlıq məskəni kimi böyük şöhrət qazanmışdır. Şamaxı dəfələrlə zəlzələlərə məruz qalsa da, burada sənətkarlıq və ticarət yenidən inkişaf etmiş, şəhər bu təbii fəlakətlərə baxmayaraq dirçələ bilmişdir. Şamaxının əhalisi xalçaçılıq, ipəkçilik kimi sahələrlə daha çox məşğul olmuşdur. Bundan başqa şəhərdə arıçılıq, üzümçülük də inkişaf etmişdir.*

*Açar sözlər*: Şamaxı, sənətkarlıq, ipəkçilik, xalçaçılıq, əhali, kənd təsərrüfatı.

***Giriş***. Azərbaycanın dilbər guşələrindən olan Şamaxı əsrlər boyu Şirvanın mühüm iqtisadi və siyasi və mədəni mərkəzi olmuş, qədim tarixə malik yaşayış məskənlərindən biri olmuşdur. Azərbaycanda şəhərsalma mədəniyyətinin ən qədim mərkəzlərindən olan Şamaxı şəhəri Albaniya dövlətinin iri yaşayış məskənlərindən biri idi. Tarix boyunca davam edən dəhşətli zəlzələlər zamanı təkrar-təkrar yerlə-yeksan olmuş və dəfələrlə yerini dəyişmiş Şamaxının, arxeoloji qazıntılar zamanı ən qədim ərazisini müəyyən etmək hələlik mümkün olmamışdır. Lakın antik müəlliflərin yazılı məlumatları və Xınıslı qazıntıları zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələrinin nəticələrindən aydın olur ki, qədim Şamaxı şəhərinin ən azı 2500 il yaşı vardır.

Şamaxının salındığı tarix dəqiq məlum deyil. Arxeoloji qazıntılar nəticəsində e.ə. V-IV əsrlərə aid şəhər həyatına xas maddi-mədəniyyət qalıqları aşkar edilmişdir [7]. Qafqaz Albaniyasının şəhəri kimi Şamaxı yunan alimi Klavdiy Ptolomeyin (II əsr) "Coğrafiya" əsərində xatırlanır. X əsrin əvvəlində şəhər Şirvan dövlətinin paytaxtı olub. XVI əsrə qədər Şamaxı-Bakı-Dərbənd regionunun müxtəlif vilayətləri Şirvan dövlətinin sərhədləri daxilində idi. Bu dövlətin ərazisində 360 qala vardı [4].

Xanlıqlar dövründə Şamaxı şəhəri xanlığın mərkəzi olmuş, özünün siyasi, iqtisadi və mədəniyyət mərkəzi kimi əhəmiyyətini saxlamışdır. 1828, 1859, 1891, 1902-ci illərdə baş verən şiddətli zəlzələlər buranı elə dağıdıb ki, şəhər tədricən əvvəlki yerini dəyişməli olub. 1859-cu ildəki böyük dağıdıcı zəlzələdən sonra mərkəz qismən Bakıya köçdü. 1902-ci il yanvarın 31-də baş verən növbəti dəhşətli zəlzələ şəhəri yerlə yeksan etdi. Şəhərin yenidən tam dirçəlməsi mümkün olmadı. Məhz bu dağıntıdan sonra Xəzər sahilindəki liman şəhəri olan Bakı şimali Azərbaycana mərkəz oldu. İndiki Şamaxı köhnə Şamaxının təxminən 2 km-liyində salındı.

Şamaxı şəhəri qədim yaşayış məskəni olduğundan burada yaşayan əhali müxtəlif sənət sahələrinə yiyələnmiş və geniş ticarət əlaqələrinə malik olmuşlar. Belə ki, Şirvan xalçaları dünyanın bir sıra məşhur muzeylərinin ekspozisiyalarını da bəzəməkdədir. İstanbulun Türk və İslam muzeyində saxlanılan XIII əsr "Şirvan", Berlin İncəsənət Muzeyinin Şərq bölgəsində saxlanılan XV əsr "Şirvan", Amerikanın Pensilvaniya muzeyində saxlanılan XVII əsr "Şamaxı" xalçaları xüsusi əhəmiyyətə malikdir. Şamaxıda digər sənət sahələrindən dabbaqlıq, misgərlik, dulusçuluq, dərzilik, zərgərlik, ağacişləmə, oyma sənəti, dəmirçilik və s. sahələr yüksək səviyyədə inkişaf etmişdi. Şamaxı əhalisi Azərbaycanın bu qədim sənət nümunələri sahəsində çalışır və şöhrət qazanırdılar. Bu baxımdan mövzu mühüm əhəmiyyətə malikdir.

***

XVIII-XIX əsrlərdə Şamaxıda olmuş səyyahlar onun tarixi, siyasi, iqtisadi həyatı və əhalinin məşğuliyyəti haqqında əhəmiyyətli məlumatlar vermişlər. XVIII əsrin əvvəllərində Şamaxıda olmuş ingilis səyyahı Con Bel şəhəri dağ döşündə amfiteatr şəklində təsəvvür edirdi. Lakin Şamaxı şəhəri Nadir xan Əfşar tərəfindən 1734-cü ildə dağıdıldığı üçün əhalinin Yeni Şamaxıya köçürülməsi ilə əlaqədar Şamaxının adı tarixi ədəbiyyatda Köhnə Şamaxı kimi çəkilir. XVIII əsrin 70-ci illərində Şamaxıda 1000-ə yaxın evdə 5-6 min adam yaşayırdı. Şəhərlər inzibati cəhətdən məhəllələrə bölünürdü. Xanlığın paytaxtı kimi özünün çiçəklənmə dövrünü yaşayan Köhnə Şamaxı sənətkarlıq və böyük

ticarət mərkəzi idi. 1768-ci ildə Şamaxı xanlığı qubalı Fətəli xan tərəfindən tabe edilərkən, Fətəli xan Dərbənd, Quba və Salyandan Köhnə Şamaxıya 1000 ailə köçürmüşdür. 1769-cu ilin iyulunda Yeni Şamaxı dağıdıldı və əhalisi Köhnə Şamaxıya köçürüldü. 1789-cu ildə qubalı Fətəli xanın ölümündən sonra, Şamaxı xanlığında hakimiyyət uğrunda daxili çəkişmələr gedirdi. 1792-ci ildə bu mübarizədə Mustafa xan qalib gəldi. Mustafa xan mərkəz kimi yeni Şamaxını seçdi. Lakin əsrin sonunda bütün əhali köhnə Şamaxıya qayıtdı. Beləliklə, 1775-ci ildən xarabalığa çevrilən Şamaxı şəhəri yenidən öz əvvəlki yerində bərpa edildi və tikilməyə başladı.

Şamaxı şəhəri xanlıqlar dövründə bu qədər dağıntı və zorakı köçürmələrə baxmayaraq, sənətkarlıq mərkəzi kimi öz əvvəlki şöhrətini qoruyub saxlamışdı. XIX əsrin sonlarında Azərbaycanda olmuş rus səyyahı S.Bronevskinin təbirincə desək, "ticarət və sənətin qədim ruhu Şamaxıda hələ tamamilə sönməmişdi" [14].

Rusiyadan İrana və Hindistana, yaxud əks istiqamətə mal aparan tacirlər çox zaman Bakı və Niyazabad limanları vasitəsilə Şamaxıya gəlir, burada mal mübadiləsi aparırdılar. Bakıdan Tiflisə gedən yol Şamaxıdan keçirdi, buna görə də Şamaxı ticarət dövriyyəsində mühüm rola malik idi. 1805-ci ilin sonlarında xeyli müqavimətdən sonra Şamaxı xanlığı daxili müstəqilliyi saxlanılmaqla Rusiya imperiyasının tərkibinə qatıldı. 1820-ci ildə isə çar Rusiyası Şamaxı xanlığını tamamilə ləğv etdi. Şamaxı şəhəri 1846-cı ildə quberniya mərkəzinə çevrildi. Lakin 1859-cu ildə quberniya mərkəzi Şamaxıdan Bakıya köçürüldü [9].

Şamaxı Azərbaycanın ən qədim sənətkarlıq mərkəzlərindəndir. Burada tarixən sənətkarlığın müxtəlif sahələri inkişaf edərək diyarı bütün dünyada məşhurlaşdırıb. Belə sənət sahələrindən biri də ipəkçilik olmuşdur. Orta əsrlərdən başlayaraq Təbriz və Şamaxı xam ipək toxuculuğunun başlıca mərkəzləri kimi tanınmışdır. Şamaxı şəhəri xalçaçılığın da mərkəzi olmuş, tarixən öz xalçaları ilə şöhrət qazanmışdır. Qədim Şirvan torpağının Azərbaycanın dörd əsas xalçaçılıq məktəbindən biri olması heç də təsadüfi deyil. Şamaxının "Şirvan", "Şamaxı", "Qobustan", "Salyan", "Qəbələ", "Ərciman", "Mərəzə", "Sorsor", "Şilyan" və s. xalçaları öz kompozisiya quruluşuna və naxışlarının incəliyinə görə geniş şöhrət qazanmışdır. Şirvan xalçalarında həmçinin buta motivli bəzək ünsürləri – gülabdan buta, çiçəkli buta, bala buta, badamı buta və s. üstünlük təşkil edir [14].

Məlumdur ki, ipəkçilik Şirvan bölgəsi əhalisinin qədim və ənənəvi təsərrüfat sahələrindən biri olmuşdur. Şirvanın əlverişli təbii-coğrafi və iqlim şəraiti barama qurdunun yetişdirilməsində mühüm rol oynayır. Barama qurdunun bəslənməsi üçün bölgədə tut bağları və ya çəkilliklər geniş yayılmışdı, belə ki, qurdların yemlənməsi üçün bol tut yarpaqlarının olması həlledici amillərdən idi. İpəkçilik Şamaxı camaatının əhəmiyyətli və əsas məşğuliyyətlərindən biri olmuşdur. 1868-ci ildə Şamaxı qəzasında 600, Göyçay qəzasında isə 200 pud ipək istehsal olunmuşdu. Bu dövrdə Şirvanda sahəsi 2600 desyatin olan 3100 tut bağı salınmışdı. Burada illik ipək məhsulu 3875 pud təşkil edirdi. İpək məmulatları fabriki Şamaxıda çoxdan mövcud idi. Hələ xanlıq dövründə Şamaxıda Tarayev qardaşlarının ipək fabriki fəaliyyət göstərirdi [17, s.11-12]. Ümumiyyətlə, Şamaxıda ipək istehsalı keçmişdən günümüzə qədər mühüm əhəmiyyət daşımışdır. Şəhərdə ipək istehsalının inkişafı və bolluğu XIX əsrdə Şəkiyə xam ipək göndərilməsinə səbəb olmuşdur. Şirvan torpaqlarının əlverişli təbii coğrafi şəraiti, mülayim iqlimi, zəngin faydalı qazıntıları təsərrüfat fəaliyyətini və sənətkarlığı inkişaf etdirirdi. Bu amil isə əhalinin bolluq içərisində yaşamasına səbəb olmuşdur. XIX əsrdə Şamaxı şəhərində evlərin sayı 4972, əhalinin sayı 25,087 nəfər idi [6].

XIX əsrə aid Rusiya tarixşünaslığında Şamaxı əhalisinin məşğuliyyəti haqqında mühüm məlumatlar əldə etmək mümkündür. Şamaxı şəhər məktəbinin müdir müavininin verdiyi məlumata görə Şamaxı qəzasının bütün məskunlaşmış yerlərində torpaq və iqlim şəraiti kənd təsərrüfatının əksər sahələri ilə məşğul olmaq üçün əlverişli şərait yaratmışdır. Əkinçilik, maldarlıq Şamaxı və Ağsu rayonlarında kənd təsərrüfatının əsas sahələrindən biri olmuşdur. Rusiyada fəaliyyət göstərən, XVIII əsrin məşhur alman səyyahı S.Q. Qmelin epizodik olaraq sənətkarlıq və ticarət baxımından inkişaf etmiş Şamaxı şəhərinin adını çəkmişdir [6]. XVIII əsrin əvvəllərində Şamaxıda olmuş səyyahlar onu böyük şəhər, mühüm ticarət və sənətkarlıq mərkəzi kimi xarakterizə edirlər.

Həmin dövrdə Azərbaycanda olmuş səyyah Şamaxıda 20 karvansara, bir neçə bazar və çoxlu sənətkarlıq emalatxanalarının olduğunu yazırdı. Şamaxı şəhəri XIX əsrin əvvəllərində yalnız Rusiya

ilə deyil, İran, Türkiyə, Gürcüstan, Dağıstan və Azərbaycanın öz şəhərləri ilə sıx ticarət əlaqələri saxlayırdı. Şəhərin illik ticarət dövriyyəsi 1 mln. manatdan çox idi [11, s.92].

Böyük dağıntı və fəlakətlərə baxmayaraq xanlıqlar dövründə də Şamaxıda yaşayan əhalinin əsas məşğuliyyəti sənətkarlıq idi. Şamaxı şəhərində sənətkarların sayı haqqında az-çox məlumatlara Şamaxı xanlığı 1820-ci ildə ləğv edildikdən sonra rus məmurlarının tərtib etdiyi sənədlərdə rast gəlmək mümkündür. 1831-ci ildə Şamaxıda aparılmış kameral təsvirə görə 1110 nəfər yerli, 160 nəfər isə ayrı-ayrı kəndlərdə qeydiyyatda olan sənətkar fəaliyyət göstərirdi ki, bunların da təxminən yarısı, 615 nəfəri toxuculardan ibarət idi. Lakin sənətkarların sayı ilə bağlı mənbələrdə fərqli məlumatlara rast gəlmək mümkündür. Beləliklə, Şamaxı şəhəri XVIII əsrdə dəfələrlə dağıntılara məruz qalsa da, bir yerdən digər yerə köçürülsə də, şəhər hər dağıntıdan sonra dirçələ bilmişdi. Şəhərin iqtisadi həyatında sənətkarlıq əsas yer tuturdu. Təxmini hesablamalara görə XIX əsrin əvvəllərində Şamaxıda 2430 nəfər sənətkar yaşayırdı [11, s.93].

XIX əsrdə Şamaxı həm də Azərbaycanın muğam mərkəzlərindən biri idi. Mahmud ağa Əhməd ağa oğlu Məmmədzadə (1826-1896) bütün Qafqazda tanınmış musiqi xadimi, sənəti, şeiri, musiqini sevən, qonaqpərvər bir mesenat - incəsənət himayəçisi idi. Qafqazın bütün məşhur xanəndə və tarzənləri Mahmud ağanın məclisində iştirak edirdilər [2].

Uzun müddət Şamaxı Böyük İpək Yolunun mühüm məntəqələrindən biri hesab olunurdu. Bu onunla əlaqədar idi ki, şəhər Şirvan-Abşeron memarlıq məktəbinin və sənətkarlıq və miniatür məktəbi mərkəzlərindən biri olmuşdur. Karvan yollarının kəsişməsində yerləşən Şamaxı Yaxın Şərqin əsas ticarət və sənətkarlıq mərkəzlərindən biri olub, ipək ticarətində mühüm yer tuturdu. Burada ticarət məntəqələrinə malik olan Azərbaycan, İran, Ərəb, Mərkəzi Asiya, rus, Hindistan və Qərbi Avropa tacirləri Şamaxıda ticarətlə məşğul olur, çoxsaylı ipəkçilik, kağız əyirmə, xalçaçılıq emalatxanalarında fəaliyyət göstərirdilər [18].

Üzümçülük və şərabçılıq mərkəzlərindən biri kimi məhşur olan rayonda yerli süfrə şərabları qədimdən bəri hazırlanır və karvanlar vasitəsilə yayılır, şöhrət qazanırdı.

Adı tarixən Şərvan, Şervan, Şarvan kimi də tələffüz edilən Şamaxının ərazisi hələ orta əsrlərdə Xəzər, Dərbənd, Qəbələ, Kür çayına qədər uzanırdı. Şamaxı hələ IX – X əsrlərdə ticarət mərkəzi yolları üzərində olan mühüm dayanacaqlarından idi. XV əsrdə şəhər beynəlxalq ipək ticarətində əhəmiyyətli mövqe tuturdu. Talaman ipəyi adı ilə məşhur olan Şirvan ipəyi Asiya və Avropanın bir sıra ölkələrinə aparılırdı [12].

Şamaxı qədim zamanlardan dünya səyyahlarının diqqətini cəlb etmişdir. Belə ki, burada dünyanın ən məhşur səyyah və yazıçıları olmuş və öz təəssüratlarını qələmə almışlar. Böyük fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Şamaxıda olarkən demişdir: "*Parisdən çox-çox uzaqlarda – Şamaxıda Monteronun, Caffanın, Fontelblonun çəkdikləri portretləri, fransızca danışan adamlar gördüm. Bütün bunlar adama qeyri-adi təsir bağışlayırdı*" [15]. Şamaxıda baş vermiş zəlzələlər nəticəsində onun əhalisinin əksəriyyəti həlak olmuşduş XIX əsrin ortalarında Azərbaycana səyahət edən məşhur fransız yazıçısı Aleksandr Düma kədərlə qeyd edirdi: "*Şamaxı heç vaxt deyə bilməyəcək ki, sabah mövcud olacaq, ya olmayacaq*" [4, 13].

XVIII əsrin 2-ci yarısı Azərbaycanın sosial-iqtisadi və siyasi tarixində mühüm mərhələni təşkil edir. Feodal istehsal münasibətlərinin hakim olduğu xanlıqlar dövründə də cəmiyyətdə iki sinif: hakim feodallar və onlardan müxtəlif asılıqda olan kəndli təbəqələri mövcud idi. Xanlar hakim feodallar içərisində birinci pillədə idilərsə, bəylər, ağalar sonrakı pillədə əsas yer tuturdular. Ən ali hakim zümrə sayılan xanların xanlıq hüququ isə irsi xarakter daşıyırdı. Xandan sonra ikinci pillədə sayca daha çox olan və ali zümrənin əsas hissəsini təşkil edən bəylər dayanırdı.

Şamaxı xanlığında da kəndlilər iki təbəqəyə: rəiyyət və rəncbərə bölünürdü. Rəiyyətlər kəndlilərin çox hissəsini təşkil edirdilər. Rəiyyətlərin feodalın təhkimlisi olub – olmaması barədə tarixşünaslıqda müxtəlif fikirlər mövcuddur. Həmin fikirlərdən biri bundan ibarətdir ki, xanlıqlar yarana qədər sahibkar rəiyyəti öz istədiyi kimi bir yerdən başqa bir yerə köçürə bilməzdi [3, s.32].

Ümumiyyətlə, XIX əsrdə xanlıqların əhali yaşayan və yaşamayan torpaqlarının böyük hissəsi taxıl, çəltik və pambıq əkinlərindən ibarət iri təsərrüfatları, tut, meyvə və üzüm bağları, yay və qış otlaqları, təsərrüfat tikililəri, əkinçilik və bağçılıq alətləri, iri malqara və qoyun sürüləri, at ilxıları, xəzinə təsərrüfatından götürülən və vergi kimi yığılan müxtəlif növ kənd təsərrüfatı məhsulları xanın

daşınmaz və daşına bilən mülkiyyətini təşkil edirdi. 1820-ci il siyahıyaalma materiallarına əsasən Şamaxı xanlığında 198 kənd və 148 köçdə, 10578 oturaq kəndli və maldar ailəsi qeydə alınmışdı. Həmin 198 kənddən 137-si və yaxud 69,2% -i feodal torpaq sahibliyinin payına düşürdü ki, bu kəndlərdə bütün kəndli ailələrinin 57,5%-i və yaxud 6090 ailə yaşayırdı. Həmin kəndlərin sakinləri xan xəzinəsinə natural və pul vergiləri ödəyir və bir sıra mükəlləfiyyət yerinə yetirirdilər [1, s.27-28].

Şamaxı xanlığında kənd əhalisinin başlıca məşğuliyyəti əkinçilik idi, əsasən buğda, arpa və çəltik əkirdilər [16, s.103]. Şamaxı xanlığının xeyrinə kəndlilərdən 20-yə yaxın müxtəlif adda vergi toplanılırdı. Bunlar əsasən töycü, xərac, cüt başı malcəhət, qulluq, darğalıq idi. Şəhər əhalisi də kəndlilər kimi vergi verməli idi. Şəhər əhalisindən vergi pul və məhsulla toplanırdı [5, s.29].

Xanlığın aran torpaqlarında, həmçinin Şamaxı şəhərində və Salyanda ipəkçiliklə - barama istehsalı ilə yanaşı, tütünçülüklə məşğul olurdular. Xanlıqda 70-ə qədər tut bağı olan bəylər var idi. Nadir şah Şamaxı şəhərini dağıtdıqdan sonra bir müddət ipək istehsalı tənəzzül etdi, lakin əsrin ortalarında yenidən canlanma müşahidə olunurdu. Bu dövrdə Şamaxıda 1500 toxucu dəzgahı var idi. Şamaxıda pambıq parça istehsalı da müəyyən yer tutur, ipəkçiliklə əlaqədar olaraq boyaqçılıq xüsusilə fərqlənirdi. Şamaxıdan Salyan vasitəsilə İrana marena boyaq bitkisi aparılırdı. Xanlığın aran hissəsi dağ çayları ilə suvarılırdı. Ümumiyyətlə, aran yerlərində süni suvarma sistemindən geniş istifadə olunurdu. Şamaxı yaxınlığında Pirsaat çayından suvarma məqsədilə üç arx çəkilmişdi. Belə arxlardan Xanarxı, Qoşqar arxını xüsusilə qeyd etmək olar [3, s.34-35].

Xanlığın aran yerlərində tut bağları ilə yanaşı, meyvə bağları salınmış, burada bağçılıq və üzümçülüklə məşğul olurdular. Xanlığın Xozayurt və Sərdərin mahallarında meyvəçilik, Gürcüvan və Mədrəsə kəndlərində isə üzümçülük inkişaf etmişdi. Dağlıq hissədən fərqli olaraq, xanlığın düzənlik yerlərində qoyunçuluqla çox az məşğul olur, əsasən iribuynuzlu heyvan saxlayırdılar. Burada az da olsa dəvəçilik də inkişaf etmişdi [8, s.21].

Qeyd edək ki, Şamaxı xanlığının inzibati mərkəzlərinin sənətkarlıq baxımından inkişaf dərəcəsi ayrı-ayrı dövrlərdə şəhərlərin dağıntılara məruz qalması ilə, əhalinin köçürülməsi ilə bağlı olmuşdur. Böyük dağıntı və fəlakətlərə, köçürmələrə baxmayaraq Şamaxıda yaşayan əhalinin əsas məşğuliyyəti sənətkarlıq idi. Başqa şəhərlərdə olduğu kimi, Şamaxıda da sənətkarların cəmləşdiyi əsas mərkəz bazar və karvansaralar idi. XIX yüzilliyin əvvəllərində Şamaxı bazarlarında və karvansaralarında sənətkar emalatxanalarının sayı 500-ə çatırdı [10, s.34]. Bu dövrdə kənd sənətkarlığı da mövcud idi. Xanlıqlar dövründə kənd sənətkarlarının iri sənətkarlıq mərkəzlərinə - şəhərlərə axını getdikcə güclənirdi. Yaşadıqları yerdə istehsal etdikləri məhsullara müştəri tapmaqda çətinlik çəkən kənd sənətkarları daha çox şəhərlərdə işləməyə üstünlük verirdilər. Belə ki, Şamaxı xanlığının Elat mahalında yerləşən Bozavand kəndində qeydə alınmış 19 nəfər toxucunun hamısı Şamaxı şəhərində yaşayırdı. Həmin sənətkarların Şamaxı şəhərinə köçməsi 1760-cı ildən başlanmış, Mustafa xanın hakimiyyəti dövründə isə daha geniş miqyas almışdı. Həmin dövrdə sənətkarlığın ən geniş yayılmış növü toxuculuq idi. Xanlığın Qarasaçlı, Şıxəmir, Qazıyan, Bərgüşad və s. kəndlərində çoxlu ipəksarıyan dəzgahlar fəaliyyət göstərirdi. Şamaxı ipəyi özünün keyfiyyətinə görə digər xanlıqlarda istehsal edilən ipəkdən üstün idi. Boyaq bitkilərinin zənginliyi və toxuculuğun yüksək dərəcədə inkişafı xanlığın ərazisində boyaqçılıq sənətinin geniş yayılması üçün əlverişli şərait yaradırdı. Digər xanlıqlardan fərqli olaraq, boyaqxanalar Şamaxı xanlığının bütün ərazisində yayılmışdı. Xanlığın Qalaqayın kəndindəki boyaqxana Mustafa xanın özünə məxsus idi. Şamaxı xanlığında əhali pambıq parça toxumaqla da məşğul olurdular. Burada paltar, köynək, yorğan üzü və s. üçün bez və pambıq parçalar toxuyurdu. Xanlıqlar dövründə sənətkarlıq istehsalının aparıcı sahələrindən biri xalçaçılıq idi. Həmin dövrdə xalçaçılıq tədricən ev sənəti səviyyəsində daha çox sifariş əsasında işləyən sənət sahəsinə çevrilməyə başlanmışdı. Digər xanlıqlarda olduğu kimi Şamaxı xanlığında da xan bir çox vergiləri xalça və palazla toplayırdı. Xanlığın ərazisində geniş yayılmış sənət sahələrindən biri də gön – dəri emalı – dabbaqlıq idi. İri sənətkarlıq mərkəzləri olan Lahıcda 20, Basqalda 6 dabbaq fəaliyyət göstərirdi [10, s.105]. Sənətkarlıq mərkəzi kimi Şamaxıda isə 64 gön – dəri ustası – dabbax var idi. Dabbaxlar qoyun, keçi, inək, at dərisini aşılayırdılar.

Xanlıqlar dövründə sənətkarlığın mühüm mərhələlərindən birini metal emalı təşkil edirdi. Bu sahədə dəmirçilik, misgərlik və silah istehsalı, xüsusilə fərqlənirdi. Şamaxı xanlığında silahqayırma başlıca olaraq üç mərkəzdə - Şamaxıda, Ağsuda və Lahıcda mərkəzləşmişdi. Ağsu, xüsusilə xanlığın

paytaxtı Şamaxı şəhəri sənətkarlıq mərkəzi olmaqla yanaşı, həm də böyük ticarət mərkəzi idi. S.Solovyovun təbirincə desək Şamaxı əhalisi sanki ticarət üçün yaranmışlar, soyuq silahlar istehsalı və müxtəlif növ silahların təmiri üzrə ixtisaslaşmışdılar. Şamaxı tacirləri Ərdəbil, Rəşt, Ənzəli və İsfahanda da ticarət edirdilər Şamaxıya İsfahandan və Kaşandan pambıq və ipək parçalar – zərbaf, kaşani, şilə və s. gətirilirdi [3, s.38-39].

***Nəticə***. Beləliklə, qədim tarixə malik olan Şamaxı şəhəri əlverişli coğrafi mövqeyi ilə digər ölkələrin və dünya səyyahlarının diqqət mərkəzində olmuşdur. Şəhər qədim yaşayış mərkəzi olmaqla yanaşı, müxtəlif sənətkarlıq növlərinin də beşiyi olmuşdur. Burada ipəkçilik, xalçaçılıq, boyaqçılıq yüksək səviyyədə inkişaf etmiş, bu məhsulların ticarəti ilə məşğul olan tacirlər yetişmişdir. Şəhərin ticarət, sənətkarlıq mərkəzi olması, Böyük İpək yolunun üzərində yerləşməsi onun əhəmiyyətini artırmış, müxtəlif ölkələrdən olan tacirlər mal mübadiləsini məhz Şamaxıda aparmışlar. Nəticədə dünyada Şamaxının tarixi sənətkarlıq mərkəzi kimi şöhrəti daha da artmışdır.

## ƏDƏBİYYAT


1. Abdullayev, M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, Adiloğlu, 2005. – 231s.
2. Babayev, T., Şahbazov, T., Əmənova B. Şamaxı (etnoqrafik etüdlər) / Xalq qəzeti, 2012, 29 yanvar, s.6.
3. Bayramova, N. Şamaxı xanlığı. Bakı, – Təhsil, – 2009. – 396 s.
4. Eyyubov, E. Şamaxı – Azərbaycanın xəzinəsi: [Elektron resurs] / URL: https://azertag.az/xeber/Samaxi___Azerbaycanin_xezinesi-938116 [02.11.2022].
5. Əliyev, F.M. Şimali Azərbaycan şəhərləri. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, – 1960. – 136 s.
6. Əsədli, K. XVIII-XIX əsrlərdə Rusiya tarixşünaslığında Şirvan bölgəsinin etnoqrafik cəhətdən öyrənilməsi: [Elektron resurs] / URL: http://agsunews.az/ index.php?lang=az& sectionid=news&id=1128 [02.11.2022].
7. Fazil, Ş. Şamaxının tarixşünaslığı: [Elektron resurs] / URL: http://shamakhi-encyclopedia.az/samaxinin-tarixsunasligi/ [02.11.2022].
8. Gülmalıyev, M.M. XVIII əsrin son rübü XX əsrin I yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. – Bakı: 1989.
9. Qədim Şamaxının tarixi barədə nə bilirik? [Elektron resurs] / URL: https://portal.azertag.az/az/node/3146 [02.11.2022].
10. Mustafayev, C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. – Bakı, – 2002.
11. Mustafayev C.M. Şamaxı şəhəri XVIII əsrdə və XIX əsrin əvvəlində // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. 2005, №1, s.89-94.
12. Şamaxı: [Elektron resurs] / URL: https://aybilet.az/samaxi/ [02.11.2022].
13. Şamaxı xanlığı: [Elektron resurs] / URL: https://shamakhi-encyclopedia.az/samaxi-xanligi-2/ [02.11.2022].
14. Şamaxı şəhərinin tarixi: [Elektron resurs] / URL: https://shamakhi-encyclopedia.az/samaxi-tarixd%C9%99/ [02.11.2022].
15. Şamaxı rayonunun tarixi / Şamaxı rayon İcra hakimiyyətinin rəsmi internet səhifəsi: [Elektron resurs] / URL: http://shamaxi-ih.gov.az/az/page/11 [02.11.2022].
16. Кавказский календарь на 1847. – Тифлись: 1846. – 278 с.
17. Списки населенныхь месть Российской империи. По Кавказскому краю. LXV. Бакинская губерния. Составлен главным редактором Комитета Н. Зейдлицем. По сведениям 1859 по 1864 год. – Тифлись: 1870. – 103 с.
18. Шемаха: [Электронный ресурс] / URL: https://www.centralasia-travel.com/ru/countries/azerbaijan/sights/shemaha [02.11.2022].

**ГЮЛЬНАРА САДРАДДИНОВА**
*Научный сотрудник Научно-исследовательской лаборатории «Азербайджанцы мира: история-демография»*

## ЗАНЯТИЕ НАСЕЛЕНИЯ В ШЕМАХЕ В XIX ВЕКЕ

В статье изучен состав населения, слои населения, их род занятий, проживающих на территории Шамахи в XIX веке. Показано, что в XIX веке Шамаха приобрела большую известность как центр ханства, так и важное торгово-ремесленное поселение. Хотя Шамаха неоднократно подвергалась землетрясениям, здесь вновь развивались ремесла и торговля, и город смог возродиться, несмотря на эти стихийные бедствия. Население Шамахи больше занималось такими областями, как ковроткачество и шелкоткачество. Кроме того, в городе развито пчеловодство, виноградарство.

*Ключевые слова*: Шемаха, ремесла, шелководство, ковроткачество, население, земледелие.

**GULNARA SADRADDINOVA**
*Scientific worker of the Scientific Research Laboratory "Azerbaijanis of the world: history-demography*

## OCCUPATION OF THE POPULATION IN SHAMAKHI IN THE 19TH CENTURY

In the article, the composition of the population living in the territory of Shamakhi in the 19th century, population strata, and their occupation were studied. It has been shown that in the 19th century, Shamakhi gained great fame as both the center of the khanate and an important trade and craft settlement. Although Shamakhi was repeatedly affected by earthquakes, crafts and trade developed here again, and the city was able to revive despite these natural disasters. The population of Shamakhi was more engaged in areas such as carpet weaving and silk weaving. Besides, beekeeping and viticulture have also developed in the city.

*Keywords*: Shamakhi, crafts, sericulture, carpet weaving, population, agriculture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 noyabr 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 28 noyabr 2022-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılov, t.e.d. Qabil Əliyev.*

*Yubileylər, xatirələr*

**CƏBİ Ə.BƏHRAMOV**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitutunun icraçı direktoru, t.ü.f.d., dosent*
**djabibaxramov@mail.ru**

# AZƏRBAYCANIN YENI DÖVR TARIXININ TANINMIŞ TƏDQIQATÇISI, GÖRKƏMLİ ALIM: HACI HƏSƏNOV – 70




Qədim və zəngin tarixə malik Azərbaycan tarixinin yeni dövrü: XIX-XX əsrin əvvəlində baş vermiş ictimai-siyasi, sosial-iqtisadi və hərbi-strateji hadisələr öz xarakteri, mürəkkəbliyi və xüsusiyyətləri ilə seçilir. Bu dövr Şimali Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindın işğalı, çar üsul-idarə sisteminin tətbiqi, çarizmin bu ərazilərdə həyata keçirdiyi köçürmə siyasəti və onun nəticələri, Azərbaycan neft sənayesinin yaranması və inkişafı, çarizm tərəfindən həyata keçirilən torpaq siyasəti, Azərbaycan milli mədəniyyətinin inkişaf məsələləri, demokratik ictimai fikrin, siyasi partiyaların və təşkilatların yaranması və formalaşması, XIX əsin II yarısı və XX əsrin əvvəllərində Avropa kapitalının Azərbaycan neft sənayesində təmsil olunması və tədqiqinə çox böyük ehtiyac olan digər aktual elmi problemlərın mövcud olduğu bir dövrdür. Azərbaycan milli tarixşünaslıq elminin çox tanınmış nümayəndələri: Əlövsət Quliyev, Mahmud İsmayılov, Dilarə Seyidzadə, İsmayıl Həsənov, Tofiq Vəliyev, İradə Bağırova, Marat İbrahimov və digərləri tərəfindən tədqiq olunmuş və bu sahədə çox mühüm bir akademik elmi məktəb formalaşmışdır. Bu məktəbin uğurlu davamçılarından biri bu il oktyabr ayının 17-də anadan olmasının 70 illiyini qeyd etdiyimiz Dövlət Mükafatı Laureatı, tarix üzrə fəlsəfə doktoru, dosent **Hacı müəllim Nuru oğlu Həsənovdur**.

Hacı Nuru oğlu Həsənov 1952-ci il oktyabrın 17-də Beyləqan rayonunun Şəfəq qəsəbəsində dünyaya göz açıb. O, 1959-1967-ci illərdə Şəfəq qəsəbə 8 illik, 1967-1969 illərdə Beyləqan şəhər 1 saylı orta məktəbində orta təhsilini başa vurmuşdur. Hacı Həsənov 1970-ci ildə ADPU-nin Tarix fakültəsinə qəbul olunmuş və 1974-cü ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Qayğıkeş və müdrik ziyalı Hacı Həsənov 1981-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsinə işə qəbul olunur. Bu zaman şöbəyə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, t.e.d., prof. Mahmud İsmayılov rəhbərlik edirdi. Bir müddət keçdikdən sonra ona tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün "Azərbaycanın dövlət kəndi XIX əsrin sonu – XX əsrin əvvəllərində" mövzusunda dissertasiya mövzusu verilir və EA-nın müxbir üzvü, t.e.d., professor Mahmud İsmayılov elmi rəhbər təyin edilir. 1986-cı ildə işi uğurla başa çatdıran Hacı Həsənov onu 1987-ci ildə müvəffəqiyyətlə müdafiə etmişdir.

Görkəmli alimin elmi mühiti onun kamil bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynamışdır. Mahmud İsmayılov, Tofiq Vəliyev, Dilarə Seyidzadə, Marat İbrahimov və digər görkəmli alim həmkarların mühitində çalışan Hacı Həsənov elm naminə çəkdiyi əziyyətdən heç vaxt usanmır, axtarışlarını daim inamla davam etdirir. Hacı müəllim Həsənovun hazırladığı "Azərbaycanın kənd icması XIX-XX əsrin əvvəllərində" mövzusunda doktorluq dissertasiyası Azərbaycan tarixində tamamilə yeni mövzu olmaqla, Vətən tarixinin az öyrənilmiş, qaranlıq qalmış səhifələrin araşdırılmasından biri olmaqla, Azərbaycan milli tarixşünaslığına daxil olmuş ən sanballı tədqiqatlarındandır.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycanın XIX-XX əsrlər dövr tarixi məsələləri Vətən tarixi ixtisası üzrə olduqca aktual, çox mühüm elmi-siyasi və strateji xarakter daşıyan bir dövrdür və bu fakt da təsadüfi deyildir ki, müasir Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyev 1997-

ci il yanvarın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı institutlarının rəhbərləri ilə keçirdiyi görüşdə Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən yazılması məsələsini qaldırmış və onun icrasını Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu qarşısında qoymuşdur.

Qeyd etmək lazımdır ki, İnstitutun "Azərbaycanın yeni tarixi" şöbəsi 1947-ci ildə yaradılmışdır. Şöbəyə müxtəlif dövrlərdə akademik Ə.S.Sumbatzadə, Elmlər Akademiyasının müxbir üzvü Ə.N.Quliyev, tarix elmləri doktoru İ.M.Həsənov, tarix elmləri doktoru İ.V.Striqunov və Akademiyanın müxbir üzvü M.Ə.İsmayılov rəhbərlik etmişlər. Şöbə ölkədə tarix elminin inkişafında mühüm rol oynamışdır. 2001-ci ildən şöbəyə tarix üzrə fəlsəfə doktoru, dosent Hacı Nuru oğlu Həsənov rəhbərlik edir. Onun rəhbərliyi şöbə müdiri olaraq bütün müraciətləri layiqincə yerinə yetirən, özünün böyüklüyü və əməli işi ilə təsdiqləyən fədakar alim bu gün də "Azərbaycanın yeni tarixi" şöbəsinə rəhbərlik edir. Hacı Həsənovun rəhbərlik etdiyi güclü potensiala malik olan "Azərbaycanın yeni tarixi" şöbəsi başlıca olaraq XVIII-XX əsrin əvvəllərində (1736-1917-ci illər) Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəniyyət tarixi üzrə tədqiqatlar aparılmasında ixtisaslaşmışdır. Şöbədə tədqiq olunan problemlər arasında Azərbaycan xanlıqlarının tarixi, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı və bunun nəticələri, çarizmin köçürmə siyasəti, Azərbaycanın ərazi bütövlüyünə qarşı qəsdlər (Ə.S. Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev, H.N.Həsənov, V.U.Umudlu), kənd təsərrüfatı (Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, İ.M.Həsənov, Ə.A.Umayev, H.N.Həsənov), sənaye (Ə.S.Sumbatzadə, T.T.Vəliyev, Z.A.Qafarova), ticarət və sənətkarlıq tarixi, şəhərlər tarixi (M.Ə.İsmayılov, Ə.A.Umayev, F.N.Məmmədov, N.R.Məmmədov, İ.Q.İbrahimi, F.Ə.Tağıyev, G.N.İsmayılova), XIX əsrin sonu – XX əsrin əvvəllərində baş vermiş ictimai-siyasi proseslər (D.B.Seyidzadə, S.M.Mustafayeva), o cümlədən milli şüurun inkişafı, ictimai-siyasi təşkilatların formalaşması və onların fəaliyyəti (İ.S.Bağırova), Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımları, ölkənin milli-mədəni həyatı (D.S. Hüseynova) və başqa məsələlər əsas yer tutur. Hacı müəllim Həsənovun rəhbərlik etdiyi şöbənin elmi uğurları sırasında 3 cildlik "Azərbaycan tarixi"nin II (Bakı, 1963), VII cildlik "Azərbaycan tarixi"nin IV (Bakı, 2000) və V (Bakı, 2001) cildləri mühüm yer tutur. Hacı müəllim Həsənov yeddicildlik "Azərbaycan tarixi"nin IV və V cildlərinin bir sıra fəsillərinin müəllifi və məsul redaktorunun müavinidir. Göstərilən fundamental əsərlərlə yanaşı şöbə əməkdaşları XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın "guya geridə qalmış feodal-patriarxal ölkəsi" olması haqqında əsassız "konsepsiyanı" ifşa edərək Şimali Azərbaycanda kapitalizmin genezisi və inkişafı üzrə elmi məktəb yaratmış və onu inkişaf etdirmişlər. Qeyd etmək lazımdır ki, Hacı müəllim Həsənov təkcə öz dövrünü deyil, Azərbaycan tarixinin bütün dövrlərini mükəmməl bilməklə, dəvət olunduğu dissertasiya, kitab və məqalələrin müzakirələrində yüksək səviyyəli analitik çıxışları, dəyərli məsləhətləri ilə "canlı ensiklopediya"dır desək yanılmarıq. Hacı Həsənov həm də, ali və orta ixtisas məktəblərində tarix fənnini tədris etməklə bərabər, bir sıra yeni tarix dərsliklərinin hazırlanmasında yaxından iştirak etmiş, öz dəyərli məsləhətləri ilə tarix elmimizi zənginləşdirmişdir. Hacı Həsənova bir professional mütəxəssis kimi ən yüksək elm və təhsil qurumlarında obyektivliyinə və düzgünlüyünə görə böyük etimad göstərilmiş, uzun müddət Azərbaycan MEA Tarix İnstitutunun Elmi Şurasında, Elmi Seminarında həmişə dəyərli məsləhətləri ilə diqqəti cəlb etmişdir. O, həmçinin bir dərs vəsaiti (10-cu siniflər üçün "Yeni tarix") və ABŞ-ın Azərbaycan Respublikasında səfirliyinin dəstəyi ilə həyata keçirilmiş layihə çərçivəsində hazırlanmış"Demokratiya nədir?" adlı kitabın həmmüəlliflərindəndir. Hacı müəllim Həsənov mütəmadi olaraq respublikada və xarici ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda çox fəal şəkildə iştirak edir. O, Rusiya Federasiyasının Moskva, Sankt-Peterburq, Mahaçqala, Dərbənd, qardaş Türkiyə Cümhuriyyətinin İstanbul, Ankara, Qars şəhərlərində və digər xarici ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda etdiyi elmi məruzələr öz yüksək elmi məzmunu və qoyulan problemin aktuallığı ilə diqqəti cəlb edir. Burada bir vacib faktı da xatırlamaq yerinə düşür. Səkkiz il bundan öncə, yəni 2014-cü ilin oktyabrın 10-da AMEA A.A.Bakıxanov adına Taix İnstititutunun alimləri: t.ü.f.d., dos. C.Ə.Bəhramov, t.e.d., prof. İ.S.Bağırova, t.üf.d., dos. İ.V.Niftəliyev və o cümlədən t.ü.f.d., dos. Hacı müəllim Həsənov da Rusiya Federasiyası Dövlət Dumasının Vladimr Jirinovskinin rəhbərlik etdiyi RLDP fraksiyasının dəvəti ilə Dövlət Dumasının deputatları ilə keçirilən görüşdə iştirak edirdi. Görüş Azərbaycan-Rusiya münasibətlərinin tarıxinə və bu münasibətlərin gələcək perspektivlərinə həsr olunmuşdu. Hacı müəllim Həsənovun görüşdə etdiyi emosional və arqumentli çıxış görüşdə iştirak edən deputat və qonaqların diqqətini cəlb etmişdi. Tanınmış alim Hacı

Həsənov 19 elmi əsərin: bir neçə ümumiləşdirici və kollektiv monoqrafiyanın müəllifi və həmmüəllifidir. Onun "From the history of state peasants of Shamakhi and Geokchay districts in the late 19th – early 20th centuries" ("XIX əsrin sonu – XX əsrin əvvəllərində Şamaxı və Göyçay qəzalarının dövlət kəndlilərinin tarixindən") adlı monoqrafiyası 2022-ci ilin sentyabrında Gürcüstanın paytaxtı Tbilisi şəhərində ingilis dilində nəşr olunmuşdur. Onun 80-dən çox elmi və elmi-populyar məqaləsi respublikada və xarici ölkələrdə nəşr edilən nüfuzlu elmi jurnallarda ingilis, ispan, türk, rus və digər dillərdə nəşr olunmuşdur. Hacı müəllim Həsənovun instutda gənc elmi kadrların hazırlanmasında böyük əməyi vardır. Onun elmi rəhbərliyi ilə 13 nəfər gənc alim tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

Tarix üzrə fəlsəfə doktoru, dosent Hacı Həsənovun əməyi dövlət tərəfindən yüksək qiymətləndirmiş və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 25 may tarixli 2238 nömrəli sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Dövlət mükafatına layiq görülmüşdür. Vətənpərvər alimin elmi yaradıcılığında Qarabağ mövzusu xüsusi önəm kəsb etmişdir. Onun "Şuşanın işğalı tarixindən", "Qarabağda heç erməni yoxmuş", "Kürəkçay müqaviləsi tarixindən" və digər əsərlərində Qarabağın ictimai-iqtisadi və siyasi həyatını əks etdirməklə tariximizin qaranlıq səhifələrini işıqlandırmışdır.

Hacı Həsənov zəngin elmi fəaliyyəti ilə yanaşı, həm də çox böyük pedaqoji təcrübəyə də malikdir. Tədris proqramlarına yeni fənlər və yeni ideologiya gəldiyi vaxtda Hacı Həsənov müxtəlif ali təhsil müəssisələrində bacarıqlı pedaqoq kimi fəaliyyət göstərmiş, zəngin elmi fəaliyyəti, çoxillik pedaqoji təcrübəsi, ensiklopedik biliyi, eyni zamanda öz üzərində daim işləmək qabiliyyətinə malik alim təhsilimizin köməyinə gəlmiş və dərin məzmunlu mühazirələr oxumuşdur. O, bu gün də səriştəli pedaqoq olaraq fəaliyyətini davam etdirir və xalqımızın maariflənməsində mühüm rol oynayır. Hörmətli Hacı Həsənov cəmiyyət, elm və dövlət qarşısında, bir alim və vətəndaş olaraq üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirir və elmi fəaliyyəti hər bir alimə bir örnəkdir.

Hacı müəllim Həsənov 1992-ci ildən AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda Həmkarlar təşkilatına rəhbərlik edir və bu onun ictimai fəaliyyətinin mühüm bir hissəsini təşkil edir. Bu 30 il ərzində Hacı müəllimin təşəbbüsü ilə hər il demək olar ki, bir neçə dəfə respublika rayonlarına gəzintilər təşkil edilmiş, milli bayramımız olan Novruz bayramı və 8 Mart beynəlxalq qadınlar günü münasibətilə əməkdaşların iştirakı ilə çoxsaylı tədbirlər həyata keçirilmiş və bir çox əməkdaşların sosial məsələləri öz həllini tapmışdır.

Hacı müəllim Həsənov həm də gözəl ailə başçısıdır, oğul-qız, nəvə sahibi olan babadır.

Səmimiyyətlə söylənilən bu fikirlərin sonunda ziyalıların, həmkarlarının, tələbələrinin, yetirmələrinin, soydaşlarının qəlbində özünə böyük hörmət və nüfuz qazanmış Hacı müəllimin ömrünün bu müdriklik çağında Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun kollektivi adından anadan olmasının **70 illiyi** münasibətilə səmimi qəlbdən təbrik edir, ona ailə səadəti, uzun və mənalı ömür, möhkəm can sağlığı, həyatda və əməli fəaliyyətində daha böyük zirvələr fəth etməsini arzulayırıq!

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin**
**dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr  Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"  barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"* adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала “История и ее проблемы”:***
**TarixVeOnunProblemleri@gmail.com**

## Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the “Used literature” section 10.2-10.4.6 of the current instruction on the “Rules for writing dissertations” of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

*Çapa hazırlayanlar:* *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov*
*Tərcüməçi radaktorlar:* *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova*
*Web-redaktor:* *Bağırov Elşad Altay oğlu*

**Yığılmağa verilmişdir: 15.11.2022. Çapa imzalanmışdır: 28.11.2022.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**